AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA BİLİK FONDU

AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASININ FOLKLOR İNSTİTUTU

BAKI BEYNƏLXALQ MULTİKULTURALİZM MƏRKƏZİ

AZƏRBAYCAN RESPUBLİKASI DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ

ZAQATALA RAYON İCRA HAKİMİYYƏTİ

# AZƏRBAYCAN FOLKLORU VƏ MİLLİ-MƏDƏNİ MÜXTƏLİFLİK

*Beynəlxalq elmi-praktik konfransın*

**MATERİALLARI**

**Zaqatala, 19-20 may 2016-cı il**

## KONFRANSIN TƏŞKİLAT ŞURASI

| | |
|---|---|
| **Etibar Nəcəfov** – | Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Xidmətinin baş məsləhətçisi, fəlsəfə üzrə elmlər doktoru, professor |
| **Mübariz Əhmədzadə –** | Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı |
| **Muxtar Kazımoğlu-İmanov –** | AMEA Folklor İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü |
| **Səyyad Salahlı** – | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr müavini |
| **Oktay Səmədov** – | Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru, dosent |
| **İsaxan Vəliyev –** | Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun aparat rəhbəri, hüquq üzrə elmlər doktoru, professor |

## TƏŞKİLAT KOMİTƏSİ

| | |
|---|---|
| **Vidadi Rzayev –** | Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun Ölkədaxili layihələr sektorunun baş mütəxəssisi |
| **Atəş Əhmədli –** | AMEA Folklor İnstitutunun böyük elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru |
| **Ağaverdi Xəlil** – | AMEA Folklor İnstitutunun şöbə müdiri, filologiya üzrə fəlsəfə doktoru |
| **Elçin Abbasov –** | AMEA Folklor İnstitutunun elmi katibi, filologiya üzrə fəlsəfə doktoru |
| **Mətanət Yaqubqızı –** | AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru |
| **Vəfa Süleymanova** – | Zaqatala Rayon İcra Hakimiyyətinin başçısının müavini |
| **Zümrüd Ağakişiyeva** – | Zaqatala Rayon Mədəniyyət və turizm şöbəsinin müdiri |

## KATİBLİK

| | |
|---|---|
| **Ləman Süleymanova** – | AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi, filologiya üzrə fəlsəfə doktoru |
| **Nigar İmaməliyeva** – | AMEA Folklor İnstitutunun əməkdaşı |
| **Xatirə Hüseynova** – | Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun İnformasiya təminatı sektorunun müdiri, filologiya üzrə fəlsəfə doktoru |

**ELMİ REDAKTOR:**

**Muxtar Kazımoğlu-İmanov**
*AMEA Folklor İnstitutunun direktoru,*
*AMEA-nın müxbir üzvü*

**TƏRTİB EDƏNLƏR:**

**Ataş Əhmədli**
*AMEA Folklor İnstitutunun böyük elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru*

**Mətanət Yaqubqızı**
*AMEA Folklor İnstitutunun aparıcı elmi işçisi,*
*filologiya üzrə fəlsəfə doktoru*

**Elnarə Əliyeva**
*Azərbaycan Respublikasının Prezidenti yanında*
*Bilik Fondunun baş mütəxəssisi,*
*filologiya üzrə fəlsəfə doktoru*

**Rus dilində mətnlər üzrə məsul şəxslər:**

*fil.ü.f.d., dos.* ***Rza Xəlilov***
*fil.ü.f.d., dos.* ***Afaq Ramazanova***
*fil.ü.f.d., dos.* ***Çiçək Əfəndiyeva***
*fil.ü.f.d.* ***Vüsal Səfiyeva***
*böyük elmi işçi* ***Lalə Əliyeva***

**İngilis dilində mətnlər üzrə məsul şəxslər:**

*fil.ü.f.d., dos.* ***Vəfa İbrahimova***
*fil.ü.f.d., dos.* ***Sönməz Abbaslı***
*böyük laborant* ***Qumral Mirzəyeva***

## KONFRANS İŞTİRAKÇILARININ ÜMUMİ SİYAHISI

***Afaq Xürrəmqızı***
*AMEA Folklor İnstitutu, fil.ü.f.d., dosent*
*afagramazanova@gmail.com*

***Ağaverdi Xəlil***
*AMEA Folklor İnstitutu, şöbə müdiru, fil.ü.f.d.*
*aqaverdi@yandex.ru*

***Akif Məmmədli***
*AMEA Tarix İnstitutu, tar.ü.f.d.*
*akif.memmedli@gmail.com*

***Arizə Xudiyeva***
*Oğuz şəhər Tarix-Diyarşünaslıq Muzeyi, direktor*
*oghuz.tarixmuzeyi@mail.ru*

***Atəş Əhmədli***
*AMEA Folklor İnstitutu, böyük elmi işçi, f.ü.f.d.*
*atesehmedli@gmail.com*

***Aygün Paşayeva***
*ADPU-nun Şəki filialı, II kurs tələbəsi*
*www.sheki-ami.az*

***Bəxtiyar Tuncay***
*AMEA Folklor İnstitutu, sən.ü.f.d.*
*bextiyar.tuncay@yahoo.com*

***Dadaş Əliyev***
*AMEA Folklor İnstitutu, dissertant*
*dadashaliyev@yahoo.com*

***Elçin Abbasov***
*AMEA Folklor İnstitutu, elmi katib, fil.ü.f.d.*
*elcinabbasov@yandex.ru*

***Elçin Əhmədov***
*Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası, dosent, siyasi elmlər doktoru*
*elchin_ahmedov@yahoo.com*

***Elçin Qaliboğlu***
*AMEA Folklor İnstitutu, fil.ü.f.d.*
*elcin.qaliboglu@gmail.com*

***Etibar Nəcəfov***
*Azərbaycan Respublikası millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri Xidməti, baş məsləhətçi,*
*fəlsəfə üzrə elmlər doktoru, professor*

***Əli Süleymanov***
*AMEA Şəki Regional Elmi Mərkəzi,*
*aparıcı elmi işçi, ped.ü.f.d.*

***Əpoş Vəliyev***
*AMEA Folklor İnstitutu, fil.ü.f.d.*
*elyarvelisoy@mail.ru*

***Günay Hüseynova***
*Azərbaycan Milli Konservatoriyası, magistr*
*gyunay.guseynova.80@mail.ru*

***Hacı Abdulla***
*Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, sektor müdiri*
*haci_narimanoglu@mail.ru*

***Hüseyn İbrahimov***
*Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi,*
*Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəz, elmi katib*
*husib@mail.ru*

***Xalidə İbrahimova***
*AMEA Folklor İnstitutu, dissertant*
*xalide_1978@mail.ru*

***Xəliyyəddin Xəlilli***
*AMEA Etnoqrafiya və Arxeologiya İnstitutu, tar.ü.f.d.*
*xeliyeddin xelilli@gmail.com*

***İlhamə Qəsəbova***
*AMEA Folklor İnstitutu, fil.ü.f.d.*
*ilhame92@mail.ru*

***İlhamə Seyidova***
*Qəbələ Rayon Tarix Diyarşünaslıq Muzeyi, El sənətləri şöbəsi,*
*kiçik elmi işçi*
*xalis.muzey@hotmail.com*

***İradə Əliyeva***
*AMEA Tarix İnstitutu, elmi katib, tar.ü.f.d.*
*aliyevai@rambler.ru*

***İsaxan Vəliyev***
*Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, aparat rəhbəri,*
*hüquq elmləri doktoru, professor*
*veliev.i@inbox.ru*

***Qalib Sayilov***
*AMEA Folklor İnstitutu, fil.ü.f.d., dosent*
*qalibsayilov@mail.ru*

***Qalina Vud***
*Çexiya Respublikası, Praqa Universiteti, dissertant*
*woodsinatai@yahoo.com*

***Qumral Mirzəyeva***
*AMEA Folklor İnstitutu, dissertant*
*qumralnergiz@gmail.com*

***Kamil Adışirinov***
*AMEA Şəki Regional Elm Mərkəzi, aparıcı elmi işçi, fil.ü.f.d.*
*Shrem@mail.ru*

***Ləman Süleymanova***
*AMEA Folklor İnstitutu, fil.ü.f.d., dosent*
*lemansuleymanova@rambler.ru*

***Mahir Qəribov***
*İctimai Televiziyanın əməkdaşı, tar.ü.f.d.*
*mahirqaribov@box.az*

***Mənsur Rəhbəri***
*İran İslam Respublikası*
*yengice@gmail.com*

***Mətanət Yaqubqızı***
*AMEA Folklor İnstitutu, fil.ü.f.d., dosent*
*matanatyaqubqizi@rambler.ru*

***Muharrem Kaplan***
*Türkiyə Respublikası, Hacettepe Universiteti*
*mkaplan@qu.edu.az*

***Muxtar Kazımoğlu-İmanov***
*AMEA Folklor İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü*
*mukhtarkazimoglu@gmail.com*

***Mübariz Əhmədzadə***
*Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı*
*mail@zaqatala-ih.gov.az*

***Nail Qurbanov***
*AMEA Folklor İnstitutu, fil.ü.f.d., dosent*
*nailqurbanov.79@mail.ru*

***Nigar İmaməliyeva***
*AMEA Folklor İnstitutunun əməkdaşı*
*nigar.imamaliyeva@mail.ru*

***Nizami Muradoğlu***
*AMEA Folklor İnstitutu, fil.ü.f.d., dosent*
*nizamimurad@gmail.com*

***Oktay Səmədov***
*Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun icraçı direktoru, ped. e.ü.f.d., dosent*
*oktay.samedov@mail.ru*

***Oleq Danakari***
*"Orayin" Udi Mədəniyyət Mərkəzinin rəhbəri*
*udi-Orayin@mail.ru*

***Reyhan Məcidova***
*AMEA Şəki Regional Elmi Mərkəzi, baş laborant*
*mecidova.reyhan@mail.ru*

***Robert Mobili***
*Alban-Udi xristian dini icmasının sədri*
*argomobili@rambler.ru*
*www.udi.az*

***Rza Xəlilov***
*AMEA Folklor İnstitutu, şöbə müdiri, fil.ü.f.d., dosent*
*rzaxelil@gmail.com*

***Sahibə Paşayeva***
*AMEA Folklor İnstitutu, böyük elmi işçi*
*psahiba@mail.ru*

***Sevil Atayeva***
*Qəbələ rayon Nic qəsəbəsi, müəllim*

***Sevinc Mahmudova***
*"Orayin" Udi Mədəniyyət Mərkəzinin əməkdaşı*
*sevinc.mahmudova@gmail.com*

***Şakir Albalıyev***
*AMEA Folklor İnstitutu, fil.ü.f.d., dosent*
*albaliyevshakir@rambler.ru*

***Şəfəq Mahmudova***
*AMEA Şəki Regional Elmi Mərkəz, baş laborant*
*sefeq1973@mail.ru*

***Türkan Musayeva***
*Azərbaycan Milli Konservatoriyası, magistr*
*shoray@mail.ru*

***Ulduz Mürşüdova***
*AMEA Şəki Regional Elmi Mərkəzi, aparıcı elmi işçi, fil.ü.f.d.*
*ulduzshirin@gmail.com*

***Vəfa Süleymanova***
*Zaqatala Rayon İcra Hakimiyyətinin*
*başçısının müavini*
*mail@zaqatala-ih.gov.az*

***Vidadi Rzayev***
*Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu Ölkədaxili layihələr sektorunun baş mütəxəssisi*
*rzayev1956@bk.ru*

***Vüsalə Kərimli***
*AMEA Folklor İnstitutu, böyük laborant*
*vusalekerimli@gmail.com*

***Yusif Rzayev***
*Oğuz Rayon İcra hakimiyyətində YYÇİ və HMÜ Komissiyası, məsləhətçi-psixoloq*
*yusifrza1951@mail.ru*

***Zümrüd Ağakişiyeva***
*Zaqatala rayon Mədəniyyət və Turizm Şöbəsinin müdiri*
*zaqatala-medeniyyet@mail.ru*

***Zümrüd İbrahimqızı – Mənsimova***
*AMEA Rəyasət Heyəti, İctimai Elmlər Bölməsi, elmi katib, fil.ü.f.d.*
*zumrudibrahimqizi@gmail.com*

## PLENAR İCLASDA EDİLƏN MƏRUZƏLƏR

**Mübariz Əhmədzadə**
**Zaqatala Rayon İcra Hakimiyyətinin başçısı**
**Azərbaycan, Zaqatala**

## MÜHÜM ƏHƏMİYYƏTLİ TƏDBİR

Hörmətli tədbir iştirakçıları, əziz zaqatalalılar! Azərbaycanın dilbər güşələrindən biri və qızıl güllər diyarı olan Zaqatalada sizi bir daha salamlayır və hər birinizə qızıl gül təravəti, can sağlığı arzulayıram. Bilirsiniz ki, Zaqatalada belə möhtəşəm tədbirlərin keçirilməsi ilk növbədə Zaqatalalıların bu tədbirlərə həssas yanaşması və orada fəal iştirak etməsi ilə bağlıdır.

Bu gün keçirilən tədbirimiz də əhəmiyyətinə görə seçilir. Çünki bu tədbir bir deyil, bir neçə strukturu əhatələyir. Belə ki, Prezident yanında Bilik Fondu, AMEA Folklor İnstitutu, Mədəniyyət və Turizm Nazirliyi, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsi, o cümlədən Zaqatala RİH-inin birgə təşkilatçılığı sayəsində bu gün bu tədbir burada həyata keçirilir.

Təşkilatçı qurumların konfransda iştirak edən rəsmi nümayəndələrini sizlərə təqdim edirəm: Bilik Fondunun aparat rəhbəri İsaxan Vəliyev, Folklor İnstitutunun direktoru, AMEA-nın müxbir üzvü Muxtar İmanov, Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin sədr müavini Səyyad Salahlı. Bir neçə xarici ölkədən, o cümlədən qardaş Türkiyədən gəlmiş nümayəndə də bu gün keçirilən konfransımıza qatılmışdır. Məlumat üçün deyim ki, həmçinin iyirmiyə yaxın xalqın nümayəndəsi bu konfransda iştirak edir. Konfransımızın işinə uğurlar, iştirakçılarına isə can sağlığı arzulayıram!

Hər birimiz bilirik ki, 10 yanvar 2016-cı il tarixində 2015-ci ilin (sosial həyatının) yekunları ilə bağlı keçirilən tədbirdə Cənab Prezident 2016-cı ili «Multikulturalizm ili» elan etdi. Həmin ayın 11-də (yəni 2016-cı ilin yanvarında) Cənab Prezident "Multikulturalizm ili" ilə bağlı tədbirlər planını və qarşıda duran vəzifələri bir daha bəyan etdi.

Azərbaycan özünün multikultural dəyərlərə münasibəti ilə hər zaman, istər sovetlər dönəmində, istərsə də ondan sonrakı dönəmlərdə seçilmişdir. Özəlliklə, müstəqillik dönəmində Ulu öndərimizin bilavasitə rəhbərliyi altında bu sahəyə daha artıq diqqət yetirilməyə başlanıldı. Azərbaycanın əsas sakinləri Azərbaycan türkləri olsa da, müxtəlif millətlərin nümayəndələri – o cümlədən tatlar, talışlar, avarlar, ləzgilər, ingiloylar və bir sıra xırda xalqların nümayəndələri burada birgə, yəni multikultural şəraitdə yaşayır, bir-birlərinə can deyib, can eşidirlər. Çıxışımın əvvəlində də qeyd etdim ki, yanvar ayında Cənab Prezident sərəncam imzaladı və 2016-cı ili «Multikulturalizm ili» elan etdi. Bu, bir daha Ulu öndərimizin layiqli davamçısının, onun həqiqi varisinin multikultural dəyərlərə olan münasibətini göstərir. Çünki həmin andan etibarən bu sahəyə diqqət daha da dərinləşdi və bu hərəkat geniş vüsət aldı.

Bizim dilbər guşəmiz olan Zaqatalanın özü elə multikultural dəyərlərin ifadəsi üçün bariz bir nümunədir. Bariz bir nümunə dedim, ona görə ki, Zaqatalada ümumən 126 min əhali yaşayır ki, onların da 68% Azərbaycan türkləri, 21%-i avarlar, 10% saxurlar və 1%-i də müxtəlif xalqların nümayəndələrindən ibarətdir. Hələ ki, bu günkü günə qədər problemsiz və söz-söhbətsiz onlar Zaqatalada güzəran keçirirlər. Azərbaycanın bu sahədəki inkişafında, mən deyərdim ki, Zaqatala modeli ən önəmli yerdədir. Bu ideyanın daha da inkişaf etdirilməsi üçün məkan kimi Zaqatalanın seçilməsi heç də təsadüfdən olmamışdır. Buranı ona görə seçmişik ki, (bayaq dediyim kimi) burada millətlər bir-birilə olduqca mehriban şəraitdə yaşayırlar. Bu da ondan qaynaqlanır ki, onlar ünsiyyətdən başqa, həm də bir-biriləri ilə qohumluq əlaqələrinə girmiş, bir-birilərinə qız verib, qız almışlar. Azərbaycanlı avarla, avar saxurla, saxur azərbaycanlı ilə qohum olmuşdur və yüzlərcə belə qarışıq ailələri misal gətirmək olar. İndi də onlar bir-birlərinin xeyrində, şərində yüksək səviyyədə iştirak etməkdədirlər. Bu məkanda sən avarsan, sər saxursan, sən ləzgisən kimi yanaşmalar olmayıb və ümid edirik ki, bundan sonra da olmayacaqdır. Multikulturalizm elə bir böyük mövzudur, dəyərdir ki, bu sahədə saatlarla danışmaq olar, amma mövzu tükənməz. Odur ki, vaxtın da darlığını nəzərə alıb, bugünkü tədbiri açıq elan edirəm və sözü çox hörmətli Muxtar müəllimə verirəm.

**Muxtar Kazımoğlu – İmanov**
**AMEA-nın müxbir üzvü,**
**AMEA Folklor İnstitutunun direktoru**
**Azərbaycan, Bakı**

# MİLLİ-MƏDƏNİ MÜXTƏLİFLİK BAXIMINDAN ZƏNGİN BÖLGƏLƏRİMİZDƏN BİRİ

Hörmətli sədr, hörmətli konfrans iştirakçıları, əziz zaqatalalılar!

Multikulturalizm dediyimiz anlayışın təbliği ilə yanaşı, onun öyrənilməsinə də zəruri ehtiyac var. Və bizim konfransımız həmin ehtiyacdan irəli gəlir. Multikulturalizmin təbliği və öyrənilməsi istiqamətində bizdə müxtəlif qurumlar fəaliyyət göstərir. Bunlardan ən möhtəşəmləri Respublika Prezidenti yanında Bilik Fondu və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzidir. Deyim ki, bu sahədə yeni-yeni qurumlar da yaradılmaqdadır. AMEA Rəyasət Heyətinin qərarı ilə Fəlsəfə İnstitutunda “Multikulturalizm” şöbəsi yaradılıb, Folklor İnstitutunda isə hələ 2012-ci ildə yaradılmış “Azsaylı xalqların folkloru” bölməsi əsasında xüsusi şöbə fəaliyyətə başlayıb. Bir çox ali məktəblərdə multikulturalizmlə məşğul olan bölmələr var və həmin bölmələrin başlıca işlərindən biri multikulturalizm sahəsində dərs vəsaitləri hazırlamaq və multikulturalizmi ayrıca proqram kimi tədris etməkdir. Multikulturalizm termini yeni bir termin olsa da, onun ənənəsi çoxdan Azərbaycanda mövcuddur. Xalq mədəniyyətində bu ənənə əsrlərcə davam edib. Akademik Kamal Abdullanın sözləri ilə desək, multikulturalizm azərbaycanlıların canında, qanındadır. Multikulturalizmin folklorda hansı səviyyədə özünü göstərdiyini bizim bu konfransdakı məruzəçilərimiz aydınlaşdırmağa çalışacaqlar.

Multikulturalizm xalq mədəniyyətində çox aşkar şəkildə özünü göstərdiyi kimi, bu mədəniyyətin alt qatlarında da özünü büruzə verə bilir. Xalq yaradıcılığında dünya mütəfəkkirlərinə dərin ehtiram vardır. Xalq ədəbiyyatında başqa dinlərin müqəddəslərinə ehtiram hissi həmişə özünü bariz şəkildə göstərib. Məsələn, İsa Məsih adına təkcə bədii ədəbiyyatımızda deyil, həmçinin real həyatda geniş miqyasda rast gəlirik. Bizdə İsa geniş yayılmış şəxs adıdır. Bizdə İsalı, Məsihli adlarında kəndlər var. XVII əsrdə yaşamış şairlərimizdən biri özünə Məsihi təxəllüsü götürüb. Aşıq ədəbiyyatımızda İsa Məsihlə bağlı xüsusi motivlər və obrazlar meydana gəlib. İstər yazılı ədəbiyyatımızda, istərsə də aşıq ədəbiyyatında xristian dini ilə bağlı səciyyəvi obrazlardan biri tərsa qızı obrazıdır. Aşıq şeirlərində ara-sıra rast gəldiyimiz tərsa qızı obrazı dastanlarımızdan birinin baş qəhrəmanıdır. Yaxşı bilirsiniz ki, söhbət “Əsli-Kərəm” dastanından gedir. Bəli, bu dastanda tərsa qızı Əslinin adı müsəlman oğlu Kərəmin adından əvvəl çəkilir. Dini ayrı-seçkilikdən doğan qadağa və çətinliklər Kərəmin Əsliyə sevgisinin qarşısını ala bilmir. Klassik poeziyamızda, eləcə də aşıq ədəbiyyatında tərsa qızına, ümumiyyətlə, başqa dinlərə mənsub gözəllərə məhəbbət öz kökü etibarilə sufizm fəlsəfəsinə gedib çıxır. Sufizm fəlsəfəsinə görə, gözələ məhəbbət Allaha məhəbbət deməkdir. Gözəlin hicri ilə əzablar çəkmək Allahın hicri ilə əzablar çəkmək deməkdir. İnsana bu cür ilahi bir ucalıqdan baxan sənətkar üçün sinfi və dini ayrı-seçkilik öz mənasını itirir və sənətkar dinindən və milli mənsubiyyətindən asılı olmayaraq insanları yer üzünün əşrəfi kimi qiymətləndirir. Hadisələrə mənəvi yüksəklikdən qiymət verməyi bacaran sənətkar məhəbbət mövzusunu geniş miqyasda götürür, fərdə məhəbbəti bütövlükdə həmin fərdin mənsub olduğu dinə və xalqa məhəbbət kimi təqdim edir. Aşıq Alının misralarını yada salmaq istəyirəm. Aşıq Alı deyir:

*Nakəs adam bu dünyada çox olar,*
*Mərd igidin gözü-könlü tox olar.*
*Qonşunu yox istəyən özü yox olar,*
*Onunçün aləmi var istər könlüm.*

Aşıq Alının “Könlüm” rədifli bu qoşmasında bir misra multikultural dəyərlər baxımından diqqəti xüsusi olaraq cəlb edir: “Qonşunu yox istəyən özü yox olar”. Bu misra məşhur bir atalar sözünü yada salır: “Yaxın qonşu uzaq qohumdan yaxşıdır”. Aşıq Alının ayrıca qeyd etdiyim misra-

sında və xatırladığım atalar sözündə “qonşu” sözü, heç şübhəsiz, “qonşu xalq” mənasında da başa düşülə bilər və o cür də başa düşülməlidir. Bəli, qonşu xalqlara hörmət və ehtiram Azərbaycan xalqının əsrlərdən bəri davam edib gələn mənəvi dəyərlərindən biridir və həmin dəyərin bu gün nə qədər qorunub saxlandığını Şəki-Zaqatala bölgəsinin timsalında qabarıq şəkildə görmək olar.

Müxtəlif xalqların mehribancasına yaşadığı Şəki-Zaqatala bölgəsinin zəngin folklor ənənəsi vardır. Tənburun – qopuzun canlı varisi olan bu musiqi alətinin geniş şəkildə ifa olunduğu Şəki-Zaqatala bölgəsində toplama işləri və araşdırmalar aparmaq təxirəsalınmaz vəzifələrdəndir. Yeri gəlmişkən deyim ki, Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu bu istiqamətdə müəyyən işlər görüb və görməkdədir. İnstitut Şəki folklor örnəklərindən ibarət çoxcildlik çap etdirməkdədir. İnstitut, Zaqatala bölgəsinin folklor nümunələrini əks etdirən ayrıca antologiya buraxıb. İnstitutda “Azsaylı xalqların folkloru” bölməsi yarandıqdan sonra ayrı-ayrı bölgələrimizdə, eləcə də Şəki-Zaqatala bölgəsində azsaylı xalqlara məxsus folklor nümunələrinin toplanıb tədqiq olunması daha geniş miqyas alıb. Biz toplama materialları əsasında “Azsaylı xalqların folkloru” seriyasından kitablar nəşr etməyə başlamışıq. Həmin seriyadan nəşr etdiyimiz kitabın 1-ci cildi məhz Şəki-Zaqataladan toplanmış folklor nümunələrinə həsr olunub. Kitabın toplayıcısı və tərtibçisi Folklor İnstitutunun əməkdaşı, sizin həmyerliniz Mətanət Yaqubqızıdır. Mətanət xanım sizin bölgədən azsaylı xalqlara məxsus folklor nümunələrini toplamaqla kifayətlənmir, o həmçinin topladığı nümunələrin multikultural dəyərlər baxımından araşdırılması ilə də ardıcıl surətdə məşğul olur. Mətanət xanımın yenicə çapdan çıxan monoqrafiyası bunun əyani sübutudur. Həmin monoqrafiya belə adlanır: “Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm (Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəkləri əsasında)”. Biz bu kitabı digər kitablarla yanaşı, sizə hədiyyə edirik.

Toplama işindən söz düşmüşkən, bir məsələni sizlərin qarşısında xüsusi vurğulamaq istəyirəm. Vurğulamaq istədiyim məsələ folklorşünaslarla yerli təşkilatlar və yerli ziyalıların əməkdaşlığı məsələsidir. Yerli təşkilat dedikdə mən ilk növbədə Rayon İcra Hakimiyyətini nəzərdə tuturam. Rayonda mədəni-quruculuq işlərinin yüksək səviyyədə aparılması və bu konfransın yüksək səviyyədə təşkil olunması əsas verir ki, Zaqatala Rayon İcra Hakimiyyəti ilə daha sıx əlaqələr quraq və xalq mədəniyyətinin öyrənilməsi və təbliğ olunmasında həmin əlaqələrin verdiyi imkanlardan səmərəli şəkildə istifadə edək. Söz yox ki, yerli ziyalılar, o cümlədən azsaylı xalqları təmsil edən yerli ziyalılar yaşayıb-fəaliyyət göstərdikləri bölgəni biz paytaxtda yaşayanlardan daha yaxşı tanıyırlar və yerli folklor biliciləri ilə daha sıx ünsiyyətdə ola bilirlər. Yerli ziyalıların bölgəyə ezam olunan folklorşünaslara yaxından bələdçilik etməsi folklor nümunələrinin toplanması işinə çox böyük fayda verə bilər. Mən sizi – Şəki-Zaqatala ziyalılarını bizimlə əməkdaşlığa çağırıram.

**Səyyad Salahlı (Aran)**
**Dini Qurumlarla İş Üzrə Dövlət Komitəsinin sədr müavini**
**Azərbaycan, Bakı**

# TOLERANTLIĞIN AZƏRBAYCAN NÜMUNƏSİ

Çox hörmətli cənab başçı, hörmətli konfrans iştirakçıları, əziz zaqatalalılar. Mübariz müəllim təbii və çox haqlı olaraq sözü qızılgüllə başladı. Belə götürsək, Azərbaycan rayonlarının hər biri qızılgülə bənzəyir, amma hamısı bir dəst halında, buket halında daha gözəldir. Azərbaycan bu xüsusiyyətinə görə məhz dünyada məşhurlaşıb və hazırda böyük diqqət mərkəzindədir. Gəlin sizin də tez-tez eşitdiyiniz iki sözün izahına nəzər salaq: tolerantlıq və multikulturalizm. Tolerantlıq əslində dözümlülük mənasını kəsb edən sözdür. Qarşındakı adama fikri, əqli, əxlaqi, mənəvi, psixoloji mənada dözmək. Yəni, ona hörmətlə yanaşmaq, qulaq asmaq və eyni zamanda qarşındakı adamın da sənə hörmətlə yanaşması və sənin fikirlərinə mənəvi dözümlülüyünü nümayiş etdirməsidir. Multikulturalizm isə hərfi mənada dinlər zənginliyidir, siyasi mənada mədəni müxtəlifliyin idarə edilməsi üçün siyasi sistemə verilmiş addır. Bu da o anlama gəlir ki, ən müxtəlif dinlərin nümayəndələri bir kənddə, yaxud bir bölgədə yanaşı, mehribancasına yaşaya bilir. Nəinki yaşayır, həm də bir-birlərinin zənginliklərindən istifadə etməklə eyni məkanda birgə yaşam tərzi və hüququna sahib olurlar. Bax, budur multikulturalizm!

Bilirsiniz ki, Azərbaycanda 2016-cı il Möhtərəm Prezident tərəfindən «Multikulturalizm ili» elan olunmuşdur. Bu, bizim dünyaya çıxan ən parlaq özünüifadə tərzimizdən biridir. Azərbaycanda bir çox millətlərin nümayəndələrinin yaşaması ilə bərabər üç əbədi və bəşəri səmavi dinin üçünün də burada məbədgahları vardır. Və bu dinlərin nümayəndələrinin Bakıda, ümumiyyətlə Azərbaycanda heç vaxt qarşıdurması olmayıb. Bu fakt dünyanı heyrətə gətirir. Faktla bağlı gəlin Təzə Pir məscidinin yerləşdiyi əraziyə diqqət çəkək. Həmin ərazidən 200 metr aşağıda Jen Mironosets kilsəsi, ondan da 700 metr aşağıda Yəhudi sinaqoqu fəaliyyət göstərir. Azərbaycanda bundan başqa krişnalılar, Provoslav dininin müxtəlif qolları fəaliyyət göstərir ki, nə bu qurumlar arasında, nə də onların nümayəndələri arasında heç vaxt qarşıdurma olmayıb. Bununla dünyaya göstəririk ki, biz sülh xalqıyıq, torpağımızda yaşayan millətlərin ənənəsinə, milli mənsubiyyətinə toxunmadan onlarla bir yerdə yaşamağı bacarırıq. Buyurun, gəlin Azərbaycana, görün bu xalqlar necə mehribanlıqla bir yerdə yaşayırlar.

Keçən il komitəmizin dəstəyi ilə Amerikanın Los Ancelos şəhərinin Sinay sinoqoqundan Devid Volpenin başçılığı altında 50 nəfər nümayəndə Azərbaycana gəlmişdi. Onlar təxminən 10 gün Azərbaycanda qaldılar və çox böyük heyrət içində öz vətənlərinə döndülər. Qayıtdıqdan sonra Los Ancelosun məşhur qəzetlərinin birində “Tolerantlıq oazisi” adlı böyük bir yazı ilə çıxış etdilər. O anlamda ki Qərb, həm də müsəlman ölkəsi sayılan bu məmləkətdə yəhudilərə münasibətdə tolerantlığımızı görmüşdü!

Hələ eramızdan əvvəl IV əsrdə Babil hökmdarı Novuxodonosor İudeya çarlığını darmadağın etdi. Həmin dövrdə 250 min yəhudi əsir götürülmüşdü. Qalanları isə dünyanın bir çox ölkələrinə səpələndilər (o cümlədən Azərbaycan deyilən əraziyə). Düz 2600 ildir ki, bu ərazidə yəhudilər yaşayır. Bundan başqa, 2000 ildir ki, pravoslavlar, 1300 ildir müsəlmanlar ölkəmizdə sakindirlər. Heç vaxt Azərbaycanda adlarını çəkdiyimiz xalqların arasında qarşıdurma olmayıb. Hazırda Bakının ortasında erməni kilsəsinin qorunub saxlanılması bunu deməyə əsas verir. Və ya Şəkidə, Qaxda və s. yerlərdə Alban kilsələrinin bu günədək fəaliyyət göstərməsini bu anlamda misal gətirmək olar. Qeyri-müsəlmanların ibadət etdiyi həmin abidələr xalqımız tərəfindən çox hörmətlə və tariximizin parlaq nümunələri kimi qorunur. Azərbaycan bu xüsusiyyətilə bütün dünyaya nümunədir və ölkəmizə gələn dünya liderləri azərbaycanlıların bu xarakterinə heyran qalırlar.

Papa II İohan Pavel vaxtilə Azərbaycana gələrkən buradakı dini plüralizmin və multikultural dəyərlərin necə yüksək səviyyədə olduğunu görərək heyranlığını bildirmişdi. O demişdir: “Azərbaycanda dinlər arasında mövcud tolerantlıq və dözümlülük münasibətləri dünyanın bir çox ölkələri

üçün yaxşı nümunə ola bilər". Papa ilə gələn yüzlərlə agentliklərin jurnalistləri bunu bütün dünyaya bəyan etdilər.

II Aleksi Azərbaycanda olarkən dedi ki, burada pravoslavlar heç bir sıxışdırılmaya məruz qalmadan öz dinlərinə və əqidələrinə etiqad edirlər. Hətta bu cür şərait təəssüf ki, bəzi pravoslav ölkələrində belə yoxdur.

O cümlədən Rum patriarxı (İstanbul) I Vorfolomey yurdumuza ziyarəti zamanı haqqımızda bunları demişdir: "Azərbaycanda hər kəs istədiyi dinə etiqad edir, istədiyi kimi ibadət edə bilir. Azərbaycanı çox sevirəm. Bu ölkənin xoşbəxtliyi və rifahı üçün hər zaman dua edəcəyəm".

Beləliklə, biz mental xüsusiyyətimizdən irəli gələn humanizmi və ölkəmizdə yaşayan qeyri-islami xalqlara olan səmimi münasibətimizi ortaya qoyuruq. Bununla da düşmənlərimizin haqqımızda söylədikləri yalan və böhtanların nə qədər əsassız olduğunusübut edirik.

Yəqin hələ bilməyənləriniz var ki, Azərbaycan multikulturalizmi deyilən fənn hazırda dünyanın 16 ölkəsində tədris olunur. Avropada, MDB-də, Orta Asiyada və digər Qərb ölkələrində. Bu, Azərbaycan həqiqətlərini dünyaya bəyan edən ən yeni fənlərdən biridir.

Bilik Fondu həm də qış-yay məktəbləri deyilən maraqlı bir tədbirin təşkilatçısıdır. Prosesdə dünyanın müxtəlif ölkələrindən tələbələr Azərbaycana gəlir, Azərbaycan mədəniyyəti, tarixi, ədəbiyyatı və s. sahələrdə olan zənginlikləri ilə tanış olur, həmin şəxslər eyni zamanda Azərbaycandan öz vətənlərinə buradan əldə etdikləri biliklərlə qayıdırlar. Şübhəsiz, bu tədbirin keçirilməsində Zaqatalanın seçilməsi təsadüfdən olmayıb. Əvvəla, Allah-Təala bu bölgədən heç bir gözəlliyini əsirgəməyib. İkincisi, bu torpağın nümayəndələri bu diyarın çiçəklənməsi üçün öz bacarıqlarını heç zaman əsirgəmirlər. Mən işimlə əlaqədar bu bölgəyə tez-tez gəlirəm. Xatırlayıram ki, yarım il əvvəl burada olarkən şəhərin hər yerində təmir -tikinti işləri gedirdi. Demək olar ki, hər yer qazılmışdı, çoxlu inşaat layihələrinə start verilmişdi. İndi isə burda olduğum vaxtda o səliqəsizliklərdən əsər-əlamət görmədim. Bütün bunlara görə başda Mübariz müəllim olmaqla hamınıza təşəkkür edirəm. Və sizə daha parlaq, gözəl günlər arzulayıram!

İndi də başqa bir məqamın üzərinə gəlmək istəyirəm. Zaqatalada ən müxtəlif xalqların nümayəndələri yaşayır. Hamımızı birləşdirən də məhz Ulu Öndərdən bizə miras qalmış Azərbaycançılıq ideyasıdır. Vəzifəmizdən, sinfi, dini mənsubiyyətimizdən, məsuliyyətimizdən asılı olmayaraq, biz ilk öncə azərbaycanlıyıq. Azərbaycan bütövlükdə bizim vətənimizdir. Eyni zamanda buradakı ən müxtəlif millətlərin nümayəndələri Azərbaycanı özlərinə vətən hesab edir və bu ölkəni dərin məhəbbətlə sevirlər. Bu unikal bir hadisədir. O anlamda ki, ən müxtəlif millətlərin nümayəndələri bir yerdə yaşasın, aralarında söz-söhbət olmasın! Doğrudan da unikal bir xüsusiyyətdir!

Bizim məqsədimiz nədir?! Biz azad, sərbəst, müstəqil yaşamaq uğrunda kurs götürmüşük və bunu Ulu Öndər Azərbaycan xalqına əbədilik vəsiyyət edib. Ölkə özünün xoşbəxt gələcəyinə doğru inamla irəliləyir. Məlumdur ki, sovetlər dağıldıqdan sonra bir çox respublikalarda yenidənqurma adı altında cürbəcür hadisələr oldu. O cümlədən millətlərarası münaqişələr başladı, qanlı qırğınlar törədildi. Biz də süni şəkildə yaradılmış Dağlıq Qarabağ problemi ilə sınağa çəkildik. Bu bizim sürətli inkişafımızı bir qədər zəiflətsə də, onun qarşısını tamamilə ala bilmədi.

Dövlətimiz problemin həlli yollarında durmadan səy göstərir. Prezident İlham Əliyevin dövlətimiz və xalqımız qarşısındakı əziyyəti hədər getmədi. İki-beş aprel hadisələri bunu bir daha isbatladı. Azərbaycan reallıqlarını dərk etdikcə dünya artıq Azərbaycana tətbiq etdiyi ikili standartlardan geri çəkilməyə başlayıb. Bizim isə dünyaya mesajımız budur – Gəlin bu konfliktləri sülh yolu ilə həll edək. Əks təqdirdə Azərbaycan xalqı öz hüquqlarını müdafiə etməkdə sərbəstdir: həm dünya hüquq qaydalarına uyğun olaraq, həm də ölkəmizin hüququ qaydalarına əsaslanmaqla gec-tez bunu həyata keçirəcəyik!

Bu gün artıq bilirsiniz ki, danışıqlar masası ətrafında diqtə edən tərəf Azərbaycandır. Dağlıq Qarabağa yardım etməyə çalışan bir çox ölkələr prezidentimizin qəti etirazı ilə qarşılaşdılar. Və bu təşəbbüsdə olanlar həmin andan geri çəkildilər. Çünki Azərbaycan suveren ölkədir. Onun toxunulmazlığı BMT-də təsbit olunub. Hazırda hadisələrin inkişafını müəyyənləşdiririk və bu haqda ictimaiyyəti vaxtaşırı məlumatlandırırıq.

Azərbaycan dövləti talışı, ləzgisi, avarı, tatarı, rusu, ukraynalısı və s. xalqların bir yerdə olduğu təqdirdə güclüdür, qüdrətlidir. Eyni zamanda tolerant ölkədir, multikulturalizmin ən böyük bayraqda-

rıdır. Bu gün dünyanın bir çox ölkələri bu xüsusda bizdən öyrənməkdədirlər. Çünki onlar belə bir strategiyaya sahib deyillər. Baxın, dünyanın ən qədim dövlətçilik ənənəsi olan İngiltərəyə. Onların baş naziri bəyan edib ki, ümumiyyətlə multikulturalizmin vaxtı keçib və həmin dəyər hazırda ingilislər üçün səciyyəvi deyil. Əcaib münasibətdir. Londonda, ümumiyyətlə İngiltərənin hər yerində ən müxtəlif millətlərin nümayəndələri – ərəblər, hindistanlılar, pakistanlılar ticarətdən tutmuş siyasətə qədər Böyük Britaniyanın bütün sahələrində fəaliyyət göstərirlər, özü də yüksək fəallıqla. Ziddiyyətli məsələdir, elə deyilmi?! Ya onlar bunu boyunlarına almırlar, ya da bu sahədə təcrübələri yoxdur. Azərbaycan necə multikultural ölkə olduğunu artıq dünyaya sübuta yetirib. Onun bariz bir nümunəsi bugünkü Zaqataladır. Dövlətimizin siyasətinin necə dəstəkləndiyini biz Zaqatalada yaşayan müxtəlif millətlərin simasında aydın şəkildə görürük. Tutduğunuz bu yolda sizə böyük nailiyyətlər arzulayıram!

**İsaxan Vəliyev**
**hüquq üzrə elmlər doktoru, professor,**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Bilik Fondunun aparat rəhbəri**
**Azərbaycan, Bakı**

## VİCDAN AZADLIĞININ HÜQUQİ QAYNAQLARI

Hörmətli konfrans iştirakçıları, Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondu, Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu, Zaqatala rayon İcra Hakimiyyəti, Mədəniyyət və Turizm Nazirliyi və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin təşkilatçılığı ilə keçirilən bu tədbirdə iştirak edən şəxsləri Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, akademik Kamal Abdullayevin və Bilik Fondu rəhbərliyi adından salamlayır və konfransın işinə uğurlar arzulayıram.

Bugünkü konfransın ölkəmizin ən gözəl guşələrindən biri olan Zaqatalada keçirilməsi heç də təsədüfi deyildir. Bu, bir neçə amillə şərtləndirilir: hər şeydən əvvəl, Zaqatala bir çox millətlərin adət-ənənələrini özündə əks etdirən multikultural diyardır, digər tərəfdən, burada müxtəlif dinlərə etiqad edən, muxtəlif etnik mənsubiyyətə malik olan insanlar məskunlaşmışlar. Başqa bir səbəb isə bu məkanda müxtəlif mədəniyyətləri və dini inancları olan şəxslərin qarşılıqlı harmoniyada yaşamasıdır. Məndən öncə çıxış edən məruzəçilər diqqəti müxtəlif mədəniyyətlərə malik millətlərin tolerant mühitdə yaşamasına diqqəti cəlb etdilər. Bu səbəbdən də mən bu məsələ üzərində çox dayanmayacağam. Düşünürəm ki, hamınız cənab Prezident İlham Əliyev tərəfindən 2016-cı ilin "Multikulturalizm ili" elan edilməsi ilə əlaqədar imzalanmış Sərəncam barədə məlumatlısınız və multikulturalizm sözünün leksikonumuza yeni daxil olmasına baxmayaraq, Azərbaycan xalqının multikultural dəyərlərə həmişə önəm verməsi barədə kifayət qədər bilgiyə maliksiniz. Mən çıxışımda multikulturalizmin əsas istiqamətlərindən biri olan vicdan azadlığını hüquqi müstəviyə gətirməklə bəzi məsələlərə diqqətinizi cəlb etmək istəyirəm.

Ölkəmiz uzun müddət keçmiş Sovet Sosialist Respublikaları İttifaqı adlanan böyük bir dövlətin tərkibində olduğundan, vicdan azadlığına münasibət, din və dövlət münasibətləri heç də həmişə normal olmamış, əksinə ölkədə qanunvericilik səviyyəsində dövlətin dindən ayrılması və dini işlərə müdaxilə etməməsi deklorativ şəkildə də olsa bəyan edilməsinə baxmayaraq, ateizm təbliğatı aparılmış, bəzi dinlərə, o cümlədən islam dininə münasibətdə diskriminasiya halları mövcud olmuş, nəinki yeni ibadət yerlərinin tikintisinə yol verilməmiş, hətta bir çox hallarda məscidlərin təyinatı üzrə istifadəsi qadağan edilmişdir. Odur ki, qanunvericiliyimizdə din və dövlət münasibətlərinin hüquqi tənzimlənməsinin tarixinə qısa da olsa, nəzər salmağı məqsədəmüvafiq hesab edərdim.

Azərbaycan SSR-in ilk – 1921-ci il Konstitusiyasının 4-cü maddəsində zəhmətkeşlərin həqiqi vicdan azadlığının təmini üçün məscidin dövlətdən, məktəbin məsciddən ayrılması və vətəndaşların dini və anti-dini təbliğat aparmaq hüququ təsbit edilsə də, bu, tamamilə formal xarakter daşımışdı. Azərbaycan SSR-nin ikinci – 1927-ci il Konstitusiyasının 6-cı maddəsində vicdan azadılığı demək olar ki, ilk Konstitusiyamızın 4-cü maddəsində olduğu məzmunda müəyyən edilmişdir. Ölkəmizin 3-cü – 1937-ci il Konstitusiyasının 131-ci maddəsində isə bəyan edilmişdi ki, Azərbaycan SSR-də vətəndaşların vicdan azadlığını təmin etmək məqsədilə din dövlətdən və məktəb dindən ayrılmışdır. Bütün vətəndaşlar dini ayinləri icra etməkdə və din əleyhinə təbliğat aparmaqda azaddırlar.

Sovetlər Birliyi dövründə qəbul edilmiş sonuncu Konstitusiyamız (1978-ci il) Azərbaycan SSR-in 1921-ci il, 1925-ci il və 1937-ci il Konstitusiyalarının ideya və prinsiplərinin varisliyi və SSR-nin 1977-ci il 7 oktyabr tarixli Konstitusiyası əsasında qəbul edildiyindən ölkə vətəndaşlarının vicdan azadlığı, yəni hər hansı dinə etiqad etmək və ya heç bir dinə etiqad etməmək, dini ayinləri icra etmək və ya ateizm təbliğatı aparmaq hüququnun təmin olunması, dini etiqadla əlaqədar ədalət və nifrət oyatmağın qadağan edilməsi, məscid və kilsənin dövlətdən, məktəbin məscid və kilsədən ayrılması şəklində təsbit olunmuşdu. Vicdan azadlığı məsələsi ilk dəfə olaraq memarının ümummil-

li lider Heydər Əliyev olduğu və 1995-ci ildə referendum yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan dövlətinin Konstitusiyasında öz hüquqi təsbitini tapmışdır.

Məhz bu Konstitusiyada vicdan azadlığı məsələsinin dövlət və din münasibətləri ilə bağlı olan əsas məsələlərdən biri olduğu gündəmə gətirildi. Konstitusiyanın 48-ci maddəsində vicdan azadlığı hüququnun məzmunu əks etdirilərək o; a) hər kəsin dinə münasibətini müstəqil şəkildə müəyyənləşdirmək; b) insan və vətəndaşın hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək; c) hər kəsin təkbaşına və ya başqaları ilə birlikdə heç bir dinə etiqad etməmək; d) şəxsin dinə münasibəti ilə bağlı əqidəsini ifadə etmək və yaymaq hüququnun olması şəklində təsbit edilmişdir.

İlk baxışdan elə görünür ki, vicdan azadlığı hüququnun sərhədləri mövcud deyildir və heç bir çərçivə ilə məhdudlaşdırılmamışdır. Lakin araşdırmalar göstərir ki, qanunvericilik bu hüququn da hüdudlarını müəyyənləşdirmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsinin 2-ci hissəsinə əsasən, insan ləyaqətini alçaldan və insanpərvərlik prinsiplərinə zidd olan dinlərin (dini cərəyanların) yayılması və təbliği qadağandır.Bu, vicdan azadlığı hüququnun sərhəddini müəyyən edən birinci hüduddur. İkinci hüdud Konstitusiyanın 58-ci maddəsinin 3-cü hissəsi ilə müəyyənləşdirilmişdir. Maddədə dini mərasimlərin yerinə yetirilməsi ictimai qaydanı pozmursa, ictimai əxlaqa zidd deyilsə, sərbəstdir.

Konstitusiyanın müəyyən etdiyi 3-cü hüdud 48-ci maddənin 4-cü hissəsində öz əksini tapmışdır. Göstərilmişdir ki, dini etiqad və əqidə hüquq pozuntusuna bəraət qazandırmır. Başqa sözlə desək, dini etiqad və əqidə o ölçüdə azaddır ki, həmin səviyyədə azadlıq digərlərinin hüquqlarının pozulmasına gətirib çıxarmır. Ən nəhayət, vicdan azadlığı hüququnun sərhədlərindən birini də Konstitusiyanın 48-ci maddəsinin 5-ci hissəsi müəyyən etmiş və qeyd edilmişdir ki, heç kəs öz dini etiqadını və əqidəsini ifadə etməyə (nümayiş etdirməyə, dini mərasimləri yerinə yetirməyə və ya dini mərasimlərdə iştirak etməyə məcbur edilə bilməz.

Konstitusiya qanunvericiliyinə etdiyimiz bu qısa ekskurs belə nəticəyə gəlməyə əsas verir ki, Sovet hakimiyyətinin ilk illərində vicdan azadlığı hüququ ilə bağlı əsas məsələ dinin, kilsənin (məscidin) dövlətdən ayrılması ilə əlaqədar olmuş və deklorativ xarakter daşımışdır. Müstəqillik dövrünün Konstitusiyasında isə bu məsələyə yeni münasibət sərgilənmiş, vicdan azadlığı hüququ nəinki bəyan edilmiş, həm də onun təminatı ön plana çəkilmiş, hər kəsin dini etiqadını reallaşdırması üçün maksimum şərait yaradılmışdır.

Ölkəmizdə vicdan azadlığının təmin edilməsinə yönələn normativ-hüquqi aktlar sırasında 20 avqust 1992-ci ildə qəbul edilən "Dini etiqad azadlığı haqqında" qanun da xüsusi yer tutur. Qanun dövlət və dini qurumlar, din və məktəb, dini icma, dini idarə və mərkəzlər, dini təhsil, dini qurumların dövlət qeydiyyatına alınması, onların ləğvi, dini qurumların mülkiyyəti, istehsal və təsərrüfat fəaliyyəti, dini ayin və mərasimlərin keçirilməsi, ümumiyyətlə, din və onunla əlaqəli olan təsisatlar arasında olan münasibətləri təfərrüatı ilə tənzim edir. Əslində, bu qanun ulu öndərin birbaşa təşəbbüsü ilə aparılan əlavə və dəyişikliklərdən sonra multikulturalizmin əsas prinsiplərini özündə əks etdirən dini tolerantlıq nümunəsinə çevrilmişdir.

Qanuna əsasən, Azərbaycan Respublikasında fəaliyyət göstərən bütün dini qurumlar bərabər hüquqa malikdirlər. Dövlət bu qanunla onlar üçün, hətta bəzi güzəştli şərtlər də müəyyən etmişdir. Qanunun 16-cı maddəsinə əsasən dini qurumlar dini təyinatlı binaların yerləşdikləri ərazi ilə birlikdə onlara verilməsində üstünlük hüququna malikdirlər. Dini qurumların qəbul etdikləri ianələr üzərində vergi qoyulmur, Dini qurumların işçilərinin sosial sığortası "Sosial sığorta haqqında" Azərbaycan Respublikasının Qanunu, pensiya təminatı "Əmək pensiyaları haqqında" Azərbaycan Respublikasının Qanunu ilə tənzimlənir, islam dininə aid ayin və mərasimlərin aparılması yalnız Azərbaycan Respublikasının vətəndaşları tərəfindən həyata keçirilə bilər. Xaricdə dini təhsil almış Azərbaycan Respublikasının vətəndaşlarına islam dininə aid ayin və mərasimlərin aparılması qadağandır. Qanunun 21-ci maddəsinə əsasən, qoşun hissələrinin komandanlığı (müstəsna hallardan başqa) hərbi qulluqçuların boş vaxtlarında ibadət etmələrinə və dini ayinləri yerinə yetirmələrinə mane ola bilməz. Əsgəri bölmələrdə hərbi rəhbərliyin razılığı ilə ruhanilərin fəaliyyətinə yol verilir və s.

Dünya təcrübəsində, bəlkə də, yeganə hallardan biridir ki, ölkəmizdə dövlət tərəfindən müxtəlif dini konfesiyaların bərabər hüquqlu fəaliyyətinin təmin edilməsi üçün maksimum şərait yaradılır, hətta onlara maddi yardım göstərilməsi istiqamətində də müəyyən addımlar atılır (2016-cı ildə döv-

lət başçısı tərəfindən dini konfesiyalara bu məqsədlə 1,8 mln.manat vəsait ayrılmışdır), dini etiqad məkanları dövlət vəsaiti hesabına təmir edilir, yeni ibadətgahlar tikilir, müxtəlif dini konfesiyaların ən yüksək vəzifəli şəxsləri dini bayramları birlikdə qeyd edirlər. Məhz dövlət tərəfindən aparılan uğurlu siyasətin nəticəsidir ki, 1995-ci ildən başlayaraq, müstəqil Azərbaycan ərazisində milli və dini zəmində bir dənə də olsun cinayət hadisəsi qeydə alınmamış, multikulturalizm cənab Prezident İlham Əliyevin apardığı siyasətin prioritet istiqamətlərindən birinə – Azərbaycan xalqının həyat tərzinə çevrilmişdir.

Diqqətinizə görə sağ olun.

# BİRİNCİ BÖLMƏ
*Etnoslararası dialoq və uzlaşmada ənənəvi dəyərlərin rolu*

**Ağaverdi Xəlil, filologiya üzrə fəlsəfə doktoru,**
**AMEA Folklor İnstitutunun şöbə müdiri,**
**Azərbaycan, Bakı**

## MULTİKULTURAL ŞƏRAİTDƏ ORTAQ DƏYƏRLƏR

***Açar sözlər:*** *Azərbaycan, multikulturalizm, mədəniyyət, ənənə, dəyər*
***Ключевые слова:*** *Азербайджан, мультикультурализм, культура, традиция, ценность.*
***Key words:*** *Azerbaijan, multiculturalism, culture, tradition, value*

Azərbaycan mədəniyyətinin zənginlik qaynaqlarından biri kimi multikkultural dəyərlərin öyrənilməsi sürətlə müasirləşən və qloballaşan cəmiyyətin humanist ehtiyatlarının aktivləşdirilməsi və populyarlaşdırılması imkanlarının və şəraitinin müəyyənləşdirilməsi baxımından olduqca aktualdır. Azərbaycan bütövlükdə və ayrı-ayrı bölgələr üzrə multikultuaral dəyərlərlə zəngindir. Burada həm etnik, həm də dini multikultural faktorlar mövcuddur və bu baxımdan cəmiyyət multikultural şəraitdə ortaq dəyər konseptlərini təbii şəkildə qoruyub, yaşadıb.

Azərbaycanda Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin də qeyd etdiyi kimi, multiklulturalizm problemi yoxdur. Bu o deməkdir ki, cəmiyyət multikultural dəyərlərə zənginlik kimi baxır və onu qiymətləndirir.

Multikultural dəyərlərin yaranması və formalaşması prosesinə baxdığımız zaman onun dörd əsas faktorla şərtləndiyini görürük:

1. Qlobal faktor
2. Sivilizasiya faktoru
3. Milli faktor
4. Lokal faktor

Bu faktorların hər biri cəmiyyətdə dəyər formalaşdırır. Beləliklə, cəmiyyət dəyərlərlə zənginləşir və əlvanlıq qazanır. Eyni zamanda cəmiyyətin istehsal etdiyi bu dəyərlər arasında uyğunlaşma, qaynayıb-qarışma baş verir. Belə bir harmoniya olmadığı halda multikultural mədəniyyətdən deyil, onun problemlərindən bəhs etmək lazım gəlir.

Multikulturalizmin siyasətdə, hüquqda və dövlət idarəçiliyində daha erkən tətbiq olunduğu qərb ölkələrində ağıl, fərdin azadlığı və insan haqları əsas ideal sayılmaqdadır. Multikulturalizm burada mədəniyyət müxtəlifliyini tənzimləyən vasitələrin məcmusunu özündə ehtiva edir. Bu tənzimləmə prosesində hüquq da, siyasət də, ictimai-mədəni münasibətlər də iştirak edir. Qərb daha çox multikultural məsələni hüquqla həll etməyə çalışır. Amma yenə də müxtəlif mədəniyyət daşıyıcıları arasında uyuşmazlıqlar yarana bilir. Bu uyuşmazlıqlar hüququn və ictimai münasibətlərin boşluğuna düşəndə ziddiyyətli məqamlar, konfliktlər meydana gəlir. Qərb sivilizasiyasına aid cəmiyyətlərdə müşahidə olunan birinci tip konflikt milli və lokal səviyyələr arasında baş verir. İkinci tip konflikt isə lokal cəmiyyətin qeyri-qərb sivilizasiyasına aid olması ilə əlaqəli yaranır. Bir fərq yaradan məsələ də ideallara və dəyərlərə münasibətdə fərdilik və kolletivlik məsələsidir. Hüquq və fərdi həyat dəyərləri və idealları bir, bu dəyərləri və idealları saymayan kollektivlik isə ikinci münasibət forması kimi Qərb multikultural dəyərlərinin içində yer tutur.

Multikulturalizmin Qərbdə keçdiyi yola qısa nəzər salsaq görərik ki, Qərb multikulturalizmində fərdiyyətçilik və kollektivlik maarifçilik epoxasından sonra yaranmış və özündə ağıl, zəka, fərdi azadlıq və insan haqlarını nəzərdə tutmuşdur. XVIII əsrin sonu, XIX əsrin əvvəlləri üçün şəhər burjuaziyasının fərdi elitası yaranır. Liberal-demokratik dəyərlər formalaşır və bu dəyərlərin içərisində insan həyatı yüksək dəyər qazanır. XIX əsrin sonlarında sosialist, nasionalist, nasional-sosialist kollektiv cəmiyyətlər meydana gəlir (**1**). Sivilizasiyadaxili qərb multikulturalizmi sivilizasiyaların toqquşması şəraitində postmodern epoxanın tələbləri ilə müəyyənləşir. 1960-cı illərin sonlarından başlayaraq cəmiyyətdə mədəni fərqlilik artmağa başlayır. Bu prosesin əsas səciyyəsi ondan ibarətdir ki, 1970-ci illərdən başlayaraq azlıqlar "tolerantlıq"lıqdan "etiraf" olunmaq mübarizəsinə keçirlər

(**1,20**). Yəni azlıqlar artıq öz mədəni haqlarını tələb etməyə başlayırlar. Bu dövrdə aşağıdakı lokal qruplar meydana gəlir: Milli azlıqlar, imiqrantlar, etnokonfessional qruplar, miqrantlar, afroamerikanlar, feministlər, əlillər, seksual azlıqlar. Bu qruplar multikultural bir sfera formalaşdırır və öz haqq və hüquqlarını tələb edirlər.

Multikulturalizm dar mənada mədəniyyət müxtəlifliyinin hüquqi aspektləri və dövlət idarəsi institutlarını nəzərdə tutur. Bu yanaşmanın vətəni Kanadadır. 1969-cu ildə Kanadada fransız dili dövlət statusu alır. Beləliklə, dövlət siyasətində multikulturalizm başlanmış olur. Avstraliyada aborigenlərin hüquqlarının müdafiəsi ilə bağlı yaranan problem mültikulturalizm məsələsini gündəmə gətirir. ABŞ-da kütləvi miqrasiyalar multikulturalim məsələsinin aktuallaşmasına səbəb olub. "Pozitiv diskriminasiya" yoxsul qrupları nəzərdə tutur.

Fransa və Almaniyada "siyasi millət" və "etnik millət" anlayışlarının dixotomiyasında multikulturalizmə baxılır. Almaniya daha çox "etnik millət" modelinə üstünlük verir. Hər iki ölkədə multikultural millət fenomeninin yaranması problemi ciddi ideoloji maneələrlə qarşılaşır (**5; 6,185**).

Məsələyə Azərbaycan reallığında baxdığımız zaman mədəni müxtəlifliyin rəngarəngliyi ilə qarşılaşırıq. Bilirik ki, multikultural dəyərlərin qorunması, yaşadılması və gələcək nəsillərə çatdırılması, cəmiyyətin gələcək inkişafının mənəvi ehtiyatlarının təmin edilməsi müasir dövrün aktual problemlərindən biridir. Dünyada gedən qloballaşma və elmi-texniki tərəqqi, mədəniyyət paradiqmalarının dinamik artımı, differensiallaşma prosesləri, dəyişmə və şəkillənmələr müasir cəmiyyətə öz təsirini göstərir. Belə təsirlər mədəni dəyərlərin mühüm bir qismini sosial təcrübənin passiv hissəsinə doğru sıxışdırır, insanların müasir həyatında multikultural dəyərlərin iştirakının azalmasına səbəb olur. Bu özünü multikultural dəyərlərin formalaşmasında rolu olan xalqların folklor-etnoqrafik nümunələrində göstərir. Azərbaycan cəmiyyətinin gələcək mədəni inkişafının harmonikliyini təmin etmək üçün respublika ərazisində yaşayan müxtəlif xalqların milli-mənəvi ehtiyatlarının da milli mədəni inkişafın mənəvi dinamikası üçün səfərbər edilməsi Azərbaycan humanitar elmləri, o cümlədən folklorşünaslıq elmi qarşısında duran aktual məsələlərdən biridir.

Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu gün də Azərbaycan dövləti tərəfindən uğurla həyata keçirilən multikulturalizm siyasəti mədəni quruculuq strategiyasının prinsiplərinə uyğun olaraq cəmiyyətin modernləşməsi prosesində milli köklərə bağlılıq və milli özünəməxsusluğun qorunması çox aktual sayılan məsələ kimi qəbul edilib. Tarixi təcrübə də birmənalı şəkildə sübut edir ki, istənilən cəmiyyət ortaq milli-mənəvi və mədəni kökləri üzərində yeniləşə bilər.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev Azərbaycanın polietnik tərkibini gələcək mədəni inkişafın zəngin mənəvi qaynağı kimi azərbaycançılıq ideyasında aydın ifadə etmişdir:" Azərbaycançılıq öz milli mənsubiyyətini qoruyub saxlamaq, milli-mənəvi dəyərlərini qoruyub saxlamaq, eyni zamanda onların ümumbəşəri dəyərlərlə sintezindən, inteqrasiyasından bəhrələnmək və hər bir insanın inkişafının təmin olunması deməkdir". Bu ideyanı müasir Azərbaycan cəmiyyətinin mədəni inkişaf strategiyasının əsas nüvəsi kimi təqdim edən Azərbaycan Respublikası Prezident Administrasiyasının rəhbəri akademik Ramiz Mehdiyev məsələnin konseptual istiqamətləri ilə yanaşı, onun tətbiqi yollarının araşdırılmasının zəruriliyini də ayrıca qeyd edir:"Azərbaycan millətinin formalaşması təcrübəsinin vahid, bütöv sosial-siyasi orqanizm kimi onun tərkibinə daxil olan bütün etnoslar kontekstində öyrənilməsi humanitar elmimizin qarşısında duran ən mühüm vəzifədir".

Müasir tarixi şəraitdə müstəqilliyini əldə etmiş dövlətlər qloballaşma şərtləri daxilində sosial-mədəni inkişafa və total modernləşməyə milli köklərə bağlılığı təmin etməklə nail ola bilər. Bu sırada multikultural dəyərlərin qorunması, öyrənilməsi və müasir tarixi şəraitdə cəmiyyətdə onun yerinin dəqiq müəyyənləşdirilməsi strateji əhəmiyyət daşıyan problem kimi qarşıda durur.

O cümlədən, Azərbaycan mənəvi mədəniyyətində xüsusi yeri və çəkisi olan multikultural resursların qorunması, təbliği və gələcək nəsillərə itkisiz və zədəsiz çatdırılması ilə yanaşı, onun sosial-mədəni, folklor-etnoqrafik, kulturoloji və s. aspektlərdə daha geniş öyrənilməsi olduqca ciddi aktuallıq kəsb edir. Həmin prosesdə AMEA Folklor İnstitutu üzərinə düşən vəzifəni yerinə yetirmək istiqamətində önəmli addımlar atır və Azərbaycan multikulturalizminin folklor-etnoqrafik qaynaqlarının araşdırılması və qorunması işinin təşkilində aktiv iştirak edir. Azərbaycanlı adlanan xalqın içində çoxluq təşkil edən Azərbaycan türkləri ilə yanaşı, türk mənşəli Mesxeti türklərinin, axıskalıların, tatarların, Qafqaz mənşəli avarların, ləzgilərin, darginlərin, saxurların, Şahdağ qrupuna daxil

olan xınalıqların, buduqların, haputların, qımılların, Alban mənşəli udilərin, İber-Qafqaz mənşəli gürcülərin, ingiloyların, İran mənşəli tatların, talışların, dağlıların, lahıcların, kürdlərin, slavyan mənşəli rusların, malakanların, yəhudi mənşəli dağ yəhudilərinin, assimliyasiya olmuş ərəblərin, Hind-Avropa mənşəli qaraçıların və s. azsaylı xalqların nümayəndələri də vardır. Bunlar dini mənsubiyyətinə görə müsəlmanlardan, xristianlardan və iudaistlərdən ibarətdir. Belə azsaylı xalqlar Azərbaycanın Şirvan bölgəsində (ləzgilər, tatlar, malakanlar, yəhudilər və s.), Şəki-Zaqatala bölgəsində daha çox etnik əlvanlıq yaradır. Burada avarların, saxurların, darginlərin, ingiloyların birlikdə yaşadığı multikultural şərait formalaşmışdır. Bu şəraitin mənəvi həmrəyliyi gücləndirən əsası ortaq dəyərlərin aktiv olması və dinamik inteqrasiyasıdır. Bütün ənənəvi mədəniyyət resursları bölgə xalqlarını ortaq mədəniyyət daşıyıcısına çevirmişdir. Belə ortaq dəyərlərə malik olmaq cəmiyyəti milli həmrəyliyə və sabit inkişafa doğru aparan əsas faktorlardan biridir.

Müasir dövrdə hər bir dövlət üçün ölkəsindəki xalqların və ya milli dövlət daxilində fərqli dil, din və mədəniyyət xüsusiyyətləri ilə mövcud olan qruplara hansı səviyyədə yanaşılması, bu kateqoriyaya kimlərin daxil edilməsi, mədəniyyət siyasətinin müəyyənləşdirilməsi zamanı onun əsaslarının hazırlanması və tətbiqi ciddi bir problem təşkil etməkdədir.

Bu məsələ uzun bir zaman ərzində Azərbaycan üçün də həllini tapmamış bir məsələ olaraq qalmışdır. Dil, mədəniyyət və milli-mədəni birliyin əsasları ilə Azərbaycan xalqının canlandırılması və Azərbaycan mədəniyyəti ilə şəkilləndirilməsinin araşdırılması işi, demək olar ki, aparılmamışdır.

Azərbaycan əhalisinin 95%-indən çoxunun Azərbaycan türklərinin təşkil etdiyi bir ölkədir. Azərbaycanın bölgələri ənənələrin qorunduğu və folklor nümunələrinin zəngin olduğu canlı qaynaqdır. Bu qaynaq ənənənin fasiləsizliyini və mədəniyyətin müxtəlifliyini təmin edən xüsusi folklor resurslarına malikdir. Azsaylı xalqların folklorunun səciyyəsi həm də onun etnik (Qafqaz, alban, iran, ərəb, slavyan, yəhudi və b.) və dini (müsəlman, xristian, iudaist) müxtəlifliyi ilə şərtlənir. Belə zəngin və rəngarəng folklor arealının yaşatdığı ənənələr, qeyri-maddi mədəniyyət nümunələri indiyə qədər sistemli şəkildə toplanmamış və araşdırmalardan kənarda qalmışdır.

Bu səbəblə tarixi-mədəni prosesin yenidən təhlili və müasir azsaylı xalqlara baxışlar daxilində və azərbaycanlı şəxsiyyətinin birləşdirici xüsusiyyətini nəzərə alan və Azərbaycan milli bütövlüyünün qorunmasını əsas götürən və onu pozmağa imkan verməyən uyğun bir azlığın öyrənilmə metodunu Azərbaycanda yaşayan xalqların folklorunun öyrənilməsinə tətbiq etmək, azsaylı xalqların folklor fondunu və müasir aktiv minimumunu müəyyənləşdirmək və onların folklor antologiyalarını hazırlamaq lazımdır.

Azərbaycanda yaşayan etnik azlıqların folklor nümunələri XIX əsrin sonlarına doğru Rusiya İmperiyasının təşkil etdiyi ekspedisiyalarla qismən toplanmış və natamam şəkildə təqdim edilmişdir. Belə nümunələrə SMOMPK məcmuəsində və digər rusdilli nəşrlərdə rast gəlirik.

Azərbaycan dövlətinin multikulturalizm strategiyasının əsas konsepti Azərbaycanı vahid orqanizm kimi onun tərkibinə daxil olan bütün etnoslar kontekstində öyrənilməsinə əlverişli şərait yaradır. Bu şəraitdə Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu olaraq bizim üzərimizə düşən vəzifə Azərbaycanda yaşayan bütün xalqların, o cümlədən azsaylı xalqların folklorunu öyrənməkdir. Çünki Azərbaycan folkloru Azərbaycanda yaşayan bütün xalqların vahid mənəvi dünyasını, milli-mənəvi dəyərlər sisteminin bütövlüyünü və tamlığını əks etdirir. Bütün mənəvi dəyərlər folklorda birləşir və vahid milli ideya üçün möhkəm mənəvi təməl yaradır. Bu mənada, folklorun Azərbaycanda yaşayan bütün xalqlar kontekstində öyrənilməsi milli ideyanın mənəvi əsaslarının tam və geniş şəkildə öyrənilməsi deməkdir. Bununla biz folklorda qorunan mənəvi resursları milli mədəniyyətin kənar hücumlardan, daxili zəifləmə və dağılmadan qorumaq üçün səfərbər edə, onu ictimai həyatımızın aktiv hissəinə daxil edə bilərik. Çünki Azərbaycan folkloru Azərbaycan ərazisində yaşayan bütün etnosların tarixi-mədəni təcrübəsinin və yaratdığı dəyərlərin vəhdətini əks etdirir.

İndi bizim qarşımızda duran əsas məsələlərdən biri milli mənəvi sağlamlığın möhkəmləndirilməsi, sosial immunsistemin gücləndirilməsi naminə Azərbaycan folklorunu onun bütün etnik-lokal xüsusiyyətləri, təzahürləri və qarşılıqlı əlaqələri ilə birlikdə öyrənmək, folklorda ifadə olunan mənəvi dəyər komponentlərinin milli vəhdət ideyasına, birliyə və bütövlüyə xidmət edən funksional imkanlarını araşdırmaq və əldə etdiyimiz nəticələrin tətbiqi imkanlarını müəyyənləşdirməkdir. Bu işi həyata keçirmək üçün yaxın və uzaq hədəfləri müəyyən etmək, Azərbaycanda yaşayan xalqların bü-

tün nümayəndələrinin folklor-etnoqrafik resurslarını ardıcıl şəkildə öyrənərək onu sistemli hala gətirməkdən və ortaq dəyər konseptlərini mümkün vasitələrlə populyarlaşdırmaqdan ibarətdir.

**Xülasə**

Məqalədə Azərbaycanın multikultural reallığının səciyyəvi xüsusiyyətləri və tarixi-mədəni əsasları araşdırılır. Multikultural şəraitdə dəyərlərin ortaqlaşmasını şərtləndirən faktorlar öyrənilir.

**Резюме**

В статье исследуются специфические особенности мультикультуральной реальности Азербайджана и их историко-культурные основы. Изучаются факторы, обусловливающие общие ценности при мультикультуральных условиях.

**Summary**

In the article the characteristic peculiarities and historical-cultural basis of Azerbaijan multicultural reality are investigated. The factors arranging the community of values in multicultural condition are studied.

**Ədəbiyyat:**

1. Вевьерка М. Формирование различий // Социс. Социологические исследования: Научный и общественно-политический журнал . – М. : Наука, 08/2005 . – N8 . – С.13-24
2. Кимлика У. Современная политическая философия. Введение. М.: ВШЭ, 2007.
3. Липкин А.И. К вопросу о понятии “национальной общности” и его применимости к России // ПОЛИС (Политические исследования) 2008, вып. 6, с. 113 –129.
4. Малахов В. Зачем России мультикультурализм? // Мультикультурализм и трансформация постсоветских обществ / Под ред. В.С. Малахова и В.А. Тишкова, М., 2002 с. 48-60)
5. Семененко И. (2008) Интеграция инокультурных сообществ в развитых странах // сб. ст. «Управление государством: Проблемы и тенденции развития. Политическая наука: Ежегодник 2007» (М.: РОССПЭН, 2008
6. Kivisto P. (2002) Multiculturalism in a Global Society. Oxford.

**Zümrüd Mənsimova f.ü.f.d.**
**AMEA-nın İctimai Elmlər Bölməsi, elmi katib,**
**Azərbaycan, Bakı**

# ZAQATALA AŞIQLARININ YARADICILIĞINDA AZƏRBAYCANÇILIQ VƏ MULTİKULTURAL DƏYƏRLƏRİN ƏKSİ

***Açar sözlər:*** *multikulturalizm, azərbaycançılıq, azsaylı xalqlar, Aşıq Mədət, el şairi, dastan*
***Ключевые слова:*** *мультикультурализм, Азербайджанство, малочисленные народы, Ашиг Мадат, поэт, дастан*
***Key words:*** *multiculturalism, Azerbaijanism, national minorities, Ashıg Medet, national poet, epos.*

Xalqımızın Ümummilli lideri Heydər Əliyevin söylədiyi "Hər bir xalqın milli mənsubiyyəti onun qürur mənbəyidir. Mən fəxr edirəm ki, Azərbaycanlıyam!" ifadəsi bu gün hər bir vətənpərvər, qeyrətli ölkə vətəndaşının həyat prinsipinə çevrilmişdir.

Ümummilli liderimizin qoyduğu ənənələri layiqincə davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı ilin "Multikulturalizm ili" elan olunması ilə bağlı 11 yanvar 2016-cı il tarixli Sərəncamından Zaqatalada kompakt halında yaşayan müxtəlif xalqların sevinclərinə bir pay düşdü.

Bu sərəncamın imzalanması yalnız Zaqatalada yaşayan azsaylı xalqlar üçün deyil, Azərbaycanın müxtəlif ərazilərində Quba, Qusar, Lənkəran, Masallı ərazisində yaşayan, müxtəlif xalqların mədəniyyətinin, folklorunun tarixinin, dilinin, ədəbiyyatının, müasir ictimai-siyasi durumunun daha geniş şəkildə öyrənilməsi, araşdırılması baxımından böyük faydası var. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin söylədiyi kimi «Multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, xalqların nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar».

Çoxmədəniyyətliliyin sinonimi kimi izah olunan multikulturalizm bir siyasət modeli kimi ilk dəfə Kanadada meydana gəlmişdir. İlk növbədə irqindən, dinindən, dilindən mədəniyyətindən, adətindən irəli gələn ümumbəşəri, beynəlmiləl dəyərləri özündə etiva edir. Bu gün müxtəlif mədəniyyətə malik Azərbaycan multikulturalizmini öyrənmək, onun müxtəlif təbəqələrini açmaq, bölgələrimizdə kompakt halında yaşayan azsaylı xalqların həyat tərzində araşdırmaq, Azərbaycan elminin əsas prioritet istiqamətlərindəndir. Azərbaycan multikulturalizminin formalaşmasında dinin rolu danılmazdır və sosial hadisə olaraq din, tarixi təkamül prosesində Azərbaycan multikulturalizminin rəngarəng laylarında öz izini qoymuşdur. «Multikulturalizm və tolerantlıq tarixən azərbaycanlıların həyat tərzi olmuş, bu gün isə milli kimliyindən, dilindən, dinindən asılı olmayaraq, Azərbaycan dövlətinin hər bir vətəndaşının gündəlik həyat tərzinə çevrilmişdir» deyən ölkə Prezidentinin çağırışları yerinədüşən və əsaslıdır. Azərbaycan multikulturalizminin milli azlıqların dil və mədəniyyətinin qorunub saxlanması və inkişafı, onlara məxsus milli özünəməxsusluğun, adət-ənənələrin gələcək nəsillərə çatdırılması, eyni zamanda onların sıx yaşadığı bölgələrdə Azərbaycanın dövlət müstəqilliyinin və azərbaycançılıq ideyalarının təbliği, hərbi vətənpərvərlik, vahid dövlətçilik, vətənə sədaqət hislərinin gücləndirilməsi istiqamətində müvafiq dövlət qurumları və azlıqların milli-mədəni təşkilatları ilə birgə ardıcıl fəaliyyət həyata keçirilməsi baxımından bu sərəncamın əvəzsiz rolu var.

Bu torpağı özünə əbədi məskən seçən xalqların əksəriyyəti zaman keçdikcə doğmalaşıb, bəziləri isə yerli xalqlarla qaynayıb qarışmış və bu gün haqlı olaraq bu torpaqda yaşayanlar Azərbaycanı özlərinə doğma və əbədi vətən hesab edirlər. Tarix boyu yadelli işğalçılara, Çar Rusiyasının, (Sisyanov, Qulyakov) Gürcülərin yürüşlərinə qarşı mübarizə aparan Car –Balakən əhalisi heç bir vaxt mübarizədən çəkinməmişlər. Onlar igidliklərinə, döyüş taktikalarına görə düşmənləri heyrətə gətirmişlər.

Zaqatalada yaşayan yerli əhali burada tarixən yaşayan birgə yaşayış anlamını xalqımızın milli-mənəvi keyfiyyətlərinin ayrılmaz hissəsi hesab edir. Heç də təsadüfü deyil ki, Qarabağ uğrunda savaşda azərbaycanlılarla yanaşı bu ərazidə yaşayan digər xalqların da nümayəndələri böyük qəhrəmanlıq göstərmiş, şəhid olmuşlar. Məlumdur, onlar bu doğma eli özlərinə əbədi vətən seçdikləri üçün «Torpaq uğrunda əgər ölən varsa, vətəndir» kəlamını özlərinə əsas seçmişlər.

Dövlətimiz hər zaman ölkəmizdə yaşayan bu xalqların dilinə, adətlərinə hörmətlə yanaşmış öz və özgə prinsipi anlayışını özündən uzaq tutmuşdur. Məhz bu xüsusiyyət ölkəmizdə yaşayan müxtəlif dilli xalqların bir-biriləri ilə mehriban, sakit, və anlaşıqlı həyat tərzi qurmasına zərurət yaratmışdır. Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri akademik Kamal Abdullayev qeyd edir ki, xalqımız onun öncül yaradıcı şəxsləri özündə milli, dini təəssübkeşlik hissləri ilə yanaşı, bəşəri dəyərləri də yaşatmağı bacarmış və «özününkü» saydığını «özgəninki» olandan çox zaman fərqləndirməmişdir (**1, s.4**). Bu prinsip tarix boyu gözlənilmiş dövlətimiz, daima bu xalqların dilinə və dininə hörmətlə yanaşmışdır. Azərbaycan Respublikasının konstitutusiyasının «Dövlət dili» adlanan 21-ci maddəsində «Azərbaycan Respublikasının dövlət dili Azərbaycan dilidir. Azərbaycan Respublikası Azərbaycan dilinin inkişafını təmin edir. Azərbaycan Respublikası əhalinin danışdığı başqa dillərin sərbəst işlədilməsini və inkişafını təmin edir. «Bərabərlik hüququ» adlanan 25-ci, «Təhsil hüququ» adlanan 42-ci, "Ana dilindən istifadə hüququ" adlanan 45-ci maddələrində ölkəmizdə yaşayan azsaylı xalqların dillərinin, qorunması ilə bağlı müəyyən fikirlər əks olunmuşdur (**2, s.8, 9, 11**).

Zaqatala folklor mühiti Azərbaycançılıq və multikultural ənənələrin dolğun şəkildə qorunub inkişaf etdiyi bir ərazidir. Bu ənənələr bu gün daha çox bu xalqların məişət mərasimlərində, musiqi folklorunda, aşıq yaradıcılığında, dini rəvayətlərində, regional lətifələrində eləcə də, bölgə üçün əsaslı olan Qafqaz Albaniyasına məxsus tarixi memarlıq abidələrdə qorunub saxlanılır.

Azərbaycan Respublikasının strateji əhəmiyyə malik ərazisində yerləşən Zaqatala rayonu etnik baxımdan da rəngarəng tərkibə malikdir. Bu gün 120 mindən çox əhalisi olan Zaqatalada 20-yə yaxın azsaylı xalqların nümayəndələri -avarlar, saxurlar, inqiloylar, ləzgilər, udinlər, ruslar, tatlar, farslar və başqa xalqların nümayəndələri yaşayır. Nəzərə alsaq ki, Azərbaycan minilliklər boyu müxtəlif xalqların azad, sərbəst və heç bir maneə ilə rastlaşmadan yaşadığı müstəqil ölkədir, o zaman Zaqatalada yaşayan azsaylıların da hüquqlarının azərbaycanlılar qədər qorunduğunu, onların dil, mədəniyyət, adət-ənənə və s. mənsubluğunu göz önünə gətirmək asan olar. Ümumiyyətlə götürdükdə Azərbaycan türkləri mehriban, qonaqpərvər, sülhsevər və humanist olduqları üçün respublikamızda yaşayan digər xalqlar özlərini hərtərəfli ifadə edə bilmişlər. Təkcə Zaqatalada deyil, respublikamızın digər mühitlərində də azsaylı xalqların hüquqları hər zaman qorunub və onlara ana dilini, mədəniyyətini, dinini yaşatmaq üçün geniş şərait yaradılmışdır.Rus səyyahı və etnoqrafı V.L.Veliçko Azərbaycan etnosunda böyüyə hörmət, ailəyə bağlılıq, qonaqpərvərlik, ədalət hissi, başqa millət və xalqlara hörmət və s. kimi müsbət keyfiyyətlərin tarixən formalaşdığını qeyd edir (**6, s.34-35**). Bu gün Zaqatalada azsaylı xalqlarla azərbaycanlıların adət-ənənələri bir-birinə qovuşmuş, qohumluq əlaqələri genişlənmiş və bu proses tarixin bütün dönəmlərində, mərhələlərində qarşılıqlı şəkildə paralel inkişaf yolu keçmişdir. Artıq ölkəmizdə tarixi ənənəyə söykənən və uzun əsrlik tolerantlıq mühiti formalaşmışdır ki, bu mühitə biz məhz hər zaman beynəlmiləlçiliyə meyilli Zaqatalada daha çox təsadüf edə bilərik. XIX əsrdə Azərbaycanın şimal bölgəsinə səfər etmiş D.Zubarayev, Fon-Plotto, ("Zaqatala dairəsinin əhalisi və təbiəti" əsəri) eləcə də ayrı-ayrı müəlliflərin etnoqrafların müxtəlif əsərlərində bu ərazidə yaşayan azsaylı xalqlar haqqında məlumat verilmiş (A.Poserbskinin, D.Bakradze ("Zaqatala dairəsi haqqında qeydlər" məqaləsində, K.Qan, K.Kolyubakin, Konstantinov və başqaları), burada yaşayan xalqlara və onların adətlərinə öz münasibətlərini bildirmişlər. Rus etnoqrafı Fon-Plotto yazır ki, Zaqatala vilayətində məskunlaşan muğallar (türklər) və ləzgilərin, avarların adətləri ümummüsəlmanlarla eynidir (**10, s.30-40**).

Hörmətli Prezidentimiz fevralın 16-da şimal bölgəsində səfərdə olarkən burada yaşayan xalqların dostluğuna, mehriban həyat tərzi sürmələrinə öz münasibətini bildimişdir: "Biz ölkəmizdə yaşayan bütün xalqlar arasında qardaşlığı, dostluğu daha da möhkəmləndirməliyik. Bu, bizim ən böyük sərvətimizdir. Ən böyük üstünlüyümüz və ən böyük dəyərimizdir. Əsrlər boyu Azərbaycanda yaşayan bütün xalqlar bərabər hüquqlara malik olmuşlar. Hər bir vətəndaş dinindən, dilindən, millətindən asılı olmayaraq Azərbaycanın qiymətli, dəyərli vətəndaşıdır. Bizi bəzi başqa ölkələrdən fərqləndirən məhz budur".

Azərbaycançılıq və multikulturalizm bu ərazidə yaşayan xalqların əsas ideologiyasıdır. Azərbaycanın şimal bölgəsində yaşayan müxtəlif xalqların birgə yaşayış, həmrəylik, sülhsevərlik, mehribanlıq, ədalət, öz, özgə xalqların dinlərinə, dillərinə, müqəddəs şəxslərinə səmimi münasibət əsas amil kimi götürülür.

Müxtəlif xalqların - ingiloylar, avarlar, ləzgilər, saxurlar, udinlər, və s. kompakt halında yaşadıqları Zaqatalada bu gün bir-birindən maraqlı, rəngarəng və zəngin folklor örnəkləri mövcuddur. Rayon ərazisində folklor nümunələri toplayarkən məlum oldu ki, Azərbaycan türklərinə məxsus qədim, tarixi köklərə malik məişət ənənələrin ən yaxşı qoruyucuları elə azsaylı xalqların nümayəndələridir. Ümumiyyətlə, beynəlmiləçiliyə, inteqrasiyaya meyilli olan zaqatalalıların özlərinə məxsus maraqlı və rəngarəng məişət -mərasim adətləri zaman keçdikcə tələblərə uyğun şəkildə dəyişildiyi, milli çalar yeniləndiyi, müasirləşdiyi halda Azərbaycan türklərinə məxsus həmin qədim adətlərin dağlıq ərazilərdə kompakt halında yaşayan saxurlarda, avarlarda (Gözbarax, Yuxarı Çardaxlar, Mamrux) daha çox mənisənilib olduğu kimi qorunub saxlanılması hallarına da təsadüf edirik.

Ayrı-ayrı dinlərə mənsub xalqlara hörmət, qarşılıqlı sevgi və ehtiram Azərbaycan xalq ədəbiyyatının ən qədim nümunəsi olan «Kitabi Dədə Qorqud» dastanında Qanturalın evlənmək üçün xristan qızı, sarı donlu Selcan xatunu seçməsi, Əsli və Kərəm dastanında Gəncə xanı Ziyad xanın oğlu Mahmudun xristian Qara keşişişin qızı Məryəmə aşiq olması və s. onlarla şifahi xalq ədəbiyyatımızın nümunəsində, eləcə də klassik ədəbiyyatımızda Nizaminin, Füzulinin, İmadəddin Nəsiminin, Molla Pənah Vaqifin və digərlərinin yaradıcılıqlarında belə nümunələr vardır. Bu da onu göstəricisidir ki, bu multikuralizm ənənəsi, özgə xalqlara hörmət, sevgi, qayğıkeşlik tarix boyu xalqımızın canında qanında olmuş yüksək mənəvi-əxlaqi keyfiyyətlərdən biri olmuşdur.

Müxtəlif zamanlarda bu ərazidən topladığımız nümunələrdə, xüsusən dini dünyagörüşü bəşəri sevgi, öz və özgə, gözəllərin vəsf olunduğu bayatılarda multikultural dəyərləri, qədim adətləri, regional xüsusiyyətləri özündə əks etdirən maraqlı məlumatlara təsadüf edirik:

*Qulfidə oldum Allah,*
*Oxudum qulfiallah.*
*Çoxmillətli elimi*
*Saxlasın əziz Allah (**13**).*

Zaqatalanı digər folklor mühitlərindən fərqləndirən xüsusiyyət türkə məxsus qədim musiqi alətlərindən olan tənburun (Zaqatalada danbur deyilir) tarixən sazla paralel inkişaf prosesi keçirməsi olmuşdur. Zaqatala aşıqlarından olan Əliabadlı Aşıq Camal öncə tənburla sonra isə sazla ifa etmişdir. Hazırda Zaqatalada yaşayan bütün xalqlar - avarlar, ləzgilər, inqiloylar, saxurlar və başqa xalqların nümayəndələri bu qədim musiqi aləti ilə haylalar deyirlər.

Bütün bunlarla yanaşı, eyni ənənəni biz Zaqatala aşıqlarının yaradıcılığında izləyirik. Və bu ənənə azsaylı xalqların kompakt halında sakit, mehriban həyat tərzi keçirən bu bölgədə daha çox inkişaf etmiş el sənətkarlarının yaradıcılığında ayrı-ayrı bayatılara, haylalara daha çox təsir etmişdir. Aşıq Məhəmməddən başlayaraq, Aşıq Dibroda, Aşıq Mədətdə, Aşıq Camalda, Aşıq Səaddində, Aşıq Cahangir Dalğında, el şairi Muxaxı Ramazanda və bir çoxlarının yaradıcılığında biz onlarla belə nümunə göstərə bilərik. Düşmənlərimizin əliylə zəhərlənib öldürülən Aşıq Məhəmməd yaradıcılığında azərbaycançılıq və multikultural dünyagörüşü, şəfqət, mərhəmət, dözümlülük,dini və mədəni müxtəliflik, özgə xalqların müqəddəs şəxsləri hörmətlə yada salma, ümumiyyətlə, özgə xalqlara qarşı doğma münasibət, öz və özgə xalqların gözəllərinə dəyər vermə bacarığı özünü yüksək şəkildə əks etdirmişdir. Ümumiyyətlə, Aşıq Məhəmməd yaradıcılığında multikultural dəyərlərin təsvirinə geniş yer verilmişdir. Əslində ustad sənətkarın yaşadığı dövr üçün bu termin yerinə düşməsə də sadalanan yüksək mənəvi, əxlaqi humanist, ədalətli və yad olmayan doğma yanaşma tərzi bu ənənənin Azərbaycan ədəbiyatına, folkloruna, aşıq sənətinə tanış olduğunu sübut edir:

*Varxiyanlı Məhəmmədi bütün ölkə, el bilir,*
*Qazax, Gəncə, Şəki, Şirvan, həm də Car mahal bilir.*

**Və yaxud:**

*Məhəmmədəm, qəsd elədim, bu cümlə-cahanı gəzib,*
*Xoy, Solmaz, Marağa, Təbrizi, həm də Car mahal bilir (**10, s.33**).*

Belə nümunələrə Zaqatala aşıqlarının yaradıcılığında kifayət qədər təsadüf edə bilərik. Zaqatala aşıqlarının şeirlərində multikultural dəyərləri əks etdirmək baxımından əsas bir neçə məqama diqqət yetirilmişdir:

- Öz və özgə xalqların sadə, əməksevər, zəhmətkeş, əxlaqlı, qonaqsevər insanlarına münasibət;
- Öz və özgə xalqların milli-mənəvi, mədəni dəyərlərinə, azərbaycanlılarla dostluq, sülh, mehribanlıq şəraitində birgə yaşayışlarının təsviri;
- Öz və özgə xalqların vətənpərvərlik, mərdlik, qəhrəmanlıq, ədalət, humanistlik kimi bəşəri duyğuları əks etdirən fikirləri;
- Müxtəlif dinlərin müqəddəs şəxslərinə doğma münasibət;
- Müxtəlif xalqların gözəllərinə doğma münasibət və s.
- Sənətə, sənətkara münasibət.

Burada yaşayan sənətkarları biz mədəni müxtəlifliklərinə, özgə xalqların nümayəndələri olub-olmadığına görə ayırmırıq, istər azərbaycanlı el sənətkarları olsun, istərsə də azsaylı xalqların nümayəndələri olsun, biz onların multikultural dəyərlərə yanaşma tərzinə, bu dəyərlərə poeziyalarında hansı səviyyədə yer vermələrinə diqqət yetirməyə çalışmışıq.

Ümumiyyətlə, azsaylı xalqların içərisində də el arasında aşıqlar olmuşdur. Bunlardan Aşıq Camal, Aşıq Hüseyn, Aşıq Əli, Aşıq Herov, İtitalalı Məhəmməd, Aşıq Dibro və başqalrının adlarını çəkmək olar. Bu sənətkarları digərlərindən fərqləndirən də məhz onların həm Azərbaycan, həm də öz dillərində yazıb-yaratmaları idi.

Burada ölkənin birinci xanımı Mehriban xanım Əliyevanın sözlərini yada salmaq istərdik: o, çıxışlarının birində qeyd etmişdir ki, “Öz mədəniyyətinə, öz tarixinə, öz adət və ənənələrinə, öz milli dəyərlərinə hörmətlə yanaşan xalq, gərək ki, eyni şəkildə fərqli mədəniyyətlərə də hörmətlə yanaşsın, onu özününkü olandan ayırmasın” (**12**).

Zaqatalalı Aşıq Dibro poeziyasında insanları birliyə çağırmış, haqq yolunu azanlara doğru yola qayıtmağı tövsiyə etmiş, müdrik kəlamları şeriyyata gətirmiş və bununla yalnız ölkəmiz üçün deyil, bütün dünyada yaşayan tolerantlıq ənənələrinə zidd çıxanları birliyə, əmin-amanlığa səsləmişdir:

*Azma bu dünyada haqqın yolunu,*
*Adildi, müdrikdi, uludu dünya.*
*Əgər fəhm eyləsən qilü-qalına,*
*Görərsən dumandı, doludu dünya (**9, s.51**).*

Zaqatala aşıqları şeirlərində çoxmillətlili olduqlarını böyük fəxarətlə dilə gətirir. Onların poeziyalarında çox milləti olan yurd yerinin heç vaxt düşmənlərdən qorxusu olmaz, belə yurd yeri heç vaxt basılmaz kimi fikirlərə tez-tez təsadüf olunur.

**Yengiyanlı Aşıq Əzimdə:**

*Əziməm, qorxum yox, çox millətliyəm,*
*Arxam var elim var, lap qüvvətliyəm.*
*Dünən piyadaydım bu gün atlıyam,*
*Sabah hər qələbə, zəfər bizdədir (**5, s.90**).*

Yaradıcılığında vətənpərvərlik, təbiətsevərlik, qayğıkeşlik nümunələri ilə yaddaşlarda daimi yaşayacaq və böyük ehtiramla yad ediləcək Aşıq Mədət müxtəlif xalqların doğma diyarı Zaqatalanı nəğməkar bülbülün ana vətəni adlandırmışdır:

*Qonaqpərvərlikdə gəzsən hər yanı,*
*Gülüzar diyarı Zaqatalamdır.*
*Nəğməkar bülbülün ana vətəni,*
*Eşqi bəxtiyarı Zaqatalamdır (**13**).*

Eləcə də, sənətkarın poeziyasında-xüsusən deyişmərində, bağlamalarında multikulturalizmlə yanaşı, tolerantlıq nümunələri də geniş əks olunmuşdur. Bu deyişmədə el sənətkarları öz və özgə dinləri təmsil edən müqəddəs şəxslərin adlarını çox böyük hörmətlə yada salırlar. Aşıq Mədətin Aşıq Səaddədinlə olan deyişməsinə diqqət edək:

**Aşıq Mədət:**

*Kimdi ərşdə sağ dayandı,*
*Bəs kimdi nura boyandı.*
*Kimdi səsindən oyandı,*
*Bəs kimlər bədasil oldu.*

**Aşıq Səaddədin:**

*Haqq özü nura boyandı,*
*İsa ərşdə sağ dayandı.*
*Adəm yaranıb oyandı*
*Pir onda bədasil oldu (**9, s.121**).*

Bu deyişməni dini-milli dəyərlərin ümumbəşəri dəyərlərlə qarşılıqlı əlaqəsi, və Azərbaycan multikulturalizminin, tolerantlığının nümunəsi kimi qiymətləndirmək olar. Burada multikulturalzmin xarakterik xüsusiyyəti kimi tolerantlıq, dözümlülük əsas xüsusiyyət kimi götürülür. Tarix üzrə fəlsəfə doktoru, arxeoloq Məhəbbət Paşayeva qeyd edir ki, Azərbaycan multikulturalizmin formalaşmasında dinin rolu danılmazdır və sosial hadisə olaraq din, tarixi təkamül prosesi boyunca Azərbaycan multikulturalizmin rəngarəng laylarında öz izini qoymuşdur (**8**).

Zaqatala aşıqlarının yaradıcılığında bölgə üçün ənənəvi olan multikultural düşüncə tərzi burada yaşayan xalqlara böyük hörmət, dərin məhəbbət hissi duyulur. Aşıq Valehin «Mən necə yazmayım Zaqataladan» qoşmasına diqqət edək:

*İnsanların həlim, iqlim mülayim,*
*Qismət edib mənə bəxtim, taleyim.*
*Budur, ilahidən arzum, diləyim*
*Xudam hifz eləsin hər cür bəladan*
*Mən necə yazmayım Zaqataladan (**3, s.39**).*

Xalq şairi Səməd Vurğun Azərbaycan şeirini yazmaqla sözlə Azərbaycanın ərazisini oxucusuna tanıtmaq və bununla Azərbaycanın xəritəsini yaratmaq ənənəsinin başlanğıcını qoymuşdur. Bu ənənəni Zaqatala aşıqları və el şairləri öz yaradıcılıqlarında layiqincə davam və inkişaf etdirilmişlər. Aşıq Mədət, Aşıq Valeh və el şairi Muxaxlı Ramazan kimi el arasında sayılıb seçilən el sənətkarları bu ənənəni poeziyalarına tətbiq etməklə öz yaşadıqları rayonun ərazisindəki kəndləri bir-bir vəsf etməklə burada yaşayan avarların, ləzgilərin, saxurların, inqiloyların, rusların, və s. xalqların adət ənənlərini, dillərini, yerli xalqla necə mehriban şəkildə bir-birilərinə qaynayıb qarışma şəraitində yaşadıqlarını göstərmişlər:

**Aşıq Valehdə:**

*Mişleşdən gəzərək gəlsin Zibana,*
*Şəlalədə çimər, gələrsən cana.*
*Carda qonaq olsan hansı insana,*
*Yaxşı qarşılayar doğma baladan,*
*Mən necə yazmayım Zaqataladan.*

*Yuxarı Çardaxlar, Ələskər Mamrıx,*
*Saxur dostlarımla hər zaman varıq.*
*Ağdam Kələl, Gözbarağı qatarıq,*
*Ləzzət alaq sülhüllü, buğlamadan,*
*Mən necə yazmayım Zaqataladan (**3, s.42**).*

Bu qoşmada ustad sənətkar multikultural dəyərlərə xüsusi önəm vermişdir. Bu nümunədə birgəyaşayış, qardaşlıq, dostluq müxtəlif xalqlara sevgi, hörmət, səmiyyət kimi ülvi hislər əsas yer tutur.

El arasında sevilən, kəlamının dəyəri ilə hörmət qazanan, sözdən çələng hörən, yaradıcılığında rəngarən obrazlar, maraqlı, əsrarəngiz təbiət təsvirləri, qiymətli xalq deyimləri ilə yadda qalan Muxaxlı el şairi Ramazan "Zaqatala xəritəsi" şeirində azərbaycançılıq və multikultural dəyərləri layiqincə qiymətləndirmiş və inkişaf etdirmişdir. O, bu şeirində azərbaycalılarla yanaşı yaşayan müxtəlif xalqların da adətlərindən söz açmış, onların kompakt yaşadıqları kəndlərə xəyalən səfər etmiş, görüb götürdüklərini, maraqlı şəkildə sadə dildə oxucusuna təqdim etməyi bacarmışdır:

*Keçib Muğanlını əyil Faldara,*
*Qandaxda özünü çatdır nahara.*
*Yengiyanda salam yetir dostlara,*
*Kəpənəkçidə eşit söz , özün danış.*

**Və yaxud:**

*Axşam qaralmamış get ol Mosulda,*
*Ədəblə deyərlər xoş gəldin qada.*
*Atını oradan sür düz Aleybada,*
*Götürüb qəlbinə yaz özün danış.*

**Və yaxud:**

*Kələldə sürfülü yeyib dostlar seç,*
*Güləbağ dağınnan Sabunçuya keç,*
*Gedib Çardaxlarda bir sərin su iç,*
*Çox qonaqpərvərdirlər, düz, özün danış (**7, s.9**).*

El şairi Muxaxlı Ramazan yaşamış olduğu, böyüyüb boya başa çatdığı azərbaycalılarla ləzgilərin birgə yaşadıqları Muxax kəndində bu xalqların necə sakit, dostluq, qardaşlıq, sülh, mehribançıllıq şəraitində həyat tərzi keçirmələrini təsvir etmişdir:

*Qoy bilsin bilməyənlər,*
*Hünər və zəhmət burdadır.*
*Can deyibən can eşidən*
*Dostluq dəyanət burdadır (**13**)*

Xəstə təxəllüsü ilə şeirlər yazan, yaratdığı hər misraya bir canlı obraz verən Xəstə Əhməd Qımırlı da şeirlərində, təsvir etdiyi təbiət təsvirlərində ləzgilərin, avarların və bir sıra müxtəlif xalqların yaşadıqları tarixi Azərbaycan torpağı olan Dərbənd ellərini vəsf etmişdir:

*Yolun üstə Axtı durur,*
*Qəlbim ona heyran olur,*
*Odlu-odlu axan Samur,*
*Didi: uğur olsun sənə.*

**Və yaxud:**

*Qarşımdan keşdi bir tərlan,*
*Əl eylədi çox mehriban,*
*Anam kimi xoş Dağıstan*
*Didi: uğur olsun sənə (**13**).*

Zaqatala aşıqlarının yaradıcılığında sənətə sənətkara hörmət, insanlığa dəyər vermə bacarığı çox yüksək şəkildə özünü göstərir. Əslində, bu, tarixən bölgədə bütün xalqlarda olduğu kimi el sənətkarlarında da vətənpərvərlik hislərinin, bəşəri və multikultural dəyərlərinin bir yaşam tərzinə çevrilməsindən irəli gəldiyini isbat edən xüsusiyyətdir. Zəyəmli Aşıq Camalın "Əvvəl-axır " şerinə diqqət edək:

*Ey dünya dili ləl olan, sözləri zülal,*
*Bağlamalardan, qıfılbənddən, əvvəl-axırdan deyən,*
*Elmin dəryası, ismi-əzan duasını mükəmməl bilən,*
*Molla Cümə tək şairi neylədin dünya!*

Zaqatala aşıqlarının yaratdıqları dastanlarda biz obrazların bir-birilərinə qarşı insanlıq, bərabərlik münasibətlərində azərbaycançılıq və multikulturalizm ideyalarını əks etdirən nümunələrə təsadüf edirik. Aşıq Valehin yazdığı "Mətin və Riyalənin dastanı" da azərbaycançılıq və multikultural dəyərlər, tolerantlıq ənənələri üzərində qurulan dastanlanlarımızdandır. Ənənəvi, klassik dastanlarımızdan fərqli olaraq, bu dastan giriş sözü ilə başlayır sonra dastanın yazıb başa çatdırmaq üçün tanrıdan güc-qüvvət istəyərək ona müraciət eləyir: Bu dastançılıq ənənəsində yeni bir cığırdır. 21 bəndlik şeir nümunəsində sənətkar tolerantlıq və dini dünyagörüşüni, özgə dinlərin və dillərin müqəddəs şəxsiyyətlərinə hörmətini, səmimi münsibətini bildirmişdir:

*Musaya elmi xudanı,*
*Öyrətdi, qutardı canı.*
*Sən verdin sirri-sübhanı,*
*Şahi-mərdan xatirinə.*

Ustad sənətkar dörd müqqəddəs peyğəmbərin adını çəkməklə, bu dinlərin hər birinin ayrılıqda və bir-biriləri ilə müqayisədə yüksək dəyərə malik olduğunu anlatmış, təriqət, şəriət, mərifət və həqiqətdən keçib kamilləşən, müqəddəsləşən ümum bəşəri dinlərin, ümumbəşəri dəyərləri yüksək tutan insandakı insani keyfiyyətləri, eləcə də, bu gün cəmiyyətimizdə olan pisləri xatırladan onlarla birgə tutulan kafir, əntər və s. kimi qüvvələr pislənilmişdir. Aşıq belələrinə allah xofunun olduğunu xatırlatmışdır.

*Dörd müqəddəs Peyğəmbərin,*
*Ya Rəbb böyükdü ləngərin.*
*Kafir Yəzidi-əntərin,*
*Boynun viran xatirinə* ***(3, s.21)***

Qarabağ savaşına həsr olunmuş bu dastanda Mətin azərbaycanlı oğlu, Riyalənin isə atası azərbaycanlı, anası isə ermənidir. Çətin sınaq yolu keçən, vətən yolunda canından keçən hər iki gəncin qəhrəmanlıq, sevgiləri birinci növbədə bir amala-vətənə məhəbbət, düşmənə nifrət amalına xidmət edir. Burada mulikultural düşüncə tərzi bir türk övladının başqa dindən olun və sonradan islamı qəbul etmiş xristian qızına aşiq olmasıdır. Riyalə Azərbaycan xalqı, torpaqlarının alınması yolunda canından keçən qəhrəman Mətini və onun yoldaşlarını əsirlikdən qurtarmaqla bir daha sübut edir ki, onun damarında erməni deyil, əsl azərbaycanlı qanı dövr eləyir. Bu dastana Mətin və Riyalə münasibətləri baxımından yanaşdıqda əsl multikulturalizm və tolerantlığın nümunəsi hesab etmək olar.

Azərbaycançılıq və multikultarizmin göstəricilərindən olan dastanlarımızdan biri də Aşıq Mədətin yazdığı, avtobioqrafik səciyyə daşıyan "Aşıq Mədət və Bəhrinazın dastanı"dır. Burada Aşıq Mədət butasının arxasınca Dağıstan ellərinə kimi səfər edir. Qarşısında duran çətin maneələrə baxmayaraq, sənətkar öz arzu və istəyinə çatır. O, müxtəlif mədəniyyətlərin inkişaf etdiyi ayrı-ayrı xalqların yaşadığı elini özünə arxa dayaq hesab edir. Onun dastanda verdiyi "Eldir" rədifli ustadnaməsi burada birgə yaşayan müxtəlif xalqların qardaşlıq, dostluq, qarşılıqlı hörmət və sevgisini əks etdirən ən kamil nümunəsidir:

*Mədət, nəzər salsan, ərşə-əsmana,*
*Səyyah tək ayağın çatar hər yana.*
*Dağda oluf, haray etsən arana,*
*Səsinə səs verif çatası eldir (**13**).*

Bundan başqa, XIX əsrin 30-40-cı illərində Azərbaycanın şimal bölgəsindəki vəziyyəti əks etdirən "Çar yürüşü" haqqında dastan-rəvayətdə bu regionda yaşayan azərbaycanlılarla azsaylıların qardaşlıq, dostluq, bərabərlik kimi ən təmiz hisləri əks olunur.

Tarixən bu ərazidə Azərbaycanlılarla yanaşı, yaşayan müxtəlif xalqların qarşılıqlı münasibətləri birgə, bərabərlik, mehribanlıq, qardaşlıq və dostluq, hörmət şəraitində necə qurulmuşdursa, indidən sonra da elə davam edəcəyi şübhəsizdir. Muxaxlı el şairi Ramazan şeirlərinin birində qeyd etmişdir:

*Bir arzum var bu dünyada əzəldən,*
*Yer üzündə olsun əmin-amanlıq.*
*Qazanılan izzət, hörmət, ehtiram,*
*Şahid olsun bizə axır zamanlıq (7, **s.**71).*

Hörmətli Prezidentimiz cənab İlham Əliyevin multikulturalizmlə bağlı səsləndirdiyi və bütün dünyaya bəyan etdiyi dəyərli fikri ilə sözümüzü bitiririk: «Azərbaycanda multikulturalzm dövlət siyasətidir və onun alternativi yoxdur». Məhz buna görə də Zaqatala aşıqlarının poeziyalarında multikultural dəyərlərə mühüm əhəmiyyət verilmiş və onlar geniş şəkildə təbliğ olunmuşdur.

**Xülasə**

Məqalədə Zaqatala aşıqlarının yaradıcılığında əks olunmuş bu bölgədə məskunlaşan azsaylı xalqlara – avarlara, ləzgilərə, udinlərə, tatlara, inqiloylara, ruslara və başqa xalqlara dostluq, qardaşlıq münasibəti araşdırılmışdır. Zaqatalada yaşayıb-yaratmış aşıqların poeziyalarındakı Azərbaycançılıq və multikulturalizm ənənələri, tədqiq edilmiş regional dastanlardakı multikultural münasibətlər öyrənilmişdir. Belə bir nəticəyə gəlirik ki, azərbaycançılıq və multikulturalizm bu bölgədə yaşayan bütün xalqların həyat tərzinə çevrilmişdir. Bu prosesin tarixən də belə olması müəyyən edilmişdir.

**Резюме**

В статъе исследовано дружеское и братское отношение к таким малочисленным народам как лезгины, авары, ингилои, удины и русские, проживаюших в Закатальском районе.

Было исследовано также творчество ашигов, проживающих в Закатале, и мультикультуральные традиции и традиции Азербайджанства в их поэзии.

В результате приходится к такому выводу, что Азербайджанство и мультикультурализм это стиль жизни народов, проживающих в этом районе. Определено, что этот процесс также было установлено исторически.

**Summary**

Article investigated friendly and brotherly attitude to minorities - avars, lezghins, udins, tats, ingilos, russians and other nationalities living in this region set out in works of Zagatala ashugs. The article also investigates Azerbaijan-study and multicultural traditions in poetry of ashugs lived in the territory of Zagatala, multicultural relations of studied regional eposes. We can come to a conclusion that, Azerbaijan-study and multiculturalism has become a way of life for the people living in this region.

**Ədəbiyyat:**

1. Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları. Bakı: 2016
2. Azərbaycan konstitusiyası. Bakı: (yeni redaksiyada) Bakı: Qanun, 2009, 67 s.
3. Aşıq Valeh. Dastanlar. Bakı: Elm və təhsil, 2012, 336 s.
4. Aşıq Valeh. Mən necə yazmayım Zaqataladan. Bakı: Elm və təhsil, 2014, 224 s.
5. Aşı Əzim. Aşıqsansa söz deməyə haqlısan.Bakı: Nurlan, 2010, 152 s.6.
6. Bayramova Ə.S. Etnik psixologiya. Bakı: Renessans, 2001, s.374.
7. Muxaxlı Ramazan. Ramazan olubdur elinə gərək. Bakı: Elm və təhsil, 2010.264 s.
8. Məhəbbət Paşayeva. http://az.trend.az/azerbaijan/society/2465332.html.
9. Zümrüd Mənsimova. Zaqatala aşıq mühiti. Bakı: 2014, 216 s.
10. Qurban Şabanov. Həşim İsmayılov. Varxiyanlı Aşıq Məhəmməd–Zaqatalalı ustad. Bakı: Ağrıdağ, 2000. 108s.
11. Фон-Плотто А. Природа и люди Закатальского округа. ССКГ, вып., IV Тифлис, Изд. Кавказ. Гор, Упр, 1870, с.1-62
12. http://www. President.az.
13. Mənbəyi göstərilməyən nümunələr şəxsi arxivimizdəndir.

**İlhamə Seyidova**
**Qəbələ rayon Tarix Diyarşünaslıq Muzeyinin kiçik elmi işçisi**
**Azərbaycan, Qəbələ**

# MULTİKULTURALİZM HEYDƏR ƏLİYEV SİYASƏTİNİN DAVAMIDIR

***Açar sözlər:*** *Qafqaz Albaniyası, adət-ənənə, xalq, millət, multikulturalizm*
***Ключевые слова:*** *Кавказская Албания, обычаи-традиции, народ, нация, мультикультурализм*
***Key words:*** *Caucasian Albania, tradition, nation, people, of multiculturalism*

Çoxəsrlik tarixə malik olan Azərbaycanımız yaranışından bizlərlə birgə yaşayan bir çox xalqların məkanı olmuşdur. Onlar zaman keçdikcə daha da bu torpaqlara sıx bağlanmış, Azərbaycan tarixində iz qoymuşlar. Söhbət zamandan, tarixdən düşmüşkən, elə bu yerdə qədim Qafqaz Albaniyasından söhbət açmaq istərdim. Böyük Plini, Klavdi Ptolomey, Plutarx, Ellian dəyərli əsərlərində Albaniyanın bir möhtəşəm dövlət kimi 26 dildə danışan tayfaların məkanı olduğunu qeyd etmişlər. Bu tayfalar 26 dildə danışmaqla yanaşı, fərqli-fərqli adət-ənənələrə, inanclara, etiqadlara mənsub olmuşlar. Bütün bunlar onu göstərir ki, müqəddəs torpağımız hər kəs üçün yaşayış məskəni, doğma vətən olmuşdur. Bəlkə elə buna görədir ki, bütün bunları nəzərə alan rus siyasəti millətimizin hər bir xalqa qarşı olan sevgi, məhəbbətini, qayğı və ehtiramını görərək erməniləri torpaqlarımıza köçürməyə başlamışdı. Xalqımızın ürəyindəki mərhəməti, səfqəti, qanındakı istiliyi, canındakı yanarlığı görən, bilən, bələd olan ermənilər də tarixi Azərbaycan torpaqlarını zəbt edə-edə özlərinə "Vətən yaratdılar". İllər, əsrlər keçdi, xalqımız bütün bu mərhəmətləri, sevgiləri, hörmət və qayğıları qarşılığında düşmən hiyləsinə tuş gəldi, xəyanətin qurbanı oldu. Düşmən xalqımıza, torpaqlarımıza qənim kəsildi. Torpağımızın bərəkətindən, nər oğulların, mərd övladların dəyanətindən, xalqımızın bütün humanist, xeyirxah əməllərindən bəhrələnən düşmənlər bizlərin sayəsində irəli addımlayaraq sonunda vətənimizin dilbər güşələrini işğal etdilər. Lakin bütün bunlara "dayan" deyən, düşmənin qarşısını kəsən Azərbaycan övladı Heydər Əliyev siyasi gücünü, qüdrətini göstərdi. Ümummilli Liderimiz Heydər Əliyevin yorulmaz fəaliyyəti, ölçüyəgəlməz xidmətləri, əzm və fədakarlığı sayəsində xalqımız gələcəyə inamla baxmağa başladı. Müdrik rəhbərimiz xalqımızı, vətənimizi, tarixi vətən torpaqlarımızı düşməndən qorumaq üçün əsla yorulmadı. O, uzaqgörən siyasəti, dərin zəkası ilə Azərbaycan xalqını kütləvi qırğından xilas etdi, dövlətçiliyimizi qoruyub saxladı, xarici sərmayədarları Azərbaycana cəlb etdi. Bir dühа kimi xalqımızın haqlı olduğunu dünyaya bəyan etdi, faciələrimizə siyasi qiymət verdi, sonunda respublikamızı nüfuzlu beynəlxalq təşkilatlara qovuşdurdu. Xalqımız məhz Heydər Əliyevin səmərəli, bacarıqlı, düşünülmüş siyasəti nəticəsində irəli addımlamağa başladı. Qeyri-adi gücə, qüdrətə malik olan Heydər Əliyev xalqın rifahı naminə, vətənimizin xoş gələcəyi uğrunda heyrətamiz, qətiyyətli addımlarla irəliləyərək millətimizi doğru yola yönəltdi, bizləri, uçuruma yuvarlanan xalqımızı tarixdən silinmək təhlükəsi qarşısında qalan dövlətimizi məhv olmaqdan qorudu. Vətənimizə, xalqımıza dərin məhəbbət, sevgi və vurğunluq bütünlüklə onun əməlində aydın göründü. Azərbaycanda sülh, əmin-amanlıq, rahatlıq, dilindən-dinindən asılı olmayaraq, bütün millətlər və xalqlar üçün sakit, firavan həyata təminat yaratdı. Tarixən hər bir xalqa doğma ana kimi qucaq açan Vətənimizdə hər kəs üçün, hər bir fərd üçün əminlik, arxayınlıq bəxş etdi, Azərbaycanda sakitlik, firavanlıq bərqərar oldu. Bütün bunlara görə də "Atatürk Beynəlxalq Sülh Mükafatını"-na layiq görüldü. Bu mükafat tək Azərbaycanda deyil, bütün Zaqafqaziyada sülhün, barışığın qorunması, hər xalqın sakit yaşayışının təminatına verilən ən böyük dəyərin təntənəsi idi. Çünki dahi rəhbərimiz öz xalqına, o cümlədən Azərbaycanda yaşayan digər millətlərə layiqli şəkildə qayğı və diqqəti ön planda saxlamış, hər bir insanın qiymətini bilmək, lazımi şəkildə qiymətləndirmək bacarığına malik idi. Dinindən-dilindən asılı olmayaraq hər kəs üçün Azərbaycanı yenidən qurdu, yaratdı. Rahatlığın, əmin-amanlığın, humanizm ideyalarının rəmzi olan çiçəklənən Azərbaycanı yaşatdı. Azərbaycanın müxtəlif bölgələrinə səfəri zamanı Azərbaycan xalqının nümayəndələri ilə bərabər digər xalqların həyat tərzləri, mədəniyyətləri, sosial inkişafları və digər problemləri ilə də yaxından tanış oldu. Bəli! Bu humanizm ideyaları Heydər Əliyev ideyalarının prinsipləri kimi daha da möhkəmlənmişdir. Azərbaycanda yaşayan azsaylı

xalqların tarixinin öyrənilməsi, Azərbaycan vətəndaşı kimi qayğıları ön plana cəkilmişdir. Xalqımız kimi hər bir sahədə bərabərhüquqlu olmağa böyük imkan yaratmışdır. Etiraf edək ki, bu gün dünyanın inkişaf etmiş dövlətlərində azsaylı xalqlara bu qədər azadlıq verilmir. Onlar ana dillərində belə yazıb-oxumağa, təhsil almağa, tarixlərini qorumağa, dini ayinlərini və s. həyat tərzlərini icra etməkdən məhrumdurlar.

Bildiyimiz kimi, hal-hazırda Azərbaycanda müxtəlif xalqlar yaşayır. Bir sözlə, onlar Azərbaycanı özlərinə vətən bilirlər. Bu xalqlar müstəqil şəkildə bütün adət-ənənlərini, dini etiqad və sitayişlərini yerinə yetirirlər. Dövlətimiz tərəfindən hər bir xalqın nümayəndəsinə hərtərəfli azadlıq verilmiş, bu barədə heç bir qadağa qoyulmamış, onların tarixinə, qədim inam-etiqadlarına hörmətlə yanaşılmışdır. Bu tarixən belə olub, bu gün də belədir. Çünki Azərbaycanımız demokratik, humanist, multikulturalizm ənənələrinə diqqət yetirən, əməl edən dövlətdir. Cənab İlham Əliyevin Azərbaycanda 2016-ci ili "Multikulturalizm ili" elan etməsi də məhz bütün bunların rəsmi şəkildə təsdiqi, bütün bunları həyata keçirməsi diqqət və qayğısının bariz nümunəsi, dünyaya bəyan olunmasıdır. Azərbaycanda tarixən ləzgilər, udilər, avarlar, buduqlar, talışlar, tatlar və s. xalqların birgə yaşayışı mövcud olmuşdur. Bütün müsbət keyfiyyətləri: xeyirxahlığı, mərdliyi, əliaçıqlığı, rəhmli və sadəliyi, böyüklüyü, hünər və məhəbbətini görən bu xalqlar Azərbaycanı vətən kimi seviblər. Humanist xalq kimi bizlərə güvənib, arxalanıblar. Onlar yaxşı biliblər ki, Azərbaycan xalqından heç bir kimsəyə zərər gəlməmişdir. Xalqımız hər zaman böyüklüyünü, hünərliyini, cəsarətini və səbrliliyini sübut edibdir. Bu ənənələr əvvəlcədən mövcud olsa da rəsmi şəkildə 2016-cı ildə həyata keçdi. İlham Əliyev bütün bunları rəsmiləşmiş dövlət siyasəti kimi dünyaya bəyan etdi. O, bununla təsdiq etdi ki, bizim xalqımız ona pənah gətirəni, onunla ünsiyyət saxlayanı, duz-çörək kəsəni, Azərbaycanı Vətəni kimi sevəni, özünə yaxın sirdaş, qardaş bilib. Çətin günündə də hər tikəsini hər kəslə yarıya bölüb. Artıq bütün dünya bu ənənələrin Azərbaycanda əvvəldən varlığına şahid olmaqdadır.

Azərbaycanın hər bir bölgəsində müxtəlif xalqların nümayəndələri yaşayır. Qəbələ rayonunda da ləzgi, udi və digər xalqların nümayəndələri yaşayırlar. Onlar hal-hazırda Azərbaycanda yaşamaqla bərabər müxtəlif dövlət işlərində çalışırlar. İndi bütün dünya dövlətimizin respulikamızda yaşayan hər bir xalqın mədəniyyətinə, tarixinə, adət-ənənələrinə, dilinə və dininə böyük dəyər verdiyini, diqqət və qayğı göstərdiyini daha aydın şəkildə görməkdədir. Azərbaycanda yaşayan bütün millətlər azad, müstəqil şəkildə yaşamaqları ilə yanaşı, qədim adət və ənənələrinə, milli mətbəxlərinə, dillərinə və dinlərinə sahibdirlər, onlara heç bir qadağa qoyulmamışdır. Bütün azsaylı xalqlar hərtərəfli şəkildə ulu keçmişlərinin yadigarlarını qorumaqdadır. Çünki dövlətimiz, xalqımız çox yaxşı bilir ki, hər bir xalqın öz tarixi mədəniyyəti vardır. Hər bir dinə, mədəniyyətə, tarixə mənsub olan insanlar öz milli dəyərlərinə əsaslanaraq hərəkət edir. Xalqımız onu da yaxşı bilir ki, hər sahədə hər bir işə düzgün əməl etmək müsbət nəticələrini göstərər. İlham Əliyev bununla da 2016–cı ili xüsusi olaraq tarixmizə yazdı.

Qəbələ Rayon Tarix-Diyarşünaslıq muzeyində hər zaman bir sıra tədbirlər təşkil olunmaqdadır. Belə tədbirlər tarixi söhbətlərdən, görüşlərdən, yeni güşə və sərgilərin təşkil olunmasından ibarət olur. Belə daimi guşələrdən biri də Qafqaz Albaniyası tarixində adları çəkilən udi xalqına məxsusdur. Muzeyin bu daimi guşəsi 20 ildən cox müddətdir ki, fəaliyyət göstərir. Bu bölmədə onların mədəniyyəti, qədim tarixi, məişəti və ədəbiyyatını əks etdirən sənədlər əsas yer tutur. Qədim udi qadınlarının milli geyimləri, musiqi alətləri, udi əlifbası, tarixi və s. haqqında bu bölmədə geniş materiallar yerləşdirilmişdir. Qəbələdə yaşayan udi xalqının tarixi haqqında geniş mövzunu əhatə edən tarixi elmi məlumatlardan ibarət materiallarla bərabər Azərbaycanın fəxri olan Voroşil Qukasaarinin fəaliyyəti haqqında da muzeyimizdən məlumat almaq olar. XVIII əsrin nümunəsi olan Çotari kilsəsi bu gün udilərin ibadətgah yeri olmaqla bərabər Azərbaycanımızın XVIII əsr tarixi abidələrindəndir. Multikultural dövlət kimi bu tarixi məbəd tarixi abidələrimiz sırasında özünəməxsus yer almışdır.

Hal-hazırda Qəbələdə ləzgi xalqının nümayəndələri də yaşayırlar. Neçə illərdir ki, bu xalqın nümayəndələri ilə səmimi dostluq, mehribanlıq, qohumluq əlaqələrinə yol açılmışdır. Ləzgi qadınlarının toxuduğu corablar, xurcunlar dillər əzbəri, xalcalar evlərin yaraşığı, motal pendiri ağızların xoş, ləziz təamı olmuşdur. Ləzgi xalqının tarixi haqqında da muzeyimizdən geniş məlumatlar əldə etmək olar. Etnoqrafiya bölməsinin ekspozisyasını ləzgi qadınlarının əl işləri bəzəməkdədir. Bununla da onu sübut edirik ki, Azərbaycan həqiqətən də coxmillətli, çoxmədəniyyətli bir dövlətdir. Bu

gün multikulturalizm Azərbaycanda dövlət siyasəti olmaqla yanaşı, tarixi ənənələrin qorunmasının, yaşadılmasının təminatıdır. Bəli, bu gün respublikamızda çoxmədənilik, bir çox mədəniyyətlərin bir arada yaşayışı həyat tərzimizə çevrilmişdir. Beynəlxalq münasibətlərdə mədəniyyətin insanlar arasında qarşılıqlı dostluğun, əməkdaşlığın, birliyin, humanizmin, multikulturalizmin bariz nümunəsi bu gün Azərbaycanda əsaslı şəkildə özünü göstərməkdədir.


### Xülasə

Hal-hazırda Azərbaycanda müxtəlif xalqlar yaşayır. Bu xalqlar müstəqil şəkildə bütün adət-ənənlərini, dini etiqad və sitayişlərini yerinə yetirirlər. Dövlətimiz tərəfindən hər bir xalqın nümayəndəsinə hərtərəfli azadlıq verilmiş, bu barədə heç bir qadağa qoyulmamış, onların tarixinə, qədim inam-etiqadlarına hörmətlə yanaşılmışdır. Bu tarixən belə olub, bu gün də belədir. Çünki Azərbaycanımız demokratik, humanist, multikulturalzm ənənələrinə diqqət yetirən, əməl edən dövlətdir. Cənab İlham Əliyevin Azərbaycanda 2016-ci ili "Multikulturalizm ili" elan etməsi də məhz bütün bunların rəsmi şəkildə təsdiqi və həyata keçirilməsi Prezidentimizin diqqət və qayğısının bariz nümunəsi, dünyaya bəyan olunmasıdır.

### Резюме

В данный момент в Азербайджане проживают разные народности. Эти народности свободно исполняют свои вероисповедания и обычаи. Наше государство каждому представителю этих народностей предоставляет свободу и относится с уважением к их истории, древним поверьям. Это было так исторически и продолжается до сих пор. Потому, что Азербайджан – демократическое, гуманное и обращающее внимание на обычаи мультикультурализма государство. Именно объявление президентом Азербайджана господином Ильхамом Алиевым 2016-го года – «годом Мультикультурализма» и уделение внимания и заботы этому вопросу является наглядным примером того, насколько это важно для государства.

### Summary

At present different nations live in Azerbaijan. These nations fulfill all customs and traditions, religious beliefs and worships independently. The comprehensive freedom is given to the representative of each nation, there is no ban, their history, ancient beliefs are respected. It was historically and even today it is so. Because Azerbaijan is a government that pays attention and follows to the democratic, humanist, multicultural traditions. President Ilham Aliyev's announcing 2016 as "The year of multiculturalism" in Azerbaijan is the proof of these in an official form and their realizing is the distinct example and declaring to the world of the attention and care of the president.

**Vüsalə Kərimova**
**AMEA Folklor İnstitutu, kiçik elmi işçi**
**Azərbaycan, Bakı**

# CƏNUB BÖLGƏSİ FOLKLORUNDA MULTİKULTURAL DƏYƏRLƏR

***Açar sözlər:*** *multikulturalizm, folklor, mədəniyyət, cənub bölgəsi*
***Ключевые слова:*** *мультикультурализм, фольклор, культура, Южный регион*
***Key words:*** *multiculturalism, folklore, culture, South region*

Multikulturalizm hər bir vətəndaşın öz mədəniyyətini, adət-ənənələrini, dini və etnik dəyərlərini inkişaf etdirən bərabərhüquqlu cəmiyyətdir. Multikulturalizm həmçinin müxtəlif mədəniyyətlərin bir arada yaşamasını qəbul edən cəmiyyətin başlıca xüsusiyyətidir. Bütün bunlar ayrı-ayrı mədəniyyətlərin birləşməsi və nəticədə ümumi mədəni birliyin formalaşmasına gətirib çıxarır.Haqqında söz açdığımız cəmiyyət ilk dəfə qərbi Avropanın və Şimali Amerikanın inkişaf etmiş ölkələrində mövcud olmuşdur.

Bildiyimiz kimi, Cənab Prezidentin sərəncamı ilə 2016-cı il ölkəmizdə multikulturalizm ili elan olunmuşdur.Azərbaycan xalqı ümumiyyətlə, əsrlər boyu dünyəvi və bəşəri ənənələri qoruyub saxlamış və bu baxımdan bütün dünyaya bir nümunədir.Azərbaycanın Avropa və Asiyanın qovşağında yerləşməsini nəzərə alsaq, böyük əminliklə deyə bilərik ki, Azərbaycan ta qədimdən multikultural məkandır.

Bu baxımdan Cənub bölgəsi rayonlarının tarixi ipək yolunun üstündə yerləşməsi də bu bölgədə multikultural dəyərlərin inkişafina xüsusi zəmin yaradır.

Əsrlər boyu bu bölgədə türklər, talışlar yaşamışdır. Sonralar müəyyən ruslaşma siyasəti nəticəsində bu rayonlarda xüsusi plan şəklində ruslar yerləşdirilmişdir. Əlbəttə, bu cənub bölgəsi rayonlarının bütün kəndlərini əhatə etmir, amma ayrı-ayrı kəndlərdə bu siyasət, yəni ruslaşma siyasəti özünü göstərmişdir. Ekoloji cəhətdən ən təmiz məkanlarda ruslar yerləşdirilmiş və həmin kəndlərin adı dəyişdirilib rus adları ilə adlandırılmışdır.

Məsələn, Lənkəran rayonunun indiki Bürcəli kəndinin adı (dəyişdirilmiş) Alekseyevka, Hirkan qəsəbəsinin adı isə Avrora olmuşdur və yaxud Masallı rayonunun Kalinovka kəndi ruslar yerləşdirilən kəndlərdən biri olmuşdur. Kəndin keçmiş adı isə Ləmsədir. Müstəqillik qazanandan sonra isə bu kəndlərin əvvəlki adları bərpa olunmuşdur. Bəlli siyasət nəticəsində ruslar bu məkanlarda yerləşdirilmiş və yerli xalqlarla bir arada yaşamışlar. Lakin maraqlısı budur ki, rusların burada yaşaması, yerli xalqın adət-ənənəsini deformasiyaya uğratmamış, əksinə, yerli xalqın təsiri altında onların da özünəməxsus mədəniyyəti yaşamına davam etmişdir. Məsələn, onlar bizim bütün milli bayramları və bu bayramlarda icra olunan ritualları qeyd etməklə yanaşı, öz bayramlarını (özəlliklə Pasxanı) da qeyd etmişlər. Bu da mədəniyyətlərin inteqrasiyasının bariz nümunəsi kimi diqqətəlayiqdir.

Talış və türklər isə Cənub bölgəsində ta qədimdən bir arada yaşamışlar. Bütün toy adət-ənənələri, bayramlar, mərasimlərin hamısı eynidir. Burada xüsusi bir məqamı qeyd etmək istəyirəm ki, Azərbaycanın digər bölgələrində yaşayan ayrı-ayrı azsaylı xalqların toy və digər mərasim rituallları bir-birindən fərqlənir.

Məsələn, avarlar, türklər, ləzgilərin yaşadığı məkanlarda onların adət-ənənələri ilə bağlı rituallarda fərqli məqamlar özünü göstərməkdədir. Ancaq türklərin və talışların yaşadığı cənub bölgəsində isə onların icra etdiyi rituallarda müəyyən cüzi özəllikləri çıxmaq şərti ilə heç bir fərq yoxdur. Bu da hər iki xalqın mədəniyyətlərinin bir-birinin içərisinə dərin nüfuz etməsi və vahid bir mədəniyyətin ortaya çıxmasının nəticəsidir. Məsələn, xalqımızın milli bayramı olan Novruzla bağlı bütün rituallar burda yaşayan xalqların hamısında tam eyni şəkildə icra olunur. Həmçinin dini bayramlar, toy, yas mərasimləri ilə bağlı rituallar tamlıqla eynidir.Tarix boyu bu xalqlar bir arada mehriban yaşamış və vahid bir mədəniyyəti, Azərbaycan mədəniyyətini qoruyub saxlamışlar.

Bölgə həm də tolerant mədəniyyət nümunəsi kimi sayıla bilər, daim bu bölgədə istər köklü, yerli xalqlara, istərsə də digər xalqlara hörmət, yüksək qonaqpərvərlik, hər bir xalqın dilinə, dininə qayğı özünü göstərmişdir.

Dünyada konfliktlərin, siyasi çəkişmələrin artdığı bir dövrdə özünün kökündə humanizmi, insan haqlarını, ümumbəşəri insani duyğuları birləşdirən multkultralizmə və onun təbliğinə çox böyük ehtiyac vardır. Bu baxımdan cənub bölgəsi bir örnək və nümunədir.

Multikultralizmdə ayrı-seçkilik yoxdur, lakin bunun fonunda hər bir xalqın mədəniyyətinə xüsusi qayğı və diqqət vardır. Mətbəxə gəldikdə isə burada müəyyən fərqlilik özünü göstərməkdədir. Məsələn, ləvəngi, lərgə plov, qoz küküsü və digər bəzi yeməklər vardır ki, məhz talış yeməkləridir.

Digər məhz talışlara məxsus özəl bir adətə diqqət edək: bölgədə belə bir adət vardır ki, çərşənbə günü səhər tezdən durub nehrə üçün heyva ağacından balaca ölçüdə heyva çubuğu dərilir ki, bu da nehrədən bol yağ çıxacağı anlamına gəlir. Talışlara məxsus başqa bölgələrdə müşahidə olunmayan adətlərdən biri də Novruz bayramında nişanlı qızlara balığın ağzında qızıl üzüyün aparılması adətidir. Qızıl üzük balığın ağzına keçirilir və bayram xonçasında qız evinə aparılır. Digər özəl bir inanca nəzər salaq: Çərşənbə axşamı çiy yumurta, ocaq kösövü və yumurta boyamaq üçün qırmızı rəng bunların hamısını götürüb təmiz qaba qoyaraq aparıb axar su kənarına qoyurlar. Çərşənbə günü sübh tezdən durub heç kim görmədən gizlincə həmin yerə gedir və yumurtaya baxırlar. Əgər yumurta qırmızı rəngə boyanıbsa, niyyətin hasil olacağına, yaxud qara rəngə boyanıbsa, niyyətin hasil olmayacağına yozulur.

Qədim yaşayış məskəni olan Lənkəranın Biləsər kəndində, bölgənin digər yerlərində müşahidə olunmayan bir inanc bu gün də öz aktuallığını qoruyub saxlamışdır. Kiçik Çillənin əvvəllərində yerə istiliyin gəlməsi ilə bağlı diqqət çəkən bir inanca nəzər yetirək. Kiçik çillənin əvvəli (bu hardasa fevral ayının üçünə təsadüf edir) inanca görə Kürdoğlu adlı bir oğlan qışın sərt boranına, çovğununa düşür. Lakin, qılınc kimi kəsən şaxta gəncin inamını qıra bilmir. O inanır ki, təbiətin bu sərt sınağından çıxacaq və onun isti ruhu, inamı şaxtaya qalib gələcək. Bu inamla o yoluna davam edir. Artıq taqətdən düşmüş gənc yerə yıxılır. Onun üstünü lopa-lopa yağan qar örtməyə başlayır və o tamamilə qarın ağ örtüyünə bürünür. Ancaq Kürdoğlu öz inamını itirmir, inanır ki, içində alovlanan həyat məşəli bütün vücudunu dondurmağa çalışan şaxtanın əlindən onu tezliklə xilas edəcək. Budur, onun aldığı nəfəsin istiliyindən üstünü örtən qar əriməyə başlayır. Artıq bu istilik ətrafa yayılır və ətrafdakı qar da əriyir. Bu xalq inancı qışın son ayı olan fevral ayında havaların sərt keçməsi ilə tam səsləşir. Fevral ayında havalar sərt keçir, kiçik çillə özünün sərt üzünü göstərir. Lakin buna baxmayaraq, insanlar yazın gəlişinə inanır və böyük ümidlə gözləyirlər.

Gördüyümüz kimi, bölgədə xalq inanclarının müxtəlifliyi, özəlliyi multikultural ünsürlərin nümunəsidir. Çünki multikultural cəmiyyətdə fərqli mədəniyyətlər, fərqli xalq inancları, fərqli rituallar özünü göstərməkdədir. Cənub bölgəsi üçün də yuxarıda sadalananlar xarakterik olsa da, lakin bu fərqlilik bir-birinin içərisinə o qədər dərin nüfuz etmişdir ki, vahid bir mədəniyyət üzə çıxmışdır. Multikultralizm demokratiyanın bariz nümunəsidir. Yalnız demokratik cəmiyyətdə multikultural mədəniyyətlər bir arada birləşə bilər. Bu baxımdan Azərbaycan demokratik, sivil dövlət kimi dünyaya bir örnəkdir və Cənab prezident İlham Əliyevin 2016-cı ili Azərbaycanda multikulturalizm ili elan etməsi bütün dünyaya Azərbaycanın humanizm və dostluq ölkəsi olduğunun mesajıdır.

Multikulturalizm insanlığa dəyərin təzahürüdür, və özündə tolerantlığı ehtiva edir ki, bu da bütün bəşəriyyətin, dünyanın xilaskarı olan humanizmi özündə birləşdirir. Multikulturalizm anlayışı, ümumiyyətlə, bu termin çox qədim tarixə aid deyildir. Lakin humanizm, digər xalqlara, xalqların mədəniyyətinə, dini və milli dəyərlərinə hörmət, bir sözlə ən böyük insani keyfiyyət, ən böyük insani dəyər olan humanizmin tarixi isə çox-çox qədimdir. Məsələn, biz bunu Kitabi-Dədə Qorqud dastanında, həmçinin nağıllarımızda humanist ideyaların şahidi oluruq. Ona görə də buna əsaslanıb deyə bilərik ki, multikultralizm termini nə qədər modern olsa da onun özündə birləşdirdiyi amillər dünyanın yaşı qədər qədimdir. Ölkəmizdə keçirilən çoxsaylı beynəlxalq tədbirlər sübut edir ki, Azərbaycan multikultural və tolerant dövlətdir. Lakin sonda onu da xüsusi vurğulamaq istəyirəm ki, Azərbaycan nə qədər tolerant və multikultural dövlət olsa da biz vahid düşmənimiz olan ermənilərə qarşı heç vaxt multikultural və tolerant ola bilmərik. Çünki bu etnik qrupun nümayəndələrinin kökündə və genefonunda multikultural hüceyrələr yoxdur. Onlar digər xalqların mədəniyyətinin, adət-ənənələrinin oğurluğu ilə məşğuldurlar. Ona görə də, biz Azərbaycan xalqı olaraq, bu etnik qrupa qarşı heç bir zaman multikultural olmamalı və gələcək nəsli də bu ruhda tərbiyələndirməliyik. Dədə Qorqud dastanında deyildiyi kimi, “qarı düşmən dost olmaz”.

**Xülasə**

Multikulturalizm çoxmədəniyyətlilik bir çox mədəniyyətlərin bir arada birləşməsi deməkdir. Mədəniyyət isə hər bir fərdin, hər bir xalqın özünəməxsusluğudur. Cənub bölgəsi folklorunda bir neçə xalqların mədəniyyətlərinin bir arada birləşməsi bu bölgənin multikultural məkan olmasından xəbər verir. Lakin burada bir məqam xüsusi qeyd olunmalıdır ki, Azərbaycan az saylı xalqların yaşadığı digər bölgələrdən fərqli olaraq Cənub bölgəsində yaşayan az saylı xalqların adət-ənənələrində fərqlilik özünü göstərmir. Bu da bu bölgədə yaşayan xalqların vahid bir müstəvidə birləşməsindən, mədəniyyətlərin bir-birinin içərisinə dərin nüfuz etməsindən xəbər verir. Burada ayrı-ayrı azsaylı xalqlar yaşasa da lakin sayca çox türklər və talışlar yaşayır. Burada yaşayan talışlar və türklərin folklorunda, cüzi fərqlər istisna olmaqla, adət ənənələrində, ümumiyyətlə mədəniyyətlərində yuxarıda qeyd olunduğu kimi, fərqli məqamlar yoxdur. Cənub bölgəsi folkloru çox zəngindir. Bölgənin mətbəxi isə özəlliklə seçilir. Mətbəxin rəngarəngliyi bölgənin qədim tarixə və mədəniyyətə sahib olduğunu bildirir. Çünki mətbəx köklü xalqların təkamülünün nəticəsidir. Cənub bölgəsi folklorunda multikultural dəyərlər vahid bir Azərbaycan mədəniyyətini təmsil edir.

**Резюме**

Мультикультурализм – это монокультура и обьединение в одном ряду многих культур. С этой точки зрения объединение культур нескольких народов в фольклоре Южного региона даёт нам знать о мультикультурализме данной местности. Но тут особенно должно быть отмечено то, что в отличии от других районов, в которых живут малочисленные народы, у живущих в Южном регионе малочисленных народов различия в культуре не демонстрируются. Это же уведомляет нас о слиянии в одной плоскости народов, живущих в этом регионе, а также о глубоком влиянии культур друг на друга. Даже если тут живут разные малочисленные народы, в большем количестве население составляют тюрки и талыши. Как уже было отмечено выше, в фольклоре, обычаях и вообще, в культурах тюрков и талышей отличительные признаки отсутствуют. Фольклор Южного региона очень богат. Кухня региона особенно выделяется. Красочность кухни свидетельствует о владении региона древней историей и культурой. Потому, что кухня результат эволюции коренных народов. Мультикультуральные ценности в фольклоре Южного региона представляют единую культуру Азербайджана.

**Summary**

Multiculturalism is monoculture, it means the combination of some cultures. But the culture is the identity of each personality, each nation. That is why the combination of cultures of some nations in the folklore of the South region gives the information about the multicultural place of this region. But a special point must be noted particularly that unlike the other regions of Azerbaijan where the limited nations live the differentness doesn't show itself in the culture of limited nations living in South region. And it gives the information of joining of nations living in one plane, the deep influence of the cultures. Though many limited nations live here, Turks and talishs are more here according to their numbers. As it mentioned there are no different points in the folklore, traditions, generally in the culture of talishs and Turks.

The folklore of South region is very rich. But the cuisine of the region is differed especially. The many- coloredness of the cuisine shows the ancient history and culture of the region. Because the cuisine is the result of the evolution of the basic nations.

The multicultural values in the folklore of South region represent the common Azerbaijan culture.

**Yusif Rzayev**
**Oğuz Rayon İcra Hakimiyyəti, YYÇİ**
**və HMÜ Komissiyasının məsləhətçi-psixoloqu**
**Azərbaycan, Oğuz**

# OĞUZDA YAŞAYAN AZSAYLI XALQLARIN FOLKLORUNDA ETNİK ÖZÜNƏMƏXUSLUQ VƏ ORTAQ MƏNƏVİ DƏYƏRLƏR

***Açar sözlər:*** *Multikultural, etnik azlıq, folklor, ləzgi, ortaq dəyər*
***Ключевые слова:*** *Мультикультуральный, этнические меньшинства, фольклор, лезгины, общие ценности*
***Key words:*** *Multicultural, ethnic minority, folklore, lezghins, common values*

Əgər Azərbaycan dünyada multikultural dəyərlərin ən birinci nümunəsi, mərkəzi, obrazlı desək, ürəyi hesab edilirsə, Oğuz bu ürəyin ən əhəmiyyətli arteriya damarlarından biridir. Oğuz Şəki-Zaqatala regionunun ən kiçik rayonu olsa da tarixən etnik zənginliyi ilə seçilmişdir. Yunan alimi Strabon, alban tarixçisi Musa Kalankatlı və digər müəlliflər öz əsərlərində yazırdılar ki, Qafqaz Albaniyasında (bugünkü Oğuzun ərazisi də həmin dövlətin ərazisinə daxil idi) eramızın I əsrində 26 tayfa yaşayırdı. Bu 26 tayfanın sırasında olan udilər və leqlər (ləzgilər) bu gün də öz etnik varlığını Oğuzda saxlayırlar. Aparıcı tayfa olan albanlar və digər türksoylu tayfalar müasir Azərbaycan xalqının (həm də oğuzluların) etnogenezində əsas rol oynayaraq onu formalaşdırmışlar. Hazırda Oğuz rayonunda azərbaycanlılarla yanaşı, ləzgilər, udilər, yəhudilər, ruslar, avarlar, məhsəti türkləri, kürdlər, tatarlar, ukraynalılar, gürcülər, talışlar və s. xalq və etnik qrupların nümayəndələri yaşayırlar.

Əgər Heydər Əliyev dühasının işığında irəliləyən Azərbaycan dünyaya örnək olan multikultural dəyərlər sistemini və modelini formalaşdırıbsa, əgər Azərbaycan üç müxtəlif dünyəvi dinin yaşadığı nadir ölkədirsə, bu sistemin, bu modelin, bu nadirliyin ən yaxşı nümunəsini Oğuzda görmək olar. Bu barədə bir qədər sonra. Öncə belə bir suala cavab vermək istəyirəm: Niyə Azərbaycan keçmişdə və bu gün də müxtəlif etnosların, müxtəlif dinlərin dinc, yanaşı yaşadığı bir ölkə olmuşdur? Bu sualın cavabını dünyanın həqiqətsevər, vicdanlı, qərəzsiz alimləri çoxdan vermişlər. Mən isə xatırladıram: Qaynayan sivilizasiyanın mərkəzi Azərbaycan olmuşdur. Dünyada ilk danışıq dili, ilk dünyəvi din, ilk məktəb, ilk əlifba, ilk elm, ilk musiqi, ilk ədəbiyyat, ilk dövlət məhz Azərbaycan məkanında yaranmışdır, qədim Azərbacan xalqına məxsusdur. "Avesta", Zərdüşt, atəşpərəstlik, Kür-Araz mədəniyyəti, Maq sivilizasiyası bütün dinlərin və mədəniyyətlərin başlanğıcında durur. Qədim yunan, Roma, Misir, Çin, hind, yəhudi, ərəb, fars, rus, Avropa mədəniyyətləri "Avesta"dan qaynaqlanmışdır. Xatırlatmamı qüvvətləndirmək üçün məhşur fransız alimi, filosof və şərqşünas Ejen Levekdən bir misal. Ejen Levek 1880-ci ildə yazırdı ki, qədim Azərbaycan ədəbi nümunəsi "Avesta" hələ eramızdan xeyli əvvəl yunan, Roma, İtaliya və Fransa ədəbiyyatına təsir etmiş, oradan da bütün dünya mədəniyyətinə yol tapmışdır. Avropanın ən məhşur alim, yazıçı, şair və filosofları Aristofon, Aristotel, Platon, Ovidi, Vergili, Bokkaço, Dante, Rable, Lafonten, Perro, Titus, Aristo və başqaları "Avesta"dan bəhrələnmişlər (Ejen Levek, "Hind, İran mif və əfsanələri Aristofon, Platon, Aristotel, Vergili, Ovidi, Bokkaço, Titus, Dante, Aristo, Rable, Perro, La Fonten yaradıcılığında", Paris, 1880). Daha bir misal: dahi Norveç alimi və səyyahı Tur Heyerdaldan: "Azərbaycan Teli" adlı elmi məqaləsində o yazır ki, bu günki norveçlilər öz ulu babalarını Aserlər-Azərlər adlandırır və onların indiki Şimali Avropaya, o cümlədən Norveçə məhz indiki Azərbaycandan köçüb gəldiklərini bildirirlər. Tur Heyerdal qeyd etdiyim bu məqaləsində tarixin daha dərin qatlarına enir və bizə çox qiymətli soraqlar gətirir. Bu böyük alim və səyyah elmi əsaslarla sübut edir ki, miqrasiyanın Avrosentrik nəzəriyyəsi yalandır, dünyaya inteqrasiya indiki Azərbaycan Respublikasından başlamışdır, Avropa deyil, məhz Azərbaycan sivilizasiyanın mərkəzi olmuş, gəmiçilər vasitəsilə erkən ticarəti və mədəniyyəti ucqarlara yaymışlar ("Azərbaycan interneşl" jurnalı, ingilis dilində, ABŞ, Los-Anceles, 1995).

Hörmətli folklorşünas alim Mətanət Yaqubqızı "Azsaylı xalqların folkloru" (Bakı, 2014) adlı elmi-tədqiqat kitabında Dağıstanın xalq şairi, milliyyətcə avar olan Rəsul Həmzətovdan belə bir rəvayəti misal gətirir: "Allahın elçisi qatırın belində dünyanı dolaşır, nəhəng xurcununun ağzını açıb

xalqlara dil paylayırmış. Çində olur, onlara çin dili verir. Ərəbləri gedib tapır, ərəb dili verir. Yunanlara yunan, ruslara rus, fransızlara fransız dili verir, gürcülərə gürcü dili, osetinlərə osetin dili verir. Qar çovğunu başlayır, kəndi-kəsəyi bürüyür. Allahın elçisi dibində iki ovuç paylanmamış dil qalan xurcununu qaldırır və o dillərin hamısını dağlara səpələyir.

- Alın, kim hanısını istəyir, seçsin-deyir. Qar – çovğun atılmış dilləri yarğanlara, qayalara çırparaq hara gəldi səpələyir. Hərə öz ana dilini tapır. Elə o zamandan dünyada avarlar, ləzgilər, darginlər, kumuklar, tatlar, laklar peyda olur."

M. Yaqubqızı qeyd edir ki, bu bir rəvayətdir, ancaq çox maraqlıdır, doğurdan da bu bir faktdır ki, dil müxtəlifliyinin ən çox kök atdığı yerlər dağlıq ərazilərdir.

Bu niyə belədir? Azərbaycan tədqiqatçılarından Əjdər Fərzəli Qorqud, Baloğlan Şəfizadə və başqaları çoxsaylı etibarlı mənbələrə istinad edərək bildirmişlər ki, dünya dilləri bir dil ağacından yaranmışdır, ulu dil mövcuddur və bu dilə ən yaxın olanı protoazərbaycan dilidir. Dünyanın 20-dən çox xalqının folklorunda yaranmış Nuh haqqında əfsanə tarixi həqiqətdir. Nuh Peyğəmbərlə bağlı olan Kainat tufanından sonra yer kürəsinin əvvəllər bitişik olmuş quru hissəsi materiklərə, qitələrə parçalanmışdır. Ayrı-ayrı yerlərə düşmüş insan qrupları ana dildən apardığı sözlər hesabına öz doğma dillərini yaradaraq formalaşdırmışlar. Böyük ərazidə yaşayanların dil birliyi, dağlıq ərazilərdə yaşayanların dil müxtəlifliyi bu tufan parçalanması ilə əlaqədardır. Dağlıq ərazidə uzaq minilliklərdə yaşayanların mədəni, iqtisadi əlaqələrinə hətta kiçik yarğanlar, dərələr də mane olmuşdur (Bax: Ə.F.Qorqud, "Dədə Qorqud yurdu", Bakı, 1989. "Dədə Qorqud sözü", Bakı 1999. B.Şəfizadə, "Zərdüşt, Avesta, Azərbaycan..." Maq sivilizasiyası, Bakı,1996). Amma kök birdir, maya birdir, azərbaycanlı da, ləzgi də, avar da, udi də, kumuk da, çərkəz də, lak da, dargin də etnogenetik cəhətdən bir atanın-ananın övladları olduğu kimi, dil, folklor, məişət, adət - ənənə baxımından da bir ailənin üzvləridir, bir çələngi bütövləşdirən, tamlaşdıran, ona gözəllik və təravət bəxş edən müxtəlif rəngli gül və çiçəklərdir. Bu çələngdən onlardan birini götürsək, istər yaşıl olsun, istər qırmızı, istər sarı olsun, istər narıncı...o çələng öz gözəlliyini itirməzmi? Dörd barmaqlı əl bütöv əldirmi?

Əgər Adəm bəşəriyyətin birinci atasıdırsa, Nuh ikinci atasıdır. Nuhun isə azərbaycanlı olduğu, Naxcıvan şəhərində qəbri üzərində möhtəşəm bir məqbərənin ucaldıldığı hamıya bəllidir. Budur həqiqət, budur elm, budur reallıq, budur göz qabağında olan. Məhz buna görə də Azərbaycan dünyada multikulturalizmin vətənidir, üç nəhəng dünyəvi dinin – xiristianlıq, islam və yəhudi dinlərinin yaşadığı nadir ölkədir, çoxsaylı etnosların mehriban qardaşlıq ailəsidir. Bu ailənin başında bizim ədalətli ulu babalarımız müdrikcəsinə, cəsarətlə, dəyanətlə durmuşlar. Bu estafeti, bu ənənəni XX əsrin sonu – XXI əsrin əvvəllərində ümummilli lider Heydər Əliyev ləyaqətlə davam etdirmiş, uzaq qərinələrin soyuq yağışının, sərt küləyinin, qızmar günəşinin təsirinə məruz qalmış bir qalanı təmir etmiş, onun üzərində yeni, möhkəm bürclər, mərtəbələr ucaltmışdır. Bu abidəni Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev bacarıqla qoruyur. Yer üzünü ayrıseçkilik, ksenofobiya, islamafobiya, antisemitizm kimi təhlükəli halların bürüdüyü bir vaxtda dünya xalqlarının, bu xalqların uzaqgörən nümayəndələrinin, ağıllı rəhbərlərinin və ziyalılarının nəzər – diqqəti Azərbaycana yönəlmişdir, bu ölkəyə heyranlıqla, ümidli gözlərlə baxırlar. Qibtə, qısqanclıq və paxıllıq hissləri ilə yaşayanlar da çoxdur. Bu gün rus da, fransız da, ingilis də, alman da, fars da, yunan da, italyan da Azərbaycanın sivil ucalığını, bəşəri böyüklüyünü, tarixi ilkinliyini dərk edir. Dərk edir və çox təəssüflər olsun ki, əksər vaxtlarda inkar mövqeyində dururlar. Torpaqlarımızın Ermənistan tərəfindən işğalı, həll olunmamış qondarma Dağlıq Qarabağ problemi buna misaldır. Biz isə xeyrin şər üzərində qələbə çalacağına inanırıq. Təbii ki, biz dünya xalqlarının ümumbəşəri mədəniyyətlərin formalaşmasına verdiyi töhfələri danmırıq. Amma bu töhfələrdə hərənin öz yerini olduğu kimi göstərmək hər kəsin borcudur. Bax, Avropa və xristian dünyası bu borcu unudur.

Yuxarıda qeyd etdiyim multikultural dəyərlərin ən yaxşı modelini Oğuz rayonunda, bu bölgədə yaşayan müxtəlif etnik azlıqların dilində, folklorunda, həyat tərzində, məişətində, adət-ənənəsində də görmək olar. Oğuzun ərazisində tarixin ayrı-ayrı dövrlərində bütpərəstlik, zərdüştlik, xristianlıq, islam, yəhudilik və bir çox başqa dini inanclar yayılmış, yanaşı yaşamış, dini həyatın özəlliyini şərtləndirmişdir. Bu gün Oğuz Azərbaycan Respublikasının yeganə rayonudur ki, burada üç dünyəvi din – xristianlıq, islam və yəhudilik yanaşı yaşayır, bu dinlərə etiqad edən etnosların dini icmaları və onların ibadət evləri olan kilsə, məscid və sinaqoqlar fəaliyyət göstərir. Bu gün Oğuz burada ya-

şayan azərbaycanlıların da, ləzgilərin də, udilərin də, yəhudilərin də, rusların da, avarların da, Mesxeti türklərinin də isti ana qucağıdır. Onların sevinci də birdir, kədəri də. Ortaq Azərbaycan dili, Azərbaycan mədəniyyəti, Azərbaycan adət-ənənəsi Oğuzda yaşayan azsaylı xalqların həyatına elə nüfuz etmişdir ki, bəzən bu etnosları bir-birindən ayırmaq çətin olur. Lakin hərəsinin öz gözəlliyi var. Həyatın şirinliyi də elə bundadır.

Ləzgilər və udilər Oğuzun aborigen etnoslarındandır. Dağ yəhudiləri XVII əsrdən, ruslar XVIII əsrdən, məhsəti türkləri XX əsrin sonralarından, digər azsaylılar müxtəlif dövrlərdən burada məskunlaşmışlar.

Şimaldan Dağıstan Muxtar Respublikası ilə həmsərhəd olan Oğuz eramızdan əvvəl də, sonra da Dağıstan xalqları ilə sıx iqtisadi, ticari və mədəni əlaqədə olmuşdur. Bu əlaqə Oğuzun şimalından Dağıstana doğru istiqamətlənən iki ən böyük keçid - Xaçmaz və Daşağıl keçidləri vasitəsilə yaradılmışdır. Strateji əhəmiyyətli həmin keçidlərdən erkən orta əsrlərdən günümüzə qədər yerli hökmdarlarla yanaşı, Türkiyə sultanları, İran şahları, çar Rusiyasının sərkərdələri istifadə etmişlər. Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra bu keçidlərdə həm Rusiyanın, həm də Azərbaycanın dövlət sərhəd məntəqələri yaradılaraq fəaliyyətə başlamışdır.

Respublikamızda olduğu kimi, Oğuzda da ləzgilər sayca azərbaycanlılardan sonra ikinci yerdə durur. 2009-cu ilin siyahıyaalınmasına görə rayonda onların sayı 4831 nəfərdir. Antik yunan müəlliflərindən Strabonun (e.ə. I əsr), Klavdi Ptolomeyin (e.ə. II əsr), Herodotun (e.ə. V əsr) əsərlərindən öyrənirik ki, Qafqaz Albaniyasında 26 tayfa yaşayırdı və onlardan biri leqlər (ləzgilər) olmuşdur. Bu məlumatı çoxsaylı Azərbaycan və xarici ölkə tədqiqatçıları da araşdıraraq təsdiqləmişlər. Böyük və zəngin tarixi olan bu xalq əsrlər boyu azərbaycanlılarla və digər dağlı etnoslarla birlikdə fars, ərəb, monqol, rus işğalçılarına qarşı vuruşmuş, azadlıq mübarizisinin şanlı səhifələrini yazmışdır. Hazırda ləzgilər toplu halda əsasən Dağıstan Respublikasının ərazisində yaşayırlar. Lakin Azərbaycan da onların vətənidir, burada onlar aborigen etnosdur. Dağıstan Muxtar Respublikasının tərkibində Rusiyaya birləşdirilmiş Dərbənd ərazisi də tarixi Azərbaycan torpağıdır. Oğuzda ləzgilər cəm halda rayonun Filfilli, Qarabulaq və Astraxanovka kəndlərində, qismən Bayan kəndində və Oğuz şəhərində, dağınıq halda müxtəlif yerlərdə yaşayırlar.

Oğuz ləzgiləri islam dininin sünni məzhəbinə etiqad edirlər. Dillərinin Qafqaz dil ailəsinin Nax-Dağıstan qrupuna aid olduğu bildirilir. Əsas məşğuliyyətləri əkinçilik və maldarlıqdır. Oğuzda yerli azərbaycanlılarla ən çox qaynayıb-qarışan etnos ləzgilərdir. Müəyyən dil fərqindən başqa onların bütün inancları, adət-ənənələri, toy və yas mərasimləri, folkloru, məişəti, həyat tərzi azərbaycanlılarla, demək olar ki, eynidir. Oğuzda ləzgilər Azərbaycan dilində təhsil alırlar. Filfilli və Qarabulaq kəndlərində ləzgi dili də tədris olunur. Oğuzda ləzgilərlə azərbaycanlıların qarışıq nigahlarından yaranmış yüzlərlə ailə var. Azsaylı ləzgilərin çoxsaylı azərbaycanlılarla qaynayıb-qarışmasını mən konsalidasiya əlaməti hesab edirəm. Din eyni, həyat tərzi eyni, adət-ənənə eyni, folklor eyni, irq eyni, kök eyni, mənşə eyni. Gəlin, bu xalqın dil və folklor nümunələrinə diqqət yetirək: Onlar anaya - dide, ataya - buba, babaya - baba, Aya - vuar, Günəşə - raağ və s. deyirlər. Ləzgi atalar sözlərinə baxın: ləzgilər deyir: “Əsil kişini xənçərdən betər söz ağrıdır”, azərbaycanlılar deyir: ”Qılınc yarası sağalar, söz yarası sağalmaz”; ləzgilər deyir: ”Qarı düşmənə rəhm etmə, düşmən dönüb dost olmaz”, azərbaycanlılar deyir: “Qarı düşmən dost olmaz”; ləzgilər deyir: “Qonşu yaxşı olsa, çolaq qız da ərə gedər”, azərbaycanlılar deyir: “Qonşu qonşu olsa, kor qız da ərə gedər”, ləzgilər deyir: “İlanın özünü öldürüb, balasını sağ qoyma”, azərbaycanlılar deyir: “İlanın ağına da lənət, qarasına da” və s. Bunlar eyni düşüncənin oxşar ifadə variantları deyilmi? Ləzgi xalq mahnıları Suna çan (Sona can), Ay dilber (Ay dilbər), Alaquzli (Alagözlü), Muleyli (Muleyli), Şirin – Şirin (Şirin – Şirin), Benevşa (Bənövşə), Şuşe xanım (Şüşə xanım), Perizada (Pərizadə) və başqalarıının adları kimi musiqisi, məzmunu, ritmi, ahəngi, şuxluğu, həzinliyi də Azərbaycan xalq mahnıları ilə üst – üstə düşür. Azərbaycanlılar buna qısqanırmı, daralırmı, dözümsüzlük hərəkətləri edirmi? Əsla yox! Axı əti sümükdən ayırmaq olmaz. Amma hərəsinin özünəməxsus bir başqa tamı, bir başqa dadı var, onlar öz milli çalarları, öz milli koloriti ilə seçilir. Onları araya - ərsəyə gətirən, bir çadırda əyləşdirən, bir tel ilə birləşdirən Azərbaycan tolerantlığı, Azərbaycan bəşəri böyüklüyü adlı ilahi qüvvədir. Bu qüvvə Avropa ölkələrində varmı? Dünyanın ən iti, ən şux və dinamik rəqsi olan” Ləzginka”nı –

azərbaycanlıların "Cəngi"si, "Qaytağı"sı ilə səsləşən bu oyun havasını sevməyən varmı? Ləzginkanın öz çalarları ilə seçilən Qax, Zaqatala, Balakən variantları kimin ruhunu oxşamır?

Oğuzun aborigen etnoslarından biri udilərdir. Udilər haqqında da ilk məlumatı antik yunan müəlliflərinin (Strabon, Herodot və s.) əsərlərindən öyrənirik. Müxtəlif dillərdə danışan 26 alban tayfasından biri olan udilər bu gün öz etnik varlıqlarını Qəbələ rayonunun Nic qəsəbəsində və Oğuz şəhərində qoruyub saxlamışlar. 2009-cu ildə aparılmış əhali siyahıya alınmasına görə Oğuz rayonunda onların sayı 74 nəfərdir. Udilər özlərini həmişə alban saymışlar. Onlar Qafqaz Albaniyası dövründə - 313-cü ildə digər alban tayfaları kimi xristianlığı qəbul etmiş və bu gün də xristianlığın pravoslav məzhəbinə etiqad edirlər. Oğuzda özlərinin alban-udi dini icması fəaliyyət göstərir. Oğuz şəhərinin şərq hissəsində yerləşən qədim Alban məbədində dini ayinlərini, şəhərin şimalındakı Alban-xristian qəbristanlığında isə yas mərasimlərini icra edirlər. Qəbələ rayonunun Nic qəsəbəsində udi dilində məktəblər fəaliyyət göstərsə də, Oğuzda udilərin sayının az olduğundan udi uşaqları Oğuz şəhərindəki 1 saylı tam orta məktəbin rus bölməsində oxuyurlar. Təxminən 180 il bundan əvvəl çar Rusiyası tərəfindən Azərbaycanın müxtəlif yerlərinə, həmçinin keçmiş Vartaşen (indiki Oğuz) rayonuna köçürülmüş ermənilər məhz xristian mənsubluğuna görə udilərə böyük zərbə vurmuş, onları assimilyasiya etməyə çalışmış, bu baş tutmadıqda genosid tədbirlərinə əl atmışlar. "Bir yanı Qəbələ, bir yanı Şəki" (Bakı, "Yeni nəsil" nəşriyyatı, 2008) kitabının müəllifləri Sadiq Qara və Vüqar Əhmədli yazırlar ki, yerli udilərdən Nikolay Poladov, Vani Kanançiyev, Katari Xaçikova həmin qanlı hadisələrdən Sadiq Qaraya yanıqlı-yanıqlı danışardılar. Nikolay Poladov deyirdi ki, evlərinə qəfil hücum edən ermənilərdən qorxuya düşüb Vartaşen kəndinin (indiki Oğuz şəhəri) şərqindəki Qanlı dərəyə qaçan udiləri ermənilər qılıncdan keçirmiş, ağaclardan asmış, uşaqları xəndəyə doldurub üstünü torpaqlamışlar. Bütün bunlara baxmayaraq, Vartaşen udiləri öz əqidələrindən dönməmiş, pravoslav olaraq qalmış, soyad sonluqlarını da dəyişməmişlər. Ancaq Nic udilərini illər boyu sıxışdıran ermənilər öz məqsədlərinə çatmışlar. Niclilər məcburiyyət qarşısında qriqoryanlığı qəbul etməli olmuşlar. Hətta soyadları da erməniləşmişdir. Quqasi Quqasyan, Badali Badalyan, Qazari Qazaryan olmuşdur.

Udilərin danışıq dili Qafqaz dilləri ailəsinin Nax-Dağıstan qrupuna aiddir. Ləzgi dilinə oxşarlığı çoxdur. Azərbaycan dilindən qaynaqlandığı göz qabağındadır. Filologiya üzrə fəlsəfə doktoru Mətanət Yaqubqızının tərtib etdiyi "Azsaylı xalqların folkloru" kitabında udilərin adət-ənənələrindən danışılır, folklor nümunələri verilir. Həmin folklor nümunələrində (toy mərasimləri, nağıllar, rəvayətlər) və bu gün Oğuzda yaşayan udilərin danışıqlarında rast gəldiyimiz güzgü, nağıl, padşax, naxırçı, bay-bay, zoğal, dokkaz, fağır və s. Azərbaycan dilinə aid sözlərdir. Belə sözlər udi dilində olduqca çoxdur. Udilər ataya bava, anaya nanay, günəşə beğ, aya xaş, oda arux, çaya çəy və s. deyirlər. Ləzgi dilində olduğu kimi, udi dilində də arxaikləşmiş Azərbaycan sözləri yaşamaqdadır. Məsələn, beğ- günəş "Avesta"dan gələn od- Günəş - Allah məzmunlu "booq- boq- bay" sözünün fonetik variantıdır ki, avropalılar bu sözlə Allaha "boq" deyirlər.

Udilərin bugünkü toy adət-ənənələrində, nağıl və rəvayətlərində azərbaycanlıların bu gün unudulmuş, lakin nağıl və rəvayətlərdə saxlanılmış əski adət-ənənələri yaşamaqdadır. Məsələn, toy adətlərində deyilir ki, qız evinə bir qırmızı alma aparırlar, alma bütöv halda geri qayıdarsa, elçilik və nişan mərasimi baş tutmur. Udilərdə qız qaçırma yoxdur, yaxın qohumlardan qız almaq olmaz, qara zurna ilə toy edərlər, dəllək gəlib bəyin başını qırxar, çox şeyi kirvə həll edər və s.

Udilərin əqidəsində hər həftənin bazar günü "günəş günü" və günəşə sitayiş günü sayılır. Udilər buna "Beğeği", yəni günəş günü deyirlər. Ay udilərdə müqəddəs sayılır və aya inanmı "xaşaveluğ" adlanır.

Udilərin sevimli bayramlarından biri yaz bayramıdır. Onlar buna "joğulun axsibay"deyirlər. Mart ayının ortalarında keçirilən bu bayramda udilər də azərbaycanlılar kimi həyət- bacadan Novruz gülü yığır, yumurta boyayır. Uşaqlar həyətləri gəzib pay yığır, tonqal yandırıb üstündən tullanır və öz dillərində deyirlər:

*Ağrım – acım odda qalsın,*
*Ağrımı – acımı od aparsın.*

Udilərin Aya, Günəşə, oda inamları türk – azərbaycanlıların əski atəşpərəstlik inamları ilə səsləşmirmi?

Azərbaycanı, o cümlədən Oğuzu özünə ikinci vətən seçmiş, uzun illər ərzində bu torpaqda yerli əhali ilə dinc şəraitdə, qarşılıqlı anlaşma içində yaşayan xalqlardan biri də yəhudilərdir. Dağ yəhudilərinin Oğuz rayonunda məskunlaşması XVII əsrə təsadüf edir. Oğuzda onların dini icması fəaliyyət göstərir. Sinaqoqları var. 1849-cu və 1897-ci ildə tikilmiş, son illərdə əsaslı təmir edilmiş bu ibadət evlərində onlar öz dini ayinlərini icra edirlər. Oğuzun dağ yəhudiləri iudaizmin ortodoksal istiqamətinə mənsubdurlar. Sinaqoqlarda qadın və kişilər ayrılıqda ibadət edirlər. Əsasən Oğuz şəhərində yaşayan yəhudilərin sayı hazırda 100 nəfərə yaxındır.

Oğuzun yerli etnosları ilə uzun illər boyu mehriban bir şəraitdə yaşayan yəhudilərin özlərinə məxsus adət - ənənələri, həyat tərzləri, folkloru, məişəti, vardır. Dilləri fars dili qrupuna aiddir. Daha çox öz aralarında nigah və qohumluq əlaqələri qurmağa üstünlük verirlər. Şənbə günü (Şobot) yəhudilərin müqəddəs günü hesab edilir. Kişilər başına yastılaşmış papaq (Kippa – araqçın) qoyurlar. Əsas bayramları aprel ayında qeyd etdikləri nisan (nisoni) bayramıdır. Milli xörəkləri Oşərpəği Yarpaqi (dolmalı aş), Turşi – Tara (Sulu tərəvəz xörəyi), Oşliboyoyi (lobyalı aş), Şirpilov – Südplov, Xoyəquşd (ət, soğan, şabalıd və yumurta ilə bişirilir) adlanır.

Oğuz yəhudilərinin uşaqları Oğuz şəhərindəki məktəblərdə Azərbaycan dilində təhsil alırlar. Daha çox kənd təsərrüfatı işləri və ticarətlə məşğul olan Oğuz yəhudilərinin elmə, sənətkarlığa, ədəbiyyata da maraqları böyükdür. Oğuzda doğulub boya – başa çatmış dağ yəhudilərindən Simax Şeyda, İbrahim Dağlı, İsak Abramov Azərbaycan dilində yazıb-yaradırlar. Bu insanların Azərbaycan nəşriyyatlarında çoxlu şeir kitabları nəşr olunmuşdur. Hazırda Almaniyada yaşayan yəhudi şair Simax Şeydanı nəinki Oğuzda, Azərbaycanda, həm də İsraildə, Almaniyada və bir çox başqa yerlərdə tanıyır və sevirlər.

Azərbaycan ədəbiyyatı, folkloru musiqisi, məişəti, adət - ənənəsi Oğuz yəhudilərinin iç dünyasına qırılmaz tellərlə bağlıdır. Azərbaycan bayatısını, nağılını, lətifəsini, atalar sözünü onlar öz mənəvi sərvətləri hesab edirlər. Azərbaycan onların da doğma vətənidir. Almaniyada yaşayan şair Simax Şeyda yazır:

*Ürəyi yaralı, qəlbi yaralı,*
*Vətəndən aralı, eldən aralı,*
*Gəzirəm qürbətdə "Qarabağ" deyə,*
*Ötüşür günlərim ağlı, qaralı.*

Simax Şeydanın şeirlərində və dağ yəhudilərinin adi danışıqlarında işlədilən gül, gülbədən, hürmət, mühübbət, səvgili, güzəl, inson, bəbə, bəfosuz, cun və.s. yəhudi və azərbaycanlıların həyat, məişət və mənəvi yaxınlığından soraq verir.

Göründüyü kimi, həm ləzgilərin, həm udilərin, həm də yəhudilərin danışıq dilləri, adət-ənənələri, folklor nümunələri və həyat tərzi etnik özünəməxsusluğu ilə seçildiyi kimi, ortaq mənəvi dəyərləri ilə də diqqəti cəlb edir. Bu dəyərlər dostluq, mehribanlıq, namusluluq, qonaqpərvərlik, comərdlik, Torpaq, Vətən və Tanrı sevgisidir. Bu dostluq və sevgi yalnız ləzgi, udi və yəhudilərin yox, Oğuzun digər etnik azlıqlarının da həyatnda yüz illər, min illər boyu heç bir aşınmaya məruz qalmadan yaşamış və Heydər Əliyev dühasının işığında bu gün də yaşamaqdadır, sabah da yaşayacaqdır.

**Xülasə**

Oğuz Şəki-Zaqatala regionunun ən kiçik rayonu olsa da tarixən etnik zənginliyi ilə seçilmişdir. Multikultural dəyərlərin ən yaxşı modelini Oğuz rayonunda, bu bölgədə yaşayan müxtəlif etnik azlıqların dinində, dilində, folklorunda, həyat tərzində, məişətində, adət-ənənəsində görmək olar. Oğuzda yaşayan ləzgilərin, udilərin, yəhudilərin və digər xalqların danışıq dilləri, adət-ənənələri, folklor nümunələri və həyat tərzi etnik özünəməxsusluğu ilə seçildiyi kimi, ortaq mənəvi dəyərləri ilə də diqqəti cəlb edir. Bu dostluq və sevgi Oğuzda yaşayan bütün xalqların həyatnda yüz illər, min illər boyu heç bir aşınmaya məruz qalmadan yaşamış və yaşamaqdadır.

**Резюме**

Несмотря на то, что Огуз является самым маленьким районом Шеки-Закатальского региона, он исторически выделялся этническим богатством. В быту, обычаях, в укладе жизни, в фольклоре и вероисповедании проживающих в этом регионе различных этнически малочисленных народов можно увидеть лучшую модель мультикультурализма. Несмотря на различие языков, обычаев и фольклора проживающих в Огузе лезгинов, удинов, евреев и других народностей, обращает на себя внимание общность моральных ценностей. В жизни всех народов, проживающих в Огузе, столетиями и тысячилетиями дружба и любовь остается неизмененным.

**Summary**

Though Oghuz is the smallest district of Shaki-Zagatala region can be distinguished with ethnic richness historically. The best model of multicultural values can be seen in Oghuz district- in religious, language, folklore, lifestyle, social life, custom and traditions of various ethnic minorities living in this region. As the spoken languages, customs and traditions, folklore samples and lifestyles of Lezghins, Udis, Jewish and other nations living in Oghuz distinguish with ethnic identity, their common moral values also attract attention. This friendship and love were in the life of all nations living in Oghuz for hundreds and thousands of years without weathering and today these are existed.

**Ədəbiyyat:**

1) Azsaylı xalqların folkloru. I kitab. Bakı-“Elm və təhsil”-2014
2) Keeçari G. Orayin. (Udi dilində). Bakı- “Azərbaycan Dövlət Nəşriyyatı”-2001
3) Keeçari G. Udilərdə ənənəvi toy mərasimləri. Gəncə-“Agah”-2004
4) İbrahim Dağlı. Həyat tərənələri. Bakı-“Şirvannəşr”-2006
5) İshaq Abram. Eşitdiklərim, gördüklərim, düşündüklərim. Bakı-“Şirvannəşr”-2010
6) Cavadov Q. Hüseynov R. Udilər (tarixi-etnoqrafik tədqiqat). Bakı-1996
7) Ocaq başında rəqs. Udi folkloru nümunələri (toplayanı və tərtib edəni: Georgi Keeçari). Gəncə-“Agah”-2002
8) Oğuz rayonunun statik göstəriciləri (məcmuə). Oğuz-2014

**Nizami Muradoğlu, fil.ü.f.d.**
**Qumral Mirzəyeva**
**AMEA Folklor İnstitutu**
**Azərbaycan, Bakı**

# ÇAĞDAŞ AZƏRBAYCAN ƏDƏBİYYATINDA MULTİKULTURALİZM ƏNƏNƏLƏRİ

***Açar sözlər**: Azərbaycan, multikultural, nəsr, bədii əsər, tolerantlıq, dözümlülük*
***Ключевые слова:** Азербайджан, мультикультуральный, проза, художественное произведение, толерантность, терпимость*
***Key words**: Azerbaijan, multiculturalism, prose, literary work, tolerance, endurance*

Azərbaycan ədəbiyyatı hər zaman bəşəri ideya daşıyıcısı olubdur. "Kitabi-Dədə Qorqud"dan Nizami Gəncəvinin "Yeddi gözəl" əsərinə, C.Cabbarlının "1905-ci ildə" pyesinə qədər keçilmiş yola nəzər saldıqda, Azərbaycan ədiblərinin bədii əsərlərində çoxmədəniyyətli süjetlərin olması, müxtəlif xalqların nümayəndələri arasında münasibətlər, multikultural ideyaların inikası nəzər-diqqətimizi cəlb edir. İlk növbədə multikultral deyəndə, müxtəlif mədəniyyətlərə malik xalqların birgə dinc yanaşı yaşaması, mədəni münasibətlərini qarşılıqlı şəkildə qurması, tolerantlıq kimi dəyərlər başa düşülür. Azərbaycanda yerli aborigen xalq olan Azərbaycan türkləri digər etnik qrupların fərqli baxışlarına, adət və ənənələrinə həmişə hörmətlə yanaşıbdır. Azərbaycançılıq məfkurəsi ilə əslində burada yaşayan milli azlıqların azərbaycanlılarla birlik nümayiş etdirməsi kimi bir ideyanın gerçəkləşdirilməsi nəzərdə tutulmuşdur. Azərbaycançılıq bu ölkədə yaşayan bütün xalqların bərabərhüquqlu vətəndaşlıq məfkurəsidir. Akademik İsa Həbibbəyli "azərbaycançılıq məfkurəsi yollarında" məqaləsində yazır: "Müstəqil Azərbaycan dövlətinin ideoloji əsasını xalqımızın və dövlətimizin maraqlarının başlıca mahiyyətini azərbaycançılıq təlimi özündə cəmləşdirir. Bu mənada hazırkı mərhələdə azərbaycançılıq dünya azərbaycanlılarının vahid, ümummilli təlimi, birləşdirici ideologiyasıdır. Bütün bunlara görə azərbaycançılıq təliminin keçdiyi inkişaf yolunun, bu ideal uğrunda gedən proseslərin, aparılmış mübarizələrin öyrənilib ümumiləşdirilməsi xüsusi aktuallığa malikdir" (**3, 612**).

Azərbaycan Respublikası demokratik əsaslara söykənən suveren dövlətdir. Azərbaycan xalqı Azərbaycan türklərindən, talışlardan, ləzgilərdən, ingiloylardan, udilərdən, tatlardan, buduqlardan, qrız və xınalıqlardan təşkil olunmuşdur. Bu şəraitdə müxtəlif etnik qrupların aborigen etnos ətrafında birləşməsi bu xalqlar arasında yaxınlıq, qohumluq əlaqələrinin yaranması zərurətini də meydana gətirmişdir. İndi Azərbaycanda türk, talış, ləzgi və s. gənclər öz aralarında heç bir ayrı-seçkilik qoymadan ailə qurur, birgə yaşamağı qəbul edirlər. Bu münasibətlər də klassik ədəbi ənənəmizdə necə vardısa, eləcə də davam edərək müasir ədəbi düşüncədə özünə yer almaqdadır. İstər tarixi proseslərlə, istərsə də müasir dönəmdə xalqlar arasında münasibətlərə demokratik fikirli yazarlar beynəlmiləl müstəvidən baxmış, baş verən hadisələrin kökündə insana qayğı, məhəbbət, humanizm hisslərini aşılamağa çalışmışlar. Bütün zamanlarda xalqdan ayrı düşməyən zümrələr qonşu xalqın nümayəndələri ilə talelərini paylaşdırmış, birgə yaşayış qaydalarına əməl etmiş, bunun nəticəsində aralarında mehriban qonşuluq əlaqələri dostluğa, məhəbbətə və qohumluğa çevrilmişdir. Azərbaycanda bu münasibətlərin tarixinə diqqət etdikdə erməni və azərbaycanlı münasibətlərini də xatırlamaq lazım gəlir. Ötən əsrin sonlarınadək bu münasibətlər birmənalı olmamışdır. Bu xalqların arasına ədavət toxumu səpənlər də olmuş, aradakı sərinliyi qaldırmaq istəyənlər də. Erməni yazarı Zori Balayanın, Silva Kaputikyanın və b. səpdiyi ədavət toxumunun cücərtilərinin məhsulu olan erməni şovinist qüvvələri iki qonşu xalqın arasında keçilməz Çin səddi yaratmağa xidmət etmişdir. Bunun nəticəsində minlərlə qarışıq ailələr ya dağılmış, yaxud da vətənin tərk edib üçüncü ölkədə yaşamaq məcburiyyəti qarşısında qalmışdır.

Erməni şovinizminin əksinə olaraq Azərbaycanda bəşəri ideyalar həmişə yüksək tutulmuş, tolerantlıq mühiti yaradılmış, dövlət siyasəti bu baxışdan sərgilənmişdir. Təsadüfü deyildir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin müvafiq sərəncamı ilə 2016-cı il Azərbaycanda multikulturalizm ili elan olunmuşdur. Sərəncamda deyilir: "Tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq, əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq,

qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir" (**1**).

Respublika prezidenti cənab İlham Əliyevin sərəncamında qeyd olunduğu kimi, ideya-məfkurəsini birgə yaşayışa uyğunlaşdıran ölkəmizdə tolerantlığın, multikultural dəyərlərin Azərbaycan ədəbiyyatına gətirilməsi də başlıca vəzifələrdən olmuşdur.

Elçin Əfəndiyevin "Mahmud və Məryəm" romanında erməni qızı ilə türk oğlunun sevgi macərasından bəhs edilir. Roman "Əsli və Kərəm" dastanın əsasında yazılsa da, süjet xəttinə çoxlu əlavələr edilibdir. Əsərin əsas qayəsi insanların arzuları, baş verən hadisələrə münasibəti, yaşamaq, yaratmaq eşqi, haqqa-ədalətə inam hissini yaşatmaqdır.

Filologiya üzrə elmlər doktoru Gülxani Pənah " Elçinin "Mahmud və Məryəm" əsəri və folklor" məqaləsində yazır: "Elçinin qəhrəmanları Mahmud Gəncəli Ziyad xanın oğlu, Məryəm isə Keşişin qızıdır. Hadisələrin mərkəzində duran Mahmudla Məryəmin bir-birinə olan məhəbbətidir və bu iki gəncin bir-birinə qovuşmasına mane olan, hadisələrin faciəvi sonluqla bitməsinə gətirib çıxaran din ayrılığıdır. Əsərdə iki gəncin sevgisinə mane olan mürtəce fikirli Qara Keşişdir. O, Məhəmməd ümməti Mahmudun qızıyla arasında olan məhəbbətinə qarşı çıxaraq gecəylə ailəsini götürüb eldən qaçır və sonrakı hadisələr onların başına gələn faciələrdən bəhs edir. Əsərdə el ədəbiyyatından gələn motivlər güclü olsa da, burada sənətkar dəsti-xətti, onun özünəməxsus bədii qələmi diqqəti cəlb edir. Yalnız dastanın süjetindən bəhrələnməklə və bu süjetdən yararlanmaqla onu yeni məzmun, yeni ideyalarla zənginləşdirmiş, dastanda qoyulan problemləri, mövzuları genişləndirmiş, bədii cəhətdən daha qüvvətli, bəşəri ideyaları, milli-mənəvi əxlaqi görüşləri özündə əks etdirən yeni mövzuda bir əsər yaratmışdır" (**2**).

Romanda Mahmudla Məryəm insanlığın, işığın simvolu kimi təzahür edirsə, keşiş obrazı qaranlığın, şərin, bəd qüvvələrin, xalqlar arasında multikultural dəyərlərin inkişafına maneçilik törədən təcrübənin göstəricisidir.

Ədəbiyyatımızda saf sevgi üzərində qurulması nəzərdə tutulan, bəşəri dəyərləri özündə cəmləşdirən ailə istəkləri Azərbaycan xalqının çoxmədəniyyətlilik və tolerantlığının, bəşəriliyinin göstəricisidir. Məhz bu göstərici zaman-zaman bir çox nağılların, dastanların, bədii əsərlərin mövzusu olmuşdur. Nəriman Nərimanovun "Bahadır və Sona", Hüseyn Cavidin "Şeyx Sənan" əsərlərinin qaynağı da xalq arasında geniş yayılmış bu əhvalatların üzərində qurulmuşdur. Bu cəhətdən Elçinin "Mahmud və Məryəm" əsərinin süjet xəttində məhəbbət macərası dayansa da, çoxmədəniyyətli bir baxışın sərgilənməsi bəşəriyyətə ən ülvi duyğuların, arzu və istəklərin reallaşdırılması çağırışı kimi səslənir.

Xalqlar arasında multikultural dəyərlərin öyrənilməsi və təbliği eyni zamanda milli ədavət qızışdırıcılarına, müharibə əhval-ruhiyyəsi ilə yaşayan, dünyanın müxtəlif bölgələrində dağıdıcılıq missiyasını utanmadan həyata keçirən şeytan xislətli adamların toplaşdığı birliklərə də bir mesajdır. Uzağa getmədən ölkəmizdə illərlə davam edən erməni işğalına münasibətimizi bildirək. Ölkəmiz zaman-zaman erməni xalqına öz qucağını açıb əzizlədi. Lakin erməni şovinistlərinin, yadelli "erməni ağalarının" təkidi, təzyiqi ilə süni surətdə yaradılan Qarabağ problemi iki xalq arasında böyük uçurumlar yaratdı, dəhşətli müharibəyə gətirib çıxardı. Müharibədə qazanan tərəf olmur, hər iki tərəf qeyb edir. Bu gün azərbaycanlılarla bərabər sadə erməni xalqı da müharibənin acılarını yaşayır.

Bu baxımından son zamanlarda yaranmış bədii əsərlərdə müharibənin açdığı yaraların real boyalarla təsviri və acı nəticələrinin göstərilməsi, sülhə, demokratiyaya çağırış kimi bəşəri ideyaların yer alması böyük əhəmiyyətə malikdür. Belə əsərlərdən biri də Nizami Muradoğlunun "Baba ocağı" romanıdır. Əsərdən bir hissəni burada xatırlatmağı məqsədə müvafiq hesab edirik:

"Hərtün ilə Hidayətin sazandalığı davam edir. Son zamanlar Farizi də özlərinə qoşublar. Axşamları Hərtüngilə yığışıb çalıb, oxuyur, oynayırlar. Bu üçlük kəndin məşhur toy çalanlarıdır.

Ması arvadın keyfi gələndə yenə də Mustafa onu yanına salıb Hərtüngilə aparır. Ması arvadın məzəsi buralar işi deyil, oynamaqdan doymayınca ortalıqdan çıxmaz. Oynamaq həvəsi də əksər vaxt axşamlar gəlir.

Hərtün də Ması arvadın məzələrinə öyrəncəklidir. Bu oynamağınnan yaşmağı da həmişə ağzının üstündə olur. Hərtünün yorulduğunu görəndə hərdən məzəli bir söz deyib çalğını yenidən can-

landırır. Görürsən ki, birdən Ması arvad yaşmağı ağzından aralayıb deyir:- Hərtün qardaş, bağışla. Gənclərin könlünü almaq üçün hərdən, - Fariz qardaş, sən də bağışla, - deyir.

Ması arvadın oynağan olduğunu bu kənddə bilməyən yoxdur. Mustafa kişi də neyləsin, bu yaşda durub Masının talağını qoltuğuna verib dədəsi evinə göndərəsi deyil ki. Amma zalım qızı Ması arvad da ay oynayandı ha, elə sındırır ki, baxanın gözü dörd olur. Onu deyim ki, Hərtünün arvadı Haykanuş da ayrı bir arvaddı, nəcib adamdı, yaxşı adamdı. Hər gecə evlərində toplanan şənlik məclislərini yola verir, hələ gələnləri çaya, meyvəyə qonaq da edirdi. Ması arvad da oynayıb yorulandan sonra Haykanuşun dəmlədiyi pürreyi çaydan bir bardaq içib özünə gələndən sonra görərdin əlini qoydu qulağının dibinə, bir bayatı çağırdı:

*Dağlar duman oldu, gəl,*
*Halım yaman oldu, gəl.*
*Yollarına baxmaqdan,*
*Gözlərim qan oldu, gəl.*

Deyirlər ki, Ması arvad cavanlığında bir başqasını sevmişdi. Taleləri onları ayırmış, Masının qarşısına sonralar Mustafanı çıxartmışdı. Ması arvad yaşlaşsa da sevdiyini unuda bilmirdi, hərdən həsrətli-həsrətli oxuyardı. Bəlkə oynamağı da, o həsrətini unutdurmaq məqsədi daşıyırdı. Nə bilmək olar... (**4, 78**)

Diqqət edin, bir müsəlman türk qadını, bir xristian erməni tarzənin evində oynayır. Türk qadının əri də yanında, erməni çalğıçının arvadı qonaqlara, oynayan qadına çay gətirir, xidmət edir. Bu yaxınlıq haradan qaynaqlanır? Uzun illər qonşuluqda mehriban yaşayan bu insanlar bütün siyasətlərdən kənardırlar. Onları maraqlandıran birgə, mehriban yaşamaları və güzəranlarını yaxşı keçirmələridir. Onlar heç bir dini məhdudiyyətlə bir-birilərinə qarşı hərəkət etmirlər. Hər kəs öz dinində azaddır, necə istəyir yaşayır, ona qoruq-qadağa yoxdur.

Göründüyü kimi, Azərbaycanda tarixən xalqların azadlığı məhdudlaşdırılmadığı kimi bu gün də tolerantlıq respublika rəhbərliyinin, aborigen xalqın əsas dəyər verdiyi meyarlardan biridir. Məhz bunun nəticəsidir ki, Azərbaycanda multikulturalizmin inkişafı dünya çoxmədəniyyətliyinin aparıcı amilinə çevrilə bilir. Azərbaycan türkləri azərbaycanlı vətəndaşlığını qəbul etmiş və burada yaşayan hər bir xalqın nümayəndələrinə qardaş, dost münasibəti bəsləyir, respublikanın inkişafı naminə birlikdə çalışmağa üstünlük verirlər.

Azərbaycan ədəbiyyatında multikultural dəyərlərin inikası xalqlar arasında dostluq və qardaşlığın tərənnümü ilə nəticələnir. Ədəbiyyat həyat həqiqətlərinin bədii ifadə vasitəsi olduğu kimi, eyni zamanda yetişməkdə olan nəsillərin mənəvi tərbiyəsində mühüm rol oynayır. Bu sahədə Respublikada aparılan məqsədyönlü işlər ədəbiyyatla məşğul olanların da qarşısına yeni vəzifələr qoymuşdur. İnanırıq ki, çoxmədəniyyətli ədəbiyyatımız dünya ədəbi arenasına çıxarılacaq əsərlərin yaradıcısına çevriləcəkdir.


**Xülasə**

Çoxmədəniyyətlilik Azərbaycan ədəbiyyatının əzəli mövzularından biridir. "Kitabi-Dədə Qorqud"dan Nizami Gəncəvinin "Yeddi gözəl"inə, C.Cabbarlının "1905-ci ildə" pyesinə qədər keçilmiş yola nəzər saldıqda, biz bunu aydın görə bilirik. Azərbaycan ədiblərinin bədii əsərlərində çoxmədəniyyətli süjetlər, müxtəlif xalqların nümayəndələri arasında münasibətlər, multikultural ideyaların inikası diqqətimizi cəlb edir. Qeyd edək ki, ölkəmizdə bütün etnik qrupların fərqli baxışlarına, adət və ənənələrinə həmişə hörmətlə yanaşılıbdır. Azərbaycançılıq məfkurəsi burada yaşayan milli azlıqların azərbaycanlılarla birliyinin nümayişi, ideoloji bazasıdır. Müasir yazarlarımız bu ideyanın bədii əsərlərdə təcəssümünə çalışırlar.

Məqalədə çoxmədəniyyətliyin konkret faktlarla təcəssümünə həsr edilmiş bədii əsərlərdən söhbət açılır.



**Резюме**

Мультикультурализм – одна из извечных тем азербайджанской литературы. Она явно прослеживается во всех произведениях, начиная с «Китаби Деде Коркуда» до «Семи красавиц» Низами Гянджеви и пьесы Дж.Джаббарлы «В 1905 году». В художественных произведениях азербайджан-

ских писателей привлекает внимание отражение идей мультикультурализма, поликультурных сюжетов и отношений между представителями разных народов. Следует отметить, что в нашей стране всегда с уважением относились к традициям и обычаям, различным взглядам всех этнических групп. Понятие Азербайджанство является идеологической базой проживающих в солидарности с азербайджанцами в нашей республике национальных меньшинств. Современные писатели стараются воплотить эту идею в художественных произведениях.

В настоящей статье рассматриваются художественные произведения, посвященные воплощению поликультурности конкретными фактами.

**Summary**

Multiculturalism is one of the eternal subjects of Azerbaijan literary. We can see it clearly,if we look through the way that began from the eposes “The Book of Dede Gorgud”, till “Yeddi Gozel” (“Seven Beauties”) by N.Ganjavi and the play “1905-ci ilda” (“in 1905 year”) by J.Jabbarli. Multicultural plots, the attitudes among the people that belong to different nations and the reflection of multicultural ideas attract our attentions in the literary works of Azerbaijan writers. We must note that, the traditions and the opinions of ethnic groups have been treated with respect in Azerbaijan. The idea of Azerbaijanism is the demonstration and the ideological base of the national minorities with Azerbaijanis. Our modern poets try to show this idea in literary works.

In the article it is said about the literary works which devoted the embodiment of multiculturalism by concrete facts.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı, Bakı şəhəri, 11 yanvar 2016.
2. Gülxani P., Elçinin “Mahmud və Məryəm” əsəri və folklor. www.gulxani.
3. Həbibbəyli İ., Azərbaycançılıq məfkurəsi yollarında, Ədəbi-tarixi yaddaş və müasirlik, Bakı, Nurlan, 2007, 696 s.
4. Muradoğlu N., Baba ocağı, Bakı, “Elm və Təhsil”, 2014, 248 s.

**Əli Süleymanov, pedaqoji elmlər üzrə fəlsəfə doktoru**
**AMEA Şəki Regional Elmi Mərkəzinin aparıcı elmi işçisi**
**Azərbaycan, Zaqatala**

# ŞƏKİ-ZAQATALA REGİONU MULTİKULTURAL DƏYƏRLƏRİN GÖSTƏRİCİSİ KİMİ

***Açar sözlər:*** *etnik tərkib, adət-ənənə, Seyran, Qorqot bayramı, Tunqay-Məlik*
***Ключевые слова:*** *этнический состав, обычаи-традиции, Сейран, праздник Горгот, Тунгай-Малик*
***Key words:*** *ethnic composition, tradition, Seyran, Gorgud holiday, Tunqay-Malik*

Xalqımızın mənəvi dəyərlərini, adət-ənənəsini, mədəniyyətini, nəsildən-nəslə keçən təcrübə və biliklərini özündə cəmləşdirən folklor irsimizin qorunması, yaşanması günümüzün vacib problemlərindəndir. Son dövrlərdə Azərbaycanın müxtəlif bölgələrində folklor materiallarının toplanması, nəşri sahəsində görülən işlər təqdirəlayiqdir. Şəki-Zaqatala bölgəsində yaşayan xalqların folklor irsinin tədqiqi də AMEA Folklor İnstitutu, AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Şəki Zona Elmi Mərkəzinin (hal-hazırda Şəki Regional Elmi Mərkəzinin) diqqətində olmuş və bu sahədə qəti addımlar atılmışdır. Lakin bunlar dəryada bir damladır. Şəki-Zaqatala bölgəsi zəngin etnik tərkibə malikdir. Burada azərbaycanlılarla yanaşı udinlər, avarlar, zaxurlar, yengiloylar (ingeloy) və həmçinin lak, ləzgi, osetin, çərkəz və s. millətlərin nümayəndələri yaşayırlar. Bu xalqlar bir-biriləriylə qaynayıb-qarışmışlar. Onların folklor nümunələri, adət-ənənələri də qarşılıqlı surətdə inkişaf etmişdir. Bölgənin folklor irsinə bu xalqların hər biri öz dəsti-xətti, spesifikliyi, milli koloriti ilə seçilən xalq yaradıcılığı nümunələrini daxil etmişdir.

Bu xüsusda bir lak məsəli yada düşür: Kiçik bir kəndin qabağından ancaq topuğa çatan çay axarmış. Lakin kəndin sakinləri bu çayı dizdən yuxarı çırmanıb keçərmişlər. Onlardan soruşanda ki, “belə balaca çayı niyə bu cür çırmanıb keçirsiz?”, - cavab verərmişlər: “Bizim cayımızı biz böyütməsək, kim böyüdəcək?!” Bu məsəli Şəki-Zaqatala bölgəsində yaşayan xalqların folkloruna aid etmək olar. Bu xalqların folklorunu biz qiymətləndirib toplamasaq, böyütməsək, bunu kim edəcəkdir? Bu kiçik, böyük çayların hamısı bir dənizə tökülür. Azərbaycan xalqının dəryaya sığmayan folklor irsini damla-damla toplamaq, yaşatmaq və gələcək nəsillərə ötürmək üçün biz də dizdən yuxarı çırmanıb çalışmalıyıq.

Tam məsuliyyətlə bu təşəbbüsə qatlaşan Şəki Regional Elmi Mərkəzinnin Folklor Laboratoriyası bölgədə yaşayan xalqların şifahi xalq ədəbiyyatının müxtəlif janrlarının toplanması sahəsində mühüm işlər görmüşdür. Bazanın əməkdaşları Şəki, Qax, Zaqatala, Balakən rayonlarının əksər kəndlərində olmaqla, yüzlərlə bayatı, ağı, atalar sözü, zərb-məsəl, lətifə, xalq oyunları, toy və yas mərasimlərinə aid məlumat toplamışlar. Bu materiallar “Azərbaycan Folkloru Antologiyası”nın XIII cildində[1] və “Babaların hikmət xəzinəsi (milli azlıqların folkloru)” kitabında[2] öz əksini tapmışdır.

Milli azlıqların folkloruna həsr olunmuş “Babaların hikmət xəzinəsi” kitabında avar, zaxur, yengiloy xalqlarının folklor nümunələri janrlar üzrə bölünərək həm avar, zaxur, yengiloy, həm də Azərbaycan dilində verilmişdir. Burada bayatı, mahnı, oxşama, layla, ağı, düzgü, deyişmə, alqış, atalar sözləri, rəvayət, nağıl, dastan və s. janrlar təqdim olunmuşdur. Toplanan folklor materialları içərisində bölgənin qədim tarixindən soraq verən əfsanələr – Kura Kali (yeng. “Qız daşı”), Pəri qala, Mesedulher (avar.“Qızıl göl”), Məlikin qəbri, təqvim bayramları və mərasimləri – Tsudul kassi (avar.“oddan tullanma”), Seyran, Qorqot (yengiloyca “durna”) bayramı, Toyole (avar. “Gül bayramı”) və ya Hilma (avar. “yelləncəklər bayramı”), dini bayram və ayinlər – Kuda ko (avar.“Böyük bayram” - Ramazan bayramı), Qədir gecəsi, yağış diləmə mərasimləri (Ləillah gəzmək, Tsilitsi) və s. böyük maraq doğurur.

Uzun müddət yağış yağmadıqda avar kəndlərində yaşıl budaqların və ya gəndalaşın içərisinə otuzdurulan “yaşıl oğlanı” və ya “yağış keçisini” (“tsadal tse”) təxtirəvanda gəzdirirdilər, adamlar

[1]AFA, XIII kitab, Şəki-Zaqatala folkloru (tərtibçilər: İ.Abbaslı, O.Əliyev, M.Abdullayeva), Bakı, “Səda”, 2005
[2]“Babaların hikmət xəzinəsi. Milli azlıqların folkloru. Şəki-Zaqatala bölgəsi (toplayan, tərtib edən və ön sözün müəllifi: Ə.A. Süleymanov).

bardaqlarla evlərdən çıxaraq onun üzərinə su əndərirdi. Yağışın yağması və ya kəsməsi üçün yengiloy kəndi Mosulda "Qız daşının" ("Kura Kali") başını çevirərdilər. Həmin məqsədlə uşaqlar "Çömçə-Çömçə" mahnısını oxuyur, Çömçədən başının və ya quyruğunun istiqamətini dəyişməsini xahiş edirdilər. Bu ayinlərdə meteoroloji önəm daşiyan və Ana-Qız rəmzi olan Böyük Ayı bürcü (Çömçə bürcü) kultunun izlərini görə bilərik.[3]

Qədim xalq gəzintisi mərasimi ilə icra olunan zaxur el bayramı – Seyran xüsusi diqqətə layiqdir. Hər il may ayının axırında iyulun əvvəllərində biçin və ot çalımı mövsümü qabağı dağların qoynunda yerləşən Yuxarı Suvagil[4] kəndinin camaatı Seyrana çıxarmış. Bu bayram təkcə Suvagildə deyil, Zaqatalanın zaxur kəndlərinin (Qas, Qarqay, Əzgilli, Sabunçu və s.) əksərində qeyd olunardı. Suvagil arana köçürüləndən sonra bu ənənə də yuxarıda qalmışdır. Belə imiş qayda: səhər-səhər kəndin kovxası car çəkər, kəndin cavanları təyin olunmuş yerə – Eraya toplaşar, oğlan və qızlar çala-oxuya iki günlük azuqə ehtiyatı ilə səfərə çıxarmışlar. Seyran yolu iki sutka davam edərmiş. Bu müddət ərzində 32 dağ zirvəsi, yaylaq və düzəndən keçərlərmiş. Bu şənlikdə sümsülər, qara zurna, tampur, nağara və s. yerli musiqilər səslənərmiş. "Babaların hikmət xəzinəsi (milli azlıqların folkloru)" kitabında Suvagil kənd müəllimi, qocaman söz ustası, folklor həvəskarı Seyid Məmmədovun təsvirində bu adət milli çalarları ilə öz real əksini tapmışdır.[5] Seyid müəllimin adlarını çəkdiyi onlarla dağ, keçid, çay, düzən, yaylaq və s. yəqin ki, indi unudulub.

May ayinda qızılgüllər açanda avar kəndlərində də xalq şənlikləriylə qeyd olunan Varda ("qızılgül") və ya Toyole ("gül") bayramı, ya da ki, Hilma ("yelləncək") bayramı keçirilirdi; hündür şabalıd və ya qoz ağaclarından zəncirlərlə yelləncəklər asılırdı. Ləziz yeməklər, şirniyyat, çərəz qoyulmuş süfrələr açılırdı. Camaat şənlənir, uşaqlar "xinvaral-xinvaral" ("durnalar") mahnısı ilə durna qatarını səsləyirdi.

Yengiloy kəndlərində baharın gəlişi ilə Qorqot bayramı keçirilirdi. Bayram süfrələri açılır, yaşlı, cavan – hamı çalıb oynayır, şənlənirdi. T.ü.f.d. Ş.Hacıəli bayramın Qorqot adlanmasını yazın müjdəçisi olan durna qatarının səsi ilə əlaqəli qorqo – "durna" sözüylə bağlayır. Bununla yanaşı o, yengiloy dilində qorq – "tonqal" və qorqot – "buğda aşı" etimologiyalarını da istisna etmir.[6] Bölgənin zaxur, yengiloy, avar kəndlərində hazırlanan bu Novruz hədiyini dənli bitkilər və mal çənəsindən bişirirdilər.[7] Yengiloylar "Qorqot bayramı"na "Kürmük bayramı" da deyirlər. Görünür, "Kürmük bayramı" həm Bahar bayramına, həm də Məhsul bayramına deyilirdi. İradə Əliyeva "Kürmük bayramı" məqaləsində bu bayramın ildə iki dəfə – apreldə və noyabrda keçirilməsini qeyd edir və bunu Kürmük çayın ildə iki dəfə daşması ilə əlaqələndirir. Bayramda Kürmük məbədinin yerləşdiyi yüksək qayada el gəzintisi təşkil olunur, qurbanlar kəsilirdi.[8]

Xalq yaradıcılığı nümunələri, el bayramları arxaik formaları saxlamaqla bizi xalqımızın qədim tarixinə aparıb çıxarır. Bu xüsusda öz orijinallığı ilə seçilən avar mahnı-dastanlarını da qeyd etmək münasibdir. Avar dastanları əvvəldən axıradək qafiyəli şeir şəklində olaraq tampurla (tambur) oxunurdu. Dastan eyni ahəngdə deyilmirdi. Hadisələrin inkişafı musiqi havalarının və ritmin dəyişməsi ilə müşayiət olunurdu. Filologiya elmləri doktoru M.Qasımlının fikrinə görə, bu xüsusiyyətlər avar

---

[3]Görkəmli alim, folklor tədqiqatçısı Yaşar Kalafat yağmur mərasimlərindən bəhs edərkən göstərir ki, Anadolunun bir çok yerinde, Azərbaycanda, Suriyada, Irakda uşaqlar yağmur duasında Çömçə Gəlini çağırır ve ondan oğlanı beşiyə qoymasını diləyirdilər (Dr. Yaşar Kalafat. Türk kültür coğrafyasinda yağmur duasi; Yaşar Kalafat, Balkanlar'dan Uluğ Türkistan'a Türk Halk İnançları V-VI, Berikan yayınları Ankara 2007). Çömçə, taxt (təxtirəvan), beşik, araba və s. atributlar metereoloji önəm daşıyan Çömçə bürcü (ərəbcə "Arş Bənət Nə`ş"/"Bənət nə`şin Taxtı", farsca "Həft peykər"/ "Yeddi ulduz") kultunun rəmzləridir (S.Ə. Süleymanova. Ana-Qız simqəsi "Bənət Nə`şin Taxtı" / Kult "Deвı-Materi Banat Na`ş". //Azerbaydjan в mire. 2006. №3(5). s.36-45); S.Ə. Süleymanova. "Qız qalası"üzərində qədim Ana-Qız rəmzi – Nə`ş qızlarının Taxtı" ayini //Qafqaz Arxeologiyası və etnologiyası. Şəmkir, 2008, c.472-480.

[4]İndi bu dağ kəndində, deməк olar ki, yaşayış yoxdur. Kənd sovet dövründə arana köçürülüb və bura Yeni Suvagil adlanır.

[5] Ə. Süleymanov. Babaların hikmət xəzinəsi. B., 2011, s.172-176

[6]Əliyev Şirinbəy Haciəli oğlu. İngiloylar (tarixi-etnoqrafik tədqiqat). Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş Dissertasiya. Bakı, 2001

[7] Laklar xaxxari adlandırdıqları bu ənənəvi "buğda aşını" yazbaşı elliklə böyük çəndə (kəndin çənində) hazırlayırdılar; hər kəs qışdan qalan azuqəsini – dənli bitkilərdən, qaxacdan (şaxtada qurudulmuş ət) bu qazana tökürdü.

[8] İradə Əliyeva. Şimal-Qərbi Azərbaycanda Kürmük bayramının keçirilməsi tarixinə dair (AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Elmi əsərləri". 23 cild. s.131-137).

dastanlarının qədimliyinə dəlalət edir. Zaqatala-Balakən bölgəsində "Car dastanı", "Xoçberin mahnısı", "Hacı Muradın kəsik başı", "Qerqinin mahnısı" və s. mahnı-dastanlar dildən-dilə gəzirdi. Bu dastanlarda xalqın tarixi, məişəti, sənət və məşğuliyyəti, adət-ənənələri, dünya görüşü öz əksini tapır.

Daha geniş yayılmış qəhrəmanlıq dastanlarında ədalətsizliyə, yadelli işğallara qarşi mübarizə, qazilik bayrağı altında, din uğrunda yürüşlər təsvir olunur. "Qəhrəman Şabanın mahnısı" və ya başqa adla "Car dastanı"nda 1830-cu ildə rus işğalına qarşı Car-Balakəndə qaldırılan üsyan təsvir olunur. Müridizmin təsiri altında üsyan din uğrunda mübarizə – qazilik bayrağı altında vüsət almışdı. Rus ordusunun məğlubiyyətindən qəzəblənən Çar Qafqazın baş komandanı Paskeviçdən izahat tələb etmişdi[9]. Dastanin faciəli finali Qafqazin işğalı ilə başlanan dövrün faciəsidir:

*Dağda yağan leysan yağış heç nədir,*
*Leysandan axan sellər də heç nədir![10]*
*Alazandan qanlı sular axdı.*
*Çəkmələr qanla dolanacan,*
*Bədəndəki yaraqlar əriyib tökülənəcən*
*Atdan düşmədilər bahadırlar.*
*Minlərlə şəhid canını qurban verdi.*
*Qayıdanların gücü yox*
*Ağrını, acını səsləndirməyə...*

Gürcüstana yürüşlərdən və yaxud muzdlu hərbi səfərbərlikdən daşındırmaq motivləri də geniş yer tutur. "Getmə Cara"[11] mahnı-dastanında sevgilisinin yalvarışlarına baxmayaraq "Alazanda gümüş taparam, Kürdə qızıl", - deyərək yürüşə çıxan və həlak olan qəhrəmanın cəsədi üstündə ağlayan gənc qızın ağısında yanıqlı məzəmmət duyulur: "Bu sərvət – gümüş, qızıl, dəyərdimi mirvari bədəni qara torpağa verməyə?!"

Zaqatala dağlarında "Malikul hud" ("Malikin qəbri") adlı ziyarət yeri var. Xalq arasında bu yerlə bağlı "Odda yanmayan, suda batmayan, qaralıb-qarsısa da ağzı dayanmadan dua oxuyaraq düşmən ordusunu kor edən "Kəsik baş" haqqında qədim bir rəvayət var. Bu rəvayətə görə, "Honzoqor" adlı dağ keçidində Malikin düşmən tərəfindən kəsilən başı "Allahu-Əkbər" deyə-deyə dağdan aşağı diyirlənir və düşməni bərk qorxuya salır. "Onların başlarını kəsəndə də ölmürlər",- deyən düşmən geri çəkilməyə məcbur olur. Bu rəvayətin izlərini XVIII əsrdə Nadir şahın Cara yürüşü ilə bağlı hadisələrin təsvirində[12], daha sonra Ləkit yolu ilə[13] Gürcüstandakı əsirlikdən qaçarkən Qaxda başı kəsilmiş Şeyx Şamilin naibi Hacı Murada həsr olunmuş dastanda görürük.

Qəhrəmanlıq, vətənpərvərlik, sevgi, ibrət və s. mövzudakı dastanları koçoxanlar toylarda, bayramlarda, məclislərdə, kənd meydanlarında tampurla oxuyardular. Təəssüflə qeyd etmək lazımdır ki, ilkin folklor nümunələrinin çox hissəsi yaşlı nəsillə birlikdə itib getmişdir və biz bir vaxtlar yanaşı yaşadığımız insanların nə cür əvəzedilməz xəzinə daşıdıqlarını bu gün ürək ağrısı ilə dərk edirik. Söz məsələ çəkər: Kişmişin bol və ucuz vaxtında bir kişi bazara gedib bir torba kişmiş alır. Kişi kişmişi gündə üç dəfə dənə-dənə yeyirmiş. Aradan çox keçməmiş kişi bir də torbanın qoyulduğu yerə gələndə görür ki, torba yoxa çıxıb. Kişi çox pərt olur və başlayır deyinməyə. Kişinin sonsuz deyinməyini görən arvad deyir: "Ay kişi, nə olub axı, kişmişdi də, alarsan, yeyərsən. Kişi deyir: "Arvad, mən kişmiş torbasının itməsinə yanmıram ey. Yanıram ki, mənim dənə-dənə yediyim kişmişi oğru xaşma-xaşma yeyəcək".

Lətifəsi bizə aid olmasın deyim, olsun deyim, mən də yanıram ki, folkloru xaşma-xaşma toplamaq imkanını əldən vermişik. Ağızdan ağıza keçərək yaşayan xalq xəzinəsi yaşlı nəslin sinəsində qa-

---

[9] Б.А.Потто. Кавказская война. Т.5. Ставрополь, 1994, с.173-200

[10] Mənbələr də bu vuruşda leysan yağış nəticəsində çayların yollardan sel kimi axmasını qeyd edir (Б.А.Потто,göst. əsər, s.181).

[11] Car və ya Tsor ("Aran") Car-Balakənin ümumi adı idi. Hərbi yürüşlərdə ordu burada toplanırdı. Sonralar Car və ya Carbazar indiki Zaqatalanın ərazisinə deyilirdi. Zaqatala adı isə Qala düzü və indiki Car kəndinin ərazisindəki Zəkəntala kəndinin təhrif olunmuş formasıdır.

[12] Car salnaməsi (ərəbcədən tərcümə, giriş, şərhlər və qeydlər S.Ə. Süleymanovanındır). Bakı, 2007, c.186-187

[13] Bu yol Qanıxdan (Alazançayı) və Alazan vadisindək idağ aşırımlarından (Dindi, Qudurdaq) keçirdi.

lır. Heyhat, o nəsil əbədi yaşamır. Hər günün öz hökmü var. Hansı kəndə gedib məqsədimizi izah edirik, bu sözləri eşidirik: "Heyif filankəs yoxdur, sağlığında gəlsəydiniz, çox şey toplaya bilərdiniz, sinəsi bayatılarla, hikmətli sözlərlə dolu idi, işıq üzü görməyən xalq qoşmalarını ondan ala bilərdiniz..."

Əvvəllər kəndlərdə nağıl məclisləri, gimgə və yığıncaqlar olardı. "Üzük-üzük", "daşqurma", "tız" və s. onlarla xalq oyunları mövcud idi. İştirak elə orada, yaz, topla! İndi isə adamlar az hallarda, bir tədbirlə əlaqədar deyilsə, görüşmürlər. Cəmiyyətdə gedən urbanizasiya prosesləri, televizor, kompyuter, internet xalqın kollektiv ünsiyyətini, keçmiş ənənələrlə əlaqəsini zəiflədibdir. Müasir dövrdə yaşlı nəslin yeni nəslə təsiri də azalmışdır və o "sinədəftər" nəslin nümayəndələri, demək olar ki, aramızda yoxdur. Hələ keçən əsrin sonlarında da avar kəndlərində "tampur"adlı çalğı aləti ilə toylarda, şənliklərdə bayatı oxuyan, dastan söyləyən "koçoxanlar" olurdu. İndi bu adamlar həyatdan gediblər və qiymətli xalq xəzinəsini də özləri ilə aparıblar. Müasir bayatı ustaları da var. Amma artıq onların müəyyən təsir altına düşməməsi, dövrümüzün sənət nümunələrindən, mövcud musiqi aləmindən, qonşu və hətta uzaq xalqların musiqisindən, söz sənətindən bəhrələnməməsi mümkün deyil; onlar müasir həyatdan təcrid ola bilməzlər. Lakin bu da şifahi xalq yaradıcılığının bir dövrüdür. Bu dövr də tarixi yaddaşa həkk olunmalıdır.

Keçən əsrdə yazıb-yaratmış sənətkarların yaradıcılığında da biz Aşıq Ələsgər kimi söz ustadlarının, Qazax, Qarabağ, Gəncə aşıqlarının, Dağıstan koçoxanlarının təsirini görürük. Bu folklor nümunələri xalqın birgə malına çevrilmişdir, əksər hallarda onların kimə, hansı xalqa məxsus olduğunu müəyyənləşdirmək mümkün deyil. Eyni nümunə 2-3 dildə, müxtəlif variantlarda səslənir. Əslində bu təbiidir. Çünki bölgənin aşıqları kəndbəkənd gəzir, bir-biriləri ilə deyişir, məşhur aşıqların şeirlərinə nəzirələr yazır, geniş yayılmış Tövrat, Quran obrazlarından, klassik və xalq şeiri formalarından istifadə edirdilər. Varxiyanlı aşıq Məhəmməd, Talalı Dibirov (Kamal), Suvagilli aşıq Nəzir, Mosullu Lahu dayı, İtitalalı aşıq Herov, Əliabadlı aşıq Camal, Kəpənəkçili Qurban, Muxaxlı Ramazan və s. aşıqlar qoşma, təcnis, müxəmməs, dodaqdəyməz və s. aşıq şeiri janrlarında yazdıqları şeirlərində bir-birilərinə xitabən elini və el sənətkarlarını vəsf edir, həyatdan köçmüş söz ustadlarını onların qoşmalarına cavablarla xatırlayırdılar. Aşıqların qoşmaları dildən-dilə gəzərək şablonlaşır, xalq arasında müxtəlif tərzdə, spesifik dəyişikliklərlə oxunurdu.

Belə ki, biz indi də fürsəti bada verməməliyik. Tənbur çalib oxuyan, bayatı deyən müasir sənətkarlarımızın yaradıcılığını tarixə həkk etməliyik, onlarin xalq sənətini yaşadıb gələcək nəsillərə ötürməsi üçün şərait yaratmalıyıq. Məsəl var, deyərlər: Ziyanın yarısından qayıtmaq da xeyirdir. Bir də ki, "balığı nə vaxt tutsan, təzədi." Müşahidələr göstərir ki, kəndlərimizdə xalq sənətini qoruyub saxlayan, yayan ağsaqqal və ağbirçəklərimiz vardır və "sinədəftər" xalq sənətkarları haqqinda xatirələr də hələ yaşayır. Məsələn, Qax rayonunun Sarıbaş kənd sakini Minaxanım Xallayevanın yaradıcılığına nəzər salaq. Kənddə yaranan "Tunqay-Məlik" ansamblının fəal üzvü idi. Ansamblın çıxışına baxırıq; beş-beş qadın qarşı-qarşı duraraq oxuyurlar, "salamaleyk," "ceyranım" oyunlarında olduğu kimi:

*Bir qız gördüm biçində,*
*Sarı sünbül içində.*
*Mən yarımı sevmişəm,*
*On beş yaşın içində*
*Ay zarı-zarı-zarı,*
*Vay zarı-zarı-zarı.*
*Qızılgül xırmanında*
*İtirdim nazlı yarı...*

1991-ci ilin avqust ayının söhbətidir. Minaxanım nənə söhbət əsnasında deyir ki, yüz yaşındadır. Soruşanda ki, "Tunqay-Məlik" ansamblının tarixi nə vaxtandır?, - cavab verir:

*İnsan oğlu yaşardır,*
*Nə xeyirdir, nə şərdir.*
*Mən səndən xəbər alım,*
*Bu daş neçə yaşardır.*

*İnsan oğlu bişəndi,*
*Bişib həddən aşandı.*
*Dünya binə quranda*
*Bu daş ora düşəndi.*

Yəni daşın yaşı nə qədərdisə, bu xalq yaradıcılığı nümunəsi "Tunqay-Məlik"in yaşı da o qədərdir. Yəni daşın yaşı insanın yaranışı və dünyanın quruluşu ilə birdir, "Tunqay-Məlik"in yaşı da eynilə. Sarıbaş kəndinin qayalarında, daşlarında çağlayan bulaqların suyu qədər əbədidir. Minaxanım nənələrin söz sənəti. Əzəmətli dağların, sildırım qayaların, sivrilib axan çayların, uzaqlara aparan yolların ruhu var Alp Ər Tonqa (Əfrasiyab) irsi olan "Tunqay-Məlik" kimi minlərlə xalq yaradıcılığı nümunələrində. Bu sərvəti gələcək nəsillərə çatdırmaq bizim müqəddəs borcumuzdur!


**Xülasə**

Zəngin etnik tərkibə malik olan Şəki-Zaqatala bölgəsində yaşayan xalqların folklor irsinin toplanması, tədqiqi və nəşri sahəsində AMEA Folklor İnstitutu, AMEA Nizami adına Ədəbiyyat İnstitutu, Şəki Zona Elmi Mərkəzi (hal-hazırda Şəki Regional Elmi Mərkəzi) mühüm işlər görmüşdür. Azərbaycan, udin, avar, zaxur, yengiloy xalqlarınınn folkloruna dair toplanmış materiallar "Azərbaycan Folkloru Antologiyası"nın XIII cildində və "Babaların hikmət xəzinəsi (milli azlıqların folkloru)" kitabında öz əksini tapmışdır. Bu toplularda yer alan folklor nümunələri – Qəbiz-dərə kəndindəki "Qızıl göl" ("Mesedunun gölü"), Yuxarı Çardaxlar kəndində qayalarda çarpılmlş "Pəri qalası" haqqında rəvayətlər, geniş yayılmış və müxtəlif dövrlərə aid elilən "Kəsik baş" əfsanələri ("Məlikin kəsik başı", "Hacı Muradın danışan başı") və s. regionun qədim tarixindən xəbər verir.

Avar kəndlərində müxtəlif ayinlərlə müşayiət olunan təqvim bayramları və dini bayramlar – Tsudul kassi ("oddan tullanma"), Hilma ("Yelləncək bayramı"), TIойоле байрам ("Gül bayramı"), Kuda ko ("Böyük bayram", Ramazan bayramı) və s. qeyd olunurdu. Yengiloy və zaxur kəndlərində də bu bayramlar özünəməxsus elementlərlə keçirilirdi. Yengiloy kəndlərində baharın gəlişi ilə Qorqot bayramı qeyd olunurdu; yengiloyca qorqo – "durna", qorq – "tonqal" və qorqot – "buğda aşı" etimologiyaları bu bayramın atributlarına dəlalət edir. Yengiloylar kəndlərində ildə iki dəfə – apreldə və noyabrda "Kürmük bayramı" qeyd olunurdu. Yağışın yağması və ya kəsməsi üçün "Qız daşının" istiqamətini dəyişməklə müşayiət olunan ayin də xüsusi maraq doğurur.

Zaxur kəndlərində qədim xalq gəzintisi mərasimi ilə icra olunan Seyran bayramı keçirilərdi. Hər il biçin və ot çalımı mövsümü qabağı dağların qoynunda yerləşən Yuxarı Suvagil kəndinin və ətraf kəndlərin camaatı təyin olunmuş yerə – Eraya toplaşardı. Oğlan və qızlar sümsü, qara zurna, tampur, nağara və s. yerli musiqi alətlərinin müşayiətilə çala-oxuya iki günlük azuqə ehtiyatı ilə yola düzələrdi. Seyran iştirakçıları bu müddət ərzində 32 dağ zirvəsi, yaylaq və qışlaqdan keçərdilər.



**Резюме**

Институтом Фольклора АНАН, Институтом Литературы АНАН им. Низами Гянджеви и Шекинским региональным научным центром проделана огромная работа по сбору, исследованию и изданию фольклорного наследия народов, проживающих в Шеки-Закатальском регионе и имеюших богатый этнический состав. Собранные материалы по фольклору азербайджанцев, удинов, аварцев, цахурцев, ингилоев вошли в XIII том «Антологии Азербайджанского фольклора», а также были изданы в книге «Сокровищница мудрости дедов» (Фольклор национальных меньшинств Шеки-Закатальского региона).

В эти издания были включены легенды о скальном замке «Пери кала» («Крепость Феи») в с. Йухары Чардахлар, легенда о «МеседулхIор» (на аварск. «Золотое озеро» или «Озеро Краличы») в с. Кабисдара, притчи об «Отрубленной голове Малика», о «Говорящей голове Хаджи Мурата» и т.д. Эти легенды отражают древнюю историю края. В аварских селах отмечались календарные и религиозные праздники, сопровождаемые определенными обрядами, как "Tsudul kassi" ("Прыжок через костер"), "Hilma" («Праздник качелей»), "TIойоле байрам" («Праздник цветов»), "Kuda ko" («Большой Праздник», т.е. «Праздник Рамадан)» и т.д.

В ингилоевских, цахурских селах также отмечались эти праздники со своеобразными элементами. Любимым праздником у ингилоев был весенний праздник «Горгот»; этимология ингилоевского горго – «журавль»; горг – «костер», горгот – «пшеничный плов» соответствует атрибутам этого праздника. Во время этого праздника устраивались народные гуляния с песнями и танцами, пышные зас-

толья. Два раза в год – в апреле и ноябре отмечали праздник «Курмух», который связывают с разливами Курмух-чая.

В цахурских селах особый интерес представляет праздник «Сейран» («прогулка»), сопровождаемый двухсуточным народным гулянием. Каждый год в конце мая цахуры, беря собой всякие яства и музыкальные инструменты (зурна, тампур, дудук), совершали праздничное шествие в горы. Так, в сопровождении музыки, песен, плясок, хороводов, веселых трапез они проходили через 32 горных вершин, яйлак (горное плато) и гышлак (зимовище).

**Summary**

A vast amount of work has been done by the Sheki Regional Scientific Center of ANAS in collecting, studying and publishing the national folklore heritage of the Sheki-Zakatala region rich with its ethic composition. The folklore material gathered on the Azerbaijani, Udine, Avar, Tsakhur, Ingiloy nations have been included in the 13th volume of the "Azerbaijani Folklore Anthology", as well as being published in the book of "Treasury of the Grandfather's Wisdom" (Folklore of National Minorities).

These publications have included the legends of the castle fortress of Peri Kala (The Fairy Castle) in the village Yukhari Chardakhlar, the legend of «МеседулхIор» (the meaning in the Avar language – Golden Lake or The Queen's Lake) in the village of Gebizdere, parables of Malik's Cut Head or The Talking Decapitated Head of Haji Murad, etc. These legends depict the old history of the region. The national and religious holidays had been being celebrated in the Avar villages accompanied by customs like "Tsudulkassi" (jump over the bonfire), "Hilma" (The Swings Fest), "TIoyolebayram» (The Holiday of Flowers), "Kuda ko" (The Big Fest, e.g. the Ramazan Holiday) etc.

These holidays were also celebrated in the Ingiloy and Tsakhur villages with its distinctive elements. The most favorite holiday of the Ingiloys was the spring holiday of "Gorgut"; the etymologies of the words qorqo - "the crane bird"; qorq - "fire," qorqot - "wheat pilaf" are in accordance with the attributes of this holiday. During this holiday usually there were folk gathering to walk with songs and dances, also lush feasts. Twice a year the holiday of Kurmukhad been celebrated, which is usually linked to the floods of the Kurmuk River,

The holiday of Seyran (walk) causes the most interest in the Tsakhur villages, followed by two-night festivities. Every year, at the end of the month of May, the Tsakhurs having taken all kinds of dishes and a musical instruments – zurna (kazoo, flute), duduk, tampur, nagara (drum), made a festive procession to the mountains. So, accompanied by music, songs, dances, round dances, cheerful meal they passed through the 32 mountain peaks, yaylaks (summer pastures in the mountains) and gishlags (the winter quarters).

**Ədəbiyyat:**

1. Babaların hikmət xəzinəsi. Milli azlıqların folkloru. Şəki-Zaqatala bölgəsi (toplayan, tərtib edən və ön sözün müəllifi: Ə.A. Süleymanov)
2. Car salnaməsi (ərəbcədən tərcümə, giriş, şərhlər və qeydlər S.Ə. Süleymanovanındır). Bakı, 2007
3. Əliyev Şirinbəy Haciəli oğlu. İngiloylar (tarixi-etnoqrafik tədqiqat). Tarix elmləri namizədi alimlik dərəcəsi almaq üçün təqdim olunmuş Dissertasiya. Bakı, 2001
4. Əliyeva İradə. Şimal-Qərbi Azərbaycanda Kürmük bayramının keçirilməsi tarixinə dair. AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun "Elmi əsərləri". 23 cild. s.131-137
5. S.Ə. Süleymanova. Ana-Qız simgəsi "Bənət Nə`şin Taxtı" / Kult "Deвı-Materi Banat Na`ş". //Azerbaydjan в mire. 2006. №3(5). s.36-45)
6. S.Ə. Süleymanova. "Qız qalası"üzərində qədim Ana-Qız rəmzi – Nə`ş qızlarının Taxtı" ayini //Qafqaz Arxeologiyası və etnologiyası. Şəmkir, 2008
7. Şəki-Zaqatala folkloru. AFA, XIII kitab. (tərtibçilər: İ.Abbaslı, O.Əliyev, M.Abdullayeva), Bakı- "Səda"-2005
8. Yaşar Kalafat, Balkanlar'dan Uluğ Türkistan'a Türk Halk İnançları V-VI, Berikan yayınları Ankara 2007
9. Б.А.Потто. Кафказская война. Т.5. Ставрополь, 1994

**Akif Məmmədli, tarix üzrə fəlsəfə doktoru, müəllim**
**Azərbaycan, Zaqatala**
*akif.Memmedli@gmail.com*

# ŞİMAL-QƏRBİ AZƏRBAYCANIN FOLKLORUNDA MULTİKULTURAL DƏYƏRLƏR

***Açar sözlər:*** *hayla, multikultural, iməcilik, ingiloy, avarlar*
***Ключевые слова:*** *хайла, мультикультуральный, субботник, ингилои, аварцы*
***Key words:*** *hayla, multicultural, subbotnik, ingiloy, Avars*

Azərbaycanın şimal-qərb bölgəsi elmi cəhətdən çox az araşdırılan bölgələrdən biridir. Uzun illərdir ki, bölgənin tarixini və etnoqrafiyasını araşdıran bir tədqiqatçı kimi əhali arasında- Balakəndə "hayla", Zaqatalada isə "Tala mahnıları" adlanan folklor nümunələrini toplayaraq araşdırmağa çalışmışıq. Nəticədə ağız ədəbiyyatının ən qədim nümunəsi olan "hayla"larda bölgə insanlarının inanc və etiqadlarını, birgə yaşayış qaydalarını, qonşu xalqlarla münasibətlərini araşdırmaq üçün çox qiymətli mənbə əldə etmiş oldum [**1, 10**].

Qeyd etmək yerinə düşər ki, Azərbaycanın şimal-qərb bölgəsi etnik müxtəlifliyi - müxtəlif xalqların yanaşı yaşaması, müxtəlif adət və ənənələrin, müxtəlif inancların mövcud olması ilə fərqlənən bölgədir. Ən maraqlısı da budur ki, "hayla" adlanan şifahi xalq ədəbiyyatı nümunələrinin ifa olunduğu 2 simli, 5 məqahılı çox qədim "dambur" aləti bölgədə yaşayan bütün etnoslar (xalqlar) tərəfindən sevilir və istifadə olunur.

Qeyd etdiyimiz kimi "hayla" adlanan folklor nümunələri bölgə insanlarının, bölgədə yaşayan xalqların ən qədim dövrdən, hətta daş dövründən bəri tarixini, inanc və birgə yaşayış qaydalarını öyrənməyə imkan verən maraqlı mənbədir [**1, 11**]. Bununla yanaşı, çox maraqlı məqamlardan biri də, bu gün Azərbaycanda "dövlət siyasəti kimi həyata keçirilən və bütün dünyada böyük rəğbət qazanan" Multikultural dəyərlərin bu ağız ədəbiyyatında geniş yer tapmasıdır.

Ən qədim dövrlərdə insanın ən çox ehtiyacı olduğu şey onların birgə fəaliyyət göstərməsi idi. Ulu çağlardan bəri birgə fəaliyyətin əsas forması kimi mövcud olmuş "iməcilik" bu gün də Azərbaycanın şimal-qərb bölgəsində hər kəsin rəğbətlə yanaşdığı bir el adətidir ki, dambur da burada mərasimi rövnəqləndirən, insanları həm düşündürən, həm də coşduran bir vasitə, haylaları müşayiət edən musiqi alətidir [**2, 27-32,75-88**].

Daha öncə də qeyd etmişdik ki, Balakən-Zaqatala-Qax bölgəsi müxtəlif xalqların yaşadığı və müxtəlif mədəniyyətlərin mövcud olduğu zəngin bir bölgədir. Qərbdə Gürcüstandır və bölgədə gürcü dilinə yaxın dildə danışan ingiloylar yaşayır ki, onlar da qədim alban tayfalarından biridir. On doqquzuncu əsrdən etibarən rus tarixi mənbələrində bu alban mənşəli ingiloyları səhvən, yaxud qəsdən "gürcü" kimi qələmə vermişlər. Əsas fikrimiz onların etnik mənşəyini araşdırmaq deyil, burada yaşayan xalqlardan biri kimi bizimlə mehribancasına qaynayıb-qarışması və haylalarımıza daxil olmasını diqqətə çatdırmaqdır.

*Dağlara yağmışdı qar,*
*Gürcü qızı modixar.*
*Gürcü qızı çağırdım,*
*Dedi: "mi şeni midvari xar".*

Bəzən üçüncü misra "İngiloy qızı çağırdım" kimi də oxunur. Bölgədə ən qədim dövrlərdən bəri el köməyi adətinin bir forması olan "iməci"lər həm ingiloylar, həm türklər, həm avarlar, həm də saxurlar arasında geniş yayılmışdır. Milli mənsubiyyətindən asılı olmayaraq, hər bir qonşu digər qonşunun iməcisində həvəslə iştirak edər, yerinə görə yuxarıdakı haylanı , yaxud da digərlərini oxuyardılar. Maraqlıdır ki, son illərdə bu ənənə yenidən bərpa olunur.

Haylalardan birində son iki misrada belə deyilir:

*"Özü avar balası*
*Muğala oxşarı var"*

**Yaxud:**

*"Özü muğal balası,*
*Avara oxşarı var"*

Hələ ilk araşdırmalardaca bölgə folklorunda multikultural dəyərlərə geniş yer verildiyi sezilir. Əslində, bu bölgə insanlarının gündəlik həyatı - qonşuları, yaxud ailə üzvləri (özəlliklə gəlinləri) ilə gündəlik ünsiyyəti idi. Əminəm ki, Azərbaycanın şimal-qərb bölgəsinin folkloru dərindən araşdırılarsa, burada bəşəriyyət üçün gərəkli çox qiymətli dəyərlər aşkarlanar.

Bölgənin tədqiqatı zamanı üzə çıxan maraqlı məqamlardan biri də itirilmiş torpaqlarımızla bağlıdır. İndi yaşı 90-ı keçmiş Katex kəndindən olan Rəhəney nənə vaxtı ilə belə bir hayla söyləmişdi:

*Şirəyin o üzündə,*
*At oynatdıq düzündə.*
*Bir muraz isdəmişdim*
*O da qaldı gözümdə.*

Bu folklor nümunəsində keçən əsrin 40-cı illərində Şimal-Qərbi Azərbaycandan qoparılaraq Gürcüstana və Dağıstana verilmiş 27 min desyatin torpaqlarımızdan bəhs edilir. Yaxın yüz ilədək Şirək dağı da, Şirək düzü də Azərbaycana məxsus torpaqlar idi [**3, 37-57**].

Bütün bu itkilərə baxmayaraq, hazırda bölgə insanlarında tarixən çox qədim dövrlərdən bəri formalaşan mehriban bir qonşuluq münasibəti mövcuddur. Bunun ən inandırıcı sübutu kimi 1877-ci ildə bölgəyə səyahət etmiş ilk qadın səyyah Karla Serenanın yazdıqlarını göstərə bilərik. Karla Serena yazırdı ki, "mən Zaqatala qalasından şəhərə çıxanda məni qorumaq və müşayiət etmək üçün əsgərlər verirdilər. Yanımda əsgər olmadığı zaman bölgə insanları mənə ehtiramla salam verir, xoş davranır, kimsənin mənə kobud davranmasına yol vermirdilər. Bir növ məni özləri qoruyurdular. Bu məğrur və döyüşkən insanlar çox mehriban idilər". Buradan aydın olur ki, Azərbaycanın Şimal-Qərbində insanlar müxtəlif dinlərə, müxtəlif xalqlara, müxtəlif adət-ənənələrə tolerant yanaşmış və bunu təbii qəbul etmişlər. Bu da ona əsaslanır ki, bölgədə tolerantlıq ənənəvi olmuş, multikultural dəyərlər cəmiyyət içərisində tam oturuşmuşdur. Tədqiqatçı Mətanət Yaqubqızı da bu cəhəti əsas götürərək bölgəyə həsr etdiyi əsərində yazır ki, "Şəki-Zaqatala regionunda yaşayan xalqların və etnik qrupların folklor nümunələrinin tam və sistemli şəkildə tədqiq edilməsi və öyrənilməsi vacib və aktualdır" [**4, 17**].

Son olaraq qeyd etmək yerinə düşər ki, Azərbaycanın Şimal-Qərb bölgəsi təbii sərvəti və təbiəti ilə necə seçilirsə, buranın minilliklər boyu yaranmış ağız ədəbiyyatı da bir o qədər özəlliklərə məxsusdur. Əgər diqqətlə araşdırılarsa, bu folklor nümunələrində cəmiyyətin bütün həyatına aid dəyərli bilgilər vardır ki, onlardan da biri multikultural dəyərlərin burada geniş yer tutmasıdır.

Xalqlar və dinlər arası münasibətlərin normallaşdırılması üçün gözəl örnəklər vardır. Bunların öyrənilməsi təkcə Azərbaycan ədəbiyyatı və tarixi üçün deyil, Qafqazın və bütövlükdə dünyamızın ədəbiyyatı və tarixinə qiymətli töhfə ola bilər. Bu baxımdan, Zaqatalada keçirilən bu konfransı da təqdirəlayiq hesab edirəm.

**Xülasə**

Məqalədə göstərilir ki, Azərbaycanın şimal-qərb bölgəsi etnik müxtəlifliyi - müxtəlif xalqların yanaşı yaşaması, müxtəlif adət və ənənələrin, müxtəlif inancların mövcud olması ilə fərqlənən bölgədir. Daha sonra qeyd olunur ki, şimal-qərb bölgəsi həmçinin bu gün "dövlət siyasəti kimi həyata keçirilən və bütün dünyada böyük rəğbət qazanan" multikultural dəyərlərin geniş yer tapması ilə seçilən bir ərazidir.

**Резюме**

В статье указывается, что Северо-Восточный регион Азербайджана является регионом отличающимся своим этническим разнообразием – проживанием в нем разных национальностей, наличием разных обычаев и традиций, разных вер. Кроме того, следует отметить, что в настоящее время Северо-Восточный регион также является территорией, отличающейся широким диапазоном «осу-

ществляемых как государственная политика и завоевавших большую симпатию во всем мире» ценностей мультикультурализма.

**Summary**

In the article it is showed that, the north-west part of Azerbaijan is distinguished for its ethnic different traditions and beliefs, and their living with different nations. İt is noted that the north-west part of Azerbaijan also dintinguishes for multicultural qualities' taking an important place in itself that organized as a public policy and won the sympathy all over the world.

**Ədəbiyyat:**

1.Məmmədli A. Haylalarda yaşayan tariximiz. Bakı, "Turxan", 2013, 108 səh.
2.Məmmədli A. Balakən-Zaqatala bölgəsi: Tarixi, etnoqrafiyası. Bakı, "Adiloğlu", 2001, 160 səh.
3.Məmmədli A. Azərbaycanın Şimal-Qərb bölgəsinin tarixi abidələri. Bakı, "Turxan", 2013, 228 səh.
4.Mətanət Yaqubqızı. Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm (Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəkləri əsasında). Bakı, "Elm və Təhsil", 2016, 184 səh.

**Adışirinov Kamil Fikrət oğlu, filologiya üzrə fəlsəfə doktoru**
**AMEA ŞREM, aparıcı elmi işçisi,**
**Paşayeva Aygün Faiq qızı, ADPU Şəki filialı, tələbə**
**Azərbaycan, Şəki**

# NİZAMİ GƏNCƏVİNİN MULTİKULTURAL DÜNYAGÖRÜŞÜ

***Açar sözlər:*** *multikulturalizm, xalqlar, azadlıq, birlik, bərabərlik, ənənə*
***Ключевые слова:*** *мультикультурализм, народы, свобода, единство, равенство, традиция*
***Key words**: multiculturalism, nations, freedom, unity, equality, tradition*

Multikulturalizm nədir? Bu sözün semantikası ingilis dilindən hərfi tərcümədən çoxmədəniyyətlilik (multi-çox, culture-mədəniyyət) anlamına gəlir. Çoxmədəniyyətlilik dedikdə isə, ilk növbədə etnik, irqi, dini, mədəni müxtəlifliklər və dəyərlər nəzərdə tutulur.

Multikulturalizmin əsasını tolerantlıq, bir-birinin azadlığına hörmət hissi təşkil edir. Elmi ədəbiyyatlarda verilən məlumatlara görə, multikulturalizm anlayışı çox da qədim tarixə malik deyil. Multikulturalizm 1960-cı illərin sonunda Kanadada meydana gəlmişdir. Termin kimi isə, 1970-ci illərdə ədəbiyyatda əks olunub.

Ölkəmiz tarix boyu sivilizasiyaların və mədəniyyətlərin qovuşuğunda yerləşib, Asiya və Avropa arasında körpü olması burada mədəniyyət müxtəlifliyinin yaranmasında mühüm rol oynayıb. Azərbaycan qonaqpərvər bir diyardır. Burada tarixən birgə yaşayan xalqlar, toplumlar özlərini azad, firavan hiss ediblər, çünki onlar özlərinə həmişə tolerant münasibət görüb, sıxılmadan yaşayıb, yaşayır və öz mədəniyyətlərini yaşadırlar. Bu da onu deməyə əsas verir ki, Azərbaycan multikulturalizmin əsas məkanlarından biridir. Məzmunca multikulturalizm ənənələri Azərbaycanda əsrlər boyu həmişə mövcud olub.

Qədim və orta əsrlər Azərbaycan poeziyası nümayəndələrinin əsərlərində ümumbəşəri dəyərlərin təbliği məsələsi başlıca yerlərdən birini tutur.

Söz sərrafı olan, bədii yaradıcılığın ən gözəl nümunələrini yaradan **Nizami Gəncəvinin** əsərləri bu cəhətdən xüsusilə fərqlənir. Onun yaradıcılığına söykənərək deyə bilərik ki, Nizaminin əsərlərində də multikulturalizm və tolerantlıq elementlərinə rast gəlmək mümkündür. Nizami üçün şəxsiyyətin əsas meyarı insanlıq idi. İrqi, milli və dini ayrı-seçkiliyi qəbul etməyən şairin qəhrəmanları içərisində türk, ərəb, fars, hindli, çinli, həbəş, yunan, gürcü və başqa xalqların nümayəndələrinə rast gəlirik. Nizami xalqların, surətlərin adını çəkərək həmin xalqlara olan hörmət və ehtiramını göstərmişdir.

Nizaminin dünyaya, insanlara, insanlığa, ümumən, bəşərə sevgisi onun ailəsindən aldığı tərbiyə, öyüd - nəsihətlərin nəticəsində yaranıb formalaşmışdır. “Ot kökü üstə bitər” deyib babalarımız. Nizami əsərlərində olan multikultural, əxlaqi, etik, insana və insanlığa olan sevgi və bağlılıq, deyə bilərik ki, onun aldığı ailə tərbiyəsi ilə bağlı olmuşdur. Belə ki, mənbələrdən aldığımız məlumata görə, onun atası Yusif çörəkçi olmasına baxmayaraq, mükəmməl biliyə və əxlaqi görüşlərə malik olan bir şəxsiyyət olmuşdur. Bu münasibətlə görkəmli Nizamişünas alim Məmməd Cəfərin “Nizaminin fikir dünyası” adlı əsərində verilmiş şairin etirafları fikrimizin təsdiqidir. Tədqiqatçı Nizaminin atasına olan məhəbbətini ifadə edərək yazır:

-“Atam, Allah ona qəni - qəni rəhmət eləsin. O, mənə dedi: Oğlum, əgər istəyirsən ki, gecən gündüzündən parlaq olsun, çalış həmişə qəlbinin çırağını qəlbi işıqlıların məşəli ilə yandır”.

Çoxmədəniyyətliliyə yüksək dəyər verilməsi intibah şairi Nizami dühasının mahiyyətindədir. Etiqadca müsəlman olan, beş poemadan ibarət “Xəmsə”si ilə dünyaşöhrətli şair bütün əsərlərini minacatla başlayır, Məhəmməd peyğəmbərin tərifini verir və bütün bunlarla bərabər başqa dinlərə elə bir məhəbbət sərgiləyir ki, bunun təyinatı böyük mənada oxucuda çoxmədəniyyətlilik şüuruna sahiblənməyi bir dəyər kimi təlqin edir.

Nizami öz poeziyasının multikultural təyinatına birbaşa işarə vuraraq yazır:

*Hər hücrəyə köçürdüm, şeiri, şeiriyyəti mən.*
*Çıxartdım meyxanədən, ucaltdım sənəti mən.*

*Bir dəfəlik tullayıb zünnar ilə xirqəni,*
*Zahidlər, rahiblər də gəlib tapdılar məni.*

Bu misralarda Nizami öz poeziyasının dinindən asılı olmayaraq hamıya aid olduğunu vurğulayır və bildirir ki, onun yazıları təkcə xirqə geyinən müsəlman sufilər üçün deyil, bellərinə qıldan toxunmuş kəmər - zünnar bağlayan məsihilər -xristianlar da bu poeziyadan faydalana bilərlər.

"Sirlər xəzinəsi"poemasında "Ədalətli və insaflı olmağa dair" söhbətdə şair hökmdarları nəzərdə tutaraq onlara ağıllı, tədbirli, ədalətli olmağın, xalqın gözündə ucalmağın yolunu dinlərdə ifadə olunan ilahi təlimatlara əməl etməkdə görür və yazır:

*Dini sevib qorumaq sənin borcundur hər gün,*
*Bu yolda can qoyublar, haqq sevənlər haqq üçün* ***[6, s. 97].***

Nizaminin "Xəmsə"sinə daxil olan əsrarəngiz əsərlərdən biri də "Xosrov və Şirin"dir. Digər əsərlərində olduğu kimi, bu əsərində də multikulturalizm elementlərinə rast gəlinir. Əsərdə hadisələr əsərin əsas qəhrəmanları Sasani şahı II Xosrov Pərviz (590-628) və Bərdə hökmdarı Məhinbanunun qardaşı qızı Şirinin məhəbbət hekayəsi əsasında cərəyan edir. Poemada baş verən maraqlı epizodlardan biri Şirinin bibisi olan Məhinbanunun Şirinə verdiyi nəsihətdir ki;

*Əgər o, aydırsa , biz afitabıq ,*
*O, Keyxosrovsa, bizsə Əfrasiyabıq* ***[2, s. 119] -***

deməklə, Şirinin bir türk olduğunu, türklərə məxsus yüksək keyfiyyətləri oxucuların nəzərinə çatdırır. Klassik ədəbiyyatda çox vaxt Ay oğlan və Günəş qızın simvolu olduğu kimi, Əfrasiyab türklüyü, Keyxosrov isə iranlılığı təmsil edir. Nizaminin əsərdə baş qəhrəman olaraq, məhz, İran şahı olan Xosrovu Şirinin həmdəmi kimi təqdim etməsi də, onun multikultural dünyagörüşündən irəli gəlir.

Şairin qeydlərindən bu nəticəni də çıxarmaq olar ki, o, türklüyün böyüklük və qüdrətinə sadiq qalaraq, Şirinin dili ilə Xosrovu nəsihət verir.

Nizaminin "Leyli və Məcnun" poemasında da multikultural, humanist görüşləri diqqətçəkicidir. Əsərin quruluşuna nəzər yetirdikdə görürük ki, əsərdə dastan içərisində dastan var. Belə ki, şair "Leyli və Məcnun" un məhəbbət sərgüzəştlərindən başqa "Zeyd və Zeynəb" dastanını da vermişdir. Bu dastanın verilməsi şairin nə qədər islamçı olmasına baxmayaraq, islamdan bir vasitə kimi istifadə edən din xadimlərinin tənqidini də diqqətimizə çatdırır. Nizami tarixi həqiqətə sadiq qalaraq, dövrünün görkəmli filosofu olmuş Eynəlqüzzat Miyanəçi ruhuna hörmət və ehtiramını "Zeyd və Zeynəb" dastanını yazmaqla bildirmişdir. Tarixdən məlumdur ki, azad məhəbbəti təbliğ edən bu dastan filosof şair Miyanəçi tərəfindən qələmə alınmış, bu azadfikirliliyinə görə o, din xadimləri tərəfindən məscid qarşısında edam edilmişdir.

Miyanəçi ruhuna ehtiram olaraq Nizami tərəfindən "Zeyd və Zeynəb" dastanı əsərə əlavə edilmişdir.

Nizaminin "Yeddi gözəl" poemasında isə çoxmədəniyyətli mühitin həyati bir mənzərəsi ilə qarşılaşırıq. Müəllif yeddi iqlimdən olan, fərqli inanc sahibələri qadın tiplərini hind,rum, slavyan, Məğrib, Xarəzm , Çin, türk qadınlarını hökmdar Bəhramın ətrafında bir araya gətirir. Bu qadınlar ona dünyanın müxtəlif ölkələrində baş vermiş əhvalatları nəql edirlər.

Əsərdə Bəhramın bir şəxsiyyət kimi formalaşması prosesi də gedir. Bu kamilləşmənin, məhz, multikultural mühitdən keçərək baş tutması oxucuda şüuraltı olaraq o fikri möhkəmləndirir ki, ümumən bəşərin real tərəqqisində multikulturalizmin alternativi yoxdur.

Əsəri tədqiq edən müasir araşdırmaçılar burada orta çağ dünyasının kosmik modelinə diqqəti çəkir, bu modeldə məkanın yeddi iqlimə bölündüyü , hər iqlim və hər iqlimdəki ölkənin göyün bir qatı sayıldığını, yeddi gözəlin də ayrı-ayrılıqda mənsub olduqları iqlimlərə uyğun simvollarla bəzədilmiş saraylarda yerləşdirilməsini qeyd edərək maraqlı qənaətlərə gəlirlər.

Şənbə günü Saturn planetindən olan yeddi iqlim şahı Hind şahının qızı yeddi iqlim şahzadəsi Furəcin qara gümbəzli və Bəhram şahın da qara paltar geyinib daxil olduğu otaqda şaha "Qara geyim-

li kənizin nağılı"nı, bazar günü Günəş planetindən olan yeddi iqlim şahı Çin - Təbriz şahının qızı yeddi iqlim şahzadəsi Yəğmənazın sarı günbəzli və Bəhram şahın da sarı paltar geyinib daxil olduğu otaqda şahzadənin söylədiyi " Kəniz alan və satan şahın nağılı "nı, bazar ertəsi Ay planetindən olan, yeddi iqlim şahı Xarəzm şahının qızı yeddi iqlim şahzadəsi Nazpərinin yaşıl günbəzli, şahın da yaşıl rəngli paltar geyinib daxil olduğu otaqda şahzadənin ona "Bişr ilə Məlihanın nağılı "nı, çərşənbə axşamı Mars planetindən olan yeddi iqlim şahı Səqlam şahının qızı yeddi iqlim şahzadəsi Nəsrimuşun qırmızı günbəzli, şahın da qırmızı rəngli paltar geyinib daxil olduğu otaqda şahzadənin ona "Ərə getmək üçün şərt qoyan qızın nağılı"nı, çərşənbə günü Merkuri planetindən olan yeddi iqlim şahı Məğrib şahının qızı yeddi iqlim şahzadəsi Azəryunun firuzəyi günbəzli şahın da, firuzəyi rəngli paltar geyinib daxil olduğu otaqda şahzadənin ona "Mahanın nağılı"nı, cümə axşamı Yupiter planetindın olan yeddi iqlim şahı Qeysər şahın qızı yeddi iqlim şahzadəsi Humayın səndəli günbəzli və şahın da səndəli rəngli paltar geyinib daxil olduğu otaqda şahzadənin ona "Xeyir və Şərin nağılı" nı, cümə günü Venera planetindən olan yeddi iqlim şahı Kəsra şahın qızı yeddi iqlim şahzadəsi Dürsətin ağ günbəzli və Bəhram şahın da ağ rəngli paltar geyinib daxil olduğu otaqda şahzadənin ona "Xacənin nağılı"nı söyləməsi oxucularda xüsusi bir maraq yaradır. Təhlilini verdiyimiz bu parçada ilk baxışda şairin folklor görüşləri diqqətçəkici olsa da, onun multikulturalizmin əsas prinsipi olan tolerantlığı, dini və irqi seçkiliyə fərq qoymaması, yeddi iqlimə mənsub olan ayrı-ayrı din daşıyıcılarına hörmət və ehtiram daşıyıcısı olan Nizamini gözlərimiz qarşısında multikultural şair kimi canlandırır.

Nizami "Yeddi gözəl" əsərində türk qızı Fitnə obrazı vasitəsilə türklərin gücünü, qüvvətini, gözəlliyini təqdim edir. Əsərdə Fitnənin Bəhram şaha dərs verməsi eyni zamanda "İsgəndərnamə" də də türk qızı, qüdrətli Bərdə hökmdarı Nüşabənin İsgəndərə dərs verməsini ümumiləşdirməklə türkün gücünü, qüvvətini, eyni zamanda türkün müdrikliyini yerli və dünya oxucularının nəzərinə çatdırır.

Bütün əsərlərində, ümumiyyətlə, uzun sürən yaradıcılıq illərində insanlar arasında birlik, bərabərliyə çalışan və hər zaman dövlətlər arasında sülh olmasını istəyən, yaradıcılığının əsasını bu motivlər təşkil edən şair daim bu ənənələrə, multikulturalizmə sadiq qaldığını əsərində də əks etdirmişdir.

Nizami Gəncəvinin multikultural görüşləri onun bütün yaradıcılığında, xüsusilə, "İsgəndərnamə" poemasında öz əksini daha geniş şəkildə tapmışdır. Əsərin adı elə şairin multikultural görüşlərinin ifadəsidir. Nizaminin fəlsəfi görüşlərinin təhlili bizə o fikri söyləməyə əsas verir ki, şair dindar bir şəxsiyyət kimi islamın mükəmməl bilicilərindən olmuş, bütün dinlərə hörmət və rəğbətlə yanaşmışdır. O, əsərinə elə bir ad seçmək istəmişdir ki, həmin adın daşıyıcısı bütün dünya tərəfindən tanınsın və bütün dinlərin hamisi olsun. Məhz, belə bir şəxsiyyət Makedoniyalı İsgəndər idi. Lakin, şair əsərində sanki tarixi İsgəndəri öz libasından çıxararaq ona bədii don geyindirmiş, onu arzularının fövqündə yaratmışdır.

Əsərdə Nizaminin İsgəndəri adil bir hökmdar kimi təqdim etməsi əslində onun görmək istədiyi hökmdarların ümumiləşmiş surətidir. İsgəndərin yunan alimləri: Ərəstun, Hürmüz, Əflatun, Valiz, Bəlinas, Fərfiryus, Sokratı sarayına dəvət etməsi, onları öz başına yığması, sarayında yaşatması və onların verdiyi nəsihətlərdən bəhrələnməsi onun elmə olan diqqət və qayğısından irəli gəlir.

*Əmr etdi, verildi belə bir fərman:*
*"Alimdir gözümdə ən aziz insan"!*
*Elmlə, hünərlə başqa cür heç kəs,*
*Heç kəsə üstünlük eyləyə bilməz* ***[3, s.37]***

Şairin birlik, bərabərlik tərəfdarı olmasının, irqi, dini ayrıseçkiliyin tərəfdarı olmamasının dönə-dönə şahidi oluruq:

*Zəncinin zahiri qaradır, ancaq,*
*Ağzından çıxan saf sözlərə bax.*
*Qara olsan əgər, söyüd kimi yan,*
*Zəncinin dişini odur ağardan.*
*Zənci dəmir kimi qara, parlaqdır.*
*Üzü qaradırsa, ürəyi ağdır* ***[4, s.88]***

Çox təəssüf ki, bu gün dünya meridianında demokratiyanın qorunması uğrunda mübarizə aparan “multikultural” dövlətlərdə zənciyə qarşı münasibət heç də insani deyildir.

Daha sonra əsərin məzmununda aparıcı rol oynayan hadisələrdən biri də Nizaminin İsgəndəri gətirib o zaman Nüşabənin hökmdarlıq etdiyi, Azərbycanın paytaxtı olmuş Bərdə şəhərinə çıxarmasıdır. Görüş zamanı Nüşabə öz qadın müdrikliyini ortaya qoyur. Belə ki, boşqabda yemək əvəzinə ləl–cəvahiratı İsgəndərin qarşısına qoyur. İsgəndər təəccüblə boşqaba baxaraq soruşur ki, bu nədir? Elə bir nemət gətir ki, onu yemək mümkün olsun. Nüşabə cavabında bildirir ki, madam ki, bunları yemək mümkün deyil, bunun üçün bu qədər döyüşlərə, savaşlara dəyərmi?, - deyərək İsgəndərə dərs vermiş olur. Yəni burada dahi Nizami öz multikultural fikirlərini sülhün, qardaşlığın, tərəqqinin inkişafın tərəfdarı olduğunu Nüşabə obrazı vastəsilə oxucularına təqdim edir.

Əslində qlobal xarakter daşıyan bu mövzunu bir məqalə həcmində ümumiləşdirmək mümkün olmadığından biz problemdən konkret şəkildə danışa bildik. Təkcə bir kiçik həcmli məqalə ilə söz yox ki, Nizami bədii dühası fonunda onun multikultural görüşlərini tam şəkildə ifadə etmək mümkün deyil. Bu mövzu müasir ədəbiyyatşünaslıqda öz tədqiqatçısını gözləyən vacib, aktual mövzulardan biridir.

**Xülasə**

“N.Gəncəvinin multikultural dünyagörüşü” adlanan bu məqalədə Nizami Gəncəvinin multikultural görüşləri tədqiq olunur. Müəlliflər şairin poemalarını tədqiq edərkən, mövzunun tələblərinə uyğun olaraq öz fikirlərini maraqlı faktlarla sübut edirlər.

**Резюме**

В статье на тему «Мультикультуральное мировоззрение Низами Гянджеви» исследуются мультикультуральные взгляды Низами Гянджеви. Авторы, исследуя поэмы поэта с точки зрения требований темы, доказывает свои мысли интересными фактами.

**Summary**

This article deals with the multicultural views of N. Gangavi . It inverstigated the poet s ideas a thoughts about the different culturs itegratiion andproved theideas with facts from the qreat poets sreative work.

**Ədəbiyyat:**

1. Məmməd Əmin Rəsulzadə: “Azərbaycan şairi Nizami”, Bakı:“Azərnəşr”, 1991, 227s.
2. N. Gəncəvi: Xosrov və Şirin: ( poema ): Bakı : “Lider” nəşriyyatı, 2004, 391 s.
3. N. Gəncəvi: İsgəndərnamə:(“İqbalnamə”):(poema). Bakı: “Lider” nəşriyyatı, 2004, 254 s.
4. N.Gəncəvi: İsgəndərnamə (“Şərəfnamə”) :poema : Bakı : “Lider” nəşriyyatı, 2004, 429 s.
5. N. Gəncəvi :Leyli və Məcnun: (poema), Bakı: “Lider” nəşriyyatı, 2004. 286 s.
6. N. Gəncəvi: Sirlər xəzinəsi. Bakı: “Lider” nəşriyyatı, 2004, 207s.
7. N. Gəncəvi : Yeddi gözəl. Bakı: “Lider” nəşriyyatı. 2004, 334 s.
8. Xalisbəyli. T. Nizami Gəncəvi və Azərbaycan qaynaqları. Bakı:“Azərnəşr”, 1991, 296 s.

**Adışirinov Kamil Fikrət oğlu, filologiya üzrə fəlsəfə doktoru**
**AMEA ŞREM, aparıcı elmi işçi**
**Azərbaycan, Şəki**

# SURAĞAT QURBANİNİN FOLKLOR GÖRÜŞLƏRİ

***Açar sözlər:*** *folklor görüşləri, aşıq, saz, xalq şeiri, qoşma, təcnis, gəraylı, ədəbi məclis*
***Ключевые слова:*** *фольклорные взгляды, ашиг, саз, народный стих, гошма, теджнис, герайлы, литературный собрание.*
***Key words****: folklore thoughts, ashug, saz, folk poetry, goshma, tajnis, garaylı, literary council.*

Surağat Qurbani Balakən rayonunun Katex kəndində yaşayıb – yaratsa da, XX əsr Şəki ədəbi mühitinin formalaşmasında mühüm rol oynamış, “Nuxa fəhləsi” qəzetinin redaksiyasının nəzdində fəaliyyət göstərən “Səbuhi” ədəbi məclisinin sıralarında böyük sənət yolu keçmişdir. Şairin ilk yaradıcılıq nümunələri 1946-cı ildən “Nuxa fəhləsi” qəzetinin səhifələrində dərc olunmuşdur. S.Qurbaninin yaradıcılığını mövzu və mündəricə etibarilə dəyərləndirən “Səbuhi”nin aparıcı üzvlərindən olmuş şair Nurpaşa Hümmətov “Surağat Qurbani” adlı məqaləsində yazır: “ Biz “Nuxa fəhləsi” qəzetinin səhifələrində Surağat Qurbaninin şeirlərinə tez-tez rast gəlirik. O, redaksiya nəzdindəki ədəbiyyat dərnəyinin fəal üzvlərindən biridir. Surağat Balakən rayonunun Katex kənd məktəbində müəllimdir. O, öz peşəsini sevdiyi kimi, istedadlı bir şair kimi də oxucular qarşısında tez-tez çıxış edir. Qurbaninin şeirlərində Vətən, eşq və məhəbbət, fədakar əmək ilhamla tərənnüm edilir **[1].**

Həssas müşahidəçi, incə hisslərin çoşğun tərənnümçüsü olan Surağat Qurbaninin yaradıcılığı janr etibarilə qoşma, gəraylı, rübailərdən ibarətdir. Şairin lirik fondu mövzu etibarilə də olduqca rəngarəngdir. Doğma Vətənə, el-obaya, yurda bağlılıq, saf, təmiz, ülvi sevgi hissləri, Vətən təbiətinə olan sonsuz məhəbbət, insana xas olan ən incə duyğuların poetik dillə-məharətli, ustad bir şair dili ilə ifadəsi Surağat Qurbaninin şeirlərinin aparıcı xüsusiyyətləridir. Doğma Azərbaycana olan sonsuz məhəbbət və azərbaycançılıq ideyalarının tərənnümü Surağat Qurbaninin yaradıcılığının özəyini təşkil edir.

Vətənini bütün yaradıcılıq fondunun əsas ilhamverici qüvvəsi adlandıran şair “Olmasa” gəraylısında:

*Yaz, əsməsin əldə qələm,*
*Sıxa bilməz qəlbini qəm.*
*De, kim idin, Qubani, sən*
*Vətən sənə yar olmasa* ***[5]?***

fikrini “Yolunda” adlı şeirində daha da dərinləşdirərək Vətən yolunda canını belə verməyə hazır olduğunu bildirir:

*Qurbaniyəm öz gülümü dərərəm,*
*Eldən ötrü dağ tək sinə gərərəm.*
*Söz nədir ki, canımı da verərəm,*
*Vətən adlı bu diyarın yolunda* ***[2, s. 9]!***

S.Qurbaninin şeirləri canlılıq, dil sadəliyi, tərənnüm və ifadə gözəlliyi baxımından da təsirli və yaddaqalandır. Kənddə doğulub boya - başa çatan, xalqla birlikdə nəfəs alıb, xalqla qaynayıb – qarışan S.Qurbaninin lirikasında xalq şeiri, folklor üslubu daha müvəffəqiyyətlidir. Onun poeziyasının janr xüsusiyyətlərinə tənqidi yanaşan “Səbuhi” ədəbi məclisinin üzvü N.Hümmətov yazmışdır: “Surağatın çoxlu qoşmaları vardır. O, yaradıcılıq yollarından daha müvəffəqiyyətlə keçmək üçün yalnız qoşma janrında yazmaqla kifayətlənməməli, müxtəlif şeir növlərindən cəsarətlə istifadə etməlidir. Daha çox çalışmalıdır ki, onun əsərlərində poetik dil, şeiriyyət daha yüksək olsun, şeirlərində artıq söz, artıq ifadələr tapılmasın”. Bu fikirlər istedadlı şair S.Qurbaninin yaradıcılığını istiqamətləndirmək üçün görkəmli alim-şairin qələmindən 1961-ci ildə çıxmışdı. İnsafən, yuxarıda ifadə etdiyimiz fikrə qayıdaraq əminliklə söyləyirik ki, S.Qurbaninin qoşmaları lirika sahəsində uzun za-

man qələm sınağından çıxmış bitkin əsərlərdir. Bu əsərlərdə incə bir musiqililik, ahəng, təravət və axıcılıq gözlənilməklə janrın bütün tələbləri nəzərə alınmışdır. Hələ vaxtilə 60 - cı illərdə S.Qurbani şairliyin böyük məsuliyyətini, yaradıcılığın xəlqi mahiyyətini, şairin söz içərisindən söz seçmək məharətini "Deyərlər" adlı proqram şeirində ifadə edərək yazmışdı:

*Söz ordunu göndər elin içinə,*
*Qoy güvənsin o da elin gücünə.*
*Söz içindən söz seçməyə incimə,*
*Duzlu yazsan, "sözü vardır" deyərlər **[6].***

Şairin zəngin arxivinə baş vurarkən görürük ki, onun lirikasının özülünü təşkil edən şeirlərin çoxu aşıq şeirinin oynaq janrlarından olan qoşma və gəraylı janrlarında yazılıb. S. Qurbaninin saz, söz, aşıq sənətinə vurğunluğu göz qabağındadır. Qarşımızdakı yüzlərlə yaradıcılıq nümunələri içərisində saza həsr olunmuş, aşıq sənətini təbliğ edən şeirlər də vardır. "Kəndim" **[7]** adlı şeirində şairin yazdığı "Adına söz qoşub, saz da çalıbdır" misrası fikrimizin təsdiqidir. Vaxtilə kənd toylarının aşıqlar tərəfindən aparıldığını şair "Aşıq, çal sazını" şeirində gözəl ifadə etmişdir. Şeirdə verilmiş məzmunda "haqq aşığı", "təcnis", "Dilqəm", "Qaraçı", "dodaqdəyməz", "dildönməz" kimi hava və janrların adının çəkilməsi S. Qurbanini bizə aşıq sənətinin mükəmməl bilicisi kimi də təqdim edir. Şeirdən oxuyuruq:

*Aşıq "Dilqəm"i çal, bəzə məclisi,*
*Niyə ucalmasın, səsin, avazın?*
*Yeddi kəndə çatsın sədası gərək,*
*Əlində dillənən sədəfli sazın.*

*Bir dodaqdəyməz de, bir diltərpənməz,*
*Obam fəxr eləsin təcnislərinlə.*
*Sönük sədalarla məclis bəzənməz,*
*Təzə bir meydan aç öz hünərinlə!*

*Sonra da "Qaraçı" havası başla,*
*Quş tək süzə-süzə oyna arada!*
*Bir istedad qalır, bir xoş söz qalır,*
*Bir də haqq aşığı qoca dünyada **[7]!***

"Saz" **[8]** şeirində isə şair, sazı öz sədası ilə qəmi silib, ürəkləri riqqətə gətirən, əsas oylağı Təbriz, Çənlibel və Dədə Qorqud yadigarı olan bir musiqi aləti kimi səciyyələndirir:

*Söylə, Təbrizlisən, Çənlibellisən,*
*Sən bizim ellisən, bizim ellisən.*
*Demə, dağıstanlı, doqquz tellisən,*
*Kim gətirib səni bizə gəldi saz?!*

*Yaxşıya yaxşısan, yamana yaman,*
*Qucaqdan düşmürsən niyə heç zaman?*
*Kimdir Dədə Qorqud, kimdir o ozan,*
*Oğuzlar qəlbindən qəmi sildi, saz **[8]?!***

Şairin saz, aşıq sənəti ilə bağlılığına dair verdiyimiz bu qısa təhlil onun yaradıcılığında qoşma və gəraylı janrının çoxluğunun səbəblərini aydınlaşdırır. Xalq ruhunu canında daşıyan Surağat Qurbani mütləq fikirlərini dil sadəliyinə söykənən bu janrlarda ifadə etməli idi.

Şairin klassik poeziyadan qaynaqlanıb gələn "Dedim, dedi" **[12]** formantlı şeiri S.Qurbanini aşıq poeziyasına yaxınlaşdıran ən maraqlı nümunə kimi diqqəti cəlb edir. Bu formant bildiyimiz kimi, dahi Nizami Gəncəvi yaradıcılığından bu üzrə bir çox şair və aşıqların yaradıcılığında öz əksi-

ni tapmışdır. Lakin "Səbuhi" ədəbi məclisinin istedadlı üzvlərindən olmuş S.Qurbani özünəməxsus üslubda, sadə dildə, axıcılığı ilə diqqətçəkən, yaddaqalan bir nümunə yaratmışdır:

*Dedim: başına dolanım!*
*Dedi: dolanma, dolanma.*
*Dedim: qoy, oduna yanım!*
*Dedi: qalanma, qalanma.*

*Dedim: gül səpim başına,*
*Dedi: yar küsər, yar küsər.*
*Dedim: söz qoşum qaşına,*
*Dedi: saz küsər, saz küsər.*

*Dedim: başına dolanım,*
*Pərvanəm: çox- çoxdu dedi,*
*Dedim: gedim a ceyranım,*
*Geriyə yol yoxdu dedi* ***[12 ].***

Şeirin sonuncu bəndində formantın dəyişərək, "dedi" formantının sonda verilməsi nəinki axıcılığı pozan, onu daha da qüvvətləndirən bir üslubi gediş təsiri bağışlayır ki, S.Qurbani burada ustad sənətkar olduğunu təsdiqləyir.

Şairin şeirlərinin əksəriyyətində sözlərin, xüsusilə, təkrar sözlərin, işlənməsi o dərəcədə cazibədardır ki, misralardan xalq şeirinin ruhundan gələn şirə süzülür. Bu sirin şirə oxucu ruhunu cana gətirir.

*"Baxa-baxa" [**10**] gəraylısına diqqət edək:*
*Niyə qəsdən bilə-bilə,*
*Saldın məni dildən-dilə?!*
*Könül verib gülə - gülə,*
*Könül aldın baxa-baxa?!*

*Nə hal qaldı məndə, nə can,*
*Hara getdin, bəs, a canan?!*
*Qurbaniyə uddurub qan,*
*Harda qaldın baxa-baxa* ***[10]?!***

Bu poetik nümunənin hər misrasından professor M.Qasımlının təbirincə desək, "saz səsi, aşıq nəfəsi", duyulur. Hiss olunur ki, həmin misralar qanı, iliyi ilə xalq ruhuna bağlı bir sənətkarın qəlbindən qopmuşdur.Görkəmli ədəbiyyatşünasın vaxtilə ulu Xətai poeziyası haqqında söylədiyi yuxarıdakı fikir S.Qurbaninin yuxarıdakı şeirinə də şamil edilə bilər. Məzmunundan öz həyat yoldaşına ithaf olunması duyulan "Təkcə sənsən" **[11]** şeiri yalnız gənc nəslə dönməz, sədaqətli məhəbbət yollarını göstərən, onların mənəvi tərbiyəsinə müsbət təsir edən bir nümunə təsiri bağışlamır, yüksək sənətkarlıq baxımından da diqqəti cəlb edir. Şairin həyat yoldaşına sonsuz məhəbbəti "təkcə sənsən, təkcə sənsən, təkcə sən" misraboyu təkririn məzmununa hopmuşdur. Şeirdən oxuyuruq:

*Ömrün boyu keşiyimdə dayanan,*
*Təkcə sənsən, təkcə sənsən, təkcə sən.*
*Ürəyimə nur saçaraq hey yanan,*
*Təkcə sənsən, təkcə sənsən, təkcə sən.*

*Bu dünyanın nə sonu nə əzəli,*
*Bəri əyləş, ey söhbəti məzəli,*
*Gözlərimdə gözəllərin gözəli,*
*Təkcə sənsən, təkcə sənsən, təkcə sən.*

*Qoşa keçən ömrümüzün mənası,*
*Ürəyimin odlu səsi - sədası,*
*Sevinc dolu bir məhəbbət dünyası,*
*Təkcə sənsən, təkcə sənsən, təkcə sən* ***[11].***

"Səbuhi" ədəbi məclisinin poeziya bulağından su içən, gözəl, maraqlı şeirlər müəllifi olan Surağat Qurbaninin ədəbi irsi inanırıq ki, gələcəkdə tədqiqatçılar tərəfindən hərtərəfli tədqiq edilərək Azərbaycan poeziya gülüstanında öz əbədiyaşar yerini tutacaqdır. Hansı ki, şair seirlərindən birində özünü ellərə yadigar kimi təqdim edərək yazmışdır.

*Qurbaniyəm, çoxdan bəxtiyaram bil,*
*Katexdən ellərə yadigaram bil,*
*Balakən elində mən də varam bil,*
*Şeir adlı neməti çox görmə mənə* ***[3, s. 16].***

**Xülasə**

Kamil Adışirinovun "Surağat Qurbaninin folklor görüşləri" məqaləsində Surağat Qurbaninin folklorla bağlı baxışlarının özünəməxsus xüsusiyyətlərindən bəhs olunur. Məqalədə şairin lirik əsərlərinin əsas mövzusu, mahiyyəti, janrları analiz olunur. Bundan başqa onun sənətkarlıq xüsusiyyətləri, zəngin ideyaları, çoxcəhətli mövzuları bədii obrazlar baxımından araşdırılır.

**Резюме**

В статье Камиля Адиширинова «Фольклорные взгляды Сурагата Курбани» говорится об основных чертах фольклорных взглядов Сурагата Курбани. Анализируется лирика поэта, сущность и жанры в его лирических произведениях. В статье также утверждается особенности мастерства поэта, его насыщенная идея, разнообразные темы с точки зрения художественных образцов.

**Summary**

The article "Suragat Gurbany's folklore thoughts" by Adishirinova Kamil deals with the characteristic features of literary activities of Suragat Gurbany. It is evaluating the poet's lyrics' theme, content and genre direction's quality. Deep lyrics of Suragat Gurbany's particular perfection are approved by the literary example.

**Ədəbiyyat:**

1. Hümmətov N. Surağat Qurbani. "Nuxa fəhləsi", qəz., Şəki, 1947, 17 mart
2.Qurbani S. Məni unutmayın, dağlar: şeirlər, Bakı: "Asel" çap evi, 2009, 68s.
3.Qurbani S. Ana hədiyyəsi: şeirlər: Bakı: Yazıçı,1983, 63s.
4.Qurbani S. Yarpaqlar pıçıldaşır: şeirlər. Bakı, Azərnəşr,1966
5.Qurbani S. Olmasa: şeir (əlyazması )
6. Qurbani. S. Deyərlər: şeir ( əlyazması )
7. Qurbani. S. Kəndim: şeir ( əlyazması )
8. Qurbani. S. Saz : şeir ( əlyazması )
9.Qurbani.S. Səndən ötrü. şeir (əlyazması)
10.Qurbani. S. Baxa-baxa. şeir (əlyazması )
11.Qurbani.S. Təkcə sənsən, təkcə sənsən, təkcə sən. şeir (əlyazması)
12.Qurbani. S. Dedim – dedi: şeir (əlyazması )

# İKİNCİ BÖLMƏ
## *Azərbaycan folklorunun etnik-lokal rəngarəngliyi*

**Ləman Vaqifqızı (Süleymanova), filologiya üzrə fəlsəfə doktoru,**
**AMEA Folklor İnstitutu, aparıcı elmi işçi**
**Azərbaycan, Bakı**

## AZSAYLI XALQLARIN FOLKLORUNDA BAYATI

***Açar sözlər:*** *bayatı, Ahısqa türkləri, ləzgi, avar, saxur, inqiloy, kürd*
***Ключевые слова:*** *баяты, тюрки Ахыска, лезгин, аварец, цахурец, ингилой, курд*
***Key words:*** *bayati, ahisga turks, lezghin, inqiloy, kurd, avar, sakhur*

Azərbaycanın bir sıra bölgələrindən Azərbaycan türkləri ilə yanaşı azsaylı xalqların da nümayəndələrindən müəyyən qədər bayatı nümunəsi toplanaraq nəşr olunmuşdur [Azərbaycan folklor antologiyası. XIII kitab], [Azsaylı xalqların folkloru], [Babaların hikmət xəzinəsi].

Bayatının öz coğrafiyası var. Bu coğrafiya siyasi sərhədlərə sığmır. Bu, bir mədəniyyət hadisəsidir. Bizim mədəniyyətimizin bayatı qatı var. O, necə yaranır, necə yaşayır, bunu araşdırmaq lazımdır. Bir ucu Balkanlardan, bir ucu Doğu Türkistandan, bir ucu bu gün Orta Asiya adlandırılan Türkistandan başlamış, Türkiyə, Azərbaycan da daxil olmaqla türkün yaşadığı və türk mədəniyyətinin təsirinin olduğu hər yerdə bayatı janrı çox geniş yayılmışdır. Azərbaycanda yaşayan Ahısqa türklərinin[14] də folklorunda bayatı bütün türksoylu xalqlarda olduğu kimi olduqca aktiv janrdır. Əksər folklor janrlarında olduğu kimi, bayatı da xalqın həyatında baş verən hadisələrə etinasız qala bilmir. Onların məzmununa nəzər saldığımız zaman Ahısqa bayatılarının xalqın keçdiyi enişli-yoxuşlu yolları necə əks etdirdiyinin şahidi oluruq. Folklorun əksər janrları kimi, bayatı da xalqın tarixini bu və ya digər dərəcədə əks etdirmək baxımından qiymətlidir. Aşağıdakı bayatılarda[15] ahısqalıların 1944-cü il 14 noyabr sürgünü öz əksini tapmışdır:

*Qartopu sayamadım,*
*Qazana qoyamadım.*
*Stalinin gözü çıxsın,*
*Vətəndən doyamadım.*

*Sallanıb girdim bağa,*
*Başım degdi yaprağa.*
*Bən ki vətən görmədim,*
*Nəsil girem toprağa?*

*Qolanın bədənləri,*
*Çəvürün gedənləri.*
*Ah etsin, qan tüfürsün,*
*Bizi vətəndən edənləri və s.*

Türk xalqları tarixin yaddaşında döyüşkən, bütün ömrü-günü müharibələrdə keçən xalq kimi qalmışdır. Bu, Ahısqa türklərinin folklorunda da öz əksini tapmışdır. Onlardan toplanmış bayatıların bir qismində əsgərlikdən və əsgərlərdən bəhs olunur:

---

[14] 1988-ci il Özbəkistanda baş vermiş olaylar üzündən Ahısqa türklərinin bir qismi Azərbaycana köçərək müxtəlif bölgələrimizdə yerləşmişlər. Məqalədə istifadə etdiyimiz materialların bir qismini 1988-ci ildə Beyləqan rayonun Türklər kəndinin orta məktəbinin dil-ədəbiyyat müəllimi Bağırova Zeynəb Şirin qızı həmin kənddə məskunlaşmış ahısqalılardan qeydə almışdır və 2015-ci ilin mart ayında bizə vermişdir. Həmin materialları zamanında topladığı və bizə təqdim etdiyi üçün Zeynəb xanıma minnətdarıq.

[15] Qeyd edək ki, yalnız bayatılar deyil, Ahısqa türklərindən qeydə alınmış digər folklor nümunələri də həmin sürgünlə bağlı xatirələri özündə daşıyır.

*Gögdə yıldız əllidür,*
*Əllisi də bəllidür.*
*Yüz bin əsgər içində,*
*Bənim qardaşım bəllidür.*

*Alma atdim əzildi,*
*Tabur yola düzüldi.*
*Bənim bir tək kardaşım,*
*Əsgərluğa yazıldi və s.*

Bütün türk xalqlarında olduğu kimi Ahısqa türklərindən toplanmış bayatıların da bir qismini deyişmə bayatılar təşkil edir:

*Mərdivandan ensənə,*
*Sağ tərəfə dönsənə.*
*Qoynundaki o gül məmən*
*Birini bənə versənə.*

*Mərdivandan enəməm,*
*Sağ tərəfə dönəməm.*
*Qoynumdaki gülləri,*
*Amanatdur, verəməm.*

Bəzi bayatıların cavabı olmasa da, məzmunundan ehtimal etmək olur ki, bu bayatılar da vaxtilə deyişmə şəklində söylənmiş, amma günümüzə yarımçıq halda çatmışdır:

*Binadan boylimisin?*
*Yarim can, evlimisin?*
*Hər gələn səni soriyer,*
*Altuna mayilmisin?*

*Qari qoç boyanurmi?*
*Səsləsəm, oyanurmi?*
*Sən orada, bən burada,*
*Buna can dayanurmi?*

Onu da deyək ki, Ahısqa türklərinin bayatılarında sual cümlələri çox işlədilir.

Bir qism bayatılarımız vardır ki, onlarda alqış və yaxud da qarğış məzmunu vardır. Çox təəssüf ki, vaxtilə bu bayatıların harada və nə məqsədlə deyilməsi qeydə alınmadığı üçün indi onların kontekstini müəyyənləşdirmək çox çətindir. Alqış və qarğış bayatılarla Ahısqa türklərinin də folklorunda rastlaşdıq:

*Allah, Allah, bir Allah,*
*Bin bir adın var sənin.*
*Bir muradım var mənim.*
*Bir adın hürmət üçün*
*Ver muradimi bənə.*

Ahısqa türklərinin folklorunda elə bayatılarla qarşılaşırıq ki, etnoqrafiyadan xəbər verir. Aşağıdakı bayatı nümunəsində işlədilmiş "işləməli çardaq" ifadəsi onların etnoqrafiyası haqqında müəyyən təsəvvür yaradır:

*İstanbul yeti taxta,*
*Dört alma bir budaxda.*
*Kardaş, yari qordünmü*
*İşləməli çardaxda.*

Bu bayatının I misrasında İstanbul şəhərinin yeddi təpə olmasına işarə vurulur. Yeri gəlmişkən qeyd edək ki, dünyada iki şəhərə yeddi təpəli deyirlər: Yeddi təpə İstanbul və yeddi təpə Roma.

Biz azsaylı xalqların folklorunda bayatıdan danışdığımız zaman yalnız janr kimi deyil, poetik forma kimi də bəhs edirik. Bu mənada Ahısqa türklərindən toplanmış türkü[16] və nənnilərə[17] də toxunmaq istəyirik. Onlardan qeydə alınmış türkülərin də çoxu bayatı janrı üzərində qurulmuşdur. "Ağlama, qəlin, ağlama" adlı türkü buna sübutdur:

*Qəlin diyar: "ana, ana",*
*Yaşi tokar yana-yana.*
*Ağlama, qəlin, ağlama,*
*Kaynanadur sənə ana.*

*Qəlin diyar: "baba, baba",*
*Yaşi tokar kaba-kaba.*
*Ağlama, qəlin, ağlama,*
*Kaynatadur sənə baba.*

*Qəlin diyar: "kardaş, kardaş",*
*Yaşi tokar yavaş-yavaş.*
*Ağlama, qəlin, ağlama,*
*Kayindur sənə kardaş.*

*Qəlin diyar: "baci, baci",*
*Yaşi tokar aci-aci.*
*Ağlama, qəlin, ağlama,*
*Balduzdur sənə baci.*

Ahısqa türklərində bayatı formasında deyilən nənnilər də geniş yayılmışdır. Maraqlı burasıdır ki, onlardan qeydə alınmış nənnilər arasında süjetli nənnilərə də rast gəlinir. Onlardan biri belədir: "Poşalar[18] bir dəvəyə uşağı mindirib bir meşə ilə gedirmişlər. Ağac uşağın qundağına ilişir, uşaq qalır. Gəlin qaynatası ilə hələ söyləmirmiş. (Ümumiyyətlə, ahısqalılarda gəlin qaynata, qaynana, qayın ilə danışmazmış). Gəlin utanır, deyə bilmir ki, uşaq qaldı. Başlayır ağlaya-ağlaya nənni deməyə. Qayıdıb baxırlar ki, uşağı qarğa-quzğun öldürüb".

*Küknar, dalın qırılsın*[19]*,*
*Dibə balta vurulsun.*
*Dibində yavrum bulunsun,*
*Nənni, yavrum, nənni,*
*Nənni körpəmə, nənni.*

*Sənə nənni diyamadim,*
*Yavru tatli, doyamadim.*
*Gəlin idim, diyamadim,*
*Nənni, yavrum, sənə nənni,*
*Nənni, körpəm, sənə nənni.*

*Qaynatamdan hicab etdim,*
*Acab bən yavruma netdim?*[20]

---

[16]Mahnı
[17]Laylalar
[18]Dilənçilər
[19]Bu nənninin əlimizdə iki variantı var. Burada daha kiçik variantını verməyi məqsədəuyğun saydıq.
[20]Nə etdim?

*Qurda-quşa yemlik etdim.*
*Nənni, yavrum, nənni,*
*Nənni körpəmə, nənni.*

*Sənə nənni diyan dillər,*
*Hanı bayaz-bayaz da qollar?*
*Nənni, körpəm, sənə nənni,*
*Nənni yavruma, nənni.*

Bu şifahi folklor hadisəsi türklərdən digər xalqlara da keçmişdir. Bu, olduqca qanunauyğun prosesdir. Çünki birgə yaşayış zamanı böyük mədəniyyətlər istər-istəməz kiçik xalqların da mədəniyyətinə təsir edir. Biz toplama zamanı milliyyətcə ləzgi, avar, saxur, ingiloy, tat və s. xalqların da folklorunda bayatıya təsadüf etdik. Bu xalqlar türk etnik sisteminin içərisində yaşadıqları üçün bayatını da mənimsəyiblər.

Bir xalqın folkloru digər xalqa necə keçir? Bunu izah etmək üçün bir xatirəmizi sizlərlə paylaşmağı məqsədəuyğun sayırıq. Biz 2012-ci ildə Şəki rayonunun Şorsu kəndində folklor toplayırdıq. Bu kənddə Azərbaycan türkləri ilə yanaşı, ləzgilər də yaşayırlar. Milliyyətcə ləzgi olan, 70 yaşlı söyləyicim Mustafayeva Şəfiqə Tahir qızının dediyinə görə, o, Dağıstanın Rutul rayonunun Buş kəndində doğulub, uşaqlıq illəri də həmin kənddə keçib. Söyləyicinin 10 yaşı olanda Şəkiyə köçüblər. Şəfiqə nənə Şəkiyə gəliş səbəblərini belə izah etdi ki, Dağıstan dağ yeri olduğu üçün orada yaşamaq və çörək qazanmaq çox çətindir. Dolanışıq dərdi Şəfiqə nənənin ailəsini və yüzlərlə digər ailələri Azərbaycana köçməyə vadar edib. Biz sonradan da dolanışıq çətinliyi səbəbindən bu bölgədə vaxtilə məskunlaşmış Dağıstan mənşəli xeyli sayda ailə ilə qarşılaşdıq. O və həmkəndliləri Dağıstanda yaşadıqları zaman Azərbaycan dilini bilmirlərmiş. Şəfiqə nənənin dediyinə görə, onlar Dağıstanda yaşadıqları zaman Buş kəndinin qadınları çayın sahilinə yığılıb oturarmışlar: nişanlı qızlar bir tərəfdə, qoca nənələr bir tərəfdə, xırda uşaqlar bir tərəfdə. Çayın sahilinə yığışıb oturmuş qadınlar bayatılar deyərmişlər. Şəfiqə nənədən onların bayatını hansı dildə söylədiklərini soruşduğumuz zaman dedi: "Bizim dilimiz rutul dilidi. Biz bayatını muğal[21] dilində diyirdıx. Öz dilimizdə bayatı yoxdu, düzünə qalsa". Söyləyicimiz də uşaqkən bu mahnılardan bir qismini yaddaşına köçürüb. Şəfiqə nənə bizə xeyli bayatı dedi və həmkəndlisi 60 yaşlı Nurməmmədova Reyhan (Ayna) İslam qızı ilə birgə "Lilay" və "Ceyranım" adlanan bir mahnıdan xeyli oxudu. Bu mahnıların da mətnləri bayatı üzərində qurulub.

Onlardan topladığımız bayatıların da bir qismi vətən həsrətlidir:

*Çey çoxdu, keçə bilməz,*
*Dərdim var, aça bilməz.*
*Düşmüşəm yad ölkəyə*
*Haraya çata bilməz.*

*Dağıstan dağlar meşə, lilay, lilay.*
*Gəldikcən bağdı, meşə.*
*Vətən yadıma düşdü, lilay, lilay.*
*Oturub ağlamışəm, Maral xala və s.*

*Dağdan dağa gəzərəm, ceyranım, ceyranım.*
*Sana kağız yazaram,*
*Sən bu il də gəlməsən, ceyranım, ceyranım,*
*Ulkə-ulkə gəzərəm.*

*Dağlar dağlara baxar, ceyranım, ceyranım.*
*Aradan çaylar axar.*
*İki dünya bir olsa, ceyranım, ceyranım,*
*Sevən sevənə baxar.*

[21] Bu bölgədə yaşayan azsaylı xalqlar Azərbaycan türklərini muğal, Azərbaycan dilini isə muğal dili adlandırırlar.

Folklor söyləyiciliyi canlı hadisədir, yəni bir material canlı deyildiyi zaman folklordur. Yazıya alındığı zaman xeyli şey itirir. Xüsusən mətnin konteksti, yəni onun harada, nə zaman və hansı məqsədlə deyilməsi qeydə alınmazsa, o, bəzi hallarda tam anlaşılmır, bir az kəskin söyləsək, folklorluqdan çıxır.

2012-ci ildə Şamaxı rayonunda yaşayan tatlardan folklor toplayarkən də belə bir halla qarşılaşdıq. Şamaxı rayonunun Məlhəm kəndində yaşayan 65 yaşlı Poladəliyeva Zəhra Xanlar qızı və oğlu Poladəliyev Qorxmaz bizə xeyli folklor nümunəsi, həmçinin bayatılar söylədilər. Onlar bizim xahişimizdən sonra həmin folklor mətnlərini tat dilində də dedilər. Sıra bayatılara çatanda isə "Bayatının tatcası olmur ki. O elə Azərbaycan dilində olur", – deyə məsələyə yekun vurdular[22].

Azərbaycan dilində deyilən bayatılarla yanaşı, azsaylı xalqların öz dillərində söylənən bayatılarla məhdud sayda da olsa, rastlaşırıq. Daha dəqiqini söyləsək, avarlardan da dambırla[23] ifa olunan zaman oxunan bir neçə hayla nümunəsi qeydə ala bildik. 2015-ci ilin iyul ayında Zaqatala şəhərində dambırçı Məhəmmədlə görüşdük. Milliyyətcə avar olan Mamedov Mamed (Məhəmməd) Mikayıl oğlu 1962-ci ildə Zaqatala rayonun Dardoqqaz kəndində doğulub. Dambırçı Məhəmməd gözəl dambır çalmağı bacarır, olduqca ürəyə yatımlı səsi var. Canlı xarakteri oxuduğu haylalarda da özünü göstərir. Məhəmməd dayının oxuduğu haylaların böyük əksəriyyəti Azərbaycan dilində idi. Əvvəlcə bizə hayla ilə "xoş gəldin" deyən Məhəmməd dayı hamımızın ümumi vətəni olan Azərbaycanı mədh etdi:

*Kim gəlibdi, xoş gəlib,*
*Bu yerlərə xoş gəlib.*
*Bizim bu Ləman xanım*
*Zaqatalaya xoş gəlib.*

*Şöhrətim, şanım mənim,*
*Vətənim, canım mənim.*
*Gözəlliklər məskəni*
*Azərbaycanım mənim.*

*Sərvətimiz var bizim,*
*Qüdrətimiz var bizim.*
*Dövlətlərin içində*
*Hörmətimiz var bizim.*

*Vətənimin hər yanı,*
*Məftun edər insanı.*
*Cənnət görmək istəyən*
*Gəzsin Azərbaycanı.*

Məhəmməd dayı haylaları ilə Zaqatala rayonunu vəsf etməyi də unutmadı. O, Zaqatalanın sözlə sanki rəsmini çəkdi:

*Ulduz dönüb Ay olmaz,*
*Yaz keçməsə, yay olmaz.*
*Bütün dünyanı gəzsən*
*Zaqatalaya tay olmaz.*

*Bir tərəfi Tala çay,*
*Bir tərəfi Katex çay.*
*Olarmı heç sənə tay,*
*Oy mənim Zaqatalam.*

---

[22]19-20 may 2016-cı ildə Zaqatala şəhərində keçirilmiş "Azərbaycan folkloru və mədəni müxtəliflik" adlı Beynəlxalq Elmi-Praktiki Konfransda bu mövzuda etdiyimiz çıxışı dinləyən azsaylı xalqların nümayəndələri də evlərindəki yaşlı qadınların bayatıları məhz Azərbaycan dilində söylədiklərinin şahidi olduqlarını söyləməklə fikirlərimizə dəstək verdilər.

[23]Balakən-Zaqatala bölgəsində tənbur dambır adlandırıldığı üçün biz də bu sözü belə verməyi məqsədəuyğun saydıq.

*Heç olarmı sənə tay,*
*Oy mənim Zaqatalam.*

*Uca, qarlı dağların,*
*Bol məhsullu bağların.*
*Mehriban insanların*
*Var sənin, Zaqatala.*

*Qınamayın siz məni,*
*Eşidin bu kəlməmi.*
*Hər kəsə öz vətəni,*
*Mənimçün Zaqatala.*
*Hər kəsə öz vətəni,*
*Bizimçün Azərbaycan.*

Dambırçı Məhəmməd avar məclislərinə getdiyi zaman Azərbaycan dili ilə yanaşı, avar dilində də oxumağa çalışır. Özünün də etiraf etdiyi kimi, bəzən kitablarda çap olunmuş bayatıları da avar dilinə çevirib oxuyur. Hətta "Ana" adlı şeiri də avar dilinə çevirib avarların çox olduqları məclislərdə səsləndirir. Məhəmməd dayı haylaları hətta rus dilinə çevirərək Belorusiyada keçirilmiş tədbirdə səsləndirib. Məhəmməd dayı gülə-gülə dedi ki: "Düşündüm ki, hindi mən tutax ki, azərbaycanca, avarca oxudum. Bunnar mənim oxuduxlarımnan nə qanacaxlar. Samalyotdaca bir-iki haylanı rus dilinə çevirdim. Bizə bələdçilik eliyən Qalinaya dedim ki, hindi mən rus dilində bir şeyir yazmışam, qulax as, əyər səhvlik varsa, sən də ora-burasını düzəlt". Dambırçı Məhəmmədin dediyinə görə, o gün nəticədə aşağıdakı haylalar meydana çıxıb:

*Asalamaleykum Belorusiya,*
*Privet vam iz Azerbaydjana.*
*İspasibo vam za tyoplıye priyom,*
*Ot radosti mı dlya vam pesni payom.*

*Belorusiya qoroda krasivıe,*
*Lyudi qosti priyomnıye, dobrıye.*
*Eti mı ne zabudem nikoqda,*
*Vspominat budem mı vas vseqda.*

Gözəl ziyalımız, şimal bölgəsinin təəssübkeş insanı olan Əli Süleymanovun milli azlıqların folklorundan bəhs edən "Babaların hikmət xəzinəsi" adlı kitabına da saxur və ingiloy dillərində deyilmiş bir neçə bayatı nümunəsi salınmışdır. Bu, olduqca təqdirəlayiq haldır. Akademik Maarın gözəl bir sözü var: "Folkloru toplamaq özü ən böyük elmdir". Bu baxımdan Əli müəllim gözəl bir işlə məşğul olur. İxtisasca folklorşünas olmasa da, bu qədər folklor nümunəsini itib-batmaqdan xilas etdiyi üçün Əli müəllimi cəfakeş bir insan da adlandırmaq olar. Bu kitaba salınmış folklor materialının əsas hissəsini də bayatılar təşkil edir. Ancaq kitabı oxuduğumuz zaman ciddi bir qüsurla da rastlaşdıq. Əli müəllim bölgədən topladığı bayatı nümunələrini yanlış başlıqlar altında nəşr etdirib: "Azərbaycan dilində avar folkloru nümunələri" [**3, s.46-64**], "Azərbaycan dilində saxur folkloru nümunələri" [**3, s.133-165**]. Bu kitaba Azərbaycanın bütün bölgələrində məşhur olan bayatı nümunələri də salınaraq bunlar avarların, yaxud da saxurların Azərbaycan dilində yaratdıqları folklor nümunələri kimi təqdim olunur. Onlardan bir neçəsini burada misal gətirmək istəyirik:

*Qaradır qaşın, ördək,*
*Yaşıldır başın, ördək.*
*Həmişə cüt gəzərdin,*
*Hanı yoldaşın, ördək?*

Bu bayatının Ahısqa türklərindəki variantı belədir:

*Yeşüldür başın, ördək,*
*Qaradür başın, ördək.*
*Cift getdin, tək gəldin,*
*Nerdədür eşin, ördək?*

*Su gəlir, arxa nə var?*
*Dolanır, çarxa nə var?*
*Mən səni istəyirəm,*
*Bilmirəm xalxa nə var?*

*Qızılgül oyum-oyum,*
*Dərib qoynuma qoyum.*
*Yağış yağıb, yer doymur,*
*Mən səndən necə doyum?*

*Dağlar qarala qaldı,*
*Otu sarala qaldı.*
*Abdulmecidin dağı*
*Yenə marala qaldı və s.*

Bu bayatıların nəinki avar və saxurların yaşamadıqları qonşu rayonlarda, bütün Azərbaycanda, bütün türk dünyasında saysız-hesabsız variantları ilə rastlaşırıq. Əgər avar, saxur və yaxud hər hansı bir xalq Azərbaycan dilində bayatı söyləyirsə, bu, Azərbaycan folklorudur. Əgər öz dilində bayatı deyirsə, bu zaman həmin bayatı o xalqın folklor nümunəsi sayılır. Amma bu halda da, burada Azərbaycan folklorunun təsiri, şəksiz-şübhəsiz, vardır. Yazımızın əvvəlində də söylədiyimiz kimi, bayatı türk təfəkkür tipinin yaratdığı folklor janrıdır. Avar və yaxud saxur düşüncə tipi bayatı yaratmır. Bu xalqların dillərinin və düşüncə tipinin qanunauyğunluqları bayatı yaratmağa imkan vermir. Amma bu heç də digər dillərin türk dilindən zəif olmasını söyləməyə əsas vermir. Hər dilin öz gözəlliyi var və bu dillərdə də heç şübhəsiz ki, gözəl folklor nümunələri vardır. Yəni burada məqsədimiz hansı dilin üstünlüyün və yaxud zəifliyini nəzərə çarpdırmaq deyil. Sadəcə olaraq, bayatının türk təfəkkür tərzinin yaratdığı bir janr olduğunu, həmin kitabdakı qüsuru vurğulamaqdır.

Bir sıra dünya xalqlarında bu kimi hallar mövcuddur. Bir misal çəkməklə kifayətlənəcəyik. Məsələn, rus folklor janrı olan çastuşkanı qeyd edək. Çastuşka yalnız rus folkloru üçün xarakterikdir. Başqa sözlə desək, çastuşkanı ancaq rus təfəkkür tipi yarada bilər. Digər xalqların düşüncə tərzi və dil qanunauyğunluqları buna imkan vermir.

Azsaylı xalqların (həmçinin o bölgələrimizdə yaşayan Azərbaycan türklərinin də!) söylədikləri bayatılar, əslində, ümumtürk bayatılarının həmin bölgələrimizdəki variantlarıdır. Sadəcə olaraq, bu bölgələrimizdə yaşayan insanlar ümümtürk bayatılarına həmin bölgələrə aid yer-yurd adlarını, bəzən şivə sözlərini, bəzən də digər etnik qrupların dillərindən alınma sözləri salaraq bu bayatıları "özünküləşdirmişlər". Fil.ü.f.d. Mətanət Yaqubqızının fikirləri bu baxımdan yerinə düşür: "Çox maraqlı faktdır ki, milli etniklərin kompakt yaşadığı bu ərazidə (Şəki-Zaqatala bölgəsi nəzərdə tutulur – L.S.) qədim adət-ənənələrimizi milli azlıqlar öz folklor nümunələrində qoruyub saxlamışlar. Regiondan toplanmış örnəklərdə bu özünü göstərir. Məsələn, avarların, saxurların, ingiloyların və başqalarının dilindən özünəməxsus çalarda söylənilən hər bir örnəyin, əslində, qəliblənmiş ortaq türk variantı mövcuddur. Bir bayatıda:

*O qızın ağ şalı var,*
*Ağ şala oxşarı var.*
*Özü avar balası*
*Muğala oxşarı var.*

*Başında ağ şalı var,*
*Ağ şala oxşarı var.*

*Özü ləzgi balası*
*Muğala oxşarı var.*

Qəlib variant isə budur:

*Başında ağ şalı var,*
*Yanağında xalı var.*
*Özü ceyran balası*
*Gör kimə oxşarı var?*

Belə nümunələr saysız-hesabsızdır" [**2, səh.19-20**].

Bütün bu deyilənlər bayatı janrının hal-hazırda xalq arasında hansı formada yaşamasını göstərməklə bərabər, həm də azsaylı xalqlara necə keçdiyini əks etdirir. Ölkəmizdə yaşayan azsaylı xalqlar türk mədəniyyəti çevrəsinə daxil olduqları üçün onların türk folklorundan bəhrələnmələri olduqca normaldır. Böyük mədəniyyətlər adətən, kiçik xalqların mədəniyyətinə təsir edir.


**Xülasə**

Məqalədə türk xalqlarının folklorunda aktiv janrlardan sayılan bayatının Azərbaycanda yaşayan azsaylı xalqların folklorundakı yerindən bəhs edilir. Azərbaycanda yaşayan Ahısqa türklərinin də folklorunda bayatı janrı çox geniş yayılmışdır. Əlimizdə olan bayatılara əsasən deyə bilərik ki, Ahısqa bayatıları forma və məzmun baxımından da olduqca rəngarəngdir. Azərbaycanda yaşayan digər xalqlardan da toplanmış materialları araşdırarkən bayatı janrının olduqca yayğın olduğunu görürük. Amma digər xalqlardan qeydə aldığımız bayatıların çox böyük əksəriyyəti Azərbaycan türkcəsində söylənilir. Avar, saxur, kürd dilində deyilmiş bayatı nümunələrinə də az-az rast gəlirik.



**Резюме**

В статье рассказывается о баяты, который является одним из активных жанров фольклора тюркских народов. Этот жанр имеет свое место и в фольклоре малочисленных народов, проживающих в Азербайджане. Этот жанр широко распространён и в фольклоре тюрков Ахыска, проживающих здесь. Опираясь на те баяты, которые мы имеем в наличии можно сказать, что баяты тюрков Ахыска очень разнообразны по своей форме и содержанию. Из фольклорных образцов, собранных в Азербайджане, со слов иных малочисленных народностей, можно прийти к выводу, что баяты является широко распространённым жанром, и что большая половина из них рассказана на азербайджанском языке. Не часто можно встретить баяты, сказанное на языке таких малочисленных народностей, как авары, цахурцы, курды.



**Summary**

In the article the place of ethnic minority's folklore which is living in Azerbaijan is investigated. Bayati is also popular in Ahisga Turks' folklore living in Azerbaijan. We can say that ahisqa bayati's content is very interesting and different. Bayati is also popular in other ethnic minority in Azerbaijan. But great majority of bayaties in the Azerbaijani Turkish language which are we gathered. The bayati examples are also met in the avar, sakhur and kurt languages.


**Ədəbiyyat:**


1. Azərbaycan folkloru antologiyası. XIII kitab. Şəki-Zaqatala folkloru. Toplayıb tərtib edənlər: Abbaslı İ., Əliyev O., Abdullayeva M. Bakı, Səda, 2005
2. Azsaylı xalqların folkloru. I kitab. Tərtibçi: Mətanət Yaqubqızı. Bakı, 2014
3. Babaların hikmət xəzinəsi. Milli azlıqların folkloru. Toplayıb tərtib edən: Əli Süleymanov, Bakı, 2011

**Əpoş İslam oğlu Vəliyev, filologiya üzrə fəlsəfə doktoru,**
**AMEA Folklor İnstitutu, böyük elmi işçi**
**Azərbaycan, Bakı**

# AZƏRBAYCANDA YAŞAYAN AZSAYLI XALQLARIN TOY MƏRASİMLƏRİ

***Açar sözləri:*** *multikulturalizm, azsaylı xalqlar, toy, mərasim, adət və ənənələr*
***Ключевые слова:*** *мультикультурализм, малочисленные народности, свадьба, обряд, обычаи и традиции.*
***Key words:*** *multiculturalism, minorities, weddings, ceremonies, customs and traditions.*

Toy bütün dünya xalqlarının həyat tərzində mövcud olan ən qədim mərasimlərdən biridir. Qədim zamanlardan günümüzədək hər bir xalqın milli-mənəvi dəyərlərini özündə əks etdirən fərqli toy adət-ənənələri olmuşdur. Toy mərasimi hər bir xalqın mədəniyyətinin ayrılmaz hissəsidir. Dünyanın hər yerində xalqların toy ənənələri əsrlərlə formalaşır, xalqın təmsilçisinə çevrilir. Xalqımızın toy adətləri Azərbaycan mədəniyyətinin tərkib hissəsi olmaqla yanaşı, həm də bu adətlərdə Azərbaycan xalqına xas olan bütün müsbət xususiyyətlər öz əksini tapmışdır. Zaman keçdikcə milli toy adət-ənənələrimiz həm başqa xalqların toy ənənələrinə təsir etmiş, həm də özü Azərbaycan ərazisində yaşayan talışlar, tatlar avarlar, saxurlar, şahdağ xalqları, ləzgilər, rutullar, molokanlar, ingiloylar, qaraçılar, assuriyalılar, udilər və s. kimi azsaylı digər xalqların toy adətlərindən də müəyyən elementlər götürmüşdür (**4**). Adət-ənənələr hər bir xalqın milli mənəviyyatının nə qədər zəngin olmasından, həmin xalqın qədim tarixə malik olmasından xəbər verir. Bu gün Azərbaycanda yaşayan azsaylı xalqlar azərbaycanlılarla mehriban qonşuluq edir, bir çox hallarda qız alıb-verərək qohumluq əlaqələrini genişləndirir. Ümummilli lider Heydər Əliyev azsaylı xalqların nümayəndələri ilə keçirdiyi görüşlərin birində demişdir: "Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı respublikanın ən başlıca sərvəti əsrlərdən bəri bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən insanlardır. Ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər də zəngin olar...". Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2016-cı ilin multikulturalizm ili elan edilməsi Azərbaycanda yaşayan ayrı-ayrı xalqların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı hörmət, yüksək mədəniyyətlərarası dialoq şəraitində yaşamasının bariz nümunəsidir.

Bəs Azərbaycanda yaşayan azsaylı xalqların toy mərasimləri necə keçir və onların toy mərasimlərində hansı fərqli toy adətləri mövcuddur?

Ölkəmizdə yaşayan azsaylı xalqlardan biri Şahdağ xalqları və ya Şahdağ milli etnik qrupuna daxil olan etnoslardır. Quba rayonunun Buduq, Cek, Əlik, Haput, Qrız, Xınalıq və Yergüc kəndlərinin adlarına müvafiq olaraq burada yaşayanlar buduqlular, ceklilər, əliklilər, haputlular, qrızlılar, xınalıqlılar, yergüclülər adlanır. Say etibarilə az olsalar da, bu kəndlərin hər birinin əhalisi ayrı-ayrılıqda bir etnik qrupdur. Şahdağ xalqlarının toy mərasimlərində Azərbaycanda yaşayan digər xalqlara xas olan ümumi və oxşar adətlərlə yanaşı, həm də müəyyən fərqli cəhətlərə də rast gəlinir. Digər azsaylı xalqlarda olduğu kimi bu xalqlarda da toy əsasən üç mərhələdən - elçilik, nişan və toy mərhələlərindən ibarət olur. Şahdağ xalqlarında nişan mərasimi zamanı "hə" cavabı aldıqdan sonra,"çörəkkəsdi" adəti icra edilir. Oğlan evindən məhz bu məqsəd üçün gətirilmiş kərə yağı və balı bir neçə lavaş çörəyin üstünə töküb qarışdırırlar, onu lavaş boyu yayaraq, sonra da lavaşları bükərək, qız və oğlan tərəfin iki ağsaqqalına verirlər. Həmin ağsaqqallar bükülmüş lavaşları birlikdə kəsirlər. Kəsilmiş çörəyin yarısı oğlan evinə, yarısı isə qız evinə çatır. Bu adətin mənasi budur ki, həmin bu gündən iki ailə arasında uzunmüddətli qohumluğun əsası qoyulur. Adətə uyğun olaraq yağ balla kəsilən bu çörəkdən şirinlik, əhd-peyman, xoşbəxtlik əlaməti kimi oğlan və qıza yedizdirilir. Qrızlılar arasında "çörəkkəsdi" zamanı oğlanın atası süfrəyə müəyyən miqdarda pul a qoyur ki, buna yerli dildə "pil saac" deyilir (**2, s.82-83**).

Şahdağ xalqlarının maraqlı və fərqli toy adətlərindən biri də qızın ata ocağından deyil, dayı evindən gəlin köçməsi, oğlanın ata evində deyil, dayı evində bəy paltarını geyinməsi və yalnız bundan sonra ata evinə gətirilməsidir. Ənənəyə görə gəlin bir neçə il ərinin yaxın qohumlarından gizlənməli və onlarla danışmamalıdır. Bu adətə Azərbaycanlıların yaşadığı bir sıra bölgələrdə də rast

gəlinir. Təzə gəlin bir müddət qaynata, böyük qayın, ərin yaşlı ağsaqqqal qohum- əqrabası ilə “danışmır”. Get-gedə gizlənmə, ərin yaxın qohumları ilə illərlə danışmamaq kimi bir sıra ailə-məişət adətlərinin yerli məişətdən artıq çıxdığının şahidi oluruq (**1, s.32; 2, s.83; 3**).

Ölkəmizdə yaşayan azsaylı xalqlardan biri də ləzgilərdir. Qafqaz xalqlarından biri olan ləzgilər Dağıstan və Azərbaycanda yaşayırlar. Ölkəmizdə əsasən Qusar, Quba, Xaçmaz rayonları ərazisində, eləcə də Bakı, Gəncə, Sumqayıt və Mingəçevir şəhərlərində, Qəbələ, İsmayıllı, Oğuz, Göyçay rayonlarında yaşayan ləzgilər Azərbaycan əhalisinin təxminən 2,2%-ini təşkil edir. Ləzgilərin də özünəməxsus toy adətləri var. Ləzgi toylarını digər azsaylı xalqların toylarından fərqləndirən birinci özəllik “toy yaşı”ndan ibarətdir. Ləzgilərin adətinə görə qızlar on altı yaşdan tez ailə qura bilməz. Bu gün də ləzgilər bu adəti qoruyub saxlayır. Keçmişdə ləzgi toyları yeddi gündən az olmayıb. Amma sonradan bu say üç günə endirilib. Bu gün ləzgilər yaşayan bəzi kəndlərdə bu adətlər saxlansa da, əksəriyyət ləzgilər toyu bir gün edir. Toydan əvvəl oğlan evi daha öncədən toy üçün bəslənmiş qoç və cöngəni kəsir. Bu prosesdə nəslin kişilərinin, qohum-əqrabanın hamısının iştirakı vacibdir. Bu həm də qohumlara verilən dəyəri göstərir. Ləzgi toylarında olan digər bir maraqlı adət isə qızın ata evindən çıxanda ocağı öpməsidir. Əgər o başqa kənddən olan bir oğlanla ailə qurursa, toy günü oğlan evindən birinin qanı çıxmalıdır. Bunun da öz mənası var. Belə ki, qızı aparmağa gələn oğlan evi daşa basılır. Kəndin kişiləri deyir ki, “kəndimizin ən gözəl qızını sizin kəndə veririk və sizdən qan çıxmalıdır”. Bu adət digər xalqlarda olmayan fərqli bir adətdir. Bundan başqa toy evinin həyətindən, toy evindən də nəsə oğurlanır. Lakin oğurlanan əşyanın mütləq bir mənası olmalıdır. Bu adətə ölkəmizin digər regionlarında da rast gəlinir. Gəlin evdən çıxarkən kiçik bir əşya və ya toyuq-cücə oğurlanır (**3**). Ləzgi toylarında olan digər bir adət isə başlıq puludur. Oğlan evi qızın ailəsinə xeyli miqdarda başlıq pulu verməlidir. Ləzgilər bunu ərəblərdən gəlmə bir adət kimi təqdim edirlər. Ləzgi adətinə görə gəlin evdən çıxarkən ata evinə dönüb baxa bilməz. Bu adət qızın gözünün ata evində qalması kimi yozulur. “Gözü ata evində qalan qızın bəxti yaxşı olmaz, xoşbəxtlikdən uzaq olar və ata evinə geri dönər” deyə düşünürlər. Gəlin ata evinə son dəfə yalnız güzgüdən baxa bilər (**5**).

Azərbaycanda məskunlaşmış azsaylı xalqlardan biri də saxurlardır. Tarixən Dağıstanda məskunlaşmış, daha sonralar isə Azərbaycana köç edib Zaqatala, Qax rayonlarının bir neçə kəndində yerləşən saxurlar azərbaycanlılarla qaynayıb-qarışmışlar. Saxurlar dağlıq ərazilərdə yaşadıqlarına görə əsasən maldarlıq və sənətkarlıqla məşğul olmuşlar. Uzun əsrlər boyu azərbaycanlılarla bir yerdə yaşayan saxurlar toy adətlərində özünəməxsusluqlarını qoruyub saxlaya bilmişlər. Bu gün saxur kəndlərində əsasən qədim toy adət-ənənələrinə üstünlük verilir. Saxurların ən fərqli toy adəti gəlinin ər evinə qədəmqoyma anında bəy tərəfindən tüfənglə havaya güllə atılmasıdır. Digər xalqlardan fərqli olaraq, bu adət saxurlarda bəyin gəlinə xüsusi xəbərdarlıq işarəsi kimi qəbul edilir (**6**).

Ölkəmizdə mövcud olan azsaylı xalqlardan biri də udi (udin) adlı xalqdır. Udilər Qafqazın qədim sakinlərindəndir. Azərbaycanın köklü, aborigen azsaylı xalqlarından biridir. Bu etnos Qafqaz Albaniyasının Uti əyalətində, XIX əsrdə isə Nuxa (Şəki rayonu) bölgəsinin bir neçə yaşayış məskənində məskunlaşmışdır. Müasir dövrdə başlıca olaraq Qəbələ rayonunun Nic kəndində və qismən də Oğuz rayon mərkəzində yaşayırlar. Tarixən Günəşə, Aya sitayiş edən udilər IV əsrin əvvəllərində xristianlığı qəbul etmiş və bu günə kimi dinlərini saxlamışlar. Udi xalqı ailə-məişət məsələlərində, nişan və toy mərasimlərinin keçirilməsində qədim adətlərini bu gündə yaşadırlar. Udilər Azərbaycanın qədim rəqslərini, Qobustanın qayaüstü rəsmlərində əks olunmuş “Yallı” rəqsini bu gün də öz toy və şənliklərində ifa edirlər. Udilərin toy adətləri “Xüyər zombaksın”, “Xozamandluğ” və “Baliga” adlanan mərhələlərdən ibarətdir. Toylar “Taraxmoy” havasının çalınması ilə başlayır və bir qayda olaraq iki gün davam edir. Musiqi səsi ilk olaraq oğlan həyətindən eşidilməlidir, əks halda bu yaxşı hal hesab edilmir. Toy hər iki tərəfdə eyni gündə başlanır, toyun başa çatmasına bir neçə saat qalmış oğlan evinin adamları gəlini gətirmək üçün qız evinə gedirlər. Udi xalqı arasında bizlərdən fərqli olaraq qohumlara qız vermək və qız almaq qadağandır. Bu tələbin əsası uzun illər öncə keçirilmiş “Aluen” məclisində qoyulmuşdur və günümüzə qədər udi xalqı ona əməl edir. El arasında olan inanca görə, gəlin və qaynana eyni bulağın suyundan içə bilməzmiş. Udi toylarında qızın alınıb-verilməsində dayı ən vacib şəxs hesab olunur. Dayının toy mərasimindəki vacib şəxs olmasına biz şahdağ xalqlarının da toy mərasimlərində rast gəlirik. İstər tarixi, istərsə də etnoqrafik materiallardan aydın olur ki, udi toylarında azərbaycanlılara məxsus oyun havaları, rəqslər ifa olunmuş-

dur. Udi toylarında da "Vağzalı" havası çalınır. Yuxarıda qeyd etdiyim kimi, udi toylarında ifa olunan rəqslərdən biri də "Yallı"dır. Bir sözlə, əsrlər boyu azərbaycanlılarla eyni mühitdə yaşayan udilər Azərbaycan xalqının toy adətlərindən də müəyyən elementlər götürmüşdür (**7**).

Azərbaycanda məskunlaşmış azsaylı xalqlardan biri də qaraçılardır. Köçəri xalqlardan biri olan qaraçılar Hind-Avropa mənşəlidirlər. Qaraçılara bütün Avrasiya materikində rast gəlinir. Azərbaycanda qaraçılar Balakən ərazisinə I Şah Abbasın köçürmə siyasəti dövründə yerli tayfaların qiyamlarının qarşısını almaq məqsədilə köçürülmüşdür. Əsasən Şambulbinə, Gülüzənbinə, Məlikzadə kəndlərdində yaşayırlar. Balakəndəki qaraçılar farsdillidir. Bundan başqa, qaraçılar Şamaxı, Yevlax rayonlarında və Borçalıda yaşayırlar. Qaraçılar tarixən köçəri həyat tərzi sürmüşlər. Ənənəvi olaraq atçılıqla və maldarlıqla yanaşı, həm də öz dədə-baba sənətləri olan nalbəndlik, xırda məişət avadanlıqları, kənd təsərrüfatı alətləri istehsalı ilə məşğul olmuşlar. Azərbaycanda yaşayan qaraçıların bir qismi "dilənçiliklə" məşğul olur. Qaraçıların da bir çox fərqli toy adətləri var. Onlar uşaqlarına lap körpəlikdən adaxlı tapırlar. Uşaqlar müəyyən yaşa çatdıqdan sonra keçiriləcək toy haqqında valideynlər arasında razılaşma aparılır. Bəzən qaraçılar valideynlərin razılığı ilə 9-10 yaşlı qızı doğma ailəsindən ayırıb öz yanlarında saxlayırdılar. Qız 13-15 yaşadək gəlin köçəcəyi valideynlərin himayəsində yaşadıqdan sonra isə toy təşkil olunurdu. Bu adətə demək olar ki, digər azsaylı xalqlarda rast gəlinmir. Qaraçıların elçilik mərasimində adətən gənc bəyin valideynləri və qohumları iştirak edir. Qonaqlar gəlinin valideynləri ilə danışıqlar aparır. Qaydaya görə gəlin qonaqların arasına çağrılana qədər gözə görünə bilməz. Razılıq əldə edildikdən sonra gəlinin valideynləri onu məclisə çağıraraq fikirlərini soruşurlar. Hər halda, qızın atasının iradəsinə qarşı çıxmayacağını da hamı əvvəlcədən bilir. Gələcək qaynana qızın boynuna qızıldan hazırlanmış qəpik taxır. Bunun mənası isə o deməkdir ki, daha heç kəs o qıza elçi düşə bilməz. Uşaqlıqdan gözaltı edilmiş qaraçı qızına da bəyin atası qızıl qəpik taxır. Qız qızıl qəpiyi toya qədər boynunda gəzdirməlidir. Qaraçılarda maraqlı bir toy adəti isə gəlinlərin dəyişdirilməsidir. Bu adətə qaraçı dilində "te keres pe skimbate" deyilir. Adətə görə, başqa bir ailəyə öz qızını gəlin göndərən valideyn həmin ailədən bəyin bacısını alır. Bu, hər iki tərəf üçün əlverişli bir adətdir və bu zaman ailə başlıq haqqını ödəməkdən azad edilirdi. Qaraçılarda gəlinin oğurlanması (qaçırılması) kimi adət də mövcuddur. Bu əsasən maddi çətinliklə bağlıdır. Toyun keçirilməsi və başlıq haqqı üçün pul olmadığından gəlin qaçırılır. Amma bu hal qızın valideynlərinin toya razılıq vermədiyi zamanda baş verir. Toy mərasimi adətən, 2-3 gün davam edir. İmkanlı qaraçılarda toy hətta həftələrlə davam edə bilər. Qaraçılarda boşanma çox nadir hallarda baş verir. Əgər arvad ərindən narazıdırsa, sadəcə çıxıb gedə bilər. Bunun üçün hər hansı bir xüsusi mərasim keçirilmir.

Ölkəmizdə məskunlaşmış azsaylı xalqlardan biri də tatlardır. Əsasən Quba, Xızı, Xaçmaz rayonlarında və bəzi Bakı kəndlərində yaşayırlar. Bəzi tədqiqatçıların fikrincə, Xəzər dənizinin Qərb sahili boyunca Abşerondan Dərbəndədək məskunlaşmış tatlar buraya köçürülmüş qədim iranlıların qalıqlarıdır və onlar heç şübhəsiz, Şirvan ərazisinin ən qədim etnik təbəqələrindəndir. Tatların toy mərasimlərində olan fərqlilik onların arasında endoqam nikaha yer verilməsidir. Keçmişdə toy mərasimi zamanı tatlarda başlığın alınmaması "qızın dəyərsizliyi" kimi qiymətləndirilirdi, başlıq isə mütləq cehizdən baha olmalıydı. M. Hacıyev tatlarda dayı arvadının gəlinə yengə durmasını matrilokal köçmə ilə əlaqələndirir, eyni zamanda qeyd edir ki, patrilokal köçmədə başqa qəbilədən alınan qızın əvəzinə müəyyən miqdarda haqq (kalım) verməklə "satınalma" nikah forması yaranırdı (**7**).

Sonda qeyd etmək istəyirəm ki, Azərbaycan xalqı və dövləti hər zaman tolerantlığı ilə seçilməklə ölkəmizin ərazisində məskunlaşıb yaşayan bütün azsaylı xalqların nümayəndələrinə səmimiyyət, doğmalıq nümayiş etdirir, onların hər zaman qayğısına qalır. Demək olar ki, Azərbaycanda olduğu qədər müxtəlif xalqlar arasında mövcud olan mehribanlıq, yaxşı qonşuluq əlaqələri heç bir yerdə yoxdur. Bu keyfiyyət Azərbaycan xalqının humanistliyi, yardımsevərliyi, mehribançılığı və müdrikliyindən irəli gəlir.

**Xülasə**

Azərbaycanda talışlar, tatlar, avarlar, saxurlar, şahdağlılar, ləzgilər, rutullar, molokanlar, ingiloylar, assurilər, udilər, qaraçılar və s. azsaylı xalqlar yaşayır. Bu azsaylı xalqların hər birinin özünəməxsus toy adət-ənənələri vardır. Yuxarıda qeyd edilən xalqların toy adət-ənənələri və mərasimlərində oxşar və fərqli xüsusiyyətləri vardır.

**Резюме**

В Азербайджане живут такие малочисленные народности как талыши, таты, авары, цахурцы, народности Шахдага, лезгины, руты, молокане, ингилои, ассирийцы, удины, цыгане и др. У каждого из этих малочисленных народностей существует свой свадебный обряд. В свадебных обрядах у вышеуказанных народностей есть свои схожие и отличительные свойства в обычаях, традициях и ритуалах.

**Summary**

The nations of minorities such as talysh, tats, avars, safurs, nations from Shakhdag, lezghins, rutuls, molokanians, ingiloys, gypsies, Assyrians, Udis and others live in Azerbaijan. Each of them has different wedding ceremonies. In wedding ceremonies of minorities different, similar and unlike traditions, rituals are performed.

**Ədəbiyyat:**

1. Cavadov Q.C. “1985-ci ildə Quba-Xaçmaz zonasına etnoqrafik səfərin hesabatı”. Bakı, 1985, s. 32
2. Şahbazov İ.H. “Şahdağ etnik qruplarında nigah və toy adətləri haqqında”. Azərbaycan EA Məruzələri, №8. Bakı, 1974, s. 82-83.
3. Vəliyev Ə.İ. Şərurda toy mərasimləri, Kaspi qəzeti, № 161, (3256), 2 oktyabr 2014-cü il.
4. az/wikipedia.org/wiki/Azərbaycan_ərazisində_yaşayan_azsaylı_xalqlar
5. www.bizimyol.info/news/76624.html
6. www.baki-xeber.com/v5/34292.html#.Vyz5ztJ95dg
7. www.anl.az/down/meqale/medeniyyet/2012/avqust/254467.html

**Arizə Xudiyeva, tədqiqatçı**
**Oğuz rayonunun Tarix-Diyarşünaslıq Muzeyinin direktoru**
**Azərbaycan, Oğuz**

# OĞUZ RAYONU TOLERANTLIĞIN ƏN GÖZƏL NÜMUNƏSİDİR

***Açar sözlər:*** *Oğuz, tolerant, etnos, milli etnik, dünya xalqları*
***Ключевые слова:*** *Огуз, толерант, этнос, национально-этнический, народы мира*
***Key words:*** *Oghuz, tolerance, ethnicity, national ethnic, world nations*

Tolerantlıq bütün müqəddəs kitabların da "Əzəl mübtədası"dır, cəmi bəndələr - inam, dil, irq fərqlərindən asılı olmayaraq bir-birinə mehriban dost və qardaş münasibətləri ilə yanaşı yaşamalıdır. Dini və milli tolerantlıq fərqli mədəniyyətlərin yanaşı mövcudluğu müasir dünyada insanların təhlükəsiz şəraitdə yaşamasının ən mühüm şərtlərindən biridir. Tarix boyu tolerant ölkə kimi tanınan Azərbaycan həmişə dünyaya nümunə göstərilib. Tolerantlıq təkcə dini mövqe nəzərindən millətlərin bir-birinə münasibəti deyildir, burada ictimai, siyasi, etnik münasibətlər də əsas yerlərdən birini tutur. Azərbaycan hələ qədimdən çox əlverişli mövqedə yerləşdiyindən, şərqlə qərb arasında körpü rolunu oynadığından əzəldən müxtəlif xalqların məskəninə çevrilib. Bir çox tayfalar düşmən hücumlarından qorunmaq üçün və ya təbii axın vasitəsilə Azərbaycana pənah gətirib və buranı özlərinə həmişəlik vətən seçib.

Azərbaycan qədimdən bir çox xalqların etnik qrupların məskunlaşdığı ərazilərdəndir. Bu xalqlar əsrlər, minilliklər boyu Azərbaycan xalqının ictimai-siyasi həyatında mühüm rol oynamaqla yanaşı, özlərinin etnik xüsusiyyətlərini, dinlərini, dillərini, adət-ənənələrini qoruyub saxlamış və bu günümüzədək yaşatmışlar. Son illərin məlumatlarına əsaslanaraq bu gün Azərbaycanda 141 millətin və xalqın nümayəndəsi yaşayır. Bu xalqlar arasında aborigenlər də mövcuddur, sonradan gəlmələr də. Onlar isə Azərbaycanın 20-dən artıq xalqın, etnik qrupun nümayəndəsi bu ərazinin müxtəlif regionlarında, bir kənddə, bir bölgədə, rayon və şəhərlərdə kompakt şəkildə yaşayır, yaradırlar. Bunlara talışlar, tatlar, kürdlər, ləzgilər, udilər, avarlar, Şahdağ xalqları, ingiloylar, dağ yəhudiləri, ruslar, tatarlar və Axısqa türklərini göstərmək olar.

Azərbaycan ərazisində elə xalqlar vardır ki, onların bu ərazidə yaşamalarının 3000 illik tarixi vardır. Lakin həyat elə gətirib ki, tarixin bu xalqın övladları ancaq bir kənddə, bir obada məskunlaşmış və tarix boyu da əhalinin sayı bir neçə mindən artıq olmamışdır. Bu baxımdan Oğuzdakı udiləri, yəhudiləri misal göstərə bilərik. Bu etnosların hər sayda cəmi bir neçə min olmasına baxmayaraq, müstəqil dilə, milli etnik xüsusiyyətlərə malikdir. Əslində onlar böyük xalqlarla bir sırada, bir cərgədə dururlar. Bu Azərbaycan tarixi nəinki müxtəlif xalqların, etnik qrupların yaşayış məskəni olmuş, eyni zamanda əsrlər boyu azərbaycanlılarla qardaşlıq ailəsində yaşamasını, həm də yaşadılmasını təmin etmiş dünya xalqlarının xəritəsindən onların silinməsi təhlükəsinin qarşısını almışdır. Dünya xəritəsində xınalıq, buduq, qrız, udi, ingiloy adlı etnos ancaq Azərbaycanda məskunlaşıb, bu ərazidə məlumdur.

Ona görə də, bu xalqların hər hansı birinin aradan çıxarılması assimilyasiyaya məruz qalması bəşər tarixində bir etnosun birdəfəlik tarix səhnəsindən çıxarılması deməkdir. Başqa sözlə desək, Azərbaycan bu xalqlara sözün həqiqi mənasında bir tarixi abidə gözü ilə baxır.

Oğuz rayonu qədim tarixə, zəngin mədəni irsə və unikal təbiətə malik bir diyardır. Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin təbiəti hələ qədim dövrlərdən bu ərazinin geniş yaşayış məskəninə çevrilməsinə səbəb olub. Tarixən qərblə şərq, şimalla cənub arasında strateji mövqe rolunu oynayan Oğuz rayonu yaşayış üçün əlverişli təbii şəraiti ilə tarixin müxtəlif dövrlərində bir çox insanları qəbilə, tayfa və xalqları öz ərazisinə cəlb edib. Həm qədimlərdə, həm də müasir dövrdə Oğuz öz yüksək tolerantlıq mühiti ilə seçilən bir bölgə kimi tanınır. Qərbdən - şərqə doğru gedən ticarət əhəmiyyətli qədim xan yolunun üzərində yerləşən bu torpaq tarix boyu müxtəlif dinlərin qovuşduğu bir məkan olmuşdur. Məhz bu baxımdan bu ərazidə müxtəlif dinlər: bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, islam və başqa dini inanclar mövcud olmuşdur. Oğuz rayonu ərazisində aparılmış ilk arxeoloji qazıntı işlərindən, yəni 1915-ci ildən üzü bəri müxtəlif dövrlərdəki qazıntılar

zamanı çoxlu maddi mədəniyyət nümunələri ilə yanaşı, gildən hazırlanmış qoç, tovuz quşu, ilan, qadın fiqurları bütpərəstliyə, animizmə, totemizmə inamın gözəl sübutudur. Oğuz rayonu ərazisində məskunlaşan əhalinin böyük bir qismi odu müqəddəsləşdirmiş, ona sitayiş etmişlər. Həmyerlimiz, görkəmli arxeoloq Saleh Qazıyev tərəfindən rayonun Kərimli kəndində bir qəbirdən öküz başı formasında düzəldilmiş manqal və şamdan aşkar edilmiş, bu isə oda sitayişin bir sübutudur. Tarixçi alim müəyyən etmişdir ki, təxminən 2000 il bundan əvvəl Azərbaycanda, o cümlədən Oğuzda geniş yayılmış daş qutu, kurqan qəbirlərində ölmüş adamı dəfn edərkən, ölünün qəbrinin qarşı hissəsində tonqal yandırmışdılar. Oda sitayiş əlaməti indi də yaşamaqdadır. Son vaxtlara qədər Oğuz rayonunda sarılıq xəstəliyini qovmaq üçün xəstənin gözü qarşısında çaxmaq daşından qığılcım çıxardırdılar. Bununla guya ölünü və ya xəstəni odun mərhəməti ilə təmin edirdilər.

Oğuz rayonu ölkədə etnoqrafik və dini rəngarəngliyi ilə seçilən bölgələrdən biridir. Oğuz rayonunda bu gün də xristian, islam, yəhudi dinləri ilə səsləşən onlarla abidə var. Rayonda azərbaycanlılarla yanaşı, ləzgilər, yəhudilər, udilər, kürdlər, ruslar, avarlar, Mesxeti türkləri və s. xalqlar, etnik qruplar yaşayırlar. Bu xalqlar bu gündə öz mədəniyyətlərinin elementlərini qoruyub saxlayırlar. Rayonun Tərkeş, Padar, Bucaq, Sincan, Böyük Söyüdlü, Xaçmaz, Abdallı kəndlərinin adları türk mənşəli tayfaların adı ilə bağlı olub. Rus mənşəli Astraxanovka, Vladimirovka, Fars mənşəli Zərrab, Monqol mənşəli Əlican toponimləri bu gün də qalmaqdadır. Rayonda dövlət qeydiyyatından keçmiş 10 dini icma fəaliyyət göstərir. Onlardan 8-i müsəlman, 1-i yəhudi, 1-i isə udi icmalarıdır. Bu gün Oğuz rayonu Qafqaz Albaniyasına məxsus nadir memarlıq abidələri ilə seçilən rayondur. Rayon ərazisində 6 qədim, eyni zamanda öz ilkin görkəmini saxlamış məbəd var. Məbədlərdən 3-ü Oğuz şəhərində, 2-si Qarabulaq, 1-i isə Calud kəndindədir. Alban tayfalarından biri olan udilər bu gün də Oğuz şəhərinin şərq hissəsində yerləşən Qədim Alban məbədində dini sitayişlərini icra edirlər.

İstər rayonun cənubunda yerləşən Yeliseyin şərəfinə tikilmiş məbəd, istərsə də ki, Qarabulaq, Calud kəndlərindəki abidələr ermənilər tərəfindən dəyişdirilmişdir. Oğuz rayonundakı xristian abidələri, ümumiyyətlə yetərincə tədqiq olunmamışdır. Məsələn, bu gün də Oğuz rayon Tarix – Diyarşünaslıq muzeyinin yerləşdiyi bina 1981-ci ildən muzey kimi istifadə olunsa da hələ də binanın tarixi yetərincə öyrənilməmişdir. Görkəmli arxeoloq S.Qazıyevin yazdığına istinad etsək, "Azərbaycanda islam dini qəbul edildikdən sonra da Qəbələ mahalında (indiki Oğuz rayonu da bu əraziyə daxil idi) xristianlığın uzun davam etməsi tarixi həm də arxeoloji və memarlıq abidələrinə əsasən məlumdur." Erməniləşməyə məruz qalan digər bir abidə isə Oğuz rayonunun cənub – şərqində Yeliseyə həsr olunmuş Qerqets (udicə "Müqəddəs yer") alban monastırının tarixini göstərmək olar. VIII əsrdə yaşamış alban tarixçisi Moisey Kalankatlının verdiyi məlumata görə, Yelisey Qafqaz Albaniyasında Yeliseyin adı ilə bağlı və ya ona həsr olunmuş məbəd və monastrlar tikilmişdir. Bəlkə də bu erməniləşməyə məruz qalmış Oğuzdakı Yegişarakel-Arakel məbədi də həqiqətən udilərin müqəddəs yer dedikləri Yeliseyin şərəfinə tikilmişdir.

Rayonun Qarabaldır kəndindəki 2 qədim məbəd də tarixin müxtəlif dönəmlərində əsarətə məruz qalmışlar. Bu ərazilərə 1828-ci ildə ermənilərin köçürülməsi və 1836-cı ildə Peterburq Müqəddəs Sinodu tərəfindən Alban kilsəsinin səlahiyyətləri əldən alındıqdan sonra kəndin məbədləri üzərindəki Alban dilindəki daş kitabələr dəyişdirilmiş və ya ləğv edilmişdir.

Ancaq bir həqiqət var. 1981-ci ildən məhz udi xristian məbədində tarix muzeyinin yaradılması və tariximizin bu günə kimi burada təbliğ olunması özü tolerantlığın nümunəsi deyilmi?!

Oğuzda yaşayan azsaylı xalqlardan biri də yəhudilərdir. Yəhudilər əsasən rayon mərkəzində yaşayırlar. 300 ilə yaxındır ki, onlar bu ərazidə məskunlaşmışlar. XVIII əsrin axırlarında İranda Sasanilər sülaləsinin şahlığı dövründə Şəki xanlığına Nadir şah tərəfindən Məlik təyin edilmiş Hüseyn Saqi xan yerli süni təriqətli əhalidən ehtiyat edərək İranın Marağa, Mərrənd və Rizanda mahalından 30-a yaxın yəhudi ailəsinin özünə etibarlı xitmətçi kimi gətirib malikanəsinə yerləşdirib. Yəhudilərlə yerli əhali arasındakı əlaqələr genişləndikdən sonra Şəki xanlığı onlara Şəkidən təxminən 30 km şərqdə Bucaq və Calud kəndləri arasında 200 hektara yaxın torpaq sahəsi verir. Kənd salmalarına köməklik göstərir. Kəndə Ceylan adı qoyulur. Zaman keçdikdən sonra əhalinin bir hissəsi Bucaq kəndinə, bir hissəsi Vartaşen (Oğuz) rayonuna köçürülür. Hal-hazırda Oğuzda 85 nəfər yəhudi yaşayır. Oğuzda yaşayan yəhudilər əsasən dağ yəhudiləri olub, İudaizmin Ortodoksal istiqamətinə mənsubdurlar. Belə ki, sinaqoqlarda qadın və kişilər ayrı-ayrılıqda ibadət edirlər. Aparı-

lan dini ayinlər və dualar əsasən ivrit dilində oxunur. Qadın dini ayin apara bilməz. Onlar daha çox öz aralarında nikah və qohumluq əlaqələri qurmağa üstünlük verirlər. Yəhudi icmasının və ictimai həyatın mərkəzi sinaqoqdur. Oğuz rayonunda hal – hazırda yəhudilərə məxsus 2 sinaqoq vardır. Hər 2 sinaqoq əhali tərəfindən müvafiq olaraq 1849 və 1897–ci illərdə tikilmişdir.

Etnik azlıqlar Azərbaycan xalqının ayrılmaz hissəsi sayılmaqla yanaşı, azərbaycanlıların malik olduğu bütün hüquqlardan istifadə etmişdirlər. Məhz bunun nəticəsidir ki, azsaylı xalqların nümayəndələri elm, təhsil, mədəniyyət sahəsində azərbaycanlılarla çiyin – çiyinə çalışırlar. Şəxsən mən xatırlayıram ki, kiçik Oğuz rayonunda onlarla yəhudi, ləzgi, udi, rus xalqının nümayəndələri orta məktəblərdə bizlərlə müxtəlif fənnləri tədris etmiş və edirlər. Bu gün də azsaylı millətin nümayəndələri müxtəlif idarə və təşkilatlarda çalışırlar. Oğuz tarix muzeyində yəhudi millətindən olan xanım düz 35 il muzeyin baş fond mühafizi vəzifəsində azərbaycanlılarla, bizlərlə birgə çox səmimi, mehriban şəraitdə bir ailənin üzvü kimi çalışmışdır.

Bəli, bəşəriyyətin muharibələrdən uzaq olmasının birgə həyatının yolu məhz tolerantlıq, multikulturalizmdir. Çünki yer üzərində yaşayan insanların qarşılıqlı ünsiyyətə ciddi ehtiyacı vardır. Öz mədəniyyəti ilə dünyaya qapı açan Azərbaycan tolerant ənənələrinin digər ölkələr üçün bir model olduğunu göstərir.

Ölkə Prezidenti İlham Əliyev İSESKO-nun Bakıda keçirilən Bakı konfransının 12-ci sessiyasının açılışındakı çıxışında bir nüansa toxunmuşdur. ATƏT-in işğal olunmuş ərazilərimizə göndərdiyi missiyaları orada 10 məscidin də dağıldığını müəyyən ediblər. Bunu "Vəhşilik, islam mədəniyyətinə qarşı terror" adlandıraraq bir daha vurğulamışdır ki, islam sülh və əmin-amanlıq dinidir. Bu gün ölkə başçısı İ.Əliyev cənabları da Azərbaycan sivilizasiyalararası dialoqun beynəlxalq sülh və təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl olaraq zəruri təşəbbüs və çağırışlarla çıxış edir və göstərir ki, dünyamızda multikulturalizmin alternativi olmadığı kimi müxtəlif dinlər və mənsəblər arasında dostluq və dözümlülük münasibətlərinin alternativi yoxdur. Bunu ölkə prezidenti dəfələrlə öz əməllərində sübut etmişdir. Məsələn, yaxın vaxtlarda paytaxtımızdakı abadlaşdırma işləri zamanı həmin ərazidəki digər tikililərlə yanaşı, sinaqoqun sökülmə problemi yaranarkən, ölkə prezidenti "yeni sinaqoq tikilənə qədər həmin tikili sökülməsin" - deyə göstəriş vermişdir.

Haqlı olaraq, hətta Roma papası da Azərbaycanı tolerantlıq baxımından "unikal ölkə" adlandırmışdır. Azərbaycan dövlətinin milli tolerantlıq sahəsindəki siyasəti çox yüksək səviyyədədir. Tarixən də belə olub, indi də belədir.

Bəli, dünən də, bu gün də tolerantlığın ən gözəl nümunəsi Oğuz rayonudur.


## Xülasə

Oğuz rayonunda tolerantlığın ən gözəl nümunəsi kimi ta qədimdən azərbaycanlılarla yanaşı, müxtəlif xalqların nümayəndələri yaşayırlar. Bu etnoslar sayca cəmi bir neçə min olmasına baxmayaraq, müstəqil dilə, milli etnik xüsusiyyətlərə malikdir. Onlar böyük xalqlarla bir sırada, bir cərgədə dururlar. Azərbaycan, eləcə də respublikanın bir parçası olan Oğuz, nəinki müxtəlif xalqların, etnik qrupların yaşayış məskəni olmuş, eyni zamanda əsrlər boyu azərbaycanlılarla yanaşı, qardaş kimi birgə yaşamasını, həm də yaşadılmasını təmin etmiş dünya xalqlarının xəritəsindən onların silinməsi təhlükəsinin qarşısını almışdır.

## Резюме

В Огузском районе самым хорошим образцом толерантства является проживание, еще с древних времен, наравне с азербайджанцами представителей разных народов. Несмотря на то, что число этих этносов всего несколько тысяч, они имеют свой самостоятельный язык, национальные этнические свойства. Они стоят в одном ряду с другими национальностями. Азербайджан, а также Огузский район, как часть этой Республики на протяжении многих веков являлся не только местожительством разных национальностей, этнических групп, а также гарантировал их проживание и выживание в семье братства с азербайджанцами, но и предотвратил опасность их вычеркивания с карты народов мира.

**Summary**

Including Azerbaijanis the various nations also live in Oghuz from ancient times as the best model of the tolerance. Though these ethnicity were a few thousands, they have special language and national ethnic pecularities. They are in the same row with the great nations. Azerbaijan, simply Oghuz which is one of the parts of republic was not only the dwelling place of the different nations and ethnic groups, but also it provided their living in friendly family with Azerbaijanis for centuries, and it prevented their disappearing from the map of the world nations provided their life.

**Ədəbiyyat:**

1) R.Göyüşov. Arxeologiya və din. Bakı-1965
2) Q.Qeybullayev. Azərbaycan türklərinin təşəkkülü tarixindən. Bakı-1994
3) P.Yaqub. Padar kəndinin ensiklopediyası. Bakı-2012

**Xalidə Məmmədova, böyük elmi işçi,**
**AMEA Folklor İnstitutu**
**Azərbaycan, Bakı**

# XINALIQ FOLKLORUNDA LOKAL XÜSUSİYYƏTLƏR

***Açar sözlər:*** *Multikulturalizm, Xınalıq, arxaik düşüncə, pir, Istar Meram, Aba Müslüm*
***Ключевые слова:*** *Мультикультурализм, Хыналыг, архаичное мышление, священное место, Истар Мерам, Абу Муслим*
***Key words:*** *Multiculturalism, Khynalyg, aincent thinking, sacred places, Istar Meram, Abu Muslim*

Uzun müddətdir ki, Folklor İnstitutunda Azərbaycanın bütün regionları üzrə ekspedisiyalar təşkil olunub. Folklorşünasların müxtəlif bölgələrdən topladıqları şifahi xalq ədəbiyyatı nümunələri antologiyalarda nəşr etdirilir. Respublikamızda yaşayan azsaylı xalqların özünəməxsus mədəni irs və tarixləri ilə bağlı maraqlı faktların, həmçinin onlara aid edilən folklor nümunələrinin tədqiqi də əsas məqsədlərdən biridir. Bu məqsədlə 2015-ci ilin avqust ayından başlayaraq Quba rayonunun tərkibinə daxil olan Xınalıq kəndinin folkloru ilə bağlı araşdırma aparılmağa başlanılmışdır.

Qeyd edək ki, ədəbiyyatlarda Xınalıq kəndinin tarixinə aid dolğun məlumatlar yetərincə var, belə ki, tarixçi və səyyahların qeydlərində daha çox nəzərə çarpır. Ərazinin folkloru ilə bağlı məlumatlar isə çox zəifdir, hətta deyərdik ki, yox dərəcəsindədir.

Ünsiyyət qurduğumuz xınalıqlı söyləyicilərlə söhbətimiz zamanı maraqlı bir situasiya ilə qarşılaşdıq. Məqsədimiz çox qiymətli hesab etdiyimiz folklor nümunələrini dəqiq şəkildə toplamaq, ənənəvi əfsanə, rəvayət və nağıl süjetlərini xatırlatmaqla dəyərli materiallar əldə etmək olsa da, xınalıqlılar ilk öncə kəndin tarixi və əhalinin mənşəyi barədə məlumat verməkdə israrlı idilər.

Xınalıqlılar arasında dil, dini baxışlar, adət-ənənələr ciddi-cəhdlə qorunub, onlara dönük çıxmamaq bir tabu kimi qəbullanıb. Baxmayaraq ki, Azərbaycanda etnik xalqların nümayəndələrinə dərin hörmətlə yanaşılan bir cəmiyyət formalaşmışdır. Həm də unutmaq olmaz ki, müxtəlif mədəniyyətlərə mənsub olan xalqların ölkəmizdə yaşaması (multikultralizm), fəaliyyət göstərməsi, ədəbiyyat, incəsənət və ya musiqi sahəsində uğur qazanması üçün beynəlxalq standartlara uyğun şərait yaradılmışdır. Bunu heç də çox eşitdiyimiz tolerantlıq termini ilə əlaqələndirmək istəməzdik. Belə zənn edirik ki, dövlətimizin siyasəti dözmək mənasını verən tolerantlığa (ingiliscə: to tolerate – dözmək) söykənmir. Əksinə, azsaylı xalqlara qarşı ictimai münasibət qarşılıqlı anlaşma, səmimi ünsiyyət və bərabərhüquqlu vətəndaşlıq prinsipləri əsasında formalaşıb.

Tolerantlıq, yəni digər millətlərə, mentalitetlərə, baxışlara, düşüncə sistemlərinə, mədəniyyətlərə və s. dözümlülük prinsipi yalnız son dövrlər beynəlxalq arenada aktuallaşsa da, Azərbaycan türklərində bu genetik olaraq mövcud olub (**10, 41**).

Söylədiklərimiz adı tarixi mənbələrdə daha çox qədim alban, bəzən isə xeni tayfalarından biri kimi hallandırılan xınalıqlılara da şamil edilib. Qədim gürcü mənbələri isə xenileri qanıxlar adlandıraraq onların indiki Zaqatala rayonu ərazisində (Alazan çayının sol sahilində) yaşamış olduqlarını vurğulayıblar (**4, 156**).

Xınalığın çox qədim kənd olduğunu onun 5000 illik tarixi ilə bağlı verilən məlumatlar da təsdiq edir. Həmçinin hər bir xınalıqlı bu haqda danışmaq niyyətində olduğunu gizlətmir və bundan şərəf duyduğunu deyir. Sakinlərdən biri, Rauf Orucov çox iddialı danışır; onun fikrincə, Xınalığın 4000 ildən çox tarixi vardır:"Bizlər qədim ket tayfasıyıq. Deyirlər, alban tayfalarından biri olmuşuq, xeyr, biz alban tayfalarından biri olmamışıq. Biz Albaniyanı yaradanlardan biri olmuşuq".

Fikirlərinə hörmətlə yanaşdığımız kənd sakini onu da əlavə edir ki, Albaniya dövlətindən minilliklər öncə yaşamış ketlər indi yerli xınalıq dilində Kətiş adlanan ərazinin aborigenləri olan kəttidlərin ulu babaları sayılır.

Düzdür, yaddaşlarda və mətnlərdə yunan tarixçisi Strabonun Albaniyada 26 dildə danışan xalqların mövcüd olması haqda verdiyi informasiyalar da qorunub saxlanılır. Güman edilir ki, xınalıq dilində danışan müasir xalq adı vurğulanan 26-lardan biridir. Xınalıqlıların məhz qədim türk tayfalarından biri kimi xarakterizə olunması (**2, 10**) versiyası da gündəmdə qalaraq aktuallığını saxlayır.

Dediyimiz kimi, xınalıqlılar kəndlərini Kətiş (ket tayfasının adına uyğun), özlərini isə kəttidlər adlandırırlar. Kətiş sözünün mənası bəzi mənbələrdə(18) "özümüzkülər" kimi verilsə də, dildə-ağızda sözün məhz ket tayfasının adına uyğun formalaşmış olması haqda söylənilən fikirlər ağlabatan görünür.

Xınalıq adı isə daha sonrakı zamanlardan işlədilməyə başlamışdır (sakinlər bu zamanın 100 və ya 200 illik müddət olduğunu təxmin edirlər). Söyləyicilərin bir qismi isə əski Azərbaycan tarixi dərsliklərində 4000 il bundan qabaq tərtib edilmiş xəritədə Xınalıq kəndinin aydın yazılmış adı ilə bağlı məlumatlara da rast gəldiklərini bildirirlər. Topladığımız rəvayətlərin birində deyilir: Yayda günəş çıxanda onun şəfəqləri yerli əhalinin Qiblə dağı adlandırdığı silsiləyə düşür. Beləliklə, həmin yerlər işıq açılanda qıpqırmızı görünür, qırmızı xınaya bənzəyir. Bu faktın özü də adı çəkilən yerin Xınalıq olaraq adlandırılmasının etimoloji əsaslarından biri kimi – xınayla əlaqələndirməni müzakirə obyektinə çevirmişdir.

Kənd sakini R.Orucov Xınalıq toponiminin mənşəyini ərazidə xına becərilməsi ilə əlaqələndirməyin (**7, 150**) yanlış izahat olduğunu belə əsaslandırır: Dəniz səviyyəsindən 3000 m-ə yaxın yüksəklikdə yerləşən yaşayış məntəqəsində xına əkilməsi ilə bağlı fikirlər məntiqə uyğun gəlmir. Burada məhsuldar torpaqlar olmadığına görə, xına əkilə bilməz, iqlim çox soyuqdur və xına yetişdirmək üçün əlverişsiz hesab olunur.

Xınalıq dilinin mənşəyinə gəlincə isə, qeyd etmək vacibdir ki, bu dildə danışanlar yeganə xalqdırlar və məhz Azərbaycanda – Xınalıqda yaşayırlar. Sakinlər Nuh peyğəmbərin dilində danışdıqlarını iddia edirlər. Səslənən fikirlərə görə, dünyanı su basanda Nuh peyğəmbər öz gəmisi ilə dağlara qalxıb və gəmiyə yalnız öz millətindən olanları, həmçinin seçilmiş heyvanların hərəsindən bir cüt götürmüşdü. Nuhun gəmisinin böyük zərbə ilə məhz Tufandağa dəyərək parçalandığı ehtimal olunur. Yaddaşlar bu haqda rəvayətlərlə, mifik mətnlərlə zəngindir. Əsas məzmun ondan ibarətdir ki, Xınalığı əhatə edən Tufandağın (4191m) zirvəsində rast gəlinən nohurlarda (göllərdə) vaxtilə taxta parçaları üzürdü. İnanca görə, bu, dünyanı su basdığı təxmin edilən vaxtda xilas olmuş Nuh peyğəmbərin gəmisinin parçaları olmuşdur. Nəql edilir ki, taxtaya əl atmaq, onu tutmaq heç kimə qismət olmayıb; o, daima hərəkətdə olmuş, sonradan isə çürüyərək tükənmişdir. Bölgə sakinlərinin təəccübünə səbəb olan odur ki," tarixi" gəminin qalıqları çürüyüb qurtarsa da, nohurların suyu bitmək bilmir. Mətnlərin birində deyilir: "Su bu nohurdan o nohura axır; nə bu dolur, nə o boşalır. Su bu göllərə hardan yığılırsa, onu dəqiq bilmirik".

Elmi mənbələrdə bu faktı araşdırdıq. Belə aydınlıq gətirilib ki, göllər (yəni nohurlar) arasındakı gözəgörünməz əlaqə onların birləşmiş qollar kimi eyni səviyyədə qalmasına səbəb olur. Buna görə də yüksək dağ silsilələri arasında əmələ gələn göllər müqəddəsləşdirilmişdir (**2, 38**).

Demək ki, mətnlər və mənbələrin məzmunu hardasa bir-birinə uyğun gəlir. Xınalıq xalqı özləri də haqqında söhbət gedən ərazinin – Tufandağın övliyalar məskəni olması inancına sahibdirlər.

Nuhun tufanı ilə bağlı elmə məlum olan kosmoqonik miflərdə (**11, 36**) adı hallanan Tufandağ ilə Xınalıqdakı Tufandağ arasında bir bağlılıq, uyğunluq varmı? – deyə düşünmək lazım gəlir. Fikrimizcə, gələcəkdə bu məsələni də araşdırmaq faydalı ola bilər. Araşdırmaya paralel olaraq "Bilqamıs" dastanındakı dünya daşqını və bu daşqından Utnapiştinin qurtuluşu səhnəsini də cəlb etmək yerinə düşəcək. Çünki Xınalıq əhalisinin yaddaşında buna bənzər motivlərin izləri açıq-aşkar nəzərə çarpır:" Dünyanı su basanda tanrılar yalnız ona – (Utnapiştiyə - X.M) məsləhət verib, dünya daşqını olacağını bildirirlər... O, nəhəng gəmi düzəltdirib ailəsini və dünyadakı heyvanlardan damazlıq götürür və tufandan sağ çıxır"(**15, 8**). Doğrudan da, həmin əhvalat eynilə Nuhun başına gələn əhvalata çox bənzəyir. "Nuhun tufanı" ilə bağlı əks olunan motivlər əski təfəkkür tərzi ilə bağlıdır. Qədim şumer əfsanələrindən qaynaqlanan bu əfsanədə təsvir olunan coğrafiya Azərbaycan türklərinin yaşadığı ərazinin hüdudlarındadır (**17, 165**).

Nəzərdən qacırmayaq ki, bölgədə digər müqəddəs ziyarətgahlar və pirlər, övliyalar, əfsanəvi din xadimləri barədə yayılmış mifoloji mətnlər də səciyyəvidir. Aydındır ki, folklor janrları içərisində miflər, əfsanələr nağıl və dastanlardan xeyli əvvəl yaranmışdı. Xınalıqlılarla ünsiyyətdə olarkən söyləyicilərin daha çox birincilərə üstünlük verdiklərini müşahidə etdik. Hansı ki, bunlar da bir qədər primitiv şəkildə, süjet və motivlər bəsit formada təqdim olunurlar. Sanki kənd sakinlərinin köməyilə tarixin qaranlıq qatlarından çıxaraq qədim dünyaya səyahət etmiş oluruq. Ənənələrinə sadiq-

lik nümayiş etdirən Xınalıq camaatı ərəb sərkərdəsi Aba Müslümün adı keçən rəvayətlərdən danışırlar. Qeyd olunur ki, VIII əsrdə islam dinini Şahdağ xalqları arasında yaymaq məqsədilə Aba Müslüm (bəzi qaynaqlarda Əbu Müslüm) adlı sərkərdə bu əraziyə təyin edilir. Belə bir tarixi şəxsiyyətin kimliyi maraq doğurdu və üz tutduğumuz mənbələrdə Aba Müslümün həqiqətən tarixi şəxsiyyət olması barədə əldə etdiyimiz bəzi informasiyalar (**13**) sakinlərin vermiş olduğu məlumatları təsdiqlədi. Qurban Musayev adlı söyləyici Kətişdə Aba Müslümün nəslindən olanların indi də yaşadığını deyir. Hətta sərkərdənin təşəbbüsü ilə 1000 il öncə inşa edilmiş Aba Müslüm məsçidi cümə məscidi kimi istifadədədir.

Bölgədə XII əsrin yadigarı olan Pircomərd (Pirəcmərd) tikilisi də layiqincə qorunub saxlanılır və ondan da cümə məsçidi kimi istifadə olunur. Ümumiyyətlə, Xınalıqda bütün məscidlər pir hesab olunur. İbadətdən başqa, bu məkanlar sitayiş olunan yer kimi həm də müqəddəs ziyarətgahdır. İnsanlar, digər məqalədə (**12, 84**) irəli sürdüyümüz funksional təsnifat kimi, aşağıdakı səbəblərdən həmin yerlərə üz tuturlar:

1.Şəfa ummaq məqsədilə
2.Diləktutma məqsədilə
3.Əhdə çatıb pirəçıxma
4.Xeyriyyə məqsədilə
5.Bəxtaçma
6.Ruhun, emosiyanın təzələnməsi
7.Uğurlu xalq siyasəti – önəmli və dəyərli məkanların toxunulmazlığına nail olma.

Düşünürük ki, yuxarıdakı təsnifat Xınalığın ən məşhur pirləri sayılan Seyidqələm baba, Şıxşalburuz baba (kənd sakinlərinin bildirdiyinə görə, bu övliyanın nəvələri hal-hazırda Qəbələ rayonunda yaşayır. Tədqiqatçı alim Mətanət Yaqubqızının bilgisinə görə, sözügedən rayonun rəvayətlərində Şalbuz baba kimi adı çəkilir), Cabbar baba və ya Cabar baba, Möhüc baba, Qırx Abdal baba və s. pirləri üçün də xarakterikdir. Bəzi pir sahiblərinin (məs: Seyidqələm baba, Cabbar baba) nəvə-nəticələrinin islam dininə bu qədər bağlı olduqlarının səbəbi belə bir ehtimala gətirib çıxarmışdır ki, bu övliyaların özləri də qureyşilər tayfasının haşimilər nəslindəndir (**14, 10**).

"Kəndimizin səmti qibləyə baxır",– deyə Allaha alqışlar yağdıran xınalıqlıların qatı dindar olduqları bəllidir. Ailə qurmaq məqsədilə təşkil olunan "Elçilik" mərasimində qız evinə təşrif buyuran 3 nəfərdən biri mütləq din xadimi olmalıdır. Hətta qatı dindarlıq Quba rayonunun, aran və ya dağ fərqi yoxdur, başqa kəndlərindəkinə nisbətən daha dərin kök salmışdır. Bariz nümunə kimi, Məhəmməd peyğəmbərin şərəfinə təşkil olunan Mövlud günlərini xüsusi vurğulamaq lazım gəlir. "Peyğəmbəri oxşatmaq", onun şəninə nəğmələr yağdırmaq xınalıqlıların bədii təfəkkür tərzini ortaya qoymuş olur ki, bu oxşamalar da həzin avazla ifa olunur (Bu nümunələr müəllifin şəxsi arxivində qorunub saxlanılır):

*İdris Nəbi hüllə biçər,*
*Hamı mələklər rəhmət saçar.*
*Quğar Allah, deyyu-deyyu,*
*Aman Allah, deyyu-deyyu.*

Bu örnəyi 1941-ci il təvəllüdlü Orucova Mələksima səsləndirdi. Həmçinin şeirdə adı keçən İdris Nəbinin kimliyi haqda da bəhs edərək onun həm ölmədiyini, həm də cənnəti qazandığını söylədi. Məlum oldu ki, yuxarıdakı oxşatmanın da kökündə maraqlı bir rəvayət dayanır: "İdris Nəbi diyib ki, Allaha, mənə cənnəti göstər. Allah da iki mələkə tapşırıb ki, aparın İdrisi cənnətə, qoyun tamaşa eləsin. Gəzib bütöv cənnəti bu. Qapıdan çıxanda yapışıb cənnətin ağacına ki, bəs sımzalarımın (çəkmələrimin – X.M) biri yoxdu, dünyaya qayıda bilmərəm. O, ağacı qucaqlayıb oturub. Mələklər şikayət eliyəndə Allahdan nida gəlib ki, elə onun meksedi o idi, cənnətdə qalmaq, o çıxmıyacaq urdan. Qoy qalsın urda, degmiyin una, siz çıxın gidin. Belə u qalıb urda. İdris Nəbi ülmüyüb, İdris Nəbi sağdı. Hamı mələklər uşaqlardı da – körpələr rehmətə gidirmi, bax unlar. İdris Nəbi unlar üçün hüllə biçər, yəni ki, paltar tikər".

Deyilənə gorə, Xınalıq kəndində Əhməd Əfəndi adlı məşhur din xadimi yaşamışdır. Bildirilir ki, o, qeyri-adi biliyə malik olmuş, XIX əsrdə Qafqazın müxtəlif dini mərkəzlərində, Tiflis və Dağıstanda fəaliyyət göstərmişdir. Hal-hazırda onun adına türbə vardır. Yumoristik keyfiyyətləri ilə də məşhur olan Əhməd Əfəndinin həyatı barədə heç yerdə səslənməyən, bəhs edilməyən hekayət danışdılar: Rəvayətə görə, məşhur xeyriyyəçi H.Z.Tağıyev hökm sürən sünni-şiə qarşıdurmasını çözmək, barış yaratmaq məqsədilə müsəlmanların hər iki məzhəbindən olan görkəmli şəxsləri Bakıya toplayır. Tağıyevin sağında əyləşən lənkəranlı ağsaqqallardan biri ayaqqabılarını qucaqlayıb oturmuş Əhməd Əfəndiyə: “Ay əfəndi, ayıb deyilmi, sən çəkmələrini əlinə almısan, bəyəm burda oğrumu var?”, – deməsi xınalıqlı dindarı özündən çıxardıb, onun cavabı gülüş doğurub: “ Məhəmməd Əleyhüssəlamın dövründə sünni mollasının ayaqqabısını şiə mollası oğurlamışdı”. Lənkəranlı axundun isə “o vaxt sünni-şiəmi vardi”, – deməsi ilə Əhməd Əfəndinin reaksiyası özünü çox da gözlətməyib: “O vaxt olmayıb, bəs indi hardan gəldi?”. (Yeri gəlmişkən: burada din xadiminə “əfəndi” müraciəti maraq doğurur. “Əfəndi” kəlməsi sünni ruhanilərə verilən ləqəb, hörmət mənasında onların adlarına qoşulmuş söz kimi dəyərləndirilir ) (**16, 64**).

Ümumiyyətlə, belə bir nəticəyə gəlmək olar ki, dinlə əlaqəsi olan və övliyalıq xüsusiyyətlərinə malik insanların qüdrətinə inam və etiqadın qabardılması Xınalıq folklorunun əsas özəlliyidir. Bu etiqadın kökündə, həmçinin qədim azərbaycanlıların animist – ruh inancları, islamaqədərki dünyagörüşünün qalıqları dayanır. Bəli, islamaqədərki ibtidai təfəkkürun izlərini xınalıqlıların adət və ənənələrində sezməmək qeyri-mümkündür. Pirlərə sitayiş, orda qurbanlar kəsmək fikrimizi təsdiq edir. Həmçinin məlumdur ki, xalq çox zaman öz əski etiqad və təsəvvürlərini yeni dinin xoşuna gələn bir qəlibə salaraq… müəyyən pərdə altında yaşatmağa davam etmişdir (**1, 58**). Hər bir məscidi pir adlandıran xınalıqlının məqsədi açıq-aydın hiss olunur. Kəndin yaşlılarının yuxarıda adını çəkdiyimiz Pirəcomərd məscidinin qədim atəşpərəstlik məbədi olması ilə bağlı danışdıqları rəvayətlər də maraq doğurur: Sakinlər orada əbədi məşəl olduğunu iddia edirlər (**6, 30**).

Təbiət qüvvələrinə müxtəlif sehr düsturlarının köməyilə təsir etmək (**1, 27**) iqtidarında olma gücünə inam da ibtidai təfəkkürə əsaslanır. Digər söyləyicilər danışırlar ki,”quraqlıq olanda Həzrət Baba pirinin daşını aparıb Kür çayına atırıq, bu ən yaxşı variantdır: Dağın daşın arana”.

Çoxsaylı rəvayətlərin mərkəzində isə Şah Abbas obrazı dayanır ki, bu mətnlərin səslənməsi daha poetik, ifa tərzi daha obrazlı və pafosludur. Sanki yuxarıda qeyd etdiyimiz primitivlik, sadəlik yerini daha mükəmməl, ibrətamiz mətnlərə vermişdir. Cəmiyyətdə baş verən ictimai-siyasi hadisələr, həmçinin yeni düşüncə tərzinin formalaşması bu mətnlərdə açıq-aydın görünür. Rəvayətlərin birinin qısa məzmunu belədir: Çox hökmlü Şah Abbas gəlib bu yerlərə çıxır. Heyrətə gəlir. Dağın əzəmətinə baxaraq bu ki mən özüməm, deyir (**7, 146**). Dağı və onun ətəyini öz adı ilə adlandırmağa başlayır: Şah düzü və Şah dağı. Yaxınlıqdakı çayın gözəlliyinə valeh olaraq ona da arvadının şərəfinə Şahnabadçay adını verir. Belə söyləyirlər ki, şahın arvadının adı həqiqətən Şahnabad imis.

Düşünürük ki, Xınalıq folklorunun özunəməxsus cəhətlərini araşdırarkən əldə etdiyimiz bir nailiyyət və ya tapıntı haqda xüsusi danışmaq lazımdır. Bu mifoloji obraz (və ya varlıq) kimi qiymətləndirilən Istar Meram haqqında olacaq (ad Azərbaycan əlifbasının “ı” hərfi ilə başlayır (yazılır) və “ı” səsi ilə tələffüz olunur). Günümüzədək antologiya və külliyyatlarda, həmçinin, müstəqil nəşr olunmuş mifoloji mətnlərə geniş şəkildə nəzər yetirdik, amma bu ada rast gəlmədik. (Diqqətimizdən kənarda qalan hansısa mənbənin mövcudluğu istisna edilmir). Baxmayaraq ki, bir çox mifoloji rəvayətlərin mərkəzində dayanan Cin obrazı ilə bağlı geniş yayılmış mətnlərin motivi Istar Meram haqqında topladığımız mətnlərin motivi ilə, demək olar ki, üst-üstə düşür. Maraqlıdır ki, çoxsaylı folklor mətnləri içərisində bu varlığın adına rast gəlinmir. Yalnız xınalıqlıların mifik təfəkküründə Istar Meram “baş qəhrəman“ kimi çıxış edir. Hansı ki, cinlər tayfasına aid edilir və şər qüvvə kimi xarakterizə olunur. Amma bir neçə il öncə Xınalıqda ezamiyyətdə olan etnoqraflar xalqın yaddaşına həkk olunmuş Istar Meramın bəzi spesifik xüsusiyyətlərini aşkarlayıblar (**2,20**). Rəvayətə görə, Istar Meram bir qadın olub: “Diyillər ki, atı buraxıblar, tər götürüb gəlib. Bular da dalında qır bağlıyıb buraxıb. Axşam gələndə bir uzun qız minib, u qız yapışıb, atın dalında gəlib. Sora qızı düşürdüblər bunlar. Ular qıyığdan, ignədən qorxullar, deyə batırıb saxlıyıblar yannarında. Bu qızı saxliyir-saxliyir, çoxlu iştedillər. Bu da işdiyib. Bir gün də diyib ki, axsamüstü bizim inəgimiz tölədə doğub. Külfət gidib töləyə, inəg də doğulan, balasın almağa. Bir qız uşaq (qeyd: xınalıqlılar Azərbaycan

dilində danışarkən, digər azsaylı xalqların nitqində olduğu kimi, qeyri-konstruktiv cümlələrdən istifadə edirlər. Nitqdə ara-sıra inversiya baş verir.) qalıb evdə. Bularçin də evin içində təndir olub axı. Belə evlər ulmuyub axı, büyük evlər ulub; evdə də təndir. Zəmanə elə ulub e. Peçdi, piletədi, tokdu, u vaxt hardaydi ki? Sora inəgçin aparmağa su asıb utağda, təndirdə. Bu diyirdi ki, Istar Meram, qıza buları çıxar (sancaqları – X .M), sənin üçün muncuğlar verecağam, ne verecağam. Bu da çıxarıb. Çıxaran kimi Istar Meram qızı basıb təndirə, suvu da tokübüb usdünə, ilədiyi təzəkləri, hamısını damnan tüküb yerə, qaçıb gidib".

Istar Meram haqqında başqa bir mətn də maraq doğurur: "Bu Istar Meram qadın da ulub, kişi də. Diyillər, uları Qaf dağa küçürtublər. İndi də ular var, diyir, Qaf dağda. Ular diyir, Qaf dağını yalıyıllar. Urda nə qərta yırtıcı heyvanlar da var. Allah insanı yaratdığdan sora o yırtıcı heyvanları sürgün edib. Hele diyillər ki, Istar Meramlar Qaf daği yalıyıllar bu cümədən o cüməyəcən; dağ olur naaazik. Bu tərəfə, insan olan tərəfə keçmək isdiyir bular. Ama cümənin sabahı mollaların uxuduğu bir dua var, uxuduğdan sonra dağ yenə əvəlki şəklinə düşür".

Yaşlı söyləyicilərdən birinin nəql etdiyi "Özum"(şərti olaraq belə adlandırırıq) adlı nağılın da baş qəhrəmanı Istar Meram hesab oluna bilər. Nağıla görə, (gətirdiyimiz nümunə lətifə və qaravəlli janrlarının hüdudlarında dayanır) Birəməli adlı kişi hadisələrin cərəyan etdiyi Qəbələ rayonuna yaxın ərazidən ailəsi üçün bazarlıq etməyə gedibmiş və orda – Karvansara deyilən yerdə, torpağın altında qurulmuş xüsusi sığınacaqda gecələmək üçün qalmalı olub. Istar Meram onu təqib etməyə başlasa da, ağlı, fərasəti sayəsində qorxulu varlıqdan canını qurtara bilib: "Tələsig Karvansaraya girib, ağzına da bir daş quyub, qapı ulmuyub urda. Əlində tüfəng tutub, lüləsini də daşın arasına beləsinə quyub; ucu una tərəf. Istar Meram diyib ki, sən nətəhər keçdin burdan? Birəməliyə diyib ki, sənun aduv nədi? Nətəhər burdan girdin? Birəməli diyib: Adım Özumdu. Diyib ki, sən bu lüləyi ağzıva al, mən səni çəkərəm, sən də gələcaxsan. O da lüləsin ağzına alanda tüfəngi burdan açıb vurub bunu – Istar Meramı. Diyib qışqırıb, u qərta nalə çəkib ki, bu diyir, urda. Yığılıb vəhşi heyvanlar da gəlib, Istar Meramlar da. Bunnan soruşublar ki, sənə kim iлədi bunu? Deyib ki, Özum. Deyiblər ki, özun özuvə eləmisən də. Özün özuvə, küli də gözüvə. Başa düşmiyiblər ki, içəridə adam var. Hamısı dağılıb gidib. Səhər açılanda Birəməli görüb ki, Istar Meram yıxılıb ülüb də. Bu da unun ağzın, burnun, dudağların pıçaxnan alıb cibinə quyub, çıxıb gəlib. Gəlib meydana çıxanda inanmıyıblar ki, yalan danışasan. Bu da çıxartıb cibinnən ağız-burunu, göstərib ki, bəs bular nədi, yalandi? Hele kişilər ulub burda".

Etnoqraf M.Paşayeva Istar Meramı "Bilqamıs" dastanındakı İştar obrazı ilə eyniləşdirir. Adbirləşmənin ikinci tərəfi isə belə yozulur: Humay simvolunun işarəsinə bənzər simvolik işarələrə Xınalıq evlərinin spesifik arxitektur işarələri olan ev sütunlarindakı taclarda da rast gəlmək olar. Bu qədim türk inancının xristianlıq dövründə Məryəm ana obrazına keçməsi, Şahdağ xalqlarında bu obrazın İstar Meram şəklinə düşməsinə səbəb olmuşdur (**2, 21**). Lakin "Bilqamıs" dastanını diqqətlə gözdən keçirdikdə yuxarıda səslənən fikirlərlə razılaşmaq olmur; fikrimizcə, hər iki obraz şər qüvvə kimi səciyyələnsə də, ayrı-ayrı funksiyaların daşıyıcılarıdır. 1-cisi ("Bilqamıs" – İştar) ilahədir, intriqa salmaq əsas peşəsidir; o, çox fəndgirdir. 2-cisi (Istar Meram – Xınalıq mətnləri) isə şərin simvolu olsa da, avam, yelbeyin bir varlıq olaraq iki cinsin nümayəndəsi (həm qadın, həm kişi) kimi mövcuddur. Xınalıqlıların təbirincə, Istar Meramı cinlər tayfasına aid etmək olar.

Yaşlı söyləyicilərin danışdığına görə, kənddə yaşamış Xanxulu adlı kişi həmin cinlərə qarşı müəyyən fəndlər hazırlamaqla adını yaddaşlara yazdırmağı bacarıb. Q.Musayevin bəhs etdiyinə görə, "rəhmətdiy Xanxulu kişi ancaq cin tutmağla məşğul olurdu. Molla Qaflının kitabı vardı unda. Götürürdü ağappağ qəndi, bir də qara kömür. Sonra da o kitabdan ayə oxuyurdu. Bir də görürdün ağ qəntnən qara kömür başdadı qarpışmağa, qənd oldu qapqara". Digər mətndə isə deyilir ki, Xanxulu cin tutmuş adamı dəniz qırağından yığıb gətirdiyi qarğının içərisinə salarmiş, yenə bir ayə oxuduqdan sonra xəstə insanı evinə yola salar, isifadə etdiyi qarğını isə mumlayıb rəndələdikdən sonra aparıb qəbiristanlıqda basdırarmış. İnanca görə, xəstə insan bununla da cindən azad olurmuş. Söyləyicilər onu da əlavə edir ki, əslində cintutma, bəziləri bunu tasqurma adlandırdı, mərasimi təşkil edən Xanxulu və onunkimilərə heç də xeyir gətirməmişdi. "Cinlər öz qisasını almağa gəlirmişlər, hətta cintutan insanların çox yaxın adamları sağalmaz xəstəliyə tutulur və bu səbəbdən ölürmüşlər".

Beləliklə, Xınalıq kəndinin folklorunu ümumazərbaycan folkloru kontekstində araşdırmağın vacib olduğu qənaətinə gəldik. Bu yerdə vurğulamaq yerinə düşər ki, müasirləşmə başlayana qədər folklor insan həyatının əsas tərkib hissəsi olmuşdur. Xınalıq kəndi qədim adət-ənənələrin, folklor düsüncələrinin arxaik formada təzahürünü qoruyub saxlamışdır. Sanki yuxarıda bəhs etdiyimiz müasirləşmə başlayana qədər olan bir dövrün siması Xınalıq folklor nümunələri sayəsində günümüzədək gəlib çatmışdır.

Dunyanın ən yüksək (dəniz səviyyəsindən 2350 m. yuksək) yaşayış məskənlərindən sayılan Xınalığın folkloru arxaik inanc və görüşləri ilə qəbilə-tayfa dovrundə mövcüd olmuş etiqadlara çox yaxındır. Hətta bəzi alimlər bu yaxınlara qədər Xınalıqda ibtidai icma quruluşunun mövcud olduğunu yazıblar (**6, 27**). Şəhər sivilizasiyasından uzaq düşülüb, əsas səbəblərdən biri budursa, ikinci səbəb adət-ənənəyə sadiqlik, onun nəsildən-nəslə ötürülməsinə böyük vəchlə xidmət etmək, dili qorumaq (hansi ki, oxşarı yoxdur, unikaldır) və assimilyasiyaya uğramamaq üçün canfəşanlıqla çalışmaqdır. Bu, müsbət haldır.

Ona görə də həyata keçirilən multikulturalizm siyasəti əsas hədəflərdən biri kimi Xınalıq və xınalıqlılara da şamil edilməlidir. Çünki Xınalıq təkcə Azərbaycan tarixində deyil, həmçinin bəşər tarixində ən zəngin və qədim etnoqrafik yasayış məntəqələrindən biri hesab olunur. Xınalıqlılar isə çox dəyərli folklor mətnlərinə sahib olduqları üçün onlarla laqeyd davranılmamalıdır. Düşünürük ki, kəndin dili kimi, onun ağız ədəbiyyatı da bənzərsiz və özünəməxsusdur. Böyük güc sərf edərək tədqiqatları davam etdirmək mütləqdir. Və bu bölgənin folklorunun araşdırılması zamanı ənənəviplan dəyişdirilərək artıq yeni biçimdə tərtib olunmalıdır; orijinallıq bunu tələb edir. Unutmayaq ki, Xınalıq folklorunda mifoloji dünyagörüşü hakimdir. Qədim, lakin az öyrənilmiş tarixə sahib xınalıqlıların bu istiqamətdə araşdırmaya cəlb olunması çox əhəmiyyətlidir. Çunki mifologiya ilə bağlı hər bir inamı araşdırmaq paralel olaraq xalqın tarixini öyrənmək deməkdir (**5, 147**).

Xınalıq folklorunu mükəmməl, geniş şəkildə toplayıb tərtib etmək və onu nəinki Azərbaycan, həmçinin digər dünya xalqlarının şifahi ədəbiyyat nümunələri ilə müqayisəli şəkildə öyrənmək böyük təşəbbüs və nailiyyət olardı.


**Xülasə**

Məqalədə Quba rayonu ərazisində yerləşən Xınalıq kəndinin folkloru araşdırılır. Və bu kəndin ilk dəfə araşdırmaya cəlb olunduğu bildirilir. Folklorumuzun az öyrənilmiş bölgələrindən sayılan Xınalıq folklorunun primitiv inanc və görüşləri ilə qəbilə-tayfa dövründə mövcud olmuş etiqadlara çox yaxın olduğu vurğulanır. Azərbaycan folkloru tarixində ilk dəfə olaraq Istar Meram adlı mifoloji varlığın adı çəkilir.

**Резюме**

В статье рассматривается фольклор Кубинского региона деревни Хыналыг. Исследования в этой области проводятся впервые. Также впервые в истории Азербайджанского фольклора упоминается мифологическое существо по имени Истар Мерам. Следует отметить, что фольклор Хыналыг очень близка к архаическим верованиям.

**Summary**

In the article the folklore of Khynalyg's village which is included in the territory of Guba is investigated. It is also mentioned that this problem is studied for the first time. The Khynalyg's folklore which is considered has been learned a little, it is mentioned, it looks like to old beliefs with primitive outlook. It is spoken about the mythological creature which called Istar Meram in the history of Azerbaijan's folklore for the first time.

**Ədəbiyyat:**

1.M.H.Təhmasib. “Seçilmiş əsərləri”, I cild, Bakı, 2010
2.M.Paşayeva. ”Azərbaycanın qədim diyarı Xınalıq”. Bakı, 2006
3.R.Alxas. “ Xınalıq və Xınalıqlılar”. Bakı, 2003
4.Г.А.Гейбуллаев. «К этногенезу Азербайджанцев». Bakı, 1991
5.M.Seyidov. “Azərbaycan xalqının soykökünü düşünərkən”. Bakı, 1989
6.G.Məmmədyarova, Mehmandarova. “Xınalıq, Xınalıq, Xınalıq”. “Qobustan” jurnalı, Bakı,1993
7.T. Bünyadov. “Əfsanələr diyarı”. “Azərbaycan” jurnalı. Bakı, 1997, № 1,2
8.“Dağların xınalı gəlini”. “Azadlıq” qəzetinin xüsusi jurnalist qrupu. 2010, № 2032
9.R. Alxas. “Xınalıqlı Əhməd Əfəndi”. “Quba” qəzeti,1995, №44
10.C.Musayev. “Diplomatik psixologiya”. Bakı, 2001
11.“Əsatirlər, əfsanə və rəvayətlər”. Tərtib edənlər: A.Acaloğlu, C.Bəydili. Bakı, 2005
12.X.Məmmədova. “Quba pirləri: funksional təsnifat və inanc sistemi”. “Dədə Qorqud ” jurnalı. Bakı, 2010, № 2
13.az.m.wikipedia.org
14.R. Alxas. “Xınalıqlı Seyidqələm baba”. Bakı, 2001
15.“Bilqamıs” dastanı, Bakı, 1999
16.“Azərbaycan dilinin izahlı lügəti”, II cild, Bakı, 2006
17. Məhsəti İsmayıl. “Naxçıvan əfsanələri”, Bakı, 2008
18. 2350m hight village; Xınalıq/Azerbaijan (gullnarr.wordpress.com)

**Hacı Abdulla**
**AMEA Tarix İnstitutu, dissertant,**
**Azərbaycan Respublikası Prezidenti yanında**
**Bilik Fondunun sektor müdiri**
**Azərbaycan, Bakı**

# "KİTABİ-DƏDƏ QORQUD"DA MULTİKULTURALİZMİN İZLƏRİ

***Açar sözlər:*** *multikulturalizm, etnik, Dədə Qorqud, oğuz, epos*
***Ключевые слова:*** *мультикультурализм, этнический, Деде Коркут, огуз, эпос*
***Key words:*** *multiculturalism, ethnicity, Dede Korkut, Oghuz, epos*

İngilis dilində "çoxlu mədəniyyətlər" mənası verən multikulturalizm insanların sosial-mədəni davranışlarının, mənəvi–psixoloji dəyərlərinin toplusudur, fərqli dildə danışan, digər dinə, özünəməxsus məişət, adət-ənənəyə malik etnik qrupların mədəni müxtəlifliklərinin qorunub saxlanması, inkişafı, qarşılıqlı hörmət münasibətlərinə əsaslanan birgəyaşayışıdır (**1**)

Azərbaycan xalqı əsrlər boyu məhz bu dəyərlərə malik, açıq cəmiyyət toplumu kimi tanınıb. Bunun ən bariz nümunəsi hazırda ölkəmizin bütün guşələrində yaşayan, öz dil və dinlərini, etnik özəlliklərini qoruyub saxlayan milli azlıqların mövcudluğudur.

Azərbaycanın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji hədəf seçən ümummilli lider Heydər Əliyev öz uzaqgörən, müdrik siyasəti ilə əsrlər boyu formalaşmış çoxmədəniyyətlilik ənənəsini inkişaf etdirərək onu keyfiyyətcə yeni mərhələyə qaldırdı. Bu mərhələ siyasi mərhələ idi. Əslində, ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisi oldu, bununla ilk növbədə multikulturalizm siyasi modelinin assimilyasiya və izolyasiya kimi digər mümkün siyasi modellərdən üstün olduğunu bütün dünyaya nümayiş etdirdi. "Azərbaycan əhalisinin çoxmilli tərkibi bizim sərvətimizdir, üstünlüyümüzdür. Biz bunu qiymətləndiririk və qoruyub saxlayacağıq" deyən ulu öndər, bütün sonrakı siyasi fəaliyyətini bu sərvətin əbədi olması istiqamətinə yönəltdi. Ulu öndərin rəhbərliyi ilə, nəhayət ki, dönüşü olmayan demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi, "dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik"olmalarını təmin etməli idi.

Təbii olaraq, ulu öndər etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndərin dediyi kimi, həqiqətən də "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir. Ərazimizdə yaşayan azərbaycanlı da, ləzgi də, avar da, kürd də, talış da, udi də, qumıq da, başqası da - bütünlükdə hamısı azərbaycanlıdır" (**2**).

Bu müdrik siyasətin layiqli davamçısı olan Prezident İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi beynəlxalq aləmin diqqətini çəkir, respublikaya göstərilən marağı artırır və müxtəlif mədəniyyətlərə mənsub xalqların birgəyaşayışının mümkün olduğunu açıq şəkildə bəyan edir. Burada Prezident İlham Əliyevin ölkədə insan hüquq və azadlıqlarının qorunmasına göstərdiyi yüksək münasibət, dövlətin təməl siyasi prioritetlərinin uğurla davam etdirildiyini və multikulturalzmin alternativinin olmadığını göstərmiş olur.

Azərbaycan insanının multikulturallığı xalqımızın ədəbi-bədii düşüncə müstəvisində də kifayət qədər aydın görünür. Azərbaycanlıların ulu babası olan oğuz türklərinin qəhrəmanlıq dastanları sırasında ən önəmli yeri tutan ən qədim yazılı abidəmiz "Kitabi-Dədə Qorqud" dastanında maraqlı multikultural və tolerant əhvalın təsvirinə rast gəlirik.

«Türk ədəbiyyatının bütün əsərləri tərəzinin bir gözünə, «Dədə Qorqud» o biri gözünə qoyulsa, yenə «Dədə Qorqud» ağır gələr" dəyərləndirməsi bu eposun milli-mənəvi, ədəbi-bədii, etik, estetik düşüncəsindəki yerini düzgün dəyərləndirir. Bu eposda xalqımızın bütün mənəviyyatı, düşüncə tərzi əks olunub.

Eposun, əsasən, VII əsrdə Azərbaycanda formalaşması fikri məqbul sayılır. Eposun birinci cümləsi: “Rəsul Əleyhissalam zamanına yaqın Bayat boyından Qorqud Ata derlər, bir ər qopdı!” deyimindən də məlum olur ki, bu ədəbi abidə islamiyyətin yaranması zamanlarına aiddir. Məhəmməd Peyğəmbərin 570-ci ildə dünyaya gəlməsini nəzərə alsaq, bu qənaətin düzgünlüyü görünər.

Dastandakı qəhrəmanların müsəlman kimi dindarlığı mühafizəkarlıqdan xeyli uzaq bir məzmundadır.

“Kitabi-Dədə Qorqud”un kamil bilici və tədqiqatçılarından olan akademik Həmid Araslı XV əsr şairi Ətainin “Leyli və Məcnun” poemasında “Dədə Qorqud motivləri adlı məqaləsində göstərir ki, Ətai sözügedən əsərində Qorqud Atanın müqəddəs övliya, el bilicisi kimi bütün yaxın və orta şərq ölkələrində məşhur olduğunu yazır. Ətainin Dədə Qorquda həsr etdiyi bu şeir Dədə Qorqud düşüncəsinin nə qədər müasir dillə desək, multikultural zənginliyə malik olduğunun real və poetik ifadəsidir:

*Dədə Qorqud söylədi ki, düşmənin*
*Ölüsü ölsə, sevinmək kimsənin*
*Nişə kim bu cümlə başlardan keçər,*
*Cümlə aləm həm bu şərbətdən içər (**3**).*

“Gəlimli-gedimli dünya, son ucu ölümlü dünya” deyən Dədə Qorqud, öyüdlərində, hətta düşmənin də kim olursa-olsun ölümünə sevinməməyi vəsiyyət edir, anladır ki, onsuz da hamımız bu əcəl şərbətini içəcəyik.

Xalq şairi Səməd Vurğun da Dədə Qorqudun bu humanist, bütün insanlara dost, mehriban, məhrəm münasibətindən çıxış edərək yazırdı:

*Dədə Qorqud dediyimiz*
*Min bir yaşlı bir ozan da,*
*Qoca vaxtı öz sazını sinəsinə*
*Basacaqdır,*
*Bütün xalqlar və tayfalar*
*ona qulaq asacaqdır.”*

Yalnız Dədə Qorqud kimi ümumbəşəri düşüncə sahibinin sazı və sözünə “bütün xalqlar və tayfalar” qulaq asır, onun YUNESKO-nun qərarı ilə dünyanın çeşidli ölkələrində yubileyləri təmtəraqla qeyd edilir, beynəlxalq səviyyəli konfranslar keçirilir.

Görkəmli yazıçı və dilçi alim Kamal Abdullanın “Kitabi-Dədə Qorqud” haqqında tədqiqatlarını “Azərbaycan bədii-elmi mühitində heç kəsin yaradıcılığına bənzəməyən orijinal hadisə” (**4**) adlandıran filoloq alim Yeganə İsmayılova qeyd edir ki, görkəmli araşdırmaçı hər dəfə Dədə Qorqud süjetlərinə müraciət edəndə, yeni, fərqli “yozum istiqamətləri” tapır. Akademik Kamal Abdulla dastandakı multikultural və tolerantlığın ifadəsi olan detalları da tədqiqata cəlb etmişdir.

Həqiqətən də, Dədə Qorqud qəhrəmanlarının tapındığı din falçı, pir, molla dini deyil, sözün birbaşa mənasında Quranda ifadəsini tapan ilkin dindir, Tanrı dinidir.

Oğuz türkünün Tanrıyla təması mistik aləmə qapılanların, məbədlərdə gün keçirənlərin, guşənişinlərin ibadətindən fərqli məzmundadır. Bu məzmun sırf həyati müstəvidə və təktanrılığın insan üçün nəzərdə tutulan təyinatına tamamilə uyğun gəlir.

Kitabdakı “Qanlı Qoca oğlu Qanturalı” boyunda multikultural dəyərlər daha qabarıq şəkildədir. Belə ki, gənc Qanturalı evlənmək üçün “kafir” qızını - Trabzonun xristian təkurunun qızı olan Sarı donlu Selcan xatunu seçir. Oğuz bəyləri üçün bu dini və milli mənsubiyyət heç bir mənada özgəlik ifadə etmir. Hətta, bu qızı alıb gətirməyi Qanturalıya öz atası təklif edir. Qanturalının gələcək həyat yoldaşında görmək istədiyi yalnız bu keyfiyyətlərdir: “Baba, mana bir qız alı ver kim, mən yerimdən turmadan ol turğac gərək! Mən qaraqoç atıma binmədən ol binmək gərək!...”

Selcanla evlənməsinə qızın atasından – Trabzon təkurundan razılıq alması üçün Qanturalı ağır sınaqlardan keçərək, təbii ki, bir igidlik nümunəsi sərgiləməli olur. O, bir buğa, bir buğra və bir aslanla çarpışır. Sınaqları qələbə ilə başa vurub Selcan xatunla öz yurduna yola düşür. Qızını müsəlman bir oğuz gəncinə verdiyinə görə sonradan peşman olan Trabzon təkuru onların ardınca qoşun

göndərir ki, övladını geri alsın. İki gəncin üzərinə bu dəfə düşmən qismində gələn təkur döyüşçülərini Qanturalı ilə Selcan xatun – biri müsəlman, o biri xristian inanclısı olaraq birgə dəf edirlər.

Hekayə boyu Selcan xatuna dini baxımdan heç bir ögeylik sərgilənmir. Əksinə, onun qəhrəmanlığının təsvirində məhrəm bir münasibət ifadə olunur. Selcan xatun ailə namusu, qəbilənin şərəfi, mənəvi-əxlaqi təmizlik və qorxmazlıq kimi dəyərləri yüksək tutan oğuz qadınlarının mühitində tam doğmalaşmış birisidir. Bu keyfiyyətlərin hamısını azərbaycanlı oxucu onun da timsalında görür. Və buna görə də Dədə Qorqud mühitində yaşayanlar xristian Selcan xatunu müsəlman oğuz qızlarından, məsələn, Banuçiçəkdən fərqləndirə bilmir və yaxud fərqləndirmək istəmir.

"Baybörənin oğlu Bamsı Beyrək boyu"nda yer alan Banuçiçək də Selcan xatun kimi gənc bir qızdır. Onunla nişanlanmış Bamsı Beyrək də Qanturalı kimi öz atasına eyni xüsusiyyətlərə malik bir qızla evlənmək istədiyini bildirmişdi: "Baba, mana bir qız alı ver kim, mən yerimdən turmadan ol turğac gərək! Mən qaraqoç atıma binmədən ol binmək gərək!..."

Beləliklə, istər müsəlman oğuz qızı Banuçiçək, istərsə də xristian qızı Selcan xatun qədim azərbaycanlılar (oğuzlar) üçün eyni dərəcədə doğmalıqla tərənnüm edilir.

"Kitabi-Dədə Qorqud"da başqa bir qadın obrazı da var ki, o da dini mənsubiyyətcə xristiandır, ancaq oğuz qadınlarının içində deyil, düşmən içindədir. "Baybörənin oğlu Bamsı Beyrək boyu"nda bu xristian qızı - Bayburt qalasının bəyinin qızı Beyrəyin düşmənləri sırasında olsa da, oğuz qəhrəmanının xilası üçün əlindən gələni edir. Beyrək onun atasının əsirliyində olarkən qız bu gənc oğuz bəyinə aşiq olur və ona əsirlikdən qaçması üçün kömək edir. Günlərin bir günü qız Beyrəyə deyir: "Əgər səni hasardan örkənlə aşağı sallasam, sağ-salamat ata-ananın yanına getsən, məni burda gəlib halallığa alarsanmı?"

Beyrək bu xristian qızına and içir: "Oğuz yurduna salamat çatsam, gəlib səni halallığa almasam, qılıncıma doğranım! Oxuma sancılım! Yer kimi çatlayım, torpaq kimi sovrulum!"

Beləliklə, xristian qızının əsirlikdən azad etdiyi Beyrək Oğuza geri dönüb öz nişanlısı Banuçiçəyə qovuşur və təbii ki, xristian qızı ilə evlənmək andına xilaf çıxır. Sonuncu "İç Oğuza Dış Oğuz asi olub Beyrək öldüyü boy"da məhz Beyrəyin həlak olması qəhrəmanın öz andına, verdiyi sözə xilaf çıxmağının nəticəsi kimi ortaya çıxır. Çünki Beyrək sözündən dönmüşdü. Söz də onu cəzalandırır. Əslində, bu məqama multikultural münasibətlər sisteminin işığında nəzər salsaq, belə demək olar: başqa bir dinin, millətin nümayəndəsinə olsa belə, verdiyi sözə xilaf çıxan oğuz cəngavərini Oğuz əxlaqı, Oğuz adəti ayrı-seçkilik salmadan cəzalandırır.

Beyrəklə Kafir qızının söhbətindən bir parça:

"Məgər kafir bəginin bir bikr qızı vardı. Hər gün Beyrəgi görməgə gəlürdi. Ol gün genə görməgə gəldi. Baqdı gördi, Beyrək səxt olmış. Qız aydır: "Neçün səxtsən, xanım yigit?

Gəldigimcə səni şən görərdim. Gülərdin, oynardın. Şimdi noldun?" - dedi.

Beyrək aydır: "Necə səxt olmayayım? On altı yıldır kim, babanın tutsaqıyam. Ataya-anaya, qavuma-qardaşa həsrətəm; və həm bir qara gözlü yavuqlum vardı. Yalançı oğlı Yalancuq derlər, bir kişi vardı; varmış, yalan söyləmiş, bəni öldi demiş; ana varar olmış", - dedi.

Böylə digəc, qız - Beyrəgi aşıqlamışdı - aydır: "Əgər səni hasardan aşağa orğanla salındıracaq olursam, babana-anana sağlıqla varacaq olursan, bəni bunda gəlüb halallığa alurmısan?" - dedi.

Beyrək and içdi: "Qılıcıma doğranayım! Oxıma san-cılayım! Yer kibi kərtiləyim, topraq kibi savrılayım! Sağlıqla varcaq olursam Oğuza, gəlüb, səni halallığa almaz isəm!" - dedi.

Qız dəxi orğan gətürüb Beyrəgi hasardan aşağı salındırdı. Beyrək aşağa baqdı. Kənduzin yer yüzində gördi. Allaha şükr eylədi."

Eyni fikirləri digər-"Qanturalı" boyundan parçalarda da görmək olar:

"Qanturalı camal və kamal yiyəsi yigit idi. Oğuzda dört yigit niqabla gəzərdi. Biri Qanturalı, biri Qaraçəkür və oğlı Qırqqınuq və Boz ayğırlu Beyrək. Qanturalı niqabın sərpdi. Qız köşkdən baqardı. Daraqlığı boşaldı, kedisi mavladı. Avsal olmış dana kibi ağzının suyı aqdı. Yanındağı qızlara aydır: "Haq Taala atamın könlinə rəhmət eyləsə, kəbin kəsüb məni ol yigidə versə.

Bu məhəldə dəmür zəncirlə buğayı gətürdilər. Buğa dizin çökdi, buynuzıyla bir mərmər daşı yoğurdı, penir kibi ditdi. Kafırlər aydır: "Şimdi yigidi atar-yıqar, sərər-pırtar. Yıqılsun Oğuz elləri! Qırq yigit bir bəg oğlıyla bir qızdan ötri ölmək nolur?" - dedilər.

Bunı eşidicək qırq yigit ağlaşdılar. Qanturalı sağına baqdı, qırq yigidin ağlar gördi. Solına baqdı, eylə gördi. Aydır: "Hey, qırq eşüm, qırq yoldaşım, niyə ağlarsız? Quruluça qopuzum gətürün, ögün məni!" - dedi.

*Burada qırq yigit Qanturalıyı ögmişlər. Görəlim, xanım, necə ögmişlər. Aydır:*
*Sultanım Qanturalı, qalqubanı verindən durmadınmı?*
*Yelisi qara Qazılıq atu binmədinmi*
*Arqu mili Ala dağı avlayuban-quşlayuban?*
*Babanın ağ-ban eşigində*
*qaravaşlar inək sağar görmədinmi?*
*"Buğa, buğa!" dedikləri*
*qara inək buzağısı degilmidir?*
*Apl ərənlər qırımından qayururdı.*
*Oldur, Sarı donlu Selcan xatun köşkdən baqar*
*Kimə baqsa, eşqiylə oda yaqar.*

... Məgər, xanım, təkür peşiman oldı. "Üç canavər öldür-digiçün bir qızcığazımı aldı-getdi", - dedi. İçin qara donlı, gög dəmürli altı yüz kafır seçdi. Gecə-gündüz yortdılar. Nagahandan yetdilər. Qız hazır idi. Baqdı gördi, ilğar yetdi. Atın oynatdı, Qanturalının üzərinə gəldi. Soylamış, görəlim, xanımım, nə soylamış, aydır:

*Ğafil olma, qara başın qaldır, yigit!*
*Ala qıyma görklü gözün açğıl, yigit!*
*Qarularından ağ əllərin bağlanmadın,*
*Ağ alnun qara yerə dəpilmədin,*
*Ğafillə görklü başın kəsilmədin,*
*Alca qanın yer yüzinə dökülmədin,*
*Yağı yetdi, düşmən irdi,*
*Nə yatursan, qalqğıl!*
*Qab qayalar oynamadın,yer obruldı.*
*Qarı bəglər ölmədin el boşaldı.*
*Qurcuşuban-uğraşuban dağdan endi.*
*Yasanuban üzərinə yağı yetdi.*
*Yatacaq yermi buldun, yurtmı buldun,*
*noldı sana? - deyü çağırdı.*

Qanturalı sərmərdi, oyandı; uru durdı. Aydır: "Nə söylərsən, görklüm?" - dedi. Aydır: "Yigidim, üzərinə yağı gəldi. Oyarmaq bəndən, savaşuban hünər göstərmək səndən!" - dedi.

Qanturalı gözin açdı, qapaqların qaldırdı. Gördi gəlin at üzərinde geyinmiş, sügüsi əlində. Yer öpdi. Aydır: "Amənna və səddəqna! Məqsudımız Haq Taala dərgahında hasil oldı" deyüb, arı sudan abdəst aldı. Ağ alnını yerə qodı. İki rikət namaz qıldı, atına bindi. Adı görklü Məhəmmədə salavat gətürdi. Qara donlı kafırə at saldı. Qarşu vardı.

Selcan xatun at oynatdı. Qanturalının öninə keçdi. Qanturalı aydır: "Görklüm, qanda gedərsən?" - dedi. Aydır: "Bəg yigit, baş əsən olsa, börk bulunmazmı olur? Bu gələn kafir çoq kafırdir. Savaşalım, dögüşəlim: ölənimiz ölsün, diri qalanımız odaya gəlsün!" - dedi. Burada Selcan xatun at saldı, qırımın basdı. Qaçanın qovmadı. "Aman" deyəni öldürmədi. Eylə sandı ki, yağı basıldı. Qılıcının balçağı qan odaya gəldi. Qanturalıyı bulımadı" (**5**).

Göründüyü kimi, 1500 ilin o üzündə bizim əcdadımız olan oğuzlar əbədi dost, sevgili, ya düşməni onun dili, dininə yox, insanlığına-sədaqətinə, xeyirxahlıq və mərifətinə, əxlaqına görə seçib dəyərləndiriblər.

Azərbaycan xalqı əsrlərin o üzündən gələn bu düşüncə tərzinə yenə də sadiqdir, indi də bu ənənəni yaşadır. Bunun ən bariz nümunəsi Zaqatala rayonudur, burada 20-dək fərqli etnik mənsubiyyəti olan toplumun yaşamasıdır, öz mövcudluğunu, dilini, adət-ənənələrini qoruyub saxlamasıdır. Etnik fərqliliklərə baxmayaraq, onlar müstəqil Azərbaycanı özlərinə doğma, əziz Vətən bilir, bu ölkənin bərabərhüquqlu vətəndaşı sayırlar.

**Xülasə**

Azərbaycan xalqı əsrlər boyu fərqli dil və dinə, müxtəlif etnik qrupa mənsub insanlara, topluluqlara hər zaman tolerant münasibət göstərib, açıq olub, bu dəyərləri qoruyub-saxlayıb.

Multikultural düşüncə tərzi Azərbaycan türklərinin – oğuzların "Ana kitabı" olan "Kitabi-Dədə Qorqud" dastanlarında da aydın görünür. Eposun "Qanlı Qoca oğlu Qanturalı" və "Baybörənin oğlu Bamsı Beyrək boyu"nda oğuz igidləri xristian qızlarına könül verirlər. Onlar üçün dini, milli mənsubiyyət əhəmiyyət kəsb etmir, insanı dəyərlər əsas amildir.

Dastanın bütün ruhuna humanizm, tolerantlıq ideyaları hakimdir.

**Резюме**

Азербайджанский народ на протяжении веков всегда имел толерантное, открытое отношение к людям, принадлежащим к различному языку, религии, этнической группе, компактности к ним и сохранил эти ценности.

Мультикультуральный образ мышления отчетливо показывается и в «Главной книге» азербайджанских тюрков – эпосе «Китаби-Деде Коркут». В сказаниях эпоса под названиями «Сын Кровавого Старика Гантуралы» и «Сын Бейбуры Бамсы Бейрек» огузские герои влюбляются в христианских девушек. Религиозная, национальная принадлежность для них не имеет никакого значения и человеческие ценности являются главными факторами.

Весь дух эпоса обладает гуманными, толерантными идеями.

**Summary**

Azerbaijan people always showed a tolerant attitude to various language and religious, to peoples belonging to various ethnic group, societies and reserved these values. The multicultural thinking is seem clearly in the "The Book of Dede Gorgud", in the "Mother's Book" of Oghuz. In the songs of "Ganli Gojaoglu Ganturali" and "Bamsi Beyrak-the son of Bayboran" the Oghuz braves fell in love to Christian girls. The religious, national belonging doesn't play an important role for them, the human values are factors. The humanism, tolerance ideas dominate in the spirit of the epic.

**Ədəbiyyat**:

1.Multikulturalizm Azərbaycanın həyat tərzidir, Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi, Azərbaycan Milli Kitabxanasının nəşri, Bakı-2016, s.60

2.Kamal Abdullayev, Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir, "Azərbaycan" qəzeti, 23 iyul 2014

3."Kitabi-Dədə-Qorqud" məqalələr toplusu, Bakı, Elm, 1999, s 75-82

4.Yeganə İsmayılova, "Kitabi-Dədə Qorqud" eposu şifahi, qədim, orta və müasir Azərbaycan ədəbiyyatında, Bakı, Universitet nəşriyyatı, 2013, s.226

5."Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları", Bakı, BBMM-2016, s 288

**Sahibə Sədnikqızı, böyük elmi işçi,**
**AMEA Folklor İnstitutu**
**Azərbaycan, Bakı**

# LƏZGİLƏRDƏ BAHAR BAYRAMI İLƏ BAĞLI MƏRASİM ƏNƏNƏLƏRİ

***Açar sözlər:*** *Ləzgilər, folklor, Yaran Suvar, Bahar bayramı, miflər, inanclar, adət-ənənələr, bayram süfrəsi*

***Ключевые слова:*** *Лезгины, фольклор, Яран Сувар, праздник Весны, мифы, верования, праздничный стол*

***Key words:*** *Lezghins, folklore, Yaran Suvar, Spring Break, myths, beliefs, customs and traditions, the holiday table*

Qafqazın ən qədim xalqlarından biri sayılan ləzgilər əsasən cənub-şərqi Dağıstanda, qismən şimali-şərqi Azərbaycanda, az sayda isə dünyanın bir çox ölkələrində yaşayırlar. Ləzgilər Qafqazın qədim tarixə malik xalqlarındandır. Onların həyatı, məişəti, adət və ənənələri folklor nümunələrində öz əksini tapmışdır. İndiyədək yüzlərlə ləzgi dastanları, əsatirləri, əfsanələri, nağılları, rəvayətləri, lətifələri toplanmış, minlərlə manilər (bayatılar) qəhrəmanlıq mahnıları, lirik mahnılar, toy və xor mahnıları, laylalar, tapmacalar, atalar sözləri, deyimlər toplu şəklində nəşr olunmuşdur. Şair publisist Müzəffər Məlikməmmədov qeyd edir ki, ləzgi folklorunun toplanmasında Qəzənfər Zülfüqarov, Bəşir Sultanov, Abucəfər Məmmədov, Əlibəy Fəttahov, Ağalar Hacıyev, Hacıbəy Hacıbəyov, Məhəmməd Hacıyev, Qiyas Məcidov, İsgəndər Qaziyev, Şahmir Muradov, İsmayıl Vahabov, Aybikə Qəniyeva, Firuzə Vahabova, Hacı Qaşarov, Zabit Rizvanov, Bayram Səlimov, Həkim Qurban, Abdul Fəttah, Sədaqət Kərimova kimi tanınmış alimlər, folklorçular, şair və yazıçılar böyük əmək sərf etmişlər. Eyni zamanda Ləzgi folklorunun toplanmasında Əfruz Rəhimovanın adını xüsusilə qeyd etmək lazımdır. Onun Yaran suvar bayramı (Bahar bayramı) və xalq oyunları ilə bağlı foloklor materiallarını toplaması təqdirəlayiqdir. Ləzgilərin bir çox maraqlı qədim adət-ənənələri və milli bayramları vardır. Onlar bu günədək öz keçmiş inanclarını qoruyub saxlayır və öz bütpərəst Allahlarına tez-tez müraciət edirlər. Onlar Bahar bayramı ərəfəsində od tanrısı "Alpan"a, su tanrısı "Tabar"a, döyüş tanrısı "Sleq"ə, günəş tanrısı "Atap"a, münbitlik tanrısı "Yar"a, bolluq tanrısı "Tap"a, xeyir-lə-şər tanrısı "Epen baxar"a, pislik tanrısı "Alapex"ə müraciət edirlər. Günəş Allahından işıq və isti verməsini, Od Allahından insanları qorumağı, Ay Allahından və Ay İlahəsindən insanı məhəbbət və ümiddən məhrum etməməyi, Su İlahəsindən təbiəti quraqlıqdan xilas etməyi, Yer İlahəsindən aclıq yaratmamağı, Təbiət Allahından bəşər övladını pis ruhlardan qorumağı xahiş edirlər.

Ləzgi folklorunun toplanmasında əməyi olan tədqiqatçı Əfruz Rəhimova "Ləzgilərdə Bahar bayramı" adlı tədqiqat əsərində yazırdı ki, "Min illərdir ki, ləzgilər Bahar bayramını ən əziz bayram kimi sidq-ürəkdən qeyd edir və bu bayramla birgə öz adət-ənənələrini, folklorunu qoruyub saxlayır. Bahar bayramının davamlı olaraq keçirilməsi folkloru daim yaşadır, onu gələcək nəsillərə ötürməyə imkan verir".

Bahar bayramı ləzgicə "Yaran suvar" adlanır. "Yar"- bahar, "suvar" isə bayram deməkdir. Yar həm də münbitlik tanrısıdır. Azərbaycan xalqında olduğu kimi ləzgilərdə də həyət-bacanın, ev-eşiyin təmizlənməsi, bahar bayramı təamlarının bişirilib yeyilməsi ilk çərşənbədən başlayıb, axır çərşənbəyədək davam edər. Bayrama hazırlıq işlərində evdə ağsaqqal, ağbirçəkdən tutmuş balaca uşağa kimi hamının əməyi olardı.

"Yar" ləzgilərin qədim kənd təsərrüfatı təqviminin bir ayıdı, martın 21-dən aprelin 4-dək davam edir. Yar ayı yaz-tarla işlərinin başlanğıcına təsadüf etdiyindən, ən maraqlı mərasimlər tarlalarda, bağlarda, əkin yerlərində olur. Ləzgilərin qədim adətlərindən biri olan, könüllü iməcilik mənasını verən "mel" bahar bayramı ərəfəsində keçirilir. Ev-eşik təmizlənir, yorğan-döşək günə sərilir, xalça-palaz çırpılır, evlərin divarları ağardılır, bağ-bağat, tarlalar çör-çöpdən, alaqdan təmizlənir. "Yar" sözünün ikinci mənası "qırmızı" deməkdir. Qədim vaxtlarda ləzgilərin bayram süfrəsi qırmızı rəngdə olarmış. Adətən toyları Yar ayına salardılar. Bəyə "yaran çam", yəni bahar bəyi, gəlinə

“yaran svas”, yəni bahar gəlini deyərdilər. Gəlinlər bahar xalçası toxuyardılar. Toy günü gəlinin üzünü “düqürlə”, yəni qırmızı duvaqla örtərdilər.

Bayrama hazırlıqla bağlı buğda cücərdilərdi. Onun şirəsindən “tlaç”- vitaminli içki, əzilmişindən “selema”- səməni halvası hazırlanardı. Bəziləri arzuları həyata keçərsə, “селема” səməni halvası bişirəcəyini niyyət edər, qohum-qonşuya pay paylayardılar. Qoz-fındıq təmizlənər, şirniyyatlar bişirilərdi.

*Bahar bayramı gəlib,*
*Dərdi, qüssəni unut.*
*Süfrəmizi bəzəsin,*
*Səməni ilə qovut.*

*Səməninin şirəsi,*
*Qovurğa-hər cürəsi,*
*Nutufası, kambarı,*
*Yaxın gəl, yeyək barı.*
*Yanar şamın sayı yox,*
*Tanrım versin payı çox...*
*Bayramımız gur olsun.*
*Həm kuzan, bakluk, piçek,*
*Mexkut, tsavur olsun.*

*Halva, qoğal yan-yana,*
*Doyunca ye, nuş olsun.*
*Tsiklen, qutab da gətir,*
*Bolluq olsun, xoş olsun.*

-deyərək insanlar öz arzularını bildirər, baharın gözəlliyini vəsf edər, hamını şənlənməyə çağırardılar.” Bayram günü bişirilən xörəklər, süfrəyə qoyulan ərzaqlar təkcə ailə üçün nəzərdə tutulmurdu. Bayram qazanları asılanda, süfrəyə düzüləndə, yeyiləndə öncə ağsaqqal və ağbirçəklər tərəfindən bu ocaqda dünyasını dəyişən ruhlar yad olunardı. Birinci onların ruhuna payı ayrılar, qəbir üstündə paylanardı. Eyni zamanda bu niyyətlə ləzgilərə məxsus “kuzan” (şirinçörək) bişirilərdi.

Bahar bayramı kəndlərdə daha şən keçirilərdi. Bütün kənd əhli ev-ev gəzərək bayramlaşardı, kiçiklər böyüklərin ayağına gedərdilər. Birinci xəstələrə, ağsaqqallara baş çəkər, onlara bayram payı verərdilər. Bayramlaşmağa gedən uşaqlara, cavanlara noğul, qoz, fındıq və quru çərəzlərdən başqa yumurta da verərdilər. Hansına yumurta payı çox düşmüş olsa, öz aralarında ona hamı tərəfindən sevilən, nüfuzlu adam kimi baxar, və ona həsəd apardılar.

Qırmızı rəng ləzgilərin məişətində, geyimlərində ən üstün yer tutur. Qədim ənənələrə görə Yer qırmızı öküzün buynuzları üzərində yerləşir. Onlar qırmızı öküzə ibadət etmiş, onu Yaran Suvarda (Bahar bayramında) qurban kəsmişlər. Qurbanlıq seçilmiş öküzə yaxşı qulluq edir, təmizliyinə baxır, boynuna qırmızı saplar bağlayırdılar. Kəsməzdən əvvəl həmin öküzlə gecə kəndin ətrafında üç dəfə dövrə vururdular.Kəsilmiş qurbanlıq əti kənd camaatı arasında bərabər şəkildə paylayırdılar. Bayrama iki-üç həftə qalmış və bayramdan sonra bir ay (aprelin 4-dək) gənclər biləklərinə qırmızı sap bağlayarlar.

Bayramdan öncə bitkilərin quru budaqlarını tonqal üçün toplayır və onları konus şəklində xüsusi ayrılmış yerlərə yığırdılar. Əvvəllər tonqalları evlərin yastı damlarında da qalayırdılar. Martın 21-dən 22-nə keçən gecə evlərin damlarında, kənd meydançalarında, məhəllələrdə tonqal qalayırdılar. Tonqalların sayı hökmən yeddi olmalı idi. "Köhnə yan! Yeni doğul!" - deyərək köhnə əşyaları alovun içinə tullayırdılar. Yağlı əsgilərdən, samandan, odlu kürəciklərdən məşəl hazırlayırdılar. İnsanlar səhərə qədər rəqs edir , nəğmələr oxuyur , şənlənirdilər.

*Bahar gəlsin bayramlı,*
*Qovud, çovdar təamlı.*
*İməcliklər, toy-busat,*
*Verir bizə xoş ovqat.*

Bahar bayramında yetkin qızların hər işinə göz qoyular, gəlin bəyənərdilər. Gənc oğlanlar keçini bəzəyib musiqiçilərin müşaiyəti ilə evləri gəzir və "yar" üçün bayram payı yığardılar. Musiqi - zurna, tütək və yaxud fleyta ilə ifa olunurdu . Onlar həyətlərə daxil olur, ev sahibəsinin səliqə-səhmanını tərifləyir, tənbəlliklərinə görə isə təmbeh edirdilər. Əlbəttə, bunlar məzəli şəkildə olurdu, heç kim incimir, hamı sevinir, şənlənirdi. Qadınlar, qızlar onların çantalarını meyvə, boyadılmış yumurta, fətir, halva, qovrulmuş buğda (qovurğa ) və qoz-fındıqla doldururdular.

Ləzgilər Bahar bayramında yeddi cür xörək bişirirlər. Hətta ailənin maddi cəhəddən xörək hazırlamaq imkanı olmasa belə, onun köməyinə yeddi məhsuldan ibarət şilə çatır. Şilə qurudulmuş ətdən, qarğıdalı, arpa, lobya, noxud, kartof və digər tərəvəzlərdən hazırlanır. Hətta duzu da həmin yeddi məhsuldan biri hesab edirlər. Qohumlar, qonşular, dostlar bir-birinə qonaq gedir, " Yaran Suvarkay!"-deyə bayramlaşırlar. Bahar bayramı ərəfəsində küsülülər barışır, insanlar yaxşılıq etməyə çalışır, günahlarının bağışlanması üçün Allaha yalvarırlar.

Bahar bayramında tez-tez keçirilən kəndirbazların oyununda keçi maskalı oyunbazın iştirakı da heç də təsadüfi deyil. Döyüş tanrısı Keçi daim el qəhrəmanlarını, pəhləvanları müşayiət edir, onları şər qüvvələrdən qoruyur:

*Döyüş tanrımsan,*
*Keçi, canımsan.*
*Elə bizi mərd,*
*Düşmənə çox sərt.*

*Başımız üstdən,*
*Qarğanı qov sən.*
*Ağrımızı al,*
*Qıy vursun qartal.*
*Ondan güc alaq,*
*Biz zəfər çalaq.*

"Bütün varlığı ilə təbiətə bağlı olan insanlar öz əməklərinin, zəhmətlərinin hədər getməməsinə nail olmaq, təbii fəlakətlərdən yaxa qurtarmaq üçün həmişə sözün gücündən, ovsun və sehrdən istifadə edərdilər.

*A Guni, gün olsun görək,*
*Guniyə gəl gün verək.*
*Gün sevməz qara qarğa,*
*Günəşdə yansın gərək.*

*A Peşepay, peşepay,*
*Peşepay yağış istər.*
*Oyma, oyma, oyma yağış,*
*Bir quru yer qoyma yağış.*

*Yağış taxıla,*
*Taxıl daxıla.*
*Hamı amin desin,*
*Tanrı qəbul eləsin."*

Ləzgilər ya sentyabrın 22-də, ya da martın 22-də yeddi erkək keçi kəsərlər. Məhz bu ay və günlərin seçilməsinin özəlliyi var. 22 mart yeni ilin gəlişi, 22 sentyabr isə ilin yarı olması və məhsul yığımının başa çatması ilə əlaqələndirilirdi. İnsanlar həmin il ailəsinin ac qalmayacağına görə şükür edər və il məhsulu olan keçilərdən yeddisini şükranlıq rəmzi olaraq kəsərlər. Həmin keçilərdən birinin buynuzunu evlərin divarından asardılar. Buynuzlar hər il yenisi ilə əvəzlənərdi. Evlərdən keçi buynuzu asmaq adəti indi də qalmaqdadır. Keçinin seçilməsinin səbəbi onun müdriklik əlaməti olan saqqalının olmasıdır. Bundan başqa, keçinin südü ən təmiz süd sayılır, tükündən yasdıq düzəldirlər, yağı isə masaj üçün əvəzsiz vasitədir.

Onlar toyları adətən martın 21-dən mayın 21-dək edirlər. Bu da səbəbsiz deyil. İlkin məna bu ayların müqəddəs ay hesab edilməsidir. Ləzgilərdə belə bir deyim var ki, bu aylarda doğulan oğlan uşaqları güclü olar. Çünki bu ay canavar doğan ay sayılır.

Bahar bayramında hər kəs ürəyində niyyət tutar, il ərzində arzularının necə həyata keçəcəyini bilmək istəyərdilər. Torpaqda yuvalar qazır, yuvaların içinə mismar, yumurta, kömür qoyurdular. Hesab edirdilər ki, yuvaların içindən sürünərək keçmək onları gözdən və cadudan qoruyacaqdır. İnanca görə subaylar istəklisinin adını üç dəfə təkrar edərək aya baxdıqda, baş yastığının altına ona aid olan hər hansı bir əşyanı qoyduqda, yuxuda gələcəkdə onunla ailə quracaq adamı görməsi mümkündür.

Bahar bayramı – "Yaran Suvar" ləzgilərdə milli birlik bayramı hesab olunur. Və bu bayram il ərzində insanları birliyə, dostluğa, barışa və sevgiyə çağırırdı. Ailələrdə, eldə-obada bolluq və bərəkətin əsası bu bayramda qoyulurdu. Ləzgilər Bahar bayramını sevinclə qarşılayır və bu bayramın uğurlar gətirəcəyinə inanırlar.

Tədqiqatçı Əfruz Rəhimovanın ləzgilər tərəfindən qeyd olunan minillik tarixi olan "Yaran suvar" Bahar bayramı haqqında əldə etdiyi məlumatları əvəzsiz xəzinə hesab etmək olar. Bahar bayramı -Yaran Suvar Azərbaycan xalqı və ləzgilər arasında mənəvi bir körpü, qarşılıqlı hörmət, məhəbbət və dostluqdan hörülən qırılmaz bir bağdır.

**Xülasə**

Ləzgi xalqı təbiətdə baş verən dəyişikliyi müxtəlif mərasimlərlə qeyd edirdilər ki, bunlardan biri də "Yaran Suvar" bayramıdır. Yaran suvar - Bahar bayramı qədim adətləri, xalq oyunları, folklor nümunələri, bir-birindən maraqlı şənlikləri ilə seçilir. Ləzgilər Bahar bayramını ən əziz bayram kimi sidq-ürəkdən qeyd edir və bu bayramla birgə öz adət-ənənələrini, folklorunu qoruyub saxlayırlar.

**Резюме**

У лезгин имеется множество разных праздников. Но самым замечательным из всех праздников является Яран Сувар, что означает "Праздник Весны". Отмечают его в день весеннего равноденствия, в основном 21 марта. Он представлял собою своеобразный триумф жизни, тепла, света над зимней стужей, злыми силами, которые воплощала в себе зима. Яр по-лезгински означает «красный», «солнце». Праздник «Яран Сувар» из народов Кавказа в описанном виде проводят только лезгины.

**Summary**

The Lezghins have various holidays. The most remarkable of them is "Yaran suvar", which means "Spring Holiday". This holiday, expressing the light and heating over the bad forces, triumph of life, is celebrated on the 21$^{st}$ of March. "Yar" means red, "the Sun" in the Lezghin language. The Lezghins are the only people among the Caucasus people who celebrate it in this fom.

**Ədəbiyyat:**

1. Əfruz Rəhimovanın Qusar bölgəsindən topladığı folklor örnəkləri /Tərtib ed. Sahibə Sədnikqızı // Azərbaycan-Elmi iş.-2015.-№1.- 122 s.
2. Kərimova S., Məlikməmmədov M. Ləzgilər //Samur.-203.-30 sentyabr.-S.6.
3. Xəlil A. Türk xalqlarının yaz bayramları və Novruz. Bakı - Elm və təhsil, 2013,150 s.
4. Rəhimova S. Yaran suvar (Bahar bayramı). Bakı: Adiloglu,2006,140s.
5. Rəhimova Ə. Yaran Suvar-Bahar bayramı //Samur.-2015.-18 mart.-s.6.
6. Seyidov M. Yaz bayramı. Bakı: Gənclik, 1990, 96s.
7. Albalıyev Ş. Folklordan gəlmişdi. Kredo 2015, 31 iyul, s. 15.

**Mürşüdova Ulduz Bəşir, filologiya üzrə fəlsəfə doktoru, dosent**
**AMEA ŞREM, aparıcı elmi işçi,**
**Azərbaycan, Şəki**

# AZƏRBAYCANIN BALAKƏN-ŞƏKİ REGİONU FOLKLORUNDA ETNİK KOLORİT

***Açar sözlər:*** *etnik qruplar, fərqlilik, vahid mədəniyyət, multikulturalizm, harmoniya, inteqrasiya, unikal və rəngarəng irs*

***Ключевые слова:*** *этнические группы, разнообразие, единая культура, мультикультурализм, гармония, интеграция, уникальный и красочное наследие*

***Key words:*** *ethnic groups, diversity, unique culture, multiculturalism, harmony, integration, unique and colorful heritage*

2016-cı ildə Azərbaycanda ilk dəfə ölkənin rəsmi siyasəti kimi multikulturalizm ili elan edildi. Bununla da prezidentimiz irqi və etnik mənşəyindən asılı olmayaraq, onların dili və dini mənsubiyyətini bütün Azərbaycan vətəndaşlarının dəyəri və ləyaqəti kimi tanındığını təsdiq etdi.

Azərbaycanda multikulturalizm bütün vətəndaşların hüquq bərabərliyini göstərən əsas amillərdən biridir. Bütün etnik qruplar öz mənəvi irsi ilə fəxr edir, müxtəlif mədəniyyətlərə daha açıqdır, onları qəbul edir, yaşadığı ərazidə təhlükəsizlik və özünə inam hissi güclüdür. Multikulturalist cəmiyyətdə irqi və etnik harmoniya və çarpaz-mədəni anlaşma əsas götürülür. Bu xüsusiyyət müxtəlif etnik qruplarda qarşılıqlı hörməti, ümumi münasibətləri inkişaf etdirir, onların cəmiyyətə inteqrasiya etməsinə və sosial, mədəni, iqtisadi, siyasi işlərdə fəal iştirakına təşviq edir. Bütün Azərbaycanlıların, milli və dini mənşəyindən asılı olmayaraq qanun qarşısında bərabər hüquqları təmin edilir. Qanun və daxili siyasət bütün kişilərə, qadınlara tam vicdan azadlığı, müstəqil fikir ifadəetmə, mədəni irsini qoruma, etnik, dini, mənşəyinin müxtəlifliyini tanıma imkanı verir.

Bizim etnik müxtəlifliyimiz milli sərvətimizdir, çox mədəniyyətlər, çox dildə danışmaq və başa düşmək, təhsil, ticarət və diplomatiya sahələrində qlobal iştirak etmək imkanını gücləndirir.

Azərbaycan vətəndaşlığı bizə bərabər hüquq verməklə yanaşı, bərabər məsuliyyət və vəzifələr də verir. Vətəndaş kimi cəmiyyətin işlərində fəal iştirak edərək, biz, çoxmədəniyyətli ölkəmizdə daxili inteqrasiyanı miras qoyacağıq ki, bu da demokratiyanı gücləndirəcək.

Azərbaycan mədəniyyətinin regional qoluna şimal-qərb ərazisində yaşayan türk və digər azsaylı etnik qrupların - udi, avar, zaxor, ingiloy, ləzgi, rus, tat, çərkəz, yunan, talış və s. mədəniyyətləri daxildir.

Azərbaycan şifahi xalq ədəbiyyatı da müxtəlif mədəniyyətlərin inteqrasiyasının nəticəsi kimi inkişaf etmişdir və kainat haqqındakı bilik və tövsiyələri ilə dünya, mədəni irsi hesab edilir. Bu folklorda dağlıq ərazidə yaşayan əhalinin mədəniyyəti, düzənlikdə yaşanların mədəniyyətindən, adət-ənənələrindən müəyyən səviyyədə fərqlənir. Dənizkənarı xalq mədəniyyəti, çayqırağı ərazilərdəki mədəniyyətdən seçilir, şəhər və kənd mədəniyyətləri, adət-ənənələri arasında nisbi fərqlər mövcuddur. İndi şəhər və kənd mədəniyyətləri hiss ediləcək səviyyədə fərqli inkişaf edir.

Fərqli mədəniyyətlərin mövcud olduğu Şəki, Zaqatala, Qax və Balakən ərazilərində müxtəlif mədəniyyətlərin insanlar arasında əlaqəsi tolerantlıq və qarşılıqlı hörmət münasibəti şəklində xarakterizə olunub, etnik münaqişənin mövcud olmadığı üçün multikulturalizm müəyyən səviyyədə inkişaf etmişdir. Azərbaycana gələn müxtəlif miqrant icmaları ölkənin ümumi mədəniyyətinə daxil edilmiş, həyat tərzləri və mədəni təcrübələri bir mədəniyyət şəklini almış və müxtəlif xarakterik xüsusiyyətlər sanki yeganə mədəniyyətə çevrilmişdir. İmmiqrantlar ölkəyə öz dilini, dinini, adət-ənənələrini, mətbəxini, məişətini gətirmişdir ki, yerli mədəniyyətə uyğunlaşaraq zaman keçdikcə də bu müxtəliflikdə bir vahidlik yaranmışdır.

Fərqlilik insanlığın mahiyyətidir. Fərq doğum hadisəsi olduğundan nifrət və münaqişənin mənbəyi olmamalıdır. Müxtəlifliyə hörmət etmək sülhün fundamental prinsipidir. İnsaf olmadan vicdan, vicdan olmadan ədalət, ədalət olmadan sülh, demokratiya olmadan inkişaf, hörmət olmadan demokratiya yaşaya bilməz.

Mədəniyyət fərqləri bizi bir-birimizdən ayırmamalıdır. Mədəni müxtəliflik vahid birlik şəklində mövcud olarsa, güclü olar və bu gücdən bütün bəşəriyyət faydalanar. Mədəniyyətlərarası dialoq ədalətli və sülhədavamlı dünya yaratmağın təminatıdır.

Azərbaycan nağılları insanların eyni torpaqları bölüşmək və bir-biri ilə bağlı davranışlarının müasir mövcud mədəniyyətlərini göstərir. Bu folklor insanların gündəlik məişətindən və həyat fəaliyyətindən yaranır. Mədəniyyətlərin tədqiqi insanların həyat fəlsəfəsini anlamaq imkanı verir. Oxunan miflər qəribə suallara cavab axtarır. Bu qanunları kim yaradıb? Təsvir edilən əhvalatlar həqiqəti ifadə edirmi? Biz həyat sirlərini necə izah edə bilərik? İnsanlar həyat və ölüm haqqındakı fikirləri necə öyrəniblər, bu hikmətləri hansı yolla kəşf ediblər?

Azərbaycan folklorunun öyrənilməsi, ərazidə yaşayan xalqların unikal və rəngarəng irsi mədəniyyətinin, mif və əfsanələrin öyrənilməsi, insanların təbiət elementləri ilə yaxın təması və sərvətlərin bölüşmə qaydaları, ərazinin sakinləri olan heyvanların həyat tərzi, bitki örtüyü və bolluğu araşdırılır. Təbiət elementləri: kənd, şəhər və icmaların qurulması, fərdlərin ərzaq və su ilə təminatı yolları, heyvanlardan nəqliyyat, işçi və qida vasitəsi kimi istifadəsi, təbii vasitələrə yüksək dəyər verilməsi, əldə etdikləri nemət üçün təbiətə minnətdarlıq hissi, mif və əfsanələrində təbiətin canlı və əbədi olması, hər mifin bir tarixi dərs və mənəvi təlimatla zəngin olması bu tədqiqatda diqqət mərkəzində saxlanmışdır.

Azərbaycan etnik qruplarının hər birinin özəl dünyagörüşü və dilləri mövcuddur. Ölməz enerji hər an dəyişilir və danışılan sözlərin müxtəlif formaları bu prosesə daxil olur. Buna görə də, Azərbaycan sivilizasiyasında şifahi xalq mədəniyyəti yalnız danışıb- dinləmə prosesində deyil, tarix, mədəniyyət, dil, dəyərlər şəkilində saxlanılır, əbədiləşir, yaşadılır.

Azərbaycan mədəniyyəti sözlərin funksional işlənmə arealında və mövcudluğunda yenidən təsdiq edilmiş və danışılan səslərin titrəyişləri sözlərlə ifadə edilən hadisə və reaksiyaların yaranmasına səbəb olmuşdur. Mahiyyət etibarilə söz dünyanın yaradılması yollarından biri kimi görünür. Azərbaycan folkloru bütün etnik mədəniyyətlər kimi cəmiyyət dəyərlərinin ifadəsidir.

Azərbaycan folkor örnəkləri mədəni müxtəlifliyin təsiri ilə daha da inkişaf etmiş və rəngarəng bir mədəniyyət yaranmışdır. Azərbaycan xalqı cüzi tələffüs fərqləri ilə türk dilinin Azərbaycan ləhcəsində danışır. Bu dildə yaranan folklor janrları o qədər bir-birinə qaynayıb-qarışmışdır ki, onların hansı millətə aid olduğunu ayırd etmək heç də asan deyil. Ayrı-ayrı janrlarda canlı xalq dili, frazeoloji birləşmələr, xalq ifadələri, idiomların işlədilməsi insanların leksikonuna daxil olmuşdur. Etnik azlıqların lüğətində türk dilinin Azərbaycan dialektinə aid çoxlu ifadələr işlədilir. Ölkə ərazisinin bölünməzliyi, son zamanlarda erməni işğalçılarının qərb və Rusiya ilə birlikdə Azərbaycan haqqındakı xaincəsinə gizli planları bütün etnik qrupların ağız ədəbiyyatında öz əksini tapmışdır.

*Zaxur bayatısında:*
*Əzizim bular imiş,*
*Erməni bular imiş,*
*Əzrail, adın çıxıb*
*Can alan bular imiş.* ***(1, s.148)***

**Yaxud:**

*Hündür dağdan yel əsir,*
*Qar yağır, soyuq kəsir,*
*Qarabağı görməyə*
*Çox ürəklər tələsir.* ***(1, s.148)***

**Avar folklorunda:**

*Əzizinəm Bakıya,*
*De, nə oldu Bakıya?*
*Ruslar virana qoydu*
*Gəl sən ağla Bakıya.* ***(1, s.46)***

**Yaxud:**

*Gedirdim İrəvana,*
*Rast gəldim bir cavana,*
*Dedi yaman bürküdü*
*Ermənilər tülküdü **(1, s.47)**.*

**Atalar sözü** ilə bağlı nümunələrdə dil fərqi ilə eyni atalar sözlərindən istifadə edilir, etnik dilə tərcümə edilməklə işlədilir, zaman-keçdikcə dillərdə möhkəmlənərək sanki milli xalq yaradıcılığı kimi təqdim edilir. Məs, "Tısbağa çanağından çıxdı, çanağını bəyənmir" (**168**), "Canavardan (Qurddan) qorxan qoyun saxlamaz" (**169**), "Öz gözündə odun (tiri) görmür, özgənin gözündən qıl axtarır" (**169**), Sicim (örkən) nə qədər uzun da olsa, doğanaqdan keçər", "Üz- üzdən, göz- gözdən utanar" (**168**), "Özünə umac ova bilmir, başasına halva çalır(əriştə kəsir)" (**169**) və s. Belə atalar sözləri həm zaxur, həm ingiloy, həm də avarların xalq ədəbiyyatında həddindən artıqdır və Azərbaycan xalq yaradıcılığının məhsuludur. Ərazidə yaşayan millətlərin "şənlik və mərasimlərində türk dilinin Azərbaycan ləhcəsində mahnılar oxumuşdur" (**3, s.28**) ki, bu mahnıların əksəriyyəti gənclik və gözəllik, sevgi və ayrılıq duyğularını tərənnüm edir. Bu ərazidən toplanan tapmacaların hamısı türklərə məxsusdur, inanclar, yazın gəlişi ilə bağlı mərasim, toy və yas mərasimləri, atalar sözləri və məsəllər, andlar, alqış və qarğışlar isə bölgədə yaşayan bütün etnik qrupların arasında demək olar ki, eyni işlənir. Bu örnəklər həm etnik qrupun öz dilində, həm də Türk dilinin Azərbaycan ləhcəsində işlədilir.

Məsələn:

*Cavanlıqda qocalığa can saxla,*
*Döyüşəndə (boğuşanda, dalaşanda) barışığa üz saxla,*
*Yaman günə bir balaca cib saxla. **(1, s.84)***

Azərbaycan ərazisindən qələmə alınan mənalı miflər həyat və kainat haqqında, tarixi, astronomik, coğrafi və etimoloji problemlərlə ilə bağlı çox şey öyrədə bilir ki, biz onlardan dəyərli fakt və məlumatlar əldə edə bilirik. Xüsusilə də, bəşəriyyətin (hətta müasir dövrümüzdə belə üzləşdiyi) məhəbbəti, sevgisi, ehtirası, həvəsi, şövqü, qəzəbi, hiddəti və zəifliyinin xarakterik xüsusiyyətlərini öyrənmək olur. Biz qədim sivilizasiya ilə sıx bağlı olan bir cəmiyyətdə yaşayırıq ki, bu cəmiyyətin xarakterik xüsusiyyətləri və dil çalarlıqları xalq nağıllarında təsvir edilir.

İnsan qədim əcdadları kimi həyat uğrunda, yaxşı yaşamaq naminə, öz həyatını arzu və istəklərinə uyğun idarə edə bilmək uğrunda mübariəzə aparır və sağ qalmaq üçün planlar qurur. Bu zaman insan həyatını düzənə salan, ona kömək edən, yaxud məhv etməyə çalışan qüvvələr dövriyyəyə girir və bu qüvvələr miflər vasitəsilə təqdim edilir.

Böyük mif yalnız yeni mental məlumatlar əldə etməyimiz üçün dəyərli deyil, eyni zamanda yeni informasıyaların toplanması və anlamaq üçün imkan yaradır. Azərbaycan miflərinin əsrlər boyu yaşamasının səbəbi odur ki, insanlar öz həyatlarında baş verən bir çox hadisələrdən dərs və ilham almışlar.Bu nağıllarda əhəmiyyətli nüanslar vardır ki, araşdırıcılar müxtəlif yeni mədəniyyətlər aşkar edə bilirlər. Bu miflər tədqiqatçılara planetdə olan fərqli mədəniyyətlərin təmsilçisi olan xalqları təqdir etməyə imkan verir.

Bu araşdırmada Azərbaycan ərazisində yaşayan müxtəlif etnik qrupların mif və əfsanələr vasitəsi ilə mədəniyyətlərinin müəyyən sahəsi öyrənilmişdir.Udin, avar, zaxor, ingiloy, ləzgi millətləri Azərbaycan- türk ənənələrini irsən alıb, yenidən yaradıb yaşadan Azərbaycan vətəndaşlarıdır. Türklər Azərbaycan mədəniyyətinin əsas daşıyıcılarıdır. Lakin ərazidə yaşayan bütün etnik qrupların allahları və mifləri, ilahi təcrübələri, astronomik maraqları demək olar ki, eynidir..

Azərbaycan folklorunda bütün etnik qruplar təbiət güclərinə böyük hörmətlə yanaşır və onlara tanrı kimi münasibət göstərir. Onların Günəş baba, Yağış baba, Yel baba, və Yeraltı dünya tanrıları vardır. Quraqlıq kimi təbii hadisələr baş verərsə, onu tanrı qəzəbi kimi qəbul edir və bu qəzəbdən bərk qorxurdular. Bütün tanrılar təbiətlə sıx bağlı idi. Onlar bütün elementlərə nəzarət edir: Günəşin

doğması, Günəşin batması, yağış və külək bütün xalqların yaşaması üçün vacib olduğuna görə nizamlanır və onları qəzəbləndirməmək üçün müxtəlif rituallar keçirilir, qansız qurbanlar verilirdi.

Azərbaycanın tarixi inanclarında fiziki və ruhani dunya arasında qırılmaz əldaqələr vardır, bütün bizi əhatə edən canlı və cansız şeylər özlərinəməxsus vahid ruha malikdir.

Azərbaycan türk panteonuna (çoxallahlı dinin bütün allahları) Günəş, Ay, Yağış, Taxıl, və Külək tanrıları daxildir. Bu fiqurlar sonrakı zamanlarda yaranan nağıllarda da yenidən peyda olublar. Azərbaycan incəsənətinə yarışir, yarıinsan olan məxluqların təsvirləri aiddir. Bu ərazidə yaşayan insanlar inanırdılar ki, sehirbazlar özlərini şirə çevirə bilirlər.

Tədqiqat xalq nağılları və miflərin elementlərini və xüsusiyyətlərini anlamaq imkanı verir. Onların fərqli və paralel tərəflərini müəyyən etmək mümkündür. Araşdırma zamanı Azərbaycan mədəni fonu və irsinin ən mənalı tərəfləri, bu xalqların nağıl, əfsanə, rəvayəti, mif mədəniyyəti, cəmiyyət qanunları və dini prosesləri öyrənilir. Etnik qrupların mifik üslub və çalarlıqları müəyyən olunur.

Xalqların qədim mədəni irsi miflər vasitəsilə yaradılmışdır. Bu bütün mədəniyyətlərdə belədir. Araşdırmanın ən əhəmiyyətli tərəfi isə Balakən-Şəki regionunda məskunlaşmış xalqların nağıl və ya miflərinin mənasının anlamı və əhvalatların simvollar vasitəsilə şərhi təqdim edilir.

Azərbaycan şifahi xalq ədəbiyyatında həyat təcrübəsi universaldır, xalq nağıl və miflərində əyləncə xüsusiyyəti güclüdür. Mifoloji qəhrəmanın gücü, səlahiyyətləri xalqın sevgi və rəğbətini qazanır, onların müxtəlif istedad və bacarıqları dərindən tədqiq edilməsi nəzərdə tutumuşdur. Tanrıların səlahiyyətləri və niyyətləri diqqət mərkəzində saxlanılıb.

Bəzi mif və nağıllarda yumor elementləri də diqqəti cəlb edir.Bu yumorda dərin müdriklik və öyüd götürməli olan elementlər vardır. Heyvan və bəşəriyyətin təbiəti haqqında həqiqətlər çox unikal və tipikdir, çünki vərdişlərin və yaradılmanın təbii reallığa xas olan yolları var. Bu araşdırmalar dünya xalqlarının fərqli olmasına baxmayaraq, əslində eyni hiss və duyğu ilə yaşamasını önə çəkir və digər xalqların mədəni müxtəlifliyinə hörmətin inkişaf etdirilməsi duyğuları yaradır.

Din və qanunlar mif və şifahi ənənə vasitəsi ilə öyrənilir. İnsanlar Torpaq, Günəş və Ay tanrılarını ən vacib qəbul etmişdirlər. Günəş həm ən yaxşı tanrıdır: həyatın əsasını təşkil edir, onsuz canlı varlıqlar məhv olar, həm də pislik edən tanrıdır: quraqlıq yaradır, ölümə səbəb olur. Yer həmişə ona ibadət edənlərə üstünlük verir, itaətsiz və unutqanlar üçün isə amansız cəza təşkil edir. Meşə sərt, şıltaq və sirlidir, ərzaq ehtiyatı ilə zəngindir, canlıların ehtiyaclarını ödəmə gücündədir. Ağac və bitkilərin kökləri insan üçün yanacaq, mebel, dərman, içki və paltar üçün vasitədir.

Azərbaycan miflərinin öyrənilməsi bir çox heyvanların sehirli gücə malik olmasını dərk etməyimizin açarı olur. Hər bir xalqın nümayəndələri heyvanların mənşəyi ilə maraqlanmış, onların müxtəlif xüsusiyyətlərini izah edən çoxlu əhvalatlar yaratmışlar.

Meşələr heyvanlar aləmi ilə zəngin sahələrdir. Azərbaycan ərazisində yaşayan etnik qruplar təbiətdə olan hər şeyin bir ruhu olduğuna inanırdılar. Bəzi ruhlar təsirli səviyyədə güclü, bəziləri isə zəifdir. Əsas ideya bu güclərin arxasında gizlənir. Bəzi ağacların ruhu daha yayğın və zəifdir. Güclü hesab edilən mifoloji heyvan və ya ağac ruhlarını müqayisəli öyrənmək vacibdir.

Hekayələri tədqiq edərkən mənəvi dərsləri öyrənmək iki səbəbə görə vacibdir: ilk növbədə təbiət əfsanələri vasitəsilə təsvir edilən təbiətə xas xüsusiyyətlər özünü doğruldur və mübahisə edilə bilməz. İkincisi isə əhvalatlar vasitəsilə məsləhət verilməsi hər zaman inandırıcı və güclü formadır. Əfsanələrin sonunda mənəvi dərs diqqəti cəlb edir. Bu da problemlərin birbaşa deyil, əyləncəli və yaddaqalan şəkildə təqdimatı və onların həlli üçün məsləhət verilməsi ilə izah edilir, bu da bir tərbiyə üsuludurdur. Bu gün belə funksiyanı daşıyan əfsanələr vardır.

Azərbaycanın sirli sivilizasiyalarda olduğu kimi xanlıqları, döyüşçüləri var idi; etnik qrupların liderləri, onların xanımları və övladları bu ərazinin qəhrəmanları idi. Əkinçilər, ovçular, daxmaları tikən ustalar hörmətli və müdrik insanlar hesab edilirdi.

Xüsusi mədəniyyət yaşamış insanların danışdıqları əhvalat və hekayələr vasitəsilə dolayı yolla tarix də öyrənilir. Ölkə ərazisində yaşanan tarixi reallıqlar mif və nağıllarda öz əksini tapır. Ərazidə baş verən hadisələr haqqında bir sıra anlayışlar əldə edilir. Bayatıların əksəriyyəti Azərbaycan türk dilində yaradılmışdır.

Xüsusi bir mədəniyyətin tarixi həmin etnik qrupun nağıl, əfsanə və rəvayətləri əsasında öyrənilir. Bu mədəniyyət digər mədəniyyətlərə qarışır, bir sıra məsələlər bütün etniklər tərəfindən icra edilməyə başlayır və Azərbaycanın vahid mədəniyyəti şəklində təzahür edir.


**Xülasə**

Multikulturalizm Azərbaycanda bütün vətəndaşların bərabər hüquqlarının mövcud olması sahəsindəki əsas faktorlarından biridir. Bütün etnik qruplar öz mədəni irsi ilə fəxr edir, müxtəlif mədəniyyətləri qəbul etməyə hazırdır və bu sahədə təhlükəsizlik, özünə inam güclüdür. İrqi və etnik harmoniya, çoxmədəniyyətli və çarpaz mədəniyyətli cəmiyyətlərdə qarşılıqlı anlaşma çox mühümdür. Bu xüsusiyyət müxtəlif etnik qruplar arasında qarşılıqlı hörmət və əlaqələri inkişaf etdirir, cəmiyyətə inteqrasiyanı asanlaşdırır və sosial, mədəni, iqtisadi, siyasi həyatında fəal iştiraka təşviq edir. Etnik və dini mənşəyindən asılı olmayaraq qanun qarşısında bütün insanların bərabər hüquqlarını təmin edir. Hüquq və daxili siyasət, bütün kişi və qadınlara mənşə müxtəlifliyini tanımaq, vicdan azadlığı, müstəqil fikir, dini, etnik, mədəni irsin qorunması imkan verir.

**Резюме**

Мультикультурализм является одним из основных факторов равенства всех граждан в Азербайджане. Все этнические группы гордятся своим культурным наследием, и они более открыты, чтобы принять различные культуры. Безопасность и уверенность в себе сильна в этой области. В мультикультурном обществе расовая и этническая гармония и межкультурное понимание занимает значительное место. Эта особенность развивает взаимное уважение и отношения между различными этническими группами, интегрирование в общество и поощрение активного участия в социальной, культурной, экономической, политической жизни. Это гарантирует равные права перед законом независимо от их этнического и религиозного происхождения. Закон и внутренняя политика дает возможность людям признать разнообразие происхождения, свободы совести всем мужчинам и женщинам, выражать независимую мысль, охраны этнического, религиозного и культурного наследия.

**Summary**

Multiculturalism is one of the main factors of the equality of all citizens in Azerbaijan. All ethnic groups are proud of their cultural heritage and they are more open to accept different cultures, security and self-confidence is strong in this area. It is important racial and ethnic harmony and cross-cultural understanding in multicultural society. This feature develops the mutual respect and relationship among different ethnic groups, integrate into society and encourage active participation in the social, cultural, economic, political life. It is guaranteed equal rights before the law irrespective of their ethnic and religious origin. The law and the internal politics give opportunity to the people to recognize the diversity of origin, conscience, freedom to all the men and women,express independent thought, protection of cultural heritage, ethnic, religious.


**Ədəbiyyat:**


1. Azərbaycan folkloru antologiyası. I kitab, Azərb. SSR EA Nəşriyyatı, 1968, 289
2. Abdullayev B. Haqqın səsi. Bakı, Azərnəşr, 1989, -144 s.
3. Azərbaycan ədəbiyyatı tarixi. Altı cilddə. Bakı-Elm -2004. -760 s.
4. Atalar sözü. Tərtib edən: Cəlal Bəydili. Bakı: Öndər nəşriyyatı, 2004, 264 s.
5. Azərbaycan klassik ədəbiyyatı kitabxanası. Xalq ədəbiyyatı. I cild. 20 cilddə. Elm nəşriyyatı, 1982, 510 s.
6. Abbasov İsrafil. Azərbaycan folkloru XIX əsr erməni mənbələrində. Elm nəşriyyatı. S.156. Bakı 1977.
7. Süleymanov Əli. Babaların hikmət xəzinəsi. Milli azlıqların folkloru. (Şəki–Balakən bölgəsi üzrə) Bakı-Apostroff MMC 2011 s.148)
8. Əfəndiyev Paşa. Azərbaycan folklorşünaslığı. Bakı-1994, səh. 153
9. Vəliyev K. Elin yaddaşı dilin yaddaşı, Bakı: 1987
10. Seyidov M. Azərbaycan xalqının soykökünü düşünərkən. Bakı-“Yazıçı”, 1989,496 s.
11. Seyidov M. Azərbaycan mifik təfəkkürünün qaynaqları. Bakı-“Yazıçı”, 1983.

**Günay Hüseynova, magistr,**
**Azərbaycan Milli Konservatoriyası**
**Azərbaycan, Bakı**

# İNGİLOY FOLKLORUNUN ETNİK-LOKAL RƏNGARƏNGLİYİ

***Açar sözlər:*** *ingeloy, folklor, musiqi, aşıq*
***Ключевые слова:*** *ингелой, фольклор, музыка, ашиг*
***Key words:*** *yengeloy, folklore, music, ashug*

Azərbaycan etnik tərkibi baxımından dünyanın ən zəngin ölkələrindəndir. Ümummilli lider Heydər Əliyev də əbəs yerə demirdi ki, Azərbaycanın zənginliyi həm də burada yaşayan müxtəlif xalqların sayının çoxluğu ilə səciyyələnir. Ölkəmizdə əsrlərdir müxtəlif xalqların nümayəndələri ələ-ələ, çiyin-çiyinə, dostcasına, qardaşcasına yaşayırlar. Ölkənin bütün bölgələrinə səpələnərək yaşayan etnik qruplar, azsaylı xalqlar bəzi regionlarda xüsusilə üstünlük təşkil edirlər. Tarixi proseslərin nəticəsi kimi bir sıra xalqların məskunlaşmasında özünü göstərib. Buna müvafiq olaraq bəzi etnik qruplar, azsaylı xalqlar bəzi regionlarda pərakəndə, bəzilərində isə sıx halda məskunlaşıblar. Azərbaycan, ümumiyyətlə etnik cəhətdən zəngin ölkə olsada bu az saylı xalqların zəngin çaları özünü bəzi bölgələrdə, bəzi rayonlarda daha qabarıq şəkildə büruzə verir. Yəni bəzi ərazi vahidlərimizdə etnik rəng özünü daha tünd çalarda göstərir, bəzi xalqlar isə bir sıra rayonlarda daha kompakt şəkildə yaşayırlar.

Bu azsaylı xalqlar ayrı-ayrı xalq və millətləri təşkil edən etnik birlikdən qopmuş, bu proseslər zamanı xüsusi forma və məzmun kəsb etmiş ayrıca qurumlardan ibarət olur. Hər bir etnik azlığın öz dili, adət-ənənəsi və mənəvi birliyi mövcuddur. Adətən müəyyən bir ərazidə kompakt halda yaşayır. Azlıqlar üçün səciyyəvi olan bu xüsusiyyətlər onun başqa xalq və millətlərlə qaynayıb-qarışmasına heç də mane ola bilməz. Eyni zamanda etnik azlıqlar tarixən baş verən etnik proseslər nəticəsində öz keçmiş adət-anənələrini saxlamaqla bərabər qonşu xalqlardan, millətlərdən də müəyyən əlamətlər və xüsusiyyətlərini özlərində əxz edə bilərlər. Bu mənada respublikamızda yaşayan etnik azlıqlar da istisna təşkil etmirlər.

Azərbaycanda ruslar, ukraynalılar, beloruslar, gürcülər, avarlar, ləzgilər, başqırdlar, tatarlar, yəhudilər, kürdlər, osetinlər, laklar kimi milli azlıqlar; talışlar, udilər, dağ yəhudiləri, saxurlar kimi azsaylı xalqlar; Ahısqa türkləri, tatlar, lahıclar, buduqlar, qrızlar, haputlar, ceklər, xınalıqlar, ingiloylar, Krım tatarları, gürcü yəhudiləri, kazaklar, tabasaranlar kimi etnik azlıqlar yaşayırlar.

Azsaylı xalqların tarixinə qısa nəzər salsaq görərik ki, Azərbaycanın Zaqatala, Qax, Balakən rayonlarında azərbaycanlılar və digər azsaylı xalqlarla birgə yaşayan etnik qruplardan biri ingiloylardır. Bu qrupun nümayədələrindən əsasən müsəlmanlar və çox az hissəsi xristianlar gürcü dilinin cənub dialektində danışırlar. İngiloyların dili gürcü dilinə yaxın (gürcü dilinin cənub dialekti) olduğu üçün onları gürcüdən dönmə hesab edirlər. İngiloyların əcdadları olan geller orta əsrlərdə dilləri gürcüləşmiş Albaniya tayfaları olmuşlar. 19-cu əsrdən başlayaraq belə bir fikir irəli sürülmüşdür ki, guya ingiloylar etnik mənsubiyyətə görə 18-ci əsrdə İslam dinini qəbul edən gürcülər olmuşlar və hətta ingiloy sözü "yeni" və "yol" (özlərinə yeni yol seçənlər) sözlərinin birləşməsindən əmələ gəlmişdir. Ancaq "yeni yol" başqa heç bir şeylə əsaslandırılmamışdır. Tarixi məlumatlara görə azərbaycanlılar ingiloyları qellər adlandırırlar. Qax rayonunun İlisu kəndindəki ingiloylar gellər, avarlar tərəfindən qeloylar, saxurlar tərəfindən qelovlar adlandırılması ona əsas verir ki, ingiloy etnonimi azərbaycanca "yeni gellər" sözlərinin birləşməsindən yaranmışdır. Gellər komponenti qədim qel-gel etnonimi ilə əlaqələndirilir. Bu faktı Plutarx da (ikinci əsr) təsdiq etmişdir. Qədim gürcü mənbələrində Dağıstan xalqları leki adlanır. Onun əsl gürcü yazıçısıYefemiyev Sertoqoriya leklerini albanlar adlandırmışdır. Gellərin Qafqaz dağlarında və yaxud Şimali Qafqazda yaşadıqları söylənilmişdir. Bəzi tədqiqatçılar gellərin Dağıstanın cənubunda yaşadığını da iddia edir. Bəziləri isə Strabonun və Plutarxın amazonkalılar adlandırdığı xalq-alazanların Alazan çayı sahillərində yaşadıqlarını bildirir.

Hakim konsepsiyaya görə "ingiloy" (yengeloy) etnonimi türk mənşəli olub, "yenidən döndərilmişlər" və ya "yeni yol" deməkdir. "İngiloy" etnonimi ilk dəfə yazılı mənbələrdə XVIII əsrin sonlarında qeyd olunduğundan həmin etnonimin yaranma tarixi də bu yüzilliyə, yəni XVIII əsrə aid edilir.

Beləliklə, müasir ingiloylar (qədim gellər) iki min ildir ki, eyni bir yerdə Alazan çayı ərazisində yaşayırlar. İngiloylar əcdadları Albaniya vilayətinin ərazisi olan Eritedə yaşamışlar. Müxtəlif dövrlərdə Gürcüstanın tərkibinə daxil olan gellər gürcü-pravoslav dininin təsirindən gürcü dilini qəbul etmiş və gürcü dilinin ingiloy dialekti yaranmışdır.

İngiloyların yaşadıqları yer adları Azərbaycan dillidir. Məsələn: Qax rayonunda Qasımallı, Zəyəm, Korağan, Əlibəyli, Kötüklü, Zaqatala rayonunun Əliabad, Mosul, Balakənin İtitala kimi kəndləri buna misaldır.

Ümumi vəziyyətə və dövlətin ingiloylara münasibətinə nəzər yetirsək, Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev nəinki ingiloy, ümumiyyətlə milli azsaylı xalqların nümayəndələri ilə keçirdiyi görüşlərində deyirdi: "Biz Azərbaycan deyəndə onun sərvətini, onun gözəl təbiətini nəzərdə tuturuq. Lakin bütün bunlarla yanaşı, respublikanın ən başlıca sərvəti əsrlərdir bu torpaqda yaşayan, öz taleyini, öz həyatını bu torpağa bağlayan, müxtəlif millətlərdən olan, müxtəlif dinlərə etiqad edən adamlardır. Ölkəmizdə nə qədər çox xalqı birləşdirsək, biz bir o qədər də zəngin olarıq"

Azsaylı xalqların və etnik qrupların kompakt şəkildə yaşadıqları bölgələrimizdən biri də Qax rayonudur. Yaşayış məskəni kimi Qaxın adına ilk dəfə Moisey Kalankatlının "Albaniya tarixi" əsərində rast gəlinir. IV əsrə aid hadisələrdən bəhs edən tarixçi Haku (Qax) adlı yaşayış məskəninin adını qeyd edir. Rayonun ərazisi Böyük Qafqaz sıra dağlarının cənub ətəklərində yerləşir. Qaxda 59 yaşayış məntəqəsi var. Almalı, Fıstıqlı, Malax, Qaxmuğal, Süskən, Çüdüllü, Amanlı, Güllük, Marsan, Qaysarlı, Tanqıt, Üzümlü, Armudlu, Keşqutan, Meşəbaş, Qazmalar, Tasma, İbaxlı, Ağyazı, Kiçik Alatəmir, Onxallı, Qaşqaçay, Turaclı, İlisu, Ağçay, Kötüklü, Qapıçay, Qımır, Uzuntala, Şıxlar, Baydarlı , Ləkit kimi kəndlərdə azərbaycanlılar, ingiloylar, gürcülər, saxurlar, ləzgilər, avarlar və başqa xalqların nümayəndələri yaşayır. Məsələn, rayonun əsası 1897-ci ildə qoyulmuş Qaxingiloy kəndində etnik ingiloylar üstünlük təşkil edir. Yaxud da Şotavar kəndində ləzgilər, avarlar, müsəlman tatarlar yaşayır.

Azərbaycan Respublikasında yaşayan və bu xalqın formalaşma prosesində iştirak edən etnik qruplardan biri də ingiloylardır.

Qaxda bir çox xalqların nümayəndələri yaşayır, ancaq sayca ingiloylar üstünlük təşkil edir. İngiloy mənbələrdə əsasən Azərbaycanın Qax və Zaqatala rayonları ərazisində yaşayan gürcülərin subetnik qrupu kimi təqdim olunur. I Şah Abbasın dövründə müsəlmanlığı qəbul ediblər. Etnik, psixoloji, mədəniyyət və s. cəhətlərinə görə azərbaycanlılarla qohumluq əlaqələrinə malik olan ingiloylar yaşadıqları çəmiyyətə sıx inteqrasiya olunmaları ilə seçilirlər. İngiloylar 26 qədim alban tayfasından biri olan gellərdir, "gel" sözü də "ingiloy" sözünün ikinci hecasında "gil" kimi öz əksini tapıb.

Tarixi ardıcıllığın davamı olaraq gel (her) tayfalarının bir qisminin –Yenisel (İnisel) gellərinin XVI-XVII əsrlərdə İnisel-Yenisel tayfası, XVIII əsrin sonlarından etibarən isə ingiloy (yengeloy) adlandırdığını müəyyən edilmişdir. Bu baxımdan "ingiloy" etnonimiinin kökündə duran "gil" (gel) tərkibinin əvvəlinə coğrafi məkan göstəricisi (İnisel, Yenisel) kimi, "in" (yeni) sufiksinin əlavə olunduğu və nəticədə "ingiloy" (yengeloy) etnoniminin (ingiloy-İnisel gelləri, yengeloy-Yenisel gelləri) yarandığı müəyyən edilmişdir.

İngiloylar əsasən Balakən və Zaqatalanın bir neçə yaşayış məntəqəsində daha çox isə Qax rayonunun Qaxingiloy, Əlibəyli, İngiloy Kötüklü, Böyük Alatəmir, Kiçik Alatımir, Meşəbaş və Qaxbaş kəndlərində yaşayırlar.

Mədəniyyət baxımından ingiloyların milli adət-ənənələrinin qorunub saxlanmsı sayəsində dövlət tərəfindən bir sıra işlər görülüb. İngiloyların yaşadıqları rayonlarda əhalinin əsas hissəsini azərbaycanlılar təşkil etsə də, burada digər azsaylı xalqların nümayəndələri də yaşayırlar. Bu bölgələrdə azərbaycanlılarla yanaşı, həm də azsaylı xalqın nümayəndələri ilə bağlı tədbirlər keçirirlər. Azərbaycan şairlərinin yubileyləri ilə yanaşı, gürcü xalqlarının nümayəndələri İ.Çarçavadesinin, Ş.Rustavelinin yubileyləri qeyd edilmişdir. Milli tərkibindən asılı olmayaraq Əlibəyli kənd mədəniyyət evinin gürcü xoru, xalq teatrı, Qaxbaş, Qax-gürcü kənd mədəniyyət evlərinin gürcü xoru və rəqs qrupu, Qəbələ

rayonunda fəaliyyət göstərən folklor kollektivləri, kəndirbazlar qrupu, zurnaçılar dəstəsi, "Zopu-zopu" xalq kollektivi həmin bölgədə milli adət-ənənələrin təbliğində mühüm rol oynayırlar.

Rayon mərkəzlərində keçirilən xeyriyyə marafonları, 20 yanvar tarixində baş verən faciələrinin qeyd olunması həm də milli azlıqların adət-ənənələrinin təbliğinə xidmət göstərir.

Qax rayonunun Tarix-Diyarşünaslıq Muzeyində milli adət-ənənələri əks etdirən sərgilər təşkil edilmiş, bölgədə yaşayan azsaylı xalqların bir çox bədii öz fəaliyyət kollektivlərinin rəhbərliyinə fəxri adlar verilmişdir. Bu sırada gürcü Z.Poladaşvili "Əməkdar Mədəniyyət İşçisi" fəxri adına layiq görülmüşdür. Milli azlıqların bədii kollektivlərinə diqqət və qayğı Mədəniyyət və Turizm Nazirliyinin fəaliyyətində xüsusi yer tutur. Bir çox kollektivlər nazirlik tərəfindən geyim, musiqi alətləri və texniki vasitələrlə təchiz olunmuşlar.

**Məşğuliyyət istiqamətinə nəzər** salsaq Etnik, psixoloji, mədəniyyət və s. cəhətlərinə görə, azərbaycanlılarla qohumluq əlaqələrinə malik olan ingiloylar əsasən tütünçülük, taxılçılıq, heyvandarlıq, üzümçülük, meyvəçiliklə məşğul olurlar. Bundan başqa ingiloylar yaşadıqları ərazidə mövcud olan dövlət strukturlarında da çalışırlar.

Təhsil nazirliyi Respublikamızın 13 rayonunda yaşayan etnik qrupların uşaqlarının öz milli adət və ənənələrini, mədəniyyətini öyrənmələri üçün lazımi şərait yaradılmışdır. Azərbaycan Respublikası Konstitusiyasının, Təhsil Qanunun tələblərinin və Avropa Partiyasının prinsiplərinin rəhbər tutularaq, azsaylı xalqların dillərinin, tarixi və mədəniyyətinin öyrənilməsi istiqamətində mümkün imkanlardan istifadə edilir və edilməkdədir.

İngiloyların tam tanınması, gələcək nəsillərin düzgün axtarış aparılması, folklorşünasların cavabsız olan suallarına son qoyulması üçün bir neçə layihələr, tədbirlər, konfranslar, mədəniyyət sahəsində layihələr, geniş miqyasda müsabiqələr, Şimal–Qərb zonasına ekskursiyalar təşkil olunmuşdu. Kütləyə geniş mənada və tez zamanda məlumat ötürülməsi üçün görülən layihələrdən biri də film çəkimidi. AzTV-nin «**Azərbaycan telefilm**» Yaradıcılıq Birliyində istehsal olunmuş «İngiloylar»la bağlı bu sənədli film Azərbaycanın ən qədim əhalisindən olan ingiloyların tarixi, mədəniyyəti, adət və ənənələrinə həsr olunub. Burada yerləşdirilən və ya çəkilən kadrlar öz-özlüyündə ingiloyların həyatını, tarixdə baş verən hadisələri əks etdirib. Çəkilişlər əsasən Azərbaycan ingiloylarının üstünlük verildiyi Zaqatala rayonunun Əliabad və Qax rayonunun Qax-İngiloy qəsəbələrində aparılıb. Filmin ssenari müəllifi Zərnişan İnqilabqızı, rejissoru Elşən Zeynallı, operatoru Mətləb Yaqubovdur.

İnqiloy xalqının mədəniyyəti çoxşaxəlidir. Burada milli bayramlar kimi "Ereti oba", "Kurmux oba"nı bu dövrümüzə qədər də qeyd edirlər. Bitkilərə və heyvanlara inam, pirlərə, yəni – Sarı pir baba, Yaz baba, Dilek pir baba və s. kimi inanclar bu günümüzə qədər mövcuddur. Yazın gəlişini özündə əks etdirən bizim Novruz bayramının adı ingiloylarda "Qorqod bayramı" adı altında qeyd edilir.

İngiloy mədəniyyətində özünəməxsus bir musiqi janrı kimi aşıq musiqi yaradıcılığı öndə durur. Bu sahədə görkəmli nümayəndələrdən – Aşıq Əlixan, Aşıq Muhəmməd, Aşıq Hüseyn, Aşıq Cəlaləddinin adını çəkmək olar. Onların repertuarında "Molla Cuma", "Qəndab və Novruz" kimi mahnılar xüsusilə fərqlənir.


**Xülasə**

Təqdim olunan məqalədə Azərbaycan xalqının əsasını təşkil edən etnik qruplardan biri olan ingiloyların uzun əsrlər boyu inkişaf edib müasir dövrdə də yaşadılan folklor nümunələrinin rəngarəngliyindən söz açılır. Müəllif əsas diqqəti ingiloy xalqına məxsus olan spesifik xüsusiyyətlərin araşdırılmasına yönəltmişdir.

**Резюме**

В представленной статье рассматривается одна из этнических групп, ингилоев, составляющая основу азербайджанского народа, которая развивалась на протяжении многих веков и по сей день дошедшая до нас своими разнообразными образцами фольклора. Автор уделил основное внимание изучению специфических особенностей, принадлежащие ингилоям.

**Summary**

In this impression article we talked about one of the ethical group, which is ingiloy and they are basic consist of Azerbaijan commonweal. They proqressive and extend during the time until todays. On the study the author focuses on the specific details that belong to this ethical group -ingiloy.

**Ədəbiyyat:**

1. Azsaylı xalqların folkloru, Bakı – 2014
2. Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolu, Bakı-2012
3. Azərbaycan folkloru antologiyası. XIII cild. (Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru), Bakı -2005

# ÜÇÜNCÜ BÖLMƏ
*Multikultural zəmində əlaqə və münasibətlər*

**Ataş Əhmədli, filologiya üzrə fəlsəfə doktoru,**
**AMEA Folklor İnstitutu**
**Azərbaycan, Bakı**

## MƏDƏNİYYƏTLƏRARASI İNTEQRASİYADA TƏTBİQİ SAHƏLƏRDƏN FAYDALANMANIN MÜASİR PRİORİTETLƏRİ: FOLKLOR TURİZMİ

***Açar sözlər:*** *folklor turizmi, əfsanəvi qala, səyahət, prioritet, industriya, qloballaşma, inteqrasiya, milli kulturologiya*

***Ключевые слова:*** *фольклорный туризм, легендарная крепость, путешествие, приоритет, индустрия, глобализация, интеграция, национальная культурология*

***Key words:*** *folklore tourism, the legendary tower, tour, problem, industry, globalize, integration, national culture*

XX yüzilliyin sonlarından etibarən Azərbaycan dünyaya daha sivil qaydalara dayanmaqla inteqrasiya olunmağa başladı. İkinci dəfə müstəqillik əldə etdiyimiz həmin dövrdə ictimai-siyasi sferalarda olduğu kimi mədəni həyatımızın da bir çox sahələrində köklü quruculuq işlərinə başlanıldı. Bütün bu sferalardakı canlanmanı, heç şübhəsiz, suveren və hüquqi dövlətçiliyə yüksəlməmiz şərtləndirmişdi. Yeni münasibətlərin formalaşmasını təmin edən bu başlıca şərt isə əslində bütöv və davamlı inkişafımızı müəyyənləşdirdi. Hazırda nəhəng iqtisadi layihələri reallaşdırmaqla regionun aparıcı dövlətinə çevrilən müstəqil ölkəmiz həm də bir sıra dünya əhəmiyyətli mədəni-kütləvi tədbirlərin təşkili yönümündə regionda öncüllük nümayiş etdirməkdədir. Avropa mahnı müsabiqəsində qazandığımız yüksək uğur (həm də müsabiqəni ölkəmizə daşımamız), yaxın zamanlarda 17 yaşlılar arasında qadınlardan ibarət futbol üzrə Dünya çempionatına və 2015-ci ildə keçirilən Birinci Avropa oyunlarına (o cümlədən bir sıra əhəmiyyətli tədbirlərə) ev sahibliyi etməmiz bir daha əsaslandırdı ki, artıq dünyanın ölkəmizə etimadı xeyli yüksəlib. Bu möhtəşəm tədbirlərin ölkəmizdə baş tutması təbii olaraq fərqli dövlətlərdən ölkəmizə turist axınını da təmin etməliydi. **Turizm mühüm və vacib mədəniyyət sahəsidir, ümumdünya əhəmiyyətli sahədir, ölkənin dünyaya ən rahat inteqrasiyasıdır.**

Bəlli tarixdir ki, 2011-ci il ölkəmizdə turizm ili kimi qeyd olunub. Sosial- mədəni həyatımıza ilin belə məzmunda gəlişi perspektivdə bu sahə ilə bağlı əsaslı işlərin görüləcəyini işarələdirdi. Bundan öncə sahənin təkmilləşdirilməsinə yönəlik və 2003-2013 və 2010-2014-cü illərdə görüləcək işləri əhatələyən proqramın qəbulu əslində gec-tez ölkəmizdə bu sahəyə diqqətin artırılacağını ismarıcladırdı. İstər xarici, istərsə də daxili potensialın səfərbər olunmasına yönəlik qəbul olunmuş bu proqram-sənədlər eyni zamanda perspektivdə planlaşdırılacaq tədbirlərin qanunverici bazasını təşkil edirdi (1, 366-370; 493-498). Bəhs etdiyimiz proqram-sənəd iki çox mühüm təməl prinsipinə əsaslanır. Bunlardan birincisi, qanunvericilikdir. İkincisi isə turizm infrastrukturasının yaradılmasını şərtləndirən prinsipdir. Yüksək xidmət, kadr hazırlığı kimi sahələr məhz bu blokda yer almış komponentlərdir. Hazırki dövr üçün prioritet məsələ yeni qanun və layihələrin hazırlanıb başa çatdırılmasıdır. Odur ki, ölkədəki inkişaf tempinin sürət və dəyişkənliyini nəzərə alan Mədəniyyət və Turizm Nazirliyi turizm sahəsində 1999-cu ildə qəbul etdiyi qanun-layihəni hazırda daha müasir tələblərə cavab verəcək yenisi ilə əvəzləmək ərəfəsindədir. Bundan qaynaqlanaraq, bir neçə istiqamətdə tədbirlər planı da işlənib hazırlanmışdır: 1. Bölgələrarası inteqrasiyaya diqqəti artırmaq; 2. Beynəlxalq səviyyədə təşviqi gücləndirmək; 3. Nəhayət, hər iki istiqamətin bir-biri ilə inteqrasiyasını təmin etmək. İstər ayrılıqda, istərsə də bütövlükdə, hər üç istiqamət özlüyündə bu işləkliyi təmin edən mexanizmlərdir.

İnfrastrukturun yaradılması ilə bağlı platformaya gəlincə, artıq burada əməli fəaliyyətin tətbiqi və genişləndirilməsini təmin edəcək istiqamətlər daha öncüllük təşkil etməkdədir. Həmin prioritetlərin hansı inkişaf templərinə məxsus olduğunu nəzərdən keçirək:

Birincisi, orta və kiçik sahibkarlığın inkişafının təmin olunması;

İkincisi, investisiyalar cəlb etməklə regionların inkişafını təmin etmək;

Üçüncüsü, ölkədaxili bir sıra turizm marşrutlarının təşkili və bərpası istiqamətində işlərin həyata keçirilməsidir. Hələlik yeddi istiqamət üzrə marşrutlar müəyyənləşdirilsə də bunlardan yalnız üçünü reallaşdırmaq mümkün olmuşdur. Həmin istiqamətlər aşağıdakılardır:

1. Qubada Xınalıq istiqaməti; 2. Zaqatalada Qala istiqaməti; 3. İsmayıllıda Basqal istiqamətidir.

2. Bundan başqa, ölkəmizdə beynəlxalq əhəmiyyətli turların təşkili yönümündəki başlanğıc cəhdlərin də bu inkişaf templəri ilə üzvləndiyini qeyd etmək olar. Məsələn, "A.Düma Qafqazda", "Azərbaycanda polyak izləri", "Azərbaycanda alman yaşayış məskənləri", "Böyük ipək yolu" kimi beynəlxalq layihə çərçivəsində həyata keçirilmiş turları bu anlamda misal gətirə bilərik.

Onu deyək ki, bu istiqamətlərə səyahət təkcə istirahət və gəzintinin təşkili ilə məhdudlaşmayacaq, həm də industriyadaxili sahələrin bir-biri ilə inteqrasiyasını təmin edəcəkdir. Turizm əslində geniş və çoxşaxəli sahədir və bütöv bir xidmət kompleksini üzərində cəmləşdirir. Düşünürük, bu kompleksin içində milli-mənəvi dəyərlərimizin qorunması və təbliği məsələlərinə daha çox önəm verilməlidir. Bunun bir örnəyi də, ölkəmizdə folklor turizmi istiqamətində işlərin canlandırılmasına təkan verməkdir ki, qənaətimizcə bu da durmadan inkişaf etməkdə olan sahəyə kreativ yanaşılmadır. Əvvəla, ona diqqət edək ki, folklor turizmi bir modern istilah – formul olaraq hansı zərurətdən gündəmə gəlmişdir və bu sahə industriyanın digər yeni təşəkkül tapmış sahələri ilə necə inteqrasiya olunur? (Arxeologiya, etnoqrafiya, ekologiya, memarlıq, icma turizmi və s. bu tipli sahələrlə inteqrasiya nəzərdə tutulur). Bildiyimiz kimi, XXI əsrdə dünyamız kompüter texnologiyalarının yeni və çox sürətli inkişaf keçirdiyi dövrünü yaşamaqdadır. Təbii olaraq, biz azərbaycanlılar da öz qabiliyyət və davranışlarımızı texnogen əsrin tələb və prinsiplərindən doğan münasibətlərə uyğunlaşdırmaq zorundayıq. Lakin elə davranmalıyıq ki, modern inkişaf səviyyəsinə qalxmamız yüksək dəyərlərimizə xələl gətirilmədən başa gəlsin. Çünki bu texnogen yanaşmanın arxa planında dəyərlərimizi ciddi aşınmalara məruz qoya biləcək faktorlar dayanmışdır. Nəhəng prosesləri idarə etmək gücündə olan və daha çox XXI yüzili səciyyələndirən mürəkkəb bir sistemin – qloballaşmanın bu faktorların törədici mənbəyi olduğunu da etiraf etməliyik. İki, lakin bir-birini inkar edən mədəni münasibətin (milli və qlobal sistemin) toqquşduğu bu mürəkkəb dövrdə bir azərbaycanlı-türk olaraq necə bir məsuliyyət daşıdığımızı anlamalıyıq! Bir folklorşünas olaraq düşünürəm ki, bu gün arxaik mədəni irsimizin daha effektli təbliği işlərinə can atmalıyıq, ən vacibi isə bu irsin müasir formalarla uyuşa bilən təqdimatlarını önə çıxarmalıyıq. Qeyd etməliyəm ki, müasir zövqlü insanların tələbatına cavab verə biləcək formaların tapılmasının özü bir yenilikdir.

1. Film və cizgi filmi yaradıcılarımız tarixi qəhrəmanlıq mövzuları ilə zəngin olan dastan və əfsanələrimizin ekranlaşdırılmasına daha çox diqqət yetirməlidirlər.
2. Maraqlı folklor obrazlarımız daha nəfis tərtibatda tətbiqi sənət sahələrində canlandırılmalıdır.
3. Folklor talismanlarını əks elətdirən təsvirlərin uşaq geyim və məmulatlarının (çanta, qələm qabı, dəftər və s.) üzərinə köçürülməsi işlərini kütləviləşdirməli və digər məsələlərə diqqət yetirilməlidir.

Bütün bunlardan başqa, elə istiqamətlər üzərində çalışmalar aparmaq lazımdır ki, həmin istiqamətlər vasitəsilə ənənəvi mədəniyyətimiz dolğun şəkildə ölkəmizə gələn turistlərə təqdim oluna bilsin. Düşünürəm, Novruz mərasim kompleksinə daxil olan müstəqil komponentlərin (ritualların) təqdimi və təbliği məsələlərinə bu münasibətlərdə daha geniş meydan vermək olar. Məlumat üçün deyim ki, Mədəniyyət və Turizm Nazirliyi bayram tədbirlərinin keçirildiyi anlarda turist axınını təmin etmək məqsədilə bölgələrə əlahiddə marşrutların təşkili ilə bağlı layihə də hazırlayıb. Çünki Novruz bölgələrdə şəhərə nisbətən daha koloritli keçirilir. Azərbaycanda keçirilən Novruzun ümumən götürsək, milli-kulturoloji əhəmiyyəti haqda xarici ölkə vətəndaşlarına istənilən qədər danışmaq olar. Lakin bu qarşılaşmada elə spesifik məqamlara toxunmalıyıq ki, həmin məqamlar təkcə lokal-milli mahiyyəti səciyyələndirməklə qapanıb qalmasın, həm də bəşəri təmayüllü olması ilə səciyyələnə bilsin.

Folklorun turizmə tətbiqinə gəlincə, bizdə yenilik kimi təzahür etsə də deməliyik ki, artıq bir sıra dünya ölkəsi bu sintezə yiyələnməklə məlum sahədən millətləri üçün faydalanmaqdadır. Sadəcə bir qədər fərqli klişe altında. Belə ki, hazırda bu sahə Avropada "Etnoqrafiq turizm", qardaş Türkiyədə isə "İnanc turizmi" adı altında tətbiq olunur. Şübhəsiz, etnoqrafiya folklordan təcrid halda deyil, nəinki bu sahələr bir-biri ilə daima təmasdadır. Məsələ burasındadır ki, sovet nəzəri metodologiyasına əsaslanan yanaşılmaya görə, folklor və etnoqrafiya müstəqil sahələrdir və buna istinadən həmin sahələr ayrı-ayrılıqda araşdırılmalı idi. Hətta mövcud prinsipə əsaslanaraq hər biri müstəqil

olmaqla, bu sahələrlə bağlı elmi-tədqiqat müəssisələri də yaradıldı. (Qeyd üçün deyək ki, folklor hələ o zamanlarda ədəbiyyatın bir qolu kimi öyrənilirdi. Yalnız müstəqillik dönəmindən sonra bu sahə ilə bağlı əlahiddə müəssisə təşkil olundu və folklor burada tam müstəqil statusda öyrənilməyə başlanıldı.) Bir tərəfdən müsbət qarşılanan bu yenilik digər halda çatışmazlıqlardan da sığortalanmamışdı. Əksər hallarda sahələr arasındakı inteqrasiyalar nəzərə alınmır və elmlər bir-biri ilə sıx təmasda öyrənilmirdi. Bu da heç şübhəsiz, qənaətlərin keyfiyyətinə (təbii ki, mənfi planda) təsirsiz qala bilməzdi. Beləliklə, müəyyən bir zaman kəsiyində bu sahələr bir-birindən təcrid halında tədqiq olundu. Birmənalı olaraq, Azərbaycan da bu dönəmdə fərqli yolla gedə bilməzdi. Sovet nəzəri sistemindən asılı olduğu üçün istər-istəməz bu çərçivədə davranmalı idi. Keçilmiş mərhələdə bəzi nailiyyətlər əldə olunsa da, elm adına o dönəmdən qaldırılan bir çox mübahisəli məsələlər əfsuslar olsun ki, hələ də həllini tapmayıb. Həmin dönəmdən açıq qalmış problemlərimizdən biri də məhz haqqında bəhs etdiyimiz nüansdır. Maraqlıdır ki, hazırda əksər alimlər etnoqrafiyanı etnologiya adı altında öyrənməyi daha məqbul sayırlar. Onların baxışlarına görə etnoqrafiya sadəcə xalqı "təsvir etmək" anlamında sahəyə tətbiq olunmuş leksik vahiddir. Bu da anlayışın mahiyyəti yetərincə əsaslandırmadığına şübhə yoxdur ki, bir ismarıcdır. Həmin mövqedə olanlar etnologiya terminini daha uğurlu hesab edir və onların qənaətincə bu klişe (etno-xalq, loqos-təlim) xalq həyatının daha çox sahələrinə nüfuz etməyə imkan verir. Eynilə biz də problemə bu cür yanaşırıq ki, müstəqil sahələr kimi bildiyimiz folklor və etnoqrafiya bir çox hallarda ortaqlıq təşkil edir və bu minvalla, təklif etdiyimiz klişe (folklor turizmi) altında hər iki sahənin təbliği və təşviqi məsələləri nəzərdə tutulmuşdur. Kompleks (mövsüm və məişət) mərasimlərimizdə, ümumiyyətlə bu fərq ortadan götürülür, folklor və etnoqrafiya demək olar ki, iç-içə təbliğ olunur (Novruz, Qodu-Qodu, toy, yas və s. bu səciyyədə olan mərasimlər nəzərdə tutulur).

İnanc turizmi isə konturları bəlli, həm də dar çərçivədə tətbiqi nəzərdə tutulmuş turizm istiqamətidir. İlk olaraq, bu sahə miflərimizi, əfsanə və rəvayətlərimizi, bir sözlə, arxaik mədəni tərzimizi bizə təlqin edir. Qeyd üçün deyək ki, inanclar müstəqil janr kimi hazırda folklorşünaslığımızda tədqiq olunur. Bu isə o deməkdir ki folklor turizmi, haqqında danışılan turizm profilləri ilə müqayisədə çoxplanlı fəaliyyət sahəsidir və fikrimizcə, milli-mənəvi dəyərlərimizin təbliği baxımından hazırda bu sahə daha perspektivli görünür. İnanırıq ki, təqdim etdiyimiz bu kreativ sahə ölkəmizdə inkişaf etməkdə olan turizm hərəkatına yaxın gələcəkdə fayda gətirəcəkdir.

Folklor turizmi indilikdə müxtəlif elmlərə aid bilgilərlə də təmərküzləşən sahə kimi əhəmiyyət kəsb etməkdədir. Bu bilgilərin folklorla rabitəsini nəzərə alıb, onları iki qismə ayırmaq olar. Bir qism bilgilər var ki, bunlar birbaşa folklorla rabitədədir. Tarix və arxeologiyaya aid bilgiləri bu baxımdan nümunə gətirmək olar. Digər qism bilgilər də vardır ki, bunlar dolayısı ilə folklorla rabitədədir. Bunlar da astronomiya, coğrafiya və s. təbiət elmlərindən ibarətdir. Həmin fərq daha aydın bilinsin deyə biz bu bilgiləri mahiyyətinə görə, yəni aid olduqları sahənin səciyyəsi üzrə bloklaşdırıb təsnifatını aparmağı da lazım bildik. Blokların adlandırılmasında da eynilə bu prinsipi gözləməyə çalışmışıq.

1. Tarixi səciyyə: Əsasən arxeologiya, tarix və memarlığa aid bilgiləri bu blokda düzənləməyi zəruri hesab etmişik.
2. Folklor səciyyəsi: Folklor, etnoqrafiya (etnologiya) və s. etnosla bağlı bilgiləri isə bu blokda düzənləməyi məqbul saymışıq.
3. Ekoloji səciyyə: Nəhayət, coğrafiya və digər təbiət elmləri ilə əlaqəli bilgiləri də bu blokda düzənləməyi münasib bilmişik.

Söz ki folklor turizmindən düşüb, o halda bunun olduqca cəlbedici, həm də ayrılıqda götürülmüş əraziyə tətbiqi mümkün olan marşrutlarından birinin üzərinə gəlməyimiz, qənaətimizcə problemi daha aydın anlatmamıza kömək edə bilər.

**Zaqatala.** Antik dövr Qafqaz Albaniyasının ərazilərindən sayılmış Zaqatala Böyük Qafqazın cənub ətəklərində, çağdaş Azərbaycanın şimal-qərbində yerləşir. Hələ b.e.ə.-nin I əsrində yaşamış yunan alimi Strabonun "Coğrafiya" əsərində Qafqaz Albaniyasında 26-dan artıq xalqın yaşadığı qeyd olunmuşdur. Hazırda bölgədə 20-yə qədər xalqın mövcud olması faktın boş yerdən qaynaqlanmadığını əsaslandırır. Odur ki, milli-etnik rəngarəngliyi və ənənəvi tolerantlığı ilə seçilən bu bölgəyə səyahət etmək olduqca maraqlı olar. Bölgə eyni zamanda arxeoloji baxımdan da aktuallıq

kəsb edir. Əgər ciddi araşdırmalar aparılsa ərazidən tariximizlə, eləcə də qədim Qafqazın tarixinə dair çox unikal məlumatlar əldə etmək olar ki, bu da nəinki Azərbaycan, hətta dünya mədəniyyəti tarixinə yenilik kimi daxil ola bilər. Bənzərsiz tarixi abidələri, təbii sərvətləri – dağları, meşələri, şəlalə və digər unikal yerləri ilə seçilən bölgəni "səma altında muzey" adlandırmaq olar. Tanrının bəxş etdikləri öz yerində, bu muzeyin insan əli ilə yaradılmış elə eksponatları ilə də qarşılaşmaq olur ki, bunların da qarşısında heyrətlənməmək olmur. Bu eksponatların mühüm hissəsini isə daşla işləmələr təşkil edir. Məzmun və təyinatından asılı olaraq, bu tikililəri iki qismə ayırmaq olar (Qeyd üçün deyək ki, hər bir tikilinin plan həlli, istifadə təyinatı, yerləşdiyi təbii-coğrafi şəraitindən asılı olaraq, tikilinin hansı məqsəd üçün aparıldığını müəyyənləşdirmək olur). İndi də həmin bölgüyə diqqət çəkək:

1. Dini dünyagörüşü səciyyələndirən tikililər (məbədlər, məscidlər);
2. Müdafiə səciyyəli istehkamlar (qalalar).

Dini dünyagörüşü səciyyələndirən abidələri də bir neçə qismə bölmək olur. Bunlar da aşağıdakılardan ibarətdir:

1. İlkin etiqadlarla (Ayla, Günəşlə) bağlı olanlar;
2. Atəşpərəstliklə bağlı olanlar;
3. Xristianlıqla bağlı olanlar;
4. İslam dövründə inşa olunanlar (**2, 11**)

Fərqli dinlərə məxsus tikililərin bölgədə günümüzədək salamat qalması bura gələn turistlərdə daha artıq maraq oyadır. Bildiyimiz kimi, hər bir yeni yaranan din özündən əvvəlki dinin maddi və mənəvi olanlarını sıxışdırmağa çalışır. Maraqlıdır ki, bölgə bir neçə dini mərhələni adlasa da, hər bir dövrün mədəni qatı, söz yox ki, təbii deformasiyalar nəzərə alınmazsa, çox ciddi fəsadlara uğramamışdır. Şübhəsiz, bu durum bölgədə zaman-zaman sakin olmuş insanların həmin mədəni qata olan tolerant münasibətini təzahür etdirir. Bu isə özlüyündə bölgədə bu gün mövcud multikultural dəyərlərin boş yerdən qaynaqlanmadığını, onun öz tarixi köklərinə bağlı olduğunu bir daha bizə təlqin edir.

Salamat qalmış məbədlərdən dövrünə görə ən ilkinləri Aya inamla bağlı olanlarıdır. Bunların da ən səciyyəvi nümunəsi Pəri qalasıdır.

**Pəri qalası.** Yuxarı Çardaxlar kəndində sıldırım qayaların üzərində yerləşən qəsr-məbəddir.

**Ərazi haqqında qısa bilgi.** Yuxarı Çardaxlar rayonun dağətəyi kəndlərindəndir. Rayon ərazisində dövlət mühafizəsinə götürülmüş 108 abidədən 3-ü, o cümlədən, V əsrdə inşa olunduğu ehtimal olunan Pəri qalası, XIII əsrə aid bürc (Şuay qalası da deyilir) və XVIII əsrə aid məscid bu ərazidə yerləşir. Qalanın yerləşdiyi dağın ətəyindəki sahədə "Pəri qalası" adlı kafe (piknik yeri) fəaliyyət göstərir. Mövsüm ərzində kafe 800-1000 nəfərə qədər turist qəbul edə bilir.

Araşdırmalar əsaslandırır ki, Pəri qalası alban-xristian məbədidir. XX əsrin 80-ci illərinin əvvəllərində bu məbəddə Azərbaycan Arxeologiya İnstitutunun arxeoloqu Aliyə Qarəhmədova tərəfindən aparılmış qazıntılar zamanı aşkar edilmiş əşyalar da bunu sübut edir. Eramızın IV əsrindən başlayaraq İran Sasani imperiyası bu əraziləri işğal etdikdən sonra yerli xristianları təqib edib sıxışdırmaqla yanaşı, Albaniyanın bu ərazilərində zərdüştlüyü geniş yaymağa başladılar. Bu məqsədlə xristian-alban məbədləri dağıdılır, bununla da atəşpərəstliyin yayılması üçün geniş zəmin hazırlanırdı. Lakin bu regionda, o cümlədən indiki Zaqatala ərazisində atəşpərəstliyin geniş yayılmasına Sasani hökmdarları nail ola bilmədilər. Bölgədə aparılan arxeoloji qazıntılar zamanı atəşpərəstliklə bağlı ciddi tapıntıların aşkarlanmaması da məhz bunu əsaslandırır. Sasanilərin xristian albanlara zərdüştlüyü zorla qəbul elətdirmək cəhdlərinə albanlar öz məbədlərini əlçatmaz dağ yerlərində, Alazan sahillərinin keçilməz meşələrində tikməklə və xristianlıqla bağlı olan ayinləri burada icra etməklə cavab verirdilər. Balakən, Zaqatala, Qax bölgələrinin sözü gedən ərazilərinin əlçatmaz yerlərində inşa edilmiş xristian-alban məbədlərinin də məhz islamdan əvvəki dövrlərdə meydana gəldiyini ehtimal etmək olar. Digər xristian-alban məbədləri ilə müqayisədə lap əlçatmaz dağ ərazisində yerləşən Pəri qalası da istisna deyildir ki, bu cür təqiblərə etiraz olaraq həmin dönəmlərdə inşa olunmuş abidələrimizdəndir.

Zəngin tarixi olan bölgənin özünəməxsus folklor həyatı da diqqət çəkməkdədir. Bu folklor mövzularının isə böyük bir qismini bölgədəki mövcud təbii və tarixi abidələrə həsr olunmuş əfsanə və rəvayətlər təşkil edir. Maraqlı orasıdır ki, həmin mətnlərin də böyük bir qismi "Pəri qala" möv-

zusundadır. Özlüyündə isə "Pəri qala" mövzusu iki qismə bölünür. Daha öncə yaradıldığı ehtimal olunan mifoloji rəvayətlərdir ki, bunları da birinci qismə aid etmək olar.

**Pəri qala (qaya) mövzusunda mifoloji rəvayət.** Qədim zamanlarda babalarımızı qoruyan bir Pəri varmış. Pəri onlara hər işdə yardımçı olarmış. Bir gün bu Pəri getmək istəyəndə əcdadlarımız yığışıb Tanrıya yalvarır ki, Pəri getməsin, onlarla əbədi qiyamətə kimi qalsın. Onların duaları eşidildi. Pəri qayaya dönür və qala kimi onların keşiyində durur. İndi cinayət baş verirdisə, cinayətkar öldürülmürdü. Pəri qayanın ixtiyarına verilirdi. Əgər Pəri o adamı bağışlayırdısa, deməli, günahkar deyilmiş. Bundan sonra o adam ikinci dəfə doğulmuş hesab olunurdu. (3, https: //www.youtube.com/watch?v=jB7-gqXrbec)

"Pəri" sözünün həm də "İlahə" sözü ilə sinonimlik təşkil etdiyini nəzərə alsaq, onda məbədin Ay inancı ilə (Aya etiqadla) bağlı əfsanələrin də meydana gəlməsinə təsiri olduğunu etiraf etməliyik. Arxeoloji araşdırmalar zamanı qaladan tapılmış üzərində yazısı olan maddi dəlil də bu nüansı aydınlatmada önəmli faktordur. Məşhur alim Jan Polski əşyanın üzərindəki yazının "Selena" (yunanlarda Ay ilahəsi) mənasını ifadə etdiyini müəyyənləşdirmişdir.

Araşdırmalar dərinləşdikcə belə bir versiya da meydana çıxır ki, öncədən məbəd "Pəri qalası" adını daşımamışdır. Ehtimal ki, məbədin bu cür adlandırılması VIII əsrdə ərəblərin bu bölgəyə gəlişi, İslamın burada yayılması və bundan sonrakı dövrlərlə bağlıdır. Strateji cəhətdən əlçatmaz dağ relyefində yerləşən bu məbəd ərəblərə qarşı və bundan sonrakı dövrlərdə digər yadelli işğalçılara qarşı yerli əhalinin silahlı müqavimətinin təşkili üçün də çox güman, ən əlverişli istehkam-sığınacaq olmuşdur. Bir sıra tarixi sənədlərdə də məbədin XIV əsrin axırlarında Cənubi Qafqaza yürüşü zamanı Əmir Teymurun qoşunlarına şiddətli müqavimət göstərmiş yerli əhalinin əsas istehkamlarından biri olduğu göstərilir. Bu da onu əsaslandırır ki, Pəri qala mövzusunda digər qisim əfsanə və rəvayətlərin meydana gəlməsi məhz bu tarixi səciyyə ilə bağlıdır. Bu anlamda tarixi düşüncədən qaynaqlanan **rəvayətdə** deyilir ki, qala mühasirəyə alınarkən Teymurun qoşunlarına qarşı döyüşə Pəri adında bir qadın rəhbərlik etmişdir. Teymurun təslim olmaq barədəki təklifini Pəri rədd edir. Uzun sürən ağır döyüşlərdən sonra Teymurun əsgərləri məbədi çox çətinliklə tuturlar. Düşmən əlinə keçməmək üçün Pəri özünü bu məbəddən – dağın başından ataraq öldürür. Yəqin ki, bu hadisədən sonra (XIVəsrin sonları) məbəd Pəri qalası adını almışdır. (4, http: //regionplus.az/az/articles/view/4019)

O da qeyd olunmalıdır ki, "Pəri qalası" alban memarlığının əlçatmaz dağ zirvəsində tikilən ən təkrarolunmaz nümunəsidir. Unikal tarixi mədəniyyət abidəsi kimi onun başlanğıc görünüşünü saxlamaq şərtilə bərpaya və qalaya gedən yolun yenidən qurulmasına ehtiyac vardır. Maraqlıdır ki, elm və texnikanın inkişaf etdiyi müasir dövrümüzdə də "Pəri qalası" öz əlçatmazlığı ilə insanlığı heyrətləndirməkdədir.

**Ekoloji səciyyəsi.** Ərazinin əsas hissəsini enliyarpaqlı ağaclardan ibarət meşə örtüyü təşkil edir. Qızılgül plantasiyaları Zaqatalaya özəl bir yaraşıq verir. Burada qızılgül yağı istehsal edən zavod fəaliyyət göstərir ki, vaxtilə Bolqarıstanın "Qazanlıq" vadisi adlanan fəaliyyət mərkəzindən sonra dünyada ikinci istehsalçı olub. Hətta o zaman Avropadakı müəssisə ilə təsərrüfat əlaqələrinin rəmzi ifadəsi kimi Zaqataladakı təsərrüfata (zavod və ətraf əraziyə) "Qazangül" adı verilmişdir. Hazırda "Qazangül" təsərrüfatında plantasiyalar genişləndirilir, gül yağı istehsal edən zavod yenidən qurulur. Ölkə iqtisadiyyatının yüksəlişinə təsir göstərən bu amil digər halda ərazidəki ekoloji tarazlığın saxlanılmasını da şərtləndirir. Bir müddət qəsəbə adını daşısa da, əraziyə verilən bu status sonradan ləğv edilmişdir.

Möhtəşəm qalaları, istehkamları, məbədləri günümüzdən baxdıqda Zaqatalanın qədimliyini simvolizə edirsə, qızılgül də bu diyarın qonaqpərvərliyini, insanlığa sədaqətini, özəlliklə də müasirliyini hazırda simvolizə etməkdədir. Rəmzi mənada zərifliyi, gözəlliyi, məhəbbəti ifadə edən qızılgül, həqiqi mənada xoş ətir saçan, təbiəti saflaşdıran, ölkə üçün önəmi olan strateji bir bitkidir. Odur ki, gəlin, hamılıqla bu nadir bitkinin qayğısını çəkək!

Rayon ərazisinin təbii baxımdan seçilən bir landşaftında eko-turizm üçün əlverişli şəraiti olan Zaqatala qoruğu yerləşir. Burada maral, dağ keçisi, qaban, ayı, canavar, quşlardan kəklik, qırqovul, dağ qartalı və digər vəhşi canlılar yaşayır. Bütün bunlar onu əsaslandırır ki, artıq bugünkü Zaqatala Azərbaycanın mühüm turizm mərkəzlərindən birinə çevrilmişdir və ölkə var-qüvvəsini sərf edir ki, bu nadir guşə bütün dünyanın səyahət həvəskarlarına əlçatan olsun.

Qeyd üçün deyək ki, problemin digər səviyyələrlə də əlaqəsindən söz açmaq olardı. Belə ki, araşdırılan sahənin yeni olduğunu, yaxud hazırkı durumda problemə dair ictimai fikrin yetərincə məlumatlı olmamasını nəzərə alıb, hələlik müzakirəsini daha zəruri bildiyimiz səciyyələrin üzərində dayanmışıq. Hər halda müəyyənləşdirdiyimiz daha iki səciyyə haqda fraqmental şəkildə də olsa burada bilgi verməyi lazım bildik. Həmin səciyyələr aşağıdakılardan ibarətdir:

**Beynəlxalq (tranzit) səciyyəsi.** Qafqaz Albaniyasından qərbə - Bizans, Roma, Yunanıstana gedən ticarət yollarının birinin bölgədən (Zaqatala, o cümlədən Balakən və Şəkidən) keçməsini nəzərə almaqla marşrutun beynəlxalq turlar üçün də işləkliyini (perspektivliliyini) təmin etmək olar. Bu da bölgənin mədəni inkişaf səviyyələrini (bu gününün tarixi ilə transformasiyasını, tranzit mövqeyini və s. üstünlüklərini) təqdim etmək üçün digər bir maraqlı istiqamətdir.

**İnformativ səciyyəsi.** "Turizm ili"ndə (2011-ci il) abidənin kütləvi informasiya vasitələrində geniş təbliğatı aparılmış, 2 şəkli Heydər Əliyev Fondu tərəfindən nəşr olunmuş "Azərbaycan" kitabına daxil edilmiş, II Respublika Daxili Turizm Sərgisində isə "əlahiddə görünüşü ilə seçilən" abidə qismində foto-sərgisi nümayiş etdirilmişdir.

**Turun əhəmiyyəti. I şərt.** Abidələrimiz tariximizi bizə yansıdır. Onların qorunması dövlətçiliyimizin qorunması ilə birbaşa bağlantılıdır. Bu qorunma həm də milli təhlükəsizliyimizin qorunmasının etibarlı təminatıdır. Abidələrimiz silinərsə, tariximiz məhv olar, təhlükəsizliyimiz isə təminatsız qalar.

**II şərt.** Abidələrimiz folklorumuzun tariximizlə ilişgisini həm də bizə yansıdır. Burada tarix olduğu kimi qorunmasa da hər halda qalıntı şəklində də olsa izlərini saxlatmaqdadır. Bu da onu işarələdir ki, folklor bir çox qaranlıq qalmış tarixi mətləbləri aydınlatmada alternativsiz vasitəyə çevrilə bilir. Odur ki, folklorumuzun toplanılması, qorunması və gələcəyə ötürülməsi aktual məsələ kimi hər zaman bizi düşündürməlidir.

**III şərt.** Bildiyimiz kimi, əksər tarixi - memarlıq abidələrimiz ən unikal təbii şəraiti olan və strateji baxımdan əhəmiyyət daşıyan ərazilərimizdə inşa olunmuşdur. Həmin abidələrin daha effektli təbliği üçün bu göstərici də əlverişli vasitə kimi nəzərə alınmalıdır. Beləliklə, qədim tarix, maraqlı əfsanələr və sağlam ekoloji mühüt Zaqatalaya səyahət edən turistlərə zəngin təəssürat bəxş edəcək, buradan aldıqları təəssüratı isə onlar heç zaman unutmayacaq!

## Xülasə

Məqalədə folklor turizmi anlayışına aydınlıq gətirilmiş, ölkəmizdə bu sahənin inkişaf və perspektivinə dair məsələləri nəzərdən keçirmişdir. Folklorumuzun təbliği və təşviqi məsələlərində prioritetdən faydalanmanın mümkünlüyü müəyyənləşdirilmiş və bunun tətbiqi prinsipləri burada irəli sürülmüşdür. Bundan başqa prioritetin həyatımızın digər sahələri ilə əlaqədə olduğunu nəzərə alıb, problemə bu sahələrlə inteqrasiyada baxmağı lazım bilmişik. Problemin öyrənilməsinin ölkəmizdə turizm hərəkatının genişlənməsinə təsiri olacağına ümid edirik.

## Резюме

В статье приводится ясность к понятию фольклорный туризм, обращается внимание на вопросы развития и перспектив этой сферы в нашей стране. Выясняется возможность пользы приоритетов в вопросах пропаганды и поощрения, выдвигаются принципы его применения. Помимо этого учитывая связь приоритета с другими сферами нашей жизни мы сочли нужным рассматривать проблему в интеграции с этими проблемами. Мы надеемся, что изучение этой проблемы повлияет на расширение туристического движения в нашей стране.

**Summary**

In the article it is said about the tourism notion, the problems about the development and perspectives of this branch in our country are looked through. The opportunities of the usage of priority in propaganda and agitation problems of our folklore have been determined and its applied principles are studied. Besides it considering the priority connecting with the other branches of our life we think it is necessary to look at this problem in the integration with these branches. We hope that the investigation of the problem will influence to the expanding of the tourism movement in our country.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm qanunvericiliyi toplusu. Bakı: Avrasiya-press, 2 cilddə,1-ci cild, 2011.
2. Hacı Vaqif, Akif Məmmədli. Balakən-Zaqatala bölgəsinin qədim tarixi abidələri (nəşriyyat və nəşr tarixi kitabda göstərilməyib).
3. https://www.youtube.com/watch?v=jB7-gqXrbec
4. http://regionplus.az/az/articles/view/4019

**Sevinc Mahmudova, tədqiqatçı,**
**"Orayin" Udi Mədəniyyət Mərkəzinin əməkdaşı**
**Azərbaycan, Qəbələ, Nic**

# FOLKLOR TURİZMİNDƏ NİCİN ROLU

***Açar sözlər:*** *Çotari kilsəsi, Yaloylu təpə, Komrat, Xan yolu, kətə*
***Ключевые слова:*** *Церковь Чотари , холм Ялойлу, Комрат, дорога Хан, кулебяка*
***Key words:*** *Chotari Church, Yaloylu hill, Komrat, Khan road, pie*

Respublikamızın əsas turizm məkanlarından biri olan Qəbələ rayonunda Nic qəsəbəsinin özünəməxsus yeri vardır. Turistlərin udi folkloruna, mətbəxinə və xristian məbədlərinə, eyni zamanda Nic qəsəbəsində yerləşən tarixi məkanlara marağı çoxdur. Qəbələ şəhərinin qədimliyini əks etdirən tarixi məkanlar "Çotari" kilsəsi, "Yaloylu təpə" mədəniyyəti, "Kilsəli təpə", Çuxur Qəbələ - Tarixi Bədii Qoruğu, "Dambatan", "Komrat" ziyarətkah yeri, "Xan yolu", " Pirlər", XVIII-XIX əsrlərə aid qapılar, "Cəngi" instrumental milli qrupu və qədim adət-ənənələri özündə əks etdirən udi toyları turistlərin diqqətini çəkir.

"Çotari" kilsəsi, verilən məlumata görə XVII əsrə aiddir. 2006-ci ilin 25 may tarixində restavrasiya olunmuş və kənd sakinlərinin yenidən istifadəsinə verilmişdir. Kilsənin açılışında bir sira dövlət və din xadimləri iştirak etmişlər. Dünyada bir çox məşhur incəsənət, siyasət və başqa sahələrdə öz sözlərini demiş insanlar vardır ki, bunlardan ikisi məşhur fransız aktyoru Jerar De Partye, ABŞ-ın Azərbaycandakı keçmiş səfiri Mətyu *Brayzə də Nicdə, yeni təmir olunmuş kilsədə olmuşlar.*

"Yaloylu təpə" mədəniyyəti. Bu ərazidə XIX əsrin sonlarında bir kənd müəllimi tərəfindən həvəskar qazıntı aparılmışdır.1926-ci ildə isə arxeoloji ekspedisiya burada tədqiqat işləri aparmışdır. Daha sonralar isə arxeoloq Saleh Qazıyev tərəfindən daha geniş arxeoloji qazıntılar aparılmışdır.Verilən məlumata görə "Yaloylu təpə" mədəniyyəti II minilliyə aiddir. Bu mədəniyyəti açıq səma altında muzey də adlandırmaq olar, ona görə ki, burada tapılan məişət əşyaları dulusçuluğun yüksək səviyyədə inkişaf ediyini subut edir. Təəssüf ki, buraya kütləvi şəkildə turistlər üçün ekskursiya təşkil etmək mümkün deyildir.

"Kilsəli təpə"-də 2013-2015-ci illərdə arxeoloji qazıntılar aparılmışdır.

"Dambatan" iki gəncin sevgisini ifadə edən nağıla əsaslanan yerdir.

"Komrat" ziyarətkahı V-VII əsrə aiddir. Həm müsəlmanların, həm də xristianların ziyarət ediyi və qurban kəsdiyi yeganə yerdir. "Komrat"- "Böyük ata" deməkdir.

Əfsanəyə görə, VII əsrdə İmam Əli islam dinini təbliğ etmək üçün Qəbələyə gəlir. Qəbələdə gözəl bir qıza aşiq olub onunla evlənir. Evlənəndən bir müddət sonra Qəbələni tərk etmək məcburiyyətində qalır. Gedərkən yoldaşına qızıl bilərzik hədiyyə edir. İmam Əlinin gedişindən bir müddət sonra onun yoldaşı bir oğlan uşağı dünyaya gətirir. İllər gecir, İmam Əli Qəbələyə qayıdır. Kəndin girəcəyində 10-12 yaşlı bir oğlan uşağının oynadığını görür. Uşaq o qədər güclü idi ki, özündən yaşca böyüklərlə güləşir, onlara qalib gəlir. Qalib gəldiklərini isə dağdan aşağı atır. Bunu görən İmam Əli dözə bilməyib uşağı özü dağın başından atmaq qərarına gəlir. Dağdan atdığı zaman isə oğlanın əlində olan qızıl bilərziyi görür, amma artıq gec idi. Yoldaşı ilə görüşüb söhbət edir, söhbət zamanı öyrənir ki, dağdan atdığı uşaq öz oğlu imiş. Öz oğlunun cəsədini tapıb dəfn edir. Qəbri üstündə isə türbə tikdirir. O gündən isə Komrat ziyarətgah məskəninə çevrilir.

"Xan yolu" - meşənin içindən keçən yol. Özünəməxsus tarixə malikdir. Udilərin "Tubul pəhləvan" nağılında[24] tamlıqla bu yolun təsviri verilmişdir.

Nicdə təxminən 300- 400-ə yaxın pir vardır. Hətta bir məhəllədə 3 və ya daha çoxuna rast gəlmək olar. Təəssüf ki, onların hamısı tədqiq olunmayıb. Kəndarası belə bir söz, inanc da var. Təbii fəlakət baş verəndə insanlar bir-birilərinə deyirlər: "Qorxmayın, kəndin dörd tərəfini pirlər əhatə edir, onlar qoymaz ki, kəndə ziyan dəysin."

[24] Bu nağıl Azsaylı xalqların folkloru. I kitab. Bakı-"Elm və təhsil"-2014 kitabında yer almışdır.

Udi toyları turistlərin maraqlarına səbəb olan ən gözəl mərasimlərdən biridir. Oğlan qız evinə elçi göndərəndə elçilər özləri ilə bir dənə qırmızı alma aparırlar. Almanı oğlan adamları qız anasına verirlər, qızın anası isə almanı aparıb qıza təqdim edir. Əgər qız razıdırsa, almanı bölərək yarısını özünə saxlayır, yarısını isə oğlana göndərir. Anlamı - biz artıq butövüq. Alma tam qayıtsa, bu isə o deməkdir ki, qız bu izdivaca razı deyildir. 2 gün toy davam edir, eyni zamanda həm qız, həm oğlan evində. Toyları "Cəngi" instrumental qrupu[25] şənləndirir.

Gecə toyu, yəni birinci gün qız evində uzun çəkir. 2-ci gün isə oğlan evində. Gəlin gətirilən gün oğlan evində ya yumurta, ya da ki, fəsilə uyğun alma kaprona qoyulub hündür bir ağacdan asılır və daha sonra bir ovcu nişan alıb onu vurur, ta ki hədəfə dəyənə qədər. Atəş açılır. Bunun anlamı o deməkdir ki, qız evi eşitsin ki, oğlan evi qızı aparmağa gəlir.

Nic toylarında bəyin öz toyunda küpdən çaxır çıxartması, qız gəlin köçdüyü evdə qaynanası gəlib gəlinin əlinə nəmər vermədən oturmaması, qız evindən gəlini gətirəndə oğlan evinin qız evini çaxırla oğlan toyuna dəvət etməsi böyük maraq doğurur. Toy günü qız evində gəlinin başı üzərində udi milli mətbəxinə məxsus olan kətə şirniyyatının kəsilməsi, gəlinin ömrü şirin, ruzili-bərəkətli və bolluq içində keçməsi mənasında anlaşılır. Kəsilən kətənin yarısı oğlan evinə verilir, yarısı qız evində qalır. Kətənin yarısının qız evində saxlanmasının səbəbi də qız özü ilə ata evinin ruzisini aparmasın anlamına gəlir. Qudalar oğlan evində çörək kəsirlər. Bu adətin anlamı isə qudalıgın əbədi olmasına işarədir.

XVIII-XIX əsrə aid olan qədim qapılar hansı arko üslubunda hazırlanıb, bu turisrtlərin marağını cəlb eləməkdədir. Udi mətbəxi də turistlərin diqqətini çəkir. Udi mətbəxində digər mətbəxlər kimi hər fəslin özünə aid yeməkləri vardır. Məsələn: Yaz fəslinə uyğun olaraq Xandzil, Afar, yay fəslinə uyğun Pağla, Pağlın xaşoy, Püşniklə nak, payız fəslinə uyğun Üknə siyoğ, qış fəslinə uyğun Üknə dolma, Muçanakla siyüğ, Çilov, Çekun, Muçanaki xup, Paklin kiftə, Paklin siyoğ, Hərisə[26], Jojabi hindişkə, hər fəsildə isə Jaldi yek, Doğaç hazırlanır.

Yuxarıda göstərilənlər Qəbələyə gələn hər bir turistin marağına səbəb olur.

**Xülasə**

Turistlərin udi folkloruna, udi mətbəxinə və onların xristian məbədlərinə, eyni zamanda Nic qəsəbəsində yerləşən tarixi məkanlara marağı çoxdur. "Çotari" kilsəsi, "Yaloylu təpə" mədəniyyəti, "Kilsəli təpə", Çuxur Qəbələ -Tarixi Bədii Qoruğu, "Dambatan" , "Komrat" ziyarətkah yeri, "Xan yolu", " Pirlər", XVIII-XIX əsrə aid qapılar, "Cəngi" instrumental milli qrupu və udi toyları, hansı ki, bu günə kimi öz adət-ənənəsi ilə turistlərin diqqətini çəkir.

**Резюме**

Туристы проявляют большой интерес к фольклору, кухне удинов и их христианским храмам, а также, к историческим местам расположенным в поселке Нидж. Церковь «Чотари», культура «холма Ялойлу», «холм Килсели (Церковный)», Чухур (Яма)-Габала Исторический Художественный Заповедник, храмы «Дамбатан», «Комрат», «Дорога Хан», «Священные места для поклонения», Врата XVIII-XIX вв., национальная инструментальная группа «Джанги» и удинские свадьбы, которые по сей день привлекают внимание туристов своими обычаями-традициями.

**Summary**

Tourists are not only interested in Udi folklore, kitchen and their christian temples, but also they are interested in historical places situated in Nij village. The sightseeings such as "Chotari Church", the "Yaloylu hill" culture, "Kilsali hill", Protected Historical Artistic - Chukhur Gabala, "Dambatan", the sanctuary "Komrat",

[25] Bu qrup 1992-ci ildə yaradılmış və bu günə kimi fəaliyyət göstərməkdədir. Qrupda müxtəlif yaşları əhatə edən ifaçılar vardır.

[26] Udilər əkinci olduqları üçün bu yemək udi mətbəxində xüsusi yer tutur.

"Khan road", "Sacred places", the gates belonging to the 18th-19th centuries, the national instrumental group "Jangi" and Udi weddings attract tourists attention by its traditions up to nowadays.

**Ədəbiyyat:**

1) Роберт Мобили. Удины: язык, религия, фольклор традиции.Баку-2006
2) Роберт Мобили. Удины: язык, религия и этнография. Баку-2011
3) Keeçari G. Udilərdə ənənəvi toy mərasimləri. Gəncə-"Agah"-2004

**Oleq Danakari**
**“Orayin” Udi Mədəniyyət Mərkəzinin rəhbəri**
**Azərbaycan, Qəbələ, Nic**

# MULTİKULTURAL ZƏMİNDƏ QARŞILIQLI MÜNASİBƏTLƏR

***Açar sözlər:*** *Qəbələ, Nic, udi, unikal, Alban kilsəsi*
***Ключевые слова:*** *Кабала, Нидж, Уди, уникальный, Албанская церковь*
***Key words:*** *Gabala, Nic, Udi, unique, Albanian church*

Azərbaycanda qədim tayfalardan biri olan udilərin bugünkü nəsilləri hazırda yığcam halda kiçik bir icma şəklində Qəbələ rayonunun Nic qəsəbəsində və Oğuz şəhərində yaşamaqdadırlar. Azərbaycan dövləti öz müstəqilliyini qazanandan sonra onların unikal dilini, dinini, özünəməxsus adət-ənənələrini, eyni zamanda başqa mədəni və mənəvi sərvətlərini qoruyub saxlamaq üçün böyük işlər görülmüş və görülməkdədir. Bu işləri həyata keçirmək üçün Nic qəsəbəsində iki ictimai təşkilat yaranmışdır: - “Orayin” (“Bulaq” ) Mədəniyyət Mərkəzi və Alban dini xristian icması.

Hal-hazırda Nic qəsəbəsində 6,3 min əhali var; onlardan 3300 udi, 2737 azərbaycanlı, 192 ləzgi və 71 nəfər digər xalqların nümayəndələridir. Qəsəbəmizdə 5 məktəb, 2 uşaq bağçası, 1 yaradıcılıq evi, 1 kilsə, 2 məscid, 2 məbəd və digər tarixi abidələr mövcuddur. Bu rəqəmlər onu göstərir ki, qəsəbə beynəlmiləldir və tolerant şəraitdə müxtəlif xalqın nümayəndələri sülh və əmin-amanlıq şəratində bir-birinin dilinə, dininə, adət-ənənələrinə hörmətlə yanaşaraq icma kimi fəaliyyət göstərirlər.

Azərbaycana gələn xarici qonaqların bir hissəsi, istər dövlət xadimləri, istərsə də digər sahələri təmsil edən məmurlar udilər yaşayan Nic qəsəbəsinə səfər edirlər. Buraya səfər zamanı qonaqlar tolerantlıq şəraitində yaşayan insanları görüb, onlara yüksək qiymət verərək xoş təəssüratla qayıdırlar.

2003-cü ildə “Orayin” (Bulaq) Mədəniyyət Mərkəzinin bülletenindən bir məqalənin mətnini təqdim etmək istəyirəm. Məqalə “Dostluğumuz əzəlidir, əbədidir” adlanır. Bu məqaləni milliyətcə azərbaycanlı olan Niyazi Əhmədov yazmışdır. O, yazır:

“Yaşım altmışı keçib, dörd oğlan, iki qız böyütmüşəm, heç vaxt vəzifəm olmayıb. Sadə kənd həyatı keçirmişəm. Rəhmətlik atamın mənə bir vəsiyyəti olub: deyib ki, oğul, ömrüm udilərlə dostluq mühitində keçib. Bu dostluğu ən qiymətli miras kimi sənə tapşırıram. Onu qoru və daha da möhkəmləndir. Onun vəsiyyətinə daim əməl eləmişəm. Elə bilməyin ki, udilərlə dostluq edən təkcə bizim ailədir. Kəndin hansı küçəsinə yolunuz düşsə, iki xalqın övladlarını bir yerdə görərsiniz. Tarixin sınaqlarından şərəflə çıxmış bu dostluğumuz əzəlidir, əbədidir. Hörmətlə: Niyazı Əhmədov.”

Belə insanların sayı-hesabı yoxdur. Həqiqətən, son vaxtlar Nic qəsəbəsində yaşayan udilərlə münasibət o qədər yüksək səviyyəyə çatıb ki, azərbaycanlını, udini, ləzgini ayrı-ayrılıqda görə bilməzsiniz. Xeyir-şər işlərində həmişə bir-birinə dayaq olurlar.

Hamı bilir ki, hal- hazırda dünyada baş verən iqtisadi və siyasi böhran bizim dövlətimizə də mənfi təsir göstərib. Lakin çətinliklərə baxmayaraq, Azərbaycan xalqı, dövlətimiz son vaxtlar multikulturizm dəyərlərini daha da üstün tutaraq bu sahədə dünyaya meydan oxuyur. Udilər yaşayan Nic qəsəbəsi buna canlı misaldır. Bu qəsəbədə sülh, əmin-amanlıq və tolerant şəraitində bütün xalqların nümayəndələri yaşayır və inkişaf edir.

Son vaxtlar udilər yaşayan qəsəbədə çoxlu uğurlu işlər görülmüşdür. Alban kilsəsinin bərpası, Bibliyanın udi dilinə tərcüməsi, ibtidai siniflər üçün udi dilində dərsliklərin hazırlanması və çapı, udi yazarlarının kitablarının çapı, dövlət, milli və dini bayramların keçirilməsi, qəsəbədə abadlıq işləri, yeni 2 mərtəbəli məktəbin tikilməsi və digər sosial problemlərin həlli məsələləri qəsəbədə yaşayan xalqları sevindirir və onları gələcəyə ruhlandırır.

Biz udilər Azərbaycan dövlətinin tutduğu ictimai-siyası və iqtisadi yolu bəyənirik və dəstəkləyirik və bizə həmişə qayğı göstərənlərə minnətdarlığımızı bildiririk.

**Xülasə**

Udilər kiçik bir icma şəklində Qəbələ rayonunun Nic qəsəbəsində və Oğuz şəhərində yaşamaqdadırlar. Azərbaycan dövləti tərəfindən udilərin unikal dilini, dinini, özünəməxsus adət-ənənələrini, eyni zamanda başqa mədəni və mənəvi sərvətlərini qoruyub saxlamaq üçün böyük işlər görülmüş və görülməkdədir. Alban kilsəsinin bərpası, Bibliyanın udi dilinə tərcüməsi, ibtidai siniflər üçün udi dilində dərsliklərin hazırlanması və çapı, udi yazarlarının kitablarının çapı, dövlət, milli və dini bayramların keçirilməsi, qəsəbədə abadlıq işləri, yeni məktəbin tikilməsi udi xalqına qayğının nəticəsidir.

**Резюме**

Удины как малочисленная община, продолжают жить в поселке Нидж района Кабала и в городе Огуз. Азербайджанским Государством проделаны огромные работы для сохранения уникального языка, религии, своеобразных обычаев-традиций удинов, а также их других культурных и моральных ценностей. Реставрация Албанской церкви, перевод Библии на удинский язык, подготовление и печать учебников для начальных классов на удинском языке, печать книг удинских писателей, проведение их государственных, национальных, религиозных праздников, работы по благоустройству в поселке, постройка новой школы является результатом заботы об удинском народе.

**Summary**

Udis have been living as a small community in Nij village of Oghuz region and Oghuz city. The great works have been done and have been doing for protecting the unique language, the religious, the traditions that belong to them, and other cultural and sipiritual recources of udis by Azerbaijan republic. Restoration of the Alban church, translating the Bibliyan into the Udi language, preparation and publication of the textbooks for the elementary classes in the Udi language, publishing the books by Udi writers, celebrating the state, national and religious holidays, the constrution works in the settlement, and building the new school are the results of the care to Udis.

**Muharrem Kaplan, Doç. Dr.**
**Hacettepe Üniversitesi**
**Ankara/Türkiye**

# MULTİKULTURALİZMİN RENGARENKLİĞİ („ŞİMALİ KAFKASYA" ESERİ ESASINDA)

***Anahtar Sözcükler:*** *Kadircan Kaflı, Şimali Kafkasya, multikultiralizm, kültür, medeniyet*
***Ключевые слова:*** *Кадирджан Кафлы, Северный Кавказ, мултикултурализм, культура, цивилизация*
***Key Words:*** *Kadircan Kafli, North Caucasus, multikulturalizm, culture, civilization*

Bir devletin homojen tek bir milletten teşekkül etmesi günümüz şartlarında mümkün gözükmemektedir. Globalleşen dünyada var olabilmenin, tek devlet çatısı altında toplanabilmenin çaresi farklılıkları yok etmek değil, farklılıkları yönetebilmek, koruyabilmektir. İşte bu noktada multikulturalizm kavramının çok önemli olduğu aşikardır.

Bu bağlamda, bu çalışmada XX. asrın başlarında, 1907 yılında, daha bebekken ailesi ve 7 kardeşiyle Şimali Kafkasya'dan Türkiye'ye iç karışıklar sebebiyle göçmek zorunda kalmış bir yazar ve onun eserinden bahsedilecektir.

**Kadircan Kaflı**

Asıl adı Abdulkadir olan Kadircan Kaflı, 1315/1899 yılında Kuzey Kafkasya'nın Dağıstan bölgesinin Urma köyünde dünyaya gelmiştir. Dünyaya geldiği günlerde Dağıstan'da Ruslara karşı mücadeleler hızla devam etmektedir (**Kösoğlu 1990: 228**). Yapılan zulümlere Kaflı'nın ailesi daha fazla dayanamaz. Bunun üzerine 1907 yılında, Ruslarla mücadelelerin en şiddetli olduğu bir sırada, binlerce Müslüman Türk ailesi arasında Kadircan Kaflı, Anadolu'ya babası Mehmet Efendi, annesi Ayşe Hanım ve yedi kardeşiyle birlikte göçer.

Kadircan Kaflı, Osmanlı'nın son zamanlarını görmüş, ancak eserlerini Cumhuriyet döneminde vermiş olan ediplerdendir. Kadircan Kaflı, döneminde beğenilerek okunmuş ve aranan yazarlar arasına girmiştir. Çok iyi bir eğitim alan Kaflı'nın 50 senelik dopdolu bir muharrirlik ve edebiyat öğretmenliği hayatı vardır. Altmış sekiz romanı, yüze yakın hikâyesi ve yedi bin civarında makale ve fıkrası, şiirleri, araştırma eserleri, biyografileri vardır. Fikri temayüllerinin olgunlaştığı Göçmen Federasyonu başkanlığı ve milletvekilliği dönemi onun en önemli yönleridir.

Milliyetçi bir anlayışa sahip olan Kaflı'nın, en güçlü ve belirgin yönlerinden biri gazeteciliğidir. Günlük yazdığı köşe yazıları, tarihî makaleleri, tefrika ettiği romanları, hikâyeleriyle ve kendisini "gazete muharriri" olarak vasıflandırmasıyla basın dünyasıyla bütünleştiğini söyleyebiliriz. Onun edebî faaliyetlerinin merkezinde gazete vardır.

Kaflı'nın bir diğer önemli yanı da romanları ve romancılığıdır. Tarihî roman sahasının bakir olduğunu sezen Kaflı, romanlarının önemli bir kısmında (68 romanın 55'i) tarihî konuları işlemiştir. Türk Edebiyatında deniz ve korsan romanları alanındaki boşluğu dolduran en önemli romancılarımızdan biridir. Kaflı, romanlarında ayrıca yaşadığı devri ve sosyal hayatı da işlemiştir.

Kaflı'nın bir de hikâyecilik yönü vardır. Yazın hayatının ilk dönemlerinde yoğun bir şekilde hikâyeler kaleme alır. Onun hikâyeleri "Tarihi İçerikli" ve "Sosyal Konulu" olmak üzere iki başlık altında toparlanabilir.

Kaflı araştırma eserleri de kaleme almıştır. Şimali Kafkasya (1942), Osmanlı Devrinde Tarihi Fıkralar (1943), Atatürk'ten Altın Yapraklar (1943), Mithat Paşa (1947), Türkiye'nin Kaderi (1965), Türkiye'ye Göçler (1966) adlı eserlerin oldukça ciddi bir çalışma ve gayret sonucu yazıldığını da söylemek gerekir.

Kaflı'nın "Türkiye'ye Göçler" adlı eserinde bahsettiğine göre 1554 yılından 1966 yılına kadar, bugünkü Türkiye sınırları içindeki topraklara sığınan ve yerleşen göçmenlerin sayısı, (Geldikleri ülkeler: Türkistan, Doğu Türkistan, İdil-Ural, Kırım, Kuzey Kafkasya, Azerbaycan, Romanya, Bulgaristan, Yugoslavya, Yunanistan, Kıbrıs…vb.) altı milyon iki yüz seksen dört bin altı yüzdür.

Bu göçler, Anadolu'yu korumak, Türk varlık ve şerefini savunmak için asırlarca feda ettiği insanlardan kalan boşluğu doldurmağa yaramış, göçmenler, son sığınaklarını kaybetmemek için bil-

hassa İstiklal Savaşı'nda büyük fedakârlıklar yapmışlardır. Bugün de Türkiye'nin kalkınma davasında "insan gücü" denilen en gerekli ve yararlı sermayenin mühim kısmını teşkil etmektedirler (**Kaflı 1966: 30**).

Kaflı 1951 yılında kurulan "Kuzey Kafkas Türk Kültür ve Yardımlaşma Derneği"nin kurucuları arasında bulunmuştur. Daha sonra yedi göçmen derneği bir araya gelerek 1954 yılında "Türk Göçmen ve Mülteci Dernekleri Federasyonu" nu kurarlar. 1957 ve 1966 seçimlerinde seçilen Kadircan Kaflı, bu federasyonun uzun süre "Genel Başkan"lığını yapar.

Bu federasyon sayesinde uluslararası muhatap kabul edilirler ve birçok yardım, onlar aracılıyla Türk göçmenlerine ulaştırılır. Aynı zamanda devlet eliyle planlı bir şekilde göçmen meselesinin ele alınmasını da sağlarlar (**Kaflı 1966: 41**). Diğer yandan ikinci dünya savaşında (kızı Gönülcan Hanım'ın bildirdiğine göre) Almanların Türk katliamı yapmamaları için çok emek harcamıştır.




**Şimalî Kafkasya**

Bu Eseri Kadircan Kaflı, 1942 yılında Vakit matbaasında İstanbul'da bastırmıştır. Bu Eser Şimali Kafkasya'da yerleşen milletlerin Kültür ve medeniyetlerini anlatan yegane eser olma özelliğini hala korumakta olduğunu belirtmek gerekir.

Kitap üç fasıldan müteşekkildir. "Umumi Bilgiler" adını taşıyan birinci fasılda Şimalî Kafkasya'nın "askeri ve siyasi ehemmiyeti, coğrafya, ekonomi, nüfus, ırk, diller ve millî karakteri hakkında bilgi verilir.

"Tarih" adını taşıyan ikinci fasılda efsaneler döneminden başlayarak Bolşevik Rusya idaresine kadar Şimali Kafkasya'nın tarihi anlatılır.

"Güzel Sanatlar ve Kültür" adını taşıyan üçüncü fasılda da Şimalî Kafkasya'nın "masal şiir, hikâye, roman, tiyatro, sinema, heykel, resim, ince sanatlar, müzik ve oyunlar"ından bahsedilir.

**Multikulturalizm Perspektifinden "Şimali Kafkasya"**

Bu eser kültür ve medeniyet unsurlarının kaybolmadan asırlar ötesine taşınması açısından önemli bir köprü vazifesi üslenmektedir. Önemli olan "farklılıkların yönetilebilmesi" ise bunların en ince ayrıntısına kadar bilinmesi ve ona göre hareket edilmesi de esastır. İşte bu kitap bu kültürü öğrenmemize katkı sağlayan değerli bir kitaptır.

Yazar Önce "Dağlılar"ın yaşadığı bölgenin analizini yapar:

"Kafkasya, cesur ve çalışkan insanları, yüksek dağları ve geçitsiz vadileriyle Asya'yı Avrupa'ya ve yakın şarkla İran ve Hindistan'ı şimalden gelecek tehlikeye karşı koruyacak kuvvetlerin biricik ve en iyi bekleme noktasıdır" (**s.9**). Buranın "Şimalden cenuba milletler kapısı" (**s.10**) olduğunu söyleyerek bölgenin jeopolitik konumuna vurgular.

Jeopolitik önemini tespit ettikten sonra bu konumun onların sosyal hayatındaki etkisini şu şekliyle vurgular:"Milyonların yolu üstündeki bu millet her şeyden evvel müdafaa ihtiyacını hissetmiştir; kasaba ve köylerini de bu ihtiyaca göre kurmuştur (…) Bu kasabalar ve "avul" denilen köyler hemen daima dik bir yamaca, sarp bir kayanın yanına veya üzerine yapılır "(**s.37**).




müdafaa kaygısı onların yerleşim yerlerinde birtakım başka tedbirler de alınmıştır: Sokaklar dolambaçlıdır, dardır; ancak karşılaşan iki atlının geçmesine yeter; bazı yerlerde, sokakların dönemeçlerini muayyen noktalarını ateşe tutmak için mazgallı evler, şarampoller bulunur (**s.38**).

**Aile Yapıları**

Yazar kültürel analizlerini devam ettirir. Bu sefer projektörünü onların aile hayatına odaklar: "Dağlıların aile hayatı İslam dinine göre tanzim olunmuştur. Kızların ve erkeklerin pek çoğu 13-14 yaşlarında evlenirler. Babanın aile fertleri üzerinde mutlak bir otoritesi vardır. Bununla beraber kadın hareme kapatılmış tufeyli bir mahluk değildir; hatta ekonomi hayatında erkekten aşağı kalmayan bir rol oynar.




Örtünmede ifrat yoktur; fazilet esastır. Kadın evde yalnız olsa bile erkek misafiri kabul eder, ağırlar. Genç kızlar hatta kadınlar düğünlerde ve bayram günlerinde erkeklerle dans ederler. Hamarat kızlar pek çabuk koca buldukları için küçükten çalışma ihtiyatını kazanırlar" (**s.40**). Evlilikleriyle kadının sosyal hayattaki yeriyle çok önemli tespitlerde bulunur.

**Kıyafetleri**



Bir etnik gurubun diğer etnik gruplardan ayrıldığı en önemli kültür öğelerinden bir tanesi kıyafetlerdir. Kaflı Dağlı'ların kıyafetlerini çok güzel analiz eder:"Dağlı'ların kıyafetleri hem kullanışlı, hem de şıktır. Çamaşırları, uzun ve paçaları bağlı bir donla gene kolları uzun bir gömlekten ibarettir. Gömleğin üstüne bir mintan, önü ve yakası kapalı dar bir yelek giyerler; şalvarları hareket kolaylığını bozmayacak şekilde dar ve uzundur. En üstlerine çuka denilen bir pardesü giyerler; bunun gövde kısmı vücuda adeta yapışır; yaka dar ve kapalıdır;kapçalarla iliklenir; kollarının yenleri genişçedir. Göğsünün iki tarafında gümüşten barut tüpleri sıralanır (…) Belde ince bir kemer bulunur. Sağ omuzdan dolaşan kılıç askısı, sol omuzdan sarkan tabanca askısı da aynı şekilde süslenir. Ayaklarda hafif meşin konçlu çizmeler bulunur. Başlarına kıvırcık bol tüylü kuzu derisinden kalpaklar giyerler…

Bütün şimali Kafkasya erkeklerinin kıyafetleri budur. Kullanış ve estetik noktasından o kadar güzeldir ki kazaklar ve civardaki diğer milletler tarafından da alınmış, Rus saraylarına kadar girmiştir" (**s.42**). Bu analizle onları hem diğer Kafkas milletlerinden hem de diğer Müslüman milletlerden muvaffakiyetle ayırmasını bilir.

**Yiyecekleri**

Mutfak kültürü damak zevki milleti millet yapan önemli hususiyetlerdendir. Türk mutfağı, İtalyan mutfağı,... vs gibi mutfaklar vasıfları ile dünyaca meşhurdur. Kaflı da buradan hareketle Dağlı'ların bu hususiyetlerine dikkatle eğilir: "Dağlılar kanaati bilen insanlardır; yiyecekleri de sadedir; saçta yapılmış peynirli, yağlı pideler; suda haşlanmış ve içleri bazan kıyma ile doldurulmuş börekler, bulamaç, haşlanmış ve kızarmış etler, fırında pişirilmiş ve bazan içine şeker katılmış olan mayasız buğday veya mısır ekmeği, tereyağı, bal, her çeşit kuru yemiş, pekmez, darı unu tahammür ettirilerek yapılan ve çaa denilen boza, kuru yemiş ve unla şekerle yapılmış hakut gibi şeyler...

Sonbahar geldiği zaman evlerin hemen hepsi birer ikişer öküz yahut inek keserler; etlerini kuruturlar; bir tarafa asarlar; kışın kesip kesip pişirirler" (**s.43**). Mutfakları yaşadığı zorlu tabiat şartlarının da etkisiyle şekillendiği muhakkaktır. Kafkas dağlarının yüksek ve engebeli yeryüzü şekilleri ile uzun ve soğuk kışlarının onların yaşam tarzlarına çok etki ettiği de aşikardır.

**Spor**



Şimali Kafkasya'nın binicilik oyunlarını taklid eden Kazak'lar

Tüm hayatlarını hem düşman kavimlerle hem de zorlu tabiat şartlarına göre dizayn eden Dağlı'lar gayet tabidir ki sportif faaliyetlerinde de mücadele ve müdafaa ön plana çıkacaktır. "Köy meydanlarında yahut en yakın sahalarda sık sık, hemen her gün atlama, koşma, binicilik ve atıcılık sporları yapılır. Düğün yahut bayram günler birer spor bayramı gibi geçer; sporun başlıcası binicilik ve atıcılıktı. Bu sayede her dağlı daha çocuk denecek yaşta iken kaçanı mutlaka yakalayan, bir binici, uçanı bile vuran bir nişancı olur" (**s.43**). Bu sportif faaliyetler onların barış zamanlarında yetişmelerine ve hazır oluşlarına zemin hazırlamaktadır.

**Müzik ve Eğlence**



Dağıstanlı bir kolhoz şarkıcısı

Kültür ve medeniyetin taşıyıcılarından en önemli unsurlarından biri de müzik ve müzik aletleridir. Kadircan Kaflı bunun şuurunda Dağlılar'ın müzik medeniyetini hassasiyetle anlattığını görürüz. "Küçük ve dar karınlı üç telli Türk sazı kubuz oralarda pek kullanılır. Armonik yerli çalgı olmamakla beraber çok yayılmıştır. Keman ve diğer müzik aletlerine de rastlamak da zor değildir" (**s.198**).

Kaflı, aletleri kuru ve soğuk anlatmakla yetinmez; hatta hareketlerle, drama yöntemiyle çok canlı ve kıvrak bir biçimde anlatmayı da başarır. "Köy meydanlarında bir aralık kopuz, def, dümbelek veya armonikle çalınan kıvrak bir musiki yükselir; o zaman ak saçlı ihtiyarlardan tüysüz delikanlılara kadar birçoklarının ortaya atıldıklarını, sağ elinde çevre sallayan oyuncubaşının ardında hoplayıp zıpladıkları, yerleri titrettikleri, nara attıkları görülür. Dağlılardan başkalarının bu Kafkas dansına on dakikadan fazla tahammül etmeleri büyük bir kudret anlatır; zira gayet kıvrak, gayet atılgan, heyecanlıdır.

Bazen bu oyunlar ağırlaşır, kızlar ve kadınlarla birlikte oynanır; kızlar ve erkekler karşılıklı mani söyler; yün şalların saçakları, eteklerin dalgalanışı gönüllerdeki ateşe yelpaze olur" (**s.43**).

**Örf**

Kadircan Kaflı, Dağlıları çok yönlü analiz etmektedir. Çok çarpıcı cümlelerle onun örfi özelliklerini de aktarmasını bilir: "Dağlının bütün davaları örf ve adet üzerine halledilirdi, dağların büyük kısımlarında hiçbir zaman aristokrasi ve feodalite yerleşemedi.

Herkes doğuşundan ölümüne kadar cemiyet içinde anı haklara sahipti; yaşça büyük olanlara saygı şarttı; hürmet ve itaat kazanmak için lazım olan vasıflar şunlardır: bilgi, cesaret, fedakarlık, dürüstlük ve çalışkanlık…" (**s.46**).

**Sonuç**

Globalleşen dünyanın yıkıcı etkisinden ancak farklılıklarımızı muhafaza ederek koruyabiliriz. Bu farklı kültür öğelerinin bizim zenginliğimiz olduğu da unutulmamalıdır.

Yukarıdaki satırlardan da anlaşılacağı üzere Kadircan Kaflı, "Şimali Kafkasya" adlı eserinde bir halkı halk yapan karakteristik özelliklerini tespit etmiş, onların unutulmaya yüz tutmuş değerlerini tarihe mal etmiştir.

## Özet

Bu çalışmada XX asrın başlarında, 1907 yılında, daha bebekken ailesi ve 7 kardeşiyle Şimali Kafkasya'dan Türkiye'ye, iç karışıklar sebebiyle, göçmek zorunda kalmış bir yazar "Kadircan Kaflı" ve "Şimali Kafkasya" adlı eseri multikultiralizm perspektifinden değerlendirilecektir.

## Резюме

В данной статье рассматриваются произведение «Северный Кавказ» с точки зрения мульти-культурализма, а также многострадальное жизниописание автора этого произведения «Кадирджана Кафлы», который по причине беспорядков был вынужден переселиться из Северного Кавказа в Турцию в начале XX века, в 1907 году, в раннем детстве вместе с семьей и 7 братьями и сестрами.

## Summary

This study will evaluate the work "Northern Caucasus" by Kadircan Kafli which will focus on the aspects of multiculturalism. Kadircan Kafli (whom was a baby) with his family and seven children, were forced to emigrate due to domestic disturbance from Caucasus to Turkey at the beginning of the 20th century.


## Kaynakça:


1. Kaplan, Muharrem, Kadircan Kaflı ve Eserleri Üzerine Bir İnceleme, Kesit Yay. İstanbul, 2013
2. Kaflı, Kadircan, Şimalî Kafkasya, Vakit Matbaası, İstanbul, 1942
3. Köseoğlu, Nevzat, Türk Dünyası Tarihi ve Türk Medeniyeti Üzerine Düşünceler , Ötüken Yay., İstanbul, 1990

**Zümrüd Ağakişiyeva, müdir**
**Zaqatala rayon Mədəniyyət və turizm şöbəsi**
**Azərbaycan, Zaqatala**

# ZAQATALADA MULTİKULTURALİZM ƏNƏNƏLƏRİ

***Açar sözlər:*** *multikulturalizm, dəyər, Azərbaycançılıq ideyası, turizm*
***Ключевые слова:*** *мультикультурализм, ценность, идея Азербайджанства, туризм*
***Key words:*** *multiculturalism, value, the idea of Azerbaijan-study, tourism*

Dövlət, ölkə nə qədər çox xalqı birləşdirsə, bir o qədər çox zəngin olur, çünki onların hər biri ümumdünya mədəniyyətinə və sivilizasiyasına öz töhfəsini verir (H.Əliyev).

Beynəlxalq aləmdə multikulturalizm eyni ölkədə yaşayan xalqların mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasət kimi qəbul olunur.

Azərbaycan minilliklər boyu müxtəlif xalqların azad, sərbəst və heç bir maneə ilə rastlaşmadan yaşadığı gözəl bir dövlətdir. Bu gün də Azərbaycanda müxtəlif dinlərə məxsus bir çox etnik qrupların nümayəndələri yaşayır ki, onlar da müstəqil, suveren dövlətimizin uğurlu inkişafına öz töhfələrini verməkdədir.

Ümummilli lider Heydər Əliyevin siyasi iradəsi sayəsində Azərbaycan tarixən sahibi olduğu tolerantlıq və multikulturalizm ənənələrini hüquqi və siyasi müstəvidə yenidən bərpa etmiş, Möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi ilə multikulturalizm Azərbaycanda həyat tərzindən dövlət siyasəti səviyyəsinədək yüksəlmişdir.

Bu gün azərbaycançılıq ideyası və multikultural dəyərlər ümumən Azərbaycan xalqını etnik, dini fərqliliklərə baxmayaraq, bir vəhdət halında birləşdirir.

Tarixi ənənəyə söykənən və uzun əsrlər formalaşan tolerantlıq mühiti azsaylı xalqların hüquqlarının qorunması, onların ana dilini, mədəniyyətini, dinini yaşatması üçün əlverişli şərait yaradıb. Belə ənənələrə sahib olan ölkəmiz dünyanın multikulturalizm, tolerantlıq, humanitar əməkdaşlıq mərkəzinə çevrilib. Sülh və dostluq şəraitində yaşamın dünya üçün yeni modeli - Azərbaycan Multikulturalizmi təşəkkül tapıb.

III Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunda yüzdən artıq ölkənin dövlət nümayəndələri qarşısında çıxış edən Azərbaycan Prezidenti bildirdi ki, Azərbaycan sivilizasiyaların, mədəniyyətlərin və dinlərin kəsişdiyi bir məkanda yerləşir. Biz Avropa və Asiya arasında yerləşirik. Biz Şərqlə Qərb arasında yalnız coğrafi körpü deyil, həm də mədəniyyət körpüsüyük.

Təsadüfü deyil ki, ölkədə multikulturalizm mühitinin formalaşmasına, Azərbaycan və dünya mədəniyyətinin inteqrasiyasına, çoxsaylı xeyriyyəçilik işlərinə dəstəyinə görə ölkənin birinci xanımı Mehriban Əliyeva 2015-ci ilin adamı naminasiyası üzrə qalib elan olunmuşdur. Ölkəmizdə keçirilən dünya miqyaslı tədbirlər, multikulturalizm ənənələrinin təbliği Azərbaycanın bu sahədə oynadığı əvəzsiz rolunu bir daha göstərdi.

Bu gün dünyanın multikulturalizm, tolerantlıq mərkəzinə çevrilən Azərbaycanın lokal, həm də dilbər guşələrindən olan Zaqatala rayonu multikulturalizm və tolerantlığın qorunub saxlanıldığı ən səciyyəvi mərkəzlərindən hesab oluna bilər.

Bunun üçün ərazidəki tarixi abidələrə və ya 20-dən yuxarı xalqın nümayəndəsinin tarixən mehriban, birgə yaşamalarına nəzər salmaq, bizcə, kifayətdir. Burada milli mənsubiyyətindən asılı olmayaraq, hamı vahid ailə kimi yaşayır. Mədəniyyətlərin müxtəlifliyi, rəngarəngliyi bu yurdun əvəzsiz sərvətidir.

Zaqatalanın zəngin etnik tərkibi vardır. Rayon əhalisinin təxminən 68 faizini Azərbaycan türkləri, 21 faizini avarlar, 10 faizini saxurlar təşkil edir. Rayonda 1 faiz digər xalqlar və etnik qruplar – Mesxeti türkləri, qumıqlar, laklar, ruslar, ukraynalılar və digər millətlərin nümayəndələri də yaşayır.

Ümumtəhsil məktəblərinin ibtidai siniflərində avarlar, saxurlar və ingiloylar üçün onların ana dillərində dərslər tədris olunur. Şəhərdə iki saylı məktəbdə tədris tam rus dilində aparılır, bir çox məktəblərdə rus bölmələri fəaliyyət göstərir.

Çoxəsrlik multikulturalizm və tolerantlıq ənənələrinə malik Zaqatalaya hələ XIX əsrin ortalarında rus çarının fərmanı ilə şəhər statusu verilmişdir. Müxtəlif mədəniyyətlərin və dinlərin paralel

inkişaf etdiyi bu məkanda məscid də, kilsə də, sinaqoq da şəhərin mərkəzində inşa olunub. Mamruxda Armatey kilsəsi və müxtəlif yerlərdə onlarla xristianlıq nümunələri – Alban abidələri, şəhər mərkəzində Sinaqoq, XVII-XVIII əsrlərə məxsus məscidlər, tarixi abidələr bir qayda olaraq dövlət tərəfindən qorunur.

Burada yaşayan milli etniklərin tarixi, dili, özünəməxsus mədəniyyəti, adət-ənənələri inkişaf etdirilir, qorunur və təbliğ olunur. Mədəniyyət evi və klublarda çalışan 243 nəfərdən 63 nəfəri avar, 18 nəfəri ingiloy, 36 nəfəri saxurdur.

Mədəni-turizm dəyərləri ilə seçilən Zaqatalada son illər mədəniyyət və turizmin inkişafı ilə bağlı uğurlu layihələr həyata keçirilmiş, parklar, muzeylər, tarixi-memarlıq abidələri bərpa olunmuş, yeni mədəniyyət müəssisələri yaradılmış, turizm istirahət mərkəzlərinin fəaliyyəti gücləndirilmişdir. Zaqatalada regionda analoqu olmayan yeni istifadəyə verilmiş Heydər Əliyev Mərkəzi, bundan başqa Heydər parkı, akademik Zərifə Əliyeva adına park, Dədə Qorqud meydanı, Rayon Mədəniyyət Mərkəzi, 3 muzey, 57 kitabxana, 1 Uşaq İncəsənət məktəbi, 11 turizm obyekti və müxtəlif ictimai-iaşə obyektləri burada yaşayan və buraya gələn hər bir şəxsə xidmət göstərir, mədəni inkişafa dəstək olur, mədəni inkişafı canlandırır. Saxurların yaşadığı Suvagil kəndindəki, ingiloyların yaşadığı Əliabad qəsəbəsindəki mədəniyyət müəssisələri paytaxt şəhərlərin mədəniyyət müəssisələri ilə müqayisə oluna bilər.

Xalq kollektivləri, rəqs qrupları nəinki rayon və respublikada, eyni zamanda xarici dövlətlərdə öz folklor nümunələrini təbliğ edirlər. Bu anlamda “Hudulki” avar xalq folklor kollektivi 2013-cü ildə Belarusun Bobruysk şəhərində keçirilən festivalda da uğurla çıxış edib. Azərbaycanı təmsil edən “Hudulki” xalq kollektivi burada müxtəlif konsert salonlarında, eləcə də açıq havada keçirilən 6 konsertdə iştirak edib, 10-a yaxın nömrə təqdim etmişdir. Festivalın açılış mərasimində Azərbaycanın milli mətbəx və sənətkarlıq nümunələrinin nümayiş olunduğu sərgi xüsusilə böyük marağa səbəb olub. Qoz ağacı materialından hazırlanmiş “Dostluq çələngi” suveniri və Azərbaycanı, regionu təmsil edən digər hədiyyələr festivalın təşkilatçılarını yaxşı mənada təəccübləndirmişdir. On bir dəfə keçirilən bu festivalda 2-ci dəfə iştirak edən kollektiv 22 dövlətin 38-ə yaxın folklor kollektivinin qatıldığı bu tədbirdə Azərbaycan dövlətini layiqincə təmsil etmişdir.

Bu minvalla Azərbaycan Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələri ilə birgə 2014-cü ildə Fransanın Paris şəhərində keçirilən "Top Resa 2014" beynəlxalq turizm sərgisində regionu təmsil etdiyim üçün qürur duyuram, özümü xoşbəxt sanıram.

2008-ci ildən ənənəvi olaraq keçirilən Prezident kuboku uğrunda Çövkən oyunu və ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş milli atüstü oyunlar festivalında rayonun ingiloy və avar gənclərindən ibarət komandaları müntəzəm iştirak etmiş, Qəbələ, Şəki, Masallı, Balakən, Qax, İsmayıllı, Ağsu rayonlarında keçirilən Beynəlxalq festivallarda, tədbirlərdə avar, saxur, ingiloy kollektivləri və müxtəlif azsaylılar iştirak etmiş, yüksək yerlər əldə etmişdirlər.

2015-ci il noyabr ayının 19-da Mədəniyyət və Turizm Nazirliyi Bakı sakinlərini Azərbaycanın regionlarının sosial-iqtisadi inkişafı, mədəni irsi, adət-ənənələri, turizm imkanları ilə tanış edən “Bölgələrdən paytaxta” layihəsi çərçivəsində Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında rayona həsr olunmuş “Zaqatala mədəniyyət və incəsənət günləri” adlı tədbir təşkil olunmuş, burada rayonun sosial-iqtisadi inkişafını, turizm imkanlarını, zəngin mədəniyyətini, mətbəxini əks etdirən sərgi, incəsənət ustalarının konserti təqdim olunmuşdur. Zaqatalada yaşayan milli azlıqların “al-əlvan çələng” şəklində təqdim etdiyi proqram tamaşaçılar tərəfindən alqışlarla qarşılanmışdır.

Hər il Bakı Ekspo Mərkəzində keçirilən Beynəlxalq Turizm və Səyahətlər sərgisində “Hudulki”, “Lilay”, “Ceyranım” kollektivlərinin nümayəndələri rayonun folklor həyatını canlandıra bilmişlər.

Doğmalığın, isti münasibətin, qarşılıqlı hörmət hissinin, çoxmədəniyyətliliyin, bir sözlə, multikulturalizmin tam beşiyi olan bu məkanın folklor nümunələrinin öyrənilməsinə, araşdırılmasına və təbliğinə, xüsusilə 2012-ci ildən sonra diqqət artırılmışdır.

AMEA-nın Folklor İnstitutu, Mədəniyyət və Turizm Nazirliyinin Elmi-Metodiki Mərkəzi, Azərbaycan Turizm və Menecment Universiteti ilə bir çox tədbirlər, Mədəniyyət və Turizm Nazirliyinin nümayəndələrinin iştirakı ilə zona müşavirələri keçirilmişdir. 2013-cü ildə “Zaqatala alimlərinin və yazarlarının folklorşünaslığın təbliğində rolu” mövzusunda elmi konfrans,“Azərbaycan folkloru milli sərvətimizdir” mövzusunda dəyirmi masa, 2014-cü ildə “Azərbaycanda folklor turizmi:

mövcud vəziyyət və inkişaf perspektivləri", "Turizmin müxtəlif növlərinin inkişaf istiqamətləri və yerli əhalinin bu prosesin idarə olunmasında iştirakı" mövzularında dəyirmi masalar keçirilmişdir. Həmin tədbirlərdə mədəniyyət işçilərinə və rayonun yaradıcı ziyalılarına Mədəniyyət və Turizm Nazirliyinin fəxri fərmanları təqdim olunmuşdur.

"Kitabi-Dədə Qorqud"un alman dilində ilk tərcüməsi və nəşrinin 200 illiyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin 20 fevral 2015-ci il tarixli Sərəncamının icrası ilə bağlı dövlət müşaviri, akademik Kamal Abdullayevin təşəbbüsü ilə Zaqatala rayonunun Əliabad qəsəbəsində silsilə tədbirlərin həyata keçirilməsi də təqdirəlayiqdir. Həmin tədbirlərdə "Azərbaycanda dövlət-din münasibətləri" mövzusunda müzakirələr aparılmış, qəsəbə sakinlərinin iştirakı ilə mədəniyyət evində "Qafqaz Albaniyası və onun hazırkı varisləri" mövzusunda konfrans keçirilmiş, konsert proqramı təşkil olunmuş, Zaqatala şəhər Heydər Əliyev Mərkəzində "Kitabi-Dədə Qorqud"un Zaqatala bölgəsində izləri" mövzusunda dəyirmi masa keçirilmişdir.

2014-cü ildə Zaqatala rayon MKS-də AMİ-nin Zaqatala filialının müəllimi, tarix üzrə fəlsəfə doktoru Qüdrət Qırtımovun "Zaqatala: tarixi abidələrimiz" başlıqlı yeni kitabının, o cümlədən tanınmış şair, həvəskar Aşıq Valeh Rəhim oğlu Həsənlinin 2014-cü ildə çapdan çıxmış "Mən necə yazmayım Zaqataladan", "Vüqar və Aypara" dastanı, "Mərcan gözlər" kitablarının təqdimat mərasimləri keçirilmişdir.

Son illərdə xalq tətbiqi və dekorativ sənəti növlərinin yaşadılması, gələcək nəsillərə ötürülməsi məqsədilə müxtəlif kurslar, dərnəklər təşkil olunmuş, suvenir istehsalı ilə bağlı müəyyən işlər görülmüş, rayonda qədim xalçaçılıq sənətini yaşadan "Xalça evi" istifadəyə verilmiş, Suvagil, Yengiyan, Əliabad xalçaçılarının əl işləri respublikanın müxtəlif sərgilərində nümayiş etdirilmişdir.

Bu xalqın istiqanlılığından, qonaqpərvərliyindən, ənənəsindən irəli gələn bir xüsusiyyətdir ki, ailələrin bir çoxu milli tərkib baxımından rəngarəngdir. Azərbaycan, gürcü, avar, saxur, tat, ləzgi, ingiloy qızları, gəlinləri düşdüyü ailədəki dinə, mühitə, adət-ənənəyə böyük hörmətlə yanaşır, eyni zamanda özünün də hüquqlarını qoruyur. Belə mühitdə böyüyüb boya-başa çatacaq gələcək nəsil zəngin mədəniyyətlə əhatə olunaraq inkişaf edir.

Zaqatalanın təbii zənginliyi, ərzaq çeşidi, çoxsaylı xalqların yemək nümunələri arzu edilən süfrəni açmağa imkan verir. Mətbəx nümunələri rəngarəngliyi ilə seçilir. Bu regiona məxsus olan qaxac ət yeməkləri, xüsusilə Sürhüllünün, maxaranın, düyü, qoz halvasının hansı etnik qrupa mənsub olması ilə yox, dadı, ləzzəti ilə müzakirə olunur. Folklorşünas Əli Süleymanovun əsərlərində geniş təsvir olunan qızılgüllər açanda avarların may ayında keçirdikləri "Rohul baq", "Hulma" (yelləncək), "Vardi" (qızılgül), "Toyole" (gül), Saxurların "Seyran", İngiloyların "Qorqot" adlandırdıqları şənliklər birliyi, bolluğu, səmimiyyəti, dostluğu və ruzini bölüşmələri geniş təsvir olunmuşdur. Yurdumuzun el bayramları, xalq yaradıcılığı nümunələrinin zənginliyi, qədimliyi həmişə diqqəti cəlb etmişdir.

Azərbaycan mədəniyyətini sazsız, tarsız, muğamsız təsəvvür etmək mümkün olmadığı kimi, ləzgi-həngi adlanan ləzginkasız, Dədə Qorqud ruhunu daşıyan tənburu olmadan da təsəvvür etmək mümkün deyildir. Buranın çox fərqli, maraqlı toy adət və ənənələri vardır ki, bu rəngarənglik bu gün də qorunur və daha da zənginləşdirilir.

Nə xeyirdə, nə də şərdə dini ayrı-seçkiliyə bu yurdda heç vaxt yol verilməmişdir. XIX əsrdə yaşayan Seyid Əhməd Əfəndinin dəfn mərasimində bütün dinlərin nümayəndələri iştirak etmiş, bu böyük din xadiminin ölümünə öz təəssüflərini bildirmişlər. Tarixi mənbələrdə belə faktlar çoxdur. Valideynlər seçilmədiyi kimi dinlər də seçilmir.

Quran ayəsində deyilir: "Biz Allahın Peyğəmbərləri arasında fərq `qoymuruq". İslam dininin daşıyıcıları olan biz zaqatalalılar da insanlar, millətlər və dinlər arasında heç bir fərq qoymuruq. Odur ki, Azərbaycan və onun lokal guşəsi olan Zaqatala bu gün bütün yer kürəsinə mutikulturalizmin, tolerantlığın məcmusu, toplusu, ən səciyyəvi nümunəsi kimi təqdim oluna bilər.

**Xülasə**

Məqalədə Zaqatalada mövcud multikultural dəyərlərdən söz açılmış, ərazidəki bu dəyərlərin öz tarixi köklərinə bağlı olduğu əsaslandırılmışdır. Daha sonra Zaqatalanın etnik tərkibi canlandırılmış, etnik, dini ayrılıqlara baxmayaraq, multikultural dəyərlərin hər bir Azərbaycan vətəndaşını bir vəhdət halında birləşdir-

diyi məqalədə xüsusi olaraq vurğulanmışdır. Məqalədə birmənalı olaraq qeyd olunur ki, bu müxtəlifliyin əzəli və əbədi qarantı məhz Azərbaycan xalqı və dövlətidir.

**Резюме**

В статье рассматриваются мультикультуральные ценности, имеющиеся в Закатале, обосновываются, что эти ценности имеют свои исторические корни. Затем оживлен этнический состав Закаталы. В данной статье особенно отмечается, что мультикультуральные ценности невзирая на этнические, религиозные разнообразия объединяют Азербайджанских граждан как единое целое. В статье однозначно отмечается, что именно Азербайджанский народ и государство является изначальным и вечным гарантом этого разнообразия.

**Summary**

In the article it is said about the multicultural values that exist in Zagatala and it has been proved that these values have been connected with its historical rootstocks. Later the ethnic structure of Zagatala has been revived, connecting each Azerbaijan citizen in the unity form by multicultural vales has been mentioned especially in spite of ethnic, religious differentness. In the article it is said that, Azerbaijan people and Azerbaijan Government is the eternal and immortal guarantee of this variety.

**İlhamə Qəsəbova, filologiya üzrə fəlsəfə doktoru,**
**AMEA Folkor İnstitutu**
**Azərbaycan, Bakı**

# AŞIQ YARADICILIĞINDA BƏŞƏRİ TƏMAYÜLLƏR

***Açar sözlər***: *aşıq, saz, vətən, ana, sevgi, təbiət*
***Ключевые слова:*** *ашиг, саз, Родина, мать, любовь, природа*
***Key words:*** *ashug, saz, native land, mother, love, nature*

Milli-etnik mədəniyyətin əsas qaynağı olan folklor əcdadlarımızın bizlərə miras qoyduqları tükənməz sərvətdir. Aşıq ədəbiyyatını öyrənməyin və onun çoxsahəli fəaliyyətini, zəngin repertuarını aşkarlamağın əsas yolu bu sənətin regional-mədəni və sosial mühit özünəməxsusluqlarına xüsusi diqqət yetirmək olduqca aktual məsələdir. Aşıq sənəti ənənəyə əsaslanan yaradıcılıqdır. Aşıq sənəti özündə dil, fikir, sənət meyarlarını ehtiva etməklə yanaşı həm də xalqın fəlsəfi simvolikası, şeir sənəti, musiqi ifası kimi bir çox məsələləri ənənənəvi olaraq bu gün də davam etməkdədir. Bu sənət insanın kamilləşməsində əxlaq və tərbiyyə məktəbinin əsasında aparıcı rol oynayır. Türk dilli xalqların aşıq sənəti bir-birləri ilə sıx sənət əlaqəsi qurmaqla həm sənətin inkişafına şərait yaratmışlar, həm də klassik aşıq yaradıcılığının inkişafında mühüm rol oynamışlar. Şurəddin Məmmədli qeyd edir ki, "Borçalının ona yaxın və doğma bölgələrlə ədəbi şəbəkədə qovuşmasının məhvərini bu çeşidli bölgələrin etnik tarixi tale baxımından qohumluqları təşkil etmişdir. Belə bir yaxınlıq onların mədəni-etnoqrafik yaşayış, danışıq tərzlərində, psixoloji ovqatlarında olduğu kimi, ədəbi ənənələrində də vəhdəti şərtləndirmişdir. Və bu geniş şəbəkədə Borçalı ədəbi mühiti özünəməxsus mövqe qazanmışdır. Bunu ədəbi məkanların həm şəcərə kökündə, həm də bədii vəhdətində görürük". Şəcərə kökü vahidliyi deyəndə onu nəzərdə tuturuq ki, Tiflisdə də, Axısqada da, Qarsda da əksər saz-söz sərrafları Borçalı əsilli olmuşlar. Şurəddin Məmmədli digər araşdırmalarında yazır ki, "Bəlli zamanda Borçalı aşıqları saz sənətini özləri ilə bərabər Axısqaya, Qarsa, Urmiyaya və Qarapapaq elinə daşımış və bu aşıq ortamları Borçalı aşıq tərzi üzərində köklənmişdir" [**10**]. Bu fikirləri Türkiyəli folklor araşdırmaçıları Səlahəddin Dündar və Heydər Çətinqaya da öz araşdırmalarında geniş şərhlə izah etmişlər [**11**].

Bu amilin də qaynağı ondadır ki, zaman-zaman Borçalıdan miqrasiyalar, deportasiyalar (sürgünlər, köçkünlər) vaxtı sənətkarlar bu yurddan məhz Axısqaya, Göyçəyə, Ağbabaya, Qarsa, Urmiyaya, həmçinin Qazağa, Qarabağa getmişlər. Və borçalılar təzə yurdda öz əzəli adət-ənənələrini, ələlxüsus da saz-söz ləngərini saxlamışlar" [**6, 110**].

Qazax, Borçalı, Göyçə, Qars ədəbi mühitinin sənət əlaqələri Azərbaycan ədəbiyyatı üçün önəmini dəyərləndirmiş olur. Beləliklə, demək mümkündür ki, Azərbaycanda qərb bölgələrinin aşıq mühitləri daha dəqiq desək Borçalı, Axısqa, Göyçə və Qars ədəbi mühitlərinin qarşılıqlı sənət əlaqəsinin, mövzu çevrəsinin sintezidir. Və bu bölgələri bir-birinə sənət vəhdəti birləşdirir. Şərqiyyə Həziyevanın Qars Aşıq mühitinin elmi-kulturoloji tədqiqi probleminə dair məqaləsindəki aşağıdakı fikirləri düşüncələrimizi bir daha təsdiqləyir: "Qars aşıq mühitinin Azərbaycan mədəniyyətində özünəməxsus yeri danılmazdır və fikrimizcə, yalnız Borçalı, Göyçə və digər aşıq məktəbləri ilə tarixi-müqayisəli təhlillər yolu ilə bu özəlliyin bütün təfərrüatlarını ortaya qoymaq olar [**8**].

Aşıq yaradıcılığı dünyanın poetik dərkinin ifadə forması olaraq gerçəkliyi, mənəviyyatı sənət səviyyəsində dəyərləndirir. Aşıq yaradıcılığı həm də yüksək bəşəri ideyalar daşıyaraq mahiyyət etibarilə xalqın arzularının tərənnümündən ibarətdir. Bəşəri mövzuların aşıqlar tərəfindən diqqətdə olması da məhz bu səbəbdən yaranmışdır. Belə ki, Vətən, ana, təbiət və məhəbbət aşıq yaradıcılığında aparıcı mövzu olub. Ümumiyyətlə, klassik vətən, ana, təbiət və məhəbbət mövzusu müxtəlif zamanlarda və müxtəlif aşıqlar tərəfindən işlənsə də, hər zaman həm yeniliyi, həm də canlılığı ilə seçilir. Dəfələrlə deyildiyi kimi, klassik mövzulara qayıtmaq keçmişə qayıtmaq deyil, aşıq sənətinin əsrlərcə cilalanmış kanonik qanunlarını qorumaq cəhdi, aşığı aşıq edən sənət prinsiplərini qoruyub saxlamaq idi. M.Həkimovun da yazdığı kimi, aşıq ədəbiyyatında indi də əsas yer tutan klassik ənənələrin (təbiətin tərənnümü, məhəbbət lirikası, vətən həsrəti, yurd nisgili) aşıqların, istərsə də el şairlərinin yaradıcılığında öz əksini tapması qanunauyğun mədəni hadisədir [**4**].

Təbii ki, aşıq ədəbiyyatında bütün zamanlarda məhəbbət mövzusu aparıcı olmuşdur. Belə ki, klassik aşıqlarımızdan tutmuş müasir dövrə qədər aşıq şerində məhəbbət mövzusu hər zaman insan hisslərinin tərənnümçüsü, poeziyanın ayrılmaz mövzusu olmuşdur. Məhəbbət mövzusu qədim zamanlardan həm şairləri, həm də aşıqları özünə cəlb etmişdir. Aşıq yaradıcılığında aparıcı mövzulardan olan məhəbbət isə tək qadına, sevgiliyə olan hiss deyildir. Vətənə, anaya məhəbbət, təbiətə məhəbbət, övlada məhəbbət və s. formalarda da özünün ruhi müvazinətini saxlayır. Bu baxımdan Xəstə Qasımın yaradıcılığında tərənnüm olunan məhəbbət anlayışı geniş mənaya malik bəşəri anlayışdır.

*Xəstə Qasım, tamam oldu sözlərim,*
*Eşq ucundan kabab oldu gözlərim,*
*Qərib yerdə, yad ölkədə, gözlərim,*
*Vətən deyib ağla, ağlar qal indi [**12, 23**].*

Odur ki, təbliğ olunan məhəbbət anlayışı təkcə sevgilini yox, insanlığı, doğma yurda olan sevgini, yurd həsrətini də özündə ehtiva edir.

Sarı Aşıq, Aşıq Qurbani, Abbas Tufarqanlı, Aşıq Alı, Aşıq Ələsgər, Hüseyn Bozalqanlı, Xəyyat Mirzə, Xəstə Qasım, Hüseyn Şəmkirli, Aşıq Abdulla, Aşıq Əsəd müasirlərindən Növrəs İman, Aşıq Avdı, Dərya Məhəmməd, Əmrah Gülməmmədov, Aşıq Bəhram və.s. kimi ustad aşıqların yaradıcılığında məhəbbət lirikası mövzu və məzmun baxımından rəngarəngdir. Dünyanı fəth edən, insan qəlbini ovsunlayan, şairlərin ilham pərisinə çevrilən eşq klassik ənənə baxımından aşıq şeirinin əsas qaynağı olmuşdur.

*Sən mənim sultanım, sən mənim canım,*
*Oyan, gözlərinə qurban olduğum.*
*Sən cavan vicdanın, sən mənim canım,*
*Oyan, gözlərinə qurban olduğum.*

**Yaxud:**

*Mən səni istərəm dildə, duvada,*
*Səni and verirəm o min bir ada.*
*Köhnə sevgilinəm məni sal yada,*
*Oyan, gözlərinə qurban olduğum [**5, 359**].*

Bütün başqa sevgililər kimi, Aşıq Bəhrəmin [Həsənov Bəhrəm] sevgilisi də ona zülm edən, cəfa çəkdirən sənəmdir. Aşıq onun zülmündən, laqeydliyindən şikayətlənsə də, ancaq sevgilisinin eşqi ilə odlara tutuşub yandığını söyləyir, buna baxmayaraq dərdinin çarəsini yenə də onda axtarır. Bu klassik aşıq mövzusunda həm məhəbbət, həm ayrılıq, həm də vüsal həsrəti vardır. Şair sanki əlacsız qaldığından sevgilisinin ona həmdərd olmasını istəyir. Aşıq Bəhrəm dastançı aşıq olub. Zənnimizcə elə bu səbəbdən də aşıq bu şeiri "Tahir-Zöhrə" dastanında aşağıdakı şeirdən bəhrələnərək yazılıb. Dastanda Tahar Mirzə sevgilisi Zöhrəni oyatmaq üçün belə deyir:

*Dan yerinə yenə düşdü nişana,*
*Oyan, gözlərinə qurban olduğum.*
*Uşdu şeyda bülbül qondu gülşana,*
*Oyan, gözlərinə qurban olduğum.*

*Alma atdım yastığına dayandı,*
*Yastığın da al qırmızı boyandı.*
*Sənnən yatan qız-gəlinnər oyandı,*
*Oyan, gözlərinə qurban olduğum [**3, 185**].*

Hər iki şeirdə "Oyan gözlərinə qurban olum" ifadəsi işlənmişdir. Burada hər iki aşıq sevgilisini oyadarkən onun gözlərinə qurban olduqlarını dilə gətirirlər. Aşıq Veysəlin yaradıcılığında eşq, sevgi, həsrət də bu baxımdan diqqətçəkicidir:

*Ala gözlü benli dilber,*
*Bir gün gelsen bize doğru.*
*Seni sevdim canü dilden*
*Çekme kendini naza doğru.*
*Ne pervam var ne de perdem,*
*Sanma beni hali bir dem.*
*Söyler seni teller her dem*
*Kulak versen saza doğru.*
*Aşığa zülfükar isen,*
*Gülşende güle zar isen.*
*Hakikatli bir yâr isen*
*Ben geleyim size doğru.*
*Gönülleri bir edelim,*
*Gayrileri biz nidelim.*
*İkimiz de bir gidelim*
*Yürüyelim ize doğru.*
*Bir gün için feryadı zar,*
*Bülbül eder her dem seher.*
*Aç sinemi gel gör ne var*
*Arttı derdim yüze doğru.*
*Kafi derdim bir derd katma,*
*Veysel'i yabana atma.*
*Kerem eyle çok uzatma*
*Kavuşalım yaza doğru [**12**].*

Aşıq yaradıcılığında məhəbbət mövzulu klassik sənətdən gələn "qəddi çinar", "beli nazik", "gümüş kəmər", "qələm qaşlı", "gözü xumar", "bəxtəvər" kimi ifadələr daha çox işlənir. Aşığın məhəbbət şerində təsvir edilən sevdiyi gözəl bal dodaqlı, al yanaqlıdır. Aşıq belə bir gözəlin eşqinə görə minnət hissi keçirir. Aşıq Avdının aşağıdakı qoşması bu baxımdan klassik aşıq şerinin gözəl nümunələrindən biri sayıla bilər:

*Hüsnün mərhəmətinə ziyarətim var,*
*Üzü lala, yanaxları al gülüm.*
*Hökmün var, daha oldum beyqərar,*
*Dili dərman, dodaqları bal gülüm.*

*Soruşum əhvalını, sıxım əlini,*
*Qoy bilim məqsədini, xiyalını,*
*Xəstənəm təbibim, kəsmə yolunu,*
*Hərdən dolan bu yanlara gəl gülüm.*

*Bilirəm deməzsən necoldu Avdı,*
*Onun cəsədini yandırdı odu,*
*Kənar gəzmə bircə sənsən muradı,*
*Sinəsinin sazı, tarı ol, gülüm [**5, 220**].*

Aşıq Ələsgərin yaradıcılığında klassik aşıq sənəti ənənələrinin inkişaf etdirilməsinin, aşıq şerinin müxtəlif şəkil və formalarında orijinal nümunələrin yaranmasının şahidi oluruq. Burada klassik forma dedikdə qoşma, gəraylı, bayatı, divani şeir şəkilləri nəzərdə tutulur. XX əsr ustad aşıqların yaradıcılığında əsasən qoşma və onun müxtəlif növləri, gəraylı, divani daha çox nəzərə çarpır. Bütün bunlar təbii ki, klassik şeir şəklinin yaşadılması mənasına gəlir. Ancaq unutmamaq lazımdır ki, bu şeir şəkilləri bütün zamanlarda aşıq poeziyasının ədəbi-estetik şeir texnikasının təməlində durmuşdur. Ona görə də klassik ənənə dedikdə bu janrların və şeir şəkillərinin müasir aşıq poeziya-

sında yaşadılmasından daha çox bu şeir formalarının aşıq sənəti üçün spesifikliyindən danışmaq lazımdır. Çünki bütün zamanlarda aşıqlar qoşma, gəraylı, təcnis, divani, müxəmməs yazmışlar.

*A bimürvət, axı səndən ötəri*
*Ah çəkməkdən bağrım qana dönübdü.*
*Qədd əyilib, gül irəngim saralıb,*
*Xəzan dəymiş gülüstana dönübdü.*

*Dindirirəm, danışmırsan, gülmürsən,*
*Xəbər alıb ev halını bilmirsən,*
*Endiribən məclisimə gəlmirsən,*
*Yoxsa, taxtın Süleymana dönübdü [**1, 42**].*

Aşıq "A bimürvət, axı səndən ötəri ah çəkməkdən bağrım qana dönübdü" deməklə yarını canidildən sevdiyini nəzərə çatdırır. Aşıq göstərir ki, gül qəddi əyilərək xəzan dəymiş gülüstana dönsə də sevgi qarşısında acizdir. Məhəbbət mövzusunda klassik aşıq yaradıcılığı üçün spesifik olan həsrət, ayrılıq, yarın vəfasızlığı, hicran kimi motivlər də yer alır. Sovet dönəminin aşıqlarının yaradıcılığında da məhəbbət lirikasında aşiqin kədəri, sinəsinə çəkilən dağ, ayrılıq həsrəti yanıqlı bir dillə tərənnüm edilir. Aşıq Sadıq Abdıyevin məhəbbət lirikasında qəmli motivlər üstünlük təşkil edir:

*Məni eşq oduna salan bivəfa,*
*Çəkmisən dağ üstdən dağı sən mənə.*
*Ya zillətdən qurtar, ya al canımı,*
*Olmusan insafsız yağı sən mənə.*

Aşığın digər bir qoşmasında da ayrılıqdan, hicran dərdindən söhbət açılır:

*Başına döndüyüm mehriban yarım,*
*Qoy deyim dərdimi, bil ayrılanda.*
*Bil ki, yaman olur hicran həsrəti,*
*Gəl gözüm yaşını sil ayrılanda [**5, 582-583**].*

Yuxarıda sadalanan şeir növlərinin əsas mövzusunu da məhəbbət lirikası təşkil etmişdir. Məhəbbət hisslərinin, duyğularının təsviri aşıqların klassik mövzular içində ən çox müraciət etdiyi mövzudur. Bu mövzuda aşıqlar sadəcə ənənəni yaşatmaqla qalmamış, eyni zamanda, istər deyim, istər tərənnüm, istər məcaz, istərsə də bənzətmə baxımından aşıq sənətinə yeniliklər də gətirmişlər. Abdulla Padarlı məhəbbət mövzusunda yazdığı qoşma və gəraylılarında sevdiyi gözələ incə hisslər tərənnüm edərək təsvir etdiyi hadisənin canlı mənzərəsini yarada bilir:

*Nə tutmusan qızıl yəhər qaşımdan,*
*Qəm çəkmə sən gözdən axan yaşımdan.*
*Sən ki, getsən ağlım gedər başımdan,*
*Get gözəl, səfərin mübarək olsun [**2, 7**].*

Azərbaycan aşıq şerinin klassik ənənələri (təbiət təsviri, məhəbbət lirikası, yurd həsrəti, vətən nisgili) müasir dövr yaradıcı aşıqlar tərəfindən də davam etdirilir. Aşıqların şeirlərində sevgiliyə olan saf məhəbbət özünəməxsus boyalarla təsvir edilərək gözəlləri asta yerişli, kəklik gülüşlü, ceyran baxışlı, gül camallı, şirin dilli, ismətli, həyalı adlandırır, onların sevgisini uca tuturlar. Burada maraqlı nüans aşıqların çox vaxt sevgililərinin adını gizli saxlamaları, onlara İsmi Pünhan, Leyli, Mehriban, Sarıtel və ya ümumi bir sifətlə ay gözəl, laləm, bənövşəm deyə xitab etmələridir. Bu cəhətdən Ustad aşıq Növrəs İmanın, Aşıq Ələsgərin, aşıq Avdının yaradıcılığını spesifik xarakter daşıyır.

Türkdilli xalqların ümumbəşəri mövzuları tədqiqat obyektinə çevrilməsinə baxmayaraq, aydınlaşmamış məqamlar qalmaqdadır.

**Xülasə**

Aşıq yaradıcılığı xalqın həyatı ilə sıx bağlı olduğundan hər dövrdə zənginləşmiş, kamil sənətəsəri olmuş və bu günə qədər müxtəlif mərhələlər keçirmişdir. Şifahi mədəniyyət hadisəsi kimi aşıq sənəti xalqımızın milli duyum və düşüncə tərzini, saz (musiqi) və söz birliyini özündə yaşadan, klassik ənənəyə bağlı yaşam fəlsəfəsidir. Məqalədə aşıq sənətinin bəşəri mövzuları olan Vətən, ana, torpaq, sevgi bir çox aşıqların yaradıcılığında öz əksini tapmışdır.

**Резюме**

Ашыгское творчество тесно связано с жизнью народа и с каждым новым периодом оно обогащается и становится более совершенным произведением искусства, которая по сей день проходит различные этапы своего развития. Ашыгское искусство как явление устного творчества является философией образа мышления нашего народа, его (музыки) саза, которая продолжает существовать в искусстве слова и находит свое место в классических традициях. В данной статье рассказывается о таких универсальных темах ашигского творчества как любовь, Родина, мать, Земля, которые находят свое отражение в творчестве многих мастеров данного искусства.

**Summary**

Having a close connection with the life of the nation ashug activity has become rich in all times, it has become the work of art and has passed the different periods till today. As an oral culture event the ashug activity is the life philoshopy belonging to the classic traditions which connects the style of the national sense and meditation, saz (music) and the unity of the word.

In the article being the human themes such as the native land, mother, land, love are appeared in the activities of some ashugs.

**Ədəbiyyat:**

1.Aşıq Ələsgər, seçilmiş əsərləri, "Şərq-qərb" nəşriyyatı, Bakı 2004

2.Abdulla Padarlı, seçilmiş şeirlər, toplayanı Əzizə Cəfərzadə, Gənclik Bakı. 1979,

3.Azərbaycan folklor külliyyatı, 30-cu cild. Dastanlar / toplayıb tərtib edən Elxan Məmmədli. Bakı: Elm və təhsil, 2012, 419 s.

4.Həkimov M. Azərbaycan klassik aşıq yaradıcılığı. Bakı: APİ, 1982, 85 s.

5.Qəsəbova İ. XX əsr Qazax aşıqları və el şairləri. Bakı: Nurlan, 2009, 708 s.

6.Həziyeva Ş. Qars aşıq mühitinin elmi-kultroloji tədqiqi probleminə dair / Elmi əsərlər // www.elmart.admiu.edu.az

7.Memmedli Ş. Aşık Şenlik Baba ve Borçalı / Uluslararası Aşık Şenlik Sempozyum- Kafkaz Universiteti // www.turansam.org

8.Terekemeler (Karapapak Türkleri) // www.blog.milliyet.com.tr

9.Həziyeva Ş. Qars aşıq mühitinin elmi-kultroloji tədqiqi probleminə dair / Elmi əsərlər // www.elmart.admiu.edu.az

10.Memmedli Ş. Aşık Şenlik Baba ve Borçalı / Uluslararası Aşık Şenlik Sempozyum- Kafkaz Universiteti // www.turansam.org

11.Terekemeler (Karapapak Türkleri) // www.blog.milliyet.com.tr

12.Xəstə Qasım, "46 şeir" Gənclik Bakı, 1975

13.www.turkedebiyati.org/sairler/asikveysel.html

**Məcidova Reyhan**
**Mahmudova Şəfəq**
**AMEA Şəki Regional Elmi Mərkəzi**
**Azərbaycan, Şəki**

# QƏDİM ŞƏKİNİN MİLLİ OYUNLARI

***Açar sözlər:*** *qədim Şəki, milli oyunlar, ağac, daş, təbiət, təbiət, kompüter*
***Ключевые слова:*** *древний Шеки, национальные игры, дерево, камень, природа, компьютер.*
***Key words:*** *ancient Sheki, national games, wood, stone, nature, computer*

Müşahidələr göstərir ki, sivilizasiyanın inkişafı ilə bağlı bir çox milli oyunlar tamamilə unudulur, bəzi oyunlar isə unudulmaqdadır. Bu gün yetişməkdə olan nəsil çox təəssüf ki, bu cür oyunlardan məhrumdur. Yaşadığımız kompüter əsrində uşaqlarımızın yeganə əyləncəsi kompüter və telefon, daha dəqiq desək, internet oyunlarıdır. Bu isə uşaqlarda həm fiziki, həm də psixoloji problemlərin yaranmasına səbəb olan ən böyük amildir. Təbiətlə təmasdan məhrum olan və yalnız kompüterin zəhərli şüalarını qəbul edən uşaqlarda müxtəlif xəstəliklərin yaranması ehtimalı daha yüksəkdir.

Bu cür uşaqlarda özünəqapanma, depressiyaya düşmə hallarına çox rast gəlinir. Tədricən gözlər zəifləyir, beyin həddindən artıq yükləndiyi üçün yaddaşsızlıq yaranır. Eyni zamanda bəzən oturaq həyat tərzi keçirdiyi üçün uşaqlarda artıq çəki, sümüklərdə əyilmələr daha bir çox xəstəliklər də yaranır. Eqoizm, pessimizm, autizm (özünəqapanma) kontaktın zəifləməsi, stress, əsəbilik, gərginlik, zehni yorğunluq, diqqət yayğınlığı (pozğunluğu) əmələ gəlir. Bu isə gələcək nəslin intiharına səbəb ola biləcək amillərdən birincisidir.

Xalq arasında uşaqlarla bağlı atalar sözlərinin yaranması da heç də təsadüfi deyil. Övladlarınıza qayğı göstərin. Böyüklərə hörmət kiçiklərə məhəbbətdən başlayır. Uşaq olan evdə söz-söhbət olmaz və s.

Milli oyunlar Məmməd Dadaşzadə, Azad Nəbiyev, Mürsəl Həkimov, Ramazan Qafarlı kimi görkəmli folklorşünas alimlər tərəfindən tədqiq edilmişdir.

İnsanlarda var olmaq, özünütəsdiq və yaratmaq tələbatı erkən yaşlarından oyanır və zaman keçdikcə yeniyetməlik çağlarında daha da inkişaf edir. İnsanlarda hər cür yaradıcılıq qabiliyyətinin formalaşmasında ən böyük amil fəaliyyət növləridir, hansı ki, bunların hər birinin müxtəlif yaş dövrlərində özünəməxsus prioritetliyi vardır. İnsanın formalaşmasında yeri olan fəaliyyət növləri sırasında oyunların xüsusi rolu vardır. İnsanlar oyunlar zamanı qarşıya qoyulan məsələlərin həllinə çalışır, bir sıra hadisələr arasında daxili rabitə olduğunu müəyyənləşdirir, müşahidələrini ümumləşdirib nəticələr çıxarır və mühakimələr yürütməli olurlar. Onlar oyunların köməyilə nizam –intizam qaydalarını mənimsəyir, arzuolunan adət və vərdişlərə yiyələnir, birgəfəaliyyət, ünsiyyət qaydalarını öyrənir, ən əsası da yoldaşlıq, dostluq münasibətlərinin subyektlərinə çevrilirlər.

Burada sovet pedaqoqu V.A.Suxomlinskinin fikirlərini xatırlamaq yerinə düşər. "Oyunlar ilk yaşlarından uşaqların əlindən tutaraq sanki onları elm qalasına, çətinliklər və mübarizələrlə zəngin olan mənəviyyat dünyasına aparır. Xalq oyunları müdrik baba kimi uşaqlara yol göstərir, gah cüssəli bir pəhləvan kimi onları mübarizəyə çağırır, gah da qayğıkeş ana kimi laylay çalır" [**11; 2**].

Təcrübə və müşahidələr göstərir ki, daha çox kiçik yaşlı uşaqlar tərəfindən yaradılan oyunlar hətta yeniyetmələr tərəfindən də maraqla qarşılanır və həvəslə oynanırdı. Deməli, insanlar yeriməyi dərk edən gündən oynamağa başlayırlar. Bu oynamaq həvəsi oyuncaqla başlayıb, söz oyunları ilə davam edərkən məntiqi təfəkkürün, fiziki, mənəvi, psixoloji inkişafın formalaşmasına yardımçı olur. Çünki uşaqlar artıq yeniyetməlik çağından sonra demək olar ki, söz oyunlarına daha çox üstünlük verirlər.

Oyunlar üçün təqlidçilik, dinamiklik, yumor, komik hərəkətlər, cildəgirmə və s. xarakterkdir. Demək olar ki, əksər oyunlarda insanlar uşaqlıqdan başlayaraq öz aktyorluq məharətlərini göstərirlər. Bu səbəbdən də oyunlarda dram ünsürlərinin olduğunu aydınca müşahidə etmək olar.

Söylənilənlər zəmanəsinin klassikləri səviyyəsinə yüksəlmiş insanlar tərəfindən təsdiq edilibdir. Fikrimizi əyanilәşdirən bəzi mülahizələrə nəzər yetirək.

Görkəmli Azərbaycan filosofu və astronomu Nəsrəddin Tusi "Əxlaq Nasiri" əsərində yazır: " Uşaq hər vaxt oynamaq istəsə, icazə verilməlidir, lakin oyun gözəl olmalıdır, yorub əldən salmamalı, körpənin qanını qaraltmamalı, zehnini kütləşdirməməli, təlim və tərbiyəsini çətinləşdirməməlidir" [**9; 160**]. Bu fikrin əlavə şərhə ehtiyacı yoxdur. Danılmazdır ki, oyunlar şəxsiyyətin formalaşmasına yardımçı olur ki, bu da oyunların gələcək nəslin əsil şəxsiyyət kimi yetişməsində əvəzsiz vasitə olduğunu söyləməyə əsas verir. Oyun zamanı uşaqların təfəkkürü, nitqi, hafizəsi, təxəyyülü, diqqəti fəaliyyətdə olur.

N.K.Krupskaya haqlı olaraq vurğulayırdı ki, "Oyunda uşağın gözü iti görür, zirəkliyi, təşəbbüskarlığı inkişaf edir, iradəsi möhkəmlənir" [**10; 28**].

Böyük zəka sahibləri, psixoloq alimlər, insanşünaslar təsdiqləyirlər ki, hərəkətli oyunlar fiziki inkişafa, söz oyunları isə zehni və psixi inkişafa kömək edir.

Prof. R.Qafarlı "Uşaq folklorunun janr sistemi və poetikası" kitabında yazır: "Uşaqların oyun fəaliyyətində iki mühüm məsələ diqqəti cəlb edir: bir tərəfdən oyunlarla uşaqlar praktik fəaliyyətə başlayırlar, sərbəstliyə öyrəşirlər, digər tərəfdən bu fəaliyyət nəticəsində mənəvi və estetik zövq alır, əhatə olunduqları ətraf mühüti dərk etməyə çalışırlar. Bütün bunlar son nəticədə uşaqların həm fiziki, həm də mənəvi inkişafına kömək edir, onların şəxsiyyətini formalaşdırır" [**7; 477**]

Oyunların uşaq, yeniyetmə və gənclərin həyatında əhəmiyyətini ümumiləşdirərək aşağıdakı nəticələrə gəlirik:

1. İnsanlar arasında ünsiyyət formalaşır.
2. Uşaq, yeniyetmə və gənclərin fiziki, mənəvi, psixoloji və intellektual inkişafına təkan verir, onların kamilləşməsində və cəmiyyətə inteqrasiyasında müsbət rol oynayır.
3. İnsanların komandada işləmək qabiliyyəti aşılanır.
4. Təfəkkürün, nitqin, diqqətin, hafizənin fəaliyyətinə kömək edir.
5. Müşahidəçilik qabiliyyətini artırır.
6. Uşaq, yeniyetmə və gənclərin pis vərdişlərdən cəkinməsində, faydalı əmək vərdişlərinin və həyat eşqinin formalaşmasında müsbət rol oynayır.
7. İnsanların təbiət amillərindən istifadə və faydalanma qabiliyyətinin aşılanmasına təkan verir.
8. Uşaq, yeniyetmə və gənclərin analitik düşünmə, təhlil və ekstremal hallardan çıxmaq qabiliyyətlərinin formalaşmasına, ümumi motivasiyasına müsbət təsir göstərir.
9. Nizam-intizam qaydalarını öyrənməyi, qayda-qanuna əməl etməyi aşılayır.
10. Liderlik və həm də mühafizəkarlıq hisslərinin formalaşmasına təsir edir.
11. Milli və mənəvi dəyərlərin qorunub saxlanmasında, təbliğ və təşviqində mühüm rol oynayır.
12. Müxtəlif millətlərin nümayəndələri arasında dostluğun və əməkdaşlığın yaranmasına təkan verir.

Burada onu da qeyd etməliyik ki, Şəkidə özünə yer alan müəyyən oyunlar Azərbaycanın digər bölgələrində də oynanılır. Bəzilərinin adı başqa, qaydası eyni, bir qisminin adı eyni olsa da oyun qaydası başqadır. Şəkidə oynanılan oyunlara oxşar oyunlar daha çox Gəncəbasar və Ağbaba bölgəsinə məxsusdur. Məsələn: Gəncəbasarda "Çiling-ağac" "Xan-vəzir", "Siçan-pişik", "Dala yaylıq atma", "Beşdaş", "Ənzəli", "Bənövşə", "Yeddi daş" (Şəkidə 7 kirəmit) oyunlarının oyun texnologiyası eynidir, lakin Ağbabada "Dala yaylıq atma", "Siçan pişik", "Əl üstə kimin əli" kimi oyunlar ad baxımından eynilik təşkil etsə də oyun texnologiyası fərqlidir.

## Xülasə

Azərbaycanın ayrı-ayrı bölgələrində mövcud olan fərqli və oxşar folklor nümunələri, adət-ənənələr xalqımızın milli sərvətidir. Yurdumuzun hər qarışı bu cür sərvətlərlə zəngindir. Şəki bölgəsinin də özünəməxsus, zəngin, əlvan folklor nümunələri, adət-ənənələri vardır. Bunlardan biri də olduqca maraqlı, faydalı hesab edilən milli oyunlardır. Şəki folklor və etnoqrafiyası nümunələri janr müxtəlifliyi, spesifik əlamətləri və zəngin informasiya tutumuna görə Azərbaycan folklorşünaslığı və etnoqrafiyasında mühüm yer tutur.

Məqalədə uzun illərdən bəri Şəki şəhəri ərazisində tarixən oynanılan milli oyunlar haqqında söhbət açılır, onların oyun qaydası tədqiq edilir, mahiyyəti və əhəmiyyəti təhlil müstəvisinə çıxarılır. Eyni zamanda

insanların və cəmiyyətin inkişafında oyunların faydası araşdırılaraq cəmiyyətdə bu günkü oyunlarla digər bölgələrdəki oyunlar arasında müqayisələr aparılır.

**Резюме**

Отличительные и аналогичные фольклорные образцы имеющиеся в отдельных регионах Азербайджана являются национальным богатством нашего народа. Каждый дюйм нашей страны богат такими ресурсами. И у Шекинского региона имеются богатые, яркие фольклорные образцы, традиции. Одним из них является национальные игры, считающиеся интересными и полезными. Шекинские фольклорные и этнографические образцы по своему жанровому разнообразию, специфическому признаку и в соответствии с отношением к богатой информации занимает важное место в Азербайджанском фольклоре и этнографии.

В статье говорится об национальных играх, которые игрались в течение многих лет в Шекинском регионе, исследуется правила игры, анализируется их сущность и важность. В то же время путем анализа ведется сравнение пользы игр в развитии людей и общества между играми сыгранные сегодня у нас и в других областях.

**Summary**

There are different and similar folklore samples and ancient customs and traditions in different regions of Azerbaijan and they are our national wealth. Every inch of our land is rich with such resources. The region of Sheki has the unique, rich, colorful folklore samples and customs- traditions. One of them is the national game which is very interesting and useful. Sheki folklore and ethnography samples occupy an important place in Azerbaijan folklore and ethnography according to their capacity of specific features, genre diversity and rich information.

The article is spoken national games which historically have been played many years ago in the territory of the Sheki town, investigated the rule of the game, the essence and importance of analysis is submitted. At the same time, the benefits of the games have been investigated in the development of people and society. At present comparisons between played games in society and played games in other regions are investigated.

**Ədəbiyyat:**

1) Azərbaycan folklor antologiyası IX cild Gəncəbasar folkloru. Bakı, Səda -2004.
2) Azərbaycan folklor antologiyası VIII cild Ağbaba folkloru. Bakı, 2003.
3) Azərbaycan folklor antologiyası XI cild Şirvan folkloru. Bakı, 2005.
4) Azərbaycan folklor antologiyası VII cild Qaraqoyunlu folkloru. Bakı, "Səda" 2002.
5) Azərbaycan folklor antologiyası XII cild Zəngəzur folkloru. Bakı, Səda 2005.
6) Elçin Aslanov. "El-oba oyunu xalq tamaşası". Bakı, İşıq, 1984.
7) Şəki folklor örnəkləri. I cild. Bakı, 2014.
8) R.Qafarlı. Uşaq folklorunun janr sistemi və poetikası. Elm və təhsil, Bakı, 2013.
9) N.Tusi. Əxlaq Nasiri. Bakı, 1980.
10) Krupskaya. Sobraniye soçineniy. Moskva, 1959.
11) B.A.Suxomlinski. İzbrannıe pedaqoqiçeskie soçineniya. Tom1. Moskva, Pedaqoqika 1979.

## DÖRDÜNCÜ BÖLMƏ
*Azərbaycan folklorunda fərqli mədəniyyət elementləri: tarixi və etnik aspektlər*

**Xəliyəddin Xəlilli, tarix üzrə fəlsəfə doktoru,**
**AMEA Etnoqrafiya və Arxeologiya İnstitutu,**
**Azərbaycan, Bakı**

# AZƏRBAYCAN FOLKLORUNDA MÜXTƏLİFLİYİN MƏZMUN EYNİYYƏTİ

***Açar sözlər:*** *multikulturalizm, etnogenez, etnos, albanlar, aborigen*
***Ключевые слова:*** *мультикультурализм, этногенез, этнос, албанцы, аборигены.*
***Key words:*** *multiculturalism, ethnogeny, ethnicity, Albanians, natives*

Multikulturalizm anlayışı öz adını 1957-ci ildə İsveçrə dövlətinin milli münasibətlərindəki siyasi xəttinin xarakterizə edilməsindən sonra aldı. Bu termin 1971-ci ildə Kanadanın baş naziri Pyer E.Tryudonun hökuməti tərəfindən "Multikulturalizm haqqında rəsmi aktın" qəbul edildiyi andan rəsmi surətdə ictimai münasibətlərə daxil oldu. Kanadadan başqa, multikulturalizm Avstraliyanın milli münasibətləri üzrə dövlət siyasətinin əsasını təşkil edir. Fransada, İngiltərədə və Almaniyada isə multikulturalizm ideyası 1997-ci ildə, Böyük Britaniyada leykositlərin və 1998-ci ildə AFR-də yaşılların hakimiyyətə gəlməsindən sonra rəsmi olaraq tanındı [**15, 534**].

Multikulturalizm özünü kütləvi mədəniyyət nümunələrinin bəşəriyyətin inkişafı üçün səfərbər olunmasında, onun zənginləşməsində və inkişafında bu mədəniyyətlərin paralel mövcudluğu ilə nəticələn tolerantlıq aspektindən ifadə edir, Avropanın mədəni cəhətdən yüksək inkişaf etmiş ölkələrində multikulturalizm sahəsində müəyyən uğurlar da qazanılmışdır. Lakin son illərdə İngiltərə, Fransa, Almaniyanın dövlət və hökumət başçıları ölkələrində multikulturalizmin süquta uğradığını rəsmi elan etməklə bərabər, bu nəzəriyyənin, həyat tərzinin əleyhinə çıxış etdilər. Göründüyü kimi, kommunist beynəlmiləlçiliyinin Avropa multikulturalizmi ilə əvəz olunmasından qorxmağımızda səhv etməmişik. Tarix, zaman haqlı olduğumuzu qısa müddətdə nümayiş etdirdi. Avropanın dövlət siyasətinin əsasında özünəməxsus mənafe durduğu bir daha, bütün incəliyi ilə aşkar oldu.

Multikulturalizm kimi bu humanist nəzəriyyədən qorxmağa dəyərmi, bunun üçün əsas varmı? Göründüyü kimi var. Özlərini bəşəri humanizmin yaradıcıları kimi göstərən Avropa dövlətləri bu nəzəriyyədən ancaq məqsədə müvafiq istifadə edirlər. Ən pisi, təhlükəlisi odur ki, onlar bu humanist, bəşəri nəzəriyənin elementlərinə milli mədəniyyətlər üçün pozucu, dağıdıcı olan elementlər daxil edir və ixrac edirlər. Vətənimizin, millətimizin belə dağıdıcı elementlərə məruz qalmayacağına heç kim zəmanət verə bilməz.

AMEA Folklor İnstitutundan 19-20 may 2016-cı il tarixdə Zaqatala rayonunda keçiriləcək "Azərbaycan folkloru və mədəni müxtəliflik" adlı beynəlxalq konfransda iştirak edəcəyimi dəqiqləşdirəndə öncə bir qədər həyəcanlandım, lakin bu mövzuda konfransın məhz Folklor İnstitutuna tapşırılması məni sakitləşdirdi. Həyəcanım ruh yüksəkliyi ilə əvəz olundu.

Hafizəmdə mərhum, vətənpərvər tarixçimiz Vaqif Piriyevin "Doğma Azərbaycanımızın müasir etnik mənzərəsinə diqqət yetirsək, rəngarəng naxışları ilə dünya şöhrəti qazanmış xalçalarımızı, min bir ətir saçan tər çiçəklərlə bəzənmiş gülzarımızı xatırladır. Onun hər bir guşəsində, hər bir səmtində məskunlaşmış etnik qruplar, xalqlar "Azərbaycan" adlı xalçalarımızın naxışları, gülzarın çiçəkləridir" [**22, 3**] sözlərini canlandırdı.

Mətanət Yaqubqızının Şəki-Zaqatala zonasının folklor materialı əsasında Azərbaycan multikulturalizminin səbəbləri haqqında yazır: "Ən qədim dövrlərdən başlayaraq eyni bütlərə, tanrılara, pirlərə inanan region əhalisi qismən yaxın dövrlərdə müxtəlif səmavi dinlərə iman gətirmişdir. Bununla belə regionda yaşayan bütün xalqlar və etnik qruplar onlar üçün ortaq olan qədim pirlərini, ziyarət yerlərini unutmamışlar. Region ərazisindəki "dilək piri", "göz piri", "yel piri", "uşaq piri" və bunun kimi yüzlərlə müqəddəs yer, bu gün belə dilindən və dinindən asılı olmayaraq bütün region əhalisinin ortaq dəyərləri mahiyyətini daşımaqda davam edir" [**11, 147**]. Tamamilə düzgün mülahizədir, lakin müxtəlif dilli etnosun eyni məzmunlu vahid mədəniyyət yaratmasının daha bir alt qatı da var. Belə ki, Azərbaycan xalqını təşkil edən bütün etnoqrafik və

etnik qruplar antropoloji cəhətdən, fiziki tipcə, həm də mədəniyyətcə yekcins olmuş "etnogenezi yerli - aborgen etnik mədəniyyət əsasında formalaşmışdır" [**13; 14; 28; 29; 31,92; 30**] .

Hələ kommunist rus imperiyasının əzəmətli illərində korkoranə sifariş yerinə yetirərək proletar, muzdur tarixçilərin türklərin Qafqaza gəlmə fikrinin tarixi və elmi həqiqəti ifadə etmədiyini əsaslandıran beynəlxalq səviyyəli alimlər olmuşdur. Dünyada antropologiya elminin ən nüfuzlu nümayəndələrindən Y.Y Roqinski yazırdı: "Digər tərəfdən, bəzi hallarda antrpoloji analizlər kütləvi miqrasiya haqqında hipotizləri inkar edir. Belə ki, Azərbaycanın türkdilli əhalisində monqoloid əlamətlərinin olmaması türk dilinin Şərqi Qafqazda monqoloid irqinə məxsus işğalçıların hücumunun nəticəsində yaranması fikrinin tamamilə inkar edilməsinə gətirib çıxarır" [**31, 340**].

Antropoloq, SSRİ EA Antropologiya İnstitutunun direktoru akademik V.Alekseyev yazır: Azərbaycanda qədim əhalinin antropoloji tipi hazırda necədirsə, eləcə də olmuşdur. Bunlar ensiz sifətli miniatür xəzərlər (kaspilər) idilər. Deməli, aqvanlar (albanlar) Azərbaycanlıların qohumları deyil, onların babaları və ulu babalarıdır" [**32,54**].

Elmi müddəaları ilə nəinki keçmiş Sovet imperiyasında, elmin inkişaf etdiyi qabaqcıl ölkələrində qəbul edilən arxeoloq, tarix elmləri doktoru, professor İsmayıl Miriyev yazır ki, Şimali Qafqazın eneolit və tunc dövrü mədəniyyətinin Ön Asiya, Şimali Mesopotomiya, Zaqafqaziya mədəniyyətinin təsiri altında formalaşması haqqında rus sovet tarixşünaslığında yetərincə məlumat verilmişdir [**33, 30-31**]. O, sözünə davam edərək yazır ki, dargin, ləzgi, avar, lak və b. bütövlükdə Qafqaz dil mühitində olan yaşayış məntəqələrində Qarabulaq, Qazanbulaq, Soyuqbulaq və b. hidronim və yer adları, mərkəzi Qafqazın 5000 m-dən yüksəklikdə yerləşən aşırımlarının, buzlaqlarının türkcə adını verən tayfalar və onun dövrü dəqiq müəyyən edilməlidir [**33, 36**]. Hələ ən qədim dövrdən Avropa ilə Asiya arasında dağ səddinin adının türkcə Qafqaz, onun zirvələri Elbrus, Kazbek və Dəmirçi adları türklərin burada aborigenliyinin təsdiqidir.

Milli həyatın bütün sahələri, bütün yaradıcılığı dildə ifadə olunduğu üçün multikulturalizm doğuran hiss, tələbat və mənəvi dəyərlər də birinci növbədə dil vasitəsilə müəyyənləşdirilə bilər. Böyük alman filosofu və dilçisi V.F.Humboldt hesab edir ki, dil ruhun və təfəkkürün fəaliyyətidir. İnsan ruhunda gerçəkliyin əksi vardır. V.F.Humboldt ruhu ilkin hesab edir. Belə nəticəyə gəlir ki, dil xalqın ruhundan doğur, dillərin müxtəlifliyi xalqların ruhunun müxtəlifliyindən asılıdır. O, dilin yaranmasını bəşəriyyətin daxili tələbatı ilə şərtləndirir. O, təkcə insanların cəmiyyətdə xarici ünsiyyət vasitəsi deyil, insanların təbiətinin əsasında dayanır, onların mənəvi qüvvələrinin inkişafı, dünyagörüşünün əmələ gəlməsi üçün zəruridir [**34, 101-102**].

Antropoloji və arxeoloji tədqiqatlar irqlərin üst paleolit - mezolit dövründə formalaşdığını göstərir. Bütün xalqları bir kökdən hesab edən antropoloqlar irqlərin müxtəlif iqlimlərin təsirindən yarandığını göstərirlər, Ön və Kiçik Asiyada yaranan avropoidləri birinci irq, monqoloid və neqroidləri ondan ayrılandan sonra düşdüyü yeni iqlimin təsirindən formalaşan irq hesab edirlər. Avropoidlərin gözünün və saçının qara rəngini qafqazlılardan aldığını göstərirlər. Coğrafi vəziyyətə görə Qafqazı Qərbi Avropa ilə müqayisədə insanın ilkin vətəni olmasını daha əsaslı hesab edirlər. Belə ki, Qafqaz üç - Asiya, Avropa və Afrika qitəsinin kəsişməsində yerləşməklə ilkin insanın məskunlaşması üçün vacib olan yüksək dağlarla daha zəngindir [**31, 365-368**].

Yuxarıda oxucuya təqdim etdiyimiz antropoloji və arxeoloji tədqiqatlar Kiçik Asiya, Zaqafqaziya, Xəzərətrafı bölgə vahid antropogenez zonası olmaqla, insan əcdadı - biososial varlığın, sosial-mənəvi varlığa - insana çevrilib, onun fasiləsiz təkamülü prosesində ilkin etnosların yarandığı ərazidir. Burada yaşayan xalqlar da məhz ilkin biososial - mənəvi təməlində yaranıb, yaşayıb, inkişaf edib gəlib günümüzə çatan xalqlardır. Onlardan biri və ən böyüyü Azərbaycan türkləridir.

Azərbaycan türkləri arasında bugünkü və gələcək nəsillərin bir erməninin - E.V.Sevortyanın "Türk dilinin etimoloji lüğəti" (M., 1974), rusların yazdığı "Qədim türk dilinin lüğəti" (M., 1969) əsərlərinin ümidinə qalmasından utanc keçirib, məhz türk təfəkkürü zəminində türk dilinin yaranış və inkişaf tarixini tədqiq edəndə bu dilin antropogenez zonasında qırılma, pozulma olmadan, ilkin varislik zəminində ulu dilin dialektlərindən birinin təməlində yaranan və inkişaf edən dil olması haqqında mülahizəmizin təsdiq olunacağına zərrə qədər şübhəmiz yoxdur.

Azərbaycan multikulturalizmindən bəhs edərkən ona görə birinci Azərbaycan türkcəsindən bəhs etdim ki, bu multikulturalizmin yaranmasında birləşdirici, vahidləşdirici, yaradıcı mənəvi əsas

onun vasitəsi ilə qurulur. Azərbaycan türkcəsinə qarşı çıxmaq, burada multikulturalizmin tarixi mövcudluğunu şübhə altına almaq, unutdurmaq, gələcəyinə kölgə salmaq məkrindən doğur.

Qafqaz dillərinin yaranması və inkişaf tarixi haqqında çoxsaylı mülahizələr var, onların bəzilərinin gəlmə olması da deyilmişdir. Qafqaz dillərinin də yaranma və inkişafı tarixi əsasən sovet imperiyasının ideoloji qəlibində yazıldığından gizli və açıq üsullarla bu dillərin gələcəyinə şübhə yaratmaq məqsədi güdmüşdür. Sətirlərin müəllifi Qafqaz dillərini, o cümlədən Azərbaycan türklərinin etnik tərkibində, tarixində iştirak edən, onunla birlikdə bugünkü multikultural mədəniyyətin yaradıcıları olan etnik qrupların dilini yerli, aborgen dil hesab edir.

Qafqaz-Azərbaycanda insanlığın biososial, mənəvi əsaslarının eyniyyətindən əlavə e.ə. IV minilliyin ikinci yarısı, İlk Tunc dövründə, ilk etnosların yaranma çağında Azərbaycanın Kür-Araz qovşağında yaranan bu adla adlandırılan mədəniyyət-etnik-mənəvi, ideoloji, sosial-iqtisadi münasibət bütün Qafqaz-şimalda, Çeçen-İnquş, Şimali Osetiyaya qədər, cənubda Cənubi Azərbaycan, İran, qərbdə Şərqi Anadolu və Suriyaya yayıldı, etnomənəvi münasibətlərə yaradıcılıq impulsu verdi [**12, 98-120; 35, 104-113**]. Artıq bu dövrdən ataxaqanlığın, ilk tayfa və tayfa ittifaqının yaranması çağında Azərbaycan türk tayfalarının etnososial və mənəvi təsir gücü bütün Qafqazı əhatə edir, xalqın yaranması üçün türk etnomədəni yadrosu formalaşır [**29, 38-56; 36**].

Vahid məkan Qafqaz-Azərbaycanda müxtəlif tayfaların arzu və istəklərini, tələbatlarını, ehtiyaclarını bir-birlərinə çatdırmaqla, ünsiyyətlərini qurmaqla etnomədəni-mənəvi özəyi yaradan və inkişafına mənəvi əsas verən türk dili idi. Hörmətli Mətanət xanımın Şəki-Zaqatala zonasında qeydə aldığı aya sitayiş, salavat çevirmə, ay məbədi, günəşə sitayiş, günəş allahı, ibtidai pirlər, inam və etiqadlar, andlar bütün Azərbaycanı əhatə edir. Dilindən, dinindən asılı olmayaraq, Azərbaycan xalqının bütün etnik və etnoqrafik qrupların əziz tutduğu mənəvi dəyərlər bu dövrün məhsuludur. Alban dövləti yaranana qədər əcdadlarımız olan müxtəlif dilli tayfalar arasında və Alban dövlətində türk dilinin ümumünsiyyət vasitəsi olması haqqında çoxsaylı mənbələr və tədqiqatlar var. Bunlar arasında ən mükəmməli Q.Voroşilin"Azərbaycan dilinin yazıdan əvvəlki dövrünə dair tədqiqatlar" (rusca, müştərək. B., 1986) və "Qafqaz Albaniyası" [B., 1993] adlı əsərləridir.

Qafqazda, Albaniyada çoxdillilik haqqında eradan əvvəlki və son dövrə aid mənbələrdə kifayət qədər məlumat var. Strabon yazır ki, albanlar 26 dildə danışırlar [37,21].

X əsrdə ərəb müəllifləri Qafqazda 70-dən 360-a qədər xalq olması haqqında məlumat verir. [**33, 12; 38, 111**].

Mətanət xanım problemin dil aspektindən bəhs edərkən, maksimum həssaslığa, dəqiqliyə can atsa da, yenə də Azərbaycan Sovet dilçiliyinin təzyiqi altında hazırlanmış konsepsiyanın təsirindən çıxa bilmir, bu nəzəriyyədən çıxış edərək, fikirlərini əsaslandırmağa üstünlük verir: "Substrat dil hadisəsi Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəklərində geniş şəkildə özünü göstərməkdədir" [**11, 51**].

Hörmətli Mətanət xanımdan göstərdiyimiz misallar, nümunələr etnosun yaranması, etnomədəni əlaqələri haqqında elmi müddəalar onu şərtləndirir ki, Şəki-Zaqatala zonasında Qafqaz dil qrupu ilə Azərbaycan türkcəsi arasında münasibət substrat deyil, adstrat hadisəsidir.

İqtibas verdiyimiz səhifədə Azərbaycan türkcəsinin Gürcüstanda və Ermənistanda adstrat, Azərbaycan türkçəsində doğma xalqın etnik qrupunun dilinin substrat yaratmasına dair mülahizənin [**30, 110**] ağlabatan olmadığını düşünürəm. Multikulturalizm etnososial hadisə olduğu üçün etnoloq olaraq bildirirəm ki, qalib, məğlub olan yerdə, şəraitdə multikulturlizm mümkün deyil.

Monogenez nəzəriyyəsini əsas kimi qəbul edən dilçi Azərbaycanın antropogenez zonasında yerləşməsi, Azərbaycan xalqını təşkil edən etnoqrafik və etnik qrupların antropogenez zonasında yaranmış vahid antropoloji tip olması, miqrasiyaların bu antropoloji tipi dəyişə bilməməsini müvafiq elm sahələrinin birmənalı təsdiqi faktına söykənib, Azərbaycan türkcəsinə və etnik qrupların dilinə, birinci növbədə antropogenez ocağında yaranan ulu - kök dilin müasir formaya düşmüş nəticəsi kimi qiymət verməklə, nəticədən səbəbə doğru gedərək onun keçdiyi tarixi yolu, zaman-zaman məruz qaldığı məzmun, forma, leksik, qrammatik, semantik dəyişikliyi izləyə-izləyə obyektiv nəticə əldə edə bilər. Əgər münasib hesab edərsə, dilçi kök dildən sözlər götürüb, ondan doğan yeni budaqların hansı qrammatik, leksik, semantik dəyişikliklərlə müşayiət olunmasına əsaslanmaqla, dil tarixi haqqında obyektiv mülahizə söyləyə bilər.

M.Yaqubqızı dillərin yaranması və yayılması haqqında elmi-nəzəri müddəa və əfsanələri diqqətə çatdırdıqdan sonra "dil müxtəlifliyinin ən çox kök atdığı yerlər dağlıq ərazilər"in olması [**11, 49**] faktını diqqətə çatdıraraq yazır ki, dil müxtəlifliyinin ən çox özündə təcəssüm etdirən ərazilərdən biri Qafqaz sıra dağlarının silsiləsinin cənub-qərb hissəsində yerləşən Şəki-Zaqatala bölgəsidir [**11, 49**]. Sözünə davam edən müəllif yazır ki, "Dünyada elə bir dil tapmaq olmaz ki, o müxtəlif dialektlərə bölünməmiş olsun. Bu baxımdan regionda yaşayan xalqların və etnik qrupların dialekti də istisna təşkil etmir.", udi dilinin iki dialekti, avar dilinin çoxlu dialekti var ki, bu dialektlərdə danışan dil daşıyıcıları bir-birini çətin başa düşürlər, "saxur dili bir neçə dialektə bölünür", bu dialektlərin özləri də bir neçə şivəyə bölünür [**11, 54**].

Göründüyü kimi, tədqiqatçı bəhs olunan etnik qrupların dillərindəki dialektlərin vəziyyətinə dil inkişafının ümumi qanunauyğunluğu kimi yanaşır. Belə dillərdə dialektlərin mövcudluğu təbii qanunauyğunluqdur. Ancaq bir rayon hüdudunda, kiçik bir bölgədə məskun olan təxminən 6 min nəfər udi, 45 min nəfər avar və 13 min nəfər saxurun [**20, 213, 287, 297**] dilində bir-birini çətin başa düşəcək səviyyədə dialektlərin mövcudluğu bu dillərin inkişafını təmin edən səbəblərin çatışmazlığından xəbər verir. Bu səbəblər isə obyektiv olaraq göz önündədir. Belə ki, iqlimi bütün il boyu eyni ərazidə yaşamağa imkan verən, təbii sərvətləri zəngin, əhalini tam təmin edən qapalı dağ və meşə mühitində, dağ vadilərində, dərin dərələrində məskunlaşmış bu etnik qruplar yaşayış üçün nəinki uzaq ərazilərdə, hətta yaxın ərazilərdə məskunlaşmış doğma və qohumlarla əlaqə saxlamağa ehtiyac, zərurət duymamışlar. Kiçik bir ərazini vətən bilən, onu son dərəcə əzizləyən, qoruyan, yolunda şəhid olan bu alturistlərdə dil yaradıcılığı etnik həyatın ən zəif cəhəti olmuşdur. Etnik toplumların yaranması qanunauyğunluqlarını öyrənən etnologiya və əhali coğrafiyası elmləri etnik coğrafiyanın formalaşmasında təbii-coğrafi şəraiti başlıca səbəb kimi müəyyən etmişlər [**49, 13**]. Biososial cəhətdən bir kökdən, bir soydan olan Azərbaycan xalqının bu etnik qruplarının dilinin, o cümlədən Azərbaycan türkcəsinin ulu kök dildən tarixin hansı mərhələsindən şaxələndiyini, bir qrupunun dağ vadilərində qapalı vəziyyətə düşdüyü, digərinin isə bütün Qafqazı-Azərbaycanı, daha geniş ərazini əhatə edən ümumünsiyyət vasitəsinə çevrildiyini xüsusi dil nümunələri, dil faktı ilə əsaslandıran dilçilik tədqiqatları hələlik əlimizdə yoxdur.

Təsadüfi deyil ki, Kür-Araz mədəniyyəti dövründə Qafqaz Avrasiyada müstəqil metal istehsalı mərkəzinə çevrilmişdi. İstehsalın həcmi və texnoloji üstünlük Azərbaycana məxsus idi. Şimali Qafqazın ən yüksək Maykof mədəniyyəti Azərbaycan-Qarabağ mənşəli idi [**12, 98-112; 35, 104-115**].

Etnoslar, xalqlar arasındakı xoşməramlı, mədəni-mənəvi, sosial-iqtisadi, siyasi-ideoloji əlaqələr ilkin olaraq dil əlaqəsindən başlanır, onun ardınca gedir. E.ə. IV minilliyin başlanğıcında Qafqazı öz mədəni təsirinə salan Azərbaycan mədəniyyəti məhz türk dilinin müxtəlif dilli tayfalar arasında ünsüyyət vasitəsinə çevirilməsi nəticəsində yaranmışdır. Bu da Azərbaycan multikulturalizminin ikinci təməl əsasıdır ki, qədim dövr və orta əsrlərdə yüksələn xətlə inkişafı haqqında dövrün mənbə və tədqiqatları ətraflı məlumat verir [**24; 25**]. Yeni dövrdə Qafqazada bu proses və münasibətlər haqqında ən ətraflı məlumat verən rus işğalçılarının hərbi-siyasi və müxtəlif aspektli sənədləridir. Qafqazın işğalı başa çatdırıldıqdan sonra buranın iqtisadi-sosial, mənəvi vəziyyəti haqqında imperiyanın mərkəzinə hazırlanan ilk sənədlərin birində deyilir: "Zaqafqaziyanın dili türk dilidir, gözəlliyi, musiqiliyi, öyrənmək üçün asanlığı, təəccüblü deyil ki, Avropada fransız dili necedirsə, burada türk dili elədir" [**42, 78-79**]. Rus ziyalılarından A.A. Bestujev-Marlinski yazırdı ki, Azərbaycan türkcəsini bilən "Asiyanın bir tərəfindən o biri qurtaracağına qədər gedə bilər" [**10, 25**]. 1837-ci ilin sonlarında rus şairi M.Y. Lermontov dostu S.A. Payevskiyə məktubunda yazırdı: "Tatarca (türkcə-X.X.) öyrənməyə başlamışam, hansı ki burada ümumən Asiyada zəruridir, necə ki fransız dili Avropada" [**10, 35**].

1898-ci ilin yayında Dağıstanda olmuş Q.F.Qan yazır ki, burada rus dilini heç kim bilmir, bütün Dağıstanda türk-tatar dili beynəlmiləl dil sayılır, mənim məlumatçı sputnikim Tiflisdəki keçmiş Avstriya konsulu bu dil vasitəsi ilə mənə kömək edirdi [**43, 71-72**]. Mənbələr məlumat verir ki, Dağıstanın nəinki müsəlman xalqları, burada yaşayan erməni və yəhudilər də Azərbaycan türkcəsində ünsiyyət qururdular [**44, 168**].

Rus imperiyası Qafqaza daxil olduğu gündən Qafqaz xalqları arasında etnik mənəvi, sosial-siyasi, ideoloji-psixoloji birliyi pozub, dağıdıb parçalamaq üçün onun əsasları, mənbəyi Azərbaycan

türkcəsinin nüfuzunu qırmaq, mövqeyini sındırmaq, öldürmək üçün tədbirlər həyata keçirməyə başladı [**10, 24**]. Məqsədinə nail ola bilməyən rus imperiyası 1857-ci ildən rusdilli, xüsusən Qafqazda yaşayıb işləməsi nəzərdə tutulanlar üçün Azərbaycan türkcəsinin öyrədilməsinə başlayır [**10, 27**].

Rus imperiyası ardıcıl olaraq doğma vətənində Azərbaycan türkcəsinin funksiyasına, mövqeyinə zərbələr vurmaqla onu zəiflədirdi. 1905-ci ildə rus imperiyasinda başlayan milli azadlıq hərəkatında Qafqazın müsəlman xalqları Azərbaycan türkləri ilə çiyin-çiyinə, vahid xalq kimi mübarizə aparırdılar.

Azərbaycan milli-azadlıq hərəkatının liderlərinin siyasətində milli dil- ana dili siyasəti əsas yer tuturdu. 1917-ci ilin oktyabrında "Müsavat partiyası"nın I qurultayında dövlət müstəqilliyinə nail olan kimi Azərbaycan türkcəsinə dövlət dili statusu veriləcəyi, onunla bərabər milli etnik qrupların, azsaylı xalqların ana dilini sərbəst inkişaf etdirmək, ana dilində məktəb, təhsil müəssisələri yaradacağını elan etdi [**10, 60-62**]. Azərbaycanda milli azadlıq hərəkatı qalib gəldi, Azərbaycan Xalq Cumhuriyyəti dövləti quruldu. Azərbaycan Xalq Cümhuriyyəti və onun ilk parlamenti təşkil olunarkən respublikanın etnik mənzərəsi nəzərə alınaraq dövlət strukturlarında və parlamentdə azsaylı xalqların nümayəndələrinə yer ayrılmışdı. Parlamentdə milli azlıqların fraksiyası yaradılmışdı. Bütün azsaylı xalqların, icmaların nümayəndəsi parlamentdə təmsil olunurdu (**45**). 27 iyun 1918-ci ildə Azərbaycan türkcəsi dövlət dili elan edildi. Çar Rusiyasının Azərbaycanda yeritdiyi dil siyasəti nəticəsində Azərbaycan türkcəsi elə bir vəziyyətə salınmışdır ki, nə dövlət aparatı, nədə məktəblərin bu dildə işləmək imkanı yox idi. Dövlət aparatında, məktəblərdə türk dilində işləyəcək kadrlar, müəllimlər, dərsliklər, kitab və digər vasitələr yox dərəcəsində idi. Azərbaycan Cümhuriyyəti nəinki türkdilli məktəblərin, milli etnik qrupların, azsaylı xalqların dilinin inkişaf etdirilməsi siyasətini ardıcıl həyata keçirsə də, onu başa çatdırmağa ömrü yetmədi. Rusiyada hakimiyyətə gəlmiş bolşeviklər 1920-ci ildə Qafqazı, Azərbaycanı yenidən işğal etdilər. Azərbaycanda, Qafqazda hakimiyyəti ələ keçirən rus-erməni birliyi hakimiyyəti ələ keçirdiyi gündən müxtəlif üsullarla ardıcıl olaraq Azərbaycan türkcəsini sıxışdırmağa başladı. Dağıstan kommunist-bolşevik partiyası 29 noyabr 1923-cü ildə keçirilən II plenumunda Azərbaycan türkcəsini dövlət və təhsil dili kimi qəbul etdi, beləliklə Azərbaycan türkcəsi 1928-ci ilə kimi Dağıstanda ənənvi, milli dövlət dili kimi xalqın həyatının bütün sahəsində fəaliyyətini davam etdirdi [**10, 75**].

Müstəqillik şüarları ilə Azərbaycanın dövlət hakimiyyətini qəbul edən bolşeviklər 1920-ci il 24 iyul tarixində Azərbaycan SSR Xalq Maarif Komissarlığının Kollegiyasında "milli azlıqlar maarif şöbəsi haqqında əsasnamə qəbul etdilər, həmin ilin dekabrında Azərbaycan Hərbi İnqilab Komitəsi I və II dərəcəli məktəblərdə tədrisin şagirdlərin ana dilində aparılması haqqında xüsusi dekret verdi. Problemi tədqiq etmiş tarix elmləri doktoru Q.Cavadov yazır ki, əsas diqqət yerli etnoslara deyil, ermənilərə, rus və yəhudilərə yönəldildi. Başqa sözlə, azsaylı xalqlar istilahı altında respublikanın aborgen etnosları deyil, başlıca olaraq ermənilər, ruslar və yəhudilər nəzərdə tutulurdu. Ona görə də dövlət tərəfindən azsaylı xalqlar haqqında verilən imtiyazlardan birinci növbədə onlar istifadə edirdilər. Dövlət idarə orqanlarına əsasən bu xalqların nümayəndələri cəlb olundu" [**45**]. Lakin az da olsa respublikanın aborogen etnik qruplarının dilində məktəblər də açıldı. "Lakin 30-cu illərin sonunda azsaylı xalqların nümayəndələrinin rus məktəblərinə axını başlanır, bununla əlaqədar olaraq 1939-40-cı tədris ilində respublikadakı azsaylı xalqlara məxsus olan məktəblərin sayı xeyli azalmış olur. Artıq 40-ci illərin başlangıcında faktiki olaraq Azərbaycanın əksər ərazilərində tat, talış, kürd, avar, ləzgi, udi milli məktəbləri fəaliyyətlərini dayandırdılar" (**45**).

Azərbaycan multikulturalizminin mənbələrini hər kəsin aydın dərk etməsi üçün XVIII əsr mənbəyi "Car salnaməsi" (B, 1997) əsərində bölgə əhalisinin zəngin etnopsixoloji xüsusiyyətlərindən ikisini, Dağıstan və Azərbaycan hadisələrinə bu iki xalqın reaksiyasından bir neçə faktı oxucuya təqdim etməyə ehtiyac duyuruq. 1803-cü ilin martında rus qoşunları general Qulyakovun komandanlığı ilə Car-Balakən bölgəsinə daxil oldu. Heç bir hərbi zərurət olmadan, əhalini qorxutmaq, gözünü qırmaq üçün Balakəni dağıdıb viran qoydu. Martın 29-da Carı bütünlüklə tutdu. 1803-cü ilin 12 aprelində Tiflisdə rus qoşunlarının komandanı ilə Car ağsaqqları arasında bağlanan müqaviləyə görə carlılar hər il car xəzinəsinə 220 put ipək verməli, rus qoşunlarının Carda yerləşdirilməsinə şərait yaratmalı, rus hökuməti isə bunun müqabilində Car-Balakən camaatının daxili işlərinə qarışmamalıdır. Lakin elə müqavilənin ilk günündən rus hökuməti heç bir öhdəliyinə əməl etmədi, xalqın inam evi, allah evi kimi dəyərləndirdiyi məscidləri uçurub yerində kilsə tikdirməyə başladı.

Buna cavab olaraq Car-Balakən camaatı rus hökumətinə itaətsizlik göstərdi. 1804-cü ilin apreilndə general Qulyakovun başçılığı ilə rus qoşunları Car-Balakənə saymazcasına yürüş etdi. Carı amansızlıqla yandırdı, buradan Zaqatalaya doğru hərəkət etdi. Bu saymazlıq, qəddarlıq Car-Balakən camaatının heysiyyatına toxundu, onları ildırım sürəti ilə təşkilatlandırdı. Rus qoşununu mühasirəyə aldılar. Qulyakov başda olmaqla çox hissəsini məhv etdilər.

Rus qoşunundan az bir hissə qaçıb ölümdən yaxa qutara bildi. Elə bu çağdan Qafqaz Car-Balakən camaatı "məkr və hiyləyə" qarşı barışmaz camaat kimi tanındı. Bu məğlubiyyətdən sonra rus qoşunlarını Car-Balakəni tam tutması 1830-cu ilə qədər uzandı. 1830-cu ildə ruslar Car- Balakəndə hərbi qala tiksələr də həmişə qorxu və vahimə içində yaşadılar. Car-Balakən camaatının nəzərində ruslar "məkr və hiyləyə" simvolu olduğundan onlara nifrət etdilər, barışmazlıq göstərdilər (**46**). Car-Balakən rus imperyasına qarşı üsyanların mənbəyinə çevrildi. Rus tarixçisi isə bundan "hər cür həycanlar burada daim közərir və buradan alovlanır. Buradan hər cür yürüşlər hazırlanır və canlı dalğalar püskürür" [**46, 9**] deyə imperiyanın paytaxtına məlumat verirdi. Beləliklə, rus imperiyasının Azərbaycana ayaq basdığı ilk gündən Car-Balakən Qafqazda azadlığın sönməz əbədi ideya ocağına çevrildi. Qafqaz müsəlmanlarının əbədi azadlıq həmrəylik ocağı oldu. Rus imperiyasına qarşı 1832, 1837, 1852, 1863, 1871-ci illər Qafqaz üsyanları buradan alovlanırdı. 1918-ci ilin martında Bakını dünyadan təcrid edib onu yaradılmaqda olan Böyük Ermənistanın, xristian dünyasının beynəlmiləl paytaxtına çevirməsi üçün bolşevik-daşnakların şəhəri müsəlmanlardan təmizləmək üçün tətbiq etdiyi soyqırımın qarşısında bu camaatın həmrəyliyi oldu. Erməni daşnaklarının Bakıda törətdikləri cinayətlərdən xəbər tutan kimi bütün Dağıstanı həyəcan bürüdü. Dağıstanda bütün yerli qəzetlər Bakı hadisələri haqqında məlumat yaydı. "Cərüdatu Dağıstan" qəzeti Dağıstan əhalisinin Bakıda müsəlman qardaşlarının yardımına səfərbər olmaqda fədakarlıq göstərdi. Bakıya hərbi yardım etmək üçün İmam Qotsinskinin başçılığı ilə könüllülərdən ibarət 1500 nəfərlik əsgəri hissə yaradılıb Bakıya yola düşdü. İmam Qotsinskinin ordusu keçdiyi yolların ətrafından daha 1000 nəfər onlara qoşuldu. İmam Qotsinskinin qoşunları aprelin 7-də Xırdalan ətrafına çatıb döyüş mövqeyi tutdu. Bolşevik-daşnak qüvvələri tərəfindən Bakıdan kənara sıxışdırılmış Müsəlman korpusunun hərbi hissələri və digər milli hərbi qüvvələr yenidən təşkilatlanıb aprelin 8-də bolşevik-daşnak təcavüzünə qarşı İmam Qotsinskinin orduları ilə birlikdə döyüşə girdilər [**47, 71-74**].

Ruhunu göylərə, Tanrıya qovuşan Qafqaz dağlarından, Şeyx Şamilin istiqlal şəhidlərinin azadlıq ruhundan alan dağlı xalqları 1918-ci ilin mayın 11-də İstiqlalını elan etdi. Azərbaycan Cumhuriyyəti qurulan kimi dərhal Dağlılar Respublikası ilə qarşılıqlı əməkdaşlıq, istiqlalın birgə qorunması haqqında razlığa gəlindi. Hər iki respublikanın rəhbərləri razılığa gəldilər ki, müharibə vaxtı bir-birinə kömək etsin, hətta hər iki dövlətin ordusu bir şəxsin komandanlığı altında birləşdirilsin. Azərbaycan Cumhuriyyəti Dağlılar Respublikasına 10 milyon manat kredit ayırdı [**52, 169-177**].

Dağlılar respublikasını bir tərəfdən rus ağqvardiyaçıları, digər tərəfdən Rus bolşevikləri məngənə kimi sıxırdı. Belə bir şəraitdə Dağıstan xalqlarının siyasi liderləri və müdirikləri "Dağıstanın gələcəyini Azərbaycana birləşmədə görürdülər" [**52, 177**].

Azərbaycan hökuməti bütün vasitələrlə Dağıstan Respublikasına yardım edirdi. Azərbaycan Respublikasının Nazirlər şurasının sədri Fətəli xan Xoyski Dağıstan Respublikasını Denikin təhlükəsindən qorumaq üçün Böyük Britaniyanın Qafqazda nümayəndəsi general Tomsona nota verdi. Bunun ardınca Azərbaycan Cumhuriyyəti dərhal Dağıstan respublikasını Denikin təhlükəsindən qorumaq üçün təhlükəsizlik tədbirləri həyata keçirməyə başladı. 1919-cu ilin aprel ayında Azərbaycan Parlamenti Şimali Qafqaz hadisələrini müzakirə etdi, Dağlilar Respublikasına kömək məqsədilə xüsusi komissiya yaradıldı. Komissiyanın 30 aprel tarixli "Qardaşlara vətəndaşlara" başlıqlı Azərbaycan xalqına onun bütün vətəndaşlarına müraciətində deyilir: "Şimali Qafqazda öz əcdadlarına və kiçik xalqların azadlığı və müstəqilliyi prinsiplərinə sadiq olan azadlıq sevər dağlılar Denikinin və kompaniyasının mürtəce qüvvələri ilə qeyri-bərabər mübarizədə öz qanlarının tökürlər. Dağlılar öz istiqlallarını qəhrəmancasına müdafiə etməsi Azərbaycanlılarda zülmət və zülm məmməssili Denikinin Azərbaycanın özünün müstəqilliyinə rəhm etməyəcəyi şüuru doğurmalıdır. Hər bir müsəlmanın müqəddəs borcu nə qədər gec deyil dağlı qardaşlarımıza köməyə gəlməkdir. Partiyalararası komissiya dağlılara kömək məqsədi ilə təcrübəli zabitlərin komandanlığı altında könüllülər dəstəsi yaradılır. Vətəndaşlar! Könüllülər sırasına daxil olun. Parlamentin binasında könüllü yazılmaq olar ".

Beləliklə, Azərbaycan Parlamentinin çağırışına cavab olaraq respublikanın hər tərərfindən könüllülər axışıb gəldi. Təcrübəli zabitlərin rəhbərliyi ilə hərbi hissələr təşkil edilib Dağıstana yola salındı. Onunla birlikdə sanitar briqadalarda yaradılıb yola salınırdı. Dağlılar respublikasına yardımın gedişi haqqında Azərbaycan Respublikası Xarici işlər Nazirliyi 1919-cu il 24 iyun tarixli məlumatında deyilir: "Partiya və siyasi cəryan fərqi olmadan Azərbaycan əhalisini ümumxalq qəzəbi bürüdü... Hər gün Azərbaycanın düşmənləri ilə mübarizə məqsədi ilə könüllülər dəstələrinin yaranması haqqında məlumatlar daxil olur. Ziyalılar səs verirlər, fəhlələr tərpənirlər hamı cəhbəyə getməyə hazır olduğunu bildirməyə başladı" [**52, 177-178**].

Bir faktı da diqqətə çatdırmağa lüzum görürük. Bolşeviklər Azərbaycanın işğalını asanlaşdırmaq məqsədi ilə şimal sərhəddindəki hərbi hissələri buradan çıxarmaq üçün 1920-ci ilin Novruz bayramı gecəsi martın 22-də gecə saat 3-də Qarabağda erməni qiyamı təşkil etdi. Ermənilər birinci olaraq Əsgəranda yerləşən Azərbaycan ordusunun 50 nəfər əsgərini öldürdülər. Bunu ardınca mülki əhalinin kütləvi qırğınına başladılar. Erməni təcavüzünü dəf etmək üçün Müdafiə Nazirliyi general mayor Həbib bəy Səlimovun rəhbərliyi ilə Ağdamda hərbi qərargah yaratdı. Qarabağa birinci köməyə gələn 200 nəfərlik könüllü silahlı dəstə Zaqatala İmamı Nurulla Əfəndi tərəfindən Zaqatala şəhərində təşkil olunmuşdu [**48, 339**].

Yuxarıda Azərbaycan xalqının tərkibində, tarixində iştirak edən etnik qurupların, bu etnik qrupların bir hissəsindən yaranan Dağıstanın müsəlman xalqlarının tarixinin ən ağır məqamlarında bir-biri yolunda şəhid verən vahid xalqa məxsus etnopsixoloji simaya, mənəvi-mədəni dəyərlərə malik olmasını faktlarla diqqətə çəkdik.

Azərbaycan xalqının tərkibini təşkil edən etnik qrupların (xristianlarda dini adət-ənənə, mərasimlər istisna olmaqla, bu da mütləq səviyyədə deyil) inam və etiqadları adət-ənənələri, ailə, toy, yeni il-novruz bayramı, qarşılıqlı yardım üsulları, el köməklikləri, yas mərasimləri, atalar sözləri və zərb - məsəllər eyni məzmun və formadadır. Yemək və içkilərdə onların hazırlanması saxlanması və istifadəsində coğrafi şəraitdən, onun təhcizindən asılı olan cuzi fərqlilik hiss olunur [**11; 20; 53; 54**]. Azərbaycan Xalq Cumhuriyyətinin və Dağlılar Respublikasının təşəbbüsü kimi irəli sürülmüş bu dəyərlərin qorunub yaşadılması ideyası 1918-ci ildə arzu olaraq yaşandı. Azərbaycan xalqı ikinci dəfə müstəqilliyini qazandıqdan sonra Azərbaycan Respublikası Prezidentinin 16 sentyabr 1992-ci il tarixli "Azərbaycan Respublikasında yaşayan milli azlıq, azsaylı xalq və etnik qrupların hüquq və azadlıqlarının qorunması, dil və mədəniyyətinin inkişafı üçün dövlət yardımı haqqında" Fərmanı [**10, 292-296**] əslində, həyata keçməmiş ideyanın yeni dövrdə gerçəkləşdirilməsi uğrunda mücadilə idi.

Araşdırmalar göstərir ki, Azərbayacan folklorundakı təbiətə, cəmiyyətə, müxtəlif sosial-mənəvi münasibətlərə, ümumiyyətlə həyatın bütün sahələrinə aid atalar sözü, zərb-məsəllər, oxşamalar, alqışlar, andlar, qarğışlar, laylalar eyni məzmunda bütün etnik və etnoqrafik qrupların folkloru üçün də səciyyəvidir (**11; 27**). Bəzi araşdırmaçılar bu nümunələrin Azərbaycan türkcəsində yaranıb sonra bütün ölkəyə yayılıb onun etnik və etnoqrafik qrupları tərəfindən mənimsənilməsi kimi yanlış mülahizə söyləmişlər. Əksinə bu nümunələr Azərbaycan və Dağıstan xalqlarının bütün etnik və etnoqrafik qrupları tərəfindən yaradılmışdır.

Etnoloji ədəbiyyat, ümumiyyətlə ictimai elmlər daha çox ərazi birliyini, birgəyaşayışı birləşdirici əsas kimi izah edir. Bu, həqiqətənmi belədir? Bəli! Amma həmişə yox. Bunu görmək və dərk etmək üçün nə uzaq ölkələrə səyahət etməyə, nə də çox oxumağa ehtiyac yoxdur. Ölkəmizin tarixinə, etnik mənzərəsinə nəzər salmaqla bu izahın yanlış olduğunu görə bilərik. Azərbaycanda tədqiqat mərkəzi kimi seçilən Şəki-Zaqatala zonasında hətta bir kənddən ibarət etnik mənlik şüuruna və ada, öz dilinə malik etnik qruplar var ki, çox kiçik bir ərazidə əkinçilik, maldarlıq və sənətkarlıqla məşğul olmaqla min illərdir yanaşı yaşayırlar. Sovet imperiyası təsərrüfatları bir kolxozda birləşdirdi. Birgə işləyib yaşadılar, rusca təhsil aldılar, dövlət idarələrində rus dilini işlətdilər. Amma onlardan heç biri digərinə, nə də rusa çevrilmədi. Elə Respublikamızda da milli etnik mənzərə belədir.

Müəyyən ərazidə yaşayan tayfalar, etnik qrupların vahid mənəvi mədəni dəyərlərə yiyələnməsi, son nəticədə vahid xalq kimi formalaşması onların "biz və onlar" fərqləndirməsindən keçir. Qonşu yaşayan etnik qruplar daima özlərini, adət-ənənəsini, mənəvi dəyərlərini qonşunun (onlardan olmayanların) mənəvi dəyərləri ilə müqayisə edirlər. Müqayisə prosesində adət-ənənəsinə

uyğun olan, bir-biri ilə kəskin ziddiyyət təşkil etməyən, təmasları qarşılıqlı anlaşma, hörmət, həmrəyliklə müşayiət olunduqda qarşılıqlı əxzetmə, bir-birini mənimsəmə davam edir. Bəzən min illər boyu, öz etnonimlərində vahid mənəvi dəyərlər sistemində yaşayıb, vahid etnosa keçib bir xalq kimi varlıqların davam etdirirlər.

Azərbaycan türkləri tarixin heç bir mərhələsində hakim millətçilik, qonşular üzərində üstünlük siyasəti yeritmədiyindən Qafqaz xalqları arasında həmrəylik yaratdıqlarından dilləri də təbii olaraq ümumünsiyyət vasitəsinə çevrilməklə Azərbaycan-Qafqaz multikulturalizmin mənbələrindən biri olmuşdur. Azərbaycan multikulturalizmin digər ən mühüm mənbəyi İslam dinidir. İslam dininin təməl kitabı olan "Qurani-Kərim" müsəlmanlara, yəhudi və xristian dinlərinə, onların peyğəmbərlərinə və kitablarına öz peyğəmbərlərinə olduğu kimi, hörmət etməyi tövsiyə və tələb edir [**55: 56**]. Odur ki, Azərbaycanda, o cümlədən Qafqazda müsəlmanlar tərəfindən digər dinlərə və onların nümayəndələrinə heç bir təzyiq göstərilmir.

Avropanın multikulturaliuzim ideyası heç də onun əməkdaşlıq istəyindən deyil, müstəmləkəçilik, irqçilik siyasətlərini pərdələmək üçün irəli sürdüyü bir ideya idi. Göründüyü kimi, insan haqları, hüquqları haqqında bu yarımıçıq ideyalardan da üz döndərirlər. Apardığımız kiçik tədqiqatlar deməyə əsas verir ki, bəşərin multikultural arzusunun ən real nümunəsini ulu babalarımız yaratmış, müasirlərimiz bu siyasəti həyat tərzi kimi yaşatmaqdadır. Vəzifəmiz bu reallığı elmi səviyyədə dünya xalqlarına çatdırmaqla milli tarixi təcrübəmizi bəşərin gələcəyinə bəxş etməkdir.

Etnoqrafik müşahidələr və məlumatlar, folklor materialları, tarixi mənbələrin kompleks tədqiqi göstərir ki, Azərbaycan folkorunda fərqli kimi görünən mənəvi dəyərlər məzmun eyniliyi təşkil etməklə vahid Azərbaycan mədəniyyətini yaratmış, bu mədəniyyəti zaman-zaman inkişaf etdirmiş və indi də bu təsir davam etməkdədir.

**Xülasə**

Azərbaycan xalqının tərkibinə müxtəlif etnik qrupların daxil olması, Azərbaycan türklərinin tarixən millətçilik siyasəti yeritməməsi, Azərbaycan türkcəsi və İslam dini Azərbaycan multikulturalizminin mənbələri kimi müəyyənləşdirilir.

**Резюме**

Этнические и этнографические группы, которые составляют тождественность Азербайджанской народности, образует его этническое ядро. Азербайджанские тюрки, ни на каких исторических этапах не проявляли политическое народовластие, азербайджанский язык и религия Ислам определяются как источники мультикультурализма.

**Summary**

The same origin, the ethnic nucleus of ethnographic and ethnic groups forming the Azerbaijan nation are determined as not pursuing the policy in any level of ruling nationalism of Azerbaijan Turks historically, Azerbaijan Turkish and Islam religion as the sources of Azerbaijan multiculturalism.

**Ədəbiyyat:**

1. В.А.Новиков. Этнонимя-Этноними. М., 1970
2. Я.В.Чеенов. О социальной мотивированности древних этнонимов. Этноними. М., 1970
3. Д.Е.Еремеев. К семантике тюркской этноними . М., 1970.
4. М.В.Крюков. «Люди», «настоящия люди» (проблеме исторической типологии этнических самоназваный) -Этническая ономастика. М., 1984
5. Я.В.Чеснов. Ранние формы этнонимов и этическое самосознание – Этнография имен. М. 1971
6. Ю.В.Бромлей. Современные проблемы этнографии. М., 1981
7. Ю.В.Бромлей. Очерки теории этноса. М. 1983
8. L.Qumilyov. Etnogenez və yerin biosferi. B., 2005.

9. В.Г.Крыско. Этническая психология. М., 2004
10.А.Балаев. Этноязыковые процессы в Азербайджане в XIX-XXвв. Б. 2005.
11.M.Yaqubqızı. Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm. B. 2016
12.R.B.Göyüşov. A.İ.Martınov. SSRİ arxeologiyası. B. 1990
13.Р.М.Касимова. О влиянии различних типов колыбели на некоторые антропологические признаки в раннем детском возрасте. Б. 1980
14.R.Qasımova. Azərbaycan xalqının etnogenezi paleantropoloji və antropoloji (somatoloji) materiallar əsasında (Dok. Dis. Avtoret). B. 1997
15.M.Ə.Mahmudov. Multikulturalizm: yeni təfəkkürə tələbat: -Müasir fəlsəfə, elm və mədəniyyət: postqeyri-klassik epistemologiya. B. 2011
16.M.Əkbərov. Multikulturalizm fəlsəfəsi haqqında. Geosiyasətin fəlsəfi və müasir dünya nizami: postneoklassik dövrün epistemologiyası. B.2016
17.Ə.Abbasov Fəlsəfə və müasirlik – Müasir fəlsəfə və Azərbaycan: tarix, nəzəriyyə, tədris. B ., 2011
18.E.Kərimov Azərbaycanda müasir etnik durum –"Tarix və onun problemləri"- jurnalı, 1998, N1(3)
19.Q.Cavadov Milli münasibətlər: müassir dövr və vəzifələrimiz "Azərbaycan" qəzeti, N12 (455), 8.10.1992
20.Q.Cavadov. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. B.2000
21. Sov.İKP MK Siyasi bürosunun SSRİ və dünya komunist partiyalarına direktivi. Moskva 2.6.1947. Tamamilə məxfidir. K. A.A / SS .113.xk.əmri (003) 47 – "Azərbayacan müəllimi" qəzeti 21.10.1997
22. V.Piriyev. Budunq və Budunqalar. B., 1994
23. Норман. Дэвис.История Европы. М., 2004
24. В.Гукасян, В.Асланов. Исследования по истории Азербайджанского языка дописменного периода. Б,1986
25. Q. Voroşil. Qafqaz Albaniyası. B., 1993
26. M. Kalankatuqlu. Albaniyanin tarixi B.1993
27. Azsaylı xalqaların folkloru 1- kitabşB 2014
28. R. Qasımova. Azərbaycan xalqının etnogenezinin palentoloji və antropoloji baxımdan öyrənilməsinin yekunları. – "Tarix və onun problemləri" – jurnal 1(3) 1998
29. X.Xəlilli. Azərbayacan türklərinin etnogenezi və milli inkişaf tarixi. B., 2007
30. Р.М. Касимова. Антропологические исследования современного населения Азербайджанской ССР. Б,1975
30. A.Axundov. Ümumi dilçilik. B., 1979
31. Я.Я.Рогнский, М.Т.Левин. Антропология. М. 1978
32. V. Alekseyev."Türk xalqlarının əcdadları" – "Azərbayacan məktəbi jurnalı" 1971, N8
33. И.М. Мизиев.Шаги к истокам этнической истории центрального Кавказа.Нальчик,1986.
34. A. Babayev. Dilçiliyə giriş. B., 1992
35. Azərbaycan tarixi. 1 cild B., 1998
36.X.Xəlilli. Etnosun ilkin təşəkkül mərhələsi və termologiyasi. Müasir fəlsəfə: İdrakın ən yeni istiqamətləri. B., 2014
37. К.Алиев.Античные источники по истории Азербайджана. Б, 1986
38. Т.М.Мамедов. КавказскаяАлбания.Б.,1993.
39.Z.Budaqova, T Hacıyev. Azərbayacan dili. B., 1992
40.Ş.Göyçayski. Əhali coğrafiyası. B., 1979
41. Н.Зейдлиц. Этнографический очерк Бакинской губернии. Кавказкий календарь на 1871 год. Тбилиси.,1870.
42.Обозрение Российских владений за Кавказском в статистическом, этнографическом и финансовом отношениях, ч.III.Спб., 1836
43.Г.Ф.Ган. Путешествие в Кахетию и Дагестан (летом 1898г.) – СМОМПК, вып. XXXI. Тбилиси., 1902.
44. Обозрение Российских владений...Ч.IV,Спб., 1836.
45. Q.Cavadov. XX əsrin 20-40-cı illərində Azərbaycanda azsaylı xalqlar problemi - "Tarix və onun problemləri" jurnal, 1998, 1(3).
46. Molla Məhəmməd Əl-Cari. Car salnaməsi. Ərəbcədən tərcümə giriş və qeydlər Sevda Süleymanovanındır. B., 1997
47. M.Süleymanov. Azərbayacan ordusu (1918-1920) . B., 1998
48. T.Köçərli. Qarabağ. B., 2002
49. M.Tahir. Şeyx Şamil. B., 1992

50.İ.Mustafayev, S.Murtuzayev. İmam Şamil. B., 1993
51. M.Mahmudzadə Şeyx Şamil və onun varisləri B. 1998
52. N.Nəsibzadə.Azərbayacanın xarici siyasəti (1918-1920). B., 1996
53. Q.Cavadov. Azərbayacanda el köməkliyi adətləri. B., 1993
54. Q.Rəcəbli. Azərbayacandan qarşılıqlı yardım formaları. B., 2008
55. Qurani-Kərim Z.Bünyadov və V. Məmmədəliyevin tərcüməsi. B., 2013
56. Коран. Перевод смыслови коментарии Валери Порохов.М., 1997.
57. F.Məmmədova. Azərbayacanın siyasi tarixi və tarixi coğrafiyası. B., 199

**Mətanət Yaqubqızı, filologiya üzrə fəlsəfə doktoru, dosent,**
**AMEA Folklor İnstitutu, aparıcı elmi işçi,**
**Azərbaycan, Bakı**

# ŞƏKİ-ZAQATALA FOLKLORUNDA TOLERANTLIQ

*Ayramaz bizləri təğyiri-lisan*[27]*,*
*Ayramaz bizləri təbdili-məkan*[28]*.*
*Ayramaz bizləri İncil, Quran...*
***(Abdulla Şaiq)***

*Bütün dünyada bir məslək olmalıdır. Müsəlman, xaçpərəst, bütpərəst – hamısı birdir.*
***(Şəhriyar)***

***Açar sözlər:*** *Etnik tərkib, xalq, etnik qrup, region, atlas*
***Ключевые слова:*** *Этнический состав, народ, этническая группа, регион, атлас*
***Key words:*** *Ethnic composition, people, ethnic group, region, atlas*

Şəki-Zaqatala regionu müxtəlif xalqların və etnik qrupların yaşadığı ərazidir. Bu ərazidə udilər, avarlar, saxurlar, ingiloylar, ləzgilər, digər xalqlar və etnik qruplar yaşayırlar. **Mövcud xalq və dillərin yaranması ilə bağlı alimlərimiz dörd müxtəlif mülahizə irəli sürür.**

**Birincisi,** ilk insanlar və onların dili ilkin olaraq Allah tərəfindən yaradılıb, sonrakı inkişaf nəticəsində müxtəlif irq və dil fərqləri formalaşıb.

**İkincisi,** insanlar və onların dili kosmosda yaranıb, sonrakı inkişaf nəticəsində müxtəlif irq və dil fərqləri formalaşıb. Misir ehramları, Hind-Çin ərazisində yerləşən məbədlər üzərindəki şəkillər bunu sübut edir.

**Üçüncüsü,** dil təkamül yolu ilə insanların özləri tərəfindən bir məkanda yaradılıb.

**Dördüncüsü,** ilk insanlar və onların dili müxtəlif məkanlarda paralel şəkildə yaranmışdır. Onlar yarandığı andan fərqli olmuşdur (**6, səh:4-7**).

Bizim fikrimizcə, birinci mülahizəyə görə ilk insan və onun dilləri Allah tərəfindən eyni bir məkan daxilində yaradılmış, bir ortaq dildən – Ulu dildən şaxələnmiş, protodillərə parçalanmış, mövcud dillərdə sabitləşmişdir. Görkəmli dilçilərimiz Q.Kazımov, K.Abdulla da birinci mülahizənin tərəfdarıdırlar. Akademik K.Abdulla yazır ki, əgər dillərin dərinliyinə varsaq, elə bir nöqtəyə gəlib çıxacağıq ki, orada oxşarlıqlar, fərqlər silinəcək, eyni bir, ümumi bir dil qalacaq (Bax:**1; 5**).

**İndi isə azsaylı xalq və milli azlıq termini haqqında danışmaq istəyirik.** Əslində bu terminlərin işlədilməsində nə böyük qəbahət, nə də məntiqi yanlışlıq vardır. Sadəcə onu qeyd etmək istəyirik ki, Azərbaycan ərazisində elə xalqların, elə millətlərin nümayəndələri yaşayır ki, onların yer üzərindəki ümumi sayı nəzərə alınsa, onlara "azsaylı xalq" demək doğru olmazdı. Məsələn, Azərbaycan ərazisində say baxımından faktiki azlıq təşkil edən, amma yer üzərindəki ümumi sayı Azərbaycanda yaşayan və respublika əhalisinin əksəriyyətini təşkil edən türk mənşəli aborigen xalqdan daha çox olan ruslara, nə "azsaylı xalq", nə də "milli azlıq" demək, bizcə, doğru deyil. Azərbaycan ərazisində ruslar kompakt şəkildə sadəcə Gədəbəy rayonunun Saratovka və İsmayıllı rayonunun İvanovka kəndlərində yaşayırlar. Daha sonra Bakı, Gəncə, Sumqayıt, Mingəçevir şəhərlərində, eləcə də digər rayon mərkəzlərində yaşayırlar. İstənilən halda onların Azərbaycandakı ümumi sayı təxminən talışlar, ləzgilər qədərdir. **Ona görə də Azərbaycan Respublikası ərazisində yaşayan və vahid Azərbaycan xalqının ayrılmaz hissəsi olan heç bir xalqa "azsaylı xalq", yaxud "milli azlıq" deməsək, daha yaxşı olar.** Ona görə ki, vahid Azərbaycan xalqı sayından, azlığından və ya çoxluğundan asılı olmayaraq respublika ərazisində yaşayan bütün xalqların və etnik qrupların

[27] Dil ayrılığı
[28] Yer ayrılığı

birliyi, vəhdəti əsasında formalaşır. Məhz buna görə də **azsaylı xalq və milli azlıq terminlərinin yerinə Azərbaycan ərazisində yaşayan xalqlar və etnik qruplar** kimi deyim və ifadədən istifadə etmək, bizcə daha doğrudur və biz terminə istifadə etməyə üstünlük veririk. Məsələn: Şəki-Zaqatala regionunda yaşayan xalqlar və etnik qruplar. Udi xalqı, udi xalqının nümayəndələri və s.

**Diqqətinizi Şəki-Zaqatala bölgəsində yaşayan xalqlar və etnik qrupların folklor örnəklərinə yönəltmək istəyirik.**

Bir bayatı nümunəsinin fərqli variantlarına baxaq:

*O qızın ağ şalı var,*
*Ağ şala oxşarı var.*
*Özü avar balası*
*Muğala oxşarı var.*

**Yaxud:**

*Başında ağ şalı var,*
*Ağ şala oxşarı var.*
*Özü ləzgi balası*
*Muğala oxşarı var.*

**Yaxud da:**

*... Özü gürcü balası*
*Muğala oxşarı var.*

Bu bayatı nümunəsinin orijinal qəliblənmiş ortaq variantı mövcuddur. Bayatı belədir:

*Başında ağ şalı var,*
*Yanağında xalı var.*
*Özü ceyran balası*
*Gör kimə oxşarı var.*

**İstər avarların, istər ləzgilərin, istərsə də gürcülərin dilindən söylənilən bu bayatı nümunəsi Şəki-Zaqatala bölgəsində yaşayan bütün azərbaycanlıların, bütün xalqların və etnik qrupların ortaq xəzinəsidir.**

Bölgədə işlənən atalar sözlərində ortaq cəhətlər özünü güclü surətdə göstərir. Məsələn,
**Udilərdə**:

*Ağacın barı onun dibinə düşər.*

**Azərbaycan dilində**:

*Alma budağından gen düşməz.*

**Avarlarda**:

*İti öldürən atar.*

**Azərbaycan dilində:**

*İti öldürənə sürütdürərlər.*

**Saxurlarda:**

*Qaba tökülən qaşığa gələr.*

**Azərbaycan dilində:**

*Nə tökərsən aşına, o çıxar qaşığına.*

Görkəmli folklorşünas M.Təhmasib müxtəlif xalqlar arasında ortaq mədəniyyətin, ortaq cəhətlərin olduğunu özünün "Ara uzaq, ürək yaxın" məqaləsində belə qeyd edirdi: "Əgər **qədim şumerin atalar sözü ilə bugünkü amerikalıların** atalar sözü arasında bu dərəcə yaxınlıq varsa, türkdilli xalqların bu zəngin janrları arasındakı yaxınlıq, şübhəsiz ki, daha çox olmalıdır, vardır da".

M.Təhmasibin fikrinə dəstək olaraq deyə bilərik ki, uzaq məsafələrdə yaşayan insanlar arasında bu qədər yaxınlıq, oxşarlıq varsa, onda nə üçün tarixən bir-biri ilə çiyin-çiyinə yaşayan insanlarda, onların məişətində, adət-ənənələrində yaxınlıq olmasın. Ona görə də bölgə əhalisinin örnəklərində meydana çıxan oxşarlıq, yaxınlıq labüddür. Deməli, istər bölgə ərazisində yaşayan əhali, istərsə də dünyanın o biri ucunda yaşayan başqa xalqlar milliyyətindən asılı olmayaraq ortaq cəhətlərə, ortaq mədəniyyətə, ortaq mənsubiyyətə malikdirlər.

Toy və yas mərasimlərində də ortaq cəhətlər özünü göstərir. İstər toyda, istər dəfndə keçirilən xüsusi ayinlər maraq doğurur. Bu **bölgədə toyda hədəfi nişan almaq** məqamı vardır. Bu, gəlinin oğlan evinə gətirildiyi zaman həyata keçirilir. Mərhum professor Qəmərşah Cavadov özünün "Udilər" kitabında qeyd edir ki, Səməd Vurğunla Zeynal Xəlil Nicə qonaq gedir. Onlar burada bir toyda iştirak edirlər. Udilərdə bir ağacın başına **heyvan kəlləsi** asırlar. (İngiloylarda alma) Səməd Vurğuna da təklif edirlər ki, **hədəfi nişan alsın.** Bunu görən Səməd Vurğun belə deyir: "Bu lap Bamsı Beyrəyin toyunu xatırlatdı". Bu, onu göstərir ki, bu adət-ənənələrin tarixi qədimdir və ortaq adət-ənənələrdən qaynaqlanır.

Toyda işlənən **alma, su, yağ, bal, çörək** və s. bölgə əhalisinin mərasim və ayinlərində bu və ya digər baxımdan xüsusi əhəmiyyət kəsb edir. Məsələ burasındadır ki, bu vasitələrdən nəinki bölgə əhalisi, Orta Asiya, Gürcüstan, İran, hətta uzaq bölgələr – İndoneziyada da istifadə edirmişlər. Qeyd etdiyimiz kimi yenə də bir mənbədən qaynaqlanan ortaq ənənələr.

Bayramlar da bu qəbildəndir. Məsələn, "Qodu-qodu", "Novruz bayramı" və s.

Şəki-Zaqatala bölgəsi əsil tolerantlıq və multikulturalizm məkanıdır. Mövcud bölgədə multikulturalizmin kökünü birinci növbədə insanların əski inanclarında axtarmaq lazımdır. Bu öz əksini tarixən qədim ziyarətgah yerlərində günü bu gün də insanların milliyyətindən asılı olmayaraq bölgə əhalisinin birgə tapındığı məkanlarda tapmışdır: Kürmük kilsəsi, adına əfsanələr qoşulmuş Pəri qala; Diş piri, Dilək piri, Uşaq piri, Yel ziyarəti, Qorxu ziyarəti və s.

Ərazi böyüklüyünə görə Oğuz rayonu Şəki-Zaqatala bölgəsinin ən kiçik rayonlarından biridir. 70-ci illərdə təkcə bu rayonda 18 xalqın nümayəndəsi yaşayırdı. Azərbaycanlı, ləzgi, rus, udi millətlərinin bir yerdə yaşadığı bir küçədə - Dostluq küçəsində böyüyüb boya-başa çatmışam.

Tanınmış folklorşünas **Əli Süleymanov** bu bölgəyə qonaq qismində gələn insanların regionda yaşayan xalqlar və etnik qruplarla bağlı fikirlərini özünün "Zaqatala çələngi" kitabında xoş xatirələrlə yad edir: "Bir dəfə Dağıstan Dövlət Filarmoniyasının kollektivi rayonumuzda qastrol səfərində olmuşdur. Kollektivin rəhbəri N. Pavlovdan soruşanda ki, "Zaqatalada ən çox nə xoşunuza gəldi?" O cavab verdi: - Ən çox zaqatalalıların qonaqsevərliyi, insanpərvərliyi, xüsusilə də buradakı **ona qədər müxtəlif millətin nümayəndələrinin** mehribanlığı, onların bir-birinə can deyib, can eşitmələri bizdə unudulmaz bir təəssüratın yaranmasına səbəb olmuşdur (**7, səh:48**).

Rus Pravoslav kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının arxiyepiskopu Aleksandr İşein qeyd edir ki, Azərbaycanın əsas özəlliyi milli məhəllələrin və qəsəbələrin olmamasıdır. Eyni küçədə müxtəlif dini icmaların nümayəndələri yaşayır və birlikdə müxtəlif dini bayramları və mərasimləri qeyd edirlər (**19**).

Azərbaycanın görkəmli yazıçısı Y.V.Çəmənzəminli "Həyatımızın iyirmi ili" məqaləsində müsəlmanlarla xristianların tarixi münasibətlərindən bəhs edərək yazırdı: "Geniş kütlə qardaşcasına

yaşayır, orada bir münaqişəli məsələ yox idi... Xalq məscid və kilsə ayrılığı ilə belə hesablaşmaq istəmirdi. Türklərin nəzir eləyib kilsə həyətində qurban kəsdiyi və xristianların türk pirinə şam gətirdiklərini çox görmüşəm" (**9; səh:66-312**).

Yazıçı – jurnalist milliyyətcə **saxur** olan **Əhməd İsayev** "Bu dağlar, ulu dağlar" kitabında müxtəlif millətlərin nümayəndələrinin dostluğu haqqında belə yazır: "Azərbaycan bəlkə də yeganə ölkədir ki, burada **yüzdən çox etnosun nümayəndəsi bir süfrə başına yığışır**, 20-dən artıq azsaylı xalqın, milli azlıq və etnik qrupun övladları müxtəlif guşələrdə kompakt halda yaşayırlar: heç nəyə fərq qoymadan, ... dost-doğma ailə kimi. Hamısının da dilinin, dininin, etnik psixologiyasının, maddi və mənəvi mədəniyyətinin, məişətinin, adət-ənənəsinin qorunub saxlanması üçün hər cür şərait yaradılır. Bu, dövlətimizin humanist siyasətinin əsasıdır" (**4, səh:116**).

Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri, BBMM-in Himayəçilər Şurasının sədri, Azərbaycan Yaradıcılıq Fondunun sədri, akademik **Kamal Abdullayev** Azərbaycan ərazisində yaşayan xalqlardan və etnik qruplardan danışaraq bildirib ki, "Azərbaycanda yaşayan bütün xalqlar və etnik qruplar yaşadıqları ərazini – Azərbaycanı öz ortaq Vətənlərinə çeviriblər... Bir kənd qədər sakini olan, dili və etnik kimliyi bu kənddən başqa heç bir yerdə təmsil olunmayan xınalıqlılar da Azərbaycana məxsusdur" (**10**)

**Çünki Azərbaycan azərbaycanlıların Vətənidir. Azərbaycan özünü bu torpağın vətəndaşı hesab edənlərin Vətənidir. Azərbaycan müxtəlif xalqların və etnik qrupların – udi, avar, saxur, ingiloy, ləzgi, talış, tat və başqalarının Vətənidir. Hər bir xalq qoynunda boya-başa çatdığı bu torpağın yetirməsidir.**

Azərbaycan bütün xalqların və etnik qrupların varlığı nəticəsində bu qədər zəngindir. Din, dil və mədəniyyət baxımından. Şəki-Zaqatala bölgəsi mozaik bir bölgədir. Bu bölgə respublikada müxtəlif xalqların və etnik qrupların ən çox yaşadığı ərazidir. Bu bölgəni bir mirvari boyunbağıya, bu xalqları isə sapa düzülmüş mirvariyə bənzətsək, onda görərik ki, bu xalqlardan birinin olmaması düzənin pozulmasına, Azərbaycan respublikasının vəhdətinin pozulmasına gətirib çıxaracaqdır. Ona görə də qeyd etmək lazımdır ki, Azərbaycan respublikasının gözəlliyi və özəlliyi onun bütövlüyündə, vəhdətindədir. Yaşasın bu gözəlliyi və özəlliyi özündə qoruyub saxlayan çoxmillətli vahid Azərbaycan xalqı!

**Xülasə**

Şəki-Zaqatala bölgəsi Azərbaycan respublikasında həm rəngarəng etnik tərkibə, həm də zəngin adət-ənənələrə malik olan bir ərazidir. Burada udilər, avarlar, saxurlar, ingiloylar, ləzgilər, digər xalqlar və etnik qruplar yaşayırlar. Bu bölgədə yaşayan xalqlar və etnik qrupların nümayəndələrindən toplanmış folklor örnəkləri vahid Azərbaycan folklorunun tərkib hissəsidir. Bu örnəklər regional atlasda özünə xüsusi yer qazanmışdır.

**Резюме**

Шеки-Закатальский регион Азербайджанской Республики является регионом с красочным этническим составом и территорией с богатыми обычаями и традициями. В данном регионе испокон веков бок обок проживают удины, аварцы, цахуры, ингилои, лезгины и другие народы и этнические группы. Фольклорные образцы, собранные у представителей данных народов и этнических групп, проживающих в этом регионе, являются неотъемлемой частью единого Азербайджанского фольклора. Данные образцы имеют особое место в Азербайджанском фольклорном атласе.

**Summary**

Shaki-Zagatala region is the area in Azerbaijan Republic that has both colorful ethnic composition and rich customs and traditions. Udis, Avars, Tsakhurs, Ingiloys, Lezghins and other nations and ethnic groups live here. The folklore samples collected from the representatives of the nations and ethnic groups living here are the part of unified Azerbaijan folklore. These samples got special place in the regional atlas.

**Ədəbiyyat:**

1) Abdullayev K. (Kamal Abdulla) Dilçiliyə səyahət (Dilçi olmayanlar üçün dərslik). Bakı - “Mütərcim”-2010

2) Cavadov Q. Hüseynov R. Udilər (tarixi-etnoqrafik tədqiqat). Bakı-1996

3) Cavadov Q. Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı-2000, 439 s.

4) İsayev Ə. Bu dağlar, ulu dağlar (Axtarışlar və publisistik qeydlər). Bakı-Şur-2011

5) Kazımov Q. Azərbaycan dilinin tarixi. Bakı-Təhsil-2003

6) Əsgərov M.B., Mahmudov M. Ön söz. Mətanət Yaqubqızının “Azərbaycan folklorunda tolerantlıq və multikulturalizm (Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəkləri əsasında)” kitabında. Bakı, “Elm və təhsil” nəşriyyatı, 2016, s. 4-9.

7) Süleymanov Ə. Zaqatala çələngi. Bakı-“Elm və təhsil”-2014

8) Təhmasib M. Məqalələr. Bakı-Elm-2005

9) Çəmənzəminli Y.V. Əsərləri IIIc., Bakı-“Elm”-1977

10) http//azertag.az

**Sevil Atayeva, müəllim**
**Qəbələ rayonu Nic qəsəbəsi, 3 saylı orta məktəb**
**Azərbaycan, Qəbələ, Nic**

# AZƏRBAYCAN FOLKLORUNDA FƏRQLİ MƏDƏNİYYƏTLƏRİN QOVUŞMASI

***Açar sözlər:*** *Nic, udi, toy, adət-ənənə, təndir*
***Ключевые слова:*** *Nic, Уди, свадьба, традиции, печи*
***Key words:*** *Nij, Udi, wedding, tradition, oven*

Udilərin kompakt yaşadıqları yer hal-hazırda Qəbələ rayonunun Nic qəsəbəsidir. Nic qəsəbəsində udilərin sayı 4500 nəfəri, Oğuz rayonunda isə 82 nəfəri təşkil edir. Eləcə də udilərin bir qismi Gürcüstanda yaşayır ki, onların sayı barədə dəqiq məlumat yoxdur. Bu gün verilən məlumata görə, dünyada udilərin sayı 10 min nəfərdir. Onların sayca çox yaşadıqları yer Qazaxıstan, Ukrayna və Rusiya Federasiyasıdır. Uzaq diyarlarda yaşamalarına baxmayaraq, tarixi vətənləri ilə sıx əlaqə saxlayırlar. Udi icmaları diasporaların fəaliyyəti ilə tanış olur və "Orayin" Udi Mədəniyyət Mərkəzi ilə sıx əlaqədədirlər və birgə tədbirlər təşkil edirlər. Diasporaların qarşısına qoyduqları birinci vəzifə udi dilinin qorunması, adət-ənənələri yaşatmaq və bu ənənənin gənc nəsillərə tətbiq olunması və qorunmasıdır. Gənc nəsil demək olar ki, hər il kəndə gəlir və ailə qurmaq məsələlərini kənddə həll edirlər. Toy mərasimləri başqa yerdə keçirilsə belə udi adət-ənənəsi ilə keçirilir. Əksər hallarda Nicdən toya musiqiçilər dəvət edirlər. Toyda udi və Azərbaycan musiqilərini səsləndirirlər və beləliklə, özlərini vətənədə hiss edirlər. Toy mərasimi keçmiş adət-ənənə üzrə keçirilir. Belə ki, oğlan və qız evində eyni vaxtda başlayır. Toyun birinci günü üstünlük qız evinə verilir. Belə ki, gecə yarısı bəy oğlan evindən gənclərlə birgə qız evinə gətirilir və orada səhərə qədər şənlənirlər. İkinci gün yenə də hər iki həyətdə eyni vaxtda başlanır, amma bu gün üstünlük oğlan evində olur. Gəlini aparandan sonra qız evinin adamları oğlan evinə gəlir. Bu gün oğlan evində yeyib-içmək verilir, üstünlük yaşlılarda olur. Qız evinin adamları toy həyətini tərk edəndən sonra da məclis gecəyə qədər davam edir.

Udi övladları kəndə gələndə birinci öz babalarının və nənələrinin qəbrini ziyarət edir və şam yandırırlar. Sonra isə qohumlarının evinə gedib onlarla görüşürlər. Hal-hazırda gənclər öz ulularını tanımaq, onlar barədə məlumat almağı özlərinə borc bilirlər, bu isə təqdirəlayiq haldır. Öz nəslinin şəcərəsini hər ailə hazırlayır.

Əvvəlcə yaşlı adamların görüşünə getməyi özlərinə borc bilirlər. Bu gün də gənclərin yaşlılara diqqət və ehtiramlarını görürük.

Udi həyətini təndirsiz təsəvvür etmək çətindir. Bu ənənəni də uzaqlarda yaşayanlar, əsasən həyətyanı sahəsi olanlar davam etdirirlər. Qəbələdən təndir aparıb, yeni yaşadıqları yerdə qururlar. Udi çörəyi və firraması mütləq təndirdə bişirilməlidir. Bu gün də Rusiyanın magistral yollarına yaxın yerlərdə kafe və restoran açaraq Azərbaycan və udi yeməklərini nümayiş etdirirlər. Böyük zövqlə Azərbaycan və udi mətbəxinin nemətlərini qonaqlara daddırırlar.

Udilər açdıqları obyektlərə Azərbaycan adlarını qoyurlar. Bununla da azərbaycançılıq ideyalarını yayırlar.

Nic həm də elm adamlarının yaşayış məskənidir. İlk öncə dilçilik sahəsində öz sözünü demiş Voraşil Qukasyanın adını çəkmək olar. Hətta bir necə ailə vardır ki, ailə üzvlərinin hamısı elmlə məşğuldurlar. Bunlar Qoasarlar ailəsinin üç nəsli, Kuranovlar ailəsindən iki qardaş, Danakari ailəsindən ata, iki övladı və V. Şaxqularıdır.

**Xülasə**

Udilər hal-hazırda Qəbələ rayonunun Nic qəsəbəsində, Oğuz rayonunda, eləcə də bir qismi Gürcüstanda, Qazaxıstanda, Ukraynada və Rusiya Federasiyasında yaşayırlar. Uzaq diyarlarda yaşamalarına baxmayaraq, onlar tarixi vətənləri ilə sıx əlaqə saxlayırlar. Udi icmaları diasporaların fəaliyyəti ilə tanış olur və "Orayin" Udi Mədəniyyət Mərkəzi ilə sıx əlaqədədirlər və birgə tədbirlər həyata keçirirlər. Diasporaların qarşısına qoyduqları birinci vəzifə udi dilinin qorunması, adət- ənənələri yaşatmaq və bu ənənənin gənc nəsillərə tətbiq olunması və qorunmasıdır.

**Резюме**

Удинцы в настоящее время проживают в поселке Нидж района Кабала, в районе Огуз, а также некоторая часть их в Грузии, Казахстане, Украине и в Российской Федерации. Несмотря на проживание в дальних странах, они поддерживают тесную связь со своей исторической Родиной. Удинские общины знакомятся с деятельностью диаспор и будучи в тесной связи с Удинским Культурным Центром «Орайин» проводят совместные мероприятия. Главной задачей поставленной перед диаспорами является сохранение удинского языка, увековечивание обычаев-традиций, применение этой традиции к молодому поколению и хранение.



**Summary**

Udis, (descendants of the ancient Caucasian Albanians) not only live in Nij village of Gabala region, Oghuz region, but they also live in Georgia, Kazakhstan, Ukraine and The Russian Federation. Though they live in far countries, they connect with their historical native land. Udi communities acquaint with the activities of diaspors and they are closely connected with Udi Cultural Center "Orayin" and they organize various ceremonies together. Protecting the Udi language, immortalizing and defending the traditions and realising these traditions to young generations is the first aim required from the diaspors by Udis.

**Афаг Хуррамкызы, доктор философии по филологическим наукам,**
**Доцент**
**Институт Фольклора НАНА**
**Азербайджан, Баку**

# ЛАГИЧИ В СБОРНИКЕ МАТЕРИАЛОВ ДЛЯ ОПИСАНИЯ МЕСТНОСТЕЙ И ПЛЕМЕН КАВКАЗА

***Açar sözlər**: Lahıc, SMOMPK, adət-ənənə, lətifə, tarix, folklor*
***Ключевые слова:** Лагич, СМОМПК, традиция, анекдот, история, фольклор.*
***Key words**: Lahij, SMOMPK, traditions, anecdote, history, folklore*

**Введение**. В 1881-ом году в городе Тифлис Закавказской Губернии начал издаваться Сборник материалов для описания местностей и племён Кавказа – СМОМПК. Издателем этого сборника являлось Управление Кавказского учебного округа, которое базировалось в Тифлисе. Руководителем издания с 1881 года был утвержден попечитель Кавказского учебного округа К.П.Яновский. Со дня издания вплоть до последнего номера СМОМПК содержал обширный материал по истории, археологии, лингвистики, этнографии и фольклору народностей, заселявших Северный и Южный Кавказ. В сборнике также были собраны очерки об истории этих народов и этнических меньшинств.

Начиная 1893 года до 1915 года сборник издавался с предисловием Л.Г.Лопатинского. Основная часть авторов издания это педагоги, в основном учителя местных Кавказских школ и гимназий, собиравшие и записавшие различные материалы. Период издания журнала был различный, по мере накопления материалов, примерно 1-2 выпуска в год.

Научная ценность этого издания признана профессором В.Ф.Миллером в обширных рецензиях, напечанных в «Журнале Министерства народного просвещения» 1893 году. Журнал издавался с 1881 по 1915 год в Тифлисе в типографии Главного управления Наместника Кавказского, но в связи с войной его издание было остановлено. Только в 1926 году, благодаря ассоциации Северо-Кавказских горских краеведческих организаций в Махачкале, увидел свет 45 выпуск, а в 1929 году – 46 выпуск.

**Постановка проблемы.** Большой научный интерес представляют словари и тексты Кавказских народов, сказания о нартах, великорусские и инородческие песни, статьи и материалы о быте и нравах грузин, азербайджанцев, осетин, горских евреев и других кавказских народностей, собранных на страницах СМОМПК. В многотомном труде опубликована информация о быте, письменности, укладе жизни, обычаях, фольклоре и многое другое, что было собрано исследователями после конца XIX века - окончательного захвата Кавказа русскими.

Огромной ценностью для нас обладают статьи и очерки о жизни и быте национальных меньшинств, проживающих на территории Азербайджана. В СМОМПК-е мы можем найти описания селений и городов, где проживают эти национальности, очерки об их истории, быте и ремеслах населения, фольклоре. Одним из таких народностей, которым было уделено особое внимание на страницах СМОМПК-а являются **Лагичи**.

Как известно, Лагичи – «небольшой Иранский этнос, говорящий на татском языке, относящемся наряду с фарси, дари и таджикским к юго-западной группе иранских языков. В большинстве своем Лагичи двуязычны: помимо татского языка широко используется также и азербайджанский язык» (**1**). О языке Лагичцев в источниках даются данные, что этот язык является одной из самых изолированных вариантов татского языка, имеющую название **lahiji**, весьма близкого к фарси. Этот язык принадлежит к иранской ветви индоевропейских языков и является наречием новоперсидского языка.

Мы в свою очередь добавим, что, также этот народ и его язык воспринимается как «малый народ с одноименным названием Лагичи, имеющих свой язык относящийся к фарсийской группе, смешавшимся с тюркскими наречиями» (**2**). По нашему мнению, это более правильная версия толкования корней этой народности и его языка.

В СМОМПКе Лагичам посвящен широкообъемный очерк, охватывающий более пятидесяти страниц сборника (с 45 по 96 страницы). Этот очерк под названием «**Селение Лагич, Геокчайского уезда, Бакинской губернии**» был напечатан в двадцать девятом номере СМОМПК, изданном в 1901-ом году (**3, 45**). Автором этого очерка являлся **Мамед-Гасан Эфендиев**. На последней странице очерка автор – Мамед-Гасан Эфендиев о характеризован как бывший учитель Лагичского училища (**3, 96**).

**Основной материал**. Структура очерка «Селение Лагич, Геокчайского уезда, Бакинской губернии» была составлена по всем правилам СМОМПК-а, которые предъявлялись авторам, работающим с данным сборником. Эти правила были напечатаны в первом выпуске СМОМПК во вступительной статье.

Вышеуказанный очерк состоит из десяти разделов, в том числе:

I – Исторические сведения
II – Геологическое строение
III – Местоположение; орошение; пути сообщения
IV – Внешний вид селения; постройка домов; домашняя обстановка
V – Климат и вода для питья
VI – Флора и фауна
VII – Характерные черты населения; некоторые обычаи и суеверия
VIII – Состав и движение населения; земельные наделы и повинности
IX – Занятия жителей
X – Язык; анекдоты о лагичцах

В первом разделе, как и указано в названии, даются исторические сведения о селении Лагич, Геокчайского уезда, Бакинской губернии и о лагичцах, собранные как из уст населения этого селения, так и отраженные в исторических источниках, таких как Страбон, Моисей Каганкатваций и др.

По словам лагичцев, они происходят от выходцев из Персии, где и ныне существует махал Лагиджан, который лагичцы считают своею метрополею. По этому поводу М.Г.Эфендиев предлагает такое предание, собранное из уст местного населения: «Известно, что две страны - плодородный Иран и дикий, угрюмый Туран постоянно враждовали; народы обоих стран вели между собою частые войны и скучали, когда наставало мирное время. Но шаху иранскому Кей-Хосрою войны эти надоели, и вот он, убив на войне туранского царя Афрасияба и завладев его землею, передал все свое царство, по неимению прямых наследников, двоюродному брату по отцу, а сам, вместе с близкими своими людьми, решился окончательно расстаться с Ираном; для этой цели он выбрал отдаленное, с хорошим климатом, место на севере (Кавказ) и предался там молитве. Это место было названо Лагич, по махалу Лахиджан. Хосров, как передает предание, умер в Лагиче и похоронен здесь; это, по их убеждению, доказывается тем, что на кладбище участка Заваро, в Лагиче, и ныне находится надгробный камень, на котором ясно читается имя Кей-Хосров» (**3, 45**).

Это историческое предание, как мы говорили, зафиксировано из уст местных жителей. Исследователь В.Ивченко в 1984-ом году предлагает эту информацию в немного измененной форме: «По одной из легенд, тысячу лет назад персидскийшах Кей-Хосров, убив в поединке соседнего правителя, бежал, спасаясь от мести, на север. Укрывшись в здешних горах, он и провёл остаток своих дней, предавшись молитвам. В чужой стране, у обрыва реки, подгорой Ниялдаг был похоронен изгнанник, а над могилой его поставили памятник с единственной надписью: «Кей-Хосров Первый». Слуги покойного шаха построили рядом селение и назвали его Лагич» (**4**). По мнению исследователя А.Ализаде лагичцы являются выходцами из иранского Лагиджана (провинция Гилян) (**5**). Очевидно, автор также опирался на предания, собранные М.Г.Эфендиевым в Лагиче.

А вот что говорят исторические источники об истории этого селения. Востоковед Владимир Минорский предполагал, что расположение и название современного Лагича соответствует княжеству Лайзан, одному из вассальных сасанидских княжеств, позднее ставшему частью Ширвана (**6**).

Десятый раздел привлекает внимание тем, что в этом разделе были зафиксированы три анекдота о лагичцах, собранные автором. Эти анекдоты немного иронизированного характера, показывают с какой самокритикой и юмором относились лагичцы к самому себе. Предлагаем вашему вниманию один из этих образцов, напечатанный под названием «Мы должны - три пятака»: «Трое келах-амулахонов (автор очерка М.Г.Эфендиев дает такое объяснение этому понятию - Слова «кела-амулька» употребляются почти всеми татарами Закавкзья в произношении «кела мулла». Всякий татарин в затруднительных случаях призывает на помощь «кела-муллу», прибявляя при этом, конечно, с иронией «это сделает или узнает только «келах-мулла». Например: сапоги узки, не лезут на ноги; вновь приобретенный папахне по голове; какой-либо большой предмет не входит в дверь; колесо не лезет на ось и проч.; во всех таких случаях он призывает на помощь «кела-муллу», обыкновенно восклицая: «Кела-мулла должен прийти!») с целью изучения разговорного Азербайджанского языка отправились в город Шемаху. Пробыв некоторое время в Шемахе, они убедились, что им не легко усвоить азербайджанский язык, а потому решились вернуться опять обратно в свое селение. Но в течении своего пребывания в городе, каждый из них выучил по одному азербайджанскому слову: одни слово «мы», другой «должны», а третий – «три пятака».

Вот они идут и ведут между собою оживленную беседу о том, что каждый из них видал и слыхал в городе. Вдруг на пути они наткнулись на мертвое тело и стали осматривать его. К несчастью келах-амулахонов, откуда ни возьмись, подъехал к ним ханский всадник, который заметив мертвеца, а возле него трех келах-амулахонов, стал расспрашивать их:

- Кто убил этого несчастного?

- Мы! Ответил не понимая вопроса всадника, тот который усвоил слово «мы».

- За что же? Что он вам сделал? – спрашивал дальше всадник.

- Должен, ответил другой

- Сколько он вам должен?

- Три пятака, заключил третий.

После этих вопросов всадник, связав всем трем келах-амульханам руки, привел их к хану. Келах-амулахоны хану ответили точно так же, как и всаднику, почему хан велел заключить их в темницу.

После заключения келах-амулохонов в темницу, хан, подумав немного, догадался что лагичцы так откровенно сознаются в вине только по глупости; а чтобы убедиться в их глупости, хан велел снова привести к нему заключенных келах-амулохонов и принести две тарелки – одну с кишмишом (изюмом), а другую с жуками; эти тарелки он приказал положить пред ними и предложил им есть. По приказанию хана снова привели заключенных, принесли тарелки с жуками и кишмишом, положили их пред ними и предложили есть. Когда келах-амулохоны протянули руки к тарелкам, жуки стали разлетаться.

- Товарищи! Прежде давайте есть тех, что улетают, кричал торопливо каждый из них.

Хан освободил их» (**3, 94**).

**Заключение**. Таким образом, подытоживая вышесказанное можно прийти к выводу что, все материалы - исторические, лирические, бытовые и обрядовые песни, сказания, фольклорные тексты, исторические факты и статистические материалы, напечатанные на страницах СМОМПК-а, раскрывают всю красоту жизни и быта, а также языка народностей Кавказа и их духовную суть.

**Xülasə**

XIX əsrin II yarısında Tiflisdə nəşrə başlayan SMOMPK – QƏXTMT məcmuəsi Qafqazda yaşayan xalqların öyrənilməsi sahəsində böyük əhəmiyyətə malikdir. Bu məcmuədə Qafqaz ətəklərində və ətrafında məskunlaşmış azərbaycanlılar, ləzgilər, osetinlər, gürcülər kimi say etibarilə böyük xalqların, həmçinin azsaylı xalqların və etnik qrupların həyatı və məişəti, tarixi və etnoqrafiyası, dili və dini mənsubiyyəti, folkloru və adət-ənənələri barədə dolğun məlumatı əks etdirən oçerk və məqalələr toplanmışdır. Məqalə və oçerklərin müəllifi isə həmin dövrlərdə Qori Müəllimlər Seminariyasında təhsil alan tələbələr və bu ərazidə müəllimlik fəaliyyəti ilə məşğul olan ziyalılar idi.

Məqalədə SMOMPK məcmuəsinin 29-cu buraxılışında yer alan "Bakı quberniyasının Göyçay qəzasının Lahıc kəndi" oçerki təhlil edilmişdir. Oçerkin müəllifi Lahıc məktəbində müəllim kimi fəaliyyət göstərmiş Məmmədhəsən Əfəndiyev olmuşdur.

**Резюме**

СМОМПК, начавший издаваться во второй половине XIX века, обладает важным значением в области изучения народов, проживающих на Кавказе. В этом сборнике были собраны статьи и очерки, посвященные фольклору и этнографии, жизни и быту, истории, языку и религиозной принадлежности азербайджанцев, лезгин, осетин, грузин и других народов проживающих на Кавказе. Авторы этих статей и очерков же были учителями или же студентами Горийской семинарии.

В данной статье был проведен анализ очерка «**Селение Лагич, Геокчайского уезда, Бакинской губернии**», который был напечатан в двадцать девятом номере СМОМПК, изданном в 1901-ом году. Автором этого очерка являлся **Мамед-Гасан Эфендиев**. На последней странице очерка автор – Мамед-Гасан Эфендиев охарактеризован как бывший учитель Лагичского училища.

**Summary**

SMOMPK – the journal, published in Tbilisi, Georgia, in the second half of the nineteenth century, and collected information about people living in the Caucasus has a great importance in the study the history and folklore of this nationalities. In SMOMPK are collected the articles which reflecting detailed information about the life and welfare of minorities and ethnic groups, history and ethnography, language, religion, folklore and traditions of nationalities living around the Caucasus – azerbaijanians, georgians,lezgins and so on.

The author of the articles and essays are the students studying in those times in Gori teachers' seminariya and it was the intellectuals who are engaged in teaching activities in the area.

In this article the theme "Lahij village of Goychay district of Baku province" from the 29th issue of the journal SMOMPK were analyzed. The author of this article, published in SMOMPK - Mammad Efendiyev, worked as a school teacher in Lahij.

**Литература:**

1. Горные ремесленники. Часть 2 // http://www.rus-4x4.ru
2. Лагич / Природные и архитектурные памятники Азербайджана // http://www.baku.ru/enc-show.php?id=177332&cmm_id=939
3. Эфендиев М.Г. Селение Лагич, Геокчайского уезда, Бакинской губернии // СМОМПК, выпуск 29, 1901, с.45-96
4. Ивченко В. Чаша Лагича // журнал: Вокруг Света, 1984, № 3
5. Ализаде А. Лагич, историко-культурный заповедник Азербайджана // журнал İRS, 2005, № 4.
6. Минорский В. История Ширвана и Дербенда в X-XI вв.. Москва: Издательство Восточной литературы,1963, 296 с.

**Rza Zeynal oğlu Xəlilov, filologiya üzrə fəlsəfə doktoru, dosent**
**AMEA Folklor İnstitutu, şöbə müdiri**
**Azərbaycan, Bakı**

# SMOMPK TOPLUSUNDAKI BİR ERMƏNİ-TAT SEHRLİ NAĞILI HAQQINDA

***Açar sözlər:*** *qriqoryan-tatlar, nağıl, QƏXTMT, Şamaxı*
***Ключевые слова****: григоряно-таты, сказка, СМОМПК, Шемаха*
***Key words:*** *Gregorian-Tat, fairy-tale, SMOMPK, Shamakhi*

*SMOMPK toplusunda göstərilən başlıqla dərc edilmiş bu mətn Şamaxı şəhər məktəbinin şagirdləri olmuş Əfəndiyev və Şahverdiyev tərəfindən tat dilində Şamaxı qəzasının Mədrəsə kəndində 1893 və ya 1894-cü ildə yazıya alınmışdır.*

*Sözü gedən nağıla "Qeydlər" yazan L.L. imzalı müəllif tatları bir millət kimi təqdim etdikdən, onların mənşəyindən bəhs etdikdən sonra belə bir ehtimal irəli sürmüşdür. Böyük ehtimalla, onlar Sasanilər dövründə (IV-cü əsrdə) Mədrəsəyə köç etmiş və sonralar xristianlığı erməni-qriqoryan inancı əsasında qəbul etmişlər. Yaxud da, onlar Şərqi Qafqazın cənubi dağlıq ərazilərində yerləşmiş köçkün ermənilərdən törəmişlər. Onlar sonradan yaxın qonşuları müsəlman tatların dilini öyrənmişlər.*

*Qənaətimizcə, bu qövmün erməni-qriqoryan inancında olması onların yazıda belə (erməni-tat) adlandırılmasını təmin etmişdir. Yuxarıdakı izahı nəzərə alaraq, biz (R.X.) bu ifadəni yazıda qriqoryan-tat kimi verməyi zəruri saydıq.*

Qafqaz Tədris İdarəsi tərəfindən 1881-ci ildən başlayaraq Tiflisdə rus dilində nəşr edilən "Qafqaz əraziləri və xalqlarının təsvirinə dair materiallar toplusu" (QƏXTMT – SMOMPK) toplusu Çar Rusiyasının əraziləri, hüdudları daxilində yaşayan böyük və kiçikliyindən asılı olmayaraq müxtəlif Qafqaz xalqlarının, folkloru, etnoqrafiyası, tarixi, dili və mədəniyyəti ilə bağlı materiallar toplayıb nəşr etdirmişdir. Sözügedən toplu bu yolda öz məram və prinsiplərinə sadiq qalaraq 1894-cü ildəki XX buraxılışında (cildində) "Erməni–tat mətnləri" adlı bir yazı nəşr etdirmişdir. Bu mətnlərdən biri sehrli nağıl, digəri isə dini məzmunlu nağıl olmaqla iki folklor mətn tipini nümayiş etdirməkdədir. Hər iki mətn Azərbaycan ərazisində, daha dəqiq deyilsə, Şamaxı qəzasının Mədrəsə kəndində Şamaxı şəhər məktəbinin şagirdləri Əfəndiyev və Şahverdov tərəfindən toplanıb yazıya alınmışdır (**1, 25-30**). Təəssüf ki, burada hər iki mətnin söyləyicisi haqqında, onun kimliyi haqqında bir məlumat verilməmişdir. Hər halda bu mətnlərin tat dilində olduğunu nəzərə almış olsaq, onların söyləyicilərinin milliyyətcə tat olduğunu və bundan əlavə Azərbaycan bölgə folklor mühitindən, nağıl yaradıcılığından xəbərdar olduqlarını ehtimal şəklində də olsa, deyə bilərik. Mətnlər tat dilində olsa da, burada hər cümlənin sözbəsöz sətiraltı tərcüməsi, bundan əlavə ayrıca mətn şəklində filoloji tərcüməsi də verilmişdir.

Azərbaycan folklor mühitində özünəməxsus yeri olan hər bir azsaylı xalqın, etnik qrupun etnik qeyri – maddi mədəniyyətinin, müəyyən görüş və baxışlarının məhsulu olan folklor əsərinin həm də geniş mənada ümumazərbaycan folklor əsəri olduğunu qəbul etmiş olsaq onun tarixi-tipoloji cəhətdən maraq doğurduğunu nəzərə almalıyıq.

Bununla yanaşı hər hansı bir məlum süjetin, motivin müxtəlif etnik mədəniyyət, etnopsixologiya və.s. şəraitində nə kimi dəyişikliklərə uğraması da maraq doğurmaya bilməz.

Görkəmli rus qafqazşünası, SMOMPK toplusunun naşiri və redaktoru L.Lopatinski toplunun bu cildinə yazdığı müqəddimədə cildin ikinci şöbəsində nəşr edilmiş kürd, talış, yəhudi - arami və aysor nağıl mətnlərindən, onların müxtəlif xalqlardakı variantlarından bəhs etmiş və bu sırada erməni – tat mətnlərindən, xüsusən də "Div və padşah oğlu" nağılı haqqında da öz müşahidə və tənqidi qeydlərini də bildirmişdir (**1, 25-30**). Onun tənqidi qeydləri əsasən mətnin quruluşu, mətnin başdan sovdu, qayçılanmış vəziyyətdə olması ilə bağlıdır. Nağılın qısa məzmununa nəzər salaq:

Üç oğlu olan bir padşahın həyətində yeddi ildən bir bar gətirən alma ağacı vardı. Alma yetişəndə kimsə gəlib almanı dərib aparırdı. Odur ki, padşah almaya həsrət qalmışdı. Padşahın əvvəlcə böyük oğulları alma ağacının qaravulunu çəkməyə getdilərsə də bir şey edə bilmədilər. Axırda kiçik

qardaşa növbə çatdı. O, bağa gedib ağacın qaravulunu çəkməyə başladı. Bir div gəlib almanı oğurlamaq istəyəndə kiçik qardaş xəncərini çəkib onu yaraladı. Div qanı axa-axa qaçıb getdi.

Qardaşlar qanın izi ilə gedib bir quyuya rast gəldilər, div həmən quyuda gizlənmişdi. Böyük qardaşlar quyuya düşə bilmir, kiçik isə quyuya düşüb divi öldürür. O, divin var-dövlətini və atını da özü ilə götürüb quyudan yuxarı çıxır. Qardaşlar onu görüb sevinirlər. Onlar atalarının yanına gəlirlər. Ataları hər üçünü evləndirir. Bir vaxtdan sonra kiçik qardaş padşah olur.

L.Lopatinski "Erməni – tat mətnləri" adlı materiala yazdığı "Qeyd"də bir millət olaraq tat sözünün etimologiyası, tatlar, onların yaşadıqları yerlər və dinləri haqqında məlumat vermişdir. O, müsəlman tatların Bakı quberniyasının şimal-şərqində, Bakı, Göyçay, Quba qəzalarında yaşadıqlarını və buradakı sakinlərin əhəmiyyətli hissəsini təşkil etdikləri topluda erməni – tat folklor mətnlərinə örnək olaraq yazmışdır. Təqdim edilmiş, "Div və padşah oğlu" (**1, 25-30**) adlı sehrli nağılın əsasını geniş yayılma arealı olan A T 300 ("Şahzadə qızın azad edilməsi"), "Kiçik qardaş", "Sehrli oğru" və s.kimi sujet tipləri və motivlər təşkil etməkdədir.

AT 300 süjet tipi Azərbaycan nağıl məkanında geniş yayılmışdır və burada bu süjet tipinin əgər belə demək mümkünsə, müxtəlif variantları da mövcuddur. Azərbaycan nağılı "Məlikməmməd" (**2, 299-320**) nağılı bu süjet tipinin parlaq örnəyini nümayiş etdirməkdədir. Təməlində bu süjet tipinin və yuxarıda adı çəkilən motivlərin durduğu sehrli nağılların kompozisiya nağılın sonrakı süjet xəttinin quruluşu cəhətdən ümumi olan çıxış vəziyyəti ilə xarakterizə olunur. Y.M.Lotman nağılda başlanğıcın əsas modelləşdirmə funksiyası olduğunu qeyd edir (**3, 260**). Bu, doğrudan da belədir. Belə ki, adətən bu tip sehrli nağılların süjetləri "çatışmazlıq – çatışmazlığın ortadan qaldırılması" modeli üzrə gerçəkləşir və burada "sehrli oğru" motivinin işlədilməsi çatışmazlığın çıxış situasiyasını, şəraitini təşkil edən əsas amil kimi çıxış edir.

"Div və padşah oğlu" və "Məlikməmməd" nağılında "çatışmazlıq" "sehrli oğrunun" (divin) padşahın bağından almanın oğurlanması ilə başlayıb "çatışmazlığın ortadan qaldırılması" padşahın oğlunun əvvəlcə divi yaralaması və daha sonra isə yeraltı dünyada onu öldürülməsi ilə bitir. Bu məsələ ilə bağlı olaraq qeyd etmək lazımdır ki, Azərbaycan nağılından fərqli olaraq erməni–tat nağılında div tərəfindən oğurlanan almanın qeyri–adi xüsusiyyəti göstərilmir. Məlum olduğu üzrə "Məlikməmməd" nağılında almanın gəncləşdirici, həyatı yeniləmək xüsusiyyəti var ikən, ikinci nağılda isə alma ağacının yalnız yeddi ildən bir bar verdiyi söylənilir. Azərbaycan nağılındakı almanın bu xüsusiyyəti yaşlaşmış, xəstə padşah ölkənin idarə olunması, ölkə xalqının rifahı və xoşgüzəranı ilə bağlı özünün magik funksiyalarını yerinə yetirmək iqtidarında deyildir və o, bu funksiyaları yerinə yetirə bilən gənc və sağlam bir şəxslə əvəz olunması ilə bağlı arxaik təsəvvürlərlə səsləşir.

Padşahın magik funksiyaları ilə bağlı arxaik təsəvvürlərin işığında "çatışmazlığın" dünya düzəninin pozulması mənasına gəlməsi ilə bu modelin xüsusi əhəmiyyəti üzə çıxır, bəlirlənir. Bu modelin digər və ya ikinci qütbü olan "çatışmazlığın" aradan qaldırılması nağıl qəhrəmanının sınaqdan keçməsini nəzərdə tutur ki, bu da V.Y.Proppun rəyinə görə neofitin inisiyasiyası mərasimlərinin tərkib hissələrində biri idi (**4, 86**). Adətən, müxtəlif mifoloji varlıqlarla mübarizə, döyüşdən ibarət olan sınaqlar silsiləsi, qəhrəmanın "öz" "doğma" sosiumunun hüdudları xaricində üçlu kosmik vertikal (şaquli, dik xətt) – göy yer-yeraltı dünya arasında yerdəyişmələri vaxtı baş verir.

Göründüyü kimi, hər iki nağılda süjetin əsasında, üzərində inkişaf etdiyi "çatışmazlıq" –"çatışmazlığın" ortadan qaldırılması modeli əsasən eyni istiqamətdə "sehrli oğru" motivinin iştirakı ilə gerçəkləşir. Erməni – tat nağılı özünün bu qısaldılmış, SMOMPK "variantında" kiçik qardaşın quyudan çıxması və hər üç qardaşın bir gündə ataları tərəfindən evləndirilməsi və bir müddət sonra atasının taxtı, tacı ona verməsi ilə bitir.

AT 300 süjet tipi üzərində qurulan sehrli nağılların klassik nümunəsi olan Məlikməmməd nağılından fərqli olaraq biz burada məsələn, bəzi epizodları yeraltı dünyada divin əsir etdiyi şahzadə qızların azad edilməsi, yenə də yeraltı dünyada suyun müqabilində ona qurban verilmiş şahzadə qızın azad edilməsi xain böyük qardaşların cəzalandırılması və s. epizodları görməyirik. Yəqin elə bu səbəbdən L.Lopatinski bu mətni "başdansovdu", "qayçılanmış" adlandırmış və bunda söyləyicini günahlandırmışdır. "Div və padşah oğlu" nağılı bu şəkildə belə göstərir ki, hər iki nağılın təməlində, əsasında eyni süjet tipi olursa da, müxtəlif etnik sosial, tarixi, mental amillərdən asılı olaraq burada süjet xətti müəyyən fərqli istiqamətlərdə inkişaf edə bilər.

Ümid etmək olar ki, Azərbaycan ərazisində yaşayan tatların folkloru sistemli toplanıldıqda bu nağılın mükəmməl, kamil variantı ilə tanış ola biləcəyik.

**Xülasə**

1881 və 1929-cu illər arasında əvvəlcə Tiflisdə, sonra isə Mahaçqalada nəşr edilmiş "Qafqaz ərazilərinin və xalqlarının təsvirinə dair materiallar toplusu" (QƏXTMT-SMOMPK) Qafqazda yaşayan xalq və millətlərin həyatı, məişəti, mədəniyyəti və folkloru haqqında materialların nəşrində mühüm rol oynamışdır. Məqalədə "Div və padşah oğlu" adlı qriqoryan-tat sehrli nağılının süjet quruluşu, motivləri və məzmunu ilə bağlı məsələlərdən bəhs edilmişdir. Sözügedən nağıl Bakı quberniyası Şamaxı qəzasının Mədrəsə kəndində toplanılmış, yazıya alınmış və toplunun 1894-cü ildəki XX buraxılışında nəşr edilmişdir. Məqalə müəllifi nağılın süjeti, mətnin quruluşu, onun naqisliyi ilə bağlı bəzi iradlarını da bildirmişdir. Bu qriqoryan-tat nağılının nəşri XIX əsr tat söyləyicilərinin nağıl repertuarı haqqında müəyyən təsəvvürlər yaratmağa imkan verir.

**Резюме**

Сборник материалов для описания местностей и племен Кавказа (СМОМПК) который издавался между 1881 и 1929 годами сначала в Тифлисе, а затем в Махачкале играя важную роль в издании различных материалов о быте, истории, культуре и языка народов и национальностей населяющих Кавказ. Сбор и издание фольклора и материалов по этнографии этих народов и наций также занимало большое место в деятельности данного сборника.

В статье рассматриваются вопросы, связанные с сюжетикой, сюжетным построением и мотивами григоряно -татской волшебной сказки «Див (Циклоп) и царский сын», собранный и записанный в селении Матраса Шемахинского уезда Бакинской губернии и изданной в XX выпуске сборника от 1894 года.

Здесь также высказаны некоторые замечания по поводу сюжетики, структуры текста, его скомканности и т.д.

Издание данной григоряно -татской волшебной сказки дает определенное представление о репертуаре татских сказителей времени издания сборника.

**Summary**

During 1881-1928 years publishing in Tbilisi, then in Makhachkala the collection of SMOMPK (The collection of materials dealing with the description of Caucasus territories and nations) played an important role in the welfare, history, culture and language of the nations living in Caucasus. The collection and publishing of folklore and the materials dealing with the ethnography of these nations took a great place in the activity of the presented collection.

In the article the attention is given to the problems dealing with the plot, plot construction and motives of Gregorian – Tat fairy-tale "Giant and the king's son" collecting from the village of Madrasa in Shamakhi of Baku province publishing in the $20^{th}$ edition in 1894.

Here is also given some remarks dealing with the plots, the construction of the texts, non-compactness and so on.

The publishing of Gregorian-Tat fairy-tale creates the impression about the repertory of flavor narrators.

**Ədəbiyyat:**

1. СМОМПК. XX вып., 1984, стр. 25-30
2. Azərbaycan nağılları 5 clilddə, 3-cü cild, Bakı, Çıraq, 2004, səh.299-310
3. Лотман Ю.М. Структура художественного текста, М.: Искусство, 1970, стр. 260
4. Пропп В.Я. Исторические корни восточной сказки. 2е изд. Л.: Издательство ЛУ, 1986, стр.86

**Elçin Əhmədov, siyasi elmlər doktoru, dosent,**
**Azərbaycan Respublikasının Prezidenti yanında**
**Dövlət İdarəçilik Akademiyasının**
**"Beynəlxalq münasibətlər və xarici siyasət" kafedrası**

# AZƏRBAYCANIN DAXİLİ VƏ XARİCİ SİYASƏTİNDƏ MULTİKULTURAL DƏYƏRLƏR

*"Qloballaşan dünyada hamımız bir-birimizə daha yaxın olmuşuq. Xalqlararası, mədəniyyətlərarası, dinlərarası dialoqun bu gün dərin məna kəsb etməsi də məhz bununla bağlıdır. Bu dialoqu inkişaf etdirərək, bu dialoqa dəstək verərək biz müəyyən mənada terrorizmin formalaşmasma xidmət edən bütün qaynaqları araşdırıb onu kökündən məhv etməyə can atmalıyıq".*

***Heydər Əliyev***
***Ümummilli lider***

***Açar sözlər:*** *Azərbaycan Respublikası, beynəlxalq münasibətlər, əməkdaşlıq, sivilizasiyalararası və mədəniyyətlərarası dialoq*
***Ключевые слова:*** *Азербайджанская Республика, Международные отношения, сотрудничество, межцивилизационный и межкультурный диалог*
***Key words:*** *The Republic of Azerbaijan, international relations, cooperation, intercultural dialogue*

XX yüzilliyin sonunda dünyada baş verən qlobal proseslər, xüsusilə də "soyuq müharibə"nin başa çatması, SSRİ və sosializm sisteminin süqutu beynəlxalq aləmdə siyasi mühitin ciddi şəkildə dəyişməsinə və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb oldu. Bu dovrü əsasən sosialist düşərgəsinin süqutu nəticəsində dünyanın mövcud siyasi xəritəsinin dəyişməsi ilə yanaşı, habelə ictimai həyatın müxtəlif sahələri ilə bağlı bir sıra qlobal problemlərin yaranması və gərginləşməsi ilə də səciyyələndirmək olar. Bununla yanaşı, Sovet İttifaqının dağılması regionda dini dözümlülük ənənələri üçün də əsl sınağa çevrildi. Bu proseslərin nəticəsində keçmiş müttəfiq respublikaların xalqları müstəqilliklə yanaşı, əsl dini etiqad azadlığı da əldə etdilər. Azərbaycandakı mövcud tolerantlığın əsasları üçün ən böyük təhlükəni minlərlə dinc sakinin ölümünə və bir milyondan çox soydaşımızın doğma yurdlarından didərgin düşməsinə səbəb olan Ermənistanın ölkəmizə hərbi təcavüzü yaradırdı.

Tarixən Azərbaycan Avropa və Asiyanın qovşağında yerləşdiyi üçün xalqlar arasında körpü rolunu oynamış, müxtəlif mədəniyyətlərin əlaqələrində birgə yaşayışında mühüm əhəmiyyət kəsb etmişdır. Əsrlər boyu həmin xalqların və dinlərin nümayəndələri burada dostluq, qarşılıqlı etimad və sülh şəraitində yaşayıb fəaliyyət göstərmişlər. Təbiidir ki, belə bir mühitdə multikultural və tolerant dəyərlər xalqımızın əsl həyat tərzinə çevrilməyə başlamışdır. Bu baxımdan hazırda Azərbaycanda bərqərar olan multikulturalizm və tolerantlıq xalqımızın mentalitetindən irəli gələn ənənə, həm də dövlət ideologiyasının tərkib hissəsi hesab olunur.

Azərbaycan Respublikası dövlət müstəqilliyini yenidən bərpa etdikdən sonra siyasi və iqtisadi münasibətlərin yeni prinsiplər üzərində bərqərar olmasına səbəb olmaqla yanaşı, eyni zamanda ölkəmizdə multikulturalizmin inkişafı üçün geniş imkanlar yaratdı. Keçmiş hakim ideologiyanın aradan qalxması adət-ənənələrə, milli və dini münasibətlərə siyasi-ideoloji qadağalardan kənar yeni yanaşmaların meydana gəlməsini şərtləndirdi. Dövrün tələblərinə uyğun olaraq multikultural münasibətləri tənzimləmək, müxtəlif dini inancların, mənəvi-mədəni dəyərlərin daşıyıcısı olan azsaylı xalqların müstəqil dövlətçilik ideyaları ətrafında sıx birləşməsini təmin etmək dövlətin qarşısında duran əsas vəzifələrdən biri idi.

Həmin dövrdə yenidən siyasi hakimiyyətə qayıdan ümummilli lider Heydər Əliyevin ilk müraciətlərindən birində deyilirdi: "...Azərbaycan on illərlə, yüz illərlə bu torpaqda yaşayan bütün in-

sanların Vətəni olub, bundan sonra da Vətəni olmalıdır. Respublikanın ərazisində yaşayan hər bir vətəndaş milliyyətindən, dinindən, siyasi mənsubiyyətindən asılı olmayaraq, eyni hüquqa malik olmalı... bütün demokratik prinsiplər, insan hüquqlarının müdafiəsi, siyasi plüralizm, söz azadlığı, vicdan azadlığı, dini etiqad azadlığı, milli-dini mənsubiyyətindən asılı olmayaraq vətəndaşların hüquqi bərabərliyi təmin edilməlidir”[29].

Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi uzaqgörən siyasət nəticəsində XX yüzilliyin 90-cı illərinin əvvəllərində milli-etnik və dini müxtəlifliklərdən ölkəmizi münaqişələrə cəlb etmək məqsədilə istifadə olunması cəhdlərinin qarşısı qətiyyətlə alınmış, bütövlükdə bu məkrli plan alt-üst olunmuşdur. Ümummilli lider respublikamızın gələcək uğurlu inkişafı üçün dəqiq ideoloji istiqamət seçərək, öz müdrik siyasəti ilə tarix boyu formalaşmış Azərbaycanın çoxmədəniyyətlilik, tolerantlıq ənənələrini yeni bir mərhələyə qaldırmağa nail olmuşdur. Azərbaycan əhalisinin çoxmillətli tərkibini milli sərvətimiz hesab edən ümummilli lider bütün siyasi fəaliyyətini bu misilsiz sərvətin qorunub saxlanılması, əbədi olması istiqamətinə yönəltmişdi.

Ümummilli lider Heydər Əliyevin tarixi xidməti sayəsində Azərbaycanda multikulturalizm və tolerantlıq dövlət siyasəti səviyyəsinə çatdırılıb. Respublikada multikultural dəyərlər davamlı olaraq təhsil, mətbuat və ictimaiyyətdə təşviq olunub, dini mədəni müxtəliflik mühiti dövlətin diqqət və qayğısı ilə əhatə edilmişdir. Həmin illərdə Heydər Əliyev Azərbaycan vətəndaşlarının etnik milli duyğularını nəzərə almaqla, həm də məqsədyönlü şəkildə ictimai-siyasi özünüdərk hislərinin, vətəndaşlıq və vətənpərvərlik duyğusunu formalaşdırılması kimi ciddi bir dövləti funksiyanı yerinə yetirərək, bütün ölkə vətəndaşlarını azərbaycançılıq platformasında birləşdirmişdir. Onun həmin dövrdə səsləndirdiyi “Xalqın, Vətənin taleyi hər bir insanın taleyinə çevrilməlidir!”, yaxud, “Vətən birdir və hamı bu Vətən üçün çalışmalıdır!” çağırışı bu sahədəki fəaliyyətin əsas göstəricisi hesab oluna bilər[30].

Müstəqilliyimizin ilk illərində Ermənistanın Azərbaycana təcavüzü, ağır sosial-iqtisadi şərait, din sahəsinə də ciddi təsir göstərirdi.Ermənistan- Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi dini zəmində baş verməsə də, Ermənistanın dini lideri I Vazgen praktiki olaraq separatçı hərəkatı qızışdıran şəxslərdən biri olmuşdur.Barışmaz erməni millətçiləri hər imkandan istifadə edərək, Qərbə və Rusiyaya belə bir mif təlqin etməyə çalışırdılar ki, guya Azərbaycandan "islam təhlükəsi" gözlənilir. Bununla yanaşı, Azərbaycanda anti-müharibə və hətta ermənipərəst meyillərin yayılması üçün bəzi qüvvələr respublikanın müsəlman əhalisinin xristianlaşdırılmasından istifadə edirdilər. Şübhəsiz ki, belə hərəkətlər dinlərarası dialoqun möhkəmlənməsinə xidmət etmir, əksinə, bu işə böyük zərbə vururdu. Qeyd etmək lazımdır ki, hələ Azərbaycan SSR-də əhalinin mütləq əksəriyyəti islam dininə mənsub olduğu halda rəsmən fəaliyyət göstərən 53 dini icmadan ancaq 18-i islam dini təşkilatı idi. Həmin dövrdə Azərbaycanda 31 xristian dini təşkilatı və təriqəti, 4 yəhudi dini təşkilatı qeydə alınaraq fəaliyyət göstərirdi[31].

Ümummilli lider Azərbaycanın daxili ictimai-siyasi, iqtisadi, mənəvi, milli-etnik və dini həyatının tarazlı inkişaf modelini yaratmaqla yanaşı, həm də həlli prinsiplərini ortaya qoydu. Mütəxəssislərin fikrinə görə, Heydər Əliyev ölkə daxilində ümumi ahəngi pozmadan, etnik-milli və milli-siyasi aspektlər arasında optimal nisbəti nəzərə almaqla, dövlətin təkamül yolu ilə inkişafına ciddi zəmin yaratdı və dövlətçilik probleminin ən əlverişli həlli yolunu ortaya qoydu[32]. Heydər Əliyev milli-vətəndaş birliyini, hərtərəfli inkişaf etmiş, iradəli və əzmkar vətəndaş idealını çox bacarıqla və ustalıqla ümumazərbaycançılıq ideyası ilə bağlayaraq, vahid amala doğru yönəltməyi bacarırdı. Tarixi təcrübə sübut edir ki, güclü birləşdirici ideyası olan insan birlikləri (xalqlar, millətlər, dini icmalar və s.) bu cür ideyaları olmayanlara həmişə qalib gəlmişlər.

Təbii olaraq, ümummilli lider etnik millətçiliyə alternativ kimi bütövlükdə Azərbaycan xalqının və cəmiyyətinin, eyni zamanda Azərbaycan dövlətçiliyinin yüksəlişini şərtləndirən və multikulturalizmin əsas mənəvi bazası olan azərbaycançılıq prinsipini milli ideologiya kimi irəli sürdü. O

[29]Əliyev H.Ə. Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Elektron külliyat. - http://preslib.az/books.html

[30] Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, 2016, s. 73.

[31]Azərbaycan Respublikası 1991-2001. Bakı, 2001, s.231.

[32] Həsənov Ə.M. Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, 2016, s.77.

qeyd etdi ki, etnik millətçilik, nəhayət etibarilə, etnik separatizmə, xalqlar arasında münaqişəyə gətirib çıxarır. Azərbaycançılıq ideologiyası isə dinindən, dilindən, irqindən asılı olmadan ölkədə yaşayan bütün vətəndaşları birləşdirir. Ulu öndərin dediyi kimi, həqiqətən də "Azərbaycan onun ərazisində yaşayan bütün millət və xalqların ümumi vətənidir"[33].

Azərbaycanın dövlət müstəqilliyi bərpa olunduqdan sonra dini azlıqların hüquqlarının qorunması və təminatı sahəsində çox mühüm addımlar atılmışdır. Vicdan azadlığının təmin edilməsinə yönəlmiş müvafiq qanunvericilik bazasının formalaşdırılması, onun mütəmadi olaraq təkmilləşdirilməsi və uğurlu tətbiqinə nail olunması da müstəqil Azərbaycan dövlətinin əsas fəaliyyət istiqamətlərindən biri kimi daim diqqət mərkəzindədir. Ölkəmizdə vicdan azadlığının təmin edilməsinə yönəldilmiş normativ hüquqi aktların içərisində 1992-ci ildə qəbul edilmiş "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu xüsusi yer tutur[34].

Ümummilli lider Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyindən sonra bu qanun daha da təkmilləşdirilmiş, 1996 və 1997-ci illərdə müvafiq düzəlişlər edilmişdir. Bu qanuna görə, Azərbaycanda vətəndaşlıq hüququna malik olan "hər bir kəs dinə münasibətini müstəqil müəyyənləşdirir, hər hansı dinə təkbaşına və ya başqaları ilə birlikdə etiqad etmək, dinə münasibəti ilə əlaqədar əqidəsini ifadə etmək və yaymaq hüququna malikdir"[35].

Azərbaycanın çoxmillətli və müxtəlif dinlərin ardıcıllarının yaşadığı ölkə olması, milli siyasətin müxtəlif millət, etnik qrup və dini azlıqların dinc yanaşı yaşaması və dözümlülük prinsipləri əsasında müəyyənləşdirilməsi, Konstitusiyada da təsbit olunmuşdur: "Dövlət irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əmlak vəziyyətindən, qulluq mövqeyindən, əqidəsindən, siyasi partiyalara, həmkarlar ittifaqlarına və digər ictimai birliklərə mənsubiyyətindən asılı olmayaraq, hər kəsin hüquq və azadlıqlarının bərabərliyinə təminat verir və bütün vətəndaşlar eyni hüquqlara malikdir"[36].

Qanunun qəbul edildiyi vaxtdan ötən 20 ildən artıq müddət ərzində, ölkə həyatının bütün sahələrində olduğu kimi dini etiqad azadlığının təmin olunması istiqamətində də əhəmiyyətli müsbət dəyişikliklər baş vermiş, bu sahədə dövlət siyasətinin əsasları təkmilləşdirilmiş, yeni idarəçilik prinsipləri formalaşmışdır. Bu prosesə, əsas insan hüquq və azadlıqlarının təsbit olunduğu yeni Konstitusiyanın ümümxalq səsverməsi yolu ilə qəbul edilməsi, Azərbaycan Respublikasının, vicdan azadlığı ilə bağlı müddəaları da özündə əks etdirən bir çox beynəlxalq konvensiyalara qoşulması amilləri də öz pozitiv təsirini göstərmişdir. Bütün bunların, habelə dövlət tərəfindən bu sahədə düzgün və çevik qanunvericilik siyasətinin həyata keçirilməsinin nəticəsidir ki, ötən müddət ərzində dini qurumların, xüsusilə ölkə əhalisinin böyük əksəriyyətinin etiqad etdiyi islam dini təşkilatlarının cəmiyyət həyatındakı rolu keyfiyyətcə dəyişmiş və müasir, sivil dövlət-din münasibətlərinin tələb etdiyi bir səviyyəyə yüksəlmişdir.

Beynəlxalq sənədlərin dini etiqad azadlığının təmin edilməsində vacib rolu, həm də belə bir vəziyyətlə bağlıdır ki, bir çox hallarda bir ölkədəki dini konfessiyaların mərkəzi və ya idarəsi, habelə əsas ziyarətgahları başqa bir ölkədə yerləşir. Məsələn, Azərbaycandakı pravoslav dini icmalarının mərkəzi Rusiya Federasiyasında, katolik icmasının mərkəzi Vatikanda, islam dini icmalarının əsas ziyarətgahları isə Səudiyyə Ərəbistanında, İranda və İraqdadır. Buna görə də dini qurumlar arasındakı normal əlaqələrin qurulması, ziyarətlərin təşkili üçün beynəlxalq müqavilələrin imzalanması zərurəti yaranır[37]. Azərbaycan dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Ölkə vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir.

Dini dözümlülüyü, tolerantlığı daima dəstəkləyən Heydər Əliyev gənclərimizin bu ruhda tərbiyə olunmasını həmişə tövsiyə edirdi. Yeniyetmə və gənclərimizin başqa dinlərə qarşı dözümlülük

[33] Abdullayev K.M. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir // "Azərbaycan" 23 iyul 2014-cü il.

[34]http://www.e-qanun.az/framework/7649;http://www.meclis.gov.az/; http://www.president.az/articles/2672;http://www.president.az/articles/7787; http://scwra.gov.az/docs/169/

[35]Həsənov S. "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun komentariyası. Bakı, 2014, s.3.

[36]http://www.azerbaijan.az/portal/General/Constitution/doc/constitution_a.pdf

[37] Yenə orada, s.34.

ruhunda tərbiyə edilməsinin vacib məsələ olduğunu vurğulayan ümummilli lider, eyni zamanda bu işin mürəkkəb və çətin olduğunu da qeyd edirdi. Ulu öndər gənclərdə tolerantlıq mədəniyyətinin uşaqlıqdan tərbiyə edilməsini diqqətə çəkərək ünsiyyət mədəniyyətinin formalaşdırılması və Azərbaycan gənclərində bu xüsusiyyətlərin tərbiyə edilməsinin vacib şərt olduğunu tövsiyə etmişdir. O, bu məsələlərdən bəhs edərək demişdir: "Məlumdur ki, yüksək tolerantlıq ilk növbədə yüksək mədəniyyətin təzahürüdür. İnsanlarda belə bir mədəniyyətin formalaşdırılmasını uşaqlıq illərindən başlamaq lazımdır. Ölkəmizdə yetişməkdə olan nəslin təhsillənməsində müasir elmi-pedaqoji konfranslar daxilində biz ünsiyyət mədəniyyətini, dini dözümlülük və əməkdaşlıq mədəniyyətini formalaşdırmağa cəhd göstəririk və ümumən desək, buna nail oluruq. Bunu demək çox asandır, lakin gerçəkləşdirmək kifayət qədər mürəkkəb bir prosesdir"[38].

Azərbaycanda dövlətin din siyasətinin həyata keçirilməsini təmin etmək məqsədilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yaradılmış və Komitə ölkəmizdə mövcud olan dini strukturların fəaliyyətinin tənzimlənməsi, eləcə də dövlətin din siyasəti sahəsində müxtəlif funksiyalarını yerinə yetirir. Ümumiyyətlə, milli dəyərlərimizin qorunması və gələcək nəsillərə çatdırılması bu gün də öz aktuallığını qoruyub saxlayır. Çünki bu dəyərlərin xalqımızın formalaşmasına təsiri böyük olduğu kimi, milli dövlətçiliyimizin möhkəmləndirilməsində də xüsusi rolu vardır. Bu gün milli dəyərlərimiz elliklə, bütün xalq tərəfindən, dövlətin öz himayəsi altında qorunur və daha da inkişaf etdirilir. Eyni zamanda, bəşər sivilizasiyanın müxtəlif mədəniyyətlərinin qorunması üçün dinlər və mədəniyyətlər arasında dialoqun yaranması mühüm əhəmiyyət kəsb edir. Bu baxımdan tolerantlıq və dözümlülük ənənələri zəngin olan ölkə və regionların təcrübəsi nümunə ola bilər. Bu baxımdan, Azərbaycan bir çox millətlərin və dini konfessiyaların dinc yanaşı yaşamasının unikal nümunəsidir.

Bundan əlavə, ümummilli lider İslam dini ilə bağlı bir sıra beynəlxalq elmi tədbirlərin respublikamızda keçirilməsinin təşəbbüskarı olmuşdur. Onun təşəbbüsü və dəstəyi ilə 1993-2002-ci illərdə İslam dini, mədəniyyəti ilə bağlı Azərbaycanda müxtəlif tədbirlər keçirilmişdir. Bu tədbirlərdən biri olan 1998-ci il dekabrın 9-11-də Bakıda keçirilmiş "İslam sivilizasiyası Qafqazda" adlı beynəlxalq simpoziumdur. Azərbaycan İslam dünyasının bir parçası olduğuna və Şərqlə Qərbin qovuşuğunda yerləşdiyinə görə bu beynəlxalq simpoziumun Bakıda keçirilməsini təbii hesab etmək olar. Eyni zamanda, İslam dininin və İslam sivilizasiyasının Qafqazda yayılması ilə bağlı məsələlərin elmi cəhətdən araşdırılması zərurətini, o cümlədən respublika, regional və beynəlxalq təşkilatların müraciətlərini nəzərə alaraq Heydər Əliyev bu aktual və vacib tədbirin Bakıda keçirilməsini dəstəkləmişdir. Simpoziumda Türkiyə, Rusiya, ABŞ, Misir, Almaniya, Fransa, Küveyt və digər ölkələrdən gəlmiş nümayəndələr iştirak etmişlər[39].

Azərbaycan vətəndaşlarının əksəriyyətini təşkil edən müsəlmanların hüquqlarının təmin olunması ilə yanaşı, dövlət respublikada yayılmış digər dinlərə də qayğı göstərir.Qeyd etmək lazımdır ki, 1995-ci ildə YUNESKO-nun yaranmasının 50 illik yubileyi münasibətilə Beynəlxalq Tolerantlıq günü təsis edilmiş və burada əsas məqsəd dünyada hamını bir-birinə dözümlülük nümayiş etdirərək dinc yanaşı yaşamağa çağırışdan ibarətdir[40]. Bundan irəli gələrək Heydər Əliyevin təşəbbüsü ilə 1999-cu ildən etibarən noyabrın 16-nın Azərbaycanda tolerantlıq günü kimi qeyd olunması ümummilli liderin multikultural dəyərlərə, tolerant ənənələrə verdiyi yüksək qiymətin göstəricisidir[41].

Bu baxımdan, ümummilli lider haqlı olaraq multikulturalizm siyasətini ölkənin demokratik inkişafının tərkib hissəsi hesab edirdi. O, Azərbaycan ərazisində yaşayan milli azlıqların hüquq və azadlıqlarının, o cümlədən etnik-mədəni, dini dəyərlərinin qorunmasını demokratiyanın mühüm prinsipi olan əsas insan hüquq və azadlıqları kontekstində görürdü. Ümummilli liderinin rəhbərliyi ilə, nəhayət ki, demokratik inkişaf yoluna çıxmış Azərbaycan Respublikası, onun qeyd etdiyi kimi,

[38]Hüseynov S. Azərbaycan dini tolerantlığa və sabitliyə töhfə verən örnəkdir // "Xalq qəzeti" 11 fevral 2011-ci il.
[39] "Azərbaycan" 12 dekabr 1998-ci il.
[40]UN General Assembly Resolution A/RES/48/126 "United Nations Year for Tolerance".
[41] Həsənov Ə. M. Heydər Əliyevin siyasi kursunda multikulturalizmə baxış və yanaşmalar. // **"Geostrategiy" jurnal, № 01(31), yanvar-fevral 2015,s.3-7.**

"dinindən, dilindən, irqindən asılı olmayaraq Azərbaycanın bütün vətəndaşlarının eyni hüquqlara malik" olmalarını təmin etməli idi[42].

Ümumiyyətlə, Azərbaycan tarixən tolerantlıq, dini dözümlülük ənənələri ilə fərqlənsə də, qeyd etmək vacibdir ki, beynəlxalq standartlara cavab verən tolerantlıq ölkəmizdə məhz Heydər Əliyevin xidmətləri sayəsində qurulmuşdur. Belə ki, 1920-ci ildə bağlanmış Jen Mironosets baş kilsəsinin binası 1991-ci ildə Rus Pravoslav Kilsəsinə verilmişdir[43]. Azərbaycanda səfərdə olan Moskvanın və bütün Rusiyanın Patriarxı II Aleksi 2001-ci il mayın 27-də bu məbədi müqəddəs elan etmiş və ona baş kafedral kilsə statusu vermiş və kilsənin açılış mərasimində Azərbaycan Prezidenti Heydər Əliyev, hökumət üzvləri, səfirliklərin nümayəndələri və dini icmaların başçıları iştirak etmişlər. Moskva və Ümumrusiya Patriarxı II Aleksi Azərbaycanda dövlət-din münasibətlərinin düzgün qurulmasında, respublikada dini əmin-amanlığın və sabitliyin yaranmasında ümummilli lider Heydər Əliyevin mühüm rol oynadığını, eləcə də Azərbaycanın bu sahədə nümunə olmasını vurğulayaraq demişdir: "Azərbaycan qədim dini ənənələrə və mədəniyyətə malik bir ölkədir. Bu gün Azərbaycan dini əmin-amanlığa və sabitliyə ilham verən örnəkdir. Bunun əsası Azərbaycan Prezidenti Heydər Əliyevin müdrik siyasəti sayəsində qoyulmuşdur. Dünyəvi hakimiyyət və ənənəvi dini icmaların konstruktiv fəaliyyəti və qarşılıqlı ünsiyyəti nəticəsində yaranmış dövlət-din münasibətlərinin nadir modeli Azərbaycan Respublikasında öz əksini tapmışdır. Belə zənn edirəm ki, bu sahədə Azərbaycanda toplanmış təcrübə diqqətlə öyrənilməli və təhlil olunmalıdır"[44].

Bundan əlavə, ölkəmizdə 1997-ci ildə gürcü yəhudilərinin sinaqoqu bərpa edilmişdir[45]. Ümumiyyətlə, Azərbaycan müstəqillik əldə etdikdən sonra buradakı yəhudi icmaları beynəlxalq yəhudi təşkilatları ilə əlaqələrini möhkəmləndirmiş, öz dini məktəblərini, mədəniyyət mərkəzlərini, cəmiyyətlərini, qəzetlərini yaratmışlar. 2003-cü il martın 9-da Bakıda yeni yəhudi sinaqoqu açılmışdır[46]. Bu, hazırda da Avropada ən böyük sinaqoqdur. Bununla yanaşı, Azərbaycanda dini tolerantlığın formalaşmasında Prezident Heydər Əliyevin xidmətini yüksək dəyərləndirən Ümumgürcüstan Katalikos Patriarxı II İlya Azərbaycanda mövcud olan dini tolerantlıqdan və bu sahədə də Heydər Əliyevin və onun davamçılarının xidmətini yüksək qiymətləndirərək demişdir: "Bu gün Azərbaycanda mövcud olan tolerant mühitin formalaşmasında Heydər Əlirza oğlu Əliyevin xidməti böyükdür. Azərbaycanın öz ənənəvi dəyərlərini qoruyub saxlamaqla müasir dünyanın çağırışlarına ləyaqətli cavab verə bilməsi şəxsən onun və onun davamçılarının müdrik və uzaqgörən siyasətinin nəticəsidir"[47].

Müasir dövrdə çağdaş dünyanın qarşısında duran ən mühüm problemlərdən biri fərqli sivilizasiyalar, dinlər, mədəniyyətlər arasında anlaşmanın, əməkdaşlığın optimal yollarının tapılmasıdır. Son illərdə bu mövzuda müxtəlif səviyyəli müzakirələr aparılmış, beynəlxalq tədbirlər keçirilmiş və qurumlar təsis olunmuşdur. 2001-ci il sentyabrın 11-də Amerikada baş vermiş terror hadisəsindən sonra meydana gələn və bir sıra hallarda mədəniyyətlərin toqquşması, sivilizasiyalar və dinlərarası savaş kimi təqdim edilən proseslər dünyada geniş miqyaslı dialoq zərurətini aktuallaşdırmışdır. Qeyd etmək lazımdır ki, ABŞ-da baş verən 11 sentyabr hadisələrindən sonra dinlərarası və sivilizasiyalararası dialoq zərurəti daha da aktuallaşmış və bu istiqamətdə apanlan elmi-nəzəri tədqiqatların və əməli tədbirlərin dəyəri daha da mühüm əhəmiyyət kəsb etməyə başlamışdır.Təsadüfi deyildir ki, XXI əsrin ilk ili - 2001-ci il BMT Baş Assambleyası tərəfindən "Sivilizasiyalararası dialoq ili" elan olunmuş[48] və 2001-ci il noyabrın 9-da BMT Baş Assambleyasında "Sivilizasiyalararası dialoq üçün qlobal gündəlik"adlanan qətnamə qəbul edilmişdir[49]. Bunlar onu göstərir ki, qloballaşma dövründə sivilizasiyalararası dialoqun həyata keçirilməsi daha çox əhəmiyyət kəsb edir.

Bu gün müasir Azərbaycanda dövlət-din münasibətləri modeli çərçivəsində bütün dini konfessiyalar qanun qarşısında bərabərdir və eyni statusa malikdir. Vətəndaşlarının böyük əksəriyyətini mü-

---

[42] Abdullayev K.M. Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir // "Azərbaycan" 23 iyul 2014-cü il.
[43] http://www.azerbaijan.az.
[44] "Xalq qəzeti", 28 may 2001-ci il.
[45] Qurbanlı M.Q. Azərbaycanı tolerantlığın ən mükəmməl nümunəsinə çevirən lider. // "Azərbaycan" 6 may 2015-ci il.
[46] "Azərbaycan" 10 mart 2003-cü il.
[47] Qurbanlı M.Q. Azərbaycanı tolerantlığın ən mükəmməl nümunəsinə çevirən lider. // "Azərbaycan" 6 may 2015-ci il.
[48] UN General Assembly Resolution A/RES/55/23 "Year of Dialogue among Civilizations".
[49] UN General Assembly Resolution A/RES/60/04 "Global Agenda for Dialogue among Civilizations".

səlmanlar təşkil edən ölkəmizdə digər dinlərə də xüsusi qayğı göstərilir. Azərbaycan öz mədəniyyəti, tarixi, adət-ənələri ilə fəxr etməyə layiq az sayda dövlətlərdən biridir. Tolerantlıq dövlət strategiyası olaraq əsası ümummilli lider Heydər Əliyev tərəfindən qoyulmuş və bu zəngin ənənə hazırda Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Əsrlərdir ki, xalqımız tolerantlıq, dözümlülük, başqa dinlərə və mədəniyyətlərə hörmət prinsiplərini həyat tərzinə çevirərək bu prosesə mühüm töhfələr vermişdir. Ona görə də dövlət başçısı İlham Əliyevin 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsi heç də təsadüfi deyil və bunun dərin tarixi kökləri vardır.

Belə ki, 2016-cı ilin Azərbaycanda "Multikulturalizm ili" elan edilməsi bir çox obyektiv amillərdən qaynaqlanır. Birincisi, Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu məkanda yerləşməklə dinlər və sivilizasiyalararası anlaşmada aparıcı rol oynamış, bununla bağlı dərin tarixi baza formalaşdırılmışdır. Ölkəmizdə heç vaxt dini və etnik zəmində heç bir qarşıdurma olmamış və bu proses indi də uğurla davam etdirilir. İkincisi, Azərbaycan cəmiyyətindəki dözümlülük ölkədə nadir tolerantlıq mühiti yaratmış və indi bu, bir nümunə kimi beynəlxalq ictimaiyyətin diqqətini cəlb edir. Üçüncüsü isə Azərbaycanda multikulturalizm ənənələrinin inkişafı və möhkəmlənməsi üçün bütün zəruri siyasi və sosial şəraitin mövcud olmasıdır.

Multikulturalizm eyni ölkədə yaşayan xalqların mədəniyyət hüquqlarını tanıyan humanist dünyagörüşü və ona uyğun siyasət kimi qəbul olunur. Məsələyə bu kontesdən yanaşdıqda Azərbaycanda müxtəlif millətlərin, dinlərin və mədəniyyətlərin nümayəndələrinin sərbəst yaşamaları üçün bütün zəruri şəraitin yaradıldığını görürük. Müstəqilliyini bərpa etdikdən sonra isə ölkəmizdə multikulturalizm ənənələrinin güclənməsinə dövlət dəstəyi formalaşmışdır ki, indi bu dəstək özünün yüksəliş dövrünü yaşayır.

Azərbaycan Prezidenti İlham Əliyevin Azərbaycanın Pravoslav xristian icmasına təbrikində çoxmillətli və çoxkonfessiyalı cəmiyyətimizdə dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, Azərbaycanın bütün vətəndaşları, o cümlədən pravoslav xristianların öz hüquq və azadlıqlarından lazımınca yararlanmaqla, ölkəmizdə gedən böyük inkişaf və quruculuq prosesində fəal vətəndaşlıq mövqeyi nümayiş etdirdiyini bildirərək demişdir: "Yüz illər boyu yüksək mənəvi-əxlaqi dəyərlərin və etnik-dini tolerantlıq ənənələrinin qorunub saxlandığı Azərbaycan cəmiyyətində ayrı-ayrı xalqlar, dinlər və etiqadlar arasında qarşılıqlı hörmət, etimad və qardaşlıq münasibətləri mövcud olmuşdur. Biz bunu milli dövlətçiliyimizin böyük uğuru kimi qiymətləndirir, tarixi-mənəvi irsin və etnik-mədəni müxtəlifliyin qorunmasını, multikulturalist ənənələrə söykənən ictimai münasibətlərin təbliğini və təşviq edilməsini fəaliyyətimizin başlıca istiqamətlərindən biri hesab edirik"[50].

*Ölkəmizin tarixən müxtəlif dinlər, mədəniyyətlər üçün dinc yanaşı yaşama məkanı olması Azərbaycanın bu proseslərdə ön sıralarda yer almasını zəruri edir. XX əsrin əvvəlində bir müsəlman ölkəsi olaraq dünyaya ilk cümhuriyyəti, demokratik respublikanı vermiş, müsəlman Şərqində ilk dəfə mütərəqqi Qərb dəyərlərini dövlət səviyyəsində əxz və tətbiq etmiş Azərbaycan üçün bugünkü dünyaya mədəni tolerantlıq örnəyi olmaq, mədəniyyətləri qovuşduran məkan rolunda çıxış etmək tarixin üzərimizə qoyduğu bir missiyadır.* 2009-cu il oktyabrın 13-14-də "Bakı - İslam Mədəniyyətinin Paytaxtı-2009" mədəniyyət ili çərçivəsində dünyanın 45-dən çox ölkəsindən, eləcə də ISESCO, Avropa Şurası, TÜRKSOY və digər təşkilatlardan 200-dən çox nümayəndənin iştirakı ilə respublikamızda İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransı keçirilmişdir. Məhz ilk dəfə olaraq *Azərbaycan*da İslam Əməkdaşlıq Təşkilatına üzv ölkələrin mədəniyyət nazirlərinin toplantısına Avropa Şurasından mədəniyyət nazirləri qatılmışdı.

Bununla yanaşı, UNESCO 2001-ci ildə Mədəni müxtəliflik üzrə Universal Bəyannaməni və 2005-ci ildə Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında Konvensiyanı qəbul etdikdən sonra mayın 21-i Mədəni Özünüifadə Müxtəlifliyi üzrə Ümumdünya Günü elan edilmişdir. 2008-ci ildən etibarən hər il bu tarixdə ənənəvi olaraq UNESCO-da və dünyanın bir çox bölgələrində müxtəlif qitə və regionların mədəniyyətlərini əks etdirən konsert, sərgi və digər mədəniyyət tədbirlərindən ibarət olan Müxtəliflik Festivalı keçirilir. 2010-ci il mayın 17-dən - 26-dək UNESCO-da Azərbaycanın birinci xanımı, xoşməramlı səfir Mehriban Əliyevanın mənəvi və maddi dəstəyi ilə təşkil edilmiş Mədəni Özünüifadə Müxtəlifliyi üzrə Ümumdünya Günü münasibətilə üçüncü ənənəvi

[50] Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Azərbaycanın Pravoslav xristian icmasına təbriki – "Azərbaycan" qəzeti, 4 may 2013-cü il.

Müxtəliflik Festivalı keçirilmişdir. Bu festival Latın Amerikasından tutmuş Yaxın şərq və Cənub-şərqi Asiyaya qədər mədəni müxtəlifliyi əks etdirən rəngarəng tədbirlərlə yadda qalmışdır[51].

2009-cu ilin noyabr ayında Azərbaycan UNESCO-nun "Mədəni Özünmüdfiə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiyası"na qoşulmuş və sənəd 2010-cu il mayın 15-dən Azərbaycan Respublikasında qüvvəyə minmişdir. Bununla da ölkəmiz bu təşkilat çərçivəsində mədəniyyət və turizm sahəsində həyata keçirilən layihələrdə iştirak imkanlarını genişləndirmişdir. Konvensiya çərçivəsində ölkəmizdə "Mədəni müxtəlifliyimiz mədəni vəhdətimizdir" layihəsi həyata keçirilmişdir[52].

Bununla yanaşı, Heydər Əliyev Fondunun təşəbbüsü ilə 2010-cu il iyunun 29-dan 30-dək Bakıda keçirilmiş və ümummilli lider Heydər Əliyevin xatirəsinə həsr olunmuş "Qloballaşma şəraitində mədəniyyətlərin dialoqu" forumu da bütün dünyada sivilizasiyalar arasında dialoqa öz dəyərli töhfələri ilə yadda qalmışdır. Azərbaycanın birinci xanımı öz fəaliyyəti ilə həm də mədəniyyətlər və sivilizasiyalararası dialoqa necə nail olmağın yolunu göstərir[53]. Məlumdur ki, maddi mədəniyyətin, elmin, texnologiyanın, iqtisadiyyatın, fiziki sağlamlığın, idmanın prioritetliyinə əsaslanan Qərb sivilizasiyası və mənəvi mədəniyyətin, əxlaqın, dini dəyərlərin prioritetliyinə əsaslanan Şərq sivilizasiyası ancaq bir-birini qarşılıqlı surətdə tamamladıqda onun kamil insanın formalaşmasındakı rolu haqqında danışmaq olar.

Azərbaycanda etnik azlıqların hüquqlarının müdafiəsi ölkənin siyasi sabitliyinin təminatı və xarici siyasətin prioritet vəzifələrindəndir. Çoxmillətli və çoxkonfesiyalı respublika olan Azərbaycanın milli siyasəti bütün etnik qruplar, o cümlədən milli azlıqlar üçün şəraitin təmin edilməsi və yaradılmasıdır. Respublikada multikulturalizm Azərbaycan dövlətinin milli-mənəvi, ümumbəşəri, humanist dəyərlərə söykənən davamlı və ardıcıl siyasi kursudur. Multikulturalizm bir ideya və termin kimi ilk dəfə Avropada yaransa da, Azərbaycan mühitində artıq cəmiyyətin əxlaq kateqoriyasına çevrilmişdir.

Ölkəmiz bütün dinlərin, mədəniyyətlərin, fərqli baxışların bir ailə kimi yaşadığı tolerantlıq məkanıdır. Bu gün dünyada çoxmədəniyyətli ölkə imici qazanmış Azərbaycanda müxtəlif xalqlar arasında ənənəvi dostluq və qardaşlıq münasibətlərinin, tolerantlığın hökm sürməsi tarixi nailiyyətimizdir. Tarixən tolerant ölkə olan Azərbaycanda müsəlmanlarla yanaşı, katoliklər, provoslavlar, yəhudilər və digər dinlərə etiqad edən insanlar da yaşayırlar. Ölkəmizdə yaşayan müxtəlif xalqlara öz milli-mənəvi dəyərlərini, dini etiqadını, adət-ənənələrini qoruyub saxlamaq, dil və mədəniyyətini inkişaf etdirmək üçün demokratik şəraitin təmin edilməsi Azərbaycanı dünya ölkələri üçün tolerantlıq örnəyinə çevirib. Qürurverici haldır ki, bir sıra dövlətlər bizim təcrübəmizdən yararlanmağa çalışırlar. İndi dünyada multikulturalizm sahəsində ən optimal model kimi Azərbaycan nümunəsi öyrənilir.

Ölkəmizdə tolerantlıq və multikulturalizm ənənələrinin qorunması işinə xüsusi əhəmiyyət verən Heydər Əliyev Fondu "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsini uğurla həyata keçirir. Layihə çərçivəsində Bakıdakı Pravoslav kilsəsində təmir-bərpa işləri aparılmış, eyni zamanda "Or-Avner" Beynəlxalq Fondu ilə birgə Bakıda yaşayan yəhudi uşaqları üçün 600 yerlik təhsil mərkəzi inşa edilmişdir[54]. Bununla yanaşı, Fransa regionlarında kilsələrin, müqəddəs Roma katakombalarının bərpasında Azərbaycanın iştirakı, Həştərxanda Müqəddəs Knyaz Vladimirə abidənin ucaldılması da məhz ayrı-ayrı xalqların və konfessiyaların qarşılıqlı hörmət və dostluq münasibətlərinin genişləndirilməsinə xidmət edir[55].

Hazırda Azərbaycanda formalaşmış dini tolerantlıq mühitinin qorunub saxlanması və onun daha da möhkəmləndirilməsində görülən işlər nəticəsində respublikamızda rəsmi olaraq 598 dini icma qeydiyyatdan keçmişdir. Bunlardan 577-si İslam, 21-i qeyri-islam təmayüllü dini icmadır. Eyni zamanda, ölkəmizdə 11 kilsə, 6 sinaqoq fəaliyyət göstərir[56].

---

[51] Azərbaycan YUNESKO-da keçirilən Müxtəliflik Festivalında uğurla təmsil olunmuşdur // "Azərbaycan", 26 may 2010-cu il.

[52] "Xalq qəzeti", 11 sentyabr 2010-cu il

[53] "Azərbaycan", 31 iyul 2010-cu il.

[54] "Azərbaycan", 21 avqust 2015-ci il

[55] "Xalq qəzeti", 16 sentyabr 2015-ci il.

[56] Yenə orada

2008-ci ilin sentyabrında Heydər Əliyev Fondu və Roma Katolik dini icması arasında anlaşma memorandumu imzalanmışdır. Sənəddə müəyyənləşdirilmiş sahələr üzrə inkişaf, yenidənqurma layihələrinin gerçəkləşdirilməsi, sosial və dini təyinatlı obyektlərə yardımla yanaşı, Azərbaycanda məskunlaşan xalqların etno-mədəni komponentlərinin inkişafına yönələn tədbirlərin həyata keçirilməsi də nəzərdə tutulmuşdur. İlkin əməkdaşlıq çərçivəsində fond tərəfindən Bakıdakı Müqəddəs Məryəm kilsəsinin asma tavan şüşələri dini mövzuda və klassik vitraj texnikasında işlənmiş bədii şüşələrlə əvəz edilmiş, eyni zamanda, məbədin fasadında keramik panno yerləşdirilmişdir. Fond bu kimi tədbirləri ardıcıl olaraq davam etdirməkdədir[57].

Ümumiyyətlə, tolerantlıq nümunəsi sayılan Azərbaycan Heydər Əliyev Fondunun xətti ilə Parisdə Versal Sarayının parkında abidələri bərpa edir, Strasburqda Müqəddəs Məryəm kafedral kilsəsinin yenidən qurulmasına yardım göstərir, Pakistanda zəlzələdən zərərçəkən qızlar məktəbini yenidən inşa edir, Hollandiya, Rusiya, Gürcüstan, Rumıniya, Misir və digər ölkələrdə təhsil ocaqlarını müasirləşdirir, Afrika ölkələrinin qeyri-maddi mədəni irsinin qorunmasına dəstək verir, Qəbələ Beynəlxalq Musiqi Festivalı kimi onlarca qlobal və mükəmməl mədəniyyət layihəsinə imza atır. Eyni zamanda, Heydər Əliyev Fondu Azərbaycanın dövlət müstəqilliyinin 20-ci ildönümü münasibətilə xaricdə həyata keçirilən bir çox layihənin müəllifidir. Fondun Parisdə, Moskvada, Berlində, Romada, Vatikanda təşkil etdiyi tədbirlər ölkəmizin multikulturalizm modelinin təbliğində mühüm rol oynamış, eləcə də Azərbaycan Vatikanda sərgi təşkil edən ilk müsəlman ölkəsi kimi tarixə düşmüşdür. Bu isə bəşəri multikulturalizmin ən ali nümunələrindən biri kimi dəyərləndirilə bilər.

Mədəniyyətlərarası dialoqun və dinlərarası əməkdaşlığın inkişaf etdirilməsi sahəsində görülən işlərin nəticəsidir ki, Azərbaycan Prezidenti İlham Əliyev Moskvanın və bütün Rusiyanın Patriarxı Kiril tərəfindən Birinci dərəcəli "Şərəf və şöhrət" ordeni ilə, Vatikan dövlətinin ən yüksək mükafatlarından sayılan "Medalla Sede Vacante" medalı ilə təltif edilmişdir. Eyni zamanda, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva tərəfindən də mədəniyyətlərarası dialoqun və dinlərarası əməkdaşlığın inkişaf etdirilməsi sahəsində bir sıra mühüm işlər görülmüşdür. Bu baxımdan, 2012-ci il iyunun 22-də Romada Mehriban xanım Əliyeva və Vatikanın mədəniyyət naziri, Roma Papasının Müqəddəs Arxeologiya üzrə Şurasının sədri kardinal Can Franko Ravazinin iştirakı ilə Heydər Əliyev Fondu ilə Müqəddəs Taxt-Tac arasında "Roma katakombalarının bərpasına dair ikitərəfli saziş" imzalanmışdır[58]. 2015-ci il iyunun 2-də Roma Papası Fransis Mehriban xanım Əliyeva ilə görüşü zamanı, Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Roma katakombalarının bərpasını yüksək qiymətləndirmişdir[59].

Azərbaycanın birinci xanımı, YUNESKO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva ölkəmizin tolerantlıq ənənələrinin dünya miqyasında təbliğinə böyük dəstək verir. Heydər Əliyev Fondunun xətti ilə dünyanın bir neçə ölkəsində bu qəbildən silsilə tədbirlər keçirilir. Heydər Əliyev Fondunun prezidenti, UNESCO və ISESCO-nun xoşməramlı səfiri Mehriban xanım Əliyevanın iştirakı ilə Parisdə "Dini tolerantlıq: Azərbaycanda birgə yaşamaq mədəniyyəti" mövzusunda keçirilən konfrans multikulturalizmin bu və ya digər formada sıxışdırıldığı Avropanın gələcəyində onun əhəmiyyətini göstərirdi.

YUNESKO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyeva çıxışında ölkəmizin tolerantlıq mərkəzi kimi əhəmiyyətini qeyd edərək demişdir: "Ekstremizm və terrorçuluğa qətiyyətlə yox deməklə biz cəmiyyətlərimizdə dözümlülük, sülhsevərlik, tolerantlıq dəyərlərinin təbliğinə geniş fikir verməliyik...Ayrı-seçkilik, ksenofobiya, islamofobiya, antisemitizm kimi təhlükəli amillərdir bəşəriyyət tarixində sivilizasiyaların və xalqların fəlakətinə səbəb olub. Dərin multikulturalizm köklərinə malik ölkə kimi, Azərbaycan qlobal arenada bu dəyərlərin təşviqi üçün vacib rolunu oynamağa hazırdır"[60]. Ümumiyyətlə, ölkəmizdə mədəniyyətlərarası dialoqla bağlı keçirilən tədbirlərin məqsədi xalqlar, dövlətlər və sivilizasiyalar arasında dialoq imkanlarını genişləndirmək, cəmiyyətdə sülh, əmin-amanlıq və dözümlülük mühitini inkişaf etdirmək, müasir dünyamızda müzakirə olunan inkişaf modelləri ətrafında fikir mübadiləsi aparmaq, milli özünəməxsusluğu saxlamaqla bəşə-

[57] "Azərbaycan", 31 sentyabr 2008-ci il.
[58]"Azərbaycan" 24 iyun 2012-ci il
[59]"Azərbaycan" 4 iyun 2015-ci il
[60] "Azərbaycan" 10 sentyabr 2015-ci il.

ri-mədəni dəyərləri mənimsəməkdən ibarətdir. *Dünyada* sivilizasiyalararası dialoq sahəsində ciddi problemlərin yaşanması, bu fonda münaqişələrin artması tendensiyasının müşayiət olunması, xüsusilə də, islamafoboya kimi təhlükəli meyillərin bir sira dövlətlərin və digər subyektlərin siyasətində özünə geniş yer alması reallığında Azərbaycanın mədəniyyətlərarası dialoq məkanına çevrilməsi faktı qlobal əhəmiyyət kəsb edən məsələdir. Bu məsələlərin həlli istiqamətində Azərbaycanın təcrübəsi digər ölkələr üçün örnək ola bilər.

Bundan əlavə, Azərbaycan dövlətinin yürütdüyü tolerantlıq siyasətinin daha da genişlənməsi və möhkəmlənməsi, tolerantlıq mühitinin qorunub saxlanılması və təşviqi məqsədilə dövlət başçısı İlham Əliyev bir sıra mühüm tədbirlər həyata keçirmişdir. Bunun başlanğıcı olaraq, 2014-cü ilin fevral ayında Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşavirliyi xidməti yaradılmışdır. Multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyini, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyətini nəzərə alaraq, dövlət başçısı 2014-cü il mayın 14-də Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında fərman imzalamışdır.

Ümumiyyətlə, multikulturalizm bir ideya və termin kimi ilk dəfə Qərbdə, Avropada dövriyyəyə çıxarılsa da və son dövrlərdə bu ideyadan geriçəkilmələrə yol verilsə də, Azərbaycan mühitində bu sahə artıq cəmiyyətin əxlaq kateqoriyasına çevrilmişdir. Bu sahədə yarana biləcək problemlərə qarşı qabaqlayıcı tədbirlərin operativ şəkildə həyata keçirilməsi dövlət-din münasibətlərinin yüksələn xətt üzrə inkişafına böyük zəmin yaratmışdır. Dünyanın müxtəlif bölgələrində din və milli zəmində baş verən qarşıdurma və münaqişələr, dini konfessiyaların, təriqətlərin, institutların cəmiyyətin siyasi həyatına, ayrı-ayrı dövlətlərin idarəçilik sisteminə təsir göstərmək cəhdləri bu gün də din-dövlət münasibətlərini gündəmdə saxlayır və ictimai müzakirəsini aktuallaşdırır.

Eyni zamanda, mədəniyyətlərarası dialoq barışdırıcı amil kimi çıxış edərək, müharibə və münaqişələrin qarşısını almaqla inam və qarşılıqlı etimad yaratmaqda böyük təsirə malikdir. Aparılan müşahidələr, həyata keçirilən tədbirlər də göstərir ki, ölkəmiz dinlərarası və mədəniyyətlərarası dialoqa artıq öz töhfəsini verməkdədir. Mədəniyyətlərarası dialoq, əslində, elə bəşəriyyətin tarixi deməkdir. Bu baxımdan müasir mədəniyyət üçün dialoq daha aktual məsələdir.

**Xülasə**

Məqalədə Heydər Əliyevin multikultural dəyərlər kontekstində dəyişməz siyasi kursu tədqiq edilir. Bununla yanaşı, Azərbaycanın daxili və xarici siyasətində mədəni müxtəliflik, multikultural dəyərlər və tolerantlıq təhlil edilir. Daha sonra məqalədə davamlı, sabit inkişafın əsası kimi Azərbaycanda multikulturalizmin yeni mərhələsi, sivilizasiyalararası dialoq və mədəniyyətlərarası münasibətlər diqqətdən keçirilir.

**Резюме**

В статье исследуется устойчивый курс Гейдара Алиева в контексте мультикультуральных ценностей. Наряду с этим, анализируется культурное разнообразие, мультикультуральные ценности и толерантность во внутренней и внешней политике Азербайджана. В статье также рассматриваются как основа устойчивого развития новый этап мультикультурализма, межцивилизационный диалог и межкультурные отношения в Азербайджане.

**Summary**

The article explores continued political course of Haydar Aliyev in the context of multicultural values. At the same time, the cultural diversity in internal and external policy of Azerbaijan, multicultural and tolerant values have been investigated. The new phase of Azerbaijani multiculturalism, dialogue among civilizations and cultures is analyzed on the basis of sustainable development.

**Ədəbiyyat:**

1. **Azərbaycan Respublikası 1991-2001.** Bakı, 2001, 288 s.
2. **Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Azərbaycanın Pravoslav xristian icmasına təbriki**. //"Azərbaycan" qəzeti, 4 may 2013-cü il.
3. **Azərbaycan YUNESKO-da keçirilən Müxtəliflik Festivalında uğurla təmsil olunmuşdur** // "Azərbaycan", 26 may 2010-cu il.
4. **Əliyev H.Ə.** Müstəqilliyimiz əbədidir: çıxışlar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr. I-XXXXVI kitablar. Elektron külliyat. - http://preslib.az/books.html
5. **Həsənov Ə.M.** Azərbaycanın milli inkişaf və təhlükəsizlik siyasətinin əsasları. Bakı, 2016, 700 s.
6. **Həsənov Ə.M.** Heydər Əliyevin siyasi kursunda multikulturalizmə baxış və yanaşmalar. // "**Geostrategiy" jurnal, № 01(31), yanvar-fevral 2015,s.3-7.**
7. **Abdullayev K.M.** Ulu öndər Azərbaycan multikulturalizminin siyasi banisidir // "Azərbaycan" 23 iyul 2014-cü il.
8. **Qurbanlı M.Q.** Azərbaycanı tolerantlığın ən mükəmməlnümunəsinə çevirən lider. // "Azərbaycan" 6 may 2015-ci il.
9. **Həsənov S.S.** "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanununun komentariyası. Bakı, 2014, 272 s.
10. **Hüseynov S.Y.** Azərbaycanda dini tolerantlıq mədəniyyəti: tarix və müasirlik. Bakı, 2012, 176 s.
11. **Hüseynov S.Y.** Azərbaycan dini tolerantlığa və sabitliyə töhfə verən örnəkdir // "Xalq qəzeti" 11 fevral 2011-ci il.
12. **"Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikasının Qanunu**
-http: //www.president.az/articles/2672; http://www.meclis.gov.az/; http://scwra.gov.az/docs/169/; http://www.e-qanun.az/framework/7649;
13. **UN General Assembly Resolution**A/RES/48/126 "United Nations Year for Tolerance".
14. **UN General Assembly Resolution** A/RES/55/23 "Year of Dialogue among Civilizations".
15. **UN General Assembly Resolution** A/RES/60/04 "Global Agenda for Dialogue among Civilizations".
16. "Xalq qəzeti", 28 may 2001-ci il.
17. "Azərbaycan" 10 mart 2003-cü il.
18. "Xalq qəzeti", 11 sentyabr 2010-cu il
19. "Azərbaycan", 31 iyul 2010-cu il.
20. "Azərbaycan", 31 sentyabr 2008-ci il.
21. "Azərbaycan" 24 iyun 2012-ci il
22. "Azərbaycan" 4 iyun 2015-ci il
23. "Azərbaycan" 10 sentyabr 2015-ci il.
24. "Azərbaycan", 21 avqust 2015-ci il
25. "Xalq qəzeti", 16 sentyabr 2015-ci il.
26. "Azərbaycan" 12 dekabr 1998-ci il.

**Bəxtiyar Tuncay, sənətşünaslıq üzrə fəlsəfə doktoru**
**AMEA Folklor İnstitutu**
**Azərbaycan, Bakı**
**Mənsur Rəhbəri**
**İran**

# AZƏRBAYCANDA YAŞAYAN XALQLARIN FOLKLORUNDA ORTAQ MOTİV VƏ SÜJETLƏR

***Açar sözlər:*** *assimilyasiyasız inteqrasiya, «Qodu-qodu» oyunu, ipəkçilik, barama qurdu, avarlar, udinlər*
***Ключевые слова:*** *интеграция без ассимиляции, игра «Году-году», щелководство, щелкопряд, авары, удины*
***Key words:*** *unassimilated integration, the game "Godu-godu", sericulture, silkworm, Avars, Udins.*

XX əsrin 60-cı illərində Kanadada əhalinin etnik, mədəni, dini, irqi müxtəlifliyi ilə bağlı ölkənin vəziyyətini əks etdirən termin kimi meydana gəlmiş "multikulturalizm" anlayışı dövrün ictimai-siyasi və mədəni tələbatını əks etdirən geniş prosesləri əhatə etməkdədir. Multikulturalizm Kanadanın «dövlət təsisatları tərəfindən 1971-ci ildə tanınmış, ölkənin çoxtərkibli əhalisinin mədəni assimilyasiyası siyasətinin iflasını bir növ rəsmiləşdirmişdir». Sonrakı illərdə digər Qərb ölkələrində də qəbul edilən «multikulturalizm modeli mədəni fərqliliyin müxtəlif formalarının "assimilyasiyasız inteqrasiya" şəklində qanuniləşdirməsini nəzərdə tutur. Bu halda mədəni özünəməxsusluğunu, həyat tərzini, özəl xüsusiyyətlərini, adət-ənənələrini saxlamaq hüququ olan müxtəlif etnomədəni, dini və s. icmalar bir dövlətin hüdudlarında birgə yaşayır. Lakin multikulturalizm eyni zamanda mədəni rəngarəngliyin sosial mexanizmlər vasitəsilə nəzarətdə saxlamaq və tənzimlənmək üsuludur. Yel Universitetinin politologiya və fəlsəfə professoru Seyla Benhəbib mədəni plüralizm vəziyyətini radikal və ya mozaik multikulturalizm termini ilə müəyyənləşdirir. Onun şərhində mozaik multikulturalizm mozaikanı təşkil edən elementlər kimi öz eyniliyini və sərhədlərini vahid siyasi təsisat tərkibində qoruyub saxlayan icmaların varlığını bildirir» (1. 10).

Alimin fikrincə, «adları çəkilən sosial tənzimləyicilər həmin mədəni modelin gerçək yaşamaq qabiliyyətini təmin edir. Bu halda mozaika sahəsini yaradan mədəniyyət və submədəniyyətlərin donuq, statik qurum deyil, artmaq və dəyişilmək proqramına malik varlıq olması şərti mühüm rol oynayır» (2. 8).

Multikulturalizmin hazırda sosial elmlərdə qəbul olunmuş təfsirinin demoqrafik, ideoloji və siyasi kimi üç səviyyəsini fərqləndirən A.İ.Kuropyatnik yazır ki, «demoqrafik səviyyənin mahiyyəti milli icmaların demoqrafik, etnomədəni göstəricilərinin endogen (miqrasiya) və ekzogen (immiqrasiya) amillərin təsiri altında baş verən dəyişiklikləri təsvir etməkdən ibarətdir. Bu halda multikulturalizm immiqrantların onları qəbul edən cəmiyyətə inteqrasiyası siyasəti kimi dərk edilir. İdeoloji səviyyə çərçivəsində milli ideologiyaların müddəaları müzakirə edilir. Siyasi səviyyə multikulturalizm prinsiplərinin milli-mədəni azlıqların hüquqlarının ideologiya, siyasət kimi əyani tətbiqinə, onlara sosial dəstək proqramların gerçəkləşdirilməsinə yönəlmişdir. Bu halda multikulturalizm dövlət və onun tərkibində olan milli-mədəni azlıqlar arasında münasibətlərin ahəngdarlığına, habelə bu azlıqların daxilində münasibətlərin nizamlanmasına yönəlmiş siyasi proqram kimi çıxış edir» (3. 46).

Maraqlıdır ki, Avropa və Amerikanın qabaqcıl dövlətlərinin XX əsrdə gəlib çıxdıqları mədəni fərqliliyin müxtəlif formalarının "assimilyasiyasız inteqrasiya"sı fikri Şərqdə, o cümlədən minillərdir ki, tətbiq edilir və bunun ən gözəl örnəyi Azərbaycanda çox qədim zamanlardan yaşamaqda olan müxtəlif azsaylı xalqların özünəməxsus milli folklorudur.

Fikrimizi ölkəmizdə yaşayan iki qafqazdilli xalqın – avar və udinlərin milli folklor nümunələri əsasında aydınlaşdırmağa çalışaq. İlk öncə qeyd edək ki, bu xalqların hər biri çox qədim zamanlardan bu yerlərin sakinidirlər, bütün həyatları boyu bölgənin aparıcı xalqı olan Azərbaycan türkləri ilə yanaşı yaşamışlar və daim sözügedən ərazidə mövcud olmuş dövlət quruluşlarında birgə təmsil olunmuşlar. Bu baxımdan Manna və Qafqaz Albaniyası dövlətlərinin adını ilk sırada qeyd etmək lazımdır.

Strabonun yazdığına görə, Qafqaz Albaniyasında 26 soy və xalq yaşamaqda idi ki, bunlardan albanlar, massagetlər, qarqarlar, saklar, kəngərlər, çullar, beçeneqlər (oğuzlar), kumanlar, kerqillər,

suvarlar, bulqarlar, hunlar, xəzərlər, dondarlar, labanlar (lpinlər), qaytaqlar və s. türk soy və boyları idilər və ölkə əhalisinin böyük əksəriyyətini təşkil edirdilər. Eyni zamanda dağlıq bölgələrdə, əski Andiya və Mazamua ərazisində udinlər, ciqblər, silvlər (çilblər), herlər, qatlar (xınalıqlılar və buduqlar), leqlər (ləzgilər və laklar), boxlar (ubıxlar), gellər və digər qafqazdilli tayfalar da yaşayırdılar. Bu xalqlar azsaylı idilər və ölkənin siyasi, iqtisadi və mədəni həyatında önəmli bir rola sahib deyildilər. Onların nəsilləri bu gün də Dağıstanda və Azərbaycanın şimaldakı dağlıq ərazilərində yaşamaqdadırlar. Bunlardan ən çoxsaylısı avarlardır ki, Onların bir qismi Dağıstanda, bir qismi isə Azərbaycanda, əsasən Balakən və Zaqatala rayonlarında məskundurlar. Hazırda Dağıstanın ən çoxsaylı xalqı hesab olunurlar. Azərbaycanın isə sayca altıncı etnik qrupudur. Dilləri İber-Qafqaz dillərinin Nax-Dağıstan qrupuna daxildir. Antropoloji cəhətdən subavropoid irqinin kafkasion tipinə aiddirlər, kəllə quruluşlarına, saç və gözlərinin rənginə görə avropoid irqinin Aralıq dənizi qrupunun kaspi (oğuz) tipinə aid olan Azərbaycan türklərindən fərqlənirlər. Ümumi saylarının 500-600 min civarında olduğu bildirilir. “Avar” adı onlara kənardan verilmiş addır. Özlərini “tsolb” adlandırırlar. Tarixi mənbələr də onları məhz bu adla, daha doğrusu, bir qədər təhrif edilmiş “çilb” və ya “silv”şəklində, qədim Albaniyanın xalqlarından biri kimi qeydə almışdır (4. 3).

Kənardan verilən “avar” adına görə onları çox zaman VI-VIII əsrlədə mövcud olan və Şərqi Avropanın böyük bir hissəsini hakimiyyəti altına alan Böyük Türk-Avar Xaqanlığını quran avar türkləri ilə qarışdırırlar. Həqiqət isə bundan ibarətdir ki, tsolbavarların türk avarlarla heç bir etnik və dil qohumluğu yoxdur. Görünür, tsolblar (çilblər, silvlər) bir zamanlar Avropanın bir çox xalqları kimi Avar Xaqanlığının təbəələri olmuş və ya da əsgər kimi türk-avar ordusunda xidmət etmiş və bu üzdən “avar” adı yanlış olaraq onlara da şamil edilmişdir.

Avarların bir-birini anlamayacaq dərəcədə iki fərqli dialektdə danışdıqları qəbul edilsə də, əslində bunlar qohum dillər olmasına rəğmən, fərqli iki dildir. Məsələ isə ondadır ki, XX əsrin 30-cu illərində Stalinin birbaşa göstərişi ilə “andiyalı” və ya “andok” kimi tanınan tamam başqa bir Dağıstan xalqının etnik kimliyi inkar edilməyə və həmin dövrdən etibarən bu xalq avar kimi qələmə verilməyə başlanmışdır. Sözügedən xalqın adı Dağıstanda axan iki Göysu adlı çaydan birinin adında əbədiləşmişdir – Andiyskoye Koysu. Maraqlıdır ki, bu çaylardan biri andiyalıların (andokların) adı ilə qoşa çəkilsə də, ikinci eyniadlı hidronimdə avarların adı əbədiləşmişdir – Avarskoye Koysu.

E.ə. IX-VII əsrlərə aid Aşşur mənbələrində Dağıstanın adı andiyalıların adından törəmə olan “Andiya” kimi çəkilməkdə və onun Manna dövlətinin əyaləylətindən biri olduğu qeyd edilməkdədir. Həmin əyalətlə qonşu olan başqa bir Manna əyaləti isə “Durdukka” adlanmaqdadır ki, bu da durdzuk adının Aşşur dilindəki təhrifindən başqa bir şey deyil. Avarlar bu günə qədər onlarla qonşuluqda yaşayan çeçenləri “durdzuk” deyə adlandırırlar. Yeri gəlmişkən, qeyd edək ki, eyni mənbələrdə qonşuluqda yerləşən digər bir Manna vilayətinin adı “Mazamua” kimi çəkilir ki, bu toponimlə Mazımçay hidronimi arasındakı eyniliyi görməmək mümkün deyil (4. 3-4).

Avar xalqının folkloru Azərbaycan türklərinin folklor nümunələri ilə bir sıra ortaq cəhətlərlə sahib olsa da, onun özünəməxsus özəllikləri də az deyil. «Bu cəhətlər daha çox xalqın iradəsini əks etdirən xalq dastalarında, toy, dəfn kimi mərasimlərdə, mərasim və mövsüm nəğmələrində, milli adət-ənənələrdə özünü göstərir» (5. 6).

Asiyyat Tinayeva yazır ki, «yazın ilk günlərində avarlar əkinçiliklə bağlı olan Ots bay bayramını keçirirlər. Bundan başqa yaz aylarında Rohi bog mərasimi, gül bayramı keçirilir. Avarlar arasında geniş yayılan yağıs və gün istəmə mərasimi uşaqların və böyüklərin həvəslə keçirdiyi mərasimdir. Yagış istəmə mərasimində burcah və gün istəmə mərasimində maxara bişirilir və hər kəsə verilirdi. Sulu 7 burcah (əriştə) yağış damlalarını, sac üstündə bişirilən saçaqlı maxara isə günəşi xatırladır. Avar toy adətlərinin özünəməxsusluğuna gəldikdə isə onu deyə bilərik ki, nişan mərasimi keçirilmir, elçilikdən az sonra toy mərasimi keçirilir, evlənəcək olan oğlan üçün mütləq ayrı ev tikilir, onun təsərrüfatı ayrılırdı» (5. 6-7).

Alimin sözlərinə görə, «avar xalq dastanlarını el arasında yetişən xalq ozanları təmbur çalaraq söylərdilər. “Xoçbar”, “Baxtika”, “Kamalil Başir” kimi xalq dastanları Dağıstanda olduğu kimi bu bölgədə də dillər əzbəridir. “Xoçbar” dastanında xalq qəhrəmanı Xoçbarın zülmkar xana ölüm anında belə boyun əymədiyini, “Kamalil Başir” dastanında gözəlliyi dillərdə dastan olan Kamalın oğlu Başirin gözəlliyinin başına bəla olmasından, atası tərəfindən öldürülməsindən danışılır. Bu dastan-

lardan biri olan “Baxtika”da göstərilən baş qəhrəman Baxtika Avar xanı Umaxan Avarın bacısıdır. Qarabağ xanı İbrahimxəlil xanla müttəfiq olan Umaxan çox gənc olan bacısını yaşlı xana ərə verir. Baxtika qardaşına üsyan etsə də bunun heç bir faydasının olmaması, ər evinə getməyə məcbur qaldığından çəkdiyi iztirablar dastanda öz əksini tapmışdır» (5. 7).

Asiyyat Tinayeva bildirir ki, «avar xalq ədəbiyyatı mövzu və məzmun baxımından rəngarəng olsa da, Azərbaycan folklor nümunələri ilə bir sıra ortaq cəhətlərə malikdir. Şifahi söz sənətində bir çox mətnlərin üst-üstə düşməsi həmin örnəklərin vahid etnocoğrafi məkanda əmələ gəlməsini göstərir. Azərbaycanın zəngin folkloruna daxil olan nağıl və dastanlar, xalq müdrikliyinin ifadəsi olan atalar sözləri və zərb-məsəllər tarix boyu burada yaşayan xalqların şifahi söz sənətinə güclü təsir göstərmişdir. Qodu-qodu ilə bağlı olan nəğmələrin ilk iki sətri Azərbaycan dilindədir:

*Qordi, qordi, qordina,*
*Qordi salam vardina.*

Bir çox atalar sözləri və zərb-məsəllər (Məsələn: Bir əldə iki qarpız tutmazlar), Molla Nəsrəddinlə bağlı olan lətifələr də buna əyani misal ola bilər» (5. 6).

Qeyd edilən motiv və süjetlərdən bizim üçün ən diqqətçəkicisi «Qodu-qodu» mərasimidir. Elçin Aslan bu mərasimlə bağlı qeyd edir ki,“Azərbaycanda vaxtsız və uzun müddət yağan leysan yağışına son qoymaq, günəşi çağırmaq məqsədi ilə icra olunan kütləvi xalq tamaşası “Qodu-Qodu” günəş tanrısına həsr olunurdu. Vaxtilə yaşlılar tərəfindən göstərilən bu əsatiri tamaşa, get-gedə ilkin önəmini itirmiş və 20-ci yüzilliyin əvvəllərində subay gənclər və uşaqlar tərəfindən oynanılan hərəkətli, sözlü-nəğməli bir oyuna çevrilmişdir. Oyun iştirakçıları müqəvva Qodunu qapı-qapı gəzdirib, onun şəninə təriflər deyir, məzəli səhnələrdə kuklanı çomaqla vurub “öldürür”, sonra yenidən “dirildirdilər”” (6. 55).

Tədqiqatlar bu mərasimin köklərinin Eneolit və Erkən Tunc dövrü ilə bağlı olduğunu söyləməyə əsas verir. Belə ki, Eneolit dövrünə aid ən maraqlı mərasimlərdən biri müxtəlif insan fiqurları ilə bağlı olmuşdur. Şumerlərin «Bilqamıs» dastanının məzmunundan belə görünür ki, Eneolit dövrü sakinləri, eləcə də sonrakı dövrdə şumerlər bu gil heykəlləri günəş tanrısı Utuya qurban vermişlər:

*“Bilqamıs özü gildən bir heykəlcik düzəltdi.*
*Sonra taxtadan böyük bir masa da çıxartdı.*
*Əqiqdən qayrılmış qabı balla doldurdu.*
*Lacivərddən düzəlmiş qabı yağla doldurdu.*
*Masanı bəzəyərək Utu üçün apardı” (7. 66).*

Günəş tanrısı Utunun adı Azərbaycan folklorunda bu yaxın zamanlara qədər “Qodu” şəklində yaşamışdır. Bilqamıs Utuya bal, yağ kimi yeməli şeylər apardığı kimi, Azərbaycanda da Qodu üçün xəmiraşı bişirilməliymiş. Qeydə alınmış “Qodu-Qodu” nəğmələri içərisində bal və yağın xatırlanması xüsusi maraq doğurmaqdadır:

*“Qoduya qaymaq gərək,*
*Qablara yaymaq gərək,*
*Qodu gün çıxarmasa,*
*Gözlərin oymaq gərək.*
*Yağ verin yağlamağa,*
*Bal verin ballamağa,*
*Qodu gülmək istəyir,*
*Qoymayın ağlamağa” (8. 47).*

5 min il öncə Günəş tanrısı Utuya bal və yağ qurbanlığı verən Bilqamıs bu mərasim zamanı gildən heykəl düzəltdiyi kimi, Azərbaycan türkləri də XX əsrin ortalarınadək “Bal verin ballamağa, yağ verin yağlamağa”- deyərək “Qodu-Qodu” mərasimi keçirərkən, müqəvva düzəldərmişlər.

Qafqaz Albaniyasının qafqazdilli xalqlarından danışarkən, udinlərin üzərində xüsusi durmağa çox böyük ehtitac vardır. Şərqi Qafqazda qədim xalqlardan biri olan və özlərini “udi” adlandıran udinlər Oğuz şəhərində, eləcə də Qəbələ rayonunun Nic qəsəbəsində yaşayırlar. Onlara Rusiya,

Gürcüstan (Oktomberi kəndi), Qazaxıstan, Ukrayna və başqa olkələrdə də rast gəlmək mümkübdür. Udinlər udin dilində danışırlar, dinləri xristianlıqdır (4. 4).

Udinlər də ölkəmizdə yaşayan digər azsaylı xalqlar kimi öz dillərini və zəngin folklorlarını qoruyub saxlaya bilmişlər. Bu baxımdan baramaçılıqla bağlı mötiv və süjetlər həm folklorşünaslıq, həm də etnoqrafiya elmləri baxımından çox böyük önəm daşımaqdadır. Onlardan bir neçəsini gözdən keçirək:

«Pərəkələ xurutul makan biti deyənə muçanaki xuptun boxsa, qonçiöotun paysa. Pərəkəl bakala kala şamtun bokosa. Motoxun oşal xurutulxa nu taxain te vədinal nextun. "Ya oyənki xərux sunsunaxun hetərtun seseney." Motoxun oşa xurutulxo pərəkəl bakala bakunux tağalatun» (İpəkqurduna qarışqa düşməməsi üçün südlü sıyıq bişirib, qonşulara paylayardılar. Kümxanada şam yandırardılar. Əgər qarışqalar yenə getməsəydilər, o halda deyərdilər: «Biz gördük ki, itlər bir-birini necə didirdilər». Bundan sonra qarışqalar kümxananı tərk etməli idilər) (9. 182; 10. 26).

«Pərəkəl cənləinşakala vədine amdarxon sun-suna bosteni göyinxoy sil, orux yal kerəs hikənesa tastun tene bakonuy. Tə vədine pəkələn bar tene tadoniy» (İpəkqurdunun canlanması dövründə adamlar bir-birinə bostan bitkilərinin toxumunu, od və başqa şeylər verə bilməzdi. Yoxsa, barama məhsul verməzdi) (9. 181; 10. 26).

Belə hesab edilir ki, ölkəmizdə ipəkçiliyə V-VI əsrlərdən başlanmışdır. Amma bu təsərrüfat sahəsi sonrakı dövrlərdə tədricən Azərbaycanın bütün bölgələrində, o cümlədən Qafqaz Albaniyasında geniş yayılmışdır. M. Kalankatlı özünün "Alban tarixi" adlı əsərində bu barədə məlumat verir (11. 5). Mingəçevirdən arxeoloji qazıntılar zamanı zərif toxunmuş parça qalıqları, ipək, yun və pambıq ipinin nümunələri tapılmışdır (12. 86). Bütün bunlar Azərbaycanda qədimdən ipək, yun və pambıq sapından və parçalardan istifadə edildiyini bir daha təsdiq edir.

Bu təsərrüfat sahəsi Azərbaycan folklorunda da dərin izlər qoymuşdur. Təkcə aşağıdakı tapmacaları xatırlatmaq yerinə düşər:

*Araba gedər, izi yox,*
*Odun yanar, közü yox (Barama).*
*Atası bir aylıqdı,*
*Oğlu bazara gedir (Barama).*
*Atası yasma xoca,*
*Anası yapma xatın (Barama).*
*Biz biz idik,*
*Yüz qız idik,*
*Bizi üzdülər,*
*İpə düzdülər (Barama).*
*Qırğın gəldi, qırıldıq,*
*Şükür Allaha, dirildik (Barama qurdu).*
*Bir quşum var alaca,*
*Gedər qonar ağaca.*
*Özünə bir ev tikər,*
*Nə qapı qoyar, nə baca (Barama qurdu).*
*Nədəndi, ha nədəndi,*
*Bağrım başı zədəndi,*
*Ot otlar qoyun kimi,*
*Su içməz bu nədəndi? (Barama qurdu) (13).*

**Xülasə**

Avropa və Amerikanın qabaqcıl dövlətlərinin XX əsrin 70-ci illərində gəlib çıxdıqları mədəni fərqliliyin müxtəlif formalarının "assimilyasiyasız inteqrasiya"sı fikri Şərqdə, o cümlədən ölkəmizdə minillərdir ki, tətbiq edilir və bunun ən gözəl örnəyi Azərbaycanda çox qədim zamanlardan yaşamaqda olan müxtəlif azsaylı xalqların özünəməxsus milli folklorudur. Bu baxımdan avarlar arasında geniş yayılmış «Qodu-qodu» oyununu, eləcə də udin xalqının ipəkçiliklə bağlı folklor nümunələrini misal gətirə bilərik. Tədqiqatlar bu örnəklərin digər xalqlar arasında da geniş yayıldığını göstərir.

**Резюме**

В 70-е годы 20-го столетия Западные страны пришли к общему мнению об идее «интеграции без ассимиляции», которая в Восточных странах, в том числе и в Азербайджане имеет очень глубокие корни. Примером тому служит богатые фольклорные традиции малочисленных народов. Например, среди аваров распространена детская игра «Году-году», а среди удинов поверья, связанные с щелководством, которые распространены и среди других народов страны.

**Summary**

The thought "the integration without assimilation" of different forms of cultural variety done by advanced countries of Europe and America during the 70s of the $20^{th}$ century in East, including in our republic is applied for many years and its best example is the national folklore of the limited nations living in Azerbaijan from the ancient times. That is why as an example we can show the game "Godu-godu" which is the famous among Avars and the folklore samples about silkworm breeding of Udin nation. The investigators show that they (game and samples) have been spread among other nations very much.

**Ədəbiyyat:**

1. Multikulturalizm fenomeni. «Mədəniyyət dünyası». Elmi-nəzəri məcmuə, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti, XXV buraxılış, Bakı, 2013, səh. 10-15.
2. Бенхабиб С. Притязания культуры. Равенство и разнообразие в глобальную эру. – М., Логос, 2003.
3. Куропятник А.И. Мультикультурализм: проблемы социальной стабильности полиэтнических обществ. – СПб., Изд-во СПбГУ, 2000.
4. Şahverdiyev B. Qafqaz Albaniyasının əski qafqazdilli sakinlərindən çilb (avar), miqb (saxur) və udinlər barədə bəzi qeydlər // Azsaylı xalqların folkloru I kitab Bakı, Elm və təhsil, 2014, səh. 3-5.
5. Taniyeva A. Avar folkloru // Azsaylı xalqların folkloru I kitab Bakı, Elm və təhsil, 2014, səh. 6-7.
6. Elçin Aslanov. El-oba oyunu, xalq tamaşası. B., "İşıq", 1984.
7. Bilqamıs dastanı. B., "Gənclik", 1985.
8. Nəğmələr, inanclar, alqışlar. B., "Yazıçı", 1986.
9. Azərbaycan folkloru antologiyası. XIII cild. Şəki, Qəbələ, Oğuz, Qax, Zaqatala, Balakən folkloru. Bakı, "Səda", 2005.
10. Azsaylı xalqların folkloru. Bakı, Folklor İnstitutu, 2014.
11. М.Каганкатваци. История Агван, кн. I, гл. 5, СПб., 1861.
12. Vahidov R.M. Mingəçevir III-VIII əsrlərdə. Bakı, 1961.
13. Tapmacalar. http://ekitap.kulturturizm.gov.tr/Eklenti/10839,tapmacalarpdf.pdf?0

**Elçin Qaliboğlu (İmaməliyev), filologiya üzrə fəlsəfə doktoru,**
**AMEA Folkor İnstitutu, böyük elmi işçi**
**Azərbaycan, Bakı**

# AZƏRBAYCAN FOLKORU MƏDƏNİ MÜXTƏLİFLİYİN ƏDƏBİ-ESTETİK BAZASI KİMİ

***Açar sözlər:*** *Azərbaycan folkloru, mədəni müxtəliflik, milli birlik, folklor yaddaşı, adət-ənənə, milli xarakter, bəşərilik*

***Ключевые слова:*** *Азербайджанский фольклор, культурное разнообразие, национальное единство, фольклорная память,обычаи-традиции, национальный характер, вселенная*

***Key words:*** *Azerbaijan folklore, cultural diversity, national unity, folklore memory, tradition, national character, humanity*

**Giriş.** Milli dəyər fərdin içindən başlayır. Əslində hər bir insan milli dəyərin bu və ya başqa səviyyədə, imkanı yetən səviyyədə ünvanı, təsdiqi olmalıdır. İnsanı, xalqı da var edən milli ruhdur. Milli dəyər ulusal özünəməxsusluğun, bəşəriliyin ifadəsidir. Xalq – bəşəriliyin təsdiqidir. Milli birliyimiz bəşəri gərəkliyimizdir. Azərbaycanın milli dəyərləri insançılığı tam ifadə edir. Milli dəyərlərimiz bəşəriliyi tam ifadə etdiyinə görə hər bir azərbaycanlının (türklərin və qeyri-türklərin) öz ulusal (milli) ölçüsüylə yanaşı, bu əsasda da Azərbaycana yanaşması, onu sevməsi üçün daha ciddi əsaslar yaradır. Ulusal birliyimizi ulusal dəyərlərimiz yaradır.

Azərbaycan folkoru mədəni müxtəlifliyin ədəbi-estetik bazası kimi yüzillərdir davamlı şəkildə varlığını sübut etməkdədir. Bu, Azərbaycanda yaşayan müxtəlif xalqların ayrı-ayrı nümayəndələrinin həyatında, folklorunda özünü bu və ya başqa şəkildə (yaşamın (həyatın) ümumi prinsiplərindən tutmuş davranış qaydalarına kimi) göstərir.

Azərbaycanın ruhundan doğan, bəşəriliyi tam təsdiq edən Nizami, Füzuli, Nəsimi, Sabir, Cavid və b. kimi klassiklərin irsi, eləcə də dövlətçilik, qəhrəmanlıq irsimiz, şanlı tariximiz, mənəvi-mədəni sərvətlərimiz – muğamımız, sazımız həm də Azərbaycanda yaşayan qeyri-türklərin möhtəşəm, tükənməz mənəvi güc qaynağıdır. Yüzillər boyunca Azərbaycanda yaşayan xalqlar bu mənəvi sərvətdən bəhrələnib, onları birləşdirən bu qüdrətli ruhun soraqlarını bu və ya başqa şəkildə yaşamlarında hiss ediblər.

Xalqımızın ruhunda zorçuluq yoxdur, olmayıb. Eləcə də başlıcası, Azərbaycan türklərinin başqa xalqlara qarşı insançı davranışının kökündə, mayasında Azərbaycan ruhundan gələn, ömürləşən soraqlar, yetkin davranış tipi dayanıb.

İnsana insanlıq soraqçısı kimi baxmaq, onun dərdini-qayğısını özününkü bilmək, dostluqda həmişəlik mərd-mərdana davranmaq, müxənnətlik etməmək – arxadan vurmamaq, həmişə süfrəsi açıq olmaq, ruhən, fiziki cəhətdən güclü olduğu halda bu imkanlardan zəif olan xalqlara qarşı fürsətcillik yapmamaq, əksinə onların xalqlıq imkanlarının aşkarlanmasında hər mənada, ilk növbədə mənəvi yardımçı olmaq, mərhəməti (insanlığı) həyat tərzinə çevirmək, insanlığında nümayişkarlıq etməmək, doğmalığında davamlı olmaq və b. kimi keyfiyyətlər Azərbaycan folkorunun mayasında bu gün də canlı olaraq yaşayır.

"Dədə Qorqud Kitabı"nda ulusal ruhumuzun təsdiqi (ilahi insani birlik, türk ailəçiliyi, başqalarına ədalət ölçüsündə yanaşma, adqoyma, bənzərsiz doğmalıq çalarları və s.) var, dastanı oxuduqca xalq ruhunun ölməzliyinə, ulusal-bəşəri imkanlarımızın tükənməzliyinə inamımız artır. "Koroğlu" dastanında mərdliklə namərdliyin yer-göy fərqi, Azərbaycan-türk ruhunda fitrətən yaşayan Koroğluluq xislətinin mahiyyət səviyyəsində olduğunu görür və inanırıq. Ona görə ki, bu halı canlı yaşayırıq.

Başqasının (başqa xalqın) uğurunu, yaşamağını istəmək, ona həmişə mənəvi yardımçı olmaq yalnız qanında – canında bəşəriliyi canlı olaraq yaşayan yetkin fərdlərin hesabına yaranır, formalaşır, daimiləşir, xalqı təsdiq edir. Azərbaycan folklorunda bu cəhətlər yetkin bir düşüncə sistemi şəklindədir.

Adətən, folklor düşüncəsi qondarmalıq sevmir, ona nəyisə sonradan yapışdırmaq çətin olur, bu baş verəndə isə aydınca sezilir. O deməkdir ki, Azərbaycan folklorunda minillərdən bəri formalaşan, oturuşan bu cəhətlər indi də xalqın yaşamındadır. O deməkdir ki, xəlqi keyfiyyətin formalaş-

ması bir günün, bir ilin işi deyil. Xalqın düşüncəsi minillərin sınağından çıxdıqdan sonra indi də yaşayırsa, başqa xalqların da yaşamında aparıcı, xüsusi təsiredici mənəvi gücə malikdirsə, deməli, çağımızda – ölkəmizdə onların özünü güvənli hiss etməsinin əsas səbəbi (yaxud səbəblərindən biri) aydın olur.

Azərbaycan folklorunun ruhunda yaşayan, təsdiq olunan mənəvilik özünü dil məsələsində aydınca göstərir. Dil – hər bir xalqın müəyyənliyi, özünəməxsusluğudur. Dünyada gərginliklərin artdığı bir çağda xalqların, dövlətlərin dil qoruyuculuğu məsələsində daha da bərkidiyi (bərkiməli olduğu) göz önündədir. Hər bir xalqın dili o xalqın təfəkkürünü, səviyyəsini göstərir. Ən əski çağdan bəri, yəni xalqın ilkin inancları yarandığı çağlarda dilin imkan verdiyi səviyyədə həmin özəlliklər yaşayıb, sonradan yetkinləşib, bugünümüzə gəlib çıxıb. Dil özündə tarixi çox gözəl ifadə edir, yaşadır. M.Yaqubqızı yazır: "Ölkə ərazisində rəsmi dövlət dili Azərbaycan dilidir. Bununla belə insanlar arasında ünsiyyəti təmin etmək məqsədi ilə istənilən dildən istifadə etməyə icazə verilir, ünsiyyət dili kimi hər hansı bir dildən istifadəyə məhdudiyyət qoyulmur. Azərbaycan ərazisində yaşayan bütün xalqlar və etnik qruplar öz ana dillərini unutmasınlar, bu dildən aktiv şəkildə istifadə edə bilsinlər deyə, həmin xalqların kompakt şəkildə yaşadığı ərazilərdə yerləşən və bu xalqların övladlarının təhsil aldıqları məktəblərdə, dilin perspektivi nəzərə alınması şərti ilə, ya təhsil həmin xalqların öz dillərində aparılır, ya da həftədə ən azı iki dəfə öz ana dillərinin tədrisi və gənc nəslə öyrədilməsi təmin olunur" (**2, 13**).

Azərbaycan folkloru dilimizin gözəlliyini bütün varlığıyla qoruyur, yaşadır. Bu, həm də Azərbaycandakı xalqların folklor qoruyuculuğu üçün örnəkdir: istər-istəməz Azərbaycan folklorundan bəhrələnməklə yanaşı həm də Azərbaycan dilinin imkanlarından bəhrələnmək gərəkli, vazkeçilməz hadisə kimi dəyərləndirilməlidir.

Azərbaycan folklorunun mayasında yurdun müqəddəslik ölçüsündə öyülməsi, obrazlaşması var. Məsələn: "Vətənə gəldim, imana gəldim" və s. Bu halın başqa xalqların folkloruna gözəl, yaşarı təsirini aydınca görürük.

Novruz bayramı minillərdir ki, ulusumuzun yaşamında özünəməxsus yer tutur. Bu bayramda milli ruhumuzun, qədimliyimizin soraqları yaşayır. Minillər öncə babalarımız inanıblar ki, insanla təbiətin birliyi var. Bu birliyi əcdadlarımız öz ömründə yaradıb və yaşadıb: qışın yazı əvəzləməsini öyüb, təbiətlə birgə ruhən yenidən doğulub, içəridən arınıb, bu təmizlənməni mənalandırıb, bayramlaşdırıb. Novruz bayramı bir çox ölkələrdə qeyd edilir. Azərbaycan Novruzunun isə bənzərsizliyi ortadadır. Ümumşərq, ümumtürk keyfiyyəti olan Novruz muğamdakı bənzərsizliyimiz qədər bizimdir. Qədimdən bəri varlığın başlıca ünsürlərinə (od, su, hava, torpaq) türk öz ruhuyla baxıb, təbiətin yenidən doğulmasını mənalandırarkən başqa xalqların təsəvvürlərinə möhtac olmayıb. Novruzun mahiyyətində türkün halının yetkin ifadəsi var. Novruzda od – bayramın başlıca rəmzidir. Bayramda xeyirin şər üzərindəki qələbəsinə inam yaşayır, təsdiq olunur. Novruz bayramı milli ruhumuzu təsdiq eləyir, ona görə bizə belə doğmadır. Novruz bayramının mahiyyətində duran od isə insanı daxilən təmizləyici motiv olaraq aparıcıdır. Qədimlərdən bəri od türkün ağlında, düşüncəsində müqəddəslik rəmzi kimi yaşayıb, bu günə kimi gəlib çıxıb. Odun qədimdən müqəddəs sayılması, insanı hər cür pisliklərdən, şərdən təmizləyəcəyinə, xeyirin qələbə çalacağına inam ifadə olunub. Bu gün Azərbaycanda Novruz bayramı demək olar, hamı tərəfindən qeyd olunur, insanlar bir-biriylə ürəklə bayramlaşır: Azərbaycan folklorunun canını-mayasını özündə yaşadan, təsdiq edən bu bayramın ölkəmizdə yaşayan ayrı-ayrı xalqların nümayəndələrinin də birbaşa, ya dolayısı ilə məişətində, adət-ənəsində yaşadıldığının şahidi oluruq. Mayasında fəlsəfi-musiqi-bədii-estetik, mətbəx mədəniyyəti, oyun kompleksi cəhətdən zəngin yaşam sistemi oluşduran Novruzun təsiri həmişə canlı, yaradıcıdır.

Dünyada çoxlu gözəl torpaqlar, ölkələr var, ancaq heç biri insana doğulduğu, böyüyüb boya-başa çatdığı el-obanın, Vətənin yerini vermir. Azərbaycanda yaşayan xalqların nümayəndələri üçün bura gerçəkdən Vətəndir. Bu ölçünün ağıllarda, ömürlərdə obrazlaşmasının qaynağı ilk növbədə Azərbaycan folklorudur. Ona görə ki, folklor – xalqın şəxsində insanın dünyaya, həyata, özünə münasibətinin yetkin, davamlı soraqlarıdır. Keçmişimizdən gələn, milli ruhumuzu təsdiq etdiyi dərəcədə bəşəriyyətə hava-su kimi gərək olan özəlliklərimizi göz-bəbəyimiz kimi qorumalı, artırmalı, bu

özüldə yeni dəyərlər yaratmalıyıq. Bir xalq olaraq halallığımız, mərdliyimiz – üzağlığımızdır. Azərbaycan folkloru bu qoruyuculuq işində bizə hər zaman yardımçı ola bilmək imkanına malikdir.

Bayatı çağırmaq uca ruhumuzdan doğub. Bayatı yaratmaq mahiyyətcə xalqı təmsil etmək deməkdir. Gözəl, ülvi olan əbədiliyi təsdiq edir, xalq adlı ünvana axır, təsdiqini tapır. Bir bayatıda bir kitablıq hikmət var. Bayatılarda diqqəti çəkən əsas məqam budur: sevgi bitməzmiş, habelə sevənin dərdi qurtarmazmış. Kədərdən, fəlakətdən güc almaq hünərdir. Bayatı dili ana dilimizin həm də üzağlığıdır. M.Yaqubqızı araşdırmasında - Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəklərindən misallar gətirir, bayatı janrının orada da geniş şəkildə işlənildiyini bildirir: "Məsələn, bir avarın söylədiyi bayatıya baxaq:

*Şalı Şamdan alaram,*
*Dunça üstən salaram.*
*Manzara bafta, zarı*
*Car bazardan taparam.*

*Saxurun söylədiyi bayatı:*
*Tamburun qolu uzun,*
*Çantası düzüm-düzüm.*
*Bir buyana baxsana,*
*Ay mənim ala gözlüm.*

*İngiloyun söylədiyi bayatı nümunəsi:*
*Suyun o tayında gözəl qız,*
*Çikila yellədi (işarə etdi).*
*Onu o tayda sevgi öldürdü,*
*Məni burada istəyim.*

Bir sıra folklor örnəkləri var ki, bu nümunələrə istər ləzgi, istər avar və s. xalqın nümayəndələri öz rəng çalarını artırmaqla öz möhürünü qoymaqla örnəkləri özününküləşdirmişdir. Buna görə də örnəklər həm variativliyi, həm də möhürlənmiş bayatı nümunələri kimi özünəməxsusdur. Məsələn, bir bayatıda:

*O qızın ağ şalı var,*
*Ağ şala oxşarı var.*
*Özü avar balası*
*Muğala oxşarı var.*

**Yaxud:**

*Başında ağ şalı var,*
*Ağ şala oxşarı var.*
*Özü ləzgi balası*
*Muğala oxşarı var.*

Bir avarın, yaxud da bir ləzginin dilindən söylənən bu bayatıların ortaq qəliblənmiş Azərbaycan variantı var:

*Başında ağ şalı var,*
*Yanağında xalı var.*
*Özü ceyran balası*
*Gör kimə oxşarı var" **(2, 104) ?!***

Milli dəyərlər və çağdaşlığa gəlincə, əsil dəyər zamanı ötür, köhnəlmir. Azərbaycan folkloru bu gün çağımızda təhlükəli tendensiya yaradan qloballığa (kürəsəlliyə) qarşı durmaqda ölkəmizdəki

hər bir xalqa yenilməz güc verə bilər. Kürəselləşmə (qloballaşma) ulusallığa qarşıdır. Ulusal-fərdi-dövləti özümlüyü, müstəqilliyi qorumaq üçün milli dəyərlərin qorunması qaçılmazdır. Çağımızda informasiya savaşı tüğyan edir. Dünya bütün uğurlarına baxmayaraq sanki tükənmiş durumdadır. Qlobalçılıq dəhşətli eyniyyət, antidoğmalıq, insani-bəşəri dəyərlərin, oturuşmuş milli ölçülərin adiləşməsini və s. yaradır, bər-bəzəkli görüntülərlə baş qatır. Bu gün hər çeşidli informasiya müqavimətsiz evimizin içinə girir, insanı ram edir. Ulusal dəyərlər – içimizdən yaranan, başqasından fərqimizi göstərən dəyərdir. Dövlət, xalq bu kimi dəyərlərin əsasında var olur. Çox güman ki, adamlar informasiya bolluğunda çasırlar, neyləyəcəklərini bilmirlər. Azərbaycan folklorunda özünü aydınca göstərən vətənpərvərlik ideyası, insana təqdim edilən ideyanı ağılla, səbirlə öyrənib yetkin qərar çıxarmaq - tələskənlik etməmək, insanın insana qarşı kinli olmaması və s. bu kimi hallara qarşı durmaqda müəyyən rol oynaya bilər.

Azərbaycan folklorunun davamlı yaşamından, etkisindən çıxan sonuc: bundan sonra dünyada idrakiliyin əsas yön olduğu çağda hər xalqın bəşərin bir parçası, bəşərin təmsilçisi kimi yaradıcılığını ortaya qoymaq imkanı yaranır. Eləcə də folklorumuz insanların ulusa, uluslara – bəşərə, dövlətçiliyə ciddi münasibətinin yaranması üçün düşüncə yönü, insanlarımıza ulusallığı aşılamaqla bizi gözləyən çoxçeşidli təhlükələrdən qurtulmağa da imkan yaradır. İndi dünyanın əsas problemi inamsızlıqdır. İnsan necə xilas olsun, xoşbəxt olsun? Bu kimi suallar həmişə folkloru da əsas mövzularından olub. Dünyaya, həyata, təbiətə, insan olaraq yanaşa bilmək, müəyyən canlıları obrazlaşdırmaq türk xarakterində özünü daha aydın şəkildə göstərməkdədir.

Azərbaycan aşıq sənəti insani-bəşəri halıyla ölkəmizdə yaşayan hər bir kəs üçün doğma sayılmağa özündə haqq tapır. Zaqatala bölgəsindəki etnik zənginliyin insanlıq-ulusallıq-bəşərilik yönündə davamlı olaraq cilalanmasında aşıq sənəti özünəməxsus, bənzərsiz rol oynayır. Zaqatala aşıq mühitini araşdırmış Z.Mənsimovanın tədqiqatından aydın olur ki, bölgədə aşıq sənəti müxtəlif xalqların nümayəndələri arasında yayılıb, indi də sevilməkdədir (**3, 15**).

Saxurların adət-ənənələrinin formalaşmasında Azərbaycan-türk ruhunun, adət-ənənəsinin doğma, yaradıcı-yaşadıcı təsiri aydınca duyulur. Saxur toylarında oxunan bayatı-mahnılarda insanın başqasının xoşbəxtliyini ürəkdən istəməsi, eləcə də muradına yetə bilməyənin kədəri doğmacasına ifadə olunur:

*Abay yixeyir xərna,*
*İş haana sos vorna.*
*Yed yiş xine vuxi şu,*
*Qor moxecın qeeb muğba.*
*Divarısne ulmoyzar,*
*Ger çiyeka gümoyzar.*
*Dekkike izin dexxa,*
*Darvazayle humoyzar.*

**Tərcüməsi:**

*Qaynana böyük olsa da, iş görən gəlindir.*
*Ana və qız kimi olun siz, gorda yeriniz dar olmasın.*

*Divar yanında durma,*
*Başını yerə çox dikmə.*
*Atam izn verməmiş*
*Darvazadan boylanma.*

*Quş deyiləm uçam,*
*Gedib ağaca qonam.*
*Yalqız maral deyiləm,*
*Ovçunun əlinə keçəm (**5**).*

Laylaların insanın həsrətini, istəyini ifadə etməsi onu oxuyana, ruhunda yaşadana daha da doğmalaşdırır:

*“Heştile kalesta*
*Vas çərəna qaççi ables,*
*Kişmiş alles, Qurt alles.*
*Gimeşşe, dixav, gimeşşe.*
*Qalixe, dixav, qalixe”.*

**Tərcüməsi:**

*Ağlama oğlum, ağlama,*
*Atan gedib bazara.*
*Bir azdan gələcək.*
*Sənə qırmızı papaq gətirəcək.*
*Kişmiş gətirəcək, Köynək gətirəcək.*
*Ağlama, oğlum, ağlama,*
*Yat, oğlum, yat.*
*Ağlama qızım, ağlama,*
*Sənin qardaşın fermaya gedib.*
*Sənə pendir gətirəcək.*
*Quzu gətirəcək. Çəpiş gətirəcək.*
*Ağlama, qızım, ağlama, Yat, qızım, yat...”*
*Tapmacalara diqqət edək:*
*Tsaey qideyxanan, xiney kidyaykanan (Mık)*
*Odda yanmır, suda da batmır (Buz) (**5**).*

A.Tinayeva yazır: “Avar xalq ədəbiyyatı mövzu və məzmun baxımından rəngarəng olsa da, Azərbaycan folklor nümunələri ilə bir sıra ortaq cəhətlərə malikdir. Şifahi söz sənətində bir çox mətnlərin üst-üstə düşməsi həmin örnəklərin vahid etnocoğrafi məkanda əmələ gəlməsini göstərir. Azərbaycanın zəngin folkloruna daxil olan nağıl və dastanlar, xalq müdrikliyinin ifadəsi olan atalar sözləri və zərbi-məsəllər tarix boyu burada yaşayan xalqların şifahi söz sənətinə güclü təsir göstərib. Qodu-qodu ilə bağlı olan nəğmələrin ilk iki sətri Azərbaycan dilindədir: Qordi, qordi, qordina, Qordi salam vardina.

Bir çox atalar sözləri və zərbi-məsəllər (Məsələn: Bir əldə iki qarpız tutmazlar), Molla Nəsrəddinlə bağlı olan lətifələr də buna əyani misal ola bilər. Azərbaycan folklor nümunələri ilə bir sıra ortaq cəhətlərlə yanaşı, avar folklorunun özünəməxsus cəhətləri az deyil. Bu cəhətlər daha çox xalqın iradəsini əks etdirən xalq dastalarında, toy, dəfn kimi mərasimlərdə, mərasim və mövsüm nəğmələrində, milli adət-ənənələrdə özünü göstərir” (**1, 6**).

M.Paşayeva isə bu fikirdədir: “Tarixin müəyyən dövrlərindən Azərbaycanı özlərinə məskən seçmiş avarlar, saxurlar, ingiloylar, udilər, talışlar, xınalıqlılar kimi etnik qruplar əsrlər boyu Azərbaycan türkləri ilə bərabər yaşayaraq zaman keçdikcə bir-birilə qaynayıb qarışıblar. Ancaq bu etnosların hər biri Azərbaycan türkləri ilə ümumi, vahid mənəvi dəyərlərə sahib olmaqla yanaşı öz etnik spesifikliyini də müəyyən dərəcədə qoruyub saxlayaraq bütövlükdə Azərbaycan mənəvi mədəniyyətinə özünəməxsus rəng qatmışlar. Azərbaycanın Lənkəran-Astara, Quba-Xaçmaz, Şəki-Zaqatala kimi bölgələri talışlar, tatlar, ləzgilər, xınalıqlar, hapıtlar, buduqlar, avarlar, saxurlar, ingiloylar, udilər kimi etnik qrupların əsrlər boyu Azərbaycan türkləri ilə birgə yaşadıqları tarixi-etnoqrafik bölgələr olduğu üçün hər zaman etnoqrafların diqqət mərkəzində olub” (**4**).

Araşdırmaçı Xeyrulla Ağayevlə söhbətdən məlum olur ki, hapıtlarda Novruz bayramı ilə bağlı bütün ritualların keçirildiyini, oda müqəddəs münasibətin yaşadığını bildirir:"Oda, suya münasibət türk ruhunda necədirsə, bizdə də elədir. Camaat and içəndə qoq deyər, yəni günəşə and içirəm". "Bizlərdə indi də alver psixologiyası o qədər inkişaf etməyib. Türk ruhundakı hallallıq bizdə də yaşayır".

Bu gün, ümumiyyətlə, dünyada folklor yaddaşı korşalmaq, az qala yoxa çıxmaq təhlükəsi ilə üz-üzədir. Yeni folklor nümunələri az yaranır. Bu hal bizə onu deyir ki, hər kəs evində - ailəsində ardıcıl olaraq balalarını, inandıqlarını insanlıq, ulusallıq üstə kökləyə, yaşamağa, mili dəyərləri qorumağa kökləyə bilsə, sabahımızı güvənli edə bilərik. Qoy Azərbaycanda yaşayan hər bir xalqın nümayəndəsi özünü bu gözəl istək üstə kökləsin. Bu, dövlətçilik, milli kimlik, milli təhsil və başqa yönlərdə inkişafımız üçün son dərəcə qaçılmaz və gərəklidir.

**Nəticə:** Azərbaycan folklorunun mayasında duran əsas cəhət insanlıqdır: rəqabət yaratmamaq, ilahi barış düzənçisi olmaq. Bu, mahiyyətcə bəşər ruhunun, mədəniyyətinin, adət-ənənələrinin ilahi, insani səviyyədə qoruyucusu olmaq deməkdir. Folklorumuz xarakter etibarilə birsifətliyi, fitri döyüşkənliyi, inancıllığı, vətənsevərliyi ilə diqqəti çəkir. Eləcə də folklorumuzda həyata daim yaradıcı baxmaq, insanilikdən soraq verən hər bir cəhəti ləyaqətlə dəyərləndirmək, bu cəhəti (cəhətləri) qorumaq, yaşatmaq və sabaha çatdırmaq ərdəmliyi var.


**Xülasə**

Milli dəyər ulusal özünəməxsusluğun, bəşəriliyin ifadəsidir. Xalq – bəşəriliyin təsdiqidir. Milli birliyimiz bəşəri gərəkliyimizdir. Azərbaycanın milli dəyərləri bəşəriliyi tam ifadə etdiyinə görə hər bir azərbaycanlının (türklərin və qeyri-türklərin) öz ulusal (milli) ölçüsüylə yanaşı, bu əsasda Azərbaycana yanaşması, onu sevməsi üçün daha ciddi əsaslar yaradır. Azərbaycan folkoru mədəni müxtəlifliyin ədəbi-estetik bazası kimi davamlı olaraq varlığını sübut etməkdədir.

**Резюме**

Национальная ценность является выражением национальной своеобразности Вселенной. Народ – подтверждение Вселенной. Наше национальное единство является необходимостью Вселенной. Для получения полного выражения национальных ценностей каждый азербайджанец (турок и не турок) в полной форме выражающий Вселенную, наряду со своей национальной мерой строит свое отношение, создает еще более серьезные основания для любви к Отечеству. Азербайджанский фольклор как художественно-эстетическая база культурного разнообразия периодически доказывает свое существование.

**Summary**

The national value is an expression of identity, humanity. Nation - is confirmation of humanity. National unity is our human necessity. As national values of Azerbaijan express humanity together with the national size of each Azerbaijanian create strong reasons on this basis for approaching to Azerbaijan, loving it. Azerbaijan folklore as a literary-aesthetic base of cultural diversity prove the presence continuously.


**Ədəbiyyat:**


1. Azsaylı xalqların folkloru. Bakı: 2014, 206 səh.
2. Yaqubqızı M. Azərbaycan folklorunda tolerantlıq və multikultiralizm (Şəki-Zaqatala bölgəsində yaşayan xalqların və etnik qrupların folklor örnəkləri əsasında). Bakı: 2016, 184 səh.
3. Mənsimova Z. Zaqatala aşıq mühiti,Bakı, 2014, 216 səh.
4. Avarlar etnik kimliklərini günümüzədək qoruyub saxlayıblar-
http://www.xalqcebhesi.az/news.php?id=12522
5. Saxurların həyatı və mədəniyyəti
http://www.xalqcebhesi.az/news.php?id=13561-

**Türkan Musayeva, magistr**
**Azərbaycan Milli Konservatoriyası**
**Azərbaycan, Bakı**

# ZAQATALA RAYONUNDA YAŞAYAN ETNİKLƏRİN MİLLİ MUSİQİSİ

***Açar sözlər:*** *musiqi, forma, mahnı, dam-dam, yiqbi*
***Ключевые слова:*** *музыка, форма, песня, дам-дам, йигби*
***Key words:*** *music, shape, dam-dam, roof, yiqbi*

Müstəqil yaşamaq, taleyinin sahibi olmaq, öz dövlətini qurmaq hər bir xalqın arzusudur. Azərbaycan xalqı da həmişə bu istəklə yaşamışdır. Tarixdə zaman-zaman müxtəlif adlar altında müstəqil Azərbaycan dövlətləri mövcud olmuşdur. Buna misal kimi müxtəlif dövrlərdə tarixi Azərbaycan torpaqlarında yaradılmış Şirvanşahlar, Eldəgizlər, Ağqoyunlu, Qaraqoyunlu, Səfəvilər dövlətlərinin adını çəkə bilərik. Şah İsmayıl Xətainin dövründə Səfəvilər dövləti bütün Azərbaycan torpaqlarını birləşdirdi və Azərbaycan dili dövlət dili səviyyəsinə yüksəldildi. 1998-ci ildə Azərbaycanda bütün islam dünyasında ilk demokratik respublika qurulmuşdur.

Azərbaycan bəşəriyyətin bütün inkişaf dövrlərində öz tarixini qorumağı bacarmışdır. Azərbaycanı fərqləndirən cəhətlərdən biri kimi milli tərkibinin rəngarəngliyi, burada yaşayan milli azlıqların, azsaylı xalqların və etnik qrupların müxtəlifliyidir. Tarixə nəzər yetirsək, görə bilərik ki, azərbaycanlılar ölkəmizdə yaşayan müxtəlif xalqların nümayəndələri ilə qaynayıb-qarışmış, dostcasına, mehribancasına münasibətdə olaraq öz adət-ənənələrini, milli dəyərlərini, öz dillərini qoruyub saxlamaqla gələcək nəsillərə ötürməyi bacarmışlar.

Demək olar ki, Azərbaycan Respublikasının bir çox rayonunda azsaylı xalqların nümayəndələri kök salmışdı. Belə rayonlardan biri də Şimal – Qərb hissədə yerləşən Zaqatala rayonudur. Bu rayon etnik qrupların özünəməxsus və zəngin xalq musiqi ənənələri ilə daha çox seçilir. Hal-hazırda da Zaqatalanın müəyyən kəndlərində də avarları, ləzgiləri, ingiloyları, saxurları və digər xalqları görə bilərik.

Zaqatala rayonunun musiqi folkloru haqqında danışmazdan əvvəl müasir dövrdə rayonun ekoturizm cəhətdən üstünlüyünü qeyd etmək istərdim. Ekoturizmin inkişafının isbatı kimi 1839-cu ildə təşkil olunmuş (ərazisi 23800 ha.) Zaqatala Dövlət Qoruğu, Zaqatala şəlaləsi, Xalaxi gölü, Malarasa aşırımı, ölkə və rayon əhəmiyyətli 108 tarix-mədəniyyət abidəsi var. Onlardan Mamrux kəndi ərazisindəki II-IV əsrlərə aid alban abidəsi, V-VII əsrlərə aid Zaqatala səddi, Car kəndi ərazisində XVI əsrə aid Cingözqala, 1830-cu ildə tikilmiş Zaqatala qalası və s.-ni göstərmək olar. Zaqatala rayonu Böyük Qafqaz sıra dağlarının ətəyində, Azərbaycanın şimal-qərbində yerləşir. Rayon cənubdan Gürcüstanla, şimal-şərqdən Rusiya Federasiyasının Dağıstan Respublikası ilə, qərbdən Balakən rayonu ilə, şərqdə isə Qax rayonu ilə həmsərhəddir. Rayonun şimal-şərq ərazisində dağlıq, cənub və cənub-qərb hissəsində düzənlik relyef üstünlük təşkil edir. Rayonda ən uca nöqtə Quton dağıdır (3648 m). Düzənlikdə mülayim, dağlarda soyuq iqlim müşahidə olunur. Yaşıl təbiətə malik olan ərazidən yeddi çay - Alazan, Katex, Tala, Qara və s. çaylar axır. Zaqatala rayonunun florası müxtəlif qiymətli ağac növləri ilə zəngindir – şabalıd, qoz, fındıq, palıd, vələs, qarağac və s. Fauna – maral, dağ keçisi, qaban, ayı, canavar, dovşan, həmçinin çoxlu quş növləri ilə - qırqovul, kəklik, dağ şahini, çalağan, turac, dolaşa və bülbüllə təmsil olunmuşdur.

Yuxarıda bölgə haqqında verdiyimiz coğrafi iqtisadi məlumatlar Zaqatala rayonunun müasir dövrümüzdə həm sosial, həm də təsərrüfat həyatının inkişafını bir daha təsdiqləmiş olur. Məhz sosial-iqtisadi cəhətdən inkişaf etmiş ərazilərdə mədəni səviyyənin yüksək olması faktı danılmazdır. Çünki təsərrüfat həyatı insanların milli mədəni nümunələri, xüsusən də folkloru yaratmasında müstəsna rol oynayır.

Təqdim etdiyimiz məqalədə bölgənin musiqi folklorunun araşdırılması əsas məqsəd kimi qoyularaq ekspedisiyalar zamanı əldə etdiyimiz məlumatların ümumiləşdirilməsindən çıxarılan nəticələrin diqqətə çatdırılmasıdır. Qeyd etdiyimiz kimi burada ləzgilər, udilər, saxurlar, avarlar, ingiloylar və s. etnik qruplar yaşayır və Azərbaycanın Qafqaz dilləri ailəsinə daxil olan saxurlar, əsasən Zaqatala və Qax rayonlarının bir neçə kəndində məskunlaşıblar. Qafqaz Albaniyası dövründə saxur-

lar Albaniyada yaşayan 26 tayfadan biri idi. Sax=ts`ax, tsaxur, sak etnonimindən əmələ gəlib. Tsaxur haqqında ilk dəfə eramızdan əvvəl 80-ci ildə qurulmuş Tsaxur şəhərindəki "Saxur hökmdarlarının mülkləri" adlı sənədində məlumat yerləşdirilmişdir. Daha sonra digər mənbə kimi 293-cü ilə aid olan bir fars yazısında Tsaxurun “Saxur” şəklində yazılmış variantını göstərmək olar. Sonrakı dövrlərdə saxurlara "yiqbi" və ya "ciqbi" deyirdilər. "Yiqbi" etnoniminə ilk dəfə "ciqbi" formasında “Albanların tarixi” əsərində rast gəlinmişdir. Gürcü mənbələrində isə saxurlar başqa cür – “suci”, ölkələri isə Suceti və ya Tsuketi adlandırılır. Bununla yanaşı, onlara həmçinin “eri", ölkələrinə də Ereti deyirdilər. Bu adlarla bağlı olan toponimlər saxurların yaşadıqları yerlərdə - Zaqatala rayonundakı Sucaray dağı və Suvagil kəndindəki Eray meydanı qorunub-saxlanmışdır.

Saxurların mədəniyyəti haqqında danışarkən, ilk növbədə onların tarixdə göstərdikləri mərdlikləri, cəsurluqları nəzərə çatdırılmalıdır. Tarixi baxımından Saxurlar Qafqaz Albaniyasının tərkibində e.ə. 331-ci il oktyabrın 1-də Makedoniyalı İsgəndərin qoşunları ilə III Daranın qoşunları arasında baş verən üçüncü vuruşma olan Qavqamelada və kişilərdən geri qalmayan mərd saxur qızları isə e.ə. 66-65-ci illərdə Alban ordusunun tərkibində Pompeyin legionlarına qarşı vuruşmuşlar. Daha sonra saxurlar öz doğma torpaqlarını ərəblərin (VII-IX əsrlər), monqolların (XIII əsr), Teymurləng qoşunlarının hücumlarından (XIV əsr), iranlı istilaçılardan (XVII əsr), Nadir Şahdan (XVIII əsr) və rus istilaçılarından (XIX əsr) qorumuşlar. Saxurların folklorunda yadelli işğalçılara qarşı qəhrəman mübarizəsi öz əksini tapmışdır.

Azsaylı etnos olması etibarilə saxurlar istər Dağıstan və istərsə də Azərbaycanın bir neçə kəndində məskunlaşsalar da, onların dili bir neçə dialektə bölünür. Belə ki, dilçilər saxur dilinin Saxur-Qum, Mişleş, Cınıx, Muxax-Sabunçu və Suvagil dialektlərindən ibarət olmasını müəyyən etmişlər.

VII-XII əsrlərdə saxurların məskunlaşdığı ərazilər də ərəblər tərəfindən istila edilmiş və nəticədə saxurlar da İslam dinini qəbul etmişlər. Təqribən XV əsrdə saxur icmaları birləşərək Dağıstan ərazisində yerləşmiş və onlara sultan başçılıq etmişdir. Bu icmaların iqamətgahı XVII əsrdən isə İlisu olmuşdur. Saxurlar tarixən keçmiş zamanlarda Dağıstanda məskunlaşmış, daha sonralar isə Azərbaycan ərazisinə köç edərək Zaqatala ərazilərində yerləşmişlər. Saxurların Azərbaycanda yerləşməsinin bir neçə yüzillik tarixi ərzində onlar azərbaycanlılarla qaynayıb-qarışmış, xalqımızın dilinə, mədəniyyətinə yiyələnmişlər.

Uzun əsrlər boyu azəri türkləri ilə bir yerdə yaşayan saxurlar toy adətlərində də özünəməxsusluqlarını qoruyub saxlaya biliblər. Bu gün saxur kəndlərində əsasən qədim toy adət-ənənələrinə üstünlük verilir. Bütün bunlar Azərbaycanın tarixən müxtəlif dil ailələrinə məxsus olan xalqların məskəni olduğunu bir daha sübut edir və bu xalqların dar gündə də, şad gündə də bir-birinə arxa, dayaq olaraq hamılıqla vahid azərbaycançılıq ideologiyasına sadiq olduğunu nümayiş etdirir. Saxurlar arasında qoyunçuluq, çəkməçilik, dülgərlik, daşişləmə sənətləri ilə yanaşı, musiqi sənətinə də üstünlük verilmişdi.

Saxurların qədim musiqi alətləri sipsiy, düttək, balaban, tampur, bayan (накьра), kos, zurna və dəf (dam-dam). Ənənəvi saxur xalq ansamblı dörd nəfərdən ibarətdir: zurna, köməkçi zurna, kiçik nağara və böyük nağara. Belə kvartet "кьаварчер" adlanır. Saxurlar cəld, ritmik musiqini xoşlayırlar, həzin melodiyalar isə ürəklərinə yatmır. Saxurlara xas musiqi şən, ilhamlandıran, həyat verən, əhval-ruhiyyəni qaldıran musiqidir. Bu cür coşqun melodiyalar düşmənə, bütün sınaq və çətinliklərə qarşı mubarizədə onlara hər zaman dayaq olmuşdur. Məhz buna görə Qafqaz müharibəsi zamanı İmam Şamil (avar) saxurların həzin mahnıları oxumağını qadağan etmişdir. Saxurların sevimli xalq mahnıları "Издагъ алейъена", "Бег гяъана", sevimli müəllif mahnıları isə "Къайджуна", "Аман ед", "Алшанын" və s.-dir. Bu mahnıların müəllifləri Həmzət, Xan-Almaz, N.İsmayılov, A.Davudov və başqalarıdır. Saxur xalqının özünəməxsus mahnıları bu günümüzə qədər gəlib çataraq dillər əzbəri olmuşdur. “Ceyranım”, “Oh gülüm”, “Ay maral” kimi mahnılar həm adi günlərdə, həm da toy və digər bayramlarda da sevilə-sevilə ifa olunur. Əsas diqqətimiz bu mahnılara yönələrək onların ifa zamanı, dinləyiciyə aşıladığı xarakteri ön plana çəkməkdir. Bu mahnılar dinləyicidə lirik saf ülvi, sevgi hissləri aşılayır, bir-birinə aşiq olan iki gəncin sevgi etirafları, saf arzuları tərənnüm olunur. Maraqlı cəhətlərdən biri də odur ki, əsrlər boyu təbiətlə həmahəng yaşayan bölgə insanı, gözəl qadını təbiətin yaratdığı ən gözəl varlıqları olan ceyran və maralla müqayisə edib, onlara nəvaziş mənasında belə xitab edərək söz qoşub mahnı yazmışdır.

Saxurlar, həmçinin cəld müsiqinin müşaiyətilə oynamağı xoşlayırlar. Cəld ritmlərlə qan daha sürətlə dövr edir və sanki zamana sahiblik edirlər. Yəni onlarda hər kiçik bir ritm hər hansı bir hərəkətin digər xoreoqrafik hərəkətə keçməsini görə bilərik. Rəqslərin müxtəlif növləri vardır: cəld "Q`ellyay" oyunu, "Q`öllena" cüt rəqsi, "Alyuvka`ana" qarışıq rəqsi və məşhur "ləzginka". Toylarda çox vaxt Qədir Qurbanovun rəhbərliyi altında "Saxurlar" ansamblından olan musiqiçilər çalırlar. Saxur musiqisini toylarda, qonaqlıqlarda, rəsmi tədbirlərdə, əsgərləri yola salanda, milli bayramımız olan Novruz, Ramazan və Qurban bayramlarında eşitmək olar. Keçmişdə, XIX əsrdə musiqi güləşçilərin yarışlarında, ilk şırım və ya ot çalımı qabağı, kəndirbazların çıxışlarında səslənirdi. Hal-hazırda saxurların bir neçə folklor ansamblı vardır. Ən məşhur ansambllar, Yeni Suvagil kəndindən olan "Ceyranım" ansamblı (Azərbaycan xalq kollektivləri arasında laureat), Zaqatala rayonu Əli-Bayramlı kəndinin "Lilay" ansamblı və Dağıstanın Mişleş kəndindən "Mişleş" qrupudur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən azsaylı xalqların folklorunun da öyrənilməsi ilə bağlı sərəncam imzalanması azsaylı xalqları çox sevindirmişdir. Respublika Prezidentinin bu etimadına digər azsaylı xalqlar kimi saxur xalqı da çox sevinmiş və sərəncamın həyata keçməsi üçün Zaqatala rayonu çoxlu sayda layihələrə, konfranslara ev sahibliyi etmişdir.

**Xülasə**

Təqdim olunan məqalədə Azərbaycan xalqının etnogenezini təşkil edən qafqazdilli etnik qruplardan biri olan – saxurların əsrlər boyu inkişaf edib, müasir dövrümüzə qədər öz unikallığını qoruyan milli mədəni dəyərlərindən, xüsusən də musiqi folklor nümunələrinin zənginliyindən söz açılır. Burada müəllif əsas diqqəti saxur folklorunun özünəməxsus spesifik xüsusiyyətlərinin araşdırılmasına yönəltmişdir.

**Резюме**

В представленной статье рассказывается о составляющей основу этногенеза Азербайджанского народа – этнической группе цахур, об их национально-культурных ценностях, которые развиваясь на протяжении веков сохранили свою уникальность до настоящего времени, особенно о ценности музыкальных образцов фольклора. Здесь автор уделил особое внимание исследованию специфических особенностей цахурского фольклора.

**Summary**

In the provided article it is said about the long centuries history and examples of rich folklore of Azerbaijani ethnic groups – sakhur. Here the author concentrates the attention on the reseach of specific folklore music characteristic.

**Ədəbiyyat:**

1.Azsaylı xalqların folkloru, Bakı – 2014
2.Azərbaycanda yaşayan azsaylı xalqların adət və ənənələrinin təbliğində kitabxanaların rolu, Bakı-2012
3.Azərbaycan folkloru antologiyasi XIII cild Şəki-Qəbələ-Oğuz Qax-Zaqatala-Balakən folkloru, Bakı -2005

**İnternetdə:**

4.http://www.shakasana.com
5.http://samurpress.net
6.https://avarulia.wordpress.com
7.https://az.wikipedia.org

**Nail Qurbanov, filologiya üzrə fəlsəfə doktoru**
**AMEA Folklor İnstitutu, aparıcı elmi işçi,**
**Gənc Alim və Mütəxəssislər Şurasının sədri**
**Azərbaycan, Bakı**

# HƏYATIMIZIN VƏ ƏDƏBİYYATMIZIN DANILMAZ BİR GERÇƏYİ – MULTİKULTURALİZM

***Açar sözlər:*** *multikulturalizm, tolerantlıq, ədəbiyyat, müxtəlif mədəniyyətlər, vahid cəmiyyət*
***Ключевые слова:*** *мультикультурализм, толерантность, литература, различные культуры, единое общество*
***Key words:*** *multiculturalism, tolerance, literature, different cultures, unified society*

Məlum olduğu kimi, "multikulturalizm" sözü – çox mədəniyyətlilik, bir çox fərqli mədəniyyətlərin bir arada yaşadığı cəmiyyət mənasını ifadə edir. O, ayrıca götürülmüş ölkədə və ya bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların yaşadıqları dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmiş humanist və demokratik nəzəriyyə, yaxud ideologiyadır. Multikulturalizm tolerantlığın təcəssümüdür ki, onsuz humanizm, yüksək fərdi və beynəlxalq münasibətlər mədəniyyəti, insanlar arasında qarşılıqlı anlaşma, qarşılıqlı zənginləşmə, dostluq və əməkdaşlıq mümkün deyildir (https://az.wikipedia.org/wiki/multikulturalizm).

Bir termin kimi multikulturalizm termininin yaşı çox da qədim deyildir. Bu termin siyasi leksikona ilk dəfə 1970-ci ildə Avstraliyada İmmiqrasiya naziri vəzifəsində çalışmış Al Kresbi tərəfindən daxil edilmişdir. Bu terminin yaşı çox qədim olmasa da, onun ehtiva etdiyi məvhum və anlayışlar Azərbaycan xalqının həyatı, tarixi və mədəniyyətində hələ neçə min illər qabaqcadan müxtəlif mədəniyyətlərin qarşılıqlı əlaqəsi, münasibəti, dərindən çulğaşması və zənginləşməsinin nümunəsində mövcud idi. Bu barədə 04 oktyabr 2012-ci ildə "İkinci Bakı Beynəlxalq Humanitar Forumu"nun açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev nitq söyləyərkən demişdir: "Azərbaycan əsrlər boyu mədəniyyətlərin qovuşduğu bir diyar olmuşdur. Əsrlər boyu müxtəlif xalqların, dinlərin nümayəndələri Azərbaycanda bir ailə kimi, sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar. Bu müsbət meyillər bu gün də davam edir. Mən əminəm ki, bu meyillər gələcəkdə daha da gücləndiriləcək və Azərbaycan uğurla inkişafını davam edəcəkdir. Azərbaycanda multikulturalizm sahəsində əldə edilmiş təcrübə hesab edirəm ki, hamı üçün çox maraqlıdır... Azərbaycanın təcrübəsi hesab edirəm ki, əslində, multikulturalizm ideyalarının təbliği üçün çox dəyərli və qiymətlidir. Çünki multikulturalizm bizim həyat tərzimizdir. Nisbətən yeni anlayış olmasına baxmayaraq, multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar... Multikulturalizmlə bağlı son illər ərzində dünyada müxtəlif fikirlər vardır. Bəziləri hesab edir ki, multikulturalizm iflasa uğrayıbdır, onun gələcəyi yoxdur. Biz isə hesab edirik ki, onun bu günü və gələcəyi vardır. Hamımız çalışmalıyıq ki, multikulturalizm meyillərini gücləndirmək üçün öz səylərimizi qoyaq (http://www.president.az/articles/6390/print).

Göründüyü kimi, ölkə başçımız İlham Əliyev bu nitqində Azərbaycanda multikulturalizmin yaşının əsrlərlə olduğunu qeyd etmiş – əsrlər boyu müxtəlif xalqların, dinlərin nümayəndələrinin Azərbaycanda bir ailə kimi, sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşamasını vurğulamış, Azərbaycanın bu sahədə olan təcrübəsini multikulturalizm ideyalarının dünyada təbliği üçün çox dəyərli və qiymətli nümunə hesab etmiş və hamımızın bu meyilləri gücləndirmək üçün öz səylərimizi qoymağa çalışmalı olduğumuzu bildirmişdir.

Multikulturalizmin bir prioritet və strateji istiqamət kimi Azərbaycan Prezidentinin diqqətində olmasının və eyni zamanda onun daha da inkişaf etməsinə çalışmasının bariz nümunəsi kimi 28 fevral 2014-cü ildə akademik Kamal Abdullanın Azərbaycan Respublikasının millətlərarası, multikulturalizm və dini məsələlər üzrə Dövlət müşaviri təyin edilməsi haqqında Sərəncam imzalamasını, daha sonra 15 may 2014-cü ildə Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Fərman imzalamasını, 11 yanvar 2016-cı ildə 2016-cı ilin Azərbaycan Respublikasında "Mul-

tikulturalizm ili" elan edilməsi haqqında Sərəncam imzalamasını qeyd etmək olar. Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılması haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanında qeyd edilir ki, sivilizasiyaların qovuşuğunda yerləşən Azərbaycanın zəngin mədəni-mənəvi irsə və tolerantlıq ənənələrinə malik olması beynəlxalq aləmdə etiraf edilən həqiqətlərdəndir. Mövcud milli-mədəni müxtəliflik və etnik-dini dözümlülük mühiti onu çoxmillətli, çoxkonfessiyalı diyar kimi dünya miqyasında mədəniyyətlərarası dialoqun bənzərsiz məkanı etmişdir. Azərbaycan Respublikasında bu gün həmin mədəni, linqvistik, etnik rəngarəngliyin qorunmasına yönəldilən və uğurla həyata keçirilən dövlət siyasəti multikulturalizm sahəsində əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunmasını, zənginləşdirilməsini, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsini zəruri edir (http: //www.president.az/articles/11095).

Fərmanda, həmçinin Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin yaradılmasının zəruriliyini şərtləndirən amillər kimi multikulturalizmin həyat tərzinə çevrildiyi Azərbaycanın dünyaya tolerantlıq nümunəsi olaraq daha geniş tanıdılmasının vacibliyi, eləcə də ayrı-ayrı ölkələrdəki müxtəlif multikultural modellərə xas fəlsəfi, sosial, siyasi və digər aspektlərin Azərbaycan reallığında təhlili və təşviqinin əhəmiyyəti vurğulanmışdır (http://www.president.az/articles/11095).

2016-cı ilin Azərbaycan Respublikasında "Multikulturalizm ili" elan edilməsi haqqında Sərəncamda Azərbaycan Respublikası Prezidenti qeyd edir ki, tarixi İpək yolunda yerləşən Azərbaycan müxtəlif sivilizasiyaların qovuşduğu məkan olaraq əsrlər boyu milli-mədəni rəngarənglik mühitinin formalaşdığı, ayrı-ayrı millətlərin və konfessiyaların nümayəndələrinin sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma və dialoq şəraitində yaşadığı diyar kimi tanınmışdır. Ölkəmizdə multikulturalizm artıq alternativi olmayan həyat tərzinə çevrilmişdir (http://www.president.az/articles/17437).

Göründüyü kimi, ölkə başçımız İlham Əliyev dövlətimizin gələcək inkişafı üçün multikulturalizmi alternativsiz bir strateji ideologiya hesab edir. Onun işlək bir mexanizm şəklinə gəlməsi üçün yuxarıda sadaladığımız tədbirlərin həyata keçirilməsi üçün konkret fərman və sərəncamlar imzalamışdır. Onun fikrincə, multikulturalizm gələcək inkişafımız üçün ən məqbul variantdır. Çünki multikulturalizmin alternativi özünü təcriddir. XXI əsrdə qloballaşan dünyada heç bir dövlət öz gələcəyini özünütəcrid prinsipləri əsasında qurmağa cəhd etməz (http: //www.president.az/articles/6390/print).

Ölkəmizdə multikulturalizmin inkişafı, əsrlərdən bəri toplanmış böyük tarixi təcrübənin xüsusi qayğı ilə əhatə olunması, zənginləşdirilməsi, cəmiyyətdə bu istiqamətdə qazanılmış unikal nailiyyətlərin beynəlxalq aləmdə təbliğinin gücləndirilməsi üçün dövlət başçımız İlham Əliyev tərəfindən 2014-cü il 15 may tarixində yaradılan ən uğurlu təsisatlardan biri, bəlkə də elə ən birincisi Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi oldu. Bu Mərkəzin yaradılması müasir dövrdə respublikamızda gerçəkləşdirilən dövlət siyasətinin tolerantlıq prinsiplərinə sadiq qalmasının bariz nümunəsidir. Bu qurum yarandığı vaxtdan ölkə başçısının apardığı siyasətə uyğun olaraq azərbaycançılıq məfkurəsinin, tolerantlığın və mədəni, dini, linqvistik müxtəlifliyin qorunmasını təmin edən, habelə Azərbaycanı dünyada multikulturalizm mərkəzi kimi tanıdan və mövcud multikultural modelləri fasiləsiz olaraq tədqiq və təşviq edən əvəzsiz bir təsisat oldu.

Yarandığı vaxtdan keçən iki ilə yaxın müddət ərzində Bakı Beynəlxalq Multikulturalizm Mərkəzi multikulturalizmin və tolerantlığın həyat tərzinə çevrildiyi Azərbaycan gerçəkliyinin mədəni, sosial, siyasi mahiyyətinin öyrənilməsi və təbliği mexanizminin hazırlanması, Azərbaycan Respublikasında mədəni-etnoqrafik müxtəlifliyin azərbaycançılığın inkişafına xidmət göstərməsi yollarının müəyyənləşdirilib gerçəkləşdirilməsi, Azərbaycan Respublikasında mədəni, dini müxtəlifliyin tolerant əsaslarının elmi təhlilinin aparılması və qorunub saxlanması yollarının müəyyənləşdirilməsi, müxtəlif bölgələrə aid mədəni irsin öyrənilməsi, onların müasir dövrdə ahəngdar inkişafının təmin edilməsi, vətəndaş cəmiyyətinin potensialından istifadə edərək tarix, mədəniyyət və dini abidələrin qorunub saxlanılması prosesinə dəstək verilməsi, multikultural həyatda müxtəlif bölgələrə aid mədəniyyətlərin bir-birinə təmas dərəcəsinin öyrənilməsi və təşviq edilməsi, aidiyyatı elmi qurumlarla əlaqəli şəkildə Azərbaycan Respublikasının müxtəlif bölgələrində qədim mədəniyyət izlərinin axtarılması (arxeoloji tədqiqatları "Tarix və mədəniyyət abidələrinin qorunması haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun olaraq təşkil edilməsi), mədəni, etnoqrafik irsin toplanıb elmi şəkildə öyrənilməsinin və qorunmasının həyata keçirilməsi, təhsil, mədəniyyət, elm və digər sosial sahələrdə

özünü göstərən, şəxsiyyətin mənəvi bütövlüyünün həmahəng inkişafına mane olan müəyyən çatışmazlıqların sistemli şəkildə aradan qaldırılması istiqamətində layihələrin gerçəkləşdirilməsi, müxtəlif dinlərə mənsub gənc din xadimlərinin peşəkar dini, dünyəvi biliklərinin artırılması istiqamətində tədbirlərin həyata keçirilməsi, Azərbaycan Respublikasının multikultural nailiyyətlərinin beynəlxalq mütəxəssislər tərəfindən öyrənilərək xarici ölkələrdə təbliğinin təmin edilməsi, şəxsiyyətin saflaşmasında, xalqlararası, dinlərarası qarşılıqlı hörmət və etimad münasibətlərinin yaranmasında xüsusi xidməti olan görkəmli yerli və xarici ölkə vətəndaşlarının qiymətləndirilməsi, təşviq edilməsi mexanizminin hazırlanıb həyata keçirilməsi, multikulturalizm üzrə dünya mütəxəssislərinin, eyni zamanda keçmiş və müasir siyasi, ictimai, elm, mədəniyyət, incəsənət xadimlərinin şəxsi təcrübələrinin təhlil edilməsi və yayılması və s. istiqamətlərdə xeyli uğurlu fəaliyyətlər göstərmişdir.

Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Azərbaycan multikulturalizminin, tolerantlığının mədəni, sosial, siyasi mahiyyətinin öyrənilməsi və təbliğinin gerçəkləşdirilməsi istiqamətində həyata keçirdiyi uğurlu layihələrindən biri də bu yaxınlarda işıq üzü görən "Azərbaycan multikulturalizminin qaynaqları" seriyasından "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabı oldu.

Kitab Azərbaycan multikulturalizmini çağdaş dünyaya bir model kimi təqdim edən ölkə başçımız İlham Əliyevin çıxışından verilən aşağıdakı epiqrafla açılır: "Multikulturalizm əsrlər boyu xalqımıza xas olan bir anlayışdır. Əsrlər boyu müxtəlif dinlərin, millətlərin nümayəndələri Azərbaycanda bir ailə kimi yaşamışlar".

Bəşəriliklə bağlı munis və dəruni hislərin, yüksək humanist ideyaların, insanlığa sonsuz sevgi aşılanmasının ədəbiyyatımız üçün hər zaman aparıcı mövzu olduğunu kitaba yazdığı "Həpimiz bir günəşin zərrəsiyiz!" başlıqlı ön sözdə akademik Kamal Abdulla dolğun və bədii şəkildə şərh edir: "Bəşəriyyəti bütöv kimi dərk etmək istəyi, ayrı-ayrı xalqları mənəvi xətlərlə birləşdirən amilləri aramaq ehtiyacı, dinləri bir-birinə yaxınlaşdırmaq cəhdi, müxtəlif dinlərin müqəddəslərinə eyni ehtiram, insanlara dininə görə deyil, dəyərinə görə qiymət vermə əxlaqı, hər kəsi mərhəmətə, şəfqətə, başqasının dərdinə acımağa dəvət, eşqin ən yüksək, ən ali hiss kimi dilindən, dinindən asılı olmadan bütün xalqlar üçün əsas həyat prinsipi olmasının tərənnümü və bir sıra digər bu kimi dəyərlər ədəbiyyatımızın dərin qatda pərvaz edən ruhunun göstəriciləridir. Cəsarətlə demək olar ki, minillik tarixə malik klassik ədəbiyyatımızın hər bir nümayəndəsi bu dəyərləri nəinki qəbul etmiş, hətta onları öz dünyagörüşünə cevirmişdir".

Ön sözdə, həmçinin Kamal Abdulla görkəmli ədəbiyyat nümayəndələrimizin – A.Şaiqin "Həpimiz bir günəşin zərrəsiyiz!" deməsini, M.Hadinin "qardaşız, qardaşız", ey insanlar!" deyə cəmi insanlığa xitab etməsini, H.Cavidin Gülbahar adlı qızcığaza dünyanın bütün insanlarını sevdirməsini, Mirzə Cəlilin kamançanın dili ilə qəlbi köz olan yüzbaşını ancaq nifrətlə yaşayan aciz və vəhşi düşmənə qarşı mərhəmətə səsləməsini, Seyid Əzimin "insan olmaq bir şəxsin müsəlman olub olmamasından asılı deyil!" söyləməsini nümunə gətirməklə multikultural dünyagörüşün, tolerant əhvalın əslində bütün zamanlarda ədəbiyyatımıza hakim kəsildiyini qeyd edir.

Ön sözdə akademik Kamal Abdulla Azərbaycan ədəbiyyatında təzahür edən bəşəri, humanist ideyaları və multikultural dəyərləri ümumiləşmiş şəkildə aşağıdakı kimi tezisləşdirmişdir: "1. Ayrı-ayrı dinlərə, dillərə mənsub xalqlara qarşı hörmət duymaq və bu xalqların adını ehtiramla çəkmək, onlara səmimi dostluq və sevgi münasibəti sərgiləmək ilk klassikərimizin, orta əsrlər və intibah dövrü şairlərimizin, maarifçi-demokrat yazarlarımızın yaradıcılığında xüsusi və önəmli yer tutur; 2. Poeziyamızda müxtəlif dinlərin müqəddəslərinə – İbrahimə, Musaya, Süleymana, Yəquba, İsa Məsiha, Məryəmə dərin hörmətlə müraciət edilməsi, onların həyat və əməlləri ilə bağlı Şərq poetikasının sehrli və füsunkar cığırlarında uyğun təşbeh və bənzətmələr qurulması, istər müqayisəli, istər müqayisəsiz bədii fiqurlar yaradılması artıq öz-özlüyündə multikultural və tolerant əhvalın bariz nümunəsi kimi diqqəti cəlb edir; 3. Başqa xalqlara məxsus alimlərə (Sokrata, Platona, Aristotelə, Evkilidə, Hippokrata...), yazarlara (Göteyə, Şillerə, Şekspirə, Hüqoya, Volterə, Russoya...) sonsuz ehtiramın təsviri də bir qədər yuxarıda qeyd edilən eyni əhvalın (tolerantlığın – N.Q.) göstəricisidir; 4. Ayrı-ayrı dinə və millətə mənsub olan gözəllərin vəsfi, onlara saf, coşqun məhəbbət izharı, bu yoldakı məhrumiyyətlər və cəfalar Qanturalı, Kərəm, Şeyx Sənan, Bahadır, Əli kimi aşiqlərin həyatını, əslində, gözəlləşdirmiş, hətta bəzən bədii faciəvi sonluqlar olsa belə, bu möhtəşəm sevgi simfo-

niyalarının əzəmətinə kölgə sala bilməmişdir; 5. Ədəbiyyatımızda başqa dillərə və məkanlara (ölkələrə, vilayətlərə, şəhərlərə) içdən gələn, səmimi münasibət hissinin təsviri öz dövrünün ictimai fikrinin bədii ifadəsi olmaqla yanaşı, eyni zamanda, öz dövrünün ictimai fikrini yönləndirmək cəhdinin təzahürüdür."

Bununla yanaşı, akademik Kamal Abdulla kitaba yazdığı ön sözdə Ulu Öndər Heydər Əliyevin xalqımızın multikultural və tolerant dəyərlərini daim yaşatmaq naminə onun siyasi əsaslarını sistemli şəkildə qurduğunu, bu işi siyasi bəyanat və sənədlərdə geridönməz şəkildə həyata keçirdiyini vurğulamış və bu gün də Azərbaycan Prezidenti İlham Əliyevin həmin siyasi dəst-xəttə sadiq qalaraq 2016-cı ili Azərbaycanda "Multikulturalizm ili" elan etməsini xalqımızın multikultural dəyərlərinin yaşadılması və inkişaf etdirilməsi istiqamətində əhəmiyyətli addım kimi dəyərləndirmişdir.

"Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabında ümumilikdə yetmiş dörd görkəmli Azərbaycan ədibinin əsərlərindən multikultural dəyərləri özündə əks etdirən nümunələr yer almışdır. Kitabda Azərbaycan ədəbiyyatının böyük söz ustadlarından Qətran Təbrizinin, Xaqani Şirvaninin, Nizami Gəncəvinin, Şeyx Mahmud Şəbüstərinin, Əssar Təbrizinin, Qazi Bürhanəddinin, İmadəddin Nəsiminin, Şah İsmayıl Xətainin, Məhəmməd Füzulinin, Saib Təbrizinin, Abbasqulu Ağa Bakıxanovun, Mirzə Şəfi Vazehin, Seyid Əzim Şirvaninin, Mirzə Ələkbər Sabirin, Nəriman Nərimanovun, Abbas Səhhətin, Hüseyn Cavidin, Üzeyir Hacıbəyovun, Yusif Vəzir Çəmənzəminlinin, Əhməd Cavadın və digər ədiblərin əsərlərindən, aşıq ədəbiyyatının nümayəndələrindən Aşıq Abbas Tufarqanlının, Aşıq Ələsgərin, Aşıq Pərinin, Aşıq Qurbaninin, Xəstə Qasımın, Aşıq Alının qoşmalarından parçalar verilmişdir. Kitabda verilən nümunələrlə yanaşı, həmçinin o nümunələr haqqında kitab tərtibçilərinin müfəssəl şərhləri də yer almaqdadır.

Milli ədəbiyyatımızda xalqımızın hər zaman digər xalqlarla, həmçinin erməni xalqı ilə normal qonşuluq, qarşılıqlı hörmət və anlaşma şəraitində yaşadığını özündə əks etdirən xeyli sayda bədii mətnlərin olduğu da məlumdur. Sözügedən kitabda bir çox bu silsilədən olan bədii nümunələr nəzər-diqqətə çatdırılır, məsələn: "Şuşa qəribə şəhərdir... Müsəlmanlarla ermənilər orada barış içində gül kimi gün keçirib yaşayırdılar" (s.274, "Əli və Nino"dan), "Erməni, rus vətəndaşımız, bir məişət yolunda yoldaşımız" (s.215, Məhəmməd Hadi), "Bir müsəlman, bir erməni həmrah, oldular hər ikisi azimi-rah" (s.160, Xürrəmi)" və s. Bu nümunələrdə Azərbaycan ədəbiyyatından dünya ədəbi mühitinə təqdim olunan multikulturalizm və tolerantlıq ideyasının bədii təzahürü diqqəti cəlb edir. Həmçinin bu nümunələr qardaşlığın təbliği istiqamətində Azərbaycan türkünün yüksək əxlaqının, bəşəriliyinin, dünyəviliyinin bədii ifadəsini əyani şəkildə təcəssüm etdirir.

"Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabında, həmçinin, zaman-zaman mövcud olmuş dini ayrı seçkiliyə qarşı kəskin şəkildə etiraz hisslərini özündə əks etdirən Azərbaycan ədəbiyyatı nümunələri də yer almışdır. Məlum olduğu kimi, bu nümunələrin əksəriyyətinin baş qəhrəmanı olan, xristian qızlarına aşiq olmuş azərbaycanlı-müsəlman gənclər öz sevdiklərinə qovuşmaları yolunda olmazın əzablara məruz qalırlar. Sözügedən kitabda yer almış "Kitabi-Dədə Qorqud"un "Qanturalı boyu", Qurban Səidin "Əli və Nino" romanı, "Əsli-Kərəm" dastanı, XVIII əsrə aid anonim "Şeyx Sənan" mənzum hekayəti, Nəriman Nərimanovun "Bahadır və Sona" əsərləri bu qəbildəndir. Maraqlı bir cəhət də odur ki, bu əsərlərin hər birində aşiq olan və sevgisi uğrunda mübarizə aparan şəxslər müsəlman-oğlan-gənclər və onların sevgisinə etiraz edən qütb isə, əsasən, xristian-atalardır. Bu əsərlərdə hər iki tərəfdən olan gənclər "biri-birini ürəkdən sevsələr də, fanatizm, gerilik və din xadimlərinin ifrat mühafizəkar baxışları onların bir-birinə qovuşmasına mane olur" (s.201). Mövcud əsərlərin qəhrəmənları öz sevgiləri uğrunda ölümə belə getməkdən çəkinmirlər. Və əksər hallarda bu əsərlər elə həmin qəhrəmanların ölümü ilə başa çatır. Bu əsərlərdə qəhrəmanlar sonda öz sevgiləri uğrunda olmüş olsalar da, sevginin dünyada bütün firqələrdən, məzhəblərdən üstün olduğunu sübuta yetirirlər. Öz mübarizələri ilə onlar, sanki, bu sevgiyə etiraz edənlərə əsl dinin də mahiyyətində elə sevginin dayandığını bildirməklə, sanki, onları utandırmış olurlar. Və o qəhrəmanlar öz ölümləri ilə ifrat düşünən cəmiyyətlərə qarşı öz etirazlarını kəskin şəkildə bildirir, belə mürtəce düşüncələrə son qoyulmasını tələb edirlər.

Sevmək! Din fərqinə, dil fərqinə, məzhəb fərqinə baxmadan sevmək! Budur, dünyaya nümayiş edilməli əsl tolerantlıq nümunəsi, əsl ümumbəşəri dəyər! Budur, əsl multikulturalist dəyərləri zirvələrə ucaldan Azərbaycan ədəbiyyatı!

"Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabının əsas məziyyətlərindən biri də odur ki, bu kitaba indiyədək ədəbi yaradıcılığı orta statistik Azərbaycan oxucusuna çox da tanış olmayan bir çox ədiblərimizin adları daxil edilmiş, onların həyat və yaradıcılıqları haqqında məlumatlar verilmiş, onların yaradıcılığındakı bəşəri, humanist, multikultural ideyalar geniş oxucu auditoriyasına təqdim edilmişdir. Suli Fəqih, Şahqulu bəy, Rəhməti Təbrizi, Molla Camal Rənci, Qövsi Təbrizi, Nişat Şirvani, Mirzə Nəsrulla Didə, Mir Mehdi Xəzani, Xürrəmi, Mirzə Həsib Qüdsi, İsmayıl bəy Nakam, Məmo bəy Məmai, Mücrim Kərim Vardani kimi ədiblərin multikultural dəyərləri özündə əks etdirən, dünyaya sülh, barış, qardaşlıq sevgi mesajlarını verən yaradıcılıqları ilə geniş oxucu kütləsi ilk dəfə olaraq tanış olmaq fürsətini buradan əldə edir.

Göründüyü kimi, "Azərbaycan multikulturalizminin ədəbi-bədii qaynaqları" kitabı hələ qədim zamanlardan bugünədək Azərbaycanda mövcud olmuş yüksək multikultural dəyərləri, tolerantlıq şəraitindəki yaşamı, xalqlar arasında dostluq, qardaşlıq və bərabərlik prinsiplərinin daim qorunduğunu əyani şəkildə nümayiş etdirməkdədir. Elmi redaktor akademik Kamal Abdullanın kitaba yazdığı "Son söz əvəzi"ndən isə məlum olur ki, "Azərbaycan multikulturalizminin qaynaqları" seriyasından daha iki nəşr: "Azərbaycan multikulturalizminin elmi-fəlsəfi və publisistik qaynaqları", "Azərbaycan multikulturalizminin siyasi və hüquqi qaynaqları" əsərləri də yaxın vaxtlarda oxucuların ixtiyarına veriləcəkdir.

Ümid edirik və inanırıq ki, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin bu nəşri və bu seriyadan olan gələcək nəşrləri yaxın zamanlarda müxtəlif dillərə tərcümə olunaraq Azərbaycan multikulturalizmi ideyalarının dünya miqyasında layiqli şəkildə təbliğ edilməsi işində dəyərli məxəz rolunu oynayacaqdır.

## Xülasə

"Multikulturalizm" sözü – çox mədəniyyətlilik, bir çox fərqli mədəniyyətlərin bir arada yaşadığı cəmiyyət mənasını ifadə edir. O, ayrıca götürülmüş ölkədə və ya bütövlükdə dünyada müxtəlif millətlərə və məzhəblərə məxsus insanların mədəni müxtəlifliklərinin qorunması, inkişafı və harmonizasiyasına, azsaylı xalqların yaşadıqları dövlətlərin milli mədəniyyətinə inteqrasiyasına yönəldilmiş humanist və demokratik nəzəriyyə, yaxud ideologiyadır.

Məlum olduğu kimi, multikulturalizm xalqımıza doğma olan bir anlayışdır. Əsrlər boyu müxtəlif xalqların, dinlərin nümayəndələri Azərbaycanda bir ailə kimi, sülh, əmin-amanlıq, qarşılıqlı anlaşma şəraitində yaşamışlar.

Məqalədə multikulturalizmin bir prioritet və strateji istiqamət kimi daim Azərbaycan Prezidentinin diqqətində olmasından və eyni zamanda onun daha da inkişaf etməsini təmin etmək üçün atılan addımlardan, görülən işlərdən bəhs edilmişdir.

## Резюме

Слово "мультикультурализм" означает сохранение различных культур или культурной самобытности в пределах единого общества. Эта гуманистическая и демократическая теория или идеология направлена на защиту, развитие и гармонизацию различных наций и концессий (религиозных направлений), живущих в отдельно взятой стране, или в мире в целом, а также интеграцию малочисленных народов в национальную культуру государства, в пределах которого эти народы осуществляют культурную и бытовую жизнедеятельность.

Как известно, мультикультурализм является родным и близким понятием для нашего народа. Так как, на протяжении многих веков представители разных народов и религий жили в Азербайджане как единая семья, в атмосфере мира, спокойствия, гармонии и взаимопонимания.

В статье говорится о том, что мультикультурализм остается в центре внимания президента Азербайджана, как приоритетное и стратегическое направление, а также речь идет о проделанных работах для дальнейшего развития мультикультурализма в нашей стране.

**Summary**

The word “multiculturalism” means the preservation of different cultures or cultural identities within a unified society. It is the humanistic and democratic theory or ideology directed to the protection, development and harmonization of different nations and sects living in separate country or in general, in the world, to the integration of the national culture of the states where the limited nations live.

As it is known multiculturalism is the native conception to our nation. During the centuries the representatives of different nations and religions have lived in Azerbaijan as a family in a peace.

In the article it is said about the multiculturalism as a priority and strategic direction in the attention of Azerbaijan President and at the same time its further steps to ensure its development and the done works.

## BEŞİNCİ BÖLMƏ
*Azərbaycan folklorunda dini tolerantlıq*

**Qalib Sayılov, filologiya üzrə fəlsəfə doktoru**
**AMEA Folklor İnstitutu**
**Azərbaycan, Bakı**

# İSLAMDA TOLERANTLIQ VƏ BİRGƏYAŞAMIN KANONİK SPEKTRİ

***Açar sözlər:*** *epoxal, inteqrasiya, etnik, islam, multikulturalizm*
***Ключевые слова:*** *эпохаль, интеграция, этнический, ислам, мультикультурализм*
***Key words:*** *an epoch-making, integration, ethnic, Islam, multiculturalism*

Epoxal dönəmlər dəyişdikcə sivilizasiyalar da "mənəvi özünüdərkin sınağından" keçir. Etnik-mədəni, mənəvi-sosial dəyişmələr isə qlobal kontekstdə baş verir. Dəyişmələr və inteqrasiyalar tarixinə nəzər salsaq, doktrinöncəsi özünəqayıdışın maraqlı tiplərinin şahidi olarıq. Belə ki, yüzillərin sonunda böyük dəyişmələrin baş verəcəyi dönəmlərdə "dünya gücləri" yeni etnik, milli və dini nəzəriyyələr, konsepsiyalar düzənləyirlər. Dizayn etdikləri kodeksləri əvvəlcə elm kimi millətlərə və xalqlara "sırıyır", daha sonra həmin nəzəriyyələri ideoloji savaş müstəvisində önərirlər.

İslamın dünyaya bəxş etdiyi insan haqları, zimmi haqları, bəşəri ədalət kimi nümunəvi əxlaqı mənimsəyib, öyrənib və öyrəndikdən sonra "özününküləşdirib", məqsədinə və mənafeyinə uyarlaşdıraraq bu və digər adlarla piyasaya gətirirlər. "Banan ölkələr" adlanan, ikinci dərəcəli hesab olunan, əsasən də müsəlman ölkələrinə "ixrac" olunan bu "elm" təəssüflər olsun ki, elmdə ən yüksək adları mənimsəyən "ziyalılar" tərəfindən bəh-bəhlə qarşılanır, mahiyyəti anlamadan onlar tərəfindən təşviq olunur.

Son dönəmlər humanitariyada tolerantlıq, multikulturalizm və b. isimlərlə gündəmi məşğul edən yeni konseptlər prioritet hesab oluna bilər. Lakin "demokratiyanın lokomativi" – qərbin elmi podiuma gətirdiyi bu "yenilik" əslində islamın təməllərindən biridir və 1400 il öncə İslam Peyğəmbəri Məhəmməd s.a.s. tərəfindən Allah c.c. nin əmri kimi söylənilmişdir. Bu həqiqəti görməmək mənəvi korluqdur.

Biz islamı öyrənsək, müxtəlif dinlərin və inancların daşıyıcılarına münasibəti görmüş olarıq.Yeganə din islamdır ki, heç bir zora ehtiyac görülmür və insanlara nümunəvi əxlaqı təlqin edir. Bu gün multikulturallıq deyilən anlayışın düzgün anlamı islamın içərisindən gəlməsi ilə səciyyələnir. Səriştəsizlikdənmi, savadsızlıqdanmı bilmirəm, bəzən bunu islama qarşı qoymaq istəyənlər mahiyyəti dərindən dərk edə bilmirlər.

Darvinizm mahiyyətini 40-50 il ərzində itirdi. "Dinə qədərki tarix anlayışı" da elmdə öz yerini saxlaya bilmədi. Deməli, din insanlıq tarixi ilə, bəşərin mövcudluğu ilə həmyaşdır. Din bütün zamanlarda mübahisə mövzusu olmuşdur. Mübahisənin əsas tərəfləri isə dindarlar və ateistlərdir. Ən sonda ateistlər də Allahın varlığını təsdiq etdilər. Din nədir? İman nədir? Küfr nədir? Əvvəlcə bu ifadələrə aydınlıq gətirilməlidir. Dinə münasibətə fərqli mədəniyyətlərin və cəmiyyətlərin irəli sürdükləri fikirləri nəzərdən keçirək. Tümer Günay "Din" adlı əsərində :- "Din şüurlu hər kəsi, nəbinin bildirdiyi gerçəkləri mənimsəməyə çağıran ilahi bir qanundur" söyləmişdir. Deməli, din ilahi bir qanundur, insanların dizayn edəcəyi, fikirləşə biləcəyi amil deyildir.

Bəzi sapı özümüzdən olan cahillər "islamafobiyadan" söz açaraq yanlış istiqaməti anladırlar. İslam dininə məxsus olan birisinin islam fobiyasından bəhs etməsi nə dərəcədə məntiqə uyğundur? Nədir islam fobiyası? Qeyri-müslümlərin işğalçılıq siyasətinə don geyindirmək, haqsızlıqlarına haqq qazandırmaq oyunundan başqa bir şey deyildir. Yadınızdadırsa, vaxtilə ermənilər bu termini daha çox işlədirdilər. Bunlar hər hansı bir yadellinin müsəlman ölkələrinə saldırı öncəsi informasiya dövriyyəsinə daxil etdiyi ifadələrdir. Baxaq görək, islamda ksenofobiyaya meyl varmı? İslam peyğəmbəri haqqında İncilə müraciət edək. "... Allahın səltənəti sizdən alınacaq, Onun meyvələrini yetişdirəcək bir xalqa veriləcək. Bu daşın üstünə yıxılan parçalanacaq, o da kimin üzərinə düşsə, onu toza döndərəcək" (**İncil, Təkvin 21**).

"Rəbb sizə başqa bir Faraqlit göndərəcəkdir, ta ki, daima sizinlə birgə olsun" (**Matta,42**).

"O sizə hər şeyi öyrədəcək və sizə söylədiyim hər şeyi yadınıza salacaq" (**Yuhanna, Bab:14, ayə 15**).

"...Mən getməsəm, Faraqlit gəlməyəcək... Və O gələndə günah, yaxşılıq və hökm üçün dünyaya hakim olacaq" (**Yuhanna, Bab:14, ayə7-8**).

Yuxarıdakı nümunələrə diqqət etsək, Allah Rəsulu Məhəmmədin İncildəki kodlarını görərik. Sonuncu ayələrdə Faraqlit kimi keçən isimin əsli yunan olan Priklitosdur, ərəbcə tərcüməsi Əhməd kəlməsinin qarşılığıdır ki, Qurani-Şərifdə Peyğəmbərimizin İncildəki adının Əhməd olduğu xəbər verilir (**Quran: Saf surəsi, 61,1**).

Çağdaş nəzəriyyəçilərin "islamafobiyası"nın uydurma olduğu bu nümunələrdən aydın görünmürmü?

İslamın nuru Qurani-Kərim qeyri-müsəlmanların haqqının qorunması alanında nədən bəhs edir. Baxaq görək burada bir fobiya vardır, və ya islama qarşı haqsız böhtanlar nədən qaynaqlanır.

Allah-Taala Quranda belə buyurur:

"Allah din xüsusunda sizinlə savaşmayan və sizi yurdunuzdan çıxarmayan kimsələrə yaxşılıq etməyinizi və dəyər vermənizi yasaqlamaz. Allah qədir bilənləri sevər. Allah sadəcə, din xüsusunda sizinlə savaşmış, sizi yurdunuzdan çıxarmış və çıxarılmanıza dəstək vermiş kimsələrələ dostluğunuzu yasaq etdi. Onlara yaxınlıq edənlər zalımlıq etmiş olarlar" (**Mümtəhanə, 60, 8-9**).

Quran qeyri-müsəlmanlara qarşı ədalətli olmanı tövsiyə edir, amma, 1) dinimizdən ötrü bizimlə savaşanları;

2) vətənimizə basqın edənləri;

3) bizə qarşı savaşanlara dəstək verənləri

Bu cizgiləri tapdayanlarla dostluq edilməz.

Bizə qarşı savaşanlara Allah belə əmr etmişdi:

"Sizə qarşı savaş açanlarla Allah yolunda savaşın. Haqsız bir kimsəyə təcavüz etməyin. Allah haqsız savaşanları sevməz. Təcavüzkara qarşı döyüşün, onları tutduğunuz yerdə öldürün. Sizi çıxardığı yerdən siz də onları çıxarın. Fitnə öldürmədən betərdi" (Bəqərə, 2).

İslamda birgə yaşamaq və digər konfeksiyalara münasibət olduqca dəyərli və başqa dinlərə nümunə olacaq bir durumu nümayiş etdirir. Məlum olduğu kimi islamda iki əsas bayram vardır ki, hər ikisinin də mahiyyəti bəşəri və humanitar səciyyəsilə təşviq olunmalıdır. Bu gün islam dünyasının sevinclə qeyd etdiyi Qurban bayramının tarixi bəşər tarixi qədər qədimdir. Tanınmış ilahiyyətçi alim Əhməd Niyazovun ətraflı təqdimatında Qurbanın mahiyyəti tolerantlıq baxımından elmi dövriyəyə işıq tutmaqdadır. Alim qeyd edir ki, Qurban ibadətində əsas olan üsuluna və şərtlərinə uyğun bir heyvanın ibadət və qulluq məqsədilə kəsərək qanının axıdılmasıdır. Heyvanın kəsildiyi andan etibarən möminin bu ibadəti yerinə yetirilmiş hesab edilir. Uca Allah buyurur:

"Onların nə əti, nə də qanı, əlbəttə, Allaha çatmaz. Allaha çatacaq olan sizin təqvanızdır" (**Həcc, 22-37**)

Həm ayə, həm də Hədisi-şərifə görə qurban ibadətinin yerinə yetirilmə və məqbul olmağı kəsim anıdır. Kəsilmiş qurbanlıq heyvanın ətinin paylanması bu ibadətin rüknlərindən deyil. Ona görə onun ətindən varlı, yoxsul, müsəlman və qeyri-müsəlman hər kəsə verilə bilər. Müsəlman hansı ölkədə yaşayırsa-yaşasın, kəsdiyi qurbanın ətindən müsəlman olmayan yəhudi, xristian və s. qonşularına da verilə bilər.

Həzrəti Ömər (Allah ondan razı olsun) da qurban kəsdikdə ilk olaraq qonşuluqda yaşayan müsəlman olmayana göndərmişdir. Hətta əmin olmayana qədər ki, qurban payı qonşuya çatmayıb, özü yeməzmiş. Peyğəmbər (s.a.s.) də bir çox yəhudi ilə ünsiyyət qurmuşdu. Yəhudi Abdullah ibn Səlam, peyğəmbərliyindən əmin olmaq üçün Həzrəti Məhəmmədlə (s.a.s.) söhbət etmiş, məhz bu söhbətin nəticəsi olaraq islamı qəbul etmişdi.

Tarixdə "Mədinə Vəsiqəsi" adı ilə tanınan məşhur bir müqavilə var ki, bu müqavilə də islamın daha tolerant, müxtəlif inanclara dözüm və sayğısının bariz nümunəsidir. Hələ heç bir toplum özündən olmayanlarla belə ədalətli davranmamşdır. Yalnız islam dini və onun peyğəmbəri bütün bəşərə ədalətli olmuşdur.

"Mədinə Sənədi" yəhudilərə əmin-amanlıqla yaşama və mülkiyyət hüququ vermişdi. Müsəlman olmamaları onların hüquqlarını məhdudlaşdırmırdı. "Mədinə Sənədi"nə əsasən müsəlmanlarla

qeyri-müsəlmanlar, o cümlədən yəhudilərin arasında əlaqələr müəyyənləşdirilmiş, yəhudilər də İslam dövlətinin vətəndaşları hesab edilmişdilər. Bu gün isə yəhudilər Fələstində islam torpaqlarını işğal edir və minlərlə müsəlmanı qətlə yetirirlər. İndi fobiya haradadır. İslam fobiyadır, yoxsa, islama qarşı fobiya düşünülərək həyata keçirilir.

Mədinə sənədinə görə yəhudilər sərbəst etiqad və dövlət tərəfindən himayə edilmə hüququna sahib idilər.

İslam tolerantlığında həm məzhəblərarası, həm də dinlərarası birgəyaşamdan bəhs edilir. Məşhur islam alimi Əbusəttar İbrahim əl- Heyti "Fərdin özü-özü ilə və başqası ilə dialoqu" əsərində yazır ki, əgər dinlər və mədəniyyətlərarası dialoq bir çoxlarına müasir həyatın, şəraitin diqtə etdirdiyi zərurətdirsə, islama görə bu, dini vəzifə və mükəlləfiyyətdir. Allah-Təala bu vəzifəni müsəlmanlara ona görə yükləyib ki, onlar bəşəri cinsin birliyi çərçivəsində həmrəylik və tolerantlıq dəyərlərini yaşasınlar.

İslamın bəşəri bir din olmasını, nəticədə bütün insanların islama gəlişini qeyri-müsəlman alimləri dəfələrlə öz cahanşümül əsərlərində qeyd etmişlər. Hətta bir şox ağıllı və qeyri-dinə mənsub insanlar islamın mahiyyətini başa düşdükdən sonra islam dinini qəbul etmişlər.

"Evry Man" ensklopediyası islam və müsəlmanlar haqqında, onların multikulturallığa münasibətini şərh edərək yazır ki, islamiyyət həyatın bütün məsələləri üçün qaydalar qoyur. O, qüsursuz bir qanunlar toplusudur. Bəli, İslam əxlaq normasıdır. O, bütün bəşərə göndərilib, ona görə ki, fani dünyanın malına görə insanlar vəhşi cilidini soyunub atsınlar və bir–birinə qarşı - insanlığa qarşı ədalətli olsunlar.

## Xülasə

Məqalədə göstərilir ki, yeganə din islamdır ki, burada heç bir zora ehtiyac görülmür və insanlara nümunəvi əxlaq təlqin edilir. Bu gün multikulturallıq deyilən anlayışın düzgün anlamı da məhz islamın içərisindən gəlməsi ilə səciyyələnir.

## Резюме

В статье указывается на то, что Ислам является единственной религией, в которой нет места насилию и внушает людям образцовую мораль. Сегодня правильное значение понятия мультикультурализм характеризуется его происхождением от сущности Ислама.

## Summary

In the article it is said that Islam is the only religion that there is no need for violence and suggests the people the exemplary moral. Today the correct meaning of the concept multiculturalism is characterized with coming from Islam.

## Ədəbiyat:

1. "Qurani - Kərim" və Tərcüməsi, Ankara,2016
2. İslam Peyğəmbəri, Bakı.2013
3. Muammar Öztürk, Mən inanıram, Bakı-2013
4.Abdulaziz Bayındır, Kuran işığında doğru bildiyimiz yalanlar, İstanbul-2014
5.Əhməd Niyazov, Aktual Dini Məsələlər, Bakı-2014
6.Yaşar Qarayev, Min ilin sonu, Bakı-2002
7.Mühammüd Halife Hasan. Dialoq. Qahirə-2010
8. Əhməd əl-Qədidi. İslam və sivilizasiyaların mübarizəsi. Doha-1995
9.Anna Mari Şimel, İslam bəşəriyyətin dinidir. Doha-2000
10.M. Abdullah Draz , Din və Allah inancı. İstanbul-1974
11.Aydın Mülayim. Kuran da Din adamları. İstanbul-2016
12.Fəzlullah Vəzin. Qurana görə dialoqun əsas prinsipləri. Karaçi-2008

**Dadaş Əliyev, dissertant**
**AMEA Folklor İnstitutu,**
**Azərbaycan, İsmayıllı, Lahıc**

# LAHICLARIN FOLKLORUNDA FƏRQLİ MƏDƏNİYYƏT ELEMENTLƏRİ

***Açar sözlər:*** *lahıclar, folklor, fərqli mədəniyyət, bilinqvizm, etnopsixologiya*
***Ключевые слова:*** *этносреда, лагичи, фольклор, различные культуры, билингвизм, этнопсихология*
***Key words:*** *Lahijs, folklore, the different culture, bilingual, ethno psychology*

Tarixi-coğrafi baxımdan maraqlı rayonlardan biri olan İsmayıllı, həm də milli-etnik cəhətdən də çox rəngarəngdir. İsmayıllı etnomühitinin əlvanlığı, onun tarixinin qədimliyi bura müxtəlif zamanlarda fərqli etnosların məskunlaşmağa gəldiklərindən və təsərrüfat fəaliyyəti üçün olduqca əlverişli təbii imkanların mövcudluğundan şərtlənir. Rayonda azərbaycanlılarla yanaşı, lahıclar, tatlar, ləzgilər, haputlar, molokanlar, məshəti türkləri dinc yanaşı yaşayırlar. İsmayıllı ərazisindəki 109 yaşayış məntəqəsində yaşayan əhalinin milli-etnik tərkibini araşdırarkən aşağıdakılar ortaya çıxır:

1. İsmayıllı rayonu ərazisində yaşayan 84 min (2015-ci ilin məlumatı) sayca daha çox azərbaycanlılardır;
2. rayonda sayca ikinci yerdə gedən milli etnik birlik tatlar və onların xüsusi qolu hesab edilən lahıclardır. Ən mühüm yaşayış məntəqələri Lahıc qəsəbəsi , Ərəgit, Gəndo, Namazgah, Mulux, Qoydan, Müdrüsə, Nanıc, Kənəə, və s.-dir. Bu kəndlərin sayı 20-ə yaxındır;
3. Əhən, Zərnava, Gideyli, Zarat, Buynuz, Həftəsov, Brovdal, Ağbulaq, Çandahar, Dvoryan və s. kəndlərdə tatlar yaşamaqdadır;
4. ləzgilər isə Qurbanəfəndi, İstisu, Sumağallı, Qalacıq, Uştalqışlaq, Çəmənli, Ruşan, Qalınçaq, Qalagah,Vəng kəndlərinin əsas əhalisi sayılırlar;
5. haputlular isə Mollaisaqlı və Hacıhətəmli kəndlərində yaşayırlar;
6. molokanlar yalnız İvanovka kəndində yaşayırlar;
7. bundan əlavə, rayonda sayı çox az olan mesheti türkləri, kürdlər və dağ yəhudiləri azərbaycanlılarla eyni kəndlərdə kompakt şəkildə məskunlaşıblar;
8. rayon ərazisində İsmayıllı şəhəri, Soltankənd, Topçu, Təzəkənd və İvanovka kəndləri kimi yaşayış məntəqələri var ki, orada bir neçə etnosun nümayəndələri məskunlaşmışlar.

Hər bir etnos məskunlaşdığı bu əraziyə və onun təbii-coğrafi şəraitinə uyğun təsərrüfat fəaliyyətini qurmuş, öz milli-etnik identikliyini qorumağa çalışmaqla, həm də yanaşı yaşadığı digər millətlərdən uyğun olan adət-ənənələri qəbul etmişdir. Bütün bunlar ona gətirib çıxarmışdır ki, İsmayıllı ərazisində eyni yaxud fərqli yaşayış məntəqələrində yaşamış fərqli etnik birliklər heç vaxt milli-dini zəmində münaqişələr olmamış, əksinə onlar bir-birinə elə qaynayıb-qarışmışlar ki, aralarındakı adi qonşuluq , sadəcə insani münasibət qohumluq əlaqələrinə çevrilmişdir.

Bununla belə, İsmayıllı etnomühitini zənginləşdirmiş hər bir etnosun təkcə varlığı ilə deyil, həm də öz dili, dini inancları , adət-ənənələri, məişəti və özəllikləri, öz mədəniyyəti və onun tərkib hissəsi olan söz və musiqi folkloru da yaranmışdır. Bunu da qeyd etmək lazımdır ki , hər bir etnos öz mədəniyyətini yaşadığı coğrafi şəraitdən, dini inanclar sistemindən, məşğuliyyət növlərindən və əsrlərlə formalaşmış milli psixologiyasından asılı olaraq yaradır və nəticədə hər bir millətin yaratdığı mədəniyyətdə onu digərlərindən fərqləndirən xüsusiyyətlər ortaya çıxır.

Polietnik Azərbaycan cəmiyyəti üçün səciyyəvi olan İran, türk, Qafqaz və slavyan mənşəli etnosların da məskunlaşdığı İsmayıllı rayonu folklorşünaslıq müstəvisindən öyrənilmə baxımından çox əhəmiyyətli hesab edilməlidir. Belə maraqlı azsaylı xalqlardan biri də İsmayıllının Lahıc qəsəbəsi və onun ətrafında məskunlaşmış lahıclardır.

Lahıcın coğrafi mövqeyi və qədim tarixi kökləri aspektindən rayonun ən maraqlı ərazisi hesab olunması qeyd olunmalıdır. Belə ki, Qafqaz Albaniyasının ən əhəmiyyətli vilayəti olmuş Girdiman knyazlığı ərazisində strateji cəhətdən əlverişli mövqedə yerləşmiş Lahıc dörd tərəfdən keçilməsi çətin olan dağlarla əhatə olunduğu üçün düşmən hücumlarından qorunmaq nisbətən asan idi. Girdiman knyazlığında əhəmiyyətli məntəqələrdən sayılan Lahıc Albaniyanın süqutundan sonra

Lahicanşahlıq yaxud Layzanşahlıq adlı kiçik feodal dövlətinin inzibati mərkəzinə çevrilir, amma bu çox sürmür, tezliklə bu vassal dövlət Şirvanşahlığa tabe olur.

Lahıc istər Şirvanşahlar, istər Osmanlı, istər Şirvan xanlığı, istər çarizm, istərsə də Sovet hakimiyyəti illərində Dağlıq Şirvan üçün heç vaxt əhəmiyyətini itirməmiş və bir çox karvan yollarını keçdiyi və zaman keçdikcə sənətkarlığın və ticarətin inkişaf etdiyi bir orta əsr feodal şəhəri kimi tanınmış və həmişə öz əhəmiyyətini qoruyub saxlamışdır.

Hazırda Azərbaycan xalq sənətkarlığının, özünəməxsus memarlıq üslubunun və bu ərazidə kompakt şəkildə əsrlərlə yaşamış lahıcların adət-ənənələrinin qorunduğu Lahıc, həm də mühüm turizm məkanı sayılır. Əkin və heyvandarlıq üçün heç də əlverişli imkan olmadığına görə Lahıcda daha çox xalq sənətləri yayılmış və 40-dan artıq növü inkişaf etmişdir. Bu sənətlərin arasında ən geniş yayılmış və inkişaf etmişi misgərlik sənətidir. Misgərlik sənəti o dərəcədə inkişaf edir ki, başqa sənət novlərinin də təşəkkül tapmasına təkan verir və nəticədə dəmirçilik, qalayçılıq, kömürçülük, çarvadarlıq, səhragərdlik və s. digər köməkçi sənətlər də yerli əhalinin əsas məşğuliyyətlərinə çevrilir. Lahıcın ən böyük sərvəti burada əsrlərlə yaşayan lahıclar və onların yaratdıqları maddi və mədəni abidələr, o cümlədən əsrlərin arxasından bu günümüzə gəlib çıxan qiymətli folklor nümunələridir.

Görkəmli folklorşünas P.Əfəndiyev demişkən, Azərbaycanın özü qədər qədim olan folkloru "əsrlər boyu xalqın kollektiv əməyinin məhsulu olan zəngin bədii sənət inciləri xəzinəsidir". Folklor həm də bəzi tədqiqatçıların düşündüyü kimi, sadəcə asudə vaxtın məhsulu olmayıb rus yazıçısı A.Tolstoyun sözləri ilə desək, "xalqın ləyaqəti və ağlı" olub. Bu ədəbiyyat xalqın mənəvi simasını yaratmaqla onu möhkəmləndirir, onun tarixi yaddaşı və qəlbinin bayram libasları kimi onun əməyi və ata-babalarına hörməti ilə bağlı müəyyən adət-ənənələrlə və mərasimlərlə keçən ölçüb-biçilmiş həyatını dərindən mənalandırırdı".

Lahıc folkloru da dünya və Azərbaycan folkloruna xas olan əksər xüsusiyyətləri özündə daşımaqdadır. Odur ki, əvvəlcə ənənəvi epik və lirik janrlardan, mərasimlərin müxtəlif növlərindən söz açmaq istərdim.

Xalq arasında dolaşan mif, əfsanə və rəvayətlərdə Lahıcın tarixi, müxtəlif yer adları, tarixi və dini şəxsiyyətlərlə bağlı deyimlər əsas yer tutur.Bunlardan biri "Lahıc" sözünün yaranmasıilə bağlıdır. Söyləyirlər ki, günlərlə davam edən leysan yağışından sonra güclü sel burada yerləşən La şəhərini basır, camaat qaçıb dağlara çıxır ,oradan La şəhərinin məhv olunmasını görərək "La heç, La heç" deyirlər. O vaxtdan buranı "Lahıc" – deyə adlandırırlar. Yaxud cin, qulyabanı, xalq arasında "çırəncinə" yaxud "məməbədüş (lahıcca "döşləri çiynində)" adlanan mifik varlıqlarla bağlı deyimlər indi də dolaşır. Bu məxluqlar haqqında ancaq yaşlı insanlar danışa bilirlər. 82 yaşlı Lahıc sakini Babayeva Qızılnaz nəql edir ki ,Səriyyə adlı qonşularını gecə vaxtı kimsə öz adı ilə çağırmış, gündüz belə çətin keçilən yolları keçib bir talaya gəlib çıxarmış, burada ocaq qırağında çalıb – oxuyan xeyli adamı görmüşdür. Həmin anda başqa adamların təcrübəsindən istifadə edərək "Bismillah" deməsi ilə hər şey ətrafda yox olur. Diqqətlə baxanda kənddən 2-3 km uzaqlaşdığını və tək-tənha qaldığını görür, təbii bir qorxu hissi ilə səhərə yaxın evinə qayıdır. Yaxud başqa bir Lahıc sakini Əlimərdanova Gülüstan nəql edirdi ki, onun nənəsinin dediyinə görə, bir dəfə onların həyətinə "məməbədüş" gəlir. Onun da ən çox qorxduğu iynə imiş. İynəni onun boynuna sancanda yalvarır ki, nə desələr edər. Əhvalat qış vaxtı olubmuş. Nənəsigilin də odunları yox imiş. "Məməbədüş"ə deyirlər ki, həyəti odunla doldursun. O da az müddətdə bu işi görür. İş başa çatan kimi yalvarır ki, iynəni onun bədənidən çıxarsınlar. İynəni çıxaran kimi həmin anda həyətə gətirilən bütün odunlar yox olur. Xalq arasında gözəgörünməz məxluqlarla bağlı çoxlu inamlar vardır. Yerə isti su atmaq, gecə güzgüyə baxmaq, uşağı yuxarı atıb–tutmaq, gecə vaxtı qız uşaqlarını çölə buraxmaq, gecə hamamda çimmək, su qırağına tək getmək, ölünü tək qoymaq, qapını murdarlamaq, şər vaxtı yatmaq, təndirə və ocağa tüpürmək, axşam pul saymaq, gecə ağac altında yatmaq olmaz, bəd ruhlar, çünki bu zaman insanlara xətər yetirərlər. Rəvayətlər mif və əfsanələrdən fərqli olaraq reallığa daha yaxın folklor nümunələri sayılır. Lahıc folklorunda sırf yerli şəraitlə bağlı rəvayətlərdən biri Lahıcın yanındakı Girdiman çayı ilə bağlıdır. Girdiman çayı tez-tez yağan yağışlar ucbatından məcrasını dəyişirmiş. Buradan keçən İran şahı Nadir şah Əfşar onun sahilində düşərgə salmağa razılıq vermir. "Öz yatağını tez-tez dəyişən çaya etibar yoxdur", - deyir. Bir Lahıc sakini danışır ki, bir lahıc Girdiman çayını keçib o biri taya getmək istəyir. Çayda da su çox imiş

.Lahıclılarda belə bir inam varmış : Lahıcdan qərbə tərəf baxanda Dəhnə tərəfdə hava açıqdırsa , daha yağış yağmayacaq. Çayı keçmək istəyən kişini bundan vaz keçməyi məsləhət bilirlər, o isə hey lahıcca "Dəhnə əyozi (dəhnə açıqdır)" deyir. Suya girməsi ilə selin onu aparması bir olur. Xalq arasında bu, rəvayətə çevrilir. Nəticəsi də zərb–məsəl kimi işlənir "Kişini su aparır, deyirlər "Dəhnə əyozi""

Qədimdə deyilənlərə görə 18 minə yaxın əhali yaşadığı Lahıcda eyni adda 8-10 nəfər olurdu. Xalq da onları bir-birindən ayırmaq üçün ləqəblər qoşurdu ki, bunlar da təsadüfü seçilmirdi və müəyyən bir əhvalatla bağlı idilər: Hüseyn Səqqət,Qurbon Dana, Əli Şəftəxənçəl, Məhəmməd Mingədəryo. Məsələn, M.Süleymanov "Lahıc" kitabında Qurbon Dana adına belə aydınlıq gətirir. Qurban kişi bir neçə yoldaşı ilə alverdən qayıdanda pulları çox olur. Pullarını qaçaq-quldurdan qorumaq məqsədilə bir dana alırlar, kəsib ətini satırlar, bütün pullarını da dərinin içində yerləşdirirlər ki, salamat gətirib çıxarsınlar Lahıca. Lahıcda və onun ətrafındakı dağlarda çoxlu yer adları var ki , bəziləri ("Əspari (at yıxıldı)", "Kəlkələvəlgon (İri yarpaq)", "Qətkilə(kolarası)") Lahıc, bəziləri isə ("Ağbulaq", "Bağəli ", "Yəhəri" "Dana dərəsi") Azərbaycan dilindədir .

Epik növün digər mühüm janrı sayılan nağılların Lahıc folklorunda yeri çox əhəmiyyətlidir. Lahıc nağıllarının spesifik əlaməti onlarda şah nəslindən olan və sənətkarlar zümrəsindən qəhrəmanların, div, cin və simurq quşu kimi sehrli qüvvələrin geniş yer tutmasıdır .Amma bəzi nağıllarda Azərbaycan (türk) nağıllarına xas olan keçəl və ovçu obrazları, öküz, inək, qurd, ilan və s. totemlərə rast gəlmək olur. Qeyd etmək lazımdır ki, dil və mənşə yaxınlığına görə Lahıc follklorunda xüsusən də nağıllarda İran folklorunun təsiri həmişə güclü olub.

Nağılların arasında ibrətamiz fikirlərlə nəticələnənləri də az deyil."Süleyman peyğəmbər və sərçə" nağılında olan kimi. Süleyman peyğəmbər sərçəni hədələyir, sərçə də Süleyman peyğəmbəri. Peyğəmbər ondan soruşanda ki "Sən mənə nə edə bilərsən?" sərcə cavab verir ki, özümü bir yetimin ocağındakı külə bülayaram və həmin külü taxtının üstünə çırparam. Yetim ocağının külü səpələnmiş ev 40 günə viran olur, - deyirlər.

Lahıc folklorunda nağıl söyləyiciləri vaxtilə çox olub. Uzun qış gecələrində güclü yaddaşı və geniş mütaliəsi olan, habelə bəlağətli, məzəli danışığa malik söyləyicilər məscidlərdəki yığıncaqlarda, sənətkarlıq emalatxanalarında manqal ətrafında , qış evlərində qurulan kürsülərin arxasında nağıllar söyləyirdilər. Nağıldan qabaq dinləyicilər xahiş edərdilər ki, bu gecə də bir kasıbı taxta qaldırıb şah elə. Hətta elə nağıllar olurdu ki, onu 2-3 günə çətinliklə başa vururdular. İndi də o nağıllara qulaq asanlar həmin söyləyicilərdən böyük bir heyranlıqla danışırlar.Onlar az savadları ilə elə gözəl nitqə malik idilər ki, istənilən auditoriyanı uzun müddətə dinləyici qismində gərginlik içində saxlaya bilirdilər və bunu etmək üçün hər bir nağılı yerli şəraitə və həmin mühitdəki insanlara uyğunlaşdırır, son nəticədə hər kəs özünü az müddətə də olsa , nağılın qəhrəmanı kimi hiss edə bilirdi. Məsələnin diqqət çəkən tərəflərindən biri hər iki dildən istifadə etməklə nağılların söylənilməsidir. Xüsusən, girişdə nəzm formasında olan pişrov parçaları adətən azərbaycanca, nağılın əsas hissəsi lahıcca söylənilirdi. Lahıcın özündə yaranmış nağıllar o qədər də çox deyil, bu nağılların içərisində Azərbaycanda söylənən və İranda məşhur olan motivlərin əsasında qurulan nağıllar daha çox yer tutur.

Lahıclılar həmişə hazırcavab və yumor hussi güclü olan insanlar kimi tanınıblar. Lahıclılara lağla "duz əkən" deyəndə onlara cavab verirlər ki, "biz əkirik, amma daşımağa yuk heyvanı axtarırıq". Azərbaycan folklorşünaslığında qaravəlli kimi tanınan janra belə söyləmələri aid etmək olar, çünki onlar real həyatla bağlı olan hadisələrə bir az tənqidi, bir az da məzəli baxışları əks etdirir. Məsələn, oğrular oğurladıqları əşyaları bölüşdürmək istədikləri zaman qarışıqlıq salan olur. Başçıları deyir ki, ay qardaşlar, bir az ədalətli olun, bu dünyada halal – haram var. Onların qəribə məntiqi adamda istehza doğurur. Qaravəlli janrı nağılla lətifə arasında ortaq bir janrdır. Lətifə dünya folklorunda ən çox və asan yayılan, hər zaman yeniləşən, yeni qəhrəmanlar yetirən bir janrdır. Lahıc folklorunda Şərqin ənənəvi lətifə qəhrəmanları olan Bəhlul Danəndə, Molla Nəsrəddinin iştirak etdiyi lətifələr çoxluq təşkil etsə də, Lahıc folklorunda elə Qulu Şeyda adında artıq sağlığında məşhurlaşmış bir lətifə qəhrəmanı vardı ki, hər sözündə bir məzə, incə eyham və dərin məntiq hiss olunurdu. İlk baxışda adi görünən sözü elə deyirdi ki, gülüşün hədəfi o andaca məlum olurdu: bir müddət bir müştəriyə süd satmış Qulu Şeyda ondan nə bişirəcəyini soruşanda "sıyıq" deyərək cavab verir. Qulu məsləhət görür ki, südə daha su qatmasın, çünki lazım olan qədər qatılıb. Amma Lahıc lətifələrində

daha bir qəhrəman da var, məsələn :Kələəmülə (böyük əmi).Bu qəhrəman avamlığı ucbatından bəzən sadəcə qəribə məsləhətləri ilə gülünc vəziyyətə düşür , amma bunu normal bir hal kimi qələmə verir. Bir gün Kələəmüləni ağlayan görən lahıclar ondan səbəbini soruşanda deyir: "Ona ağlayıram ki, mən öləndən sonra sizə bu ağıllı məsləhətləri kim verəcək". İndi də qəribə bir iş görən adamı "Kələəmülə" adlandıran lahıclar az deyil. Lətifə janrı Lahıc folklorunda çox sevilirdi. Rus şərqşünası və tat dili tədqiqatçısı Vsevolod Millerin "Tat etüdləri" kitabına daxil etdiyi 12 folklor nümunəsindən 6-sı məhz lahıcca söylənilmiş lətifə olmuşdur. Lahıcda lətifələr adətən lahıcca söylənilər, amma onlardan, xüsusən də Bəhlul Danəndə və Molla Nəsrəddinin adı ilə bağlı olan lətifələrdən çıxan nəticələr ifadələr formasında məsəl kimi azərbaycanca səslənərdi: "Sən çaldın", "Qoyunu qoyun, keçini də keçi ayağından asırlar" və s. Lahıc folklorunda atalar sözləri və məsəllər xüsusi yerə malikdir. Onların içərisində Azərbaycan və fars dillərindən Lahıc dilinə çevrilərək səsləndirilən, yaxud elə azərbaycanca orijinalda söylənən və lahıclıların özlərinin yaradıcılıq məhsulu olan nümunələr vardır. Məsələn, "Pötıra bı ləiftı görə duroz soz (Ayağını yorğanına görə uzat ) "iki dildə, "Cücəni payızda sayarlar" Azərbaycan dilində, "Qəribə səyə dımi bə ara lingi ımbı (qərib itin quyruğu ayaqlarının arasında olar)" isə yalnız Lahıc dilindədir.

Atalar sözləri ilə yanaşı, məsəllər də diqqət çəkən janrlardan biridir. Məsələn, Qulam Səməd adlı bir kişi heç kimə qulaq asmır, özünü də atla bərabər vurur gur sulu çaya və su onu aparıb öldürür. Nəticədə belə bir məsəl yaranır, ölümə gedən adam üçün deyrirlər ki,"raft bı tan Qulom Səməd (getdi Qulam Səmədin yanına)"

Epik növün maraq doğuran janrlarından biri də tapmacalardır.Lahıc folklor mühiti öz tapmacalarını yaratmışdır. Hətta elə adamlar vardı ki, çoxlu tapmaca deməkdə ustad sayılırdılar və onlarla yeni tapmacanın müəllifi idilər. Belə tapmaca söyləyicilərindən bir Mədinə Əli Zərgər adında qadın idi. Onun tapmacalarından biri belə idi:

*Şütür bımırd ə loğəri,*
*Nə dər havo,nə dər xori,*
*Nəziki şom, sıbhi səböh*

**Tərcüməsi:**
dəvə arıqlayıb öldü, nə yerdə, nə göydə, nə axşam, nə də səhər (Körpü)

Bu tapmacalar bəzən söyləndiyi məqamlardan ta cavabı tapılan günə qədər çoxlu mübahisələrə və axtarışlara səbəb olurdu. Lahıc folklorunda epik janrlarla yanaşı lirik janrlarda da nümunələrə də rast gəlinir. Lirik növün şifahi ədəbiyyatda ən qədim janrı sayılan müxtəlif sənət -peşələrlə bağlı nəğmələrini aid etmək olar. Bu da təbii k, Lahıcın folklor mühiti ilə izah olunan bir məsələdir. Həmin nəğmələr məhz Lahıcda oxunurdu.

Məsələn, misgər belə oxuyurdu:

*Man misgərum dırıst minum çı güyi*
*Mən misgərəm, nə desən düzəldərəm*
*Tava, gajqun, kəfgir, bəsdı ye söyi*
*Tava, qazan, kəfkir, güyüm və sovça*
*A xudoman rozi birom man doim*
*Mən daim alahımadan razıyam*
*Ruzimənə vorde bı dər ü doim*
*Çünki ruzimi daim qapıma gətirib*
*Nəğmələrlə bərabər*

Lahıc folklorunda az sayda mahnılar da vardır. Az olmasının da səbəbi bu idi ki, toylarda xanəndələr ancaq Azərbaycan dilində oxuyurdular. Belə mahnılara "Tütixanım" , " Çimnaz xanım" və b. aid etmək olar. Məsələn: "Tütixanım" mahnısında cehizinin azlığına görə ağlayan qızın şikayətindən bəhs olunur :

*Tüti xola bə birun dəro, bülbüli vorusdan*
*Girum tıra ə dəsontı nə bilum parısdan*
*Vaxsim birem umun ba busdun, ürə be koşdan*
*Çiletıra cihizi kəmi, nişde bə giresdan*

Lahıc folklorunda uşaq folklor nümunələrinə də rast gəlinir. Belə bir düzgünü nümunə gətirmək istərdim:

| | |
|---|---|
| *Rafdum ba buni qozi* | *Getdim məscid damina* |
| *Duto qəloğ bı vozi* | *İki qarğa oyununa* |
| *Ye sanq şundum na rasi* | *Bir daş atdim çatmadı* |
| *Dı sanq şundum na rasi* | *İki daş atdım çatmadı* |
| *Numasuz şundum dəyəsi* | *Kösövü atdım alışdı* |
| *Döyüsdum, parısdum* | *Yüyürdüm, sonra yıxıldım* |
| *Ə viniman xun umo* | *Burnumdan qan açıldı* |
| *Xuno dorum bı xori* | *Qanı verdim mən yerə* |
| *Xori be man güvö do* | *Yer mənə otu verdi* |
| *Güvorə dorum bə gısband* | *Otu verdim qoyuna* |
| *Gısand e man dımbə do* | *Quyruğu qoyun verdi* |
| *Dımbə rə dorum bı qari* | *Quyruğu verdim qarıya* |
| *Qari be man fatil do* | *Fətiri qarı verdi* |
| *Fatilə dorum bə məllö* | *Fətiri verdim mollaya* |
| *Məllö be man kitob do* | *Kitabı molla verdi* |
| *Kitoba dorum bə xudo* | *Kitabı verdim Allaha* |
| *Xudo be man ımır do.* | *Ömürü Allah verdi.* |

Azərbaycan folklorunun lirik növünün şah janrı hesab edilən bayatı Lahıc folklorunda da özünə yer tapa bilmişdir. Bu bayatılar əsasən azərbaycanca oxunurdu və bəzilərinə Lahıcla bağlı detallar da daxil edilirdi:

*Stəkanım qanlıdır*
*Əl dəymə, dərmanlıdır,*
*Əslimi xəbər alsan,*
*Əslim girdimanlıdır. (Girdiman Lahıcın yanından axan kiçik dağ çayıdır)*

Azərbaycan bayatılarının təsirilə şairlik istedadı olan lahıclıların qoşduqları bayatılar az deyil:

*Niyola üşeyirə, (Niyalin meşəsindən*
*Vəçi bənövşeyirə. Yığ bənövşəsini*
*Bə qürbət ərs çımmənə Qürbətdə göz yaşımın*
*Ki mı dorı püşöyirə? Kim saxlar qabağını)*

Amma Lahıc dilində olan bayatılarda heca və misra sayı, qafiyə quruluşu qorunsa da, ənənəvi rekursiv ifadələrdən (əzizim, mən aşiq və s.) az istifadə olunur.

Hər bir xalqın folklorunda mərasimlərini önəmli yeri bəlli məsələdir. Mərasim folklorunun əmələgəlmə səbəbi təbiətin və insan həyatının mərhələlərinin müxtəlif xüsusi mərasimlərlə müşaiyət olunmasıdır. Bir qayda olaraq qış və yaz mövsum mərasimləri ilə zəngin olur. Qonşuların çillə ərəfəsində bir-birinin evlərinə yığışması, müxtəlif çərəzlər və yeməklərin (hədik, qovurğa, qara halva, təndirdə boranı külləməsi, boranının dilimlər halında bişirilməsi, nəzirlik səməninin bişirilməsi, ət və buğdadan hazırlanan hərisə yeməyi) hazırlanması, maraqlı nağıl və məzəli əhvalatların söylənilməsi qış mərasimlərinin əsas əməlləri idi. Xıdır Nəbi bayramı geniş şəkildə keçirilməsə də, bu

mərasimlə əlaqədar hətta yarı acımış və ya acımış xəmirdən adına "xıdıri" deyilən xüsusi çörək növü bişirilirdi.

Artıq yazın yaxınlaşması ilə əlaqədar çərşənbələr qeyd olunardı.Əsasən gənc oğlan və qızlar çərşənbə axar su başına gedər, od qalayar, odun və suyun üstündən atılaraq oxuyardılar:

*Baxti-man, baxt Əli*
*Çorşənbihon pırənbəri*
*(tərcüməsi: bəxtimə bəxt ver Əli, çərşənbələrdə pırənbər yetir)*

Pırənbəri çərşənbələr günü, əsasən südlə bişirilən südaşı yeməyi idi, amma həmin gün başqa yeməklər bişirilərdi. Bulaqdan yaxud axar sudan evlərinə gətirilən sudan həyətlərinə səpərdiər. Hər çərşənbə insanları yaxşı günlərə bir addım yaxınlaşdırır deyə düşünürdülər.

Novruz bayramı lahıclılar üçün xüsusi ovqat yaradan bir bayram idi. Hətta bu bayramı tarixi bir əsası olmasa da, islamda birinci imam Həzrəti Əlinin adı ilə bağlayaraq, onu bir az da əzizləyirdilər. "Cənabi Əlinin bayramı" adı verilmiş Novruz bayramına məxsus şirniyyatlar bişirilir, xonçalar tutulur, altı növdə üstü olan (oş şeşdı rənga) plov bişirilərdi. Tonqalda Lahıc meşələrində bitən və yananda gözəl ətir yayan ardıc kolları yandırılardı. Yemək süfrəsi bitdikdən sonra evlərə qapılardan qurşaqları əvəz edən dəsmallar atılardı"kişdinşundan" və onlara bayramlıq bağlanardı. Bayram günü kəndin uşaqlar evlərə gedir, bayramlıq istəyərdilər. Hamı bayramlaşır, yaxın qohumlar isə bir-birinin evlərinə hədiyyələrlə gedirlər. Təbrik zamanı müxtəlif ifadələr söylənərdi: "İdişmun mübopək (bayramınız mübarək)", "Nügə solişmun müborək, yeni iliniz mübarək" "Hazorto əzin id vinin - Min belə bayramlar görəsiz" və s. Bu gediş –gəlişlər və bayramlaşmalar insanları bir-birinə yaxınlaşdırır və mehribanlıq yaradırdı.

Təbiətlə bağlı mərasimlərdən biri uzunmüddətli yağışa görə keçirilən "Güdül" mərasimi idi. Bu zaman bir çömçəni gəlincik kimi bəzəyər, ev-ev gəzdirər və bu nəğməni oxuyardılar

| | |
|---|---|
| *Güdül, güdül gərdunim* | *Güdül, Güdül, gəl gəzək* |
| *Güdüle poyi rə vəçinim* | *Güdülün payını yığaq* |
| *Umruz in qəlle afdo* | *Bu gün balaca bir gün çıxsın* |
| *Səböh ye kələ afdo* | *Sabah lap böyük bir gün çıxsın* |
| *Ədərd in qəlle afdo* | *Balaca bir gün üçün* |
| *Rura bə həq çarxunim* | *Üzümüzü allaha çevirək* |
| *Poy doragora gedeyi boşi* | *Pay verənin oğlu olsun* |
| *Na doragora kileyi boşi* | *Verməyənin qızı olsun* |
| *Bı tənür parı ıp ol boşı* | *Təndirə düşüb qızarsın* |

Məişətdə keçirilən hər bir mərasim insan həyatını mühüm bir mərhələsini müşaiyət edir. Yeni doğulmuş körpə üçün birinci 10 günlük ərzində adqoyma mərasimi (şöxeyr) keçirilərdi.

Lahıcda tarixən dinə və dini mərasimlərə çox önəm vermişlər. Məhəmməd Peyəmbərin nəvəsi İmam Hüseynin qətli ilə əlaqədar keçirilən aşura mərasimlərinə xüsusi hazırlıq görülərdi. 2 aylıq matəm üçün 3 rəngdə xeymə bəzədilərdi, sonra mərasim olan məscidlərə gətirilərdi və bu zaman dialoq şəklində əzadarlar bir-birini salamlayardı:

*-Təziyədaran, Salamun-əleyk.*
*Hüseyn-əzadar, əleykəssəlam.*

Mərasim zamanı çay, şərbət, süd və s nəzirliklər paylanardı. Həmçinin "İmam Hüseynin qətli", "Qasımın toy otağı", "Uşaqların su istəməsi" səhnələri şəbih tamaşaları kimi göstərilərdi. Digər bir dini mərasim ziyarət mərasimləri idi.

Toy mərasimləri Lahıcda əhalinin hansı təbəqəyə aid olmasından asılı olaraq keçirilirdi,amma qaydalar ümumi idi. Toy mərasiminə qədər bir neçə mərhələ keçilirdi:

1. Qızgörmə, qızın və valideynlərinin razılığı;
2. Kiçik və böyük xonça;
3. Hiynəbərun (xına apardı), varaşıs (son razılaşma);

4. cehiz yazma və gətirmə;
5. qız və oğlan toyu

Yas mərasimləri elə qurulmuşdu ki, ölü sahibi maddi cəhətdən heç bir sıxıntı keçirməsin. Matəm mərasiminə gələn əksər adamlar ölünün dəfni üçün qəbrin qazılmasında və cənazə daşınmasında təmənnasız iştirak edər, sonda yalnız qapıdan başsağlığı verib evlərinə dağılışardılar. Ölü üçün 3 gün mərasim olardı, ağlaşma qurulardı və burada söylənən çağırışlar, ağılar və mərsiyələr əsasən Azərbaycan dilində söylənərdi. Lahıcda indi də söylənən çox məşhur bir ağı var:

*Gəlin, dur çıx pərdədən,*
*Nazım , dur çıx pərdədən.*
*Al geydin, yaraşmadı,*
*Qara gey, çıx pərdədən.*

Bu kiçik yazıda Azərbaycanın azsaylı xalqlarından sayılan lahıclıların özünə məxsus folklor irsindən qısa da olsa söz açıldı. İsmayıllı rayonu ərazisində yaşayan xalqların folklrunda və məişətində özəlliklər az deyi. Məsələn: İvanovka kəndində yaşayan malokan rusların öz toy adətləri, mahnıları, atalar sözləri və tapmacaları vardır. Bu etnosun gündəlik həyatının hər bir məqamında müxtəlif kultlar özünü göstərməkdədir: əmək, ailə, yemək və dini kutlar molokanların arasında hələ bu gün də qorunmaqdadır. Rayon ərazisindəki digər etnik azlıqların hər birinin həm məişətində, həm də yaratdıqları folklor nümunələrində fərqli psixologiya özünü aydın şəkildə göstərir. Ləzgilərin ənənəvi ləzginkası ilə bərabər, öz mahnılarını oxuması, haputlarda daha çox heyvandarlıqla bağlı əmək nəğmələri İsmayıllı folklorunun ümumi mənzərəsində bir əlvanıq və rəngarənglik əmələ gətirir. Sonda yazıda daha çox araşdırımış Lahıc folklorunun xüsusiyyətlərini qeyd edərək onların eynən digər etnik azlıqlara da şamil etmək olardı:

1. Hər bir etnosda olduğu kimi, lahıcların yaşadığı coğrafi şərait, müxtəlif tarixi dönəmlərdə sürmüş olduğu həyat tərzi, mənsub olduqları İran dillər qrupuna aid olan xalqlarla ümümi etnik-psixoloji baxışlar, gündəlik təsərrüfat fəaliyyəti (sənətkarlıq və ticarət) və ətrafındakı digər fərqli etnik birliklərə xas adət-ənənələrin daha yaxşılarından bəhrələnmə - bir sözlə, bütün bunlar lahcların folklorunda fərqli mədəniyyət elementlərinin yaranmasını şərtləndirən əsas amillər kimi qiymətləndirilə bilər. Bunu istər nağıl və lətifələrdə , istər əmək nəğmələri və bayatılarda , istər toy, yas və dini mərasimlərdə görmək mümükündür ki, bu da Azərbaycan mədəniyyətinin əlvanlığında və rəngarəngliyində fərqli bir çalardır.
2. Folklor bilinqvizm, bəzən polilinqvizm şəraitində yaranıb. Nümunələr 3 cür söylənilir: yalnız lahıcca yaxud azərbaycanca, ya da ki iki dildə - Azərbaycan və etnik azlığın dillərində.
3. Toplanmış və araşdırılmış hər bir folklor nümunəsi aid olduğu xalqın dil özünəməxsusluğunu, maddi-mənəvi dəyərlərini, məişətini, bədii yaradıcılıq potensialını, ağıl və düşüncəsini-bir sözlə, kimliyini göstərir.

**Xülasə**

Məqalədə İsmayıllı etnomühitində xüsusi yeri olan lahıcların folklorunda fərqli mədəniyyət elementəri araşdırılmış və bunun əsas səbəbləri kimi coğrafi şərait, müxtəlif tarixi dönəmlərdə həyat tərzi, onlara qohum xalqlarla ümümi etnik-psixoloji baxışlar, təsərrüfat fəaliyyəti və onların ətrafındakı digər fərqli etnik birliklərə xas adət-ənənələrin daha yaxşılarından bəhrələnmə və s. göstərilmişdir. Bu fərqləri folklorun əksər janrlarında görmək mümkündür.

**Резюме**

В настоящей статье исследовались различительные элементы культуры в фольклоре лагичей, имевших особое место в Исмаиллинской этносреде, которые сложились в силу географического расположения, исторически сформировавшего стиля жизни, сохранения одинаковых этнопсихологических взглядов, перенятия лучших традиций этносов, родственных им народов. Эти различия встречаются в большинстве жанров фольклора.

**Summary**

In the article the different culture elements in Lahijs' folklore which takes the important part in Ismayilli ethnosphere are investigated and as the main reasons of it the geographical condition, the life style in different historical periods, the general ethnic-psychological views with the close nations, the agriculture activity and deriving the advantage from the other different ethnic unities and etc. are shown. One can see these varieties in many genres of folklore.

**Ədəbiyyat:**

1. Süleymanov M., Azərbaycan diyarı Lahıc .Bakı, 1994
2. Hacıyeva M. Lahıc .B .,2013
3. Qulu Şeydanın lətifələri .Toplayanı Ə.Kərimli B.,2003
4. Vsevolod Miller "Tatskiye etyudı" I çast Moskva ,1905
5. A.Aliyev Azərbayvcan folkorunun regional xüsusiyyətləri .Avtoreferat ,Bakı ,2008
6. Ализаде А.А. Лагич. Историко-этнографическое исследование . Баку .2010
7. *Анисимов* Н. А., Grammatik zuhun tati, М., Центриздат, 1932 (на татском языке)
8. Грюнберг А.Л, Язык северо- азербайджанских татов. Л. 1963
9. Курдов К.М. Таты Шемахинского уезда Бакинской губернии.РАЖ ,кн.33-36 .М., 1913
10. Q.Cavadov Azərbaycanın azsaylı xalqları və milli azlıqları. Bakı: Elm, 2000, 440s
11. Alıyev A.A. Azərbaycan folklorunun regional xüsusiyyətləri // Azərbaycan Şifahi Xalq Ədəbiyyatına Dair Tədqiqlər, XXII kitab, Bakı: Səda, 2006, s. 154-158
12. Azərbaycan folklor antologiyası: XI c. (Şirvan folkloru), Bakı: Səda, 2005
13. Əfəndiyev P. Azərbaycan xalq ədəbiyyatı . Bakı: Maarif, 1970, 268 s.
14. İsmayılov H. Azərbaycan folklorunun regional xüsusiyyətləri. Bakı: Səda, 2006, 336 s.
15. Şərifli M.X. IX əsrin ikinci yarısı –XI əsrlərdə Azərbaycan feodal dövlətləri .Bakı ,1978

**Роберт Мобили**
**Старший научный сотрудник. Бакинский Государственный Университет,**
**Председатель. Албано-удинская христианская община Азербайджана**
**г.Баку. Азербайджан**

# УДИНЫ В МОДЕЛИ РЕЛИГИОЗНОЙ ТОЛЕРАНТНОСТИ, ЭТНИЧЕСКОГО МНОГООБРАЗИЯ И МУЛЬТИКУЛЬТУРАЛИЗМА АЗЕРБАЙДЖАНА

***Ключевые слова:*** *Азербайджан, удины, толерантность, религия, христианство, Албанская Церковь, феномен, разнообразие, культура.*

***Açar sözlər:*** *Azərbaycan, udilər, tolerantlıq, din, xristianlıq, Alban kilsəsi, fenomen, müxtəliflik, mədəniyyət*

***Key words:*** *Azerbaijan, Udis, tolerance, religion, Christianity, Albanian church, phenomenon, diversity, culture*

С восстановлением в Азербайджане своей независимости, в стране были созданы благоприятные условия для дальнейшего укрепления межконфессиональных отношений, утверждения национально-духовных ценностей, дальнейшего упрочнения исторически сложившейся условий терпимости, межнационального и межрелигиозного диалога. Историческое развитие и формирование азербайджанского этноса происходило на основе слияния различных племен и народностей. Совместно боролись за свою независимость, историческое прошлое, целостность, и выстаивали вопреки тяжким испытаниям, выпавшим на их долю. Сегодня в Азербайджане наряду с титульным этносом живут более 20 коренных национальных меньшинств. Все они составляют единый многонациональный народ Азербайджана. Среди коренных меньшинств и удины (самоназвание - уди), то есть наша Албано-удинская христианская община, происхождение и история которых вот уже более двух веков привлекают внимание ученого мира. Научный мир впервые проявил к ним интерес в начале XIX века. С тех пор появилось более 300 работ по антропологии и языку, религии, истории языка, этнографии и истории, происхождению и культуре, традиции и обычаев удин [2, 446; 6, 250-256; 8, 170-199; 9, 216; 10, 26-29; 11, 214; 22, 79-80]. Накопленные данные однозначно свидетельствуют, что удины являются древнейшими жителями Кавказа и известны только в историко-культурном пространстве Азербайджана [4, 3-22, 19, 1-19] . Первые достоверные сведения о предках племени утиях появились 2500 лет тому назад в упоминании "отца истории" Геродота, описывая Марафонское сражение. Удины фиксированы в древних источниках как участники битвы Александра Македонского с персами при Гавгамелах (331 г. до н.э.) в составе войска сатрапа Мидии. Они упомянуты в "Географии" Страбона, при описании Каспийского моря и Кавказской Албании. Этноним же "удины" впервые появляется в "Естественной истории" римского автора I века н. э. Плиния Старшего. В "Географии" эллинского писателя II века н. э. Птолемея сообщается, что у Каспийского моря живут различные племена, в том числе ути ("уди"). Наиболее подобные свидетельства об удинах содержатся в "Истории албан" местного автора Моисея Утийского (Каланкатуйского), что в переводе на удинский язык Кала – «большой», Кату – «поселение», [14, 87-88] жившего в VII веке и принадлежавшего, по его собственным словам, к албанскому племени[12, 56-57] .

Удины - аборигенный народ в Азербайджане и один из древнейших коренных этносов Кавказа, и принадлежат к числу предков современного азербайджанского народа. В настоящее время общая численность удин - более 10 000 человек, из них основная часть удин, около 4,0 тыс. человек, проживают в Азербайджане на своей исторической родине - компактно в п. Нидж Габалинского района и рассеянно в Огузе и Баку. Небольшая группа удин компактно проживают в Грузии, в регионах России, Украины, Беларусь и Казахстана. Нидж как основа и места компактного проживания удин, является уникальным местом, где проживают удины сохранивший свой этнокультурный пласт, азербайджанцы и лезгины, расположенное

в равнинной местности на площади более 100 кв.км., у подножья южного склона Большого Кавказа, окруженными ореховыми и каштановыми деревьями.

Удины, народ который прошел сложный и долгий путь своей истории через различные, культурные и религиозные поглощений от язычества до наших дней, путешествие, которое обогатило их албанской идентичностью из поколения в поколение. Сегодня удины являются носителями восточного христианства и четко ориентированы в современных условиях на возрождении своей церкви и всего Албанского Ренессанса. Удины как прямые потомки Кавказских албан [8, 110-119] гордятся своей древней культуры, а также с их вековыми традициями, духовным богатством, языком, этнографией и хорошо гармонируются в историческом пути своего развития. Эти межрелигиозные духовные памятники, корни которых существуют в истории Азербайджана, есть пути его развития и разнообразия. Азербайджанский народ с их многолетними и многогранными религиями были, есть и должны быть специальным примером и символом религиозной гармонии в истории народов различных вероисповеданий, и даже дальше, здесь мусульмане, евреи, православные, католики и нетрадиционные конфессии жили вместе в гармонии, без какой-либо конфронтации между ними, напротив, они дополняют друг друга. На протяжении веков и сегодня христианские и мусульманские патриоты были действующими факторами в борьбе против иноземной и анти-государственной политики. Само существование наследий культовых объектов, таких как древние храмы различных поклонений, синагога, церкви и мечети, рядом друг с другом символизирует общее прошлое нашей страны. Ярким примером может служит места компактного проживания удин – Нидж; древние сокральные места преклонения, три церкви и две мечети на таком маленьком пространстве [13, 165-172; 15, 22-77] .

Наличие и существование великих монотеистических религий в мире, ислам и христианство, удинский этнос как правопреемник христианства Автокефальной Апостольской Церкви Албании (Кавказской), как феноменальный модель межрелигиозной терпимости и понимания на своей историческом пространстве, несмотря на все катаклизмы служил в мусульманском окружении фактором, который обеспечивал национальное единство и примером терпимости нации, придавая ему неотъемлемое популярное значение. Представители нашей общины понимают, что реальность не только судьба наша, но и всего азербайджанского народа, от начала до конца, представляющий собой разнообразия народов, религии и убеждений. Разнообразия для нас это богатство, а не религиозные разногласия, считаем что Бог один и так же для всех, являясь мусульманином или христианином. Наши языческие корни оказали значительное влияние на укрепление терпимости и согласия. Основываясь на этих межрелигиозных и межэтнических диалогов возникает долг и обязанность сделать первый шаг, чтобы выявить его корни, чтобы отказаться от всех спорных аргументов и отдавать приоритет общих соприкасающихся точек.

Феномен религиозной терпимости всегда присутствовал в нашей исторической среде, но мы хотим ставить своей целью выявление тех факторов, которые подтверждают состояние присутствия этого явления на примере нашей общины и призваны продемонстрировать значимость культурного и конфессионального значения для удин в целом. Этот маленький религиозный феномен толерантности в рамках удинской общины, прежде всего свидетельствует фактическим резонансом этого явления в целом в азербайджанской среде. Аргументом подтверждения ряд показателей существования разнообразия, следует отметить что это не фактор географического характера, как основа критики для многих исследователей этой проблемы. Мы не горные и не лесные изолянты, и не островные аборигены, - среда проживания равнинная; хотя равнинное географическое положение всегда на пике критики ученых. Такой факт послужил сильным аргументом и мотивом для идейной основы ассимиляции. Основные факторы и аспекты модели сохранения этноса и межрелигиозного диалога:

**Традиционный фактор**. Организация и проведения празднования Новруз был очень важным фактором в выращивании религиозной толерантности в нашей общине. Будучи древний весенний праздник, полученные из глубин истории, он служил как фактор сотруд-

ничества и интеграции между язычниками, мусульманами и христианами. Его организация и традиционные торжества, каждый год в середине марта послужило фактором сотрудничества, терпимости и мира, создав по-настоящему праздничную атмосферу и превращение его в символ дня в его окрестностях.

**Архитектурно-бытовой фактор.** Бытовой фактор в культуре и образе жизни удин имеет твердо интегрированную тенденцию. В настоящее время существуют различия, но нет разногласий на всех уровнях между мусульманскими и христианскими семьями в том, это радостные праздники или траурные церемонии [5, 22; 7, 21-27]. Мусульман приветствуют и сопровождают с почестями, в знак уважения на застолья свинину и алкогольные напитки не подают, даже в некоторых семьях держат специальные кухонные принадлежности, которые используют только тогда, когда они бывают у них в гостьях. Удин в свадебных церемониях и других специальных мероприятий особо чтят и уважают. В архитектурном плане дома удин-христиан в настоящее время естественно переплетается с домами мусульман, а дома унаследованный от тоталитарного социалистического режима дополняются верандами и большими новыми комнатами, многие из которых окружены широким балконом с трех сторон. В архитектуре старых домов и поселений практически нет элементов для определения их религиозной принадлежности.

**Генетический аспект.** Генофонд удин идентичен коренных кавказских этносов и отмечается колоссальная разница в структуре наследственных болезней. Генетические портреты удин и соседей очень отличительны, и во многом они в пользу самих удин. Удины задают вопрос, один из главных для XXI века – какую тактику и модель должны избрать этносы для того чтобы не утерять свое качество. Уникальность удинского феномена в том, как избежать отрицательных воздействий бурных исторических событий в современный век глобализации и интеграции.

**Психо-социальный аспект.** Многие иностранные путешественники, ученые и исследователи (например как Александр Дюма [1, 122-123], Эвлия Челеби, [21, 1-9], Эдвард Дюралье [20, 106-110], и другие[3, 212-244]) на протяжении нескольких веков изучали и писали о религиозной терпимости в Азербайджане в результате не задев религиозные чувства удин. Они в своих дневниках писали о той функции воспитания как социальная гармония, мир, сотрудничество, терпимость и сплоченность, которые доминировали над религиозными разногласиями, насилиями, конфликтами и дискриминацией между людьми.

**Фактор отношения между религиозными убеждениями.** Это уже известный факт, что соотношение между религиозными общинами не только в городе, но и на уровне нашей общины, явно претендует на доминирование мусульманской религии. Между тем, история на сегодня подтверждает сосуществования двух религий, его примирение с действительностью, его уважение к религиозным обрядам, взаимных визитов для особых случаев, таких как Рождество, Пасха, и самое главное Гурбан Байрам (Праздник жертвоприношений). Удины христиане и сегодня отмечают жертвоприношение как ритуальный праздник. Так что распространение ислама создал тем самым для удин в той или иной форме благоприятные предпосылки, установив происхождение и существование религиозной терпимости, особенно в контексте нашей общины. С этой точки зрения, можно заметить, что нет ни одного документа, который подтверждает любой межрелигиозный конфликт. Исторически сложилась и существовала в корне религиозная терпимость, уважения и гармонию между общинами.

**Религиозная терпимость и культурная ценность.** Исторический путь показывает, что одной из самых отличительных культурных ценностей азербайджанцев является религиозная терпимость к другим религиям, и возможно, это один из тех стран в Европейском пространстве, где не было религиозных войн. По этой причине многие часто говоря о толерантности и религиозного сосуществования в Азербайджане имеют в виду каждый социальной уровень; среди жителей городов и сельских провинциях до деревни, среди членов общин и даже семьи. Мы находим такое сосуществование в образовании, в быту, в фольклоре, в языке и верования. Это, наверное, самая лаконичная характеристика, которая напоминает жемчужину, как стабильный идентификатор в течение многих веков до наших дней.

В заключении хотел бы отметить что у нашего этноса нет выдающихся личностей или политических деятелей, зачастую представлявших иные народы. Зато неоспорима роль удин в создании государства так называемая Албания (Кавказская), в сохранении на сегодня мощного христианского наследия, не говоря уже о языке, культуре, обычаев и традиций. Не следует забывать, что удины–албаны будучи частью кавказоязычного пласта участвовали и участвуют в формировании азербайджанского народа. На сегодня наша церковь составная и неотъемлемая часть Албанской Апостольской Автокефальной Церкви. Поэтому мы удины, как один из древнейших прямых потомков Кавказских албан, являемся частью азербайджанского народа и наряду с этим, в нынешнее время единственными правопреемниками и носителями христианства Албании (Кавказской).

Последнее десятилетие удинский этнос переживает очередной пик ренессанса, характеризующийся всплеском национального самосознания и консолидацией этноса. Удинский феномен в истории христианства, как модель сохранения этноса имеет исторические корни, которые своими действиями обусловили рождение и существование религиозной терпимости. Это безусловно, и результат исторических импульсов великого Албанского этно-религиозного наследия, пронесенного сквозь века и сохранившегося в генах этого древнего народа, и веление времени, дающего удинам в самом начале ренессанса шанс определить и сохранить свою нишу в этно-культурном пространстве исторической родины Азербайджана.

**Xülasə**

Bu məqalədə Qafqaz albanlarının birbaşa varisi olan doğma dilin, dinlərarası və etnoslararası dogma Vətənin – Azərbaycanın tolerant mühitində milli ənənənin, mühüm mədəni sərvətləri kimi qorunub saxlanması, udin etnosunun təsviri Qafqaz Albaniyasının tarixi kontekstində verilir. Bu məqalə öz hərəkətləri ilə yaranışa, yaşama və dirçəlişə səbəb olan Udin Kilsəsinin tarixi köklərini dini dözümlülük və etnik çoxşaxəlilik mühitində vurğulamaq məqsədilə yazılmışdır. Bundan əlavə, məqalədə Alban kilsəsinin yaranma nümunəsi udin icmasının müxtəlif aspektlərdə, faktlarda, fenomen kimi qorunub saxlanması əsasında şərait və xarakterik izahına digər xalqlarla müqayisədə baxılmışdır.

**Резюме**

Особое место в этой статье дается описанию удинского этноса, в контексте истории христианства Кавказской Албании, сохранения родного языка и национальных традиций в межрелигиозной и межэтнической толерантной среде исторической Родины – Азербайджана, как одного из наиболее важных культурных ценностей, являющихся правопреемниками христианства и прямых потомков кавказских албан. Эта статья призвана подчеркнуть исторические корни, которые своими действиями обусловили рождение, существование и возрождение Удинской Церкви в атмосфере религиозной терпимости и этнического многообразия. Кроме того, в статье рассматривается модель возрождения Албанской Церкви на основе удинской общины как феномена сохранения этноса через различные аспекты, факты, условия и характерные интерпретации по сравнению с другими народами.

**Summary**

In the article the main place is given to the description of Udi ethnic community in the context of tolerance sphere of the native language and national traditions in the history of Christianity of Caucasian Albania. This article emphasizes the historical roots which determines the birth, existing and revival of Udi Church in the atmosphere of religious tolerance and ethnic diversity. Besides, in the article the model of revival of Albanian Church is looked through on the base of Udi society.

**Литература:**

1. Александр Дюма – «Путешествие на Кавказ». /перевод с фр. Г. Пашаева и Г. Аббасова на азерб. язык /. Глава «Удины…». Изд-во «Элм». 1985г. стр.122-123.

2. Алексеев М.Е., Майсак Т.А., Ганенков Д.С., Ландер Ю.А. – «Удинский сборник /грамматика, лексика, история языка /». Изд-во «Академия» РАН (Институт языкознания и Институт востоковедения России) М.,: 2008г. -446с.

3. Бежанов М. - «Краткие сведения о Варташене и его жителях». СМОМПК, вып.. XIV, 1892г., стр. 213-262.

4. Ворошил Гукасян - «Удинско-азербайджанско-русский словарь». Изд-во «Элм». Баку 1974г. -260с.

5. Гусейнов Р.А. - «Удины». ИРС («Наследие»). Международный журнал. №3 (33). М.,: 2008г., стр. 22-25.

6. Джавадов Г.Дж., Гусейнов Р.А. - «Удины» (на азерб. языке). Историко-этнографическое исследование. Изд-во «Элм». Баку. 1999г. -256с.

7. Кечаари Г.А. - Танец вокруг костра». /Образцы удинского фольклора/ на азерб. языке. Изд-во «Агах». Гянджа. 2001г. -78с.

8. Мамедова Ф. Дж. - «История албан Моисея Каланкатуйского, как источник ранне-средневековой Албании». Изд-во «Элм» Баку. 1977г.

9. Мобили Р.Б. - «Научная и общественная деятельность» Книга. Изд-во «Адильогды». Баку. 2008г. – 216с.

10.Мобили Р.Б. - «Этнография удин» ИРС («Наследие»). Международный Азербайджанский журнал. №3 (33). М.,: 2008г., стр. 26-29

11.Мобили Р.Б. - «Удины: язык, религия, фольклор и традиции». Культурологический журнал. «Азербайджан и азербайджанцы в мире». №2. 2009г. стр. 214-219.

12.Раффи–«Меликство Хамсы.1600-1827гг. Изд-во «ЮниПресс СК» М.: 2009, с. 8-12. -223с.

13.Роберт Мобили – «Албано-удинская христианская община – основа возрождения Албанской (Кавказской) церкви в Азербайджане». Труды Международной конференции «Место и роль Кавказской Албании в истории Азербайджана и Кавказа». Баку. 2012, с.165-172.

14.Роберт Мобилиi - «Удинско-азербайджанско-русский словарь». Изд-во «Леман», ISBM 978-9952-8024-6-7. Баку. 2010г., 368с.

15.Роберт Мобили - «Удины: язык, религия и этнография». Изд-во «Леман», ISBM 978-9952-8016-4-4. Баку. 2011г. 80с.

16.Robert Mobili - «Geological interpretion of bulding materials of the historical Gabala-Sheki region in the anc;ent Caucasus Albania». www.33igc.org DVD. 6-14 august 2008. Oslo.

17.РГИА (Российский Государственный Исторический Архив), Фонд 796, опись 17, ед. хр.. 1821; 1836г. Лл. 1-18.

18. РГИА, Фонд 821, опись 150, ед. хр. 284; 1914-1915гг. Лл. 33-42.

19. РГИА, Фонд 821, опись 7, ед. хр. 232; 1897-1910гг. Лл. 43.

20. РГИА, Фонд 821, опись 138, ед. хр. 87; 1810г. Лл. 1-19 и 106-110.

21. РГИА, Фонд 735, опись 5, ед. хр. 269; 1859 г. Лл. 1-9

Флоренский Павел – «Воспоминания прошлых лет. Генеалогические исследования. Из соловецких писем. Завещание». М.: 1992, - 376с.

**Elçin Abbasov, filologiya üzrə fəlsəfə doktoru,**
**AMEA Folklor İnstitutu, elmi katib**
**Azərbaycan, Bakı**

# AZƏRBAYCANIN MULTİKULTURAL ZƏMİNİNDƏ XALQ BİLİKLƏRİ VƏ İNAMLAR

***Açarsözlər:*** *multikulturalizm, xalq bilikləri, xalq elmi, inamlar, türkəçarəçilik, Azərbaycan*
***Ключевые слова:*** *мультикультурализм, народные знания и верования, народная медицина, Азербайджан*
***Key words:*** *multiculturalism, folk science, folk medicine, Azerbaijan*

İnsanın dərk etdiyi və bu dərketmə nəticəsində əldə etdiyi nəticələrin ümumi sistemi biliklərdir. İnsan həyat və fəaliyyətinin bütün sahələrində (və ümumən onun mövcudluğu üçün lazım) qarşılaşdığı məsələlərin ağıllı həlli biliklər olmadan mümkün deyildir. Bilik, həm də dərk olunmuş, yoxlanılıb təsdiq olunmuş və toplanmış qənaətlərin, məlumatların mövcudolma formasıdır.

Empirik və nəzəri baxımdan sübut olunmuş biliklərə elmi biliklər deyirik. Qeyri-elmi biliklərin (mistisizm, magiya-sehr) bir qismi ümumi şəkildə ezoterizm adlanır. Qədim və orta əsrdə dini sekta və ya orden üzvlərinin ezoterik bilikləri adətən qapalı dairələrdə gizlin saxlanılırdı: yalnız "arif" adamlar bu biliklərə vaqif ola bilərdilər.

İnsanın öz ətrafı, təbiət haqqında ilkin bilgiləri, məlumatları ordinar və ya adi praktik biliklər adlanır. Bu biliklərin böyük qismi sağlam düşüncəyə, sınamalara, şəxsi təcrübə və ənənəyə əsaslansa da, sistemli sübutlar tələb etmədiyi, şifahi ötürüldüyü və işin əsl mahiyyətini insanlar bilmədiyi üçün qeyri-elmi sayılır. Məsələn, qədim türk tayfalarından olan qıpçaqlar bilirdilər ki, bəzi xəstəliklər keçicidir və xəstəliyin yayılmasının qarşısını almağın yolu, ondan ən yaxşı müdafiə həmin adamı tam tədric etməkdir. Xəstəyə baxmaq üçün bir nəfər ayırırdılar, əgər bu adam yüksək mənsəb sahibi idisə, hətta onun evinin önünə keşikçilər belə qoyurdular ki, kimsəni ora buraxmasınlar. Amma onlar bunu cadu, lənət və ya insan bədəninə şər ruhun, yelin girməsi ilə bağlayırdılar və hesab edirdilər ki, şər qüvvə – qara yel ora baş çəkənin bədəninə keçə bilər (Rubruk, 1957: 103). Və ya xalq sınamaları çox zaman həqiqəti ifadə etsə də, onun elmi və ya rasional səbəbini açıqlamırdı.

Arxaik dövrdə empirik biliklər də mağik inamlardan təcrid olunmuş deyildi. Keçmişdə müəyyən qrup insanların (şamanların, xalq təbibləri və s.) yiyələndiyi belə biliklər bəzən xalq elmi də adlanır.

Xalq arasında dini biliklər də geniş yayılıb. Dini biliklər möminlərin həqiqət kimi qəbul etdikləri ehkamlar və empirik faktlarla bu fakt və ehkamların dərkinə yönəlik rasional-məntiqi əməliyyatları birləşdirir (episteme.iph.ras.ru›shahov2.doc).

Azərbaycanda Allah, ruhlar aləmi, peyğəmbərlər, övliyalar, dini adətlər kimi mövzularda danışmaq, müqəddəs kitab Quranda buyurulanları şərh etmək xüsusi dini bilik sahiblərinin (mollaların) ixtiyarında idi. Quran, sünnə, hədislərə istinad olunmasına baxmayaraq, xalq arasındakı İslam kifayət qədər folklorlaşmış bir şəkildə idi. Ayrı-ayrı sufi təriqət nümayəndələrinin, xüsusən dərvişlərin sadə xalq kütlələri arasında üzun müddətli aktiv fəaliyyəti xalq sufizmi kimi bir folklorik islam mistisizmini ortaya çıxarmışdı.

Xalq təbabəti, xalq təqvimi, xalq təsərrüfatı, idarəetmə, xalq memarlığı, ailə ənənələri, söyləyicilik, peşə və s. biliklər geniş halda xalq bilikləri adlanır.

Obyektinə görə bu biliklər:

1) İnsan haqqında biliklər və inamlar (tanrı və ruhlar aləmi haqqındakı biliklər də daxil);
2) bitkilər və heyvanlar aləmi barədə biliklər;
3) kosmoloji biliklər (metereoloji biliklər də daxil olmaqla), təqvim bilikləri;
4) torpaq, minerallar, kimyəvi elementlər və maddələrlə bağlı biliklər.

Tətbiq sahələri üzrə bölsək:

1) Xalq həkimliyi – Türkəçarəçilik:
sınıqçılıq,
mamaçılıq,
çöpçülük,

çildağ (xalq psixiatoru),
dəlləklik,
loğmanlıq və s.
2) Gigiyena.
3) Maldarlıq.
4) Əkincilk. Bağçılıq. Bostançılıq.
5) Ovculuq.
6) Qidalanma.
7) Sənət sahələri ilə bağlı biliklər:
toxuculuq,
geyim,
xalq memarlığı,
xalq musiqisi,
rəqs və s. kimi təsnif oluna bilər.

Azərbaycanda milli azlıqlar, etnoqrafik qruplar müəyyən təsərrüfat sahələri üzrə kompetensiyaya malik olmuşlar. Azərbaycanın unikal çoğrafi rəngarəngliyi fərqli etnik-çoğrafi ərazilərdə fərqli təsərrüfat sahələrinin uzun müddət sabit yaşamasına və aparıcı sahə olaraq qalmasına imkan vermişdir. Kiçik çoğrafi məkanda 9 iqlim qurşağının mövcudluğu, hündür dağlar, mülayim təbiətli çöllər, susuz düzlərin yanında iri çaylar və s. bu tipli rəngarəngliyi təbii edirdi.

Ölkəmizdə əkinçilik və heyvandarlıq mədəniyyətinin tarixi minilliklərlə ölçülür. E.ə. V-IV minillikdə Urmiya gölü hövzəsindən başlayaraq indiki Qazax-Ağstafa bölgəsinədək yerləşmiş tayfalar yüksək mədəniyyətə malik idilər. Həmin dövr Azərbaycanda aşkarlanan arxeoloji tapıntılar ölkəmizi Mesopotamiyadakı Xalaf və Ubeyd mədəniyyəti ilə bağlayır. Xalaf mədəniyyəti (e.ə. V minillik) daşıyıcılarının dini təsvirləri Anadoludakı Çatal-höyük və Hacılar mədəniyəti (e.ə. VII-VI min.) daşıyıcılarının dini təsvirlərinə bənzəyir. Ubeyd məndəniyyəti (e.ə. V-IV min.) onun davamı idi. Ubeyd mədəniyyətinin daşıyıcılarının Qərbi Zaqros mənşəli subareylər olduğu təxmin edilir. Bir hissəsi Şumerlərə qarışmış, bir hissəsi də şumerlər tərəfindən sıxışdırılmış və şimala çəkilmiş Ubeyd mədəniyyəti daşıyıcılarının bir qismi Şımali Azərbaycana miqrasiya etmiş (Leylatəpə mədəniyyəti), daha sonra həmin mədəniyyət davamçıları buradan Şımali Qafqaza gedib çatmışlar (Maykop mədəniyyəti). Bəzilərinə görə onlar Azərbaycanın ilk əkinçi tayfaları olmuşdular: “Azərbaycanın müxtəlif rayonlarında: Qəbələ, Örənqala, Yaloylutəpə, Kültəpə, Xocalı, Qaraköpəktəpə və s. ərazilərdə aparılan arxeoloji qazıntılar zamanı tapılan əmək alətləri qalıqları Azərbaycanda son neolit və tunc dövrlərindən başlayaraq burada əkinçilik mədəniyyətinin yayılmasını sübut edir. Xocalı, Üzərliktəpə və Kültəpə yaşayış məskənlərindən əldə edilən bərk və yumşaq buğda və arpa bitkiləri qalıqları hələ uzaq keçmişdə bu ərazidə geniş miqyasda dənli bitkilərin becərildiyini təsdiq edir. E.ə. III minilliyin sonu - II minilliyin əvvəllərində tunc dövrünə aid olan əkinçilik alətləri artıq toxa əkinçiliyindən xış əkinçiliyinə keçilməsi barədə məlumat verir. Gədəbəy rayonundan tapılmış tunc oraq, Göygöl (keçmiş Xanlar rayonu) rayonu ərazisindən tapılan çaxmaqdaşı geydirilmiş ağac vəllər bu cəhətdən olduqca elmi maraq doğurur”(kayzen.az›tag/maldarliq).

Azərbaycanın tərəkəmə əhalisinin dolanışığında yaylaq-qışlaq maldar təsərrüfatı əsas olmuşdu. Tarixi-arxeoloji faktlar göstərur ki, Azərbaycanda yaylaq-qışlaq maldar təsərrüfat tipinin 3-4 min illik tarixi var.

Məişət və təsərrüfatda müftəliflik spesifik lokal-məhəlli folklor örnəklərində, xüsusən inanclarda maraqlı şəkildə təzahür edirdi. Məsələn, udinlərdə baramaçılığın inkişafı ilə əlaqədar inanclar, sınamalar mövcuddur ki, başqa regionlarda rastlanılmır:

Barama yığılarkən onun üstündən keçmək, tullanmaq olmaz, çünki bərəkətini itirər.

(Azsaylı, 2015: 25).

Çoğrafi amillərlə əlaqəli olaraq talışlarda çəltikçilik inkişaf etmişdi və bu səbəbdən XX əsrədək onların əsas rasionu düyüdən ibarət idi. Təbii ki, yerli folklorda da bu fərqliliyi əks etdirən çoxlu nümunələr mövcud idi. Deyək ki, 100 il əvvəl talışlarda “Gedərəm Masallıya, çörək yeyərəm ölərəm” (İsmayılova, 1998: 16) deyimi özünəqəsd mənasında idi.

Və ya molokanlar mal-qara saxlamazdılar. Əvəzində bostançılıq və quşçuluq sahəsində çox bacarıqlı idilər. Bu gün Azərbaycan mətbəxinin ən zəruri inqriyidentləri kimi görünən kartof, bibər, pomidor, qarğıdalı, günəbaxan XIX əsrin sonu XX əsrin əvvələrində Azərbaycana yerli ruslar – molokanlar tərəfindən gətirilmişdir.

Türkmənşəli əhali arasında maldarlıqla bağlı biliklərdən başqa, xalq təbabətinin ənənəvi güclü olması (bu xalq həkimliyinə türkəcarə - əslində "Türki çarə", yəni "Türk müalicəsi" deyilməsində aşkar görünür) türk xalq həkimliyini populyarlaşdırmışdı.

Tarixi məlumatlardan öyrənmək olur ki, qədim türklər üçün ev tikmək, təsərrüfatla məşğul olmaq, hərbdə iştirak, ov və s. xüsusi adamların yox, hər kəsin işi idi. Bir növ ümumxalq işi idi və hər kəs bu sahələrdə müəyyən biliklərə malik olmağa məcburdu. Bununla yanaşı, xalq elminin xüsusi peşəkarlar da mövcud idi:

Sınçı – döyüşçüləri, hərbi ləvazimatları, döyüş atlarını dəyərləndirən xüsusi bilik sahibləri.

Atalar – adət-ənənələri, etiketləri, ritualları, onların icrasına nəzarət edən ağsaqqallar. Ənənəvi dini, şifahi tarixi, hüquq və qayda-qanunların bilicisi olan atalar eləcə də canlı "konstitutsiyalar" idilər. Ataların sözü "ana qanun"un ifadəsi idi.

Sınıqçı – travmatoloq.

Mamaçı – qadın həkimi, ginekoloq.

Çöpçü – otolarinqoloq.

Çindar, çildağçı – psixoterapevt və s.

Folklor biliciləri - ravilər, naqqallar, ağıçılar kimi şifahi ədəbiyyat biliciləri artıq sıradan çıxmışlar. Ənənəvi aşıq sənəti da təxminən sıradan çıxmaq üzrədir.

Maraqlıdır ki, bu mədəni və psixoloji nüanslara diqqət edilməsi folklorda özünü göstərir:

Tərəkəmənin özünü söy, itini söymə.

Azərbaycan əhalisinin əsas hissəsinin türk mənşəli olub, zatən nomadlara xas tolerantlığı saxlaması müxtəlif konfessiyaların yanaşı yaşaya bilməsini də mümkün edirdi. Digər yandan İslam dini də xristian və yəhudi əhalini "əhli-kitab" hesab edirdi. Hətta müxtəlif dini konfessiyaların müqəddəs hesab etdikləri məkanlar – sünni övliyaların, şiə imamzadələrin, seyidlərin, sufi mürşidlərin, xristian müqəddəslərinin və nüfuzlu ruhanilərinin məzarları, hətta tanrıçılıq və zərdüştçüliklə əlaqəli müqəddəs yerlər ümumi şəkildə pirlər, ziyarətgahlar kimi qəbul olunmuşdur. Azərbaycan folklorunda Musa və Süleyman peyğəmbərlər haqqında nağıl, əfsanə və rəvayətlər Məhəmməd peyğəmbər haqqında analoji mətnlərdən az deyil, bəlkə də çoxdur. Azərbaycanlılar həm İsanın doğum günü kimi qeyd olunan yeni ili, yaz gün bərabərliyini (22 mart) – Novruzu, Naxçıvan və digər bəzi yerlərdə qismən də Xıdır Əlləzi (Qış ortası, təx. 7-15 fevral) qeyd edirlər. Halbuki, müsəlman yeni ili - hicrət (1 məhərrəm) qeyd olunmur.

Bunlarla yanaşı, folklorda bir etnik, dini, məhəlli qrupun özünü digər – əsasən qonşu etnik, dini və ya məhəlli qrupa qarşı qoyması halları ilə qarşılaşmaq olar. Amma folklorda "gülən-gülünən", "doğru-yalan", "xeyir-şər", "düz-əyri" və s. kimi oppozisiyalarda tərəflərin təmsilçiləri həmişə yerlərini dəyişə bilir və folklorda əks tərəflə uzlaşma imkanları və cəhdləri (tutaq ki, kafir hökmdarın qızı, kafir ölkənin çobanı və s. qəhrəman qütbündədir) də yer alır. Yəni cəmiyyətdəki sosial, dini, etnik, regional-mədəni, təsərrüfatla bağlı fərqlilikləri folklor "anlaşılan", barışılması yolları olan və ya qəbul edilməsi mümkün fərqlilik kimi alt qatda bizə təqdim edə bilir.

**Nəticə**. Beləliklə, folklor multikultural zənginliyin bir aynası olaraq bizə maraqlı materiallar təqdim edə bilir və multikulturalizmi əzəldən Azərbaycan xalq mənəviyyatı üçün xarakterik hesab etməmiz üçün faktlar verə bilir. Eyni zamanda fərqli etnik mədəniyyətlərin yanaşı yaşaya bilməsi və dini tolerantlığın həm vətənimizin coğrafiyası, həm də xalqımızın tarixi, psixologiyası, mentalitetinə bağlı səbəblərini müəyyən edir.

**Xülasə**

Azərbaycanın folkloru multikultural zənginliyin bir aynası olaraq bizə maraqlı materiallar təqdim edə və multikulturalizmi əzəldən Azərbaycan xalq mənəviyyatı üçün xarakterik hesab etməmiz üçün faktlar verə bilir. Məqalədə Azərbaycandakı azsaylı xalqların və milli azlıqların ənənəvi bilik və inamlarının multikultural fərqliliklə bağlı özəllikləri öyrənilir. Fərqli mədəniyyətlərin yanaşı yaşadığı cəmiyyətdə folklorun fərqlilikləri "anlaşılan", "düzəldilməsi", barışılması və ya qəbul edilməsi mümkün fərqlilik kimi təqdim edə bilmə funksiyasına diqqət çəkilir.

**Резюме**

Азербайджанский фольклор являясь зеркалом мультикультурального богатства может представить нам интересные материалы и факты, позволяющие считать мультикультурализм с древних времен характерным явлением для Азербайджанской народной духовности.

В статье изучаются характерные особенности, связанные мультикультуральным разнообразием, традиционные знания и верования малочисленных народов и национальных меньшиств в Азербайджане. Все это изучается в контексте разнообразия фольклора в обществе, где рядом друг с другом существуют различные культуры.

**Summary**

Azerbaijan folklore as a mirror of multicultural richness can present and give us interesting materials and facts that we can consider multicultural characteristic for Azerbaijani people's spirituality. In the article the features of traditional knowledge and beliefs of small nations and minorities in Azerbaijan dealing with the multicultural difference are studied. In the society where the different cultures live together the attention is paid to the the presented function of folklore differences "understandable", "corrections", reconciling or accepting such as possible differences.

**Ədəbiyyat:**

1. Azsaylı xalqların folkloru, I kitab. Toplayıb tərtib edəni M.Yaqubqızı. Bakı: Elm və təhsil, 2015
2. F.Həvilova.Azərbaycanda əkinçilik və maldarlıq (kayzen.az›tag/maldarliq)
3. М.О.Шахов. Религиозное и научное знание (episteme.iph.ras.ru›shahov2.doc)
4. Исмаилова Л.А. Земледельческий календарь азербайджанцев. Автореферат дисс. канд. иск. наук. Москва: МГУ, 1998, 24 с.
5. Рубрук Г. (1957). Путешествие в Восточные страны / Джованни дель Плано Карпини. История монгалов. Гильем де Рубрук. Путешествие в Восточные страны. М.: Наука, 1957

**İradə Əliyeva, tarix üzrə fəlsəfə doktoru,**
**AMEATarix İnstitutu, elmi katib**
**Azərbaycan, Bakı**

# "XIX ƏSRİN BİRİNCİ YARISINDA GÜRCÜ EGZARXININ İNGİLOYLARI XRİSTİANLAŞDIRMAQ CƏHDLƏRİ”

***Açar sözlər:*** *İngiloylar, Gürcüstan, xristianlıq, ekzarx, Zaqatala*
***Ключевые слова:*** *Ингилои, Грузия, христианство, экзарх Закатала*
***Key words:*** *Ingiloys, Georgian, christianization, exarchate, Zagatala*

Azərbaycanın şimal-qərbində, Car-Balakən camaatlığı və İlisu sultanlığında (indiki Balakən, Zaqatala, Qax rayonlarının ərazilərində azərbaycanlılarla (yəni muğallar) yanaşı, avarlar, saxurlar, ingiloylar yaşayır. Əsasən Qanıx – Alazan vadisində məskunlaşmış ingiloylar qədim gel tayfalarının daşıyıcıları olmaqla ayrıca bir etnosdur. İngiloylar konfessional qrup deyil müstəqil avtaxton etnosdur.

Alazan vadisində yerləşmiş, əkinçilik və maldarlıqla məşğul olan ingiloyların tarixinə dair əldə olunmuş faktiki materialların təhlili və onlardan çıxarılan nəticələr göstərir ki, elmin praktikasında tarixi keçmişi bu qədər saxtalaşdırılmış və tarixi bu qədər təhrif olunmuş digər bir etnos təsəvvür etmək çətindir.

Zaqatala dairəsinin münbit hissəsində yaşayan yerli əhali dağlıq, sərt Dağıstandan köçüb gəlmişləri qəbul etmiş və onlara müsəlman dini adətinə uyğun olaraq yeni gəlmiş qonşularına xüsusi xeyriyyə vergisi olan “zəkat” ödəmişlər [**1, 92-92 arxa**].

Çarizm Qafqazın müsəlman əhalisi arasında xristianlaşdırmaq siyasətin həyata keçirilməsinə hələ XVIII əsrin ortalarından başlamışdı. Müsəlman əhali arasında xristianlığı yaymaq məqsədilə Qafqaza pravoslav missionerləri hələ 1745-ci ildə göndərilmiş, lakin bu ilk cəhd uğursuz olmuş, onlar iyirmi ildən artıq bir müddətdə əsasən osetinlərdən olmaqla 2142 nəfəri xristianlığı qəbul etməyə məcbur edə bilmişdilər. Qafqazın dağlı xalqları arasında xristianlığı yaymaq məqsədilə 1771-ci ildə təşkil olunmuş Mozdok-Osetin komissiyası da yarandığı vaxtdan 1792-ci ilə kimi keçmiş iyirmi il müddətində cəmi 6675 nəfəri pravoslavlaşdıra bilmişdi [**7, 24-81**]. Şimal-Qərbi Azərbaycanda isə bu məkrli niyyətin həyata keçirilməsi üçün ingiloylar seçilmiş, bu məqsədlə də onların xristianlaşdırılması, pravoslavlaşdırılması, gürcüləşdirilməsi kimi çirkin bir siyasətə əl atılması nəzərdə tutulmuşdu.Bölgənin tarixi və əhalisi haqqında hələ kifayət qədər məlumatlara malik olmayan Rusiya generalları və Qafqazda böyük Gürcüstan yaratmaq xülyasına düşmüş gürcü şovinistləri Şimal – Qərbi Azərbaycan torpaqlarının “əzəli Gürcüstan torpaqları”, bölgənin qədim sakinləri olan ingiloyları isə müsəlman olmalarına baxmayaraq, “xristian həyat tərzi keçirən” və gizlində guya bu dinə sitayiş edən “gürcülər” hesab edirdilər. İmperiya maraqları ilə üst-üstə düşdüyündən Rusiya generalları gürcülərin məkirli niyyətlərini ideoloji silaha çevrilərək ingiloylara münasibətdə öz planlarını qurmağa başladılar.

Bölgənin əhalisi və tarixi haqqında məlumat toplayan çarizmin ideoloqları Car-Balakən camaatlığının tarixi keçmişi ilə bağlı gürcü tarixi ədəbiyyatında kök salmış yanlış iddianı – qədim gürcü torpaqları olan bu bölgənin Şah Abbasın köməyi ilə dağlılar tərəfindən işğal olunması, yerli gürcü əhalinin zorla müsəlmanlaşdırılması kimi yanlış konsepsiyanı qəbul etməklə Rusiyanın bu “tarixi ədalətsizliyi” aradan qaldırmaq, bölgəni işğal edərək Gürcüstana qatmaq zorunda olduğunu qeyd edirdilər [**5, 19**]. Tarixşünaslıqda geniş yayılmış bu konsepsiyaya görə ingiloylar “müsəlmanlaşdırılmış gürcülər” hesab olunur və Rusiya tarixşünaslığında konkret məqsədlə formalaşdırılmış olan bu konsepsiya gürcü tədqiqatçıları tərəfindən böyük dəstək alaraq daha da inkişaf etdirilmişdir.

Qafqazda Pravoslav Xristianlığının Bərpası Cəmiyyətinin müxtəlif illərə dair hesabatları ilə yanaşı, bu cəmiyyətin yaranmasının 50 illiyinə həsr olunmuş 1910-cu il nəşri olan yubiley buraxılışında cəmiyyətin 50 illik fəaliyyəti (1859-1909-cu illər) zamanı Qafqazın müsəlman əhalisi arasında xristianlığın yayılması sahəsində gördüyü işlərdən bəhs olunur. Burada cəmiyyətin Zaqatala dairəsindəki fəaliyyətindən, onun yerli əhali, xüsusilə ingiloylar arasında xristianlığın yayılması üçün

gördüyü tədbirlərdən, kilsə kitabxanalarının açılması, kilsələrin, ibadət evlərinin tikilməsi üçün vəsaitin ayrılması, dini-ideoloji təbliğat sahəsindəki fəaliyyəti barədə məlumat verilir. Çar Rusiyasının Şimal-Qərbi Azərbaycanın işğalı ilə bağlı planlarında ingiloylara xüsusi yer ayrılmaqla yanaşı, bölgə əhalisinin assimilyasiya edilməsi məqsədi ilə buraya kazakların köçürülməsi, ayrı-ayrı icmalar arasında, eləcə də müttəfiq münasibətlərdə olan Car-Balakən camaatlığı ilə İlisu sultanlığı arasında nifaq salmaq kimi tədbirlər də daxil idi [**8, 17**].

Çar məmurları tərəfindən bölgə əhalisinin assimilyasiya olunması məqsədilə hazırlanmış digər bir layihəyə görə isə camaatlıqların qonşu müsəlman xalqlarla əlaqələrini mümkün qədər məhdudlaşdırmaq, əvəzində isə gürcü Kaxetiya ilə münasibətlərin qurulması məqsədilə hərtərəfli şəraitin yaradılması nəzərdə tutulmuşdu. Bütün bu tədbirlərdən məqsəd bölgədəki əsrlərin sınağından çıxmış güclü türk-islam ittifaqı amilini məhv etmək idi.

Missionerlik fəaliyyəti ilə məşğul olan digər keşişlərdən fərqli olaraq, sənədlərdə keşiş İov Tsiskarovun aprelin 27-dən - iyulun 26-dək olan qısa müddətdə 1145 nəfəri xristianlığa döndərdiyi qeyd olunur. Keşiş İov Tsiskarovun buna necə nail olduğu sənədlərdə qeyd olunmasa da, artıq faktiki deyil, "formal xristianlaşdırma" prosesinin başlandığı aydın olur [**10, 2-15 arxa**].

İngiloyların xristianlığın qəbulu işinə şirnikləndirilməsi məqsədilə müxtəlif yollara əl atılırdı. Belə tədbirlərdən biri barədə Car-Balakən vilayətinin rəisinin general adyutant Reada göndərdiyi 1855-ci il 17 fevral tarixli məruzəsində o, Zaqataladakı müsəlmanlar üçün nəzərdə tutulmuş birsinifli ibtidai məktəbə xristianlığı qəbul etmiş ingiloyların da qəbul olunması məqsədilə həmin məktəbin həm müsəlman, həm də xristian öyrəncilərin qəbul olunacağı ikisinifli məktəbə çevrilməsinə razılığın verilməsini xahiş edirdi. Onun fikrincə, xristian və müsəlmanların bir yerdə oxuması son nəticədə onları bir-birinə daha da yaxınlaşdırardı. Bu məktəbdə Cənubi Qafqazdakı digər bu tipli məktəblərdə keçilən fənlərlə yanaşı, həm də dini mənsubiyyətindən asılı olmayaraq, bütün ingiloylar üçün məcburi şəkildə gürcü dilinin, eləcə də müsəlmanlara tatar (azərbaycan) dilinin, müsəlman və xristianlara müvafiq olaraq islam və xristian dini ehkamlarının tədrisi də nəzərdə tutulmuşdu [9, 5-8]. Lakin həmin vaxtı Şimali Qafqazdakı hərəkatın hələ də davam etməsi çarizmin əl-qolunu bağlayır, xristianlığın yayılması işində sərt, repressiv tədbirlərə əl atmağa imkan vermirdi. Lakin bütün bunlara baxmayaraq, verilən rəsmi məlumatlarda 1850-1856-cı illərdə İlisu məntəqəsinin Qax, Əlibəyli, Qorağan, Kötüklü, Meşəbaş kəndlərinin əhalisinin bütövlükdə, Şotavar və Yengiandan bir neçə ailənin, digər kəndlərdən isə tək-tük adamların zorla xristianlaşdırıldığı qeyd olunurdu [**4, 10-11**].

Gürcüstan Mərkəzi Dövlət Tarix Arxivinin fondlarında saxlanılan sənədlərdə xristianlaşdırılmış ingiloyların adları, onlara verilən xristian adı, hansı gün xristianlaşdırılıblar o tarix və xristian işini aparan keşişin adı göstərilmiş bu sənədlər yüz iyirmi səhifədən ibarət olmaqla 1850 – 1869-cu illəri əhatə edir [**4, 10-11**]. [**Sənəd 1, 2, 3**]

Verilmiş bütün güzəşt və imtiyazlara baxmayaraq ingiloyların böyük əksəriyyəti ata-babalarının, əcdadlarının dinindən dönmək istəmir, var gücləri ilə ona qarşı müqavimət göstərirdilər.

Çarizmin yerlərdəki məmurlarının belə etiraf etdiyi kimi "ingiloyların məsələsinin qaydaya salınması və onlar arasında xristianlığın yayılması işinə kömək etmək məqsədilə 1859-cu il fərmanının tətbiqi ilə həyata keçirilən inzibati tədbirlər tükəndiyindən bu işdə yeganə vasitə kimi zor tətbiqi üsulu seçilir [**2, 63**]. Bu barədə dairədə işləmiş müstəntiq Purseladze yazırdı: "...xristianlığı qəbul etmək istəməyənlərin, buna etiraz edənlərin döyülərək işgəncə verilməsi, müsəlman din xadimlərinin cəzalandırılması və hətta Sibirə sürgün olunması, hədə-qorxu, şirnikləndirmələr və s. kimi onlarla faktlar qeydə alınmışdır" [**6, 35**].

Edilən bütün ciddi cəhdlərə baxmayaraq, ingiloylar arasında aparılan xristianlaşdırma işi istənilən nəticəni vermir. Gətirilən faktlardan məlum olur ki, keçmiş müddətdə əhalidən xristianlığı qəbul edənlərin bir hissəsi onu çarizmin verdiyi yalançı vədlərə inanaraq qəbul etmişdisə, digər əksər hissəsinə zorakı yollarla qəbul etdirilmişdi. Aldadılan əhali yenidən müsəlmançılığa qayıtmaq tələbi ilə çarizmə müraciət edirdilər. Onlar dəfələrlə zorla xristianlaşdırılmaları ilə bağlı hakim dairələrə müraciət etsələr də, bu şikayət və narazılıqlar nəticəsiz qalırdı ki, bu da əhalidə çarizmə qarşı sonsuz nifrəti daha da dərinləşdirirdi [**3, 210-212**].

Zaqatala dairəsinin hakimiyyət orqanları və xristian missionerlərin Qafqaz komandanlığının himayəsi ilə bölgədə apardığı zorakı xristianlaşdırma – gürcüləşdirmə siyasəti yerli əhalinin ciddi

narazılığına və XIX əsrin 60-cı illərinin əvvəllərində burada həyəcanlı vəziyyətin yaranmasına, 1861-ci ildən etibarən dairənin bir çox kəndlərində pərakəndə çıxışların başlanmasına səbəb olmuşdu. Bəhs olunan bu dövrdə əhalinin zorakı xristianlaşdırma siyasətinə qarşı silahlı mübarizəyə qalxmasında 1860-cı ildən etibarən Azərbaycanın şimal qəzalarında, eləcə də Zaqatala dairəsində geniş yayılmağa başlamış "Zikr" adlanan təlimin də xüsusi rolu olmuşdur. Bölgənin demək olar ki, bütün böyük kəndlərində, o cümlədən böyük ingiloy icmalarında təbliğatçılar fəaliyyət göstərirdilər və onlar əhalini açıq şəkildə qazavata – kafirlərə qarşı cihada, müqəddəs savaşa səsləyirdilər.

1861-ci ildən etibarən Əliabad başda olmaqla bölgənin, demək olar ki, bütün kəndlərində zorakı xristianlaşdırmaya qarşı mübarizə başlayır. Əvvəlcə ingiloylar bütün mümkün olan vasitələrdən istifadə edərək bu siyasətə qarşı öz etirazını nümayiş etdirirlər. Onlar dəfələrlə zorakı xristianlaşdırma ilə bağlı hakimiyyət orqanlarına yazılı müraciətlər etsələr də, bu şikayət ərizələri nəticəsiz qalmışdı. Semyon Esadze yazır ki, "Hakimiyyət orqanlarının özbaşınalıqlarından Tiflisə dəfələrlə göndərilmiş şikayətlər, bir neçə dəfə aparılmış istintaqlar nəticəsiz qalmışdı. Hətta ali hakimiyyət administrasiyasının diqqətini özlərinə cəlb etmək məqsədilə əhalinin yekdilliklə Türkiyəyə köçürülmələri ilə bağlı xahişləri belə hakimiyyət orqanlarında heç bir reaksiya doğurmadı. Nəticədə 1862-ci ildə Əliabad kəndindən 40 araba ailə məcburi xristianlaşdırmaya etiraz əlaməti olaraq Türkiyəyə köçmüş və hazırda onların Türkiyə Respublikasının Adana vilayətinin Ceyhan ilçəsindəki Dağıstan kəndində yaşayan varisləri – bu gündə Əliabad kəndi ilə əlaqələrini üzməmişdir. Lakin Cənubi Qafqaz müftisinin, o cümlədən bir sıra nüfuzlu müsəlman ruhanilərinin yardımı və hökumətin gördüyü tədbirlər sayəsində Türkiyəyə bu kütləvi köçün genişlənmədən qarşısını almaq mümkün olmuşdu [**12, 214-215**]. [**Sənəd 4, 5, 6**]

Bütün dinc vasitələrlə istəklərinə nail ola bilməyən ingiloylar zorla xristianlaşdırılmaları ilə barışa bilməyib 1863-cü ilin əvvəllərindən etibarən silaha sarılırlar. Həmin vaxt məcburi xristianlaşmaya qarşı fəal mübarizə aparan Car kəndinin üsyançı dəstələrinin təşəbbüsü ilə ayağa qalxmış ən böyük ingiloy kəndi olan Əliabad kəndliləri də onlarla birləşərək həm dinc, həm də zorakı vasitələrdən istifadə etməklə əhalini xristianlığı qəbul etməkdən çəkinməyə çağırırlar. Məhz həmin silahlı dəstələrin hökumət qüvvələrinə qarşı müvəffəqiyyətli mübarizəsinin nəticəsində missionerlər tərəfindən zorla xristianlığı qəbul etməyə məcbur edilmiş adamlar yenidən müsəlmanlığa qayıdırdılar [**11, 75**].

Qafqaz komandanlığı və yerli rus idarə orqanlarının bu bölgədə apardığı siyasətinə qarşı yaranan narazılığın kütləvi həyəcanlar, açıq çıxışlara səbəb ola biləcəyindən çəkinən çar hakimiyyəti bu istiqamətdəki siyasətini yumşaltmağa məcbur olur.

1861-1863-cü illərdə dairədəki xristianlaşdırmaya qarşı ayrı-ayrı silahlı dəstələr tərəfindən başlanmış pərakəndə çıxışların kulminasiya nöqtəsi, Azərbaycan tarixində müqavimət hərəkatı kimi tanınan 1863-cü il üsyanı olur. Üsyan iyunun əvvəllərində baş verir. Artıq 1862-ci ildən Balakəndə kilsə tikintisi üçün əməli addımların atılması, zorakı xristianlaşdırma siyasətinin həyata keçirilməsinə cəhd üsyanın məhz buradan, tarixən islam dininin dayaqlarının çox güclü olduğu və ingiloyların, demək olar ki, yaşamadığı bu kənddən alovlanmasına səbəb yaratmışdır.

Beləliklə, nəticə olaraq qeyd etmək lazımdır ki, 1863-cü il Əliabad üsyanının ən mühüm əhəmiyyəti ondan ibarət olur ki, çarizm ingiloylar arasında, ümumiyyətlə, Zaqatala dairəsində zorakı xristianlaşma siyasətindən müvəqqəti əl çəkməyə məcbur olur. 1863-1865-ci illərdə Qax, Əlibəyli, Qorağanın bir hissəsi istisna olmaqla digər ingiloy kəndləri tam olaraq islama qayıtdılar və bu kəndlərdə yaradılmış aşağı kilsə təşkilatları – prixodlar ləğv olundu. Balakən kəndindəki kilsənin tikintisi dayandırıldı.

Xalqlar həbsxanası olan Rus imperiyası tarixində 1863-cü il Əliabad üsyanı qalibiyyətlə başa çatması və üsyançıların istədiklərinə nail olması baxımından özünəməxsusluğu ilə seçilir və mühüm əhəmiyyət kəsb edir.

**Xülasə**

Kənd təsərrüfatı və maldarlıqla məşğul olan ingiloylar tarixən hakim dairələrə sadiq olmuşlar. Bununla belə, XIX əsrin ortalarından başlayaraq Car Balakənin azad cəmiyyətlərinin dəstəyindən məhrum olan Əliabad kəndinin ingiloy əhalisi güclə xristianlaşdırma şəraitində rus hakim dairələrinə silahlı müqavimət göstərməyə başladı. Bu anlamda, ərazidə xristianlıq geniş yayıla bilmədi. İngiloylar yerlərdə çar hökumət dairələrinin siyasətindən narazılıqlar ifadə etməyə başladılar. Bu 1863-cü ildə Əliabad kəndində üsyana səbəb oldu. Zaqatala və Car-Balakəndəki üsyandan fərqli olaraq hakim dairələr ingiloylara qarşı güc tətbiq etmədilər. Bunu ingiloyların qələbəsi kimi dəyərləndirmək olar. Nəticə olaraq hökumət ingiloyları güclə xristianlaşdırmaq fikrindən əl çəkdi və zorla xristianlaşdırılmış əhali yenidən islama qayıtdı.

**Резюме**

Ингилои, исторически занимавщиеся земледелием и скотоводством, всегда были лояльны к властям. Однако, начиная с середины XIX века, в условиях насильственной христианизации, лишенные помощи свободных обществ Джара-Балакана, ингилойское население селения Алиабад начало оказывать вооруженное сопротивление русским властям. В этом смысле христианство не получило широкое распространение среди ингилойцев. Ингилойцы посылали жалобы в государственные органы, где выражали недовольство подобной политике царских властей. Поскольку данные жалобы не нашли отклика, это стало одной из причин восстания в селении Алиабад в 1863 году. В отличие от Закатальского и Джаро-Балаканского восстания, власти не применили силу против ингилойцев, что можно считать победой последних. В результате восстания правительство отказалось от политики насильственной христианизации ингилойцев, а многие из тех, кто принял христианство вернулись в Ислам.

**Summary**

Ingiloys historically engaged in agriculture and cattle breeding have always been loyal to the authorities. However, since the middle of the 19th century, in conditions of forced Christianization, deprived of the help of free societies Jar-Balakan, Ingiloian population of the village of Aliabad Russian authorities started to provide armed resistance. In this sense, Christianity couldn't spread in this region. As the given complaints have not found the response. It has served one of the reasons of revolt in settlement Aliabad in 1863. As against Zagatala's and Jar-Balakan rebellion, authorities have not applied force against ingolian which have actually won. As a result of rebellion the government has refused a policy violent Christianity ingolian and many of those who has accepted Christianity have returned to Islam.

**Ədəbiyyat:**

1. Azərbaycan Respublikası Dövlət Tarix Arxivi, F.15, s.1, iş 32
2. F. 125, s.1, iş 142
3. F. 579, s.1, iş 1
4. F. 579, s.1, iş 4
5. Hacıəli Ş. Şimal-Qərbi Azərbaycan: İngiloylar. Bakı, Təhsil, 2007, 277s.
6. Əliyeva İ.H.1863-cü il Əliabad üsyanı. Azərbaycan Texniki Universiteti Elmi Əsərləri, 2009, №2,
7. Акты собранные Кавказской Археографической Комиссией. T.VIII, Тифлис, Типог. Главного Управления Наместника Кавказа,1881.
8. Новая реч. 1886 (разные номера).
9. Центральный Государственный Исторический Архив Грузи (ЦГИАГ) 416, s.2, iş 35
10. 488, s. 1, iş 24265
11. F. 4, s.8, iş 166
12. Эсадзе С. Историческая записка об управлении Кавказом, ч.1, Тифлис, типография Гуттенбергь, 1907, 616с.

Sənəd 1.



Списокъ
объ окрещенныхъ Ингилойцахъ.

| № | Имена до крещенія и фамиліи | Имена во Св. крещеніи | Когда крещены | Кѣмъ крещены? |
|---|---|---|---|---|
| | Въ 1850 г. | | | |
| 1 | Али Баба Бугулишвили | Іоаннъ | 5 Октября | Священникомъ |
| 2 | Дурмишъ Али Мисаишвили | Георгій | того же | Іоакимомъ |
| 3 | Кадыръ Асанашвили | Гавріилъ | числа | Романовымъ |
| 4 | Тариманъ Мурадашвили | Александръ | и мѣ- | Священ- |
| 5 | Ахмедъ Басраши Али швили | Николай | сяца | никомъ |
| 6 | Халилъ Чиргитышвили | Михаилъ | тогоже | Іоакимомъ |
| 7 | Бедиръ Мурадашвили | Константинъ | числа и | Рома- |
| 8 | Пеиманъ Ибрагимъ Халила швили | Симеонъ | мѣсяца | новымъ. |

Въ 1851 г.

Sənəd 2.



Въ 1852 году 16

Sənəd 3.



1856 года

Sənəd 4.



Вѣдомость 18

| | | | | |
|---|---|---|---|---|
| | | 18/9 | 40 | Курбанъ Муса-хали |
| | | 19/10 | 31 | Гаджи-Османъ Гаджи-Ма- [illegible] сынъ |
| | | | | жена его, [illegible] |
| | | | | [illegible] Алибадъ |
| 4 | 3 | 26/11 | 357 | Мамедъ [illegible] Гаджи-Магомедбековичъ ([illegible]) |
| | | | | жена его, [illegible] кизы |
| | | | | мать его, [illegible] Гаджи-[illegible] кизы |
| 3 | 2 | | | братья его [illegible] Гаджи-Магомедъ |
| | | | 32 | сестра его, Фаты |
| 1 | | 21/12 | 357 | [illegible] Юсуфъ сынъ [illegible] |
| | | | | жена его, Тамара Гасанъ кизы |
| 2 | 1 | | | сынъ его, Гасанъ |
| | | | | жена брата его, у него умершаго, [illegible] кизы |
| | | | | [illegible] Гаджи [illegible] |

Sənəd 5.



Sənəd 6.



**Vidadi Rzayev**
**Azərbaycan Respublikasının Prezidenti yanında Bilik Fondunun**
**Ölkədaxili layihələr sektorunun baş mütəxəssisi**
*rzayev1956@bk.ru*

# İSLAM VƏ MÜASİRLİK

***Açar sözlər:*** *din,sivilizasiya, sekulyarizm, radikalizm, islam*
***Ключевые слова:*** *религии, цивилизации, секуляризм, радикализм, Ислам*
***Key words:*** *religion, civilization, secularism, radical, Islam*

Bəşəriyyət yarandığı və özünü tanıdığı dövrlərdən başlayaraq tarixə müxtəlif dinlər, təriqətlər bəxş etmiş, insanlıq tarixi sosial-ictimai əsaslara dayansa da, dinlər, teoloji baxışlar mübarizəsindən ibarət olmuş, son orta əsrlər də daxil olmaqla istər Şərq, istərsə də Qərb sivilizasiyaları tarixində, demək olar ki, bütün hərəkat, cərəyan və çevrilişlər ya dini zəmində, ya da dini bayraq altında həyata keçirilmişdir. Bir sözlə, din uzun əsrlər boyu bəşəriyyətin ictimai-siyasi həyatının ayrılmaz hissəsi olmuşdur.

Fransa Burjua İnqilabı ilə başlayan və getdikcə daha çox ölkələri təsiri altına salan sekulyarizm (dinin dövlətdən ayrılması) ideyası 300 ilə yaxın bir dövrdə dini bəşəriyyətin siyasi və ictimai həyatından çıxarmağa çalışaraq buna müəyyən qədər nail olsa da, öz missiyasını başa çatdıra bilməmiş və hazırki mərhələdə, hətta mövqelərindən geri çəkilməyə başlamışdır.

Həqiqətən də, bu gün din Qərbdən tutmuş Şərqədək bütün meridianlarda getdikcə ən təsirli amillərdən birinə çevrilməkdədir. Avropada xristian-demokrat partiyalarının hakimiyyətə gəlməsi, Amerikada yüzlərlə yeni sektaların yaranması, Asiyada milli dirçəliş hərəkatlarının dini zəmində aparılması ilə xarakterizə olunan bu qayıdış ən böyük “dinsiz imperiya”nın SSRİ və sosialist ölkələri blokunun süqutu ilə nəticələnmişdir.

Tarix sübut edir ki, dünya dinləri arasında islam dini qədər qısa zaman kəsiyində güclü təsirə malik olmaqla daha geniş əraziləri əhatə edən digər bir din olmamışdır. Dünyanın müsəlman əhalisinin sayı 1975-ci ildə cəmi 500 milyon nəfər idisə, bu gün bu rəqəm 1,5 milyardı ötmüşdür. Qərbi Avropa tədqiqatçıları miqrasiya proseslərinin son dövrlərdə artması və təsiri nəticəsində çoxlu sayda avropalının islamı qəbul etməsi nəticəsində 40 -50 ildən sonra bu bölgənin islam dini üçün başlıca mərkəz olacağını həyəcanla proqnozlaşdırırlar.

Lakin müsəlmanların sayca artmasına baxmayaraq, hələ əsl mənada yekdil, bütöv bir ümmətdən danışmaq mümkün deyildir. Bir tərəfdə radikal islamın hakim olduğu Əfqanıstan, Əlcəzair, Liviya, Yəmən, digər tərəfdə vətəndaş müharibəsini yaşayan Suriya, İraq və qonşu ölkələrdə dini zəmində baş verən münaqişələr, yüz minlərlə insanın toqquşmalar nəticəsində öz yurdlarını tərk etmək məcburiyyətində qalması müasir islamın yaşadığı ağır mərhələni təşkil edir. Radikal islamçılıq və ya “islam fundamentalizmi” artıq dünyanın ən təhlükəli probleminə çevrilmişdir. Təəssüflə qeyd etmək lazımdır ki, ən acı və qlobal konfliktlərin səbəbkarı kimi bu gün Qərb mətbuatında islam fundamentalizmi önə çəkilir. Əslində baş verən münaqişələr, toqquşmalar və terror dalğasını körükləyən qüvvələr elə məhz Qərbin xüsusi orqanları tərəfindən yaradılmış, maliyyələşdirilmiş dırnaqarası islamçı təşkilat və qruplardır. Belə radikal dini cərəyanlardan olan “vəhhabilik” hələ XVIII əsrin ortalarında Britaniya xüsusi xidmət orqanları tərəfindən yaradılmışdır. Tam əminliklə demək mümkündür ki, bu cərəyan İslamı və müsəlmanları mədəni dünyanın gözündən salmaq, müsəlman əhalinin yaşadığı ərazilərdə qarşıdurmalar yaratmaq, Qərbin geopolitik maraqları baxımından faydalanmaq məqsədi ilə yaradılmış uzunmüddətli bir siyasi proyektdir. Bu proyektin davamı olaraq Qərbin dəstəyi ilə isə son onilliklərdə “Əl-Kaidə”, “Boko –həram”, İŞİD kimi digər terrorçu dini cərəyanların yaradılmasına rəvac verilmişdir.

Əslində, özü-özlüyündə islam radikalizmdən çox uzaq olan bir dindir. Bu gün Qərb mətbuatında təbliğ edilənlərin tam əksinə olaraq, islam digər dinlərdən də artıq mərhəmətə, rəhmdilliyə, bağışlamağa, nəvazişə çağıran ideologiyaya əsaslanır. İslamın müqəddəs kitabı olan “Qurani-

Kərim" nahaq yerə Rəhman və Rəhim olan Allahın adı ilə başlamır və bu ad sonralar dəfələrlə təkrarlanır. İslam Peyğəmbərindən bəhs edən yüzlərlə hədis insanların bir-birilərini bağışlamağı, rəhm etməyi tövsiyə edir.

Bununla belə, islam eyni zamanda acizliyi, zülmə boyun əyməyi və dini inanca təzyiqi sükutla qarşılamağı da qətiyyətlə pisləyir. İslam mahiyyət etibari ilə radikallıqdan çox-çox uzaq olduğu halda, özünə qarşı təzyiqlərə də son dərəcə həssaslıqla reaksiya göstərir. Tarixi faktlar sübut edir ki, islam radikallığı əslində antiislam radikallığına qarşı cavab addımı olmuşdur.

Etiraf edilməlidir ki, bu gün islam düşüncəsi müəyyən mənada böhran yaşayır. İslam dininə itaət edənlər arasında məzmundan daha çox formaya diqqət edənlərin sayı artmışdır ki, bu da islamın mahiyyətinə zərəz verir. İslam peyğəmbəri səhabələri arasında tez-tez təkrarlayardı ki, "Mən gözəl əxlaqı tamamlamaq üçün göndərilmişəm". Əslində "Qurani-Kərim" bir əxlaq, ədəb-ərkan kodeksi olmaqdan daha çox yüksək ideyalar mənbəyidir. Bunun nəticəsidir ki, İslam dini əsrlər boyu bizim mənəviyyatımızın əsasını təşkil etmiş, müsəlmanların dünyada layiqli yer yutmasını təmin etmişdir. İslam dini insanları həmişə saflığa, təmizliyə, şəfqətə, ülvi mənəviyyata dəvət etmişdir.

Söz yox ki, müasir dünyanın ən aktual problemlərindən biri də din və dövlət münasibətləri məsələsidir. Bu məsələ son onilliklərdə çoxsaylı regional və beynəlxalq konfrans, diskussiya, forum, görüş, parlament iclaslarının mövzularına çevrilmiş, mübahisə, hətta münaqişə səbəbi də olmuşdur. Azərbaycan dünyada az ölkələrdən sayıla bilər ki, din və dövlət münasibətləri demokratik və sivil həll edilmiş olsun.

Hazırda Azərbaycanda yaşayan əhalinin böyük əksəriyyətini müsəlmanlar təşkil etdiyi halda, burada digər dinlərin nümayəndələri də tam sərbəst və azad yaşayırlar. Digər dinlərin nümayəndələrinin öz dini ayinlərini sərbəst icra etmələri üçün tam şərait yaradılmışdır. Azərbaycan hüquqi, demokratik, dünyəvi və unitar dövlət kimi dünya birliyində layiqli yer tutmaqla dövlət-din münasibətlətini qanunçuluq əsasında qurur və dövlət dini inancların sağlam məcrada inkişafı üçün hər cür dəstək göstərir. Dini bilgiləri xurafat və nadanlıqdan qorumaq üçün dövlət tərəfindən dini təhsilin inkişafına xüsusi önəm verilir. Elə bu məqsədlə 1991-ci ildən Bakı İslam Universiteti və 1992-ci ildən Bakı Dövlət Universitetində İlahiyyat fakültəsi açılmışdır. Sovetlər dönəmində Azərbaycanda cəmi 17 məscid fəaliyyət göstərdiyi halda bu gün onların sayı 2000-i ötmüşdür.

Müasir dünyada dərinləşən sivilizasiyalararası toqquşmalar və ziddiyyətlər hər bir xalqın milli-mənəvi və dini dəyərlərinin qorunması zərurətini dövrün aktual məsələlərindən birinə çevirib.

İlk baxışda təbii və mütərəqqi görünən bu meyillər bəzi hallarda sivil bəşər cəmiyyətinin minilliklər boyu əxz etdiyi dinc yanaşı yaşamaq kimi ali dəyərə kölgə salır, onun etnik, irqi, dini və siyasi dözümsüzlük kimi səciyyələnən ksenofobiya ilə əvəzlənməsinə rəvac verir. Milli özünəməxsusluğu qorumaq instikti və yaxud bəhanəsi altında son nəticədə başqa dinlərə, hətta millətlərə münasibətdə dözümsüzlük halları artır.

İctimai münasibətlər sisteminin sivil şəkildə tənzimlənməsi ilk növbədə insanların əks mədəniyyətlərə və dinlərə olan dözümlülük səviyyəsindən asılıdır. Təsadüfi deyil ki, son illər bir sıra iqtisadi, siyasi, humanitar və beynəlxalq tədbirlərin keçirilməsi məkanı kimi məhz Bakı şəhərinə üstünlük verilir. Respublikamız son illərdə Beynəlxalq Humanitar Foruma, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin toplantısına, Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumuna, Dünya Dini Liderlərinin Zirvə görüşünə və digər beynəlxalq tədbirlərə uğurla ev sahibliyi etmişdir. 2017-ci ildə isə Bakı şəhəri İslam Ölkələri idman yarışına qonaqpərvərliyini göstərəcəkdir. Bütün bunlar deməyə əsas verir ki, Azərbaycan multikultural və tolerant ideyalar ətrafında intellektual müzakirələr məkanına çevrilir.

Azərbaycanda mədəni müxtəlifliyin inkişafına xidmət edən və siyasi əsası Ümummilli lider Heydər Əliyev tərəfindən qoyulan bu strateji xətt hazırda ölkə rəhbəri İlham Əliyev tətəfindən uğurla davam etdirilir. "Mən hər bir azərbaycanlının Prezidenti olacağam" deyən İlham Əliyevin müxtəlif xalqların mədəniyyətlərinin və dini inanclarının qorunması və inkişaf etdirilməsi ilə bağlı müdrik siyasəti çağdaş dövrün reallıqları ilə şərtlənir.

**Xülasə**

Din uzun əsrlər boyu bəşəriyyətin ictimai – siyasi həyatının ayrılmaz hissəsi olmuşdur. Bu gün din Qərbdən tutmuş Şərqədək bütün meridianlarda getdikcə ən təsirli amillərdən birinə çevrilməkdədir.Tarix sübut edir ki, dünya dinləri arasında islam dini qədər qısa zaman kəsiyində güclü təsirə malik olmaqla daha geniş əraziləri əhatə edən digər bir din olmamışdır.

İslam radikalizmdən çox uzaq olan bir dindir. Bu gün İslam digər dinlərdən də artıq mərhəmətə, rəhmdilliyə, bağışlamağa, nəvazişə çağıran ideologiyaya əsaslanır. İslam peyğəmbərindən bəhs edən yüzlərlə hədis insanların bir-birilərini bağışlamağı, rəhm etməyi tövsiyə edir.

**Резюме**

Религия многие годы являлась неотъемлемой частью общественно-политической жизни человечества. В настоящее время религия постепенно превращается в самые трепетные факторы во всех меридианах, с Запада на Восток. История подтверждает, что между мировыми религиями не существовало такой религии как Ислам, которая имея сильное влияние, за короткое время охватила бы широкие территории.

Ислам является религией далекой от радикализма. В настоящее время Ислам основывается на идеологию призывающую к добродушию, милосердию, помилованию, ласке, нежели другие религии. Сотни хадисов рассказывающих об исламском Пророке призывают людей к помилованию, состраданию друг к другу.

**Summary**

The religion has been the main part of the social-political life of the humanity for centuries. Today the religion has been being one of the most effective factors in all meridians from the West to the East. The history proves that, there isn't any religion among the world religions except Islam in a short time which has powerful effect surrounding the wide territories .

The religion Islam differs from radicalism. Today Islam is based on the ideology of calling to caress, excused, charity and mercy more than other religions. Hundreds of hadithes about the prophet of Islam recommend to the humanity to forgive and to excuse one another.

**Mahir Qəribov, tarix üzrə fəlsəfə doktoru**
**İctimai Televiziyanın əməkdaşı**
**Azərbaycan, Bakı**

# QAFQAZDA MİLLİ MÜXTƏLİFLİYƏ QARŞI ERMƏNİ VANDALİZMİ

***Açar sözlər:*** *sivilizasiya, Qafqaz, albanlar, etnik müxtəliflik, multikultural dəyərlər*
***Ключевые слова:*** *цивилизации, Кавказ, албанцы, этническое разнообразие, мультикультурные ценности*
***Key words:*** *civilization, the Caucasus, Albanians, ethnic variety, multicultural values*

Qədim tarixə, zəngin mədəniyyətə sahib olan Qafqaz bölgəsi dünya sivilizasiyasının ən qədim izlərini özündə yaşadır. Avrasiya materikində yerləşən bu diyar Azığ mağarası, Qobustan qaya rəsmləri ilə bizə qədim əcdadlarımızdan xəbər verir. Antik dövrdə Azərbaycanın şimal vilayətlərində alban, kaspi, sak, kadusi, qarqar, uti, qel, leq və digər tayfalar yaşayırdılar. Ölkənin ərazisi Kiçik Qafqazdan və Arazın orta axarlarından Böyük Qafqaz dağlarının şimal-şərq qurtaracağına - Dərbəndə qədər uzanırdı. Hələ I əsrdə Yunan coğrafiyaşünası Strabon özünün 17 cildlik "Coğrafiya" əsərində yazırdı ki, "Qafqaz Albaniyasında 26 alban tayfası yaşayır və həmin tayfaların hər biri öz dilində danışır."[61] Təkcə bu faktı qeyd etmək kifayətdir ki, Azərbaycan ərazisində bu tarixi ənənəvilik bu gün də davam etməkdədir. Müasir dövrdə ölkəmizin şimal regionunda əlliyə yaxın azsaylı xalq və etnik qruplar yaşayır ki, onlar Azərbaycan dövlətinin qayğı və himayəsini daim üzərlərində hiss edirlər.

Təbii şəraiti, zəngin təbii ehtiyatlara malik olması səbəbi ilə daim böyük dövlətlərin maraq dairəsində olan Qafqazın qədim əhalisi haqqında antik müəlliflərdən Lucius Plutarx yazır ki, "Pompey Qafqazda yaşayan xalqların ərazisindən keçdi. Orada bu xalqlardan ən başlıcası Albanlar və İberlər idilər."[62]

Albanların Azərbaycanlıların soykökü, İberlərin isə gürcülərin əcdadı olduğunu nəzərə alsaq, belə bir sual ortaya çıxır. Bəs ermənilər harada yaşayırdılar?

Bu suala erməni tarixçisi Baxşi İşxanyan 1916-cı ildə yazdığı "Naradnosti Kafkaza" əsərində cavab verir. "Ermənilərin həqiqi vətəni kiçik Asiyadadır, yəni Rusiya hüdudlarından kənardadır və ermənilər Qafqaz ərazisinin müxtəlif hissələrində yalnız son əsrlərdə məskunlaşıblar."[63]

XVII əsrin sonlarından etibarən Rusiyanın rəsmi dövlət siyasətinin əsas istiqamətlərindən biri Cənubi Qafqazı ələ keçirmək və buranı Çar Rusiyasının cənub istinadgahına çevirmək idi. Bu məqsədlə İrandan və Osmanlı imperiyası ərazilərindən 400 minə qədər erməni XIX əsrin birinci yarısında Azərbaycana köçürülərək İrəvan, Dağlıq Qarabağ, Naxçıvan, Zəngəzur, Mehri, Dərələyəz, Vedibasar bölgələrində yerləşdirildi. Rusiyanın bu köçürmə siyasəti, 1878-ci il Berlin müqaviləsinin 61-ci maddəsinə uyğun olaraq Balkan xristianlarına verilən "milli müqəddəratını təyin etmə hüquqlarını"nın ermənilərə də aid edilməsiylə daha geniş vüsət aldı və ermənilər bu vəziyyətdən sui-istifadə edərək öz məkrli niyyətlərini həyata keçirməyə başladılar.

Erməni millətçilərinin öz planlarının həyata keçirilməsində erməni kilsəsinin fəaliyyəti olduqca səciyyəvidir. Hələ 1808-ci ildə çar I Aleksandr ruslara kömək məqsədi ilə apardığı casusluq fəaliyyətinə görə erməni kilsəsinin katolikosu Danieli birinci dərəcəli Müqqədəs Anna ordeni ilə təltif etmişdi. Rusiyanın Van və Ərzurumdakı baş konsulu Mayevski öz xatirələrində yazırdı: "Həqiqət ona görə yoxdur ki, erməni müəllifləri həmin həqiqətdən düşünülmüş şəkildə qaçırlar. Onların bütün fəaliyyəti ağlasığmaz, görünməmiş, hələ eşidilməmiş qəddarlıqlar uydurmağa əsaslanmışdır ki, başqalarında ermənilərə rəğbət, türklərə nifrət hissi yaransın."[64]

Erməni tarixçisi Nalbandiyan öz əsərində yazırdı. "Erməni kilsəsi erməni milləyyətçiliyinin görünən ruhudur."[65] İndiyə kimi erməni terrorçu təşkilatlarının tökdüyü qanlara qarşı erməni kilsəsi bir dəfə də olsun rəsmi olaraq öz etirazını bildirməmişdir.

---

[61] *Страбон.* География в 17-ти книгах./Пер. и прим. Г.А.Стратановского, М*осква*., 1964. S. 8

[62] Плутарх. Помпей, гл. XXXIV, Сравнительные жизнеописания. Пер. С.А.Стратановского, т. II, М.: 1963, с.548.

[63] *Б.Ишханян, «Народности* Кавказа», Санкт-Петербург, 1916. с. 27

[64] "Rusiyanın Van və Ərzurumdakı Baş Konsulu Mayevskinin xatirələri. Bakı:1994. s 28

[65] M. Nalbandian, «Recueil complet des oeuvres », tome I, Paris. 1986. 32.

Siyasi terroru özünün başlıca fəaliyyət metodu seçən «Hnçak», «Daşnaksutyun», «Armenakan», «Ramqavar» təşkilatları tərkibində onlar uydurma "Dənizdən-dənizə böyük Ermənistan" təbliğatını aparır və insanları saxta erməni xülyasına inandıraraq qanlı hadisələrə təhrik edirdilər.

"Türk, kürd, kim olursa olsun, vur, hər cür şəraitdə öldür!" şüarı ilə çıxış edən «Daşnaksütun» komitəsinin 1892-ci ildə qəbul edilən proqramında "Xalqı silahlandırmaq üçün bütün imkanlardan istifadə etmək və dəstələr yaratmaq"[66] başlığı altında xüsusi maddə var idi və bu maddə törədiləcək terror fəaliyyətləri üçün zəmin yaradırdı.

Azərbaycanın tarixi torpaqlarına yerləşdirilən və azərbaycanlıların qonaqpərvərliyindən istifadə edən ermənilər, XX əsrin əvvəllərindən etibarən Bakıda, Naxcıvanda, İrəvanda, Gəncədə, Zəngəzurda, Şuşada, Cəbrayılda azərbaycanlılara qarşı kütləvi qırğınlar törətdilər.

1903-cü ildə kilsə torpaqlarının Rusiya Torpaq və Əmlak Nazirliyinin sərəncamına keçirilməsi haqqında çıxarılan qanun kilsənin maliyyələşdirdiyi siyasi təşkilatların maddi vəziyyətinə zərbə oldu. Bu da öz növbəsində erməni terrorizminin genişlənməsinə, onlarda antitürk, antimüsəlman əhval-ruhiyyənin artmasına səbəb yaratdı. Erməni kilsəsi İrəvan və Eçmiədzində bu qanun əleyhinə qiyamlar təşkil etdi. Həmin il avqustun 29-da Gəncədə, sentyabrın 2-də Qarsda və Bakıda, sentyabrın 12-də Şuşada, oktyabrın 14-də Tiflisdə ermənilər iğtişaşlar və terror törətdilər.[67]

1905-ci ildə Rusiyanın özündə baş verən iğtişaşlar, çarizmə qarşı narazılıq dalğasının güclənməsi Zaqafqaziyada güclü əks-səda doğurdu. Bu qarışıqlıqdan ermənilər məharətlə istifadə etdilər. Rusiyanın hakim şovinist dairələri də zərbəni özlərindən yayındırmaq üçün ermənilərin antitürk, antimüsəlman kampaniyasını qızışdırırdılar. Qafqaz canişinliyinin yüksək rütbəli erməni və ermənipərəst məmurları vasitəsilə silahlandırılan erməni dəstələri 1905-ci ildə Bakıda, İrəvanda, Naxçıvanda, Zəngəzurda, Qarabaqda, Gəncədə, Tiflisdə və başqa yerlərdə yaşayan azərbaycanlılara qarşı silahlı hücumlar edir, həmin ərazilərdən onları təmizləməklə ermənilərin say üstünlüyünə nail olmaq istəyirdilər. Çünki həmin dövrdə Qafqazdakı 54 qəzadan yalnız beşində ermənilər çoxluq təşkil edirdilər. 1905-1906-cı illərdə Qafqazda erməni-müsəlman qırğınları haqqında polis departamentinin adı çəkilən sənədində deyilir: "Daşnaksütun" öz qüdrətini göstərdi, müsəlmanlar cəfasını çəkdilər. Burada ikili oyun oynanılmışdı: birincisi, müsəlmanlarda olan qisasın bir qismini almaq, digər tərəfdən baş verən hadisələrin günahını mətbuat və təbliğatın köməyi ilə rus hökumətinin üzərinə yıxmaq, bununla da təkcə erməniləri deyil, Qafqazın digər sakinlərini də inqilabçılaşdırmaq üçün güclü təbliğat materialı əldə edilmiş olurdu. Nəticədə ermənilərə münasib olmayan bir çox rus məmurları və ayrı-ayrı şəxslər terror qurbanı oldular: general Əlixanov qubernatorlar Nakaşidze, Andreyev, polkovniklər Bıkov və Saxarov və başqa dövlət məmurları (partiyanın hesabatından).[68] Onların qismən nail olduqları ikinci məqsədləri ondan ibarət idi ki, Zaqafqaziyada ermənilərlə müsəlmanların yaşadıqları ərazilər bir-birindən ayrıldı. Son 5-6 ildə onların sayı yarım milyona çatmış, 200 min nəfər isə rus idarələrinin vəkaləti ilə təbəəlik əldə etmişdi. Yelizavetpol, İrəvan və Qars vilayətlərində ərazilərin qismən ayrılmasına nail olunmuş, torpaqların müəyyən hissəsi boşaldılmış, həmin ərazilərdən bir çox müsəlmanlar qaçaraq canlarını qutarmışdılar".[69]

Bu qanlı hadisələr ilk mərhələdə 1907-ci ilin sonlarınadək davam etdi. Tarixi qaynaqlara əsasən demək olar ki, 1905-1907 və 1918-1920-ci illərdə ermənilər tərəfindən törədilən qanlı qırğınlarda təxminən yarım milyon insan, o cümlədən azərbaycanlılar, ləzgilər, avarlar, yəhudilər, kürdlər, talışlar və ruslar erməni terrorunun qurbanı oldular.

Azərbaycanda ermənilərin törətdiyi qırğınların səbəbini öyrənmək və ona siyasi qiymət vermək məqsədilə 15 iyul 1918-ci ildə Azərbaycan Xalq Cumhuriyyətinin Fövqəladə Təhqiqat Komissiyası yaradıldı.[70] *Ələkbər bəy Xasməmmədovun rəhbərliyi altında* qurulan, lakin tərkibi xarici ölkələrin nümayəndələrindən təşkil olunmuş bu komissiya bir il ərzində ermənilərin azərbaycanlı əhaliyə qarşı törətdiyi qırğınları fakt və dəlillər əsasında topladı və Paris sülh konfransına yollanan

[66] Erdal İlter, "Ermeni Propagandasının Kaynakları" Ankara 1994, s. 46
[67] Azərbaycan Tarixi, Sənədlər və Nəşrlər Üzrə, Bakı 1990, s. 17
[68] V. Arzumanlı, N. Mustafa, "Tarixin qara səhifələri-Deportasiya. Soyqırım. Qaçqınlıq." Bakı 1998, s. 24
[69] Daşnaki (İz Materialov Departamenta Politsii), Bakı 1989. s. 11
[70] *Abışov* V.Ş. *Azərbaycanlıların* soyqırımı (1917-1918-ci illər). Bakı, 2007, s. 125

Azərbaycan nümayəndə heyəti Avropa dillərinə tərcümə edilmiş həmin materiallardan ibarət 6 cild və 95 fotoşəkilin surətlərini böyük dövlətlərin başçılarına və beynəlxalq təşkilatlara təqdim etdi.

Bu gün də bu siyasət, soyqırım cinayəti davam etməkdədir. 1993-cü ildə BMT tərəfindən Ermənistan silahlı qüvvələrinin qeyd-şərtsiz Azərbaycan ərazilərini tərk etməsilə bağlı 4 qətnamə olmasına baxmayaraq Ermənistan dövləti hazırda bu mənfur siyasəti davam etdirməkdədir.

Ermənistanın hərbi təcavüzünə və vaxtaşırı terroruna məruz qalan Azərbaycan Respublikası öz haqq səsini, reallıqları dünya ictimaiyyətinə çatdırmağa çalışır, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin beynəlxalq hüquq prinsiplərinə uyğun ədalətli həlli üçün məqsədyönlü və ardıcıl iş aparır. Artıq aparıcı dünya dövlətləri, nüfuzlu beynəlxalq təşkilatlar da Azərbaycanın ədalətli mövqeyini qəbul edir və ərazilərimizin işğalı faktını etiraf edirlər.

Zaman ötür, illər dəyişir, ancaq erməni şovinistlərin xisləti dəyişmir. Onlar Qafqazdakı etnik müxtəlifliyə özlərinin məkrli niyyətlərini həyata keçirmək üçün vasitə kimi baxırlar. Ancaq dünya birliyi buna biganə qalmamalıdır. Çünki buna göz yummaq təcavüzün yayılmasına şərait yaratmaq deməkdir. Ksenofobiya, işğalçılıq və terror təkcə ayrı-ayrı millətlər üçün deyil, bütövlükdə insanlıq əleyhinə yönəlmiş mənfur əməllərdir. Bu isə sözün əsl mənasında bəşəriyyət üçün böyük təhlükədir!

**Xülasə**

Ərəblərin "Mavərayi Qafqaz", Avropalıların "Transqafqaz", Rusların "Zaqafqaziya" adlandırdıqları Qafqaz regionu Mərkəzi Asiyanı Avropaya bağlama xüsusiyyətinə görə həm qərb, həm də şərq ölkələrinin maraq dairəsindədir. Burada olan etnik müxtəliflik multikultural dəyərlər baxımından mənəvi zənginlik olmaqla yanaşı Qafqaza siyasi təsir göstərmək istəyən qüvvələr üçün önəmli faktordur.

**Резюме**

Этот Кавказский регион названный арабами «Мавараи Кавказ», европейцами «Транскавказ», русскими «Закавказье» из-за своей особенности связывать Восток с Западом входит в круг интересов как западных, так и восточных стран. Этническое разнообразие этого региона в аспекте мультикультуральных ценностей будучи моральным богатством, и вместе с тем является важной причиной для сил желающих оказать политическое влияние на Кавказ.

**Summary**

The region Caucasus called by different nations, such as by Arabs as "Mavarayi Caucasus", by Europeans "Transcaucasia", by Russians "Zacaucasus" is in the centre of interest both in the west and the east countries according to its character connecting the Central Asia with Europe. According to the ethnic variety multicultural values it is the important reason for the powers wishing to influence the Caucasus which has the spiritual richness.

**Ədəbiyyat:**

1.Azərbaycan Tarixi, Sənədlər və Nəşrlər Üzrə, Bakı 1990

2.Страбон. География в 17-ти книгах./Пер. и прим. Г.А.Стратановского, Москва., 1964

3.Плутарх. Помпей, гл. XXXIV, Сравнительные жизнеописания. Пер. С.А.Стратановского, т. II, М.: 1963

*4.Б.Ишханян*, «*Народности* Кавказа», Санкт-Петербург, 1916

*5.Abışov* V.Ş. *Azərbaycanlıların* soyqırımı (1917-1918-ci illər). Bakı, 2007

6."Rusiyanın Van və Ərzurumdakı Baş Konsulu Mayevskinin xatirələri. Bakı:1994

7.M. Nalbandian, « Recueil complet des oeuvres », tome I, Paris. 1986

8.Erdal İlter, "Ermeni Propagandasının Kaynakları" Ankara 1994

9.V. Arzumanlı, N. Mustafa, "Tarixin qara səhifələri-Deportasiya. Soyqırım. Qaçqınlıq." Bakı 1998

10.Daşnaki (İz Materialov Departamenta Politsii), Bakı 1989

**Galina Woodova PhD,**
**Charles University, Prague**

## LAHIJ 'TOGETHERNESS' THROUGH SHARING IN LIFE CYCLE EVENTS

***Key words:*** *Ismayilli, Lahij, unique, religious, ethnic, national*
***Açar sözlər:*** *İsmayıllı, Lahıc, unikal, ayin, millət, milli*
***Ключевые слова:*** *Исмаиллы, Лагидж, уникальный, церемония, нация, национальный*

This article expresses gratefulness to hospitable Azerbaijan, to AUL, which accepted me as a doctoral candidate and mostly for the open doors of Lahij. It reflects upon three years of exploring the Lahij identity through the fieldwork method of observant participation.[71] The resulting doctoral thesis was called "Lahij, Living Heritage of Azerbaijan". This study focuses on the close-knit community partaking in two key life events: wedding and mourning.

Azerbaijan emphasizes multiculturalism. Lahij is built in Eastern architectural style and surrounded by mountainous wilderness. The Lahij people, loyal Azerbaijani citizens, are bilingual in titular Azeri and an old variety of South West Iranian vernacular. The language of wider communication, Azeri, has mostly replaced the Tat language elsewhere[72]. Mountain Jews in the Quba region have kept 'Tat' alive, but call it Juhuri. The Lahijans call their mother tongue Loyishi according to their heartland. While related to Neo Persian (Farsi), Tajik and Dari, it has kept some archaisms from Middle Persian. Loyishi even contains some concepts from the oldest Iranian tongue, Avestan; it also became hybridized with Turkic Azeri and borrowed from Russian. The current tongue of religious instruction, for both boys and girls, is Arabic facilitating reading of the Quran. The settlement of Lahij craftsmen was thriving on the Silk Road. The coppersmith became a synonym for Lahij; however, many other kinds of trades and crafts are still practiced. When manufactured goods flooded the market, resilient craftsman tried to adjust their artifacts for tourism. Many young people leave home in search for jobs. Some parents predict that the patient daily work of skillful hands is becoming a forlorn trait. Nevertheless, Lahij, with its particular ethos as a whole, still functions as a living museum. Positive traditional values, attitudes and behavior, common to Turkic and Iranian lands of old, still characterize the Lahij ways. This is best illustrated by rites of passage such as weddings, births, circumcisions, homecomings of soldiers and sharing grief together.

While genuine community sharing and caring is based on a simple principle, it is disappearing in contemporary, urbanized settings. Though large crowds gather for Baku weddings, the events are impersonal and mass-produced. The Shadlik Sarai ('Palace of Happiness') gets rented for an occasion lasting but a few hours. This type of a chain restaurant is a neutral, public space, catered for by paid professionals on a background of loud music. Nevertheless, the Lahij society still draws together to share both joy and sadness in the warmth of their homes and courtyards.

A wedding[73] is considered the most auspicious occasion in Lahij. Starting a new family counts as one goal reached within the best will of God. Specific blessings are given for the happiness, fruitfulness and faithfulness of the couple. Purity before the wedding and exclusive intimacy of the couple is expected equally of all. The neighbors watch out for each other ensuring required decency.[74]A divorce or remarriage upon widowhood is still an exception.

An upcoming wedding is announced by a red ribbon tied above the gates of the two host families. A group of five local musicians, playing traditional instruments guide people through the

---

[71] The particular approach changed qualitatively from typical anthropological 'participant observation', through an attitude of a learner.

[72] For the sociolinguistics of local language attitudes see: Clifton J.M. Studies of Languages of Azerbaijan, Vol.2. North Eurasia Group SIL International and Institute of International Relations Academy of Sciences of Azerbaijan, St Petersburg and Baku, 2002.

[73] Rəcəbli gives more information on the customs of engagement, the groom's and bride's part in the wedding, and the main wedding ceremony in Azerbaijan in The Ethnography of Azerbaijan II, pp. 318- 331).

[74] Suleymanov, M. Azerbaycan Diyari Lahic [Lahij Frontier of Azerbaijan], Baku: Bilik, 1995.

order of events with their rhythms and melodies. Each person can help to create the atmosphere of the favorite celebration. Customarily, a male relative of the hosting family sits by the door marking each financial contribution. The concrete sum is recorded. The hosts are expected to return equal amounts to today's guests, who will in their turn host their family wedding. This reciprocity is a token of security or an investment toward the next shared event. In this way, even the poorest couple can afford a generous wedding reception.

Həmişə bə ərsi! (May you always be at a wedding!) This cheerful greeting resounds as people meet on the streets on the day of the wedding. The wedding traditionally consists of two consecutive parties: the girl's and then the boy's. Two seasoned women cooks prepare festive meals over an open fire in huge qəjqunhon (pots) placed on tripods. Traditionally they make bih dulma (minced meat in rice, wrapped in quince leafs) and oş pilov (rice pilaw with tenderly cooked cubed meat in fried onions, apricots, raisins and horse chestnuts). For celebrations, the museum provides an especially large, old, coal fueled samovar. The museum director Maarif serves freshly made hot black tea[75] in armudi stəkan (pear shaped glass).

Women arrange salads and wash unending piles of dishes. Girls step in as waitresses, carrying filled plates and drinks to the guests, who are seated on benches by tables in a courtyard. Little boys play games like tug-o-war. Guests bring on their heads xunçəhon, gift trays full of candies, home-baked goods like baklavo (a cookie filled with walnut and honey), şəkərbura (a moon-shaped, sugar filled cookie) and şəkərçörəyi (a heart shaped cookie tasting like a Scottish shortbread). Most copper or silver trays present gifts ordered by a bride such as new slippers, nighties, a bathrobe, sweaters, underwear, perfume, soap or makeup.

At the girl's wedding, the bride sits in front of the mirror with candles reflecting light. The ladies place long strips of red cloth around her neck while wishing her happiness. In a similar way, red cloths are presented to the bridegroom in his home, only without a mirror. Henna is used to decorate people's hands. These practices are about ensuring happiness.

Blessings are given for the happiness, fruitfulness and faithfulness of the couple. As people mingle, they express a desire to share in celebrating future weddings of their children and grandchildren. As they say "If God wills." The key wedding blessings are Xudo işmunə xoşbəxt sozı! (May God make you happy!), Bə ye co gər boşınd! (May you keep warm together!), Kük vo kilərə gərdınd! (May you raise boys and girls!) The hearers return a blessing –En tyiş boşı! (May it be that way for you, too!) Be elhöntı, be nəvəhontış boşı! (May your children and grandchildren also be happily married!) Bə ərsi kilontı! (At your daughter's wedding!) These blessings confirm a hope of sharing joy again.

During my stay in Lahij, in the summer of 2013, after a month of Ramazon fasting, the eagerly expected wedding of Camal and Nuriyə finally took place. It was the first one after the last Iftor (the breaking of the fast). The couple liked each other and had waited for five years to get married. Both sets of parents decided that the groom should get his degree in informatics first. Camal opened an Internet café and a photography shop on the main street. The bride worked in a cozy post office. Both were popular figures in Lahij.

The bridegroom's party was charged with an atmosphere of excitement. Friends expressed happiness through vigorous dancing in a circle around the groom. The musical quintet kept playing faster and faster as the culmination was approaching.

The procession waited for the sunset to fetch the bride from her parents' home. As soon as the darkness set in, the men rose and held the lit up torches high. The musicians led by playing, and the father and uncles of the groom and others followed. People would come out of their homes and greet each other joyfully Həmişə bə ərsi! (Always at a wedding!) Upon the arrival to the courtyard of the bride's home the procession chanted, "We are here, we are here, we have come to get the bride!"

Camal's father and relatives briskly walked up the stairs into the bride's parents' living room. An attractive, see-through, red veil 'covered' Nuriyə's face. When it was lifted, tears were rolling from her beautiful, highlighted eyes. For the bride, erus, it was a bittersweet moment. She could be

[75] People in Azerbaijan usually drink tea by sipping it through the sugar cubes between their teeth.

with her beloved at last, but she was overwhelmed with the sadness of goodbye. Fatil, the festive yellow sweet bread, was broken over the bride's head in hopes that her new family will always have food. The Quran, as a prominent holy book of today[76], was lifted over her head. Her brother-in-law tied and untied a red ribbon around the bride's waist three times.[77] She was given a round fatil with butter and honey, filling the hole the middle, to take to her new home. Then the bride took courage and left, carried away by the crowd. The road was teasingly blocked several times, and the neighbors demanded a toll from the newlyweds to let them pass.

As the party reached the groom's gate, a sheep qurbun (sacrifice) was sacrificed at the threshold. Through it, the groom's father was thanking God for the son's hamrah (spouse, meaning the one sharing the same path.) In the quiet yard, the wedding couple danced gently once together. Previously charged with expectation, the boisterous atmosphere turned thoughtful, almost meditative. And in the end the groom led his bride to the wedding chamber inside his father's house. Only the groom's relatives and the filmmaking friend were allowed to linger for a few moments. Behind the closed door, the bride put her honey-covered finger into the mouths of her new family members. This is to ensure sweet relationships.[78]

During the next wedding in the summer 2013, the bride was also accompanied from her home to the groom's. It happened when it was still light. When the groom's men came to pick her up, the breaking of fatil took place as well as the tying of a red string three times around her waist. Before leaving home the bride walked around the old-fashioned oil lamp three times. Two candles in copper candleholders shaped as birds were given to the couple to light their bedroom. The wedding custom of 'three rounds' was originally performed around the fire. In Altai it is still done that way, but fat is also poured into the flames ensuring warmth and love represented by the family hearth.[79] A departure of a loved one is another significant occasion for drawing together.

In 2013, during the month of Ramazon, three sudden deaths happened in Lahij. A younger brother of the storeowner drowned in the Caspian Sea; a father committed suicide; and another father's heart suddenly stopped, leaving behind a bedridden wife and two daughters. Three quite different tragedies, but the customary response was very similar and the group participation was intense. The traditions handling the event of death and grief worked like a well-oiled machine. Each part knew its time, place and function. Even though an unexpected blow overwhelmed many hearts, there was comfort in acting according to the customary routine.

Nəzər Mehlim, a master coppersmith, contributes his gift of stone carving to comfort the bereaved families. Upon receiving the sad news, he makes a burial stone right there and then, for free. He shared "Helping one another is a must, each needs to do what they can, that is what it means to be a man". The plots in the local cemetery are not sold; they are available for all former inhabitants of Lahij. Many stressful worries of how to pay and how to proceed with the painful process are thus taken care of by the community. The former status of the person does not make difference. He or she is a community member if they simply lived in Lahij. Their status, where they originally came from, what language they spoke does not make any difference. Even a person, who left this world through suicide is allowed a proper burial in Lahij.

People customarily greet the relatives of the departed: Xudo rəhmət sozı! (May merciful God grant rest). Similar to other religions, Islam forbids and condemns the premature ending of one's life, since it is seen as a gift from God. Muslims are unsure where the individual who ended his or her life will be in the life to come. This becomes apparent when they avoid the customary phrase. Instead they solve the situation by replacing it with: Xudo sabır tı! (May God give you patience and endurance) or Xudo təssəli tı! (May God comfort you).

---

[76] Throughout changing religions in Caucasus Albania it could have been Avesta, Tovrat or Injil in the distant past.

[77] Mary Boyce explained the ritual of Zoroastrian initiation, from Sasanian time, was done through tying and untying a cord three times around the waist of a believer. The responsibility passed on was for the right thoughts, words and deeds (Boyce 1987, p. 258-259; Boyce, 1992, p.84-85).

[78] This 'sweet' custom existed among other Caucasus people in Azerbaijan as well.

[79] This ancient ritual belonged to Irano-Turkic cultural complex. Zoroastrian Parsis in India practiced it until 17$^{th}$ century and the neighboring Iranian Zoroastrians until recent times.

When a mullah learns that someone has left this world, he first makes an announcement from the mosque over the intercom. All can hear, even if in the fields or mountain pastures. All men immediately drop whatever they are involved in and speedily rally around the bereaved family. After some silent time, they bury the departed one in the cemetery and pray for the eternal rest of the soul.

The process of parting with a loved one takes three days. The women's time to go to the house of mourning is at 10 o'clock in the morning. Women dress soberly in dark colors, wear clean socks and carry handkerchiefs to wipe their tears. The neighbors come out of their homes and join one another on the streets like little streams flowing together. Upon reaching the house they become one strong river. The customary greeting is: Şohri vinı! (May you yet see happiness!)

The women hug and kiss the relatives welcoming them. Then they proceed upstairs to the biggest rooms and veranda. Blankets, mattresses, sheets, and pillows to sit on cover the floors. Not many words are uttered. All the women sit down on the floor, side by side, trying to fit everyone in. Then one chosen, experienced, gifted woman singer starts to lead in singing a mərsiyə (tragic lament). Women in one coordinated movement use their right hand to slap their right thigh in a common rhythm, as if they share a heartbeat. It is a simple but meaningful expression of belonging and sharing with one another in a time of intense pain. While experiencing the impact of 'togetherness', one realizes that perhaps those meaningful moments shared together are what creates the essence of a close-knit community.

As women were leaving girls poured therapeutic rose water on the mourners' hands from a copper jug called gülob (flower water). The final words of future hope resounded around the courtyard and on the streets Şohri vinı! (May you see happiness yet!)

**Conclusion:** Lahij as a mountain sanctuary has kept some characteristics of old Iranian and Turkic lands. Lahijans claim Shia Islam for their present religious identity [80], simultaneously some signs of residual ancient Zoroastrian thought and rituals remain. The traditional values were observed through participation in community weddings and bereavement. Authenticity is what sets Lahij apart from an impersonal contemporary urban style. The spontaneous participation is lived out in the warmth of private homes and courtyards of Lahij. It is through drawing together that the reward of belonging to a close-knit community can be understood.

## Summary

The cultural landscape of Lahij has preserved old language, trades, crafts, and a way of life in a mountainous setting. As such it represents a living heritage of Azerbaijan, Turkey and Iran. The traditional Eastern values including reciprocity are best observed by participating in the life cycle events of the caring community. The drawing together to share both joy and grief is called 'togetherness.' In light of rapid loss of authenticity in our contemporary, urbanized, fast-paced life, sharing in one another's key events is a relevant theme to consider.

## Xülasə

Lahıcın mədəni landşaftı özündə yerli xalqın dil, xalq sənətləri, məişət və adət-ənənlərini birləşdirir. Burada Azərbaycan, İran və Türkiyəyə məxsus mədəni irsini görmək olar. Bu məqalədə gündəlik həyatın əsas hadisələri gedişində insanların arasındakı sevinc və kədər hisslərinin bölüşdürülməsi kimi dəyərlərin itirilməsi problemi araşdırılmışdır.

[80] From an interview and personal correspondence with muellim Dadash Aliev.

**Резюме**

Культурный ландшафт Лагича включает в себе язык, традиции народных ремесел и быт местного населения. Здесь можно увидеть культурное наследие Азербайджана, Турции и Ирана. В этой статье исследуется проблема потери ценностей связанных разделением чувств радости и печали между людьми на протяжении важных событий повседневной жизни.

**Literature:**

1.Aliev D. Personal correspondence, Lahij, 2016.
2.Boyce M. Zoroastrians. Their Religious Beliefs and Practices, London, New York, Routlege, 1987.
3.Boyce M. Zoroastrianism It's Antiquity and Constant Vigour. Costa Mesa CA and New York: Mazda Publishers, Bibliotheca Persica, 1992.
4.Bunyadov T. Azerbaycan Etnoqrafiyasi, vols.1-3 [The Ethnography of Azerbaijan], Baku: Sherq-Qerb, 2007.
5.Clifton J.M. Studies of Languages of Azerbaijan, Vol.2. North Eurasia Group SIL International and Institute of International Relations Academy of Sciences of Azerbaijan, St Petersburg and Baku, 2002.
6.Suleymanov M. Azerbaycan Diyari Lahic, [Lahij Frontier of Azerbaijan], Baku: Bilik, 1995.

**Şakir Albalıyev, filologiya üzrə fəlsəfə doktoru, dosent**
**AMEA Folklor İnstitutu, aparıcı elmi işçi**
**Azərbaycan, Bakı**

# NOVRUZ BAYRAMI TOLERANTLIQ ÖRNƏYİ KİMİ

***Açar sözlər:*** *Novruz, multikultural, sivilizasiya, din, irq*
***Ключевые слова:*** *Новруз, мультикультуральный, цивилизация, религия, раса*
***Key words:*** *Novruz, multicultural, civilization, religion, race*

Tədqiqatçı Niyaz Niftiyev "Azərbaycanda birgəyaşayış və multikulturalizm" əsərində yazır: "Azərbaycan müxtəlif etnik və dini qurumların ənənəvi dözümlülük və ahəngdar birgəyaşayışı üzərində qurulmuş və həyata keçirilən milli siyasətin aparıldığı çoxmillətli və çoxdinli ölkədir. Tarixən Azərbaycanda insanlar arasında milli, dini və irqi ayrı-seçkiliyə yol verilməmiş, tolerantlıq milli mentalitetimizə xas olmuşdur. Yüzilliklər boyunca Azərbaycanda dünya dinləri və millətləri sülh və əmin-amanlıq şəraitində dinc-yanaşı fəaliyyət göstərmişlər" (**s.14**).

Burada tolerantlıq amilini ölkəmizdə aparılan milli dövlət siyasəti ilə əlaqələndirən müəllif eyni zamanda tolerantlığı haqlı olaraq milli mentalitetimizin xarakterik əlaməti ilə də bağlayır. Doğrudan da, geniş qəlbə, saf təbiətə malik olan Azərbaycan xalqı yaranışından özgəsinə qarşı da, doğmasına, yadına qarşı da, qonşusuna qarşı da doğma və mehriban münasibətdə olmuş, özü ilə özgələri arasında dini və irqi ayrı-seçkiliklərə görə nifaq salmamış, əksinə insani meyarları üstün tutmaqla humanist prinsiplər əsasında dostluq, qardaşlıq ittifaqına girmişdir. Elə bunun da nəticəsidir ki, ta əzəldən Azərbaycan torpağında tolerant bir mühit hakim olmuş və bu sağlam ab-hava bütün dövrlərdə olduğu kimi, müasir zəmanəmizdə də xalqımızın mənəvi ruhunun tələbi və istəyi kimi dövlətimiz tərəfindən qorunmuş və müdafiə edilmişdir. 2016-cı ilin ölkə prezidenti İlham Əliyev cənabları tərəfindən "Multikulturalizm ili" elan olunması isə məhz mental dəyərlərimizin və dövlətçilik siyasətinin həmrəyliyinin bariz ifadəsidir.

Xalqımızın tolerantlıq ruhunun ifadəçisi kimi sonsuz sayda etnik-psixoloji amillərdən doğan mənəvi dəyərlərimizi misal gətirmək olar. Xalqımızın özü ilə yaşıd olan Novruz bayramımızın özündə də biz tolerantlıq ənənəsinin əski çağlardan çağdaş dövrümüzədək özünü yaşatdığının əyani şahidiyik.

"Azərbaycan türkləri çox əzəli çağlardan əcdadlarının yaranış və törənişi, əski maldar və əkinçilik görüşləri, zaman və fəsil anlayışları, bolluq və firavanlıq istəkləri ilə bağlı silsilə bayramlar yaratmışdır. Bu bayramları zaman keçdikcə daha əzəli ayin, etiqad, ənənə və mərasimlərlə, oyun və nəğmələrlə, yallı və rəqslərlə bəzəyib tarixin yaddaşına həkk etmişdir. Yüzilliklər dolabında türkün vətən və torpaq uğrunda cəngavərlik savaşlarında bu bayramların şirin nəğməsinin bəndi unudulanı da, rəngi solanı da, nəqşi pozulanı da olmuşdur. Lakin xalq bu bayramları unutmamış, zaman keçdikcə daha çoşqun bir yaradıcılıqla nəğməsinin pozulmuş ahəngini, sözünün unudulmuş bəndini cilalamış, onu mənəvi varlığının daha qüdrətli rəqsi, yallısı, oyunu, tamaşası ilə bəzəmişdir.

Türkün bayramları bayramdan-bayrama təzələnmiş, zinətlənmiş, daha geniş torpaqlara, uluslara, ölkələrə yayılmışdır. Türkün bayramına gələn qonşu ellər onun min bir adət-ənənəsini, mərasiminin özü ilə aparmış, türkün bayramının öz elində öz bayramı kimi qoruyub saxlamış və onu böyük təntənə və toy-büsatla keçirmişdir. Türkün belə böyük, ulu bayramlarından biri də hər il köhnə təqvimlə fərvərdin ayının 7-8-9-da, yeni təqvimlə mart ayının 20-21-22-də keçirilən Novruz bayramıdır".

Mərhum folklorşünas Azad Nəbiyevin bu fikirləri çox böyük mətləblərə işarə vurur. Türkün bayramının, adət-ənənə və mərasiminin qonşu ölkələrə aparılıb, orada onların öz bayramları kimi qorunub, böyük təntənə ilə keçirilməsi amili türk təfəkkürünün, türk mədəniyyətinin dünyadakı dominantlığı ilə izah olunmalıdır. Bəs bu dominantlıq hansı münasibətlə təzahür edir? Hər şeydən əvvəl, bu, türklərin bütün dünyaya mədəniyyət yayıcıları kimi yüksək nüfuzunun göstəricisidir. Bəli, türklər ta əski çağlardan bəşəriyyətə mədəni-mənəvi miraslar bəxş ediblər. Onların biri də yuxarıda Azad müəllimin də fikirlərində ifadə olunduğu kimi, Novruz bayramıdır. Novruz bayramı bir mədəniyyət hadisəsi kimi öz təsirini təkcə türk-islam dünyasında yox, digər dinlərdə və millətlərdə də göstərmişdir.

"Yəhudilərin "Pesah" dedikləri, xristianların "Pasxa" bayramı da mənşəyi baxımdan insanın təbiətə inandıqları dövrün dünyəvi yaz bayramının davamından ibarətdir. Novruz yeni il bayramı kimi qeyd olunur və Novruzun da rəsmi bayram kimi keçirildiyi qədim və orta əsrlərdə o, dini əfsanələrlə əlaqələndirilmiş və ona dini bir mahiyyət qazandırmağa cəhd göstərilmişdir.

İslama görə, Novruz bayramı Həzrəti Əlinin doğum, taxta çıxdığı və Fatimə ilə evləndiyi gün hesab edilir. Lakin bu bayram eyni zamanda Həzrəti Məhəmmədin peyğəmbərliyə məbus olduğu, Cəmşid padişahın Azərbaycanda taxta çıxdığı, Həzrəti Adəmin yaradıldığı, Yunus peyğəmbərin balığın qarnından çıxdığı və Nuh peyğəmbərin gəmisinin qayaya oturduğu gündür və s. Bu isə o deməkdir ki, Novruz bayramı özü VII əsrdə yox, daha qədimdə yaradılmışdır.

Novruz - "yeni gün", yeni ilin birinci günü deməkdir. Azərbaycanda yeni ilin Novruz adı ilə qeyd edilməsinin çox qədim tarixi vardır. E.Ə. VI əsrə aid olan qədim ədəbi abidə "Avesta"da ilin yeni günündə, Novruz bayramında təbiətin oyanması təsvir olunur" (**s.46-47**).

Fikir verin, yəhudilərin "Pesah" bayramı, xristianların "Pasxa" bayramı öz mənşəyini Novruz bayramından götürür. Bu isə bilavasitə onu göstərir ki, bizim Novruz bayramımız professor Azad Nəbiyevin də təbirincə desək, "daha geniş torpaqlara, uluslara, ölkələrə yayılmışdır", bunun da bir təzahürü bir milli hadisə qismində yəhudi mədəniyyətində "Pesah" bayramında, digər təzahürü isə dini zəmində xristian dünyasındakı "Pasxa" bayramı ilə müşayiət olunur. Deməк, Novruz bayramı həm millətləri, xalqları həmrəylik duyğuları altında birləşdirən, həm də dinləri bir-birilərinə yaxınlaşdıran-qovuşduran tolerantlıq örnəyi kimi bütün dünyada özünün iradəsini- mənəvi gücünü nümayiş etdirir. Novruz bayramı o dərəcədə cahanşümul əhəmiyyətə malikdir ki, onu bütün dinlər və dünyagörüşləri müxtəlif tərzlərdə özününküləşdirmə istəyində olmuşdur. Əgər İslam dünyasında Novruz bayramı Həzrəti Əlinin qırmızı geyinib taxta çıxdığı günlə, yaxud Həzrəti Məhəmmədə peyğəmbərliyin verildiyi günlə əlaqələndirilirsə və hətta bu münasibətlə Novruz bayramında İslam dünyasının haram buyurduğu içkinin içilməsi yasaq olunursa, bu, Novruzun təkcə türk dünyasında yox, həm də türk-islam dünyasında, bütövlükdə Şərq aləmində yayıldığını və insanları milli-dini birliyə - dünyadakı sabit əhval-ruhiyyəni, sülhü qoruyub saxlamağa xidmət edən Bayram olduğunu bir daha təsdiqləməkdədir. Eyni zamanda əgər Novruz bayramı, ümumiyyətlə, Adəm peyğəmbərin yaradılıb-xəlq olunduğu gün kimi düşünülürsə, bu fikir, bu ideya özü də birbaşa mifik-fəlsəfi-dini düşüncədə bütün bəşəriyyətin vahid babası sayılan Adəmin dünyaya gəldiyi gün kimi müqəddəs hesab olunur. Bu düşüncə özü də Novruz bayramının dinindən-dünyagörüşündən, irqindən-milliyyətindən asılı olmayaraq, tolerantlıq missiyası daşıyıcısı olduğundan xəbər verir, Novruz bayramının bütün dünya əhalisini bir müqəddəs bayraq altında – mərasim hadisəsi ətrafında birləşdirdiyini isbat edir. Novruz bayramının dinindən, irqindən, milli mənsubluğundan asılı olmayaraq qeyd edilməsi amili də məhz onun bu cür tolerantlıq əhval-ruhiyyəsini özündə əks etdirməsi səbəbi ilə izah olunmalıdır. Novruzun "Avesta"da öz əksini tapması da, orada onun astronomik hadisə kimi ilin yeni günü – təzə ilin başlanması günü kimi, təbiətin oyanış hadisəsi kimi qəbul olunması faktı isə bir tərəfdən Novruzun dünyəvi mahiyyətinə işıq salırsa, o biri tərəfdən isə həm də Novruzun zərdüştlərin dini abidəsi olan "Avesta"dakı dini nüfuza malik yüksək mövqeyini göstərməkdədir. Yəni dini kitabda- mənəvi-ədəbi abidədə müqəddəsləşdirilən Novruz bayramı dünyəvi əhəmiyyətli gün kimi də yüksək tutulmuşdur.

Novruzun Yunus peyğəmbərin balığın qarnından çıxdığı gün kimi, yaxud Nuh peyğəmbərin gəmisinin quruya çıxıb qayaya toxunduğu gün kimi və s. hesab edilməsi düşüncəsi də Novruzun bir mərasim – bayram hadisəsi olmaqla tolerantlıq səciyyəsi daşıdığının göstəricisidir. Belə ki, Yunus peyğəmbər, eləcə də bütün digər peyğəmbərlər də hamısı bütün dinlər tərəfindən birmənalı şəkildə müqəddəs sayılır. Bu isə özlüyündə həm də o mənaya gəlir ki, peyğəmbərlər hər bir din daşıyıcısı tərəfindən qəbul oldunduğu kimi, Novruz bayramı da mərasimi akt olmaqla dini tolerantlıq baxımından xüsusi əhəmiyyətə malikdir. Bu, həmçinin onunla izah olunmalıdır ki, hər bir peyğəmbər Allah elçisi olmaqla, öz üzərində bəşəri əhəmiyyətli bir missiya daşımaq üçün fəaliyyət göstərir, bu mənada peyğəmbərlərin həyatı bütün dünya insanları və bütün din mənsubları üçün bir əvəzolunmaz insanlıq örnəyidir. Əgər Yunus peyğəmbərin balığın qarnından çıxması bir peyğəmbərin nicatı, dünyaya gəlişini və insanlara özü ilə bir sevinc gətirəcəyini səciyyələndirirsə, demək, həmin gün hesab olunan Novruz bayramı da dini baxımdan böyük məhəbbət və ehtiramın mücəssəməsi hesab

olunur ki, bu da öz növbəsində insanlara dini tolerantlıq hissi nümayiş etdirməyə əsaslı stimul verir. Yəni Novruz bayramının tolerantlıq örnəyi kimi qarşılanmasının özəyində dini-mifoloji-fəlsəfi amillər dayanır.

Nuh peyğəmbərin gəmisinin dəryadan xilas olub quruya çıxdığı günə bağlanması düşüncəsi də Novruz bayramının xilasedici bir gün kimi insanlar arasında bayram edilməsi anlamına gəlir. Başqa sözlə, yeni gün anlamı verən Novruz bayramının mahiyyəti bəşəriyyətə, insanlığa xidmət məqamı ilə üst-üstə düşür. Özgə cür ifadə eləsək, Novruzun dünya xalqları və dünya dinləri arasında böyük sevgi ilə qarşılanmasının əsas səbəbləri bir tərəfdən dini məzmuna oturdulub hansısa bir peyğəmbərin, yaxud dini hadisənin adı ilə izah olunmasındadırsa, digər tərəfdən də Novruzun mahiyyətinin insanlara xilaskarlıq, firavan yaşayış bəxş etmək kimi mühüm funksiya daşımasında axtarılmalıdır. Çünki sadəcə dini baxımdan Nuh peyğəmbərlə əlaqələndirilməsinə görə yox, bu bayram həm də insanların Dünya tufanından xilas olunduğu günlə əlaqələndirilməsinə görə müqəddəs sayılır. Eləcə də dini nöqteyi- nəzərdən Adəm peyğəmbərin xəlq olunduğu bir müqəddəs gün kimi qələmə verilən Novruz bayramı bununla həm də dünyaya bəni-adəm övladının, yəni insanların bəxş olunduğu mübarək gün kimi dünyəvi düşüncədə özünə yer alır. Elə bu mənada simvolik bir həqiqət də vardır. Belə ki, Novruz bayramının yaşı elə bəşəriyyətin yaşı qədər qədimdir. Ona görə ki, Novruzu bir bayram kimi bəşər təfəkkürü yaradıb, formalaşdırmışdırsa, demək, onun bir bayram kimi – mübarək gün kimi Adəm peyğəmbərin xəlq olunduğu günlə əlaqələndirilməsində də bir fəlsəfi məntiq özünü göstərir. Yəni Adəm peyğəmbər – adəmlərin, bəni-insanların peyğəmbəri-bilicisi olub, yetkin təfəkkür sahibi olan bəşər nəslini özlüyündə simvollaşdırırsa, deməli, bu yetkin şüur səviyyəsinə malik bəşər nəslinin də özü ilə bərabər Novruz kimi cahanşümul əhəmiyyətli, bəşəri dəyərli bir bayramı yaratması təbii idi və bu iki amilin üst-üstə düşməsi də, eyni günə təsadüf etməsi də təsadüf yox, elə məntiqi zərurətin məhsulu idi.

Tədqiqatçı Kəmalə Osmanovanın dedikləri bu məqamda öz yerinə düşür ki, "Novruzun əsasında əski xalq mərasimləri dayanır. Dünya xalqlarının bir çox mərasimləri də belədir. Onlardan bəzilərinə dini mahiyyət qazandırılır və beləliklə də əski mərasim mədəniyyəti ilə dini adətlər birləşmiş olur" (**s.46**).

Bax beləcə, əski mərasim mədəniyyəti olan Novruz bayramı da dini adətlərlə - dini dünyagörüşü ilə qovuşub, iç-içə girmiş və nəticədə dünyəvi dəyərlərlə dini dəyərlərin birliyi kimi xalqlar, millətlər, dinlər arasında dostluğun, həmrəyliyin ifadəçisinə çevrilmişdir.

Doğrudan da, tədqiqatçı K.Osmanovanın xatırlatdığı kimi "Xristianlar və Musəvilər 20-25 dekabrdan romalıların Günəşin dönümü kimi qeyd etdikləri əski "saturnalı" bayramı, miladi təqvimin IV əsrində "Mövludi-İsa" bayramı kimi xristianlar tərəfindən qeyd edilməsi" kimi hallar eyni ilə bizim Novruz bayramına da müncər edilə bilər. Dünyəvi bayram kimi meydana çıxmış, əski xalq mərasimlərimizin əks-sədası kimi dünyaya yayılmış Novruz bayramı müxtəlif dini görüşlərlə də çarpazlaşmış və sülhün, multikultural dəyərlərin və dini tolerantlığın bariz örnəyinə çevrilmişdir.

Novruz bayramının "Yaran suvar" (Bahar bayramı) adı ilə ləzgilər tərəfindən də qeyd edilməsindən danışan mərhum ləzgi yazarı Əfruz xanım Rəhimova "Ləzgilərin bahar bayramı" adlı yazısında göstərir ki, "Bahar bayramı ləzgicə "Yaran suvar" adlanır. "Yar"- bahar, "suvar" isə bayram deməkdir. Ləzgilərin qədim çoxallahlılıq dinində "Yar" həm də münbitlik tanrısıdır.

Bayramın azuqəsi hələ payızda məhsul yığımından dərhal sonra ayrılardı. Hər ərzağın saxlanması üçün qab və xüsusi şərait olardı. Bəzi ərzaqlar "kandu"da (ərzaq saxlanan taxta qab, əsasən un üçün nəzərdə tutulur), taxta çəlləklərdə, bəzi ərzaqlar isə yerdə quyu qazılaraq "fur"da (taxıl, kartof qoyulmaq üçün qazılan yer), alma isə ayıdöşəyi döşənmiş zirzəmidə, qarpız, armud ot tayasının içində saxlanardı. Uzun müddət saxlanması mümkün olmayan meyvələr isə təndirdə xüsusi qablarda, "kalal"da (palçıqdan hazırlanan oval qab) qurudulardı. Məxsusi olaraq bahar bayramı üçün ayrılmış ərzaqlar "kandu"larda (taxtadan hazırlanmış qab) saxlanar, ağzı suvanar, küplər "xurx"la (küpün ağzını bağlamaq üçün dəri parçası) möhkəm bağlanardı. Evdə hamı bilirdi ki, bunlar ancaq bahar bayramı ərəfəsində açılacaq. Ehtiyat ətin xüsusi şəraitdə qurudulub "kaxaj" (qaxac) şəklində saxlanması üstün tutulardı" (bax: "**Azərbaycan – Elmi iş" (aylıq beynəlxalq elmi-nəzəri jurnal), №1 (38), xüsusi buraxılış. Bakı, 2015, s.31-32**).

Burada bir-iki incə məqamın üstündə dayanmaq istəyirəm. Birincisi, burada Novruz bayramı adı ilə təqdim olunan "Yaran suvar"- Bahar bayramı adındakı "yar"- bahar ifadəsinin həm də qədimdə ləzgilərdə münbitlik tanrısı olması dolayısı ilə də olsa, bayramın dini görüşlərlə bağlanılmasına işarə edir. Bu da, yuxarıda da qeyd olunduğu kimi, əski mərasimlə dini adətlərin birləşməsini burada da göstərir. Bu isə təbiidir, çünki mifik görüşlərlə səsləşən bu qədim xalq bayramına politeizm dövrünün qədim inanclarının da qaynayıb-qovuşması və bununla ilahiləşdirilməsi labüd proses idi. Əslində, burada bir təbii qanunauyğunluq da özünü göstərir. Belə ki, əski çağlarda insanların mifik görüşləri ilə dini inancları bir-birləri ilə qovuşuq – sintez halında idi. Novruzun mahiyyətində münbitlik- artım tanrısının dini-mifik səciyyədə iştirakı bir-birlərini inkar yox, tamamlayan, təsdiqləyən amillər kimi çıxış edirlər. Bu məsələ də Novruzun dini- tolerantlıq mücəssəməsi kimi özünü göstərməsini şərtləndirən hallardan hesab olunmalıdır.

O ki, qaldı ləzgilərdə bayram azuqəsini hazırlamağa payız mövsümündən başlanması amilinə, bu fakt özü isə dolayısı ilə də olsa, Novruzun təkcə bir fəsillə- yaz, bahar fəsli ilə məhdudlaşmadığını, Novruzun mövsümi sərhədlərinin payızı da, qışı da əhatə etdiyini göstərməkdədir. Bundan başqa, Novruz bayramına tədarük üçün görülən ərzağın saxlandığı qabın ləzgicə "kandu" adlanmasına, yaxud qurudulmuş ətin ləzgicə "kaxaj" (qaxac) adlanmasına, bu sözlər də qədim türk- Azərbaycan sözləri olub, Novruz bayramının özü kimi, Azərbaycan dilindən və mədəniyyətindən başqa xalqlara kompleks halında transformasiya olunmasını göstərir. Belə ki, Cəbrayıl rayonunun Dağ Tumas kəndindən olan yazıçı-publisist Nazir Çərkəzoğlunun "Gəyən düzü" romanında da belə bir cümləyə rast gəlirik: "Kəndlilər əməkgününə düşən taxılı kəndilərə, çuvallara, bardanlara doldurub qışa ehtiyat görürdülər" **("Xudafərin" qəzeti, № 3-4 (6765-6766**). 21 mart 2016-cı il). Buradakı "kəndi" ifadəsi ilə ləzgicə işlənən "kandu" sözü, eləcə də ət qurusu olan "qaxac" sözü ilə "kaxaj" sözü eyni ifadələrin fonetik variantlarıdır. Bütün bu kimi dil faktları bir daha onu göstərir ki, mövsüm mərasimi olan Novruz adət-ənənələrimiz başqa xalqların həyatına, məişətinə daxil olduğu kimi digər onunla bağlı olan məişət avadanlıqlarımızın da adları tərcüməsiz-filansız həmin xalqların danışıq dilinə daxil olmuşdur.

Professor Cəlal Qasımov Novruz bayramının dini baxışlarla qaynayıb-qarışmasından danışaraq göstərir ki, "Qədim Novruz ritual-mifoloji kompleksi daha sonralar müxtəlif dinlərə nüfuz etmiş, fərqli dini-ideoloji baxışlara qarışmışdır. Belə hesab edirik ki, Novruz bayramı tarixən mövcud olduğu transmilli məkan-zaman sistemində, əsasən, bir çox əhəmiyyətli mifoloji-dini, dini-ideoloji baxışların, dünyagörüşü sistemlərinin içərisindən keçmişdir" (**səh.117**).

Məsələyə bu cür geniş rakursdan baxan alim daha sonra fikirlərini tezis şəklinə salıb, ümumiləşdirmə aparmaqla, belə bir sistemə salır:

"Müasir dünyada kəmiyyət və məzmun göstəricilərinə görə son dərəcə zəngin semantik struktura malik olan Azərbaycan Novruz bayramının simvolikasını, atributlar sistemini aşağıdakı mifoloji, dini sistemlərdə və dini-mifoloji dünyagörüşlərində axtarmaq məqsədəuyğundur:

1. Şamanizmin (şamançılıq dini, şaman mifoloji təsəvvürlər sisteminin) nümunəsində əski türk mifoloji animistik dünyagörüşündə;
2. Əsas göstəricilər səviyyəsindən monoteist din səviyyəsinə qalxmış və Avropa tədqiqatçılarının "tanrıçılıq" ("tenqrianstvo") adlandırdıqları dinin nümunəsində türk dini-milli dünyagörüşündə;
3. Semantik mahiyyətinə görə politeizmə dayanan zərdüştiliyin nümunəsində əski Azərbaycan və İran ərazisində yaşayan etnosların qədim mifoloji-dini dünyagörüşündə;
4. Peyğəmbəri (vəhy daşıyıcısı) Musa (ə.) olan yəhudiliyin nümunəsində bu dini qəbul etmiş xəzər türklərinin dini-mifoloji dünyagörüşündə;
5. Peyğəmbəri (vəhy daşıyıcısı) İsa (ə.) olan xristian dininin nümunəsində bu dini qəbul etmiş türk xalqlarının dünyagörüşündə;
6. Peyğəmbəri (vəhy daşıyıcısı) Məhəmməd (s.) olan İslam dininin nümunəsində Azərbaycan və başqa müsəlman türk xalqlarının dini dünyagörüşündə" (**səh.118**).

Görkəmli alim Cəlal Qasımovun bu müddəalarından da bir daha açıq şəkildə Novruz bayramının dini tolerantlıq örnəyi olduğu aydın görünür. Əlbəttə, bu tolerantlıq Novruz bayramının bəşəri məzmun kəsb edən yüksək mənəvi ölçüləri özündə daşıması ilə əlamətdardır.

### Xülasə

Məqalədə türk dünyasının bəşəri əhəmiyyətli bayramı olan Novruz bayramından, onun multikultural dəyərlərindən danışılır. Eyni zamanda təkcə dünyanın mədəni sivilizasiyalarını ənənə baxımından birləşdirən bayram kimi yox, həmçinin müxtəlif dinlərin, irqlərin ortaq bayramı kimi də qeyd edilir. Məqalədə göstərilənlər əyani faktlar əsasında, ayrı-ayrı dinlərə və irqlərə mənsub olan xalqların adət-ənənələri, mərasimləri kontekstində nəzərdən keçirilir.



### Резюме

В статье рассказывается о празднике Новруз имеющей национальное значение во всем тюркском мире, и о его мультикультуральных ценностях. А так же этот праздник отмечается не только с точки зрения традиций объединяющих цивилизацию мировой культуры, но и как общий праздник различных религий и рас. В данной статье на основе убедительных фактов рассматриваются обряды, обычаи и традиции народностей, относящихся отдельным религиям и расам.



### Summary

In the article it is said about the Novruz holiday which is the very important in Turk world and its multicultural values. At the same time it is celebrated not only as the holiday connecting the cultural civilizations of the world due to the tradition, but also as the common holiday of the different religions and races. In the article the traditions, ceremonies belonging to the different religions and races are looked through on the base of facts.


### Ədəbiyyat:


1) Niyaz Niftiyev. Azərbaycanda birgəyaşayış və multikulturalizm. Bakı - 2015
2) Kəmalə Osmanova. Xalq mərasimləri və nəğmələri. Bakı-“Elm və təhsil”-2014
3) Azərbaycan – Elmi iş (aylıq beynəlxalq elmi-nəzəri jurnal), №1 (38), xüsusi buraxılış. Bakı, 2015
4) “Xudafərin” qəzeti, № 3-4 (6765-6766), 21 mart 2016-cı il
5) Cəlal Qasımov. Azərbaycan folklorşünaslığı və sovet totalitarizmi. Bakı-“Nurlan”-2011
6) Azad Nəbiyev. Azərbaycan xalq ədəbiyyatı (dərslik). Bakı-“Turan” nəşrlər evi-2002